Manya Səxavətqızı

# Vətən Fədailəri

## Naxçıvan şəhidləri

I hissə



Manya Səxavətqızı

# VƏTƏN FƏDAİLƏRİ

## *Naxçıvan şəhidləri*
## *I hissə*

Bakı-2021

Redaktor: Manya Səxavətqızı
Dizayner: Gülnarə Əliyeva
Komputer səhifələyici: Elçin Babayev
Layihə rəhbəri :Manya Səxavətqızı
Maliyyə dəstəkçisi: Bəhruz Məmmədov

Manya Səxavətqızı. Vətən fədailəri
"Orxan"NPM. Bakı-2021 səh 560

*"ŞƏHİD VƏTƏN ƏSİRİ, VƏTƏN ŞƏHİD ƏSƏRİDİ."*

***Qeyd: Kitabda yazılan bütün məqalələr şəhidlərin ailələrindən alınan məlumatlar əsasında yazılıb.***

*İSBN 978-9952-37-612-8*



## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ TARİXİNƏ BAXIŞ

Tarixi qədimdən qədim olan Naxçıvan nəinki Azərbaycanda, eləcə də bütün dünyada qədimliyi ilə seçilir. Hər künc - bucağı tarix qoxan Naxçıvan insanların ilk məskən saldığı yerlərdən biridir. Hər kəndi, hər şəhəri bir tarix olan, keçmişini, qədimliyini bu günümüzə qədər qoruyub saxlayan bu uca, qoca yurdun adı da bir tarixdir. "Naxçıvan" sözünün mənası müxtəlif zamanlarda, müxtəlif alimlər tərəfindən fərqli şəkillərdə izah edilib. Çox zaman xalq arasında səslənən "Nəqşi cahan" yəni "dünyanın naxışı" mənasını verən bu sözə tarixə nəzər saldıqda tez – tez rast gəlinir. Daha bir geniş yayılmış adı isə "Nuhçuvandı". Rəvayətə görə Nuh peyğəmbər Allahdan yer üzünü su basacağı barədə xəbərdarlıq almış, bir gəmi hazırlayıb ailəsini və hər canlıdan birini o gəmiyə yığmışdı. Hərəkətdə olan gəmi Naxçıvanın Gəmiqaya adlanan ərazisində lövbər salmışdı. Rəvayətə görə Nuh peyğəmbərin məzarı Naxçıvandadır. Həmin məzar olan yerdə türbə inşa edilmiş və həmin yer ziyarətgaha çevrilmişdir.

Naxçıvan əzəli və əbədi Azərbaycan torpaqlarıdı. Bunun sübutu Azərbaycanın qədim tarixinin əks olunduğu "Kitabi-Dədə Qorqud" dastanlarında da öz əksini tapmışdır. "Kitabi-Dədə Qorqud" dastanlarında Naxçıvanın qədim oğuz-türk torpaqlarından biri olduğu aşkaranə şəkildə vurğulanmış, Naxçıvanda ermənilərlə bağlı heç bir toponimin izinə rast gəlinməmişdir. Bu tarix ermənilərin sonradan Naxçıvana köçürülməsini sübut edir.

Ermənilər Çar Rusiyası tərəfindən Naxçıvana köçürülüb. Torpaqlarımızda məskunlaşmaqla kifayətlənməyərək ermənilər azərbaycanlılara qarşı soyqırımlar törətməklə, etnik təmizləmə siyasəti aparmaqla Naxçıvanı özününküləşdirməyə çalışmışdılar. 1905-ci ildə yerli azərbaycanlılara qarşı törədilən qırğınlar, soyqırımlar Naxçıvanın həm əhali sayına, həm də iqtisadiyyatına ciddi zərər vurmuşdu.

Sovet Rusiyasının tək bir məqsədi var idi. Naxçıvanı Azərbaycandan qoparmaq. Bunu isə ən "gözəl" şəkildə qaniçən ermənilərin əli ilə edə bilərdilər. Axı onlar hər hiyləni, insanlığa sığmayan hər vəhşiliyi törətmək iqtidarındadır. Elə də oldu. Ermənilər Azərbaycanın bir çox əraziləri ilə

yanaşı Naxçıvanda da dəhşətli soyqırımlar törətmişlər. 1918-ci ildə Şaumyanın dəstəyi ilə bir qrup silahlı dəstə Naxçıvanda heç bir insanlığa sığmayan vəhşiliklə insanlara divan tutmuş, tək Ordubad rayonunda 2000-dən artıq türk qətlə yetirilmişdi. Bu vəhşilikdən canını qurtarmaq istəyən 300-dən artıq yerli əhali Araz çayını keçmək istəyərkən boğulmuşdu.

1919-cu ilin may – iyul aylarında "erməni idarəçiliyi" müddətində 600 nəfərə yaxın dinc sakin həbs olunmuş, təqribən 150 nəfərə isə dəhşətli işgəncələr verilmişdi. Artıq yerli əhali bu olanlardan təngə gəlmiş, sonlarını düşünmədən üsyan qaldırmışdılar. Bu üsyan nəticəsində erməni silahlıları bölgədən çıxarılmış və bir müddət soyqırımların qarşısı alınmışdı.

Ermənilərin çirkin planı Azərbaycanın hər yerində həyata keçirilirdi. Zəngəzur və İrəvanda da əhaliyə qarşı vəhşiliklər törədən mənfur düşmən onları yurd – yuvalarından didərgin salmışdı. Həmin bölgələrin camaatı da Naxçıvana sığınmışdı. Onsuz da çətin vəziyyətdə olan Naxçıvan bir də qaçqınların axını ilə üzləşmişdi.

Tarixi qədim olan Naxçıvanın yaraları da dərindi. O tarixin hər səhifəsində bir qanlı soyqırımın izi var. O soyqırımlardan biri də 1920-ci ildə Zəngibasar-Vedibasar-Şahtaxtı-Şərur istiqamətində törədilib. Naxçıvanın qan gölünə döndüyü o faciədə Zəngibasarda 50-yə yaxın kənd yerlə yeksan edilib. 18 gənc qız əsir götürülüb. 400 uşaq, 150 qoca qadın və kişi öldürülüb. 100-dən çox insan diri – diri yandırılıb. 800-dən çox qaçqın Araz çayını keçmək istəyərkən boğulub. 160000 nəfər Cənubi Azərbaycana köç edib. Vedibasarda törədilən vəhşiliklər də Zəngibasardan geri qalmayıb. 118 kənd yandırılıb. 900-dən çox insan qətlə yetirilib, 6 qadın əsir götürülüb. Dərələyəzdə 74, Şərur və Şahtaxtıda 76 kənd yandırılıb. Şərurda törədilən vəhşətin bir adı var. Gecə gələn ölüm. 800-dən artıq insanın yatdıqları yerdə xüsusi amansızlıqla qətlə yetirilməsinin, 144 qadının əsir götürülməsinin vəhşətdən başqa bir adı yoxdur.

Ermənilərin Naxçıvanda törətdikləri soyqırımları saymaqla bitməz. 1918-21 – ci illərə nəzər saldıqda 73727 günahsız naxçıvanlının qətlə yetirildiyinə şahid oluruq.

1921-ci ildə əhalinin Naxçıvanın Azərbaycanın tərkibində qalmasını qətiyyətlə tələb etməsi nəticəsində Moskva – Qars müqaviləsi imzalanıb və Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusu verilib. La-





kin qonşu ölkələrin torpaqların zəbt edib "Böyük Ermənistan" yaratmaq fikrindən əl çəkməyən düşmən çirkin əməllərindən daşınmayıb, zaman – zaman naxçıvanlılara qarşı vəhşiliklər törədib.

Naxçıvan Muxtar Respublikasının tarixi iki dövrə ayrılır.

1. Sovet dövrü (1924-1991-ci illər);
2. Müstəqillik dövrü (1991-ci ildən yaşadığımız günlərədək).

Naxçıvan Muxtar Respublikası yarandıqda onun sahəsi Naxçıvanın tarixi ərazisinin yalnız 5.988 kv.km-ni əhatə edirdi. 1921-ci il Moskva və Qars müqavilələrinin qərarlarına zidd olaraq ermənilər yenə də Naxçıvana qarşı ərazi iddiaları irəli sürərək özününküləşdirməyə çalışmışlar. Nəticədə Muxtar Respublikanın ərazisi daha da azalmışdı. Hazırda Naxçıvan Muxtar Respublikasının ərazisi 5.365 kv.km-dir. Bu Azərbaycan Respublikası ərazisinin 6,2%-nə bərabərdir.

1968-1969-cu illərdə ermənilər yenidən fəallaşaraq Azərbaycana qarşı yeni ərazi iddiaları irəli sürmüşdü. Düşmənin xisləti heç də dəyişməmişdi. Lakin bu dəfə onların qarşısında Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev kimi dahi bir şəxsiyyət var idi. O, ermənilərin bu planlarının reallaşdırılmasına imkan verməmişdi.

1970-1980-ci illərin əvvəllərində Naxçıvanın sosial-iqtisadi, siyasi və mədəni həyatında böyük dirçəliş baş vermişdi. Bu dövrdə SSRİ və Azərbaycan SSR Konstitusiyalarına uyğun olaraq, Naxçıvan MSSR-in də yeni Konstitusiyası (1978-ci il) qəbul edilmişdi.

Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildiyi illərdə SSRİ-nin iqtisadi, sosial və mədəni həyatının ən mühüm sahələrinə rəhbərlik etmişdi. Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə ermənilərin Azərbaycan torpaqlarını işğal istəkləri baş tutmasa da 1985-ci ildə Heydər Əliyev rəhbərlikdən uzaqlaşdıqdan sonra düşmənin yeni ərazi istəkləri baş tutmuşdu. Həmin vaxt Azərbaycanın qədim Naxçıvan torpaqlarının bir qismi Ermənistana verilmişdi.

1987-ci ildə Heydər Əliyevin SSRİ-nin rəhbərləri sırasından kənarlaşdırılması sankı Ermənistanın dəyirmanına su tökmüşdü. İllərdi gözü füsunkar Dağlıq Qarabağ torpaqlarında olan düşmənin işğalçılıq siyasəti həmin ərazilərdə də açıq – aşkar görünməyə başlamışdı. Qarabağda yaşa-

yanlara qarşı törədilən vəhşiliklərin sayı günbəgün artsa da dünya bunu görməzdən gəlmişdi. Həmin illərdə nəinki Naxçıvan, eləcə də Qarabağ, Bakı və s. şəhərlərdə qətliamlar törədilmişdi.

1990-cı il yanvarın 19 – da erməni qəsbkarları Naxçıvana hücum etmiş və bir neçə nəfər şəhid olmuşdu. Həmin günün gecəsi Sovet Ordusu Bakıda insanlığın üz qarası olan "Qanlı yanvar" faciəsini törətmişdi. Azərbaycanın düşmən tərəfindən yağmalandığı, talandığı o günlərdə Heydər Əliyev vətənə dönmüş və Azərbaycanın xilaskarı olmuşdu. Həmin zamanlarda istər Bakıda, istər Qarabağda, istərsə də Naxçıvanın Sədərək rayonunda baş verən qanlı iğtişaşlar zamanı yüzlərlə azərbaycanlı qətlə yetirilmiş, bir milyondan çox yerli sakin yurd – yuvalarından didərgin salınmışdı. Həmin o vaxtlarda Sədərəyin Kərki kəndi düşmən tərəfindən işğal olunmuşdu. Düşmən həmin zaman Sədərəyi top atəşinə tutmuşdu. Onlar Sədərəyi qısa zamanda işğal edəcəklərini düşünsələr də sədərəklilərin iradələrini qıra bilməmişdilər. Dağılan evlərindən bir addım belə uzaqlaşmayan yerli camaat vətənin qeyrətli oğullarına mənəvi güc vermiş,vətən oğulları Sədərəyi düşməndən müdafiə etmişlər. Tarix boyu ermənilərin işğalçı siyasətinə, təcavüzünə məruz qalan Naxçıvanın Sədərəyi qəhrəman oğulları sayəsində sinəsindən dərilməmişdi.

1991-ci il sentyabrın 4-də Naxçıvanda tarixi bir an gerçəkləşdi. Heydər Əliyevin etirazına baxmayaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Heydər Əliyevi özünə sədr seçdi. Beləcə Naxçıvanda Sovet hakimiyyəti rejiminə son qoyuldu. O dönəm nəinki Naxçıvanın, bütün Azərbaycanın çiçəklənmə dövrü başladı.

Bir zamanlar ulu öndər Heydər Əliyev "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük amildir. Biz bu amili qoruyub saxlamalıyıq!" demişdi. Bu gün onun layiqli davamçısı İlham Əliyev ata vəsiyyətini həyata keçirdi. İllərlə aparılan uğurlu siyasətin nəticəsində 2020-ci ildə Qarabağın azad olunması ilə Azərbaycan bütövləşdi. Bütün dünyanın heyrətlə izlədiyi 44 günlük zəfər bir xalqın birliyini, əzmini, gücünü gözlər önünə sərdi.

44 günlük zəfərin təməli 2016-cı ildə qoyulmuşdu. 4 il öncə Azərbaycan Ordusu illərdən sonra işğal altında olan torpaqlarımızın bir qismini azad etmişdi. Lələtəpə, Cocuq Mərcanlı, Seysulan, Talış kəndlərinin düşməndən azad olunması Qarabağa açılan qapının aralanması demək idi. Həmin o döyüşlərdə Naxçıvan vətənə iki şəhid qurban vermişdi. Aprel döyüşlərindən cəmi 1 il sonra isə Fevral döyüşlərində Naxçıvan torpağı yenə bir şəhid övladını bağrına basmışdı.





Günü-gündən güclənən Azərbaycan Ordusu düşmənə lazım gələn zamanda məğlubiyyəti daddırmışdı. 2018-ci ildə Azərbaycan hərb tarixində önəmli bir qalibiyyət kimi həkk olunan Günnüt əməliyyatı zamanı Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu düşməni məğlubiyyətə uğratmışdı. Mayın 20-dən 27-nə qədər Ermənistan ordusunun yenidən Naxçıvan Muxtar Respublikası istiqamətində atəşkəsi pozması nəticəsində Əlahiddə Ümumqoşun Ordusu əks-həmlə əməliyyatına başlamışdı. Həmin vaxt Şərur rayonunun Günnüt kəndi, Ağbulaq yüksəkliyi, Qızılqaya dağı, Qaraqaya dağı azad olunmuş, Dərələyəz mahalının Arpa kəndi Azərbaycan Ordusunun nəzarəti altına keçmişdi. Bu isə Gorus – Laçın avtomobil yoluna nəzarət etməyə imkan yaratmışdı. Ordumuzun bu gün qazandığı uğurların təməli dünənlərdə qoyulmuşdu. Həmin döyüşlərdə Naxçıvan torpağına yenə şəhid qanı damlamışdı. Ulu Naxçıvan qəhrəman oğulları sayəsində bu günlərə gəlib çıxmışdı.

Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə çiçəklənməyə başlayan Naxçıvan Muxtar Respublikası Azərbaycanın dilbər guşələrindən biri sayılır. Hal-hazırda NMR-nın Ali Məclisinin sədri Vasif Talıbov naxçıvanlıların rifahının yaxşılaşdırılması üçün önəmli addımlar atır. Xüsusən şəhid ailələrini, qaziləri diqqətdən kənarda saxlamır. Vasif Talıbov Vətən müharibəsi zamanı da atdığı addımlarla Prezident İlham Əliyevin "Dəmir yumruq" kimi birləşmək prinsipini bir daha gözlər önünə sərmişdi. Bu birlikdən əzm, əzmin gücündən isə zəfər doğmuşdu.

## ZƏFƏRİN 44 ANI

Vətən torpaqları neçə illər idi ki, həsrətdən cadar – cadar olmuşdu. Daha nə vətən bu həsrətə tab edə bilmirdi nə də vətəndaşlar. Hər bir qeyrətli oğul vətənə ümid olmaq üçün addımlar atırdı. Qeyrətli vətən oğullarını yetirən Naxçıvan torpağının məğrurluğu, yenilməzliyi mərd oğullara sirayət etmişdi. Bu yurdun havasını udan qəhrəmanların amalı bir idi. Azad Qarabağ.

Qarabağın azadlığına qanı ilə cığır açan qəhrəmanların yolunu davam edən ərənlər Qarabağın azadlığını bərqərar etdilər. Bu azadlıq asan başa gəlmədi. Ümidlər, əzalar, ömürlər fəda edildi bu azadlığa. 27 sentyabr 2020-ci ildən başlayaraq Qarabağ adlı ümidlərimiz qönçələməyə başladı. Həmin o azadlıq yolunu gedən oğullar arasında Naxçıvanın qəhrəman oğulları da hünər göstərdi. Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun Xüsusi Təyinatlı Qüvvələri düşməni lərzəyə gətirdi. Öndə gedən qəhrəmanlar düşmənin illərlə tikdiyi "keçilməz səddləri" darmadağın edib, hər ötən gün azad etdikləri kəndlərin, şəhərlərin sayını artıraraq bütöv Qarabağın azadlığı xəyallarını gerçək etdilər. Bir zaman düşmən tapdağı altında inləyən torpaqlar azadlıq sevincinə qərq oldu. 30 ilin həsrəti 44 günlük mübarizənin sonunda Zəfərlə nöqtələndi. Ümummilli lider Əliyev Heydər Əlirza oğlunun layiqli davamçısı Prezident Əliyev İlham Heydər oğlunun uğurlu siyasəti, Azərbaycanın güclü və rəşadətli Ordusu, Azərbaycan xalqının əzmkarlığı nəticəsində Qarabağın qollarından işğal qandalı söküldü. Yumruq kimi birləşən Azərbaycan xalqı "Dəmir yumruq" əməliyyatı ilə düşməni məhv etməyə nail oldu.

27 sentyabrda Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri, Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri, Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklər Azərbaycan Ordusunun düşmən işğalından azad etdiyi ilk ərazilər oldu. Azərbaycan xalqı illərdən sonra vətənin azadlıq sevincinə qərq oldu. Eyni zamanda vətən qurbanı olan şəhidlərimizin gəlişi bütün xalqın ürəyin dağladı. Bir gözümüz güldü, bir gözümüz ağladı.

3 oktyabrda Tərtər rayonunun Suqovuşan və Talış kəndləri, Cəbrayıl





rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq kəndləri, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi azad olundu. Hər ötən gün azad olunan ərazilərin miqyası genişlənir, düşmən məğlubiyyətə uğrayırdı.

4 oktyabrda Cəbrayıl şəhəri və rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Decal, Mahmudlu, Cəfərabad kəndləri də azadlığa qovuşdu. Artıq hər ötən gün Azərbaycan Ordusu Qarabağ arzularına qovuşur və qovuşdururdu.

5 oktyabrda Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndlərindən gələn azadlıq müjdəsi ümidləri bir qədər də doğrultdu.

9 oktyabrda Xocavənd rayonunun Hadrut qəsəbəsi və Sur kəndi, Cəbrayıl rayonunun Qaracallı, Süleymanlı, Əfəndilər və Qışlaq kəndləri, Füzuli rayonunun Yuxarı Güzlək, Gorəzilli kəndləri, Tərtər rayonunun Çaylı kəndinin azad olunması ilə Azərbaycan Ordusunun düşmən üzərindəki qalibiyyəti bir daha sübut olundu.

14 oktyabrda azadlıq sədası Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu kəndləri, Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndlərindən gəldi.

15 oktyabrda Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri, Füzuli rayonunun Arış kəndi, Cəbrayıl rayonunun Doşulu kəndi də azadlığa qovuşdu.

16 oktyabrda Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndlərinə illərdən sonra azərbaycanlı igidlər qədəm basdılar.

17 oktyabrda Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri öz azadlığına qovuşdu. Demək olar hər gün Azərbaycan xalqı zəfər müjdəsi ilə sevinirdi.

İllərdi Qarabağ həsrəti ilə keçən «Müstəqillik Günü» 2020 - ci ildə tarixi bir hadisə sayılan Xudafərin körpüsü üzərində Azərbaycan bayrağının ucaldılması ilə tarixdə qaldı.

19 oktyabrda Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndlərinin azad olunması bütöv Qarabağ arzularımıza doğru atılan daha bir addım olub.

Addım-addım zəfərə doğru irəliləyən Ordumuz 20 oktyabrda Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhərini, Füzuli rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı kəndləri, Cəbrayıl rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndlərini, Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Noraşen), Çinarlı (Vəng) kəndlərini də azad etdi.

21 oktyabrda Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndləri, Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndləri, Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndləri də azad olunan ərazilər siyahısına əlavə olundu.

22 oktyabr Zəngilan rayonunun Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndləri və Ağbənd qəsəbəsi, Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili kəndləri, Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli kəndləri də əsarətdən qurtuldu.

23 oktyabrda Xocavənd rayonunun Dolanlar və Bünyadlı kəndləri, Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı və Veysəlli kəndləri, Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndləri, Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndləri də düşmən pəncəsindən xilas oldu.

25-26 oktyabr tarixlərində isə Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd kəndləri, Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər kəndləri, Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan kəndləri və Qubadlı şəhəri illərdən sonra azadlığına qovuşdu və xalq sevinc göz yaşına qərq oldu.

28 oktyabr Zəngilan rayonunun Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli kəndləri, Füzuli rayonunun Mandılı kəndi, Cəbrayıl rayonunun Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac kəndləri, Qubadlı rayonunun Qiyaslı, Əbilcə, Qılıcan kəndlərinin azad olunduğu gün kimi tarixin yaddaşına həkk olundu.

30 oktyabrda Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı kəndləri, Zəngilan rayonunun Aladin, Vejnəli kəndləri, Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndləri Ordumuz tərəfindən düşmən tapdağından azad olundu.





2 noyabr Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq kəndləri, Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ kəndləri, Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndləri öz azadlığına qovuşdu.

4 noyabr Cəbrayıl rayonunun Mirək, Kavdar kəndləri, Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli kəndləri, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndləri azad olundu, vətən oğullarının qədəmləri ilə sevindi.

7 noyabrda Füzuli rayonunun Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar, Divanalılar kəndləri, Cəbrayıl rayonunun Yuxarı Məzrə, Yanarhac kəndləri, Qubadlı rayonunun Qəzyan, Balasoltanlı, Mərdanlı kəndləri, Zəngilan rayonunun Beşdəli kəndi, Xocavənd rayonunun Ataqut, Tsakuri kəndləri, Xocalının Qarabulaq, Moşxmaat kəndlərinin işğaldan azad edilməsi düşmənin məğlubiyyətinin aşkarənə sübutu idi. Ancaq düşmən ən ağır məğlubiyyətə Şuşa döyüşlərində uğradı. Qarabağın açarı sayılan Şuşanı Azərbaycan Ordusunun hərbi texnika olmadan əlbəyaxa döyüşlərlə azad etməsi nəinki Ermənistan ordusunu eləcə də bütün dünyanı riqqətə gətirdi. Azərbaycan Ordusunun qüdrətinə bütün dünya şahid oldu. Şuşanın azad olunmasından sonra düşmən kapitulyasiya aktını imzalamağa məcbur oldu. Noyabrın 9-dan 10-na keçən gecə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin imzaladıqları atəşkəs bəyannaməsində Ermənistanın işğal etdiyi digər Azərbaycan torpaqlarının da verilən zaman çərçivəsində qeyri şərtsiz boşaldılması və Azərbaycan Ordusunun nəzarətinə keçməsi qeyd olunmuşdu. Bununla da Ermənistan öz məğlubiyyətini açıq şəkildə etiraf etmiş, Azərbaycan qalibiyyət sevincini yaşamışdı. 44 günlük müharibənin hər anı Zəfərin qazanıldığı tarix kimi tarixə həkk olunmuşdu.

30 il arzuları bəzəyən «Kaş ki, bir səhər oyanıb görək Qarabağ azaddır.» arzusu çin oldu. Azərbaycan xalqı Qarabağın azad olunması ilə bütöv Azərbaycanda sevinc dolu bir günə göz açdı.



**MUSAYEV SƏDİ SÜLEYMAN OĞLU**
**POLKOVNİK-LEYTENANT**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur. )**

## DOST QİSASIN ALAN QƏHRƏMAN

Əsarət... Əgər torpağın dili olsaydı Qarabağ torpaqları bu sözün izahını verərdi. Qarabağ torpaqları yağı tapdağında tapdalanmaqdan, yağmalanmaqdan, parçalanmaqdan yorulmuşdu. 30 illik həsrətin ağrı-acısını çəkən bir xalqın hər bir nümayəndəsi Qarabağı əsarətdən qurtarmağın xəyalı ilə yaşayırdı. Kimi bunu xəyal etdi, kimi isə ömrünü o əsarəti sona çatdırmaq üçün fəda etdi. Xəyal edən bizlər, canından, qanından keçənlər isə qazilər və şəhidlər oldu. Onlar müqəddəs qanları ilə vətən torpağına azadlıq dastanı yazdılar. O dastanı yazan qəhrəmanlardan biri də Musayev Sədi Süleyman oğludur. Kimdir bu qəhrəman? Onun canını qurban etdiyi vətən sevgisinə nəzər salaq.

Musayev Sədi Süleyman oğlu 1978-ci il aprelin 1-də Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Qıvraq qəsəbəsində dünyaya gəlmişdi. Ailədə 3 qardaş, 1 bacı olmuşdular. Atası Süleyman Musayev və anası Nəsibə Musayeva bütün valideynlər kimi öz ömürlərini övladlarına həsr etmişdilər. Sədi həyatın sərt sınağına erkən yaşlarında tuş gəlmişdi. Məktəbə qədəm qoyduğu ildə atasını itirmişdi. İlk dəfə elmə yiyələnməyə 1985-ci ildə başlayan Sədi Qıvraq qəsəbəsi Sirac Əsədov adına 2





N-li tam orta məktəbə getmişdi. VIII sinfi bitirdikdən sonra 1993-cü ildə Cəmşid Naxçıvanski adına Hərbi liseyə daxil olmuşdu. 1996–2000-ci illərdə Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuş, motoatıcı ixtisası üzrə təhsilini davam etdirmişdi. 2000-ci ildə leytenant hərbi rütbəsi almış və Mingəçevir şəhərindəki N saylı hərbi hissədə motoatıcı alayın taqım komandiri vəzifəsinə təyin edilmişdi. 2002-ci ildə həmin hərbi hissədə ordu korpusu komandirinin müvafiq əmri ilə motoatıcı bölük komandiri vəzifəsinə təyin edilmiş və baş leytenant hərbi rütbəsinə layiq görülmüşdü. Müxtəlif zamanlarda motoatıcı taborun qərargah rəisinin şəxsi heyət üzrə köməkçisi, əməliyyat bölməsinin döyüş hazırlığı üzrə baş köməkçisi, döyüş hazırlığı bölmə rəisi, əməliyyat bölmə rəisi, qərargah rəisinin müavini, əməliyyat şöbə rəisinin təlimlər üzrə baş köməkçisi vəzifələrinə təyin olunmuşdur.

Ruhən vətənə bağlı olan Sədi könlünü Gülşad xanıma vermişdi. Sevənlər 2004-cü ildə ailə həyatı qurmuş və bundan sonra hərbçi xanımı Gülşad xanım da bir hərbçiyə çevrilmişdi. Sədini heç zaman tək buraxmayan xanımı onunla bərabər həyatın bütün çətinliyini çiyinlərində daşımışdı. Sədi evliliklərinin ilk ilində (2005-ci ildə) kapitan hərbi rütbəsinə layiq görülmüşdü. Üç il Tərtərdə yaşayan ailənin evliliklərinin üçüncü ilində qızları Arzu dünyaya göz açmış və daha sonra 2009-cu ildə oğul övladları Süleyman dünyaya gəlmişdi. Bir-birilərini bir baxışdan başa düşən sevənlərin sevgisi bütün çətinliklərin körpüsü idi. Həyatını vətənə həsr edən hərbçi 2014-cü ildə mayor hərbi rütbəsinə layiq görülmüşdü. Ailəsindən çox əsgərlərinə zaman ayıran Sədi xanımı ilə hər zaman qürur duyurdu. Gülşad xanımın onunla qürur duyduğu kimi. Ancaq Sədinin bir arzusu xanımının ürəyini sızladırdı. O arzu şəhidlik arzusu idi. Bir dəfə Sədi xanımına "Namazda əlini göyə aç dilə ki, mənə də şəhidlik qismət olsun." demiş, Gülşad isə cavabında "Sən öldüyün gün mən özümü öldürərəm." cavabını vermişdi. Ancaq Gülşad xanım nə bilərdi ki, bir vaxt gələcək cənnətdə Sədisinə qovuşsun deyə Sədisiz yaşamağa məcbur qalacaq.

2016 – cı ilin Aprel döyüşlərində Sədi ön cəbhədə vuruşan qəhrəmanlardan biri olur. Aprelin 1-də doğum günündə Gülşad Sədinin gəlməyəcəyini bilsə də onun ad günü üçün tədarük görür. Özü gəlməyən Sədinin zəngi xanımını sarsıdır. Sədi ona səs-küy gələrsə qorxmamağı tapşırır. Həmin

gecənin səssizliyini atəş səsləri pozur. Dan yeri söküləndə artıq Füzuli sakinləri təhlükəsiz yerlərə köçürülür. Tək-tək insanların qalmasına baxmayaraq Gülşad xanım və iki övladı evlərini tərk etmir. Sədinin zənglərə cavab verməməsi Gülşad xanımın ürəyini qovurur elə bu zaman Sədidən zəng gəlir. Sədi Gülşad xanıma təcili evi tərk edib Bakıya getmələrini tapşırır. Ancaq o tək öz ailəsini, övladlarını düşünmür. İllərinin dostu, "can qardaşım" dediyi, həmin döyüşlər zamanı bir səngərdə vuruşduğu mayor Rasim Məmmədovun əmanətlərinin də təhlükəsizliyini düşünür. Gülşad xanıma dostunun ailəsi ilə birlikdə Bakıya getmələrini tapşırır. Sədinin bir sözünü iki etməyən xanımı ürəyi parçalana-parçalana Sədinin dediklərinə əməl edir. (O günləri dinlədikcə və o anları təsəvvür etdikcə ruhum cismimi tərk edəcək sandım.) İki dostun əmanətləri ürəklərini Füzulidə qoyub Bakıya yola düşürlər. Uzanan yollar, dilə gələn dualar. Ancaq dualar qəbul olmur. İki gün sonra Sədi Gülşad xanıma həyatının ən acı xəbərini verir. O dostu, sirdaşı, silahdaşı, can qardaşı mayor Məmmədov Rasim Əbdül oğlunun şəhid olduğunu deyir. Rasimin itkisi həm dost üçün, həm də vətən üçün ağır itki olur. Dostunu itirən bir hərbçinin intiqam hissi daha da böyüyür. Düşmənlə son gülləsi bitənə qədər mübarizə aparır, gülləsi bitdikdən sonra əlbəyaxa döyüş aparır. Rəzil düşmən onun əllərini gəmirsə də o ermənini qanına qəltan edir. Aprel döyüşlərində xüsusi şücaətlər göstərən Sədi yanan tankın içindən 5 hərbçini çıxarır. O əsgərlərdən ikisi onun gözlərinə baxa-baxa canını tapşırır. Günlərlə Sədidən heç bir xəbər çıxmır. Döyüş bitir ancaq Sədinin qəlbindəki dost itkisi ilə apardığı savaş bitmir. O gündən sonra Sədi heç zaman Rasimin yoldaşının üzünə baxa bilmir. "Mən Rasimin qisasın almadığım günə qədər Rasimin əmanətlərinin üzünə baxa bilmərəm." deyir və o amalla yaşayır.

Bir hərbçi vətəni işğalda olduğu müddətdə heç zaman rahatlıq tapmır. Hərbidə qazandığı nailiyyətlərdən bir gün azadlığa qovuşmaq üçün istifadə etsin deyə o günün çatması arzusu ilə yaşayır. Sədi Musayevin də o arzusu 2020 – ci ilin sentyabrında gerçək oldu.

Sədi sentyabrın 25-də gecə evə gəldiyində övladlarını doya-doya öpüb, qoxlayır. "Yuyunum pak olum, birdən şəhidlik qismət olar." deyir. Sədi "Biz Qarabağ adlı savaşı gələcək nəsillərə saxlamayacağıq. Biz bu savaşı bitirəcəyik ki, daha analar övladlarını əsgərliyə yola salanda onları





itirmək qorxusu ilə yaşamasınlar." sözlərini deyərkən əslində olacaqlardan xəbər verirmiş. 26 sentyabrda evdən çıxarkən uşaqlarını bağrına basıb Gülşad xanıma "Səni Allaha, uşaqları sənə əmanət edirəm. Mən Rasimin qisasın alacam." sözlərini deyir.

27 sentyabrda müharibə başladığını eşidən Gülşad xanım Sədiyə zəng edir. Sədi hər şeyin qaydasında olduğunu deyir və telefonu söndürür. Sədi susan telefona bir daha cavab vermir. Gülşad xanım dayanmadan namaz qılıb dua edir. Ancaq bu dəfə onun yox Sədinin etdiyi dualar qəbul olur. Musayev Sədi Süleyman oğlu vətənin azadlığı uğrunda qəhrəmancasına şəhid olur.

Sədi Musayev hələ sağlığında orduda göstərdiyi şücaətlərə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Qüsursuz xidmətə görə" III dərəcəli medalı, "Qüsursuz xidmətə görə" II dərəcəli medalı, "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı, "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı, "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı ilə təltif olunmuşdu. Şəhadətə ucaldıqdan sonra isə "Vətən uğrunda" medalı, "Azərbaycan Bayrağı" ordeni və "Füzulinin azad olunmasına görə" medalı, "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif olunub. Sədi Musayevin Vətən müharibəsində döyüş yolu qısa oldu. Onun kimi bir qəhrəmanı döyüşün ilk günlərində itirmək ordu üçün böyük itki oldu. Sədi Qarabağın azadlığını görmək arzusunda idi. O, həmin azadlığa yol açan qəhrəman kimi tarixin yaddaşında qaldı. Həm də dost qisasın alan bir qəhrəman şəhid kimi...

Polkovnik-leytenant Musayev Sədi Süleyman oğlu sentyabrın 28-də II Fəxri Xiyabanda dəfn olunub.

Gülşad xanımla söhbətimiz zamanı onun Sədidən sağmış kimi danışmağı mənə çox təsir etdi. "Mən Sədinin həyatda olmadığı gerçəyini qəbul etməmişəm, etmərəmdə. O gerçəyi qəbul etdiyim gün ölərəm. " Yarımçıq qalan daha bir həyat, nakam qalan arzular...

## ŞƏHİD SƏDİ

Şərəflə yaşadın sən öz ömrünü,
Ömrünün hər anı vətənə bağlı...
Vətənçün ömründən keçən biri tək,
Qazandın əbədi sən ucalığı.

O elə zirvədi, bütün bəndələr,
Ucalmaq istəyər həmin zirvəyə.
Canını vətənə sipər elədin,
Qoymadın vətənə kor qurşun dəyə.

Ah, Sədi, nə böyük ürək daşıdın?!
Elə ürəyin tək sevgin də böyük...
Bilirəm, həm vətən, həm dost həsrəti,
Olmuşdu qəlbində çox ağır bir yük.

Bitirib qəlbinin acı həsrətin,
Vətəndən şəhidə müjdə apardın.
Ömrün nidalandı fani dünyada,
Cənnətdə yazıldı ömrünün ardı.





## MƏMMƏDOV ƏBDÜL CƏLAL OĞLU MAYOR

**(I Qarabağ müharibəsində qazi olmuş, 2016-cı ildə şəhid olmuşdur.)**



## ŞƏHİDLƏRİN ŞAHİDİ

Şəhid oğulların qanlı köynəyini geyinən Naxçıvan torpağı. Anaların göz yaşını sinəsinə hopduran, ataların çarəsiz baxışlarına qərq olan müqəddəs və mətin diyar. İllərdi o qədər dərdə sinə gəlməyinə baxmayaraq məğrur duruşu ilə düşmənin gözünü dağlayan qədim şəhər. Doğulan hər bir oğulun damarında dövr edən qanı ilə vücudu büsbütün vətən sevgisinə qərq olur. Bu torpaqda doğulan oğulların əksəriyyəti hərbçi peşəsinə yiyələnir. Demək olar ki, hər ocağın vətən qəhrəmanı olan ya hərbçisi, ya qazisi ya da şəhidi var. Məmmədovlar ailəsində isə vətən qəhrəmanlarının sayı nə bir deyil nə də on. Bu ocaqda hər müharibənin bir əfsanəsi var. Var deyirəm çünki əfsanələr olub, var və olacaqlar. Məmmədov Əbdül Cəlal oğlu həmin o qəhrəmanlardan biridir. Ondan həm bir vətən oğlu, həm bir qazi, həm də bir şəhid atası kimi bəhs edəcəm. Kaş ki, həyatda olduğu zaman tanıyardım dediyim qəhrəmanlardandı.

Məmmədov Əbdül Cəlal oğlu 2 iyun 1950 - ci ildə Babək rayonunun Cəhri kəndində müəllim ailəsində anadan olmuşdur. Təhsilə xüsusi önəm vermiş və Bakı Rabitə Texnikumunu bitirmişdi. Hərbi xidmətini Qərbi Azərbaycanda xüsusi rabitə alayında keçmişdi. Hərbi xidmətdən qayıt-

dıqdan sonra, 1971 - ci ilin əvvəlindən Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində müxtəlif vəzifələrdə çalışmışdı. 1981 - ci ildə Nalçik şəhərində yerləşən Xüsusi Təyinatlı Milis Məktəbini fərqlənmə ilə bitirib, yenidən Naxçıvanda inspector - kinoloq vəzifəsində xidməti-ni davam etdirmişdi. Ukraynanın Çernobil vilayətində Atom Stansiyası partlayan zaman Əbdül Məmmədov da zərərçəkənlərdən biri olmuşdu. 1989 - cu ildə Naxçıvan torpaqlarının müdafiəsi üçün ilk özünümüdafiə batalyonları yaradanlardan biri olmuşdu.

1991 - ci il sentyabr ayında Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri Heydər Əliyevin xeyir - duası ilə yaranan Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsində əvvəl bölük böyüyü, sonra mübarizə bölüyünün komandiri, 11 fevral 1992 - ci ildə isə N saylı hərbi hissənin komandiri vəzifəsində xidmət etmişdi.

19 may 1992 - ci ildə Sədərək uğrunda gedən döyüşlərin aktiv döyüşçülərindən biri olmuşdu. O, tabeliyində olan 20 nəfər əsgər və çavuşu ilə birlikdə düşmənə ağır zərbələr vurmuş, düşmənin 56-dan çox canlı qüvvəsin məhv etmiş və gücü yetdiyi qədər vətən torpaqlarını müdafiə etmişdi. Neytralda qalan 16 şəhidimizin nəşi onun sayəsində götürülmüşdü. Həmin döyüşlərdə iştirak etdiyi zaman Ümummilli liderimiz Heydər Əliyev «Sənə polkovnik rütbəsi verirəm.» demişdi.

Məmmədov Əbdül Cəlal oğlu 1992 - ci ildə strateji yüksəklik olan Mil təpə uğrunda gedən döyüşlər zamanı ağır güllə yarası almışdı. Əbdül Məmmədov vətən həsrətini və şəhid dərdini tez - tez şeirlərlə dilə gətirərmiş.

Müqəddəs kitabda, uca "Quran"da,
Ayələr yazılmış şəhidlər haqda.
«Şəhidlər ölməzdir» söylənir orda,
Bunu heç bir vəchlə anlamaz idim.

Görəsən şəhidlər bağışlarmı heç?
Düşməni dost tutan mənfur kəsləri.
Haqqın dərgahına yığılanacan,
Getməz qulaqlardan nalə səsləri.





«Vətən də anadır» deyib həmişə,
Bizə öyüdünü verib atamız.
Vətəni qorumaq müqəddəs peşə,
Bizə bir nümunə olub atamız.

Ana var itirib oğullarını,
Ağlayır bu oba, bu vətən üçün.
Əbdüləm yazıram misralarımı,
Birin anam üçün, birin vətənçün.

Bu şeir Əbdül Məmmədovun vətən həsrətli şeirlərindən biridi.

Qazilər şəhidlərin şahidləridi. Bəzən olur ki, qazi olan biri son nəfəsini verdiyini sanır və cənnəti görür. Ancaq Allah onu bu dünyada olan missiyasını tamamlamadığı üçün yaşama döndərir. Yəqin ki, o zaman Əbdül Məmmədovun tamamlamadığı missiyası qazanacağı Şəhid atası adı imiş. Allah mötəbər qazini bir də Şəhid atası adı ilə mükafatlandırdı. Dörd oğul atası olan Əbdül Məmmədov oğlanlarının hər birini vətənə layiq oğul kimi böyütmüşdü. Aslan, Rasim, Şahin, Etibar hər biri vətən sevgisi ilə tərbiyələnmişdilər. Bu ailənin bir də qəhrəman qadını, anası Bəsti (Nazilə) ana var. Əsalətli duruşu, məğrur baxışı ilə qazi xanımı, şəhid anası adını qürurla daşıyır bu qadın. Sağlamlığını vətənə qurban verən, qurşaqdan aşağı iflic olan qazinin 25 il hər qayğısını çəkdi qəhrəman qadın. Bu ailənin daha bir qəhrəman xanımı isə Vətən müharibəsində könüllü olaraq döyüş bölgələrində xidmət göstərib, yaralı əsgərlərə şəfalı əlləri ilə məlhəm olan Könül Məmmədovadır. «Gəlin ocağa gələr» deyimi Könül xanıma da şamil edilə bilər. Bu ailədə ən ülvi duyğuların izinə rast gəlmək olur. Sadiqlik, sevgi, qəhrəmanlıq bu ailənin təməlində var olub və olmaqdadır.

Qazi Əbdül Məmmədov 25 il yatağa məhkum oldu. 2016-cı il Aprel döyüşləri zamanı vətən keşikçisi oğlu Rasim Məmmədovun şəhadət xəbərini aldı. İllərlə sağlamlığını vətənə qurban edən bir qazi üçün qələbə xəbərini almağın necə böyük bir sevinc olduğunu anlamaq çətin deyil. O azadlığın müjdəçisi al bayrağa bükülən oğul nəşi oldu. O gün «Oğullar vətənə qurban olmaq üçün doğulur.» deyən qazi məğrur baxışları ilə

yaddaşlara həkk olundu. İllərlə vətən həsrəti ilə yaşayan qəhrəman oğul həsrətinə tab etmədi. Günü - gündən saralıb-solan qazi aprelin 27-də cənnətdə oğluna qovuşdu.

## QAZİ ƏBDÜL

Qeyrət qılıncını siyirib qından,
Vətənə uzanan əli doğradın.
Tarixin toz tutan səhifəsində,
İgid qazi kimi həkk oldu adın.

Vətənin ən çətin sınaqlarında,
Vətən övladı tək qeydinə qaldın.
Şəhadət adında uca zirvəyə,
Bir addım qalarkən ayaq saxladın.

İllərlə yatağa məhkum olanda,
Bu vətən, bu torpaq sənə güc oldu.
Qəlbində qisası məhşərə çıxan,
Həmin qisasını Rasimin aldı.

Qazi Əbdül, oldun şəhid atası,
O gün duyğuların sanki qarışdı.
Azadlıq sevincin yaşayan qəlbin,
Bir tabut önündə yandı, alışdı.

Sən necə şəhidin şahidi oldun,
İllərlə yaşadın canlı şəhid tək.
Vətən həsrətini bitirən oğlun,
Vaxtsız gedişinə dözmədi ürək.





**MƏMMƏDOV RASİM ƏBDÜL OĞLU**
**MAYOR**
**(2016 - cı ildə Aprel döyüşlərində şəhid olmuşdur.)**



## LƏLƏTƏPƏ FATEHİ

Elə bil bu dünya sənsizliyə qərq olub. Hər yerdən sənsizlik boylanır. Hər kəsin gözlərindən sənsizlik tökülür. İllər ötməsinə baxmayaraq bu sənsizlik ilk günkü kimidir. Ürəklər ilk toxunuşunda necə titrəmişdisə hələ də eyni titrəyir. Hələ bəzi xəyallar ki, var bax ən çox onlar sənsizliyə düçar olublar. Səni sənsiz yaşadan xəyallar. Sanki bir nəfəs kimi yaxın olduğun xəyalların qanadları bir anda qırılır və bir daş məzara çırpılır. O an bütün cahanı sən adlı sənsizlik bürüyür Rasim...

Əslində sən doğulduğun gün 1977-ci ilin 20 mayında vətənə pənah olmuşdun. O zaman heç kim bunun fərqində olmasa da qısa müddət sonra əqidənlə sən bunu aşkara çıxardın. Fərqliliyinlə fərqləndin. Bir az da ailənin qəhrəmanlarına bənzədin. Axı böyüdüyün ailə qəhrəmanlar ailəsi idi. Atanın, əminin ürəyindəki vətən eşqi ürəyinə, gözlərindəki intiqam qığılcımı isə gözlərinə sıçramışdı. 1983-1994-cü illərdə Cəhri kənd tam orta məktəbində oxuyan şagirdlər arasında vətənin işıqlı sabahı olacağın heç kimə sirr deyildi. Çünki sən bir qəhrəman oğlu idin. O qəhrəmanın isə düşməndən alınacaq qisası var idi. Bir də düşmən tapdağında olan torpaqlar. Bir qazi oğlu vətən torpaqlarının düşmən tapdağında olmağına

razı olarmı? Xeyir!

Sən sonunu bildiyin yolu getməkdə qərarlı idin. Çünki o yolun yolçusu olan atan Əbdül Məmmədov gözlərinin önündə idi. Yaxşı bilirdin ki, vətən yolun gedənlərin son dayanacağı ya şəhadətdir ya da şəhadətin bir addımlığından dönülən qazilik. Bu gerçəyi bilərəkdən 1996-cı ildə Bakı Ali Birləşmiş Komandirlər Məktəbinə (indiki AAHM) addım atdın. 2000-ci ildə həmin məktəbi tank qoşunları komandiri ixtisası üzrə bitirdikdən sonra Müdafiə Nazirliyinin əmri ilə hərbi xidmətini N saylı hərbi hissədə davam etdirdin. Sən artıq bir leytenant Rasim Məmmədov idin. Ancaq hələ gedəcəyin yol uzun idi. 2000-ci ildən 2001-ci ilə qədər N saylı hərbi hissədə təlim taborunun tuşlayıcı taqımının komandiri, 2001-ci ildən 2002-ci ilə qədər isə həmin hərbi hissədə təlim döyüş tankları taqımının komandiri vəzifələrində çalışdın. 2002-ci ildə Müdafiə Naziri Səfər Əbiyevin əmri ilə baş leytenant hərbi rütbəsi aldın. Həmin ildən 2005-ci ilə qədər N saylı hərbi hissədə tank taqımının komandiri vəzifəsində çalışdın. Baş leytenant rütbəsi aldıqdan 3 il sonra, 2005-ci ildə kapitan rütbəsi aldın və N saylı hərbi hissədə mexanikləşdirilmiş bölük komandiri vəzifəsində çalışdın. Ötən zamanla bərabər bir hərbçi kimi püxtələşdin. Körpəlikdən könül verdiyin vətəninə sevərək xidmət etməyin çətinliyi gözlərinə görünmürdü. Axı sevənlər sevdiyi uğrunda ölümə belə gedərlər. 2007-ci ildən 2010-cu ilə qədər motoatıcı taborun qərargah rəisinin maddi texniki təminat üzrə köməkçisi, 2010-cu ildən 2011-ci ilə qədər isə həmin motoatıcı taborun rəisi vəzifəsində çalışdın. Daha sonra bir müddət digər hərbi hissənin motoatıcı taborun qərargah rəisi kimi xidmət etdin. 2011-ci ildə Müdafiə Naziri Səfər Əbiyevin əmri ilə mayor rütbəsinə yüksəldin. Ancaq yüksələcəyin ən böyük rütbə hələ qabaqda idi. 2011-ci ildən 2012-ci ilə qədər N sayılı hərbi hissədə motoatıcı taborun komandirinin müavini, 2012-ci ildən 2014-cü ilə qədər isə həmin hərbi hissədə motoatıcı taborun komandiri vəzifəsində çalışdıqdan sonra, 2014-cü ildən 2015-ci ilə qədər həmin hərbi hissənin 2-ci motoatıcı taborun komandiri kimi xidmət etdin.18 aprel 2015-ci ildən, şəhid olduğun günə qədər isə N saylı hərbi hissədə motoatıcı taborun komandiri vəzifəsində çalışdın.

Ömrünün hər anından vətənə vətən boyda ümid boylanırdı. İki əlli tutduğun vətənin yolunda irəlilədikcə sevdiklərindən uzağa düşürdün.





Addım-addım uzaqlaşırdın. Məsafələr dərinləşir, kəskinləşirdi. Bəzən həsrətin sevənlərinin ürəyinə toxunurdu. Ancaq bir gəlişinlə qışdan sonra gələn bahar kimi çöhrələrə gülüş bəxş edərdin, yazda qoxan torpaq kimi qoxardın vətən oğlu. Nazilə ana səndən övlad qoxusu duyardı, Qazi Əbdülsə həsrət qaldığı torpaqların qoxusun. Bir gün o həsrətli torpaqların, Qarabağın torpağını gətirəcəyin arzusu ilə yaşayırdı səni sevənlər. Elə də oldu. Bir zaman sən torpaq qoxurdun, indi isə torpaq sən qoxur. Qoxunu duydum şəhid. Lələtəpə torpağına hopan qanının qoxusunu...

Əbəs yerə Lələtəpə fatehi deyilmir sənə. Sən o torpağı fəth edən qəhrəman kimi tarixin yaddaşına həkk olunmasın Məmmədov Rasim Əbdül oğlu.

2016 - cı ilin aprel ayında tarixin toz tutan səhifələrini igidlər qan ilə yudular. Vətən yollarına şəhidlər qan, şəhid anaları göz yaşı çilədilər. O yolların bir çox yolçuları azad olan torpaqlarda ucalan bayraqların əksi düşən tabutlarda döndülər. Sənin kimi...

Dönüşün duruşun kimi əsalətindən xəbər verirdi. Zarafat deyil illərdən sonra düşmən tapdağından torpaq azad etmək. Azadlığa gedən yoldan bəhs olunan «Aprel zəfəri» adlı qəhrəmanlıq dastanının ilk səhifəsini qanı ilə yazan şəhidlərdən biri kimi tarixdə qaldın. Sən qalib kimi döndün. Ucaltdığın bayraq şanına yaraşdı. İllərdi addım ata bilməyən atan bayraqlı tabutunun önündə məğrur durdu. İllər öncə Sədərəkdə məğrur duruşu ilə göz oxşayan hərbçi şəhid atası kimi məğrur duruşu ilə göz oxşadı. Ürəyindən qopan o teli kimsəyə bəlli etmədi. Əslində həmin gün ruhu yaşamdan ayrıldı cismi günlər sonra yaşamdan ayrılan şəhid atasının.

Vətənə oğul qurban edən Bəsti (Nazilə) ana qazi xanımı adından sonra ən müqəddəs ad olan Şəhid anası adına layiq görüldü.

Qardaşların Aslan, Şahin və Etibar şəhadətinin alovu ilə yanan ürəklərinə əmanətlərinin göz yaşlarını çilədilər. Bu həsrətin küləyi nə qədər sərt əssə də qardaşlar bir-birinə tutunub ayaqda qalmağı bacardılar. Axı onlar şəhid qardaşlarıdır.O adı qürurla daşıdılar.

Həmin gün qanınla boyanan şanlı bayraq övladlarının göz yaşları ilə islandı. Onlar atasızlıq adında sonu görünməyən bir yola ilk addım atdılar. Ürəyi sevginlə döyünən yarın sən gedən gün sənsizliyə düçar oldu.

Aprelin 4-dən 5-nə keçən gecə sanki Naxçıvanın gözlərinin yuxusu

ərşə çəkilmişdi. Bütün naxçıvanlılar qəhrəmanının gələn yollarına düzülmüşdülər. Hər kəs qalibiyyətin dərilən çiçəyinə gözlərindən səhər jaləsi pay verməyə çalışırdı. Vətəndaşlar son dəfə sevgi seli ilə şəhidini son mənzilə yola saldılar. 5 aprel günü sənin cismin torpağa tapşırılsa da adın ürəklərdə əbədi yazıldı.

Həsrətinə atan kimi dözməyib cənnətinə tələsənlər də oldu, bu dünyada sənsizliyə qərq olanlar da...

Vətənə elə layiqli xidmət etdin ki, ilk öncə əsgərlərin, zabitlərin, rəğbətini qazandın. Daha sonra xidmətin ölkə başçısı İlham Əliyevin sərəncamı ilə «Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 İlliyi» yubiley medalı, «Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi» yubiley medalı, «Qüsursuz xidmətə görə» 3-cü dərəcəli medalı, «Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi» yubiley medallarına layiq görüldün. Şəhadətə ucaldığın gün ən ali mükafatı qazandın və şəhadətindən sonra "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalı və «Vətən uğrunda» medalına layiq görüldün.

Şəhadət ən böyük arzun olsa da Qarabağı tam azad etdikdən sonra şəhadətə ucalmaq arzusunda idin. Ancaq sən Qarabağa gedən yoldakı ən aşılmaz səddi aşdın və şəhid oldun. Sayəndə 5 il öncə Lələtəpə yüksəkliyinə sancılan bayraq hər əsintisində Azərbaycan Ordusunda qalibiyyət əzmini daha da artırdı. Həmin o əzmin gücündən 2020-ci ildə zəfər doğdu. Azərbaycan Ordusu sənin və sənin kimi minlərlə oğulların intiqamını alıb, Qarabağın vətən həsrətli ürəyində bayraq ucaltdı.





## ŞƏHİD RASİM

Sənin məzarından vətənin əksi,
Görünür hər Günəş qürub edəndə.
Gecənin sükutu susub dinləyir,
Susmuş rəsmlərin dilə gələndə.

Bu susmuş daş məzar dil açıb deyir,
Vətənin qanayan yaralarından.
Sanki anaları xəbərdar edir,
Yaralı can verən balalarından.

Neçə əsgərinin son nəfəsində,
Sonuncu kəlməsin duymusan, şəhid?!
Bəs sən son nəfəsi verdiyin zaman,
O son nəfəsinə kim oldu şahid?

Sən Lələtəpəyə sancdığın bayraq,
Zəfər sədasıyla hey dalğalanır.
Bu günkü zəfərin qalib ordusu,
Bütün şəhidləri rəhmətlə anır.

İlk zəfər sevincin siz yaşatdınız,
Dərdi tükənməyən uca millətə.
Rasim, öz ömrünü sən bəxş elədin,
Qəlbi dağlı olan bu məmləkətə.



**ORUCOV ELŞƏN YAVƏR OĞLU**
**MAYOR**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur. )**

## İZİ QALAN QƏHRƏMAN

Hər zaman deyirlər «Zaman bütün yaraları sağaldır.» Ancaq ötən 30 illik bir zaman bizim Qarabağ adlı yaramızı sağaltmadı. Əksinə ötən zamanla dərdimiz də böyüdü. Çəkdiyimiz həsrət iliyimizə qədər işlədi. Matəm günləri kimi həkk olunan tarixlər qisasımızın qidası oldu. Vətəni azad etməyi lap körpəlikdən arzu edən bir qəhrəmanımızı tanıyaq.

Orucov Elşən Yavər oğlu 1985-ci il avqustun 11 - də qəhrəmanlar oylağı olan Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ayrınc kəndində anadan olmuşdu. 1991-ci ildə Ayrınc kənd tam orta məktəbində təhsil almağa başlamışdı. Atası Yavər müəllim, anası Səfurə xanım Elşənin və digər övladlarının gələcəyinin parlaq olmağı üçün hər vəchlə çalışmışlar. Elşən orta məktəbdə oxuduğu zamandan vətənə olan sevgisi özünü açıq-aşkar biruzə vermişdi. Elə bu sevgi onun yollarını Heydər Əliyev adına Hərbi liseyə gətirib çıxarmışdı. 2004-cü ildə liseyi bitirdikdən sonra elə həmin ilin iyulunda Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuşdu. 2008-ci ildə hərbi məktəbi bitirdikdən sonra iyul ayında Təlim və Tədris Mərkəzində hərbi biliklərini artırmışdı. Leytenant hərbi rütbəsi alaraq təyinatla Gəncə şəhərində yerləşən N saylı hərbi hissəyə göndərilmiş bir





il xidmət etdikdən sonra Ağdam rayonundakı N saylı hərbi hissəyə göndərilmişdi. 2011-ci ildə baş leytenant hərbi rütbəsi almışdı. Bir müddət Naftalanda xidmət etdikdən sonra yenidən Ağdamda xidmətə başlamışdır. 2015-ci ildə kapitan hərbi rütbəsinə yüksəlmişdi. 2016-cı ildən başlayaraq Füzuli şəhərinin Horadiz qəsəbəsində xidmət etmişdi. Elşən ömrünü vətən uğrunda fəda etmiş qəhrəmanlarımızdan biridi. O, 2016-cı ildə Ermənistan silahlı bölmələrinin «atəşkəsi» pozaraq törətdikləri hücum cəhdinin qarşısının alınmasında və həmin o döyüşlər zamanı göstərdiyi şücaətlərə görə möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən medalla təltif olunmuşdu. Hərb sənətinin bütün çətinliyinə qatlanan Elşənin yaşam gücü vətənə olan sevgisindən bir də sevgi dolu ailəsindən qaynaqlanırdı. Könül verdiyi Əfsanə xanımla sevgisini etiraf etdikdən 4 il sonra 2008-ci ildə qovuşan Elşən həm də çox gözəl ata idi. Həyatının qaranlığını Ay tək aydınladan Aygünü, ruhunu Günəş tək isidən Günəşi onun sevinc dolu dünyası idi. Hər zaman «Müharibə olarsa öndə mən gedəcəm. Siz möhkəm olun.» deyən Elşən sanki ailəsini həmin günlərə hazırlayırdı.13 illik ömür yoldaşına olan güvəni onun ürəyini arxayın etmişdi. Şəhidin qazandığı məqamın ucalığını dilə gətirən qəhrəman hər zaman o məqama yüksəlməyin arzusunda idi.

Arzuların gerçəyə döndüyü, vətən adlı ümidlərin cücərdiyi sentyabr. Sentyabrın 27-də artıq cəbhəboyu pozulan atəşkəsin cavabı verilməyə başladı. Bu dəfə «İrəli» əmri alan müzəffər ordumuz torpaqlarımızı qarış-qarış azad edirdi. Bu irəliləyən ordunun bir döyüşçüsü də mayor Elşən Orucov idi. Elşən son dəfə sentyabrın 29-da evinə gəlib. O, «Şəhidlərimizin qisasın alacam, Polad Həşimovun qanını yerdə qoymayacam.» deyib və ailəsi ilə vidalaşıb. Onun döyüş yolu Füzuli istiqamətində gedən döyüşlərdən başlayıb. Oktyabrın 10-da qərərgah rəisi təyin olunub və Cəbrayıl istiqamətinə göndərilib. Döyüşlərdə düşmənin külli miqdarda silah - sursatını, texnikasını ələ keçirib, 4 yüksəkliyin əldə olunmasında müstəsna rolu olub. Hər dəfə sevincini Əfsanə xanımla bölüşən Elşən hər zəfərdən güc alıb. Oktyabrın 15-də Əfsanə xanım Elşənlə danışdığı zaman bir partlama səsi eşidib və telefon sönüb. Bir müddət sonra Elşən zəng edib atəşə tuş gəldiklərini, lakin hər şeyin qaydasında olduğunu deyib. Ancaq səsindən acısı hiss olunub. Gizlətməyə çalışsa da xanımı onun

səsindən yaralı olduğunu hiss edib. Qarnından qəlpə yarası almağına baxmayaraq Elşən döyüşə davam edib. Elşən oktyabrın 19-da «Zəngilanda bayrağımız sancılan yerdən sizə zəng etmişəm,gedirəm Kəlbəcərə.» deyib və bu onun son zəngi olub.

Oktyabrın 21-dən 22-nə keçən gecə şəhidimizin qızı Aygün yuxudan oyanaraq Atasının səsini eşitdiyini, sanki bir daha atasını görə bilməyəcəyini deyir. Həmin gecə görülən qəribə bir yuxu da Əfsanə xanımın gördüyü yuxu olur. Elşənin cənnəti əks etdirən bir yerdə süfrə arxasında ağ libasda oturması və «Əfsanə, gör nə gözəl yer tapmışam, buradan heç kimin xəbəri yoxdu deməsi.» Elşənin şəhid olduğunun xəbərçisi idi.

Mayor Orucov Elşən Yavər oğlu oktyabrın 22-də Qubadlı rayonunun Muradbəyli kəndində 22 əsgərlə birlikdə qəhrəmancasına şəhid olub. Özündən sonra qəhrəmanlığı iz qoyan şəhidin döyüş yoldaşları onun qorxmazlığından, şücaətlərindən danışdıqca elə bir qəhrəmanın orduda olmamağı gerçəyi ilə barışa bilmirlər.

Elşənin şəhid olduğu yer neytral ərazi olduğu üçün onun nəşini bir müddət sonra götürmək mümkün olub. Noyabrın 6-da şəhidin nəşi son dəfə Naxçıvandakı evinin qonağı olub. Daha sonra Şahbuz rayon Ayrınc kənd məzarlığında əbədiyyətə uğurlanıb.

Orduda göstərdiyi xidmətləri hər zaman ölkə başçısı tərəfindən qiymətləndirilən, xidməti dövründə «Qüsursuz xidmətə görə» III dərəcəli, «Qüsursuz xidmətə görə» II dərəcəli medalı, «Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi» yubiley medalı, «Azərbaycan Ordusunun 100 illiyi» yubiley medalı ilə təltif olunan mayor şəhadətindən sonra da «Vətən uğrunda» , «İgidliyə görə» «Cəbrayılın azad olunmasına görə» , «Qubadlının azad olunmasına görə» medalları ilə təltif olunub.





### ŞƏHİD ELŞƏN

Bir igid oğlunun ömür karvanı,
Sinəndə iz saldı vətən torpağı.
Ağrını - acını əlindən alıb,
Ucaltdı yenilməz şanlı bayrağı.

Döyünən qəlbinin pıçıltısıyla,
Söylədi «Qoynuna gəlirəm vətən.»
Apreldə savaşdan üzü ağ çıxıb,
Oldu bu vətənin dadına yetən.

Vətənin həsrəti sona yetən gün,
Ruhu sevinc tapdı, güldü bənizi.
Elşənin müqəddəs şəhid məqamı,
Fəth etdi eşq ilə ürəyimizi.



**ƏLİYEV MALİK TƏVƏKKÜL OĞLU MAYOR (II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## VƏTƏN NAMİNƏ YAŞANILAN ÖMÜR

Bu xalqın ürəyində əsrlərin, illərin sağalmayan yarası var. O yara ki, hər dəfə bir qədər dərinləşib, daha çox qanayıb. Hər kəsin eyni anda çəkdiyi vətən dərdi doğulan hər bir azərbaycanlı ilə bərbər böyüyüb. Dünənini unutmayan xalq olaraq sabahımızın işıqlı olmağı üçün çalışmışıq. Yaşadıqlarımızı unutmadan yaşamışıq ki, bir daha o yaşanılanlar təkrarlanmasın. Bir gün o yaşadıqlarımızın intiqamının alınacağı günün çatacağı düşüncəsindən bir an belə uzaqlaşmadıq. Bəli, o gün çatdı.

Bir zamanlar körpələrin «Qarabağı mən azad edəcəm.» sözləri öz sübutunu tapdı. Heç zaman Qarabağı görməyən ancaq Qarabağ həsrəti ilə böyüyən cəngəvarlər Qarabağa doğru yol aldılar. O cəngavərlərdən biri idi Malik.

1986-cı ilin bitməsinə bir neçə gün qalmış dekabrın 26-da Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhərində dünyaya göz açmışdı Əliyev Malik Təvəkkül oğlu. Orta təhsil almaq üçün 1993-cü ildə Naxçıvan şəhər 5 N - li məktəbə qədəm qoymuşdu. Malik elə uşaqlıqdan bir çox yaşıdlarından fərqlənmişdi. Vətəni gözəl sevən bu oğul özünü bir hərbçi kimi görüb. O, bilib ki, vətənin onun kimi oğullara ehtiyacı var. Malik 2001-ci





ildə Heydər Əliyev adına Hərbi liseyə daxil olub. Bir hərbçinin bilməli olduqlarını daha dərindən öyrənmək üçün daima öz üzərində çalışıb. Liseyi bitirdikdən sonra 2004-cü ildə Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev adına Akademiyasına daxil olub. 2008-ci ildə təyinatla N saylı Xudat hərbi dəstəsi komendant bölük komandiri kapitanı vəzifəsində çalışıb. Hər zaman öz üzərində çalışan Malik öyrəndikləri ilə yetinməyərək 2010-cu ildə Çində 6 aylıq kurs keçib. 2011-ci ildə Çində Azərbaycandan gedən kursantların komandiri olub. Hər iki kursu fərqlənmə diplomu ilə bitirib. Daha sonra 2013-cü ildə Türkiyənin Ankara şəhərində kurs keçib. 2015-ci ildə təyinatla Horadiz sərhəd dəstəsinə qərargah rəisi vəzifəsinə təyin edilib. 2016-cı ildə DSX-nin Akademiyasında kurs keçib. 2017-ci ildə DSX-nin aparaturasında fiziki hazırlıq üzrə işə başlayıb. 2018-ci ildə mayor hərbi rütbəsinə qədər yüksəlib. 2018-ci ildə yenidən Türkiyədə kurs keçib. 2020-ci ilin fevralında DSX-nin Çevik Hərəkət Qüvvələri Komandanlığında döyüş hazırlığı üzrə şöbənin rəis müavini təyin edilib. 2020-ci ilin iyun ayında Qazaxda təlimlərdə iştirak edib.

Bu qədər çətinliyi qət edib iradəsi, gücü, əzmkarlığı ilə vətən naminə yaşayan bir qəhrəmanın keçdiyi döyüş yolu qalibiyyətə çatıb. Malik öyrəndiyi bütün bilik və bacarığını Vətən müharibəsi zamanı sərgiləyib. Cəbrayıl, Füzuli, Hadrutun azad olunmasında müstəsna xidmətləri olub. 2020 - ci il oktyabrın 13-də canından keçən şəhidlərimizi, əzaların vətənə qurban edən yaralılarımızı döyüş meydanından çıxaran zaman şəhadətə yüksəlib.

Mayor Əliyev Malik Təvəkkül oğlu orduda xidmətinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə hələ şəhadətindən öncə «Hərbi xidmətdə fərqlənməyə görə» II dərəcəli medalı, «Azərbaycan Respublikası Sərhəd Mühafizəsinin 90 illiyi» yubiley medalı, «Azərbaycan Respublikası Sərhəd Mühafizəsinin 95 illiyi» yubiley medalı, «Azərbaycan Respublikası Sərhəd Mühafizəsinin 100 illiyi» yubiley medalı, «Hərbi xidmətdə fərqlənməyə görə» III dərəcəli medalı, «Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi» yubiley medalı, «Qüsursuz xidmətə görə» III dərəcəli medalı ilə təltif olunmuşdu. Şəhadətə ucaldıqdan sonra isə bu medalların sırasına «Vətənə xidmətə görə» III dərəcəli ordeni, «Vətən uğrunda» medalı və «Cəbrayılın azad olunma-

sına görə» medalı da əlavə olunub.

Şəhidimiz and yerimiz olan II Fəxri Xiyabanda vətənin daş olan oğulları cərgəsində yer alıb.

4 il Aydəniz xanımla ailəli olan şəhidimizin özündən sonra vətənə əmanət 4 yaşlı qız övladı qalıb.

## ŞƏHİD MALİK

Sən vətən sinəsində solmayan bir çiçəksən,
Cənnətindən boylanıb hər zaman güləcəksən,
Ruhunla neçə gəncdə özünü görəcəksən,
Xalqının ürəyinə əbədi köçən oğul,
Adını duyan hər kəs səninlə qürur duyur.

Sənin qəlb döyüntünlə döyündü vətən qəlbi,
Son damla qanın ilə sağaldı vətən dərdi,
Səndən geri qalanlar şücaətdi, hünərdi,
Mərd xalqımın bu gündən sabahına çıraqsan
Sən özün tarix kimi tarixdə qalacaqsan.

Şəhid Malik, adından qəhrəmanlıq süzülür,
İllər sonra sayəndə vətənin üzü gülür,
Şəhidim, ardın ilə xoş kəlmələr düzülür,
Sən olmayan dünyada adını hər kəs anır
Bütün xalqım adını qəhrəman kimi tanır.







**İSMAYILOV FUAD
MURAD OĞLU
MAYOR
(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## ÖMRÜNÜ VƏTƏNƏ CALAYAN ŞƏHİD

Vətən boyda ürəklərdə yer alar vətən boyda sevgilər. Vətən boyda ürəklərin sahibi isə hərbçilər olar. Onlar sevgiləri uğrunda öldürməyi və ölməyi gözə alarlar. Yaşadıqları hər bir anda, atdıqları hər bir addımda vətənin izi olar. Elə ömürlərinin nidası da vətən olar, son əlvidası da. Çünki ömürlərini vətən naminə yaşayarlar. Həm layiqli vətəndaş olarlar, həm vətən daşı. Həmin vətən daşları isə vətən adlı qalanın dayağı olar. O vətən daşları sayəsində vətən parçalanıb tökülməz. Bu vətənin təməli möhkəmdir. Çünki o təməl şəhid qanları ilə qoyulub. Bu gün də bu vətən vətən daşları ilə möhkəmlənməkdə davam edir. Həmin vətəndaşlardan və vətən daşlarından olan İsmayılov Fuad da vətən adlı qalanı dağılmağa qoymayanlardandı.

İsmayılov Fuad Murad oğlu 1986-cı il oktyabrın 26-da Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Qıvraq qəsəbəsində anadan olmuşdur. Ailənin ilk övladı olan Fuad 1993-cü ildə Şərur rayon Qıvraq qəsəbə Vəli Səmmədov adına 1 N - li tam orta məktəbdə təhsil almağa başlamışdı. 2002-ci ildə isə hərbiyə böyük marağı olduğu üçün Heydər Əliyev adına Hərbi liseyə daxil olmuşdu. 2005-ci ildə həmin liseyi bi-

tirdikdən sonra elə həmin il Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuşdu. 2009-cu ildə həmin məktəbi motoatıcı ixtisası üzrə bitirmişdi. 2009-cu ilin iyun ayından başlayaraq bir il müddətində Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində zabit ixtisas kursunun dinləyicisi olmuşdu.Leytenant hərbi rütbəsi alaraq AAHM-də işləməyə başlamışdı. 2010-cu ilin iyun ayından 2014-cü ilin iyun ayına qədər Təlim kursunun MAHHXHQ üzrə taqım komandiri olmuşdu. Həmin illərdə baş leytenant hərbi rütbəsi almışdı. 2014-cü ilin iyun ayından 2016-cı ilin fevral ayına qədər mühafizə bölüyünün komandiri vəzifəsində çalışmışdı. 2016- cı ilin iyun ayına qədər təlim maşınları və silahlı bölük komandirinin müavini vəzifəsində çalışmışdı. Elə həmin il kapitan hərbi rütbəsinə yüksəlmişdi. 2016-cı ildən 2018-ci ilin avqust ayına qədər kursların gizir və MAHHXHQ bölüyünün komandiri vəzifəsində xidmət etmişdi. 2018- ci ildən N saylı hərbi hissənin 2-ci taborunun qərargah rəisi tabor komandirinin müavini vəzifəsində çalışmışdı. 2020-ci ildə isə mayor hərbi rütbəsinə qədər yüksəlmişdi.

İsmayılov Fuad işinin peşəkarı idi. O Azərbaycan Ordusunda öz xidməti vəzifələrini layiqincə yetirdiyi üçün hələ şəhadətə ucalmazdan öncə dəfələrlə mükafatlandırılmışdı. O, «Qüsursuz xidmətə görə» medalı, «Azərbaycan Ordusunun 90 illiyi» yubiley medalı, «Azərbaycan Ordusunun 95 illiyi» yubiley medalı və «Azərbaycan Ordusunun 100 illiyi» yubiley medalı ilə təltif edilmişdi.

Fuad 2010 - cu ildə ailə həyatı qurmuşdu. Özü vətənin layiqli vətəndaşı olan Fuad iki oğul övladı Xəyal və Yusifi də vətənə layiq oğul kimi böyüdürdü. İşinə hədsiz sevgisi olan Fuadın getdiyi bu çətin və şərəfli yolda bütün maneələri aşmasında elə o sevgi kömək olurdu. Onun üçün vətən sevgisi bütün sevgilərdən, dəyərlərdən üstün idi. İşində hədsiz dərəcədə diqqətli olan hərbçinin işində bir qüsur tapmaq demək olar ki, mümkünsüz idi.

İsmayılovlar ailəsinin vətən keşiyini çəkən qəhrəmanı tək Fuad deyildi. Fuadla yanaşı qardaşı Heydər İsmayılov da hərbçi peşəsinə yiyələnmişdi.

Sentyabrın 27-də başlanan, illər sonra qələbə ilə sonlanan Vətən müharibəsinin qəhrəmanı kimi Fuad da can verib san qazanmışdı. O, Talış,





Suqovuşan uğrunda gedən döyüşlərdə son nəfəsinə qədər mübarizə aparmışdı. Oktyabrın 4-də şəhid olmuşdu. Günlərlə nəşini götürmək mümkün olmamış, yalnız oktyabrın 9-da şəhidin nəşini götürmək mümkün olmuşdu. Oktyabrın 10-da vətən uğrunda canını fəda edən şəhidlərin uyuduğu II Fəxri Xiyabanda torpağa tapşırılmışdı.

Hər doğulan oğul igid olub, əbədiyaşarlıq qazana bilməz. Nə qədər vətən uğrunda canından keçən oğullar olacaq bu vətənin ömrü uzanacaq. Çünki o oğulların ömrü vətənin ömrünə calanır. Ömrünü vətən ömrünə calayan mayor İsmayılov Fuad Murad oğlu Prezident İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, «İgidliyə görə» medalı və «Suqovuşanın azad olunmasına görə» medalı ilə təltif edilmişdi. Əslində isə qəhrəmanın ən böyük təltifi qazandığı şəhid adıdır.

## ŞƏHİD FUAD

Böyük eşqin sahibləri böyük eşqlə anılar,
Böyük eşqlə anılanlar qəhrəman tək tanınar,
Şəhid olan əbədiyyən yaşar biri sanılar,
Vətən üçün candan keçən ölməz olar cahanda,
Ürəklər riqqətə gəlir şəhid adın duyanda.

Adın vətənlə yaşayır, vətənə oğul, Fuad,
Vətən savaşı zamanı qəhrəman tək qoydun ad,
Vətən sevgin o döyüşdə sənə oldu qol-qanad,
Şığıdın düşmən üstünə əbabil quşu kimi
Min tikəyə parçaladın düşmənlərin qəlbini.

Suqovuşan cana gəldi qolunun qüvvətiylə,
Öz ömrünü yaşayırdın şəhadət niyyətiylə,
Al bayraqda geri döndün şəhid səltənətiylə,
Qəhrəman tək şəhidlərin cərgəsində yer aldın
Köç etsən də bu dünyadan, əbədi qəlbdə qaldın.



**BABAYEV RAHİB BƏXTİYAR OĞLU MAYOR (II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## MUROVDAĞA İZİN SALAN RAHİB

Vətən həsrətinin alovuna qərq olan ürəklərin alovunu azadlıqdan başqa heç bir şey söndürə bilməz. Hətta yaya həsrət qalan Murovdağın insanın cismini qılınc tək kəsən şaxtası da o alovu soyutmaz. Necə ki, Rahibin ürəyi soyumadı. Əksinə illər yer dəyişdikcə o alovun atəşi daha da çoxaldı.Çünki narahat ruhlar, viran torpaqlar var idi.

Babayev Rahib Bəxtiyar oğlu 1985-ci il iyunun 19-da Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Külüs kəndində anadan olmuşdur. Üç uşaqlı ailənin ilk uşağı olan Rahib 1992-ci ildə Külüs kənd tam orta məktəbində təhsil almağa başlamışdı. 1996-cı ilə qədər həmin məktəbdə təhsil aldıqdan sonra 1997-1999-cu illərdə Naxçıvan şəhər 14 N-li tam orta məktəbdə təhsilini davam etdirmişdi. 1999- cu ildə Cəmşid Naxçıvanski adına hərbi liseyə qəbul olmuş, 2002-ci ildə liseyi bitirmişdi.2002-ci ildə Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuş, 2006-cı ildə bitirmişdi. Ərazisinin 20%-i düşmən tapdağı altında olan Azərbaycanın havasını, suyunu udan Rahib bir gün vətən borcunu canı ilə ödəyəcəyini hər zaman dilə gətirərmiş. Bizlər Rahib və onun kimi qəhrəmanların haqlarını heç zaman ödəyə bilməyəcəyik.





Bir hərbçi kimi ilk olaraq Sumqayıtda N saylı hərbi hissədə xidmətə başlamış, sonra Qazax və Murovdağ silsiləsində xidmət edən Rahib Babayev mayor hərbi rütbəsinə qədər yüksəlmişdi. Çətin və əlverişsiz relyefi olan Murovdağda 8 il xidmət edən Rahib bir dəfə də olsun çətinlikdən şikayət etməmişdi. O, ilk komandiri olan Polad Həşimovun yolunun layiqli davamçısı idi. Rahib və onun kimi oğullar nə Polad Həşimovun nə də digər şəhidlərin uğrunda can verdikləri Qarabağı düşmən tapdağında qoymazdı. Yolu vətən yolu, şərəf yolu idi...

Rahibin ordu sıralarında göstərdiyi əvəzsiz xidmətləri ölkə rəhbərliyi tərəfindən nəzərə alınmış və dəfələrlə medallarla təltif edilmiş. O, «Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi» yubiley medalı, «Azərbaycan Ordusunun 95 illiyi» yubiley medalı, «Azərbaycan Ordusunun 100 illiyi» yubiley medalı, «Qüsursuz xidmətə görə» 3 -cü dərəcəli medalı,»Qüsursuz xidmətə görə» 2-ci dərəcəli medalı ilə təltif edilmişdi.

Rahib vətənə layiq oğul olduğu kimi ailəsinə də layiq ailə başçısı idi. 2008-ci ildə kiçik dövlətini quran Rahibin ocağını üç övlad nəfəsi isitdi. Mələk, İbrahim və Əli gəlişləri ilə Rahib və Aygün xanımın sevgilərinə qol-qanad oldular. Rahib hər zaman ön cəbhədə olduğundan övladlarını gec-gec görürdü. Bəzən o ayrılıq 5-6 aya çatırdı. Əslində Rahib hər əsgərini özünə övlad, səngəri isə evi bilirdi. Çünki ömründən ötən çox anlar səngərdə əsgərləri ilə keçirdi. O, çalışırdı ki, həm əsgərlərə hərbinin dərinliyini öyrətsin, həm də əsgərlərini qorusun. Onun amalı qorumaq idi. Rahib bu amal uğrunda canından keçərək müqəddəs vətəni qorudu.

Vətən keşiyində duran oğulların halqa-halqa birləşib düşmən qolunu zincirlədiyi 27 sentyabrda başlayan Vətən müharibəsində Rahib də «Qana-qan» deyib Qarabağa doğru yol almışdı. Murovdağ, Kəlbəcər istiqamətində gedən döyüşlərdə vuruşan qəhrəman müharibənin ilk günlərində düşməni məğlubiyyətə uğratmışdı. Babayev Rahib sentyabrın 30-da başçılıq etdiyi taborla birlikdə bir neçə düşmən postunu ələ keçirmişdi. Tabeliyində olan 20 əsgərlə birlikdə sol Canavar postunu cəmi 40 dəqiqəyə götürmüş, sağ postun alınmasında böyük rolu olmuşdu. Yaralı olmağına baxmayaraq o geri çəkilməmişdi. Xanımı oktyabrın 28-də zəng edib «Murovdağda bir çox yüksəkliklər alınıb.» deyəndə Rahib yorğun səslə «Həmin postları biz almışıq.» demişdi. Yaralı olduğunu xanımından

gizlətmiş, ona «Heç kimin qarşısında ağlama.» demişdi. Bu zaman Aygün xanım telefonda «Komandir təcili gəlməlisiniz.» sözlərini eşitmiş və vəziyyətin ciddiyyətinin fərqinə varmışdı.

Rahib ön cəbhədə vuruşmamalı olduğu halda o ön cəbhədə vuruşub. Çünki o səngər generalının layiqli davamçısı idi. Rahib üç gün ərzində böyük qəhrəmanlıq göstərib. Şəhadəti ilə bu vətənə necə oğulların qurban getdiyini bir daha sübut edib. Vətən üçün yaşayan oğul vətən üçün də yaşamdan əl üzüb.Düşmənin «aşılmaz» sədlərini nəinki laxladan, hətta yerlə yeksan edən Azərbaycan Ordusunun səriştəli, peşəkar mayoru sentyabrın 30-da düşməndən aldığı postda minamyot atəşinə tuş gələrək şəhidlik zirvəsinə ucalıb. Ürəyi ilə birlikdə 21:30-da Zakir Həsənovun hədiyyə etdiyi saat da dayanıb. Həmin an İbrahim heç zaman ağlamadığı kimi ağlamağa başlayıb. Uşağı sakitləşdirmək mümkün olmayıb. Çünki o atasına hədsiz bağlı idi. İndi İbrahim atasının göylərdə olduğu nağılına inanmaq istəyib onu göylərdə axtarır. «Ana istəyirəm atam daha yerə ensin.» İbrahimdən fərqli olaraq hələ 2 yaşı tamam olmayan zaman atasını itirən Əli yəqin ki, atasını xatırlamır. Onsuz da doğulduğu gündən atasını doğru düzgün görməmişdi. Qızların ata sevgisi bir başqa olur. Mələk qardaşlarından böyük olduğu üçün həsrətini biruzə vermir. Onsuz da üzüntüyə qərq olan anasını o da üzmək istəmir. Ancaq atasının xiffətini çəkir.

Sentyabrın 30-da şəhid olan Rahibin nəşini oktyabrın 1-dən 2-nə keçən gecə götürmək mümkün olub. Oktyabrın 2-də Sumqayıt şəhər Şəhidlər Xiyabanında dəfn olunub.

Mayor Babayev Rahib Bəxtiyar oğlu Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Azərbaycan Bayrağı» ordeni "Vətən uğrunda" medalı və "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif olunub.

Vətən boyda oğulların həsrəti də vətən boyda olar. Daha Yazgül ana həsrətli ürəyinə oğlunun qoxusu hopan köynəyi sıxıb, qoxlayır. Rahibin qoxusun köynəyindən alan ana onun isti nəfəsinə, gül camalına həsrətdi.





## ŞƏHİD RAHİB

Min hünər nəğməsinin musiqisi, sözüsən,
Anaların buludu xatırladan gözüsən,
Qəhrəmanlıq həkk olan bir tarixin özüsən,
O tarix bir millətin göyə ərən başıdı
Qazanılan bu zəfər illərin savaşıdı.

Haqq sədanla kükrədin düşmənlərin üstünə,
Göz yummadın bu xalqın vətən adlı zülmünə,
Qanınla qazandığın bu ad-sana, bu ünə,
Ötən illər kölgəsin həkk edə bilməyəcək
Rahib, yazdığın tarix heç vaxt silinməyəcək.

Bənzədin məğrur duran Murovdağ zirvəsinə,
Gücün, rəşadətinlə düşmənə gəldin sinə,
Deyirəm dili ola o uca dağlar dinə,
Deyə "Sinəm üstündə bir mayor izin saldı."
Şəhid, adın önündə bu dağlar aciz qaldı.



## VƏLİYEV VÜSAL İSLAM OĞLU
## MAYOR
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

### «İRƏLİ YOX ARDIMCA»

Nə mümkün bu xalqın iradəsini qırmaq? 44 günlük müharibədə bütün dünya Azərbaycan xalqının əzminə, gücünə, iradəsinə şahid oldu. Hər qəhrəmanı bir dastana çevrilib dillərdən - dilə düşdü. Azərbaycanın iftixarı olan oğulların keçdikləri döyüş yolu filmləri xatırlatsa da əslində bir gerçək idi. O gerçək qəhrəmanlıqların hər birinin baş qəhrəmanı Azərbaycan oğulları idi. Azərbaycan adı ilə bütövləşən «can» lar.

Dünəni vətən, bu günü vətən, sabahı vətən olan oğulları saya gəlməyəcək qədər çoxdu bu vətənin. Vəliyev Vüsal İslam oğlu kimi oğullar vətənin qəhrəmanları sayılır.

Nəzər saldığım bu ömür çətin ki, yaddaşımdan silinə. Vüsalın da çöhrəsi, həyatı xəyallarıma, adı ürəyimə əbədi həkk olundu. Digər şəhidlər kimi...

Vəliyev Vüsal İslam oğlu 15 iyul 1988-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Dizə kəndində anadan olmuşdur. Ailədə 5 uşaq (3 qardaş, 2 bacı) olmuşdular. Sədaqət və sadiqlik ailənin təməlində var olmuş və 5 övlad valideyn sevgisi ilə əhatə olunmuşdu. Vəliyev Vüsal 1994-cü ildə Şərur rayon Dizə kənd tam orta məktəbində I sinfə qədəm





qoymuşdu. 2002-ci ildə ərizə yazıb hərbi təhsil almaq üçün məktəblə yollarını ayırmış, 2002-ci ildə Heydər Əliyev adına Hərbi liseyə qəbul olmuş və 2005-ci ildə liseyi bitirmişdi. Daha sonra 2005-2009-cu illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil almışdı. Vüsalın döyüş yolu 2020-ci ildə Şuşaya qədər uzanmışdı. Bu illər ərzində isə Vüsal bir hərbçi kimi daima bilik və bacarığını təkmilləşdirmək üçün çalışmışdı. 2012-ci ildə 3 aylıq Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) təlimini uğurla keçmişdi. Atəşkəs zamanı daima düşmən tərəfindən atəşə tutulan Beyləqan, Füzuli, Ağdam, Tərtər, Qazax, Tovuz, Göygöl, Murovdağ silsiləsində xidmət etmişdi.

Vəliyev Vüsal ordudakı xidmətlərinə görə dəfələrlə medallarla təltif edilmişdi. O, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi»-yubiley medalı, "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı, Azərbaycan Respublikası Müdafiə Naziri General-Polkovnik Zakir Həsənov tərəfindən təqdim edilmiş "Əfqanıstanda sülhməramlı missiyaya görə" medalı və " Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalına layiq görülmüşdü.

Vüsal nişanlı idi. Hələ çatmadığı vüsalı çox idi. Mədinə ana oğlunun toy tədarükünü görürdü. Həm Bakıda, həm Naxçıvanda toy edəcəkdi Vüsala. Vüsalın sevdiyinin gələn yollarını bəzəyəcəkdi. Nə bilərdi ki, oğlunun tabutda gələn yollarını bayraqlar bəzəyəcək.

Atası Vəliyev İslam oğluna ev tikdirirdi. Evin yerini gündoğana tərəf seçmişdi. Vüsaldan xəbər ala bilmədikcə çarəsiz ata Vüsala qismət olmayan o evə gedirdi. Ürəyi oğlunun itkin xəbərinə tab etmədi. Tikdirib başa çatdıra bilmədiyi oğul evində ürəyi parça-parça oldu,haqq dünyasına qovuşdu.

Vüsal son dəfə oktyabrın 1-də ailəsi ilə danışmışdı. Sonra ondan bir neçə dəfə xəbər gəlsə də o xəbərlər doğruluğu əks etdirməmişdi. Vüsalın atası oğlunun göstərdiyi şücaətlərdən, Vüsal da atasının ölümündən xəbərsiz əbədiyyətə köçdülər. Yəqin artıq cənnətdə qovuşublar.

İşğaldan azad olunan bütün ərazilərin azadlığı üçün mübarizə aparıb Vüsal. Ürəyi hər qarış torpağın azadlıq sevincinə qərq olub. Dəfələrlə yaralanıb ancaq o döyüşün sonuna qədər yolundan dönməyib. Döyüş zamanı vətənlə yanaşı neçə-neçə qəhrəmanın da həyatını xilas edib. Hər

zamanı əsgərlərinin qeydinə qalıb. Onlara ata, qardaş kimi qayğı göstərib. Hər zaman əsgərlərinə «İrəli» yox «Ardımca» əmri verib. Çünki özü öndə gedib, öndə vuruşub. 44 günlük müharibə sona çatdıqdan 1 gün sonra noyabrın 9-da atəşkəs üçün yalvaran düşmənin növbəti təxribatı törətməsi nəticəsində Şuşada şəhadətə ucalıb.

Müharibənin ilk başladığı günlərdə Vüsalla danışan ailəsi Zəfər qazanıldıqdan sonra da ondan xəbər ala bilməyib. Vüsalın itkin düşmə xəbərinə ata ürəyinin tab etmədiyini görən ailə Vüsalın itkin düşdüyünü Mədinə anadan gizlədiblər. Ancaq ana ürəyi hiss etməzmi? «Şəhid anası» deyə naməlum səsləyiş Mədinə anaya Vüsalının şəhadətindən xəbər verib.

Dekabrın 14-də Vüsalın mübarək nəşi doğulub boya-başa çatdığı Naxçıvan Muxtar Respublikasının Şərur rayonuna gətirilib. Həmin gün ailə möcüzə ilə rastlaşıb. Sinəsi qana qərq olan ağ göyərçin evin ətrafında pərvaz edib. Sanki «Mən Vüsaləm, yaşayıram.» deyə çırpınıb. Axı şəhidlər ölmür...

14 dekabrda Vüsal ata ocağına əbədi vida edib. 9 noyabrda şəhadətə ucalan qəhrəman 14 dekabrda Şərur rayon Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Mayor Vəliyev Vüsal İslam oğlu Vətən müharibəsində göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, "İgidliyə görə" medalı, «Kəlbəcərin azad olunmasına görə» medalı ilə təltif edilib.





## ŞƏHİD VÜSAL

Ardınca səsləyib sən əsgərləri,
Hər zaman irəli atıldın, mayor.
Canını bir sipər edib vətənə,
Açdın azadlığa dönülməyən yol.

Yolundan nə yaman qan iyi gəlir,
Səni qorxutmadı o qan qoxusu.
Sənin o getdiyin qanlı yollardan,
Vətən övladının keçdi çoxusu.

Qədəmin zəfərin çarçısı kimi,
Hər yoldan ötənə səndən deyəcək.
Qarabağ yurduna qədəm qoyanın,
Gözləri önünə şəhid gələcək.

Xalqın hey adını dilə gətirib,
Vüsal, sənin ilə qürurlanacaq.
İllərlə bərabər dərdin böyüyüb,
Ürəkdə hər zaman qübarlanacaq.



**ƏLİYEV ASİMAN VAQİF OĞLU**
**MAYOR**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## ASİMAN BOYDA SEVGİ

Bəzi gedişlər var, dönüşü olmayan gedişlər. Dönməyəcəyini bilə-bilə yenə gedərsən. Dönüb geridə qalanların yaşlı gözlərinə baxarsan ancaq yenə dönməzsən, gedərsən. Bilərsən ki, dönməsən belə o göz yaşları qürurla əvəzlənəcək. Ardınca deyilən «Ata səni gözləyəcəm.» sözləri ürəyinə qılınc kimi saplanar. «Qızım, oğlum dönüşümdə sizi bağrıma basa bilməsəm məni bağışlayın. Siz mənim tabutuma sarılın,sizi duyacam.» deyərsən ürəyində. Beləcə uzaqlaşıb gözlərdən itərsən. Ümidlərin gözlərdən itdiyi kimi. Asiman, ümidlər asimanın sonsuzluğunda sənin kimi itdi.

Çox sevdin vətəni. Sonsuzluğa qədər yolu oldu bu sevginin. Doğulduğun gün bir qəhrəmanlıq dastanının ilk səhifəsi belə yazıldı.

Əliyev Asiman Vaqif oğlu 1987-ci il fevralın 1-də Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Düylün kəndində anadan olmuşdur. İlk təhsilini Düylün kənd tam orta məktəbində almışdı. VIII sinfi bitirdikdən sonra 2001-ci ildə Heydər Əliyev adına Hərbi liseyə daxil olmuşdu. 2004-cü ildə liseyi bitirdikdən sonra Azərbaycan Ali Hərbi Məktəbində hərbi təhsilini davam etdirmişdi. 2008-ci ildə motoatıcı taqım komandiri ixtisasına yiyələnmişdi. 2015-2016-cı illərdə N saylı hərbi hissədə motoatıcı bölük komandiri kimi çalışmışdı. 2016-cı ilin noyabr ayına qədər Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində kursların snayper hazırlığı kurs rəisinin müavini və ehtiyat zabit hazırlığı kursunda 1-ci bölük komandiri vəzifəsində çalışmışdı.





Asiman 2016-cı ildə 4 günlük müharibənin də iştirakçısı olmuşdu. O döyüşdə düşməni ağır məğlubiyyətə uğradan Asimanın dostu Nəcməddin Savalanov və əsgəri şəhid olmuşdu. Asimanın idarə etdiyi avtomobil qəlpələrdən dəlik-deşik olsa da, bir neçə dəfə yaralansa da Allah Asimanı saxlamışdı. Yəqin qismətinə Vətən müharibəsinin qəhrəmanı olmaq yazılıbmış.

Son 1 il idi ki, Cəmşid Naxçıvanski adına Hərbi liseydə kurs rəisi vəzifəsində çalışırdı. Liseydə oxuyanların gələcəkdə səriştəli bir zabit olmaları üçün çalışırdı. Vətən müharibəsinə də oradan yollanmışdı. Müharibənin ilk günlərindən müharibəyə qatılmasa da hər zaman «Görərsiniz, hamıdan gec getsəm də şəhid olub dönəcəm.» deyirdi. (Görəsən hiss etmişdi yoxsa Allah dedizdirirdi?) Noyabrın 4-də müharibəyə yollanmışdı. Noyabrın 7-də Xocavənd-Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdu. Dediyi kimi oldu. Gec getdi, tez döndü. Gedişində xəyal etdiyi kimi döndü. Şuşanın azad olunduğu deyilən zaman Şuşa uğrunda can verən Asiman II Fəxri Xiyabanda torpağa tapşırıldı. Ruhu asimandan boylandı Qarabağa. Özünün dediyi kimi bu günün zabiti sabahın şəhidi oldu. Asiman bilirdi ki, hərbçi hər an Allah tərəfindən şəhidliklə mükafatlandırıla bilər. Onun qızlarına son dəfə yazdığı məktubundan həm həsrəti, həm də vidası oxunur. Kim bilir o məktubu yazarkən Asiman nələr çəkdi.

- Salam yekə qızım ,necəsən?Bilməni istəyirəm ki, ata sənsiz çox darıxıb.Özü də lap çox. Çünki sən atanın ağıllı,savadlı ,mehriban və gözəl qızısan. Dərslərini oxu, axı sən həkim olacaqsan. Ata üçün darıxma, inşallah gələcəm.Ata işdə qalır çünki, atanın evdə 3 övladı ,1 balası (qardaşının oğlunu nəzərdə tutur) var. İşdə isə 340 övladı (kursantları nəzərdə tutur) var. Allah sizi və onları qorusun. Ananı və nənəni incitmə. İmza: Ata.

Asiman digər qızına yazdığı məktubunda yazıb:

- Əziz Zuzum, ata məktubunu oxudu, hədiyyəni də aldı. Ballı darıxma.İnşallah torpaqlarımız azad olsun ata yenə yanında yatacaq. Ağıllı

qızım, dərslərini yaxşı oxu. Bacının, ananın sözünə qulaq as. Ata üçün darıxma. Ata sizinlə nəfəs alır. Paşamdan, Rauldan muğayət ol. Nənəni, babanı çox istə. Ən əsası yaxşı oxu və atanı arzusuna çatdır. Atanın ballı, balaca qızı, öpürəm. İmza :Ata.

- Ayselim, can yoldaşım, həyatdı ,qismətdi mənə bir şey olsa başını dik tut. Darıxma, balalarımıza yaxşı bax. Bilirəm Nilay və Zəhra məni unutmayacaq, ancaq Vaqif hələ körpədi. Məni ona gözəl tanıt. Bilirəm böyüdükcə atası ilə qürur duyacaq. Mənim övladlarım həm də anası ilə qürur duyacaq. Çünki sən şəhid xanımı adını qürurla daşıyacaqsan. Övladlarım mənim sənə əmanətlərim, sən də Allaha əmanətimsən.

Son dəfə 7 noyabrda zəng etdiyində Asimanın səsindən zəfər sevinci duyulurdu.İllərdi arzuları bəzəyən Şuşanın azad olunması artıq gerçəyə çevrilmişdi. Qəhrəman oğullar Şuşaya qədəm qoymuşdu. Asiman da Şuşaya çatdıqdan sonra yanına düşən minamyot qəlpəsinin şah damarını kəsməsi nəticəsində şəhadət zirvəsinə qədəm qoyub. Qədəmlərin mübarək şəhidim.

Bir neçə saat əvvəl «Yaxşıyam, məndən nigaran qalmayın.» deyən Asimanın şəhid olduğu xəbərini yoldaşından gizlədib onun yaralı olduğunu desələr də Aysel xanım bu yalana inanmır. Ancaq inanmaq istəyir. Əgər nəfəsi üstündə olsaydı mənə zəng edərdi düşüncəsi ilə yola çıxır. Həyətlərinə çatanda hərbi formada dayanan əsgərləri gördüyündə dünya başına fırlanır. Yaralı quş kimi çırpınan Aysel Asimanını axtarır. O anda Gülayə ananın dediyi «Asiman daha yoxdu.» sözləri Ayselin ürəyini mərmidən daha kəskin şəkildə yaralayır. (Görən həmin an bu cahan Ayselin fəryadına necə tab etdi?) Asimanın son dəfə geyindiyi köynəyini götürüb bürüyüb, büküb saxladı. Asimanın qoxusu dağılsa, o qoxunu duymasa necə yaşayar deyə dodaq altında danışan Aysel hər kəsi göz yaşlarına qərq etdi. Aysel o an balaca qızı Zəhranın atası müharibəyə getdiyi gün gördüyü yuxunu xatırladı. Zəhra həmin gün ağlayaraq yuxudan oyanıb «Yuxuda gördüm evimiz yanır, üstündə də əzrail uçur.»demişdi. O,yuxuda gördüyü uzun qara quşu əzrailə bənzətmişdi. Həmin o yuxu gerçək oldu.

Asimanın dərdi Gülaya anaya asiman boyda gəldi. Onun yumruq boyda ürəyi oğul həsrətinə cəmi 40 gün dözə bildi. Oğlunun 40-ı günü Gülaya ana haqqın dərgahına qovuşdu.





Asiman gözəl övlad ,qayğıkeş ata,mehriban həyat yoldaşı, işinin peşəkarı ,dostlarının arxalandığı dağ idi. Onun zamansız gedişini ailəsi ilə yanaşı dostları da qəbul edə bilmir. İndi hər kəs onun adını yaşatmağa çalışır. Yaxın dostu, kursant yoldaşı mayor Kərimov Nail Asimanın adını övladına əmanət edib.

Asimanın cənnətdə olduğu heç kimə sirr deyil. O, qızı Nilayı yuxuda cənnətindən xəbərdar edib. Nilay atasından harda olduğunu və niyə gəlmədiyini soruşub. Atası cavabında «Qızım, mən olan yerdə güllər, kəpənəklər var. Amma heç kimə bu barədə demə. Heç ana da bilməsin. Çünki bunu deməyə Allah icazə vermir.» deyib.

Mayor Əliyev Asiman Vaqif oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən öncə «Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi»yubiley medalı , «Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi» yubiley medalı, «Azərbaycan Ordusunun 100 illiyi» yubiley medalı, «Qüsursuz xidmətə görə» 3-cü dərəcəli medalı, «Qüsursuz xidmətə görə» 2-ci dərəcəli medalı, şəhadətindən sonra isə «Vətən uğrunda» medalı və «Xocavəndin azad olunmasına görə» medalı ilə təltif edilib. Ən gözəl təltif də xalqın Asiman sevgisinin asiman qədər olmasıdı.

## ŞƏHİD ASİMAN

Sevginin sonsuzluğu asimana bənzədi,
Bu sevgin vətənimi, torpağımı bəzədi,
Vətənin işğalına sənin qəlbin dözmədi,
Dedin «Vətən torpağı darda qalsa ölərəm
Görsəm Şuşa torpağın onda qəlbdən gülərəm.»

Arzuna çatdın şəhid, sən qovuşdun Şuşaya,
Bir anlıq seyrə dalıb, dayandın tamaşaya,
Şükür etdin Allahın verdiyi gözəl paya,
O gözəl torpaqlara qan axdı qətrə-qətrə
Şuşa o gün büründü cənnət qoxan ətirə.

Yol aldı şəhadətə şəhidlərdən bir karvan,
Sən də yerini aldın o karvanda, Asiman,
Vətəndən gözəldimi cənnət adlı o dünyan?
Vətəndə cənnət qoxur qanın düşən dağ-dərə
Qanınla imza atdın Qarabağda Zəfərə.







**RZAYEV İLKİN CƏFƏR OĞLU**
**MAYOR**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## MUROV ASLANI

Azadlıq... Bu sözü dilə gətirəndə bir anda insanın gözləri böyüyür, nəfəsi genişlənir. Bu sözün sehridirmi? Xeyir, bu sözün dəyəridir. Azadlıq heç zaman asan əldə olunmur. Azadlıq mücadilə, mübarizə ilə əldə olunur. Bir ölkənin illərin keşməkeşli sınaqlarından keçib sonda azad, müstəqil, suveren olması ən öndə duyğudur. O xalq azadlıq sözünün dəyərini daha dərindən anlayır. O xalq azadlıq uğrunda can verənləri unutmur. İlkin də xalq qəlbində azadlıq məşəlini yandıran qəhrəman kimi unudulmazlar sırasındadı. Xalqın mötəbər şəhidi azadlığa can verdi.

Rzayev İlkin Cəfər oğlu 1984-cü il iyulun 28-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Ələkli kəndində dünyaya göz açmışdı. 1990-cı ildə Bakı şəhəri Suraxanı rayonu 270 N - li tam orta məktəbdə ibtidai təhsil almağa başlamışdı. 1995-ci ildən isə təhsilini Bakı şəhəri Nizami rayon 250 N - li məktəbdə davam etdirmişdi. 2001-ci ildə məktəbdən məzun olmuşdu. 2002-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdu. İxtisasca motoatıcı olan İlkin 2006-cı ildə hərbi məktəbi leytenant hərbi rütbəsi alaraq başa vurmuşdu. 2006-cı ildə Müdafiə Nazirliyinin əmrinə əsasən Silahlı Qüvvələrin Təlim və Təd-

ris Mərkəzində hərbi biliklərini dərinləşdirmiş və 2007-ci ildə bitirmişdi. 2007-ci ildən 2010-cu ilə qədər N saylı hərbi hissədə taqım komandiri, 2010-cu ildən 2013 - cü ilə qədər bölük komandiri kimi çalışmışdı. 2015-ci ildə tabor komandiri, 2016-cı ildə N saylı hərbi hissədə döyüş hazırlığı bölmə rəisinin baş köməkçisi olmuşdu. 2009-cu ildə baş leytenant, 2013 - cü ildə kapitan rütbəsi alan İlkin 2017 - ci ildə mayor hərbi rütbəsinə yüksəlmişdi.

Xidməti zamanı «Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi» yubiley medalı, «Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi» yubiley medalı, «Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi» yubiley medalı, «Qüsursuz xidmətə görə» III dərəcəli medalı, «Qüsursuz xidmətə görə» II dərəcəli medalı və «Hərbi xidmətdə fərqlənməyə görə» III dərəcəli medalı ilə təltif edilmişdi.

İlkinin bu qədər vətənə bağlı olması, düşmənə nifrət etməsi səbəbsiz deyildi. Onun atası Cəfər Rzayev də I Qarabağ döyüşlərində qəhrəmancasına vuruşmuşdu. O zaman münaqişənin sonu zəfər olmasa da bu gün o döyüşçülərin övladları zəfər qazandı. Əfsuslar olsun ki, Cəfər Rzayev bu gün Qarabağın azadlığını görə bilmədi. Cəfər Rzayev 2003-cü ildə avtomobil qəzası nəticəsində həlak olub. Elə o zamanlardan ailənin bütün yükü İlkinin çiyinlərinə yığılıb. Balaxanım ananın ən böyük dəstəkçisi olan İlkin bacı, qardaşının yükünü də öz çiyinlərində daşıyıb. Qətiyyətli, sərt görünən İlkinin ürəyini mərhəmət nurlandırırdı. Allahın sevimli bəndəsi, dininə bağlı İlkin şəhidlik arzusunda olan bəndələrdən biri idi.

İlkin sevgisini heç zaman bəlli etməzdi. Zeynəb xanımı da ailəsinin məsləhəti ilə seçmişdi. Bir hərbçi xanımı olmaq böyük məsuliyyət tələb edir. Elə onun üçün İlkinin Zeynəb xanıma ilk sualı «Özünü bir hərbiçiyə layiq bilirsənmi?» olmuşdu. Əslində o zaman sərt səslənən bu sualla İlkinin nə demək istədiyini Zeynəb xanım ailə qurduqdan sonra tam başa düşmüşdü. 2014-cü ildə ailə quran ikili 1 il sonra ilk övlad sevincini yaşamışdılar. Nur gəlişi ilə evinə nur saçmışdı.

İlkin Azərbaycanın bir çox rayonlarında xidmət edib. Tovuz, Murovdağ, Cəlilabad, Astara, Beyləqan və Ağcəbədidə xidmət edib. Lakin o hər zaman Murovdağda xidmət etməyə can atıb. Hətta belə bir söz də deyirmiş «Dağda xidmətdə olduğun 1 gecə, Aranda 100 günlük xidmətə bərabərdi» Onun ləqəbi «Murov Aslanı» idi. İlkinin bu ləqəbə layiq görülməsi səbəbsiz deyildi. Bir dəfə gecə düşmən postunda yuxulayan əsgərlərin giriş - çıxış nöqtələrini qum torbası ilə hörmüş, düşmənə mesaj çatdırmışdı. Ertəsi gün bunu görən düşmən hərbi hissəyə atəş açsa da onların layiqli cavabını verən İlkin «Qurd sürüyə hücum etmək istəsə qoyunun nə edəcəyi önəmli deyil.» demişdi. O zamandan hər kəs İlkini «Murov Aslanı» adlandırmışdı.





Rzayev İlkin 2016-cı ildə Aprel döyüşlərində də böyük şücaət göstərib. Həmin vaxt məzuniyyətdə olan İlkin televizyada ən yaxın dostu Mayor Əliyev Elnur Adil oğlu ilə olan şəkilinin göstərildiyini və Elnur Əliyevin şəhid olduğunun yazıldığını görüb. Həmin an məzuniyyətdən imtina edib döyüşlərə qatılıb. İlk azadlıq sevincini Aprel döyüşlərində bəxş edib.

İlkin ikinci dəfə ata olmaq sevincini 2017-ci il fevralın 20-də oğlu Əli dünyaya gələndə yaşayıb. Lakin həmin o günlərdə ermənilərin törətdikləri təxribatların artması səbəbindən bir müddət oğlunu görə bilməyib. Həmin vaxt fevralın 24-dən 25-nə keçən gecə daha böyük təxribata əl atan erməni silahlıları Fevral döyüşlərini törədiblər. Döyüşlər zamanı Azərbaycan ordusunun 5 hərbçisi şəhid olub. Oğlunu görə bilməyən İlkin «Mən oğul sevinci yaşayıram, oğul itirən ana-atalar var.» deyib.

İlkinin son vidası müharibə başlayan gün olub. 27 sentyabrda qısa müddətlik evinə gələn İlkin hər kəslə halallaşıb və gedib. Qapıdan çıxanda «Zeynəb, 8 noyabrda ad günündə sənə hədiyyə alacam. Özüm gətirə bilməsəm də göndərəcəm.» deyib. İlkin 8 noyabrda özü gəlməsə də Zeynəbə Qələbəni hədiyyə edib.

İlkin döyüş meydanında Ermənistan ordusuna divan tutduqca məğlubiyyətin acısını dinc əhalidən çıxan erməni silahlılarının törətdikləri bütün vəhşilikləri Zeynəb və 2 körpəsi də gözləri ilə görüb və yaşayıb. Gəncəyə atılan bombalar onların da başına yağıb. Qorxudan dili tutulan Əlinin dili hələ də açılmayıb. Bu müddət ərzində İlkinin zəng etməməsi ailəni qorxuya salıb. Zeynəb xanım erməni saytlarında Polad Həşimovun imzalayıb İlkinə verdiyi kağız və İlkinin yanından ayırmadığı Polad Həşimova həsr olunan kitabı görüb. Həmin an İlkinin şəhid və ya itkin olduğu qorxusu Zeynəb xanımın ürəyini bürüyüb. İlkinin evdə qalan telefonundan bir iş yoldaşının nömrəsin tapıb ona zəng edən ailədən əvvəlcə İlkinin şəhid

xəbəri gizlədilsə də sonra bu acı gerçək deyilib. 3 oktyabrda boynundan snayperlə vurularaq şəhid olan İlkinin şəhid xəbəri 5 oktyabrda gəlsə də onun nəşini götürmək mümkün olmayıb. 65 gün sonra Zeynəb xanım sevdiyinin nəşini görüb. İlkini nəfəssiz görmək Zeynəb xanım üçün çox ağır olub.

Mayor Rzayev İlkin Cəfər oğlu 18 dekabr 2020-ci ildə II Fəxri Xiyabanda torpağa tapşırılıb.

Son nəfəsinə «Övladlarımdan muğayət olun. Komandanlığa deyin üzrümü qəbul etsinlər. Döyüş tapşırığını sonuna qədər yerinə yetirə bilmədim.» sözlərini sığdıra bilən qəhrəman şəhidim, bu dəfə sənin və sənin kimi oğulların sayəsində bu müharibə qələbə ilə sona çatdı. Siz bu xalqa azadlıq sevincini bəxş etdiniz.

Mayor Rzayev İlkin Cəfər oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda medalı" və «Kəlbəcərin azad olunmasına görə» medalı ilə təltif edilib.

### ŞƏHİD İLKİN

Torpağın üstündə aslanlar gəzər,
Çaqqalar vətəni didməsin deyə.
Aslanın yurduna qədəm qoyanlar,
Mütləq ki, o yurda gəlir ölməyə.

Murov Aslanının bir andı vardı,
«Qarabağ düşməndən azad olacaq!»
İllərdi həsrətdən yanan torpağın,
Yanan ürəyini o soyudacaq.

Dönmədi əhdindən bir an da İlkin,
Nərəsi titrətdi Murov dağını.
Düşmən pəncəsindən xilas eləyib,
Çiçəyə qərq etdi vətən bağını.







## HƏSƏNOV SADİQ ƏLİ OĞLU
## MAYOR
## (II Qarabağ müharibəsində şəhid olmuşdur.)

### VƏTƏNƏ SADİQ QƏHRƏMAN

Şəhidlər sədaqətin simvoludur. Onlar vətənə, xalqa, imana, dinə sadiq qalırlar. Onların ürəyində xəyanət toxumu cücərəcək bir yer tapılmaz. «Xəyanət əhli aşiq ola bilməz!» Şəhidlər isə vətənə aşiq bəndələrdi. Sadiqliyi ilə hər kəsin inam, etibarını qazanmağı hər insan bacarmır. Sadiq bunu bacardı. Elə adından da onun necə bir insan olduğu bəlli idi. Axı insanın adı onun daxili dünyasından xəbər verir.

Həsənov Sadiq Əli oğlu 14 sentyabr 1986-cı ildə Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhərində dünyaya göz açmışdı. İki qardaşın sonuncusu olmuşdu. Ata, anası onu Sadiq adlandırmışdı. Elə hər şey o adla başlamışdı. Sözün əsil mənasında adı ilə böyümüşdü. Sadiq 1992-ci ildə Naxçıvan şəhər Məmməd Tağı Sidqi adına 4 N - li tam orta məktəbdə təhsil almağa başlamışdı. Elə orta məktəbdə oxuduğu zamanlardan hərbçi olmaq qərarına gəlmişdi. Ailəsi də onun bu fikirini dəstəkləmiş və Sadiqin bu peşəni qüsursuz icra edəcəyinə şüphə etməmişdi. Heç kəs fikirlərində yanılmamışdı. 2000-ci ildə Sadiq ilk önəmli addımı atmış və Heydər Əliyev adına Hərbi liseyə qəbul olmuşdu. 3 illik təhsilini başa vurduqdan son-

ra Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdu. 2007-ci ildə AAHM - dən motoatıcı ixtisası üzrə məzun olmuşdu. Elə həmin il Təlim və Tədris Mərkəzində dinləyici olmuşdu. Bir hərbçi kimi 2008-2010-cu illərdə Goranboyda yerləşən N saylı hərbi hissədə motoatıcı taqım komandiri, 2010-2012-ci illərdə Tərtərdə yerləşən N saylı hərbi hissədə motoatıcı taqım komandiri, 2012-ci ildən 2014-cü ilə qədər Gəncədə yerləşən N saylı hərbi hissədə motoatıcı taqım komandiri, 2014-2015-ci illərdə Naftalanda yerləşən N saylı hərbi hissədə tank əleyhinə taqım komandiri, 2015-2016-cı illərdə N saylı hərbi hissədə nizami hissə rəisi-qərərgah rəisinin şəxsi heyətin uçotu üzrə nümayəndəsi, 2016-2017-ci illərdə başqa hərbi hissədə eyni işin icraçısı, 2017 - ci ildə isə Naxçıvanda yerləşən N saylı hərbi hissədə qərərgah rəisinin köməkçisi kimi fəaliyyət göstərmişdi. Daha sonra Xüsusi Təyinatlı Qüvvələrin tərkibində işləyən Sadiq 2019-cu ildə mayor hərbi rütbəsinə qədər yüksəlmişdi. Son xidmət yeri isə Ağcəbədi rayonunda yerləşən N saylı hərbi hissə olmuşdu. Xidməti dövründə orduda göstərdiyi yüksək dərəcəli xidmətləri nəzərə alınaraq «Qüsursuz xidmətə görə» II dərəcəli medalı, «Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi» yubiley medalı, «Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi» yubiley medalı və «Azərbaycan Ordusunun 100 illiyi» yubiley medalı ilə təltif edilmişdi.

Sadiq vətənə layiqli vətəndaş olmaqla yanaşı həm gözəl övlad, həm də gözəl ailə başçısı olmuşdu. O, 2011-ci ildə xalası qızı Sona xanımla ailə qurmuşdu. Ailə qurduqdan sonra Sona xanım bir hərbçi xanımının sinə gələ biləcəyi bütün çətinliklərə sevgisinin gücü ilə sinə gəlmişdi. İlk olaraq Tərtərdə yaşamağa başlayan Sona xanım daha sonra Sadiqin xidmət etdiyi bir çox rayon və şəhərlərdə məskunlaşmışdı. Ailənin ilk övladı Lalə 2012-ci ildə, ikinci övladı İnci isə 2016-cı ildə dünyaya gəlmişdi. Sadiq qızlarına çox bağlı bir ata olmuş, onların xoşbəxtliyi üçün hər vəchlə çalışmışdı. Onun arzuları var idi. Hələ İncisinin əlindən tutub məktəbə aparacaqdı. Elə balaca İnci də o günlərin xəyalı ilə böyüyür. «Mən böyüyəndə atam gələcək.» deyən bu qızcığaz hələ bilmir ki, böyüdükcə ata həsrəti onunla bərbər böyüyəcək. Lalə isə belə arzuları dilinə gətirmir. Çünki o şəhid atasının cənnətdə olduğunu bilir.

Azərbaycan Ordusunun əsgərindən generalına qədər bütün hərbçilərin eyni anda azadlıq müharibəsində mübarizə apardığı döyüşlərdə ma-





yor Həsənov da ön cəbhədə vuruşanlardan olub. O, müharibədə olduğunu ailəsindən gizlədib. İstəməyib ki, sevdikləri onun üçün nigaran olsunlar. Lakin şəhid olmazdan 10 gün öncə qardaşı Toğrul Sadiqin döyüşdə olduğunu bilib. Sadiqin istəyi ilə o da bu barədə heç kimə bir kəlmə də deməyib. Hər gün ailəsi ilə danışan Sadiq oktyabrın 18-də zəng edəndə hər kəsi Müstəqillik günü münasibətilə təbrik edib. Deyib «İndi bizə bu bayramı qeyd etmək yaraşır.» Elə son zəngi o təbrik zəngi olub.

Sadiq bir çox ərazilərin azad olunmasında qəhrəman kimi mübarizə aparıb. Dəfələrlə ölümlə üz-üzə gəlib. Hətta bir dəfə düşmən tərəfindən atılan minamyot düz yanına düşüb. Ancaq partlamayıb. Sadiq «Allah məni yaşatdı,daha mənə heçnə olmaz.» deyib. Oktyabrın 20 - də Qubadlının Balasoltanlı kəndi uğrunda mübarizə aparan zaman qəhrəmancasına şəhid olub. Elə həmin gün Sadiqin şəhid xəbəri Naxçıvana çatsa da ailəsinə bu xəbər bir gün sonra verilib. Şəhidin nəşi vətən uğrunda canını fəda edən bir neçə şəhidlə bərabər oktyabrın 24-də Naxçıvana gətirilib və Naxçıvan şəhərindəki məzarlıqda dəfn olunub. Ruhu bir il öncə xəstəliyə qurban verdiyi anası Şövkət xanımın ruhuna qovuşub.

Mayor Həsənov Sadiq Əli oğlu Vətən müharibəsində bir çox ərazilərin işğaldan azad olunmasında göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə «Vətən uğrunda» medalı, "İgidliyə görə" medalı, «Xocavəndin azad olunmasına görə» medalı, «Cəbrayılın azad olunmasına görə» medalı və «Qubadlının azad olunmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD SADİQ

Sədaqətin, andın oldu azadlıq,
Azadlığın memarından birisən.
Bu vətənin bayrağına büründün,
Sadiq, xalqın müqəddəs and yerisən.

Sən vətənsən qeyrət rəmzi, qəhrəman,
Məzar daşın vətən kimi görünür.
Gözdən axan damla-damla göz yaşı,
Torpaq üstə dizin-dizin sürünür.

İki bala ata gəzir məzarda,
Qolu yoxdu bu məzarın qızcığaz.
Sənə «körpə qızım» deməz heç zaman,
Bu məzardan gəlməz daha bir avaz.

Vətən bilin, torpaq bilin, yurd bilin,
Əzizləyin vətənin hər bucağın.
Neçə oğul bala olub vətənə,
Oğullar boş qoymaz vətən qucağın.







**MƏMMƏDOV TOĞRUL SƏYYAD OĞLU KAPİTAN (2016-cı ildə şəhid olmuşdur.)**

## VƏTƏNİ ANA TƏK SEVƏN OĞUL

Kiçik ürəklərdə böyüyür vətən. Körpələrin dənizin, səmanın sonsuzluğuna heyrətlə baxdığı kimi heyrətlə baxıram şəhid sevgilərinə. Sonu olmayan eşqin sahibi. Yer üzündəki bütün insanları tuta biləcək qədər sonsuz cənnətin sakinləridi şəhidlər. Yer üzündəki bütün insanların gedə bilməyəcəyi bir yerdi cənnət. Canını vətənə fəda edənlərin cəm olduğu yerdi cənnət. Cənnətin sakinləri bir-birinə çox bənzəyir. Onların amalı da, yarası da, yaşı da bənzərdi. Geridə buraxdıqları da...

Cənnət çoxmu gözəldi, şəhid? Vətən torpağından, ana qucağından dahamı istidi? Cənnətində daha əziz bildiklərin Nəcməddini, Raqufu, Əsədi gördünmü? Nəcməddinə qisasın aldığını müjdə verdinmi, şəhid? Çoxmu ağır gəldi sənə dost itkisi? Bəs sənin itkinin neçə ürəyə qəm yüklədiyindən xəbərdarsanmı, Toğrul?

Kapitan Məmmədov Toğrul Səyyad oğlu 1988-ci il iyulun 26-da Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Şıxmahmud kəndində anadan olub. Ailənin ilk övladı olub. O, ata-anasını erkən yaşlarında itirib. Həyatın erkən yaşlarında böyütdüyü Toğrul bacısına və qardaşına atalıq edib. Uşaqlığı əzab - əziyyət bir də həsrətlə keçən Toğrul ana vətənə

daha çox mehr salıb. Hərbiyə böyük sevgisi olduğu üçün 2002 - ci ildə Cəmşid Naxçıvanski adına Hərbi liseyə daxil olub. 2005-ci ildə oradan məzun olduqdan sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2009-cu ildə məktəbi leytenant hərbi rütbəsi ilə bitirib. Bununla yetinməyən Toğrul Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris mərkəzində 1 illik ixtisasartırma kursu keçib. Toğrul tutduğu yolun nə qədər məsuliyyətli bir yol olduğunun fərqində idi. O hər zaman hərbçi adını layiqincə daşıyırdı. Dəfələrlə ölümlə üzüzə qalan Toğrul 2014-cü ildə düşmən təxribatının qarşısını alarkən də yaralanmışdı. Güclü iradəsi və əzmkarlığı bu dəfə də öz sözünü demişdi. Cisminin yaraları sağalan Toğrul ürəyinin vətən adlı yaralarını sağaltmaq üçün işinin başına dönmüşdü. Ölkə başçısı İlham Əliyevin sərəncamı ilə dəfələrlə medallarla təltif edilmişdi. «Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi» yubiley medalı, «Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi» yubiley medalı və «Hərbi xidmətdə fərqlənməyə görə» 3-cü dərəcəli medalı ilə təltif edilmişdi.

Toğrul bütün həyatını vətənə həsr etmişdi. O, ailə qurmaq barəsində düşünmürdü. Çünki bilirdi ki, bir hərbçinin ömür yolu əksər hallarda qısa olur. Hər zaman subay olduğunu dilə gətirərək döyüş yoldaşlarından öndə getmişdi. O, 2016- cı ildə Azərbaycan Silahlı Qüvvələrinin bir çox əraziləri işğaldan azad etdiyi Aprel döyüşlərində də qəhrəmancasına vuruşan qəhrəmanlardandı. Toğrulun ürəyində həmin döyüşlərin dərin izi qalmışdı. Həm qalibiyyətin izi, həm də «qardaşım» dediyi dostu Nəcməddinin şəhid olmağının izi. «Qisasın qiyamətə qalmayacaq qardaşım.» deyən Toğrul sözünü tutdu. Cəmi 67 gün sonra dostunun qisasını alıb dostunun cənnətinə tələsdi. 14 iyul 2016-cı ildə düşmən təxribatının qarşısını alarkən düşmənin snayperdən açdığı atəş nəticəsində şəhid oldu.

Körpəlikdən ata, ana yoxluğu ilə böyüyən Üzeyir və Şəbnəmin ən böyük dayaqlarının, ata - ana bildikləri qardaşlarının itkisi dünyaların altüst etdi. Hər zaman söhbətlərində «Biz torpaqlarımızı geri alıb bu yolda şəhid olanların qisasını almalıyıq.» deyən Toğrul son nəfəsinə qədər andından, amalından dönmədi.

Bu mənzərə Üzeyir və Şəbnəmə çox tanış idi. Onlar körpə olanda iki məzarda uşaqlıqları dəfn olunmuşdu. İndi isə xəyalları qardaş məzarında dəfn olundu.

Kapitan Məmmədov Toğrul Səyyad oğlu iyulun 15-də doğulduğu





Babək rayonunun Şıxmahmud kəndində izdihamla dəfn olunub. Anasız, atasız şəhidi minlərlə ata və ana öz övladı bilib. Şəhidə el yanıb necə ki, şəhid el yolunda bir şam kimi yanıb, vətənə işıq saçıb.

## QEYRƏT TƏCƏSSÜMÜ

Sən qeyrət təcəssümü,
Sən tarixin özüsən.
Bu millətin bitməyən,
Söhbətisən, sözüsən.

Toğrul, adını duyan,
Səni fərəhlə anır,
Bu millət şəhidini,
Hər zaman yaşar sanır.

Silinməz·iz qoymusan,
Tarixin yaddaşında.
Səninlə qürur duyur,
Bacın da, qardaşın da.

Döyüşdə ön cəbhədə,
Döyüşərdin hər zaman.
Düşmənə qan uddurub,
Oldun vətənə hayan.

Döyüş meydanlarında,
Nərə çəkib, kükrədin,
Aprel döyüşlərində,
Böyük hünər göstərdin.

Əmanətdir bizlərə,
Şərəfli döyüş yolun.
Xalq unutmaz heç zaman,
Qeyrətli şəhid oğlun.



**CABBAROV SEYMUR İLHAM OĞLU KAPİTAN (II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## DODAQDA QALAN «VƏTƏN» SÖZÜ

Vətən torpağında uğrunda can verən neçə - neçə qəhrəmanın torpağa qarışan cismindən şərəf, ləyaqət, qəhrəmanlıq, şücaət toxumu cücərir. Şəhid məzarlarında göz yaşı səhər şehi, həsrətli dualar isə bahar mehi olur.

Bir məzarın üzərində qürurla dalğalanan bayraq. O bayraq ki, şəhidin tabutu üzərində göz oxşadı. O bayraq ki, anaların, övladların göz yaşı ilə islandı. İndi neçə göz bayrağı həsrətlə seyr edir, torpağı sevdiyi kimi əzizləyir. Axı o bayraq uğrunda canından can ayrılıb, axı o torpaqda sevdiyi əbədi uyuyub. Şəhid dərdi çəkənlər açan çiçəklərdən şəhid qoxusun duyurlar. Ömrünün ən gözəl çağında vətən uğrunda solan qönçə ömürlər həyatın hər anında yer alırlar.

Maral xanımın aldığı hər nəfəsdə Seymur can tapır. Heç bilmirəm bu sevgini hansı sözlərlə izah edim. Sevgilərinin təməli 27 sentyabr 2009-cu ildə atılan bu cütlük həyatın hər çətinliyinə birlikdə sinə gəlirdilər. Maral xanım Seymurla birgə həyata başladığı gün hərbçi yarının hansı çətinliyə sinə gəlməli olduğunu yaxşı bilirdi. Ancaq hər çətinliyin sonunda hədiyyəsi olan bir təbəssümlə sevgilərin ən gözəlini yaşayırdı. Sevgi dolu ailə gün keçdikcə qol-budaq atırdı. Əvvəlcə qız övladları Sevincin sevinci-





ni yaşayan Seymur və Maral cütlüyü sonra Nihatın gətirdiyi xoşbəxtliyə qərq olmuşdular. Bir zamanlar öz gəlişi ilə ata - anasına sevinc yaşadan Seymur özü övlad sevincini duymuşdu.

Cabbarov Seymur İlham oğlu 24 yanvar (sənədlərdə 16 mart kimi qeyd olunub) 1987-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Çərçiboğan kəndində dünyaya göz açmışdı. Orta təhsilini 1993-2001-ci illərdə Ramin Abbasov adına tam orta məktəbdə almışdı. VIII sinfi bitirdikdən sonra 2001-ci ildə Heydər Əliyev adına Hərbi liseyə daxil olmuşdu. 2004-cü ildə lisseyi bitirmiş və elə həmin il Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuşdu. 2008-ci ildə həmin məktəbi bitirdikdən sonra Müdafiə Nazirliyinin əmrinə əsasən leytenant hərbi rütbəsi almış,Silahlı Qüvvələrin Təlim və Tədris mərkəzinin zabit ixtisas kursunun dinləyicisi təyin edilmişdi. 2009-cu ildə Silahlı Qüvvələrin Təlim və Tədris mərkəzinin zabit ixtisas kursunu bitirmişdi. Azərbaycanın Gəncə, Gədəbəy, Füzuli, Naxçıvan, Ağcabədi və Beyləqan kimi bölgələrində xidmət etmişdi. Seymur ordunun peşəkar zabitlərindən biri idi. O, ordudakı xidmətlərinə görə «Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi» yubiley medalı, «Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi» yubiley medalı, «Qüsursuz xidmətə görə» III dərəcəli medalı, «Azərbaycan Ordusunun 100 illiyi» yubiley medalı ilə təltif edilmişdi. Ancaq o bunlarla kifayətlənmirdi. Seymurun bir amalı var idi. Bir gün bütün işğal altındakı torpaları azad etmək və şəhidlərin intiqamını almaq. Onun illər öncə Aprel döyüşlərində qəhrəmancasına şəhid olan mayor Rasim Məmmədov haqqında yazdığı «Mənim mərd ,cəsur, igid ,qorxmaz, qəhrəman kambatım qazi oğlu Rasim Məmmədov, sənin qisasını biz alacağıq və mən inanıram ki, sizin ruhunuz da o an bizimlə birgə vuruşacaq.» sözləri onun intiqam hissi ilə yaşadığının sübutu idi .

Zəfər ili kimi tarixdə silinməyən iz salan 2020 - ci ilin 27 sentyabrında Azərbaycan ordusunun bütün əsgər və zabit heyəti, bütün Azərbaycan xalqı bir «Dəmir yumruq» kimi birləşdi. Zəfərə doğru addımlayanlardan biri də Seymur Cabbarov olub. «Ölərəm dönmərəm!» deyən qəhrəman son nəfəsinə qədər tarix yazıb. Ən çətin döyüşlərdən biri olan Füzuli rayonunun azad olunması zamanı yanlarına mərmi düşməsi nəticəsində 3 oktyabrda qəhrəmancasına şəhid olub. Son nəfəsində su istəyən Seymura

döyüş yoldaşı yağış yağması nəticəsində islanan torpağı sıxıb bir damla su verib. Qəribəsi odur ki, elə həmin zaman Seymurun oğlu Nihad da eyniylə atası kimi su istəyib. Yəqin ki, uşaq yuxuda atasının sonuncu nəfəsini hiss edib.

Ömrünün sonuna qədər sevdiyinin əlini buraxmayacağına söz verən Maral xanım heç düşünməzdi ki, sevdiyi ilə bu qədər tez sonuncu yolçuluğa çıxar. Bir qadının 2 övladı ilə birlikdə sevdiyinin cənazəsi (hətta başqa şəhid cənazələri) ilə birlikdə bir təyyarədə getməsinin nə demək olduğunu yalnız onu yaşayan bilər. Onu izah edə biləcək cümlə yoxdu.

Cabbarov Seymur İlham oğlu 3 oktyabr 2020-ci ildə Şərur rayon Şəhidlər xiyabanında torpağa tapşırılıb. Şəhadəti ilə xalq ürəyinə adı yazılan qəhrəman Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə «Vətən uğrunda» medalı, «İgidliyə görə» medalı və «Füzulinin azad olunmasına görə» medalı ilə təltif edilib.

Susuz dodaqlarında «Vətən» kəlməsi donub qalan şəhidim, sən Vətən boyda sevginə can verib, Vətən kimi müqəddəsləşdin.





## ŞƏHİD SEYMUR

Yatdığın torpaqdan başlayır vətən,
Vətənçün can verib vətəndə bitən,
Azadlıq toxumun vətənə səpən,
Gül açıb azadlıq nə gözəl qoxur
Adınla anılır qələbə, Seymur.

Sənin şücaətin, qəhrəmanlığın,
Düşmən ürəyinə çəkdiyin dağın,
Daşlara yazılan tər cavanlığın,
Düşüb dildən-dilə tez-tez duyulur
Vətən qəhrəmanı, şəhidim Seymur.

Sən heç Qarabağda çəkmədin səfa,
Vətən dərdi oldu qəlbinə cəfa,
Torpağı köksünə sıxıb son dəfə,
Dedin «Vətən, canım qurbanın olur.»
Cismin bütövləşdi vətənlə, Seymur.

Adın qürurudur iki balanın,
Sevgin həsrətidir nazlı sonanın,
Şəhid dərdi ilə yaralananın,
Loğman da dərdinin dərmanı olmur
Yoxluğun ağır bir sınaqdı, Seymur.



**MUSİBOV VEYSƏL
YADULLA OĞLU
KAPİTAN
(II Qarabağ müharibəsində şəhid
olmuşdur. )**

## VƏTƏN MÜHARİBƏSİ QƏHRƏMANI

Damarda azərbaycanlı qanı axırsa dünyanın harasında həyata göz açdığının bir fərqi yoxdur. O vətən, torpaq sevgisi ruhunu ovsunlayar. Qürbətdə dünyaya gələn ancaq vətən torpağı uğrunda şəhid olan qəhrəmanların adlarını az eşitməmişik. Belə qəhrəmanlardan biridir Musibov Veysəl Yadulla oğlu. O, 1989-cu il fevralın 15-də Qazaxıstan SSR Taldı- Kurqan vilayətinin Kirov qəsəbəsində anadan olub. Veysəl ailənin yeganə oğul övladı bir bacının qardaşı idi. Veysəl qürbətdə dünyaya gəlsə də onun 2 yaşı olanda ailəsi Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Sələsüz kəndinə köçüb. Elə həmin kənddə yerləşən Vahid Ələkbərov adına məktəbdə təhsil alıb. Atasını erkən yaşlarında itirən Veysəl uşaqlıqdan anasının ən böyük dəstəkçisi olub, O, VII sinfi bitirib və hərb peşəsinə yiyələnmək üçün Heydər Əliyev adına Hərbi liseyə qəbul olub. 2007-ci ildə liseyi bitirib. Həmin ildən 2011-ci ilə qədər Azərbaycan Ali Hərbi Məktəbində oxuyub. Leytenant hərbi rütbəsini aldıqdan sonra 2011-ci ildə N saylı hərbi hissədə taqım komandiri kimi çalışıb. 2012-ci ildə Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) kursunu keçib. Xüsusi əməliyyat qrup





komandiri vəzifəsində xidmət edib. 2012-2016-cı illər ərzində bir çox əməliyyatlarda iştirak edib. 2016-cı ildə ordumuzun qalibiyyəti ilə nəticələnən Aprel döyüşlərində də böyük şücaət göstərib. Həmin o zəfərdə payı olanlardan biri də Veysəl olub.

Veysəl bir çox yarışların qalibi olmuşdu. 2018-ci ildə ordu arasında keçirilən "Kəşfiyyatçı qrup" yarışında 1-ci yerin sahibi olmuşdu. Bundan başqa 24 ölkənin Xüsusi Təyinatlı Qüvvələri arasında keçirilən «Efes-2018» yarışında qrup olaraq 1-ci yerin sahibi olmuşdular. 2018-ci ildə xüsusi əməliyyat taborunda əməliyyat zabiti olmuş, 2019 - 2020-ci illərdə xüsusi əməliyyat taborunun qərərgah rəisi vəzifəsində çalışmışdı. Ömrünün hər anını vətən naminə yaşayan bu qəhrəman getdiyi yolun məsuliyyətini hər zaman hiss etmişdi. O, yaxşı bilirdi ki, torpaqlarının bir qismi işğal altında olan bir ölkəyə savadlı hərbçi lazımdı. Yiyələndiyi bilik və bacarığını zamanı gəldiyində vətənin işıqlı günə çıxması üçün sərf etmək arzusunda idi. Veysəl kimi minlərlə vətən oğlu vətəni azad görmək arzusu ilə yaşayırdı. Onlar o azadlığın müjdəçilərinin özləri olduqlarını gözəl bilirdilər.

27 sentyabr 2020-ci il. Bu tarix hər bir azərbaycanlının yaddaşına həkk olunub. Çünki azadlığa uzanan yolun təməli o gün atıldı. Vətən müharibəsinin başladığı ilk günlərdən döyüşlərin ən qızğın nöqtələrində vuruşanlardan biri də Veysəl idi. O, Kəlbəcər rayonu istiqamətində, Murovdağ yüksəkliyinin azad olunmasında müstəsna xidməti olan hərbçilərdən idi. Eləcə də Füzulinin bir çox kəndlərinin azad edilməsində iştirak edib. Son döyüşü isə Cəbrayılın azadlığı uğrunda olub. Musibov Veysəl 7 oktyabrda Cəbrayıl rayonunda qəhrəmancasına şəhadətə ucalıb. Qarabağımız neçə-neçə qəhrəmanların qanı, canı bahasına azadlığa qovuşdu. İndi həmin o oğullar əbədi olaraq vətən qoynunda uyuyublar. Musibov Veysəl Yadulla oğlu 8 oktyabr 2020-ci ildə Xırdalan şəhər Şəhidlər Xiyabanında can verdiyi torpağa tapşırılıb.

Kapitan Musibov Veysəl Yadulla oğlu Orduda xidməti zamanı «Qüsursuz xidmətə görə» III dərəcəli medalı, «Azərbaycan Ordusunun 90 illiyi» yubiley medalı, «Azərbaycan Ordusunun 95 illiyi» yubiley medalı, «Azərbaycan Ordusunun 100 illiyi» yubiley medalı, «Hərbi xidmətlərə görə» medalı ilə təltif olunmuşdu. Qəhrəman şəhadətə ucaldıqdan sonra

«Vətən müharibəsi qəhrəmanı» medalı, «Vətən uğrunda» medalı, «Cəbrayılın azad olunmasına görə» medalı, «Xocavəndin azad olunmasına görə» medalı, «Qubadlının azad olunmasına görə» medalı və «Zəngilanın azad olunmasına görə» medalı ilə təltif edilib.

Vətən müharibəsi qəhrəmanının 2 övladı bu gün atalarının şəhid adı ilə qürur duyurlar. Onlar hələ atalarının şücaətlərinin böyüklüyünü dərindən dərk etmirlər. Onlar böyüdükcə necə bir qəhrəman atanın övladları olduqları ilə daim fəxr edəcəklər.

## ŞƏHİD VEYSƏL

Qürbətdə yazılmışdı ömrünün ilk sətiri,
Sonra vətəndə yetdi ömrün yeni illəri.
«Ana» dediyin vətən «oğul» səsləyən zaman,
Vətənimi bürüdü cənnətinin ətiri.

Sən vətənçün yaşadın ömrünü, şəhid Veysəl,
Vətənin hər qarışı gözünə göründü ləl.
Şəhidlər əmanəti olan Azərbaycana,
Dar günündə oğul tək sən də uzatdın bir əl.

Yurdu xilas elədin düşmənin pəncəsindən,
Həsrət buzu əridi sonuncu nəfəsindən.
Neçə şəhid adı tək sənin adın can tapır,
Azərbaycan adında olan «can» kəlməsindən.







## CƏMİYEV AŞUR BƏYBALA OĞLU KAPİTAN

**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## ÖLÜMLƏRİN ƏN GÖZƏLİ

«Ən gözəl ölüm şəhidlikdir!» Bir cümlə ilə izah olunan şəhidlik arzusu. Arzuya bax İlahi. Yaratdığın bəndə sənin əmanət verdiyin canı vətənə qurban edib sənin hüzuruna alnıaçıq dönmək arzusundadı. Axı şəhid olan Allahın sevdiyi, seçdiyi bəndədi. O bəndə cənnətin əziz sakinidir. Ən gözəl ölümlə mükafatlandırılıb ölümsüzləşən şəhid Cəmiyev Aşur.

Cəmiyev Aşur Bəybala oğlu 18 iyun 1989-cu ildə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Külüs kəndində anadan olmuşdur. Onun dünyaya gəldiyi gün Aşura gününə təsadüf etmişdi. Buna görə də ona Aşur adı qoyulmuşdu.

Cəmiyev Aşur uşaqlıqdan vətən, bayraq, torpaq sevdalısı olub. O sevgidən doğan arzuları var idi Aşurun. Xəyallarının bəzəyi hərbçi forması, səngər, silah idi. Elə ona görə də arzularının ardınca getdiyi zaman onu dəstəkləyənlər çox oldu.

Aşur 1996-cı ildə Naxçıvan şəhər Qambay Vəzirov adına 6 saylı tam orta məktəbə getmişdi. 2003-cü ildə Heydər Əliyev adına Hərbi liseyə daxil olmuşdu. 2006-cı ildə liseyi bitirdikdən sonra elə həmin il MTN Akademiyasına daxil olmuşdu. 2010-cu ildə Akademiyanı bitirmişdi.

Təyinatla Lənkarana göndərilmişdi. N saylı hərbi hissədə birinci taqım komandiri kimi çalışmışdı. 2011-ci ildə Astarada rəis müavini işləmişdi. 2012-ci ildə yenidən təyinatla Lənkarana qayıtmış və bölük komandiri işləmişdi. 2014-cü ildə orada qərargahda işləmişdi. 2018 - 2019-cu illərdə çevik bölük komandiri olmuşdu. 2019-cu ildə könüllü kəşfiyyat kursuna yazılmışdı. 5 aydan sonra Qazaxda kəşfiyyat bölüyünün komandiri olmuşdu. Cəmiyev Aşur hər zaman igidliyi ilə fərqlənmiş,öz işinin, peşəsinin vurğunu olmuşdu. «Hər şey vətən üçün!» şüarı həyatının şüarı idi. Sözdə deyil əməldə hər şeyi vətənə qurban edəcəyini sübut edirdi. Tək bir arzusu var idi. O arzu isə onun məqsədi idi. Arzusu da, məqsədi də işğal altında olan Azərbaycan torpaqlarını azad etmək və Şuşaya bayraq sancmaq idi. İşğalı alnımızda olan ləkə adlandırırdı. «Biz bu ləkəni silməliyik. Böyüyən uşaqlar bu ləkə ilə həyat sürməməlidir. Dünənlərdən bu günə qalan bu müharibə sabahlara qalmamalıdır.» deyirdi. Cəmiyev Aşur dediyi bütün sözlərə əməl etdi. Şəhid olmağı ölümlərin ən gözəli adlandıran qəhrəman bir gün şəhid kimi dünyadan köçəcəyini tez-tez dilə gətirərdi. Əsgərlərini, vətəni sevən kapitan heç zaman əsgərlərini tək buraxmaz, onların qayğısına qalardı.

Kapitan Cəmiyev Aşur arzusuna çatmaq üçün böyük şansın yarandığı Vətən müharibəsi zamanı böyük hünər göstərib. Oktyabrın 6-da yaralansa da hospitala getməkdən imtina edib. Döyüşə davam edib, xeyli irəliləyib. Çox saylı düşməni məhv edib. İllərlə ürəyində böyüyən intiqamını düşməndən alıb. Aşur Cəbrayıl, Füzuli, Zəngilanın azad olunmasında öndə döyüşüb. Xudafərinə bayraq sancmaq onun qisməti olub. O gün Aşur böyük arzularından birinə çatıb. Ancaq onun ən böyük arzusu Şuşaya bayraq sancmaq idi. Təssüf ki, Aşurun döyüş yolu Şuşaya çatmayıb. O, Zəngilanda ağır döyüşlərdə son nəfəsinə qədər vuruşub və qəhrəmancasına şəhadət zirvəsinə ucalıb.

Sən doğulanda arzular da səninlə doğulmuşdu. İlk övlad sevincini səninlə yaşayan ailən illər sonra övlad kədərinə qərq olacağını xəyal etməmişdi. O zaman beşikdə uyuyan körpənin gələcəyin bir qəhrəmanı kimi torpaqda uyuyacağından hər kəs xəbərsiz idi. Ailənin digər övladları gün gələcək bacı, qardaşını qardaş adlı həsrətə qərq edəcəyini düşünmədilər. Doğmaların bəzən bu qədər ağır dərdə dözəcək taqətləri qalmadığı anda





sanki sənin varlığını hiss edib həyata tutunurlar. Həsrətin ən ağırıdı şəhid həsrəti. «Şəhidlər ölməz deyirlər.» o gerçəyə tutunanların gözləri hər yerdə səni axtarır. Ən dözülməz olansa üç körpə ürəyin ata həsrətidi. O körpələr atalarının məqamını nə qədər anlasalar da yenə də atalarının isti nəfəsini duymağı arzu edirlər. Kim bilir o körpələr gizlində vətən torpağını nə qədər ataları kimi qoxlayırlar. Axı ataları vətən uğrunda can verib, torpağa dönüb.

Şəhid vəsiyyəti ilə Naxçıvan şəhər məzarlığında torpağa tapşırılıb. İllərlə vətənin işğalı ilə barışmayan Aşurun ürəyi azadlıq sevincini yaşayıb və arzusunda olduğu şəhidliyə layiq görülüb.

Vətən qəhrəmanının şəhadətindən öncə qazandığı «Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi» yubiley medalı ,»Azərbaycan Sərhəd Mühafizəsinin 95 illiyi» yubiley medalı «Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi» yubiley medalları sırasına şəhadətindən sonra prezident İlham Əliyevin sərəncamı ilə «Vətən uğrunda» medalı, «Vətənə xidmətə görə» 3-cü dərəcəli ordeni və «Zəngilanın azad olunmasına görə» medalları da əlavə olunub.

## ŞƏHİD AŞUR

Sənin həyat şüarındı azadlıq,
Unutmadın Qarabağı bir anlıq,
Hər Qarabağ kəlməsini duyanda,
Qəlbin oldu o yerlər tək viranlıq.

Əzmi, gücü sığdırmışdın illərə,
Əzmin nuru düşdü qərib ellərə.
Sən döyüşə qatıldığın zamanda,
Dediyin söz düşdü dildən-dillərə.

Bir an belə geri dönmədin, Aşur,
Bu vətənin oğluna bu yaraşır.
Vətən üçün candan keçən oğullar,
Torpaq olub bu torpağa qarışır.

Füzulinin, Cəbrayılın torpağın,
Azad edib kəsdin düşmən ayağın.
Zəngilanda qanın düşdü torpağa,
Naxçıvana gəldi şəhid sorağın.

Bu gedişin izi qalar əbədi,
Şəhidlərin qismət payı belədi.
Ay ürəyi ata dərdi çəkənlər,
Atanız torpağı vətən elədi.





## MEYDANOV ELMƏDDİN BAHADDİN OĞLU KAPİTAN

**(II Qarabağ müharibəsində şəhid olmuşdur)**



## SONUNCU ZƏFƏR SEVİNCİ

Ucalardan uca vətən,səni sənə layiq övladlar ucaltdıqca ucaldıb. Kürəyinə sancılan hər düşmən xəncəri övladlarının ürəyinə dəyib. Hər övladın yarana məlhəm olmağa çalışıb. Sənin ağrın, acın çox ürəkləri sızladıb. Ağrını, dərdini alan oğullar, analar çoxdur. Oğullar sənin dərdinə məlhəm oldular, analar oğul dərdinə düçar oldular. Oğullar dərdinə məlhəm olsa da anaların oğul dərdinin məlhəmi yoxdu. Hansı məlhəm, hansı loğman Sümbül ananın ürəyindəki Elməddin dərdini sağalda bilər?

Meydanov Elməddin Bahaddin oğlu 11 sentyabr 1989 - cu ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Vərməziyar kəndində anadan olub. Ailəsi ilə bir neçə il Türkiyədə yaşayıb. Türkiyənin Iğdır şəhərində Qurtuluş məktəbində təhsil almağa başlayıb. Oxuduğu müddətdə hər zaman valideynlərinə təşəkkürnamə göndərilib. Savadı ilə hər zaman seçilməyi bacarıb. Elməddinin müəllimləri onun istənilən peşənin peşəkarı olacağını əminliklə vurğulayıblar. Ancaq Elməddin peşələrin ən çətini və şərəflisi olan hərbçi peşəsinə yiyələnməkdə qərarlı olub. VII sinfi bitirdikdən sonra yüksək balla Heydər Əliyev adına Hərbi liseyə daxil olub. Liseydə oxuduğu zaman da savadı onu fərqləndirib. Hətta 2007-ci

ildə əlaçı kursant kimi liseyi qırmızı diplomla bitirib. Qazandığı nailiyyətlərə görə Naxçıvan Muxtar Respublikasının Ali məclisinin sədri tərəfindən mükafata layiq görülüb. 2011-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirdikdən sonra təyinatla Cəlilabad rayonunda yerləşən N saylı hərbi hissədə xidmətə başlayıb.15 iyul 2012-ci ildə xalası qızı Səma xanımla ailə həyatı qurub. Səma xanım Elməddinlə birgə bütün çətinlikləri gözə alaraq Cəlilabada gedib. Sərt keçən qışda bu ocağı sevgi isidib. Elməddinli həyatı və Elməddinsiz həyatı Səma xanımın öz sözləri ilə yazıram.

- Mənim üçün Elməddinsizlik heç zaman Günəşin doğuşu ilə nöqtələnməyəcək gecə kimidi. Yaşayıram ancaq bu yaşayarkən ölmək deməkdi. Onun sözləri, gözləri bir an belə xəyalımdan çəkilmir. Elməddin mənim şükürlü dualarım idi. Onunla səadət tapmışdım. Mən onun əbədi gedişini düşünmürəm. Şəhidlər ölməzdilər. Onun ruhu hər an mənimlədir. Elməddin hər zaman vədinə sadiq olub. Ən böyük vədi isə Qarabağı azad etmək idi. Hər dəfə 27 ildi torpaqlarımızın düşmən tapdağı altında olmasını dilə gətirdiyimdə «Qarabağımızı azad etməyimizə çox az qalıb.» deyirdi. Millətinə, dövlətinə, bayrağına vurğun idi. Onun bu vurğunluğu bəzən məni qorxudurdu. Bilirdim ki, Elməddin bu yolda heç gözünü qırpmadan canını verər.

Bizim həsrətli günlərimiz çox olub. Ancaq mən Elməddinin əbədi gedişinin həsrətinə tab edə bilmirəm. Onun mənə əmanətləri olan Əli və Yusif üçün ayaqda qalıram. Sonuncu dəfə sentyabrın 15-də təyinatla Bakıya göndərildiyini dedi. Ancaq bu gediş başqa gediş oldu. «Sən güclü qadınsan,hər zaman da güclü ol.» sözləri əslində mənə onsuzluğun xəbərçisi imiş. Heç bilməzdim o günkü vida əslində son əlvidadır.

Elməddin oktyabrın 25-də təlimlərdən cəbhəyə yollanıb. Elməddinlə son danışığımızda səsi çox sevincli gəlirdi. Mən 9 ildə heç zaman onun o qədər sevindiyini hiss etməmişdim. Elə o zəngdən 3 saat sonra 27 oktyabrda Elməddin cənnət şəhidlərinin cərgəsinə qoşulub. Bir çox ərazinin azad edilməsi üçün mübarizə aparan Elməddin Zəngilanın Ağbənd qəsəbəsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Şəhidin can verdiyi yüksəklik onun xatirəsinə Meydanov yüksəkliyi adlandırılıb.

Qəhrəman şəhid oktyabrın 30-da Şərur rayonunda müqəddəs şəhidlərin uyuduğu Şəhidlər Xiyabanında torpağa tapşırılıb.





Kapitan Meydanov Elməddin Bahaddin oğlu o qəhrəmanlardandır ki, hələ sağlığında ölkə başçısı tərəfindən dəfələrlə medallarla təltif edilmişdi. O, «Hərbi xidmətdə fərqlənməyə görə» III dərəcəli medalı, «Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi» yubiley medalı, «Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi» yubiley medalı, «Azərbaycan Sərhəd Mühafizəsinin 95 illiyi» yubiley medalı, «Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi» yubiley medalı, «Qüsursuz xidmətə görə» III dərəcəli medalı ilə təltif edilmişdi. Yiyələndiyi bilik və bacarığını döyüş meydanında sərgiləyən qəhrəman kimi vətənə can verən Elməddin şəhadətə ucaldıqdan sonra prezident İlham Əliyevin sərəncamı ilə «Vətən uğrunda» medalı, «Döyüşdə fərqlənməyə görə» medalı, «Zəngilanın azad olunmasına görə» medalı ilə təltif edilib.

Şəhidlərin ömürləri, şəhid analarının kədərləri və qürurlu duruşları bir-birinə bənzəyir. O analardan biridir Sümbül ana. Acısı nə qədər böyük olsa da Elməddinin dediyi «Ana hər zaman məğrur dur, mənimlə qürur duy.» sözləri sanki ananın iradəsidi.

## ŞƏHİD ELMƏDDİN

Vətənçün doğuldun, vətən üçün də,
Ömrünün hər anın fəda elədin.
Sənin arzuların vətən qədərdi,
Allahdan sən azad vətən dilədin.

Azadlıq yolunda nursan, işıqsan,
Bu yolu gedənlər izinlə gedir.
Sevgini eşidib, duyan çox insan,
Sevdiyin vətəni sənin tək sevir.

Hər zəfər kəlməsi dilə gələndə,
Xəyalı bəzəyir adın, Elməddin.
Zəfər yollarını qürurla gedib,
Zəngilan yurdunda canını verdin.

İndi Zəngilanda, həm Qarabağda,
Ruhun qürur ilə pərvaz eləyir.
Azadlıq sevincin bəxş etdiyin xalq,
Şəhidim, adını qürurla deyir.





## QULİYEV ŞAHMAR KƏMALƏDDİN OĞLU KAPİTAN

**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**



## «ÖNCƏ VƏTƏN GÜLÜM»

Vətən torpaqlarına kölgə salan şəhid məzarları xalqın iftixar daşlarıdı. Hər birindən qürur, fəxarət boylanır vətənə. Qocaldıqca ucalan vətənin unudulmaz qəhrəmanlıq salnaməsidi o iftixar daşları. O daşda əks olunan gözlər çox şeydən xəbər verir. Son döyüşdən, son nəfəsdən, son sevgidən və başlanğıcdan. Cənnətə uzanan yolun başlanğıcından. Şahmarın məzarındakı rəsminə nəzər saldığımda sükuta qərq olan o baxışın sanki hayqırtısını duydum. Duymamaq nə mümkün?!

Quliyev Şahmar Kəmaləddin oğlu 7 noyabr 1991-ci ildə Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhərində anadan olmuşdur. 1998-2006-cı illərdə Naxçıvan şəhər M. C. Cəfərov adına 14 N-li tam orta məktəbdə təhsil almışdı. Təhsil aldığı zamanlardan hərbiyə böyük marağı olmuşdu. Müəllimləri onu gələcəyin zabiti kimi görmüşlər. Şahmar ümidləri doğruldub. O, VIII sinfi bitirdikdən sonra 2006-cı ildə Heydər Əliyev adına Hərbi liseyə daxil olub, hərbinin sirlərini öyrənməyə başlayıb. 2009-cu ildə liseyi bitirib və Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2013-cü ildə motoatıcı ixtisası üzrə leytenant rütbəsi alıb. Həmin il Təlim və Tədris Mərkəzində (TTM) təkmilləşdirmə kursunu da uğurla başa vu-

rub. 2014-cü ildə təyinatı üzrə Ağcabədidə yerləşən N sayılı hərbi hissədə taqım komandiri kimi xidmətə başlayıb. Daha sonra xidmətini Ağdamda təmas xəttində davam etdirib. 2016-cı ildə baş leytenant hərbi rütbəsinə yüksəlib.

Azərbaycan Ordusunun ilk qələbəsi sayılan Aprel zəfərində Şahmarın da böyük rolu olub. Lələtəpə və digər strateji yüksəklikləri azad edənlərdən biri olub. Atdığı addımlar Şahmarın bir hərbçi kimi nə qədər peşəkar olduğundan xəbər verib. Vətənə layiq olmağın nə qədər məsuliyyətli olduğunu anlayan Şahmar illərlə qazandığı bilik və bacarığının bu vətənə faydalı olacağı günün gəlib çatacağını gözləyirdi. Bilirdi ki, həmin günlər uzaqda deyil. 2020 - ci ildə kapitan hərbi rütbəsinə yüksələn vətən qəhrəmanı elə həmin il göstərdiyi şücaətlərlə dillər əzbəri oldu.

Şahmar son dəfə evindən çıxanda bir qəhrəman kimi dönəcəyini dilə gətirib. Övladını bağrına basıb övlad qoxusunu ciyərinə çəkən Şahmarın həmin gün dediklərini düşündükcə onun nə qədər qorxmaz, mətin biri olduğu görülür. "Hər an hər şey ola bilər. Qorxmayın, əksinə qürur duyun. Biz ora ölməyə yox öldürməyə gedirik. Getdiyimiz yolda can versək də ölümsüzlük qazanacağıq. Çünki vətən uğrunda canını fəda edən insan ölmür, şəhid olur. Allah şəhid olmağı mənə də qismət eləsin." Hər zaman «Cənabım» deyə ithaf etdiyi sevdiyinin bu sözləri Gülnarə xanımın çöhrəsində göz yaşlarından cığır açır. "Elə demə mənim və oğlumuzun sənə ehtiyacımız var." deyən Gülnarə xanım Şahmardan duyduğu «Öncə vətən gülüm» sözlərinin önündə susur. 6 illik bir sevginin son vidası ürəyə ağır gəlir. Şahmar sanki bir neçə gün sonra olacaqlara hazırlayıb Gülnarə xanımı. Son dəfə telefon danışığı zamanı halallıq alan Şahmar «Gedirəm ki, ailəm, oğlum, anam, atam, yoldaşım bu torpaqlarda başı dik gəzə bilsinlər. Mən illərdi bu günün çatmağını gözləmişəm. Bu mənim və mənim kimi oğulların qisas günüdü.» Həmin qisas günündə düşməndən nahaq tökülən qanların intiqamını alanlardan biri də Şahmar oldu.

Sentyabrın 27-də Qarabağın azad olunması uğrunda başlayan döyüşlərin ilk anlarından haqq savaşına atılan Şahmar və digər dörd döyüş yoldaşı Suqovuşan istiqamətində əks hücuma keçərək düşmənin xeyli sayda canlı qüvvəsini məhv edib, düşmən postunu ələ keçirərək xeyli sayda hərbi qənimət ələ keçiriblər. Şahmar uğurlu əməliyyatdan sonra düşmən





tərəfindən açılan atəş nəticəsində şəhid olan əsgərin nəşini və ağır yaralanan batalyon komandirini 1 kilometrdən çox məsafəni çiyinlərində daşıyaraq onları döyüş meydanından çıxarmağa nail olub. Özü qismən yüngül yara alan Şahmar komandirə ilk tibbi yardım edərək onun həyatını xilas edib. Daha sonra təkrar döyüş meydanına qayıdıb və mübarizəsini davam etdirib. Döyüşlərin ikinci günü 28 sentyabr 2020-ci ildə düşmənin açdığı snayper atəşi nəticəsində şəhid olub. Qəhrəmanın şəhid olduğu xəbəri ailəsinə 1 gün sonra 29 sentyabrda verilib. Bu xəbər Gülnarə xanımın eşitməmək üçün Allaha hər gün yalvardığı xəbər idi. O,körpə Kəmaləddinə necə desin ki, atan əbədiyyətə köç edib?Bəs şəhidin anası Səkinə ana bu boyda dərdi necə çəksin? Allah şəhid dərdi çəkənlərin səbrini çoxaldır. Əks təqdirdə insan bu boyda dərdin altında əzizlərdi. Şahmarın nəşinə qovuşacağı günü iztirabla gözləyən şəhid xanımı oktyabrın 1-də Bakıda şəhid yarının cansız cisminə qovuşub. İlk dəfə Gülnarənin «Şahmar» deyə səsləyişi cavabsız qalıb. Çöhrəsində son gülüşü donub qalan şəhidlə vida bir neçə gün öncəki vidanı xatırladıb. «Öncə vətən gülüm.»

Vətənin qəhrəmanına 1 oktyabr 2020-ci ildə əbədi vida mərasimi keçirilib. Şahmar vətən qəhrəmanlarının uyuduğu II Fəxri Xiyabanda torpağa tapşırılıb.

Kapitan Quliyev Şahmar Kəmaləddin oğlu hələ şəhadətə ucalmadan öncə «Azərbaycan Ordusunun 100 illiyi» yubiley medalı ilə təltif edilmişdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra da «Vətən uğrunda» medalı, «Suqovuşanın azad olunmasına görə» medalı və « Vətənə xidmətə görə» 3-cü dərəcəli orden ilə təltif edilib.

## ŞƏHİD ŞAHMAR

Eşqlərin alisi bilib vətəni,
Bu eşqi gözünə çıraq elədin.
Şəhidlik arzusun dilə gətirib,
Allahdan hər zaman onu dilədin.

Şahmar, arzuların çin oldu bir - bir,
Vətən azad günə çıxdı nəhayət.
Vətən qəhrəmanı olan oğul tək,
Yazdın unudulmaz əsər, rəvayət.

Bizə əmanətin bu azad vətən,
Bir də yadigarın körpə balandı.
Bu gün məzarında ağlayan uşaq,
Sabah düşmənlərdən qisas alandı.

Necə sən almısan vətən köksünə,
Damlayıb, sızladan qanın qisasın.
Hələ illər öncə qalib əsgər tək,
Tarixə yazmışdın Aprel savaşın.





## HÜSEYNOV ÜLVÜ MÖHSÜN OĞLU KAPİTAN (II Qarabağ müharibəsində şəhid olmuşdur.)



## ÜLVÜNÜN ÜLVİ SEVGİSİ

Ən ülvi sevgidir vətən sevgisi. Allah bu sevgini ürəyə ilmə-ilmə toxuyar. Ruh oxşayar bu sevgi. Məcburiyyətini deyil məsuliyyətini artırar. Vətən, torpaq, bayraq, xalq hər biri aldığın nəfəsə çevrilər. Bir gün sonuncu nəfəsini o dəyərlər üçün verəcəyin heç zaman sirr olmaz. Bəzən adın da o ülvi sevgindən xəbər verər. Hər dəfə «Ülvü» deyildiyində ruhunun qollarından işğal qandalları sökülüb Qarabağda pərvaz edər. Xəyalı belə çöhrənə təbəssüm saçar. Ancaq o xəyalın gerçək olmadığı zaman gözlərin intiqam alovu saçar. O xəyalın bir gün gerçək olacağı ümidini itirməzsən. Ülvü də xəyalının gerçək olacağını bilirdi. Ağlı kəsən ilk gündən onun üçün çalışırdı.

Hüseynov Ülvü Möhsün oğlu 16 aprel 1988-ci ildə Naxçıvan Muxtar Respublikasının Ordubad Rayonu Sabirkənd kəndində dünyaya göz açmışdı. Ailənin övlad payı 3 oğul olmuşdu. Ülvü evin ortancılı idi.1995-ci ildə Sabirkənd tam orta məktəbində təhsil almağa başlamışdı. 2003-cü ildə Heydər Əliyev adına Hərbi liseyə daxil olmuşdu. Bununla da Ülvünün hərbçi həyatı başlamışdı. 2006-cı ildə liseyi bitirdikdən sonra Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuşdu. 2010-cu ildə məktəbi bitirmiş və leytenant hərbi rütbəsinə yiyələnmişdi. Tərtər rayonunda yerləşən N

saylı hərbi hissədə xidmətə başlamışdı. 2013-cü ildə baş leytenant hərbi rütbəsinə yüksəlmişdi.

Ülvünün ən öndə özəlliyi sadiqliyi, sədaqəti idi. Darda olanın əlindən tutar və o əli buraxmazdı. Səmiyyə xanımın əlini buraxmadığı kimi.

Ülvü və Səmiyyə sevgisinin təməli 2008-ci ildə atılmışdı. Dörd il sonra 2012-ci ildə sevənlər qovuşmuşdu. Səmiyyə xanımın səhhətində olan problemlərə görə onlar valideyn duyğusunun sevincini 2016-cı ildə yaşamışdılar. Ülvü gözünün ağı-qarası Nihatını qucağına aldığı zaman izahı olunmaz hisslər yaşamışdı. Bir müddət öncə Aprel döyüşlərində xalqımıza qələbə yaşadan zaman üzünü görmədiyi oğluna qovuşmağı arzu etmişdi. O, arzusuna çatdı...

Ülvü xidməti dövründə «Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi» yubiley medalı, «Azərbaycan Ordusunun 100 illiyi» yubiley medalı, «Qüsursuz xidmətə görə» 3-cü dərəcəli medalı ilə təltif edilmişdi.

Azərbaycan xalqının ilk zəfər sevincini yaşadığı Aprel döyüşlərində Ülvü böyük rəşadət göstərmişdi. Aprel döyüşlərindən sonra kapitan hərbi rütbəsinə yüksəlmişdi. Ən böyük arzusu Qarabağın hər qarışını düşməndən azad etmək, Şuşaya bayraq sancmaq (hər müsahibəsində bunu dilə gətirib) olan qəhrəman həmin zəfərin ardında qanlarla üç nöqtə qoyulduğundan xəbər verirdi. O üç nöqtə 2020-ci ildə nida ilə əvəzləndi. Həm Qarabağ azad olundu, həm Şuşaya bayraq sancıldı. Ülvü bu sevincləri yaşadı.

Azad olan hər kənd, hər şəhərdə qəhrəmanlığından bir iz salmışdı Ülvü. İlk zəfər sevincini Füzulinin azad olunması ilə yaşamış və yaşatmışdı. Ardınca Hadrut, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və ülvi arzuların səbəbkarı Şuşada vuruşmuşdu. Şuşaya çatan döyüş yoluna qədər göstərdiyi qəhrəmanlığa görə «Şücaətə görə» medalı ilə təltif edilmişdi. Düşmənin 15 hərbi maşınını, bir neçə tankını hərbi qənimət kimi ələ keçirən qəhrəman xeyli sayda canlı qüvvə məhv etmişdi. Şuşanın azad olunmasına 1 gün qalmış snayper atəşi ilə başından vurulmuş və şəhadətə ucalmışdı.

Ülvünün şəhid olmamışdan öncə döyüş yoldaşlarına vəsiyyəti bu olmuşdu. "Əgər şəhid olsam 5 manatdan pul toplayıb oğlum Nihata velosiped alarsınız." Bu vəsiyyət ürəyimə qor saldı.

Sevdiyini ruhu ilə hiss edən Səmiyyə xanım həmin gecə Ülvünün cənnətdə olduğunu görür. Ayaqyalın yaşıl çəmənlikdə gəzən Ülvü sonra dür axan sulara qərq olur. Əlindəki almanı yanındakı əsgər yoldaşın verib onun yeməsini istəyir. Ülvü döyüş zamanı bir çox əsgər yoldaşlarının həyatını xilas etmişdi. Onun sayəsində bu gün həyatda qalan qəhrəmanlar var. Ülvü Səmiyyə xanıma yuxuda hər şeyi ayan edir. Səmiyyə xanımın səhətindəki problemlərə görə yaxınları Ülvünün şəhid olduğunu ondan gizlədirlər. 1 həftə sonra 14 noyabrda Ülvünün cansız cisminin gəldiyi gün xanımı onun şəhid olduğunu bilir. Nəfəsinin bitdiyi anda ona nəfəs olan Ülvünün əbədi gedişi ilə Səmiyyə xanım sanki nəfəssiz qalır.





14 noyabr 2020 - ci ildə II Fəxri Xiyaban qəhrəman oğluna sinəsini açdı. Günlərdi gənclərə məzar olaraq yara üstünə yara alan torpaq Hüseynov Ülvüyə də məzar oldu.

Kapitan Hüseynov Ülvü Möhsün oğlu ölkə başçısı İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı «Qarabağ» ordeni, «Füzulinin azad olunmasına görə» medalı və «Şuşanın azad olunmasına görə» medalı ilə təltif edilib.

### ŞƏHİD ÜLVÜ

Sənin tək qorxusuz bir qəhrəmandan,
Yazmaq asan deyil dünənlər kimi.
Qələbə arzusu zəbt eləmişdi,
Vətən dərdi ilə yanan qəlbini.

Ən böyük arzundu bayraq sancasan,
Tellərin əsir tək yolan Şuşaya.
Hər dəfə adının izi düşərdi,
Dilində səslənən gözəl arzuya.

Ömrünü bununçün yaşayırdın sən,
Elə bu amalla can verdin, Ülvü.
Sayəndə Şuşanın telləri üstə,
Şanlı bayrağımız saldı izini.

Vətən uğrundakı qanlı savaşın,
Son günü ucaldın haqq dərgahına.
Vətən torpağına qanın çiləndi,
Sən layiq görüldün şəhid adına.



**NƏCƏFOV VÜQAR AYDIN OĞLU**
**KAPİTAN**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## ƏSRARƏNGİZ QƏHRƏMAN

Qəhrəman biri elə anadan qəhrəman doğulur. Ötən illər, atılan addımlar həmin insanları qəhrəman olduqlarının aşkar olunmasına doğru yaxınlaşdırır. Hər dəfə atdıqları addım onların fərqliliyindən xəbər verir. Düşüncələri ilə düşündürməyi bacarırlar. Bəzən heyrətləndirirlər. Bəzən də «Əsrarəngiz qəhrəman,» sözləri ilə izah olunurlar. O əsrarəngiz qəhrəman gün gəlir bütün qəhrəmanlığın aşkar şəkildə gözlər önünə sərir. O gün hər kəs o əsrarəngiz qəhrəmanın anadan qəhrəman doğulduğunu, sadəcə onun qəhrəmanlığının həmin gün aşkar olunduğunu dilə gətirər. Vüqarın ardınca da bu sözlər çox düzüldü.

Nəcəfov Vüqar Aydın oğlu 1998-ci il avqustun 10-da Naxçıvan Muxtar Respublikasının Ordubad rayonun Dirnis kəndində dünyaya gəlmişdi. O zaman sadəcə bir körpə idi. Sevimli körpənin gələcəyin bir qəhrəman oğlu olmağı arzularda yer alırdı. Axı hər oğul atası, anası oğlunun igid olmağını arzu edər. Şəmsiyyə ana da oğlunun beşiyi başında laylalarda bunu dilə gətirərdi. İki qız övladını da sevərdi Şəmsiyyə ana. Ancaq Vüqara sevgisi bir başqa idi. Bu sevginin əsrarəngizliyi elə Vüqarın özünə bənzəyirdi. Vüqar körpəlikdən məktəbli həyatına qədər bir yol qət etmişdi. 1995-ci





ildə Ordubad rayon Dirnis kənd tam orta məktəbinin birinciləri sırasında yer almışdı. O uşaqlar sırasında bir duruşu var idi ki, iki göz istəyirdi tamaşasına dursun. 11 il sonra yenə eyni cərgədə eyni duruşla boy göstərdi Vüqar. Bu dəfə məktəbə vida duruşu idi. Gözlərində bir qədər hüzün, bir qədər sevinc var idi. Məktəbli həyatından bir hərbçi həyatına açılan qapıdan 2006-cı ildə keçib bu qəhrəman. Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub və 4 illik hərbi təhsilini uğurla başa vurub. 2010 - cu ildə Təlim və Tədris Mərkəzində 1 illik hərbi kurs keçdikdən sonra vətən keşiyinə başlayıb. Təyinatla ilk olaraq Beyləqan rayonunda yerləşən N saylı hərbi hissədə xidmətə başlayıb. 2011-2018-ci illər ərzində o istiqamətdə ön cəbhədə xidmət edib. Həmin illər ərzində çox uğurlu əməliyyatlardan biri olan, 44 günlük zəfər tariximizin illər öncə atılan təməli sayılan 4 günlük Aprel döyüşləri zamanı Lələtəpə yüksəkliyinin azad olunmasında böyük şücaət göstərib. Hələ o döyüşdən döndüyü zaman «Şəhid olmaq mənə qismət olmadı. Ancaq çox dostlarım şəhid oldu. Mən onların intiqamını alıb onların məqamına ucalacam.» deyib.

Vüqar vətən səngərində ciddi hərbçi, ailədə mülayim ailə başçısı idi. İş həyatını evə gətirməzdi. Hərbçi sevgisinə layiq gördüyü xanımsa Sara xanım idi. 2009-cu ildə bir vağzalı sədası altında görüb aşiq olmuşdu Sara xanıma. 2012-ci ildə isə vağzalı sədası Vüqar və Sara üçün çalınmışdı. Sara xanım bir hərbçi xanımı olmağın gecələr həsrətlə baş-başa qalmaq demək olduğunu bilə-bilə bu izdivaca razı olmuşdu. Elə gözlədiyi kimi də oldu. 2012-ci ildən 2018-ci ilə qədər çox zaman sirdaşı həsrət oldu. Soyuq səngərdə keşik çəkən yarının ürəyini nəfəsi ilə deyil səsi ilə isitdi. Zaman keçdikcə Vüqarın həsrətini çəkənlərin sayı çoxaldı. Bu izdivacın bala bəhəri olan İnci və Aydın çox zaman ata qoxusuna həsrət qaldılar. Vüqar da çox zaman övladlarının ən gözəl günlərinin şahidi ola bilmədi. Aylarla həsrət çəksələr də ayların sonunda Vüqarın dönəcəyi gerçəyi o həsrətə dözməyə güc verdi. Vüqarın dönüşü toy-bayrama dönürdü. Bu müvəqqəti həsrətlərin sonu 2018-ci ildə Vüqarın təyinatla Bakıya gəlməsi ilə sona çatdı. Ancaq bu sevincin ömrü 2 il oldu.

Ön xətt hərbçisi idi Vüqar Nəcəfov. Səngər evi, əsgərlər övladı idi. Tabeliyində olanlar onun olduğu yerin qorxusuz olduğunu bilirdilər. Çünki işinin peşəkarı idi kapitan Nəcəfov. 27 sentyabrda başlanan Qaraba-

ğın azadlıq mübarizəsində onun dəstəsi döyüşə ilk başlayanlardan oldu. Xocavənd, Cəbrayıl istiqamətində düşmənin bütün sədlərini darmadağın edib azadlıq yolunu qorxmadan irəlilədilər. Artıq bu yolun bir dönüşü yox idi. «Bitməlidir! Bitirməliyik!» deyib yalnız irəli doğru hücuma keçən Vüqar o döyüşün əsrarəngiz qəhrəmanı kimi bir çox əraziləri düşmənə məzar etdi. Müharibə getdiyi zaman sentyabrın 30-da Sara xanıma "Hamınızı çox sevirəm. Özünüzdən muğayat olun. Qəhrəman olmağa gedirik. Qəlbimdəsiniz." yazıb və 2 oktyabrda özü qəlblərə köçüb. Elə həmin gün Vüqarın şəhadət xəbərini alan ailə Vüqarın cansız cisminə qovuşub. 2 oktyabr 2020-ci il Vüqarın həm son döyüş günü kimi, həm də II Fəxri xiyabanda cisminin torpağa tapşırıldığı gün kimi yaddaşlara həkk olunub.

Kapitan Nəcəfov Vüqar Aydın oğlu Vətən müharibəsi zamanı bir çox ərazilərin işğaldan azad olunmasındakı xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda" medalı, «Xocavəndin azad olunmasına görə» medalı, «Füzulinin azad olunmasına görə» medalı və «Cəbrayılın azad olunmasına görə» medalı ilə təltif edilib.

Müharibəyə getdiyi gün anasının yuxusuna gəlib "Ana, üşüyürəm üstümü ört." deyən Vüqarın evi soyuq məzar oldu. Yəqin ki, həmin yuxu bir işarə imiş.

Körpələr əbədiyyətin dönüşü olmayan yer olduğu gerçəyini dərk etmirlər. İnci və Aydın bir gün atalarının dönəcəyini düşünürlər. Tez-tez «Ana, atamın şəhidliyi nə zaman bitəcək?» sualları ilə Sara xanımın ürəyindəki yaranı bir qədər də dərinləşdirirlər.





## ŞƏHİD VÜQAR

Qəhrəman doğuldun yerin üzünə,
Ruhun izin saldı nurlu gözünə,
Zülmət gecələrin bir gündüzünə-
Çıxdı, bu millətin gözləri güldü
Müharibə neçə həyatı böldü.

Seyrinə dayandı ucalan dağlar,
Al rəngə büründü həmin torpaqlar,
Ömrünü vətənə pay verib, Vüqar,
Ucaldın cənnətə, vətən ömürlüm,
Şəhidlik heç zaman sayılmaz ölüm.

Dünən də, bu gün də, sabah da varsan,
Cənnətdə heç zaman solmaz baharsan,
Qəlblərdə bir şəhid adlı qübarsan,
Sağalmaz bu qübar ötsə fəsillər
Əsrarəngiz eşqin söylənir əzbər.



**ZEYNALOV AZAD RAFİQ OĞLU**
**KAPİTAN**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## AZADIN AZADLIQ ARZUSU

Elə sonlar varki başlanğıcdı. Bu dünyada şəhid ömrünə yazılan son əslində bir başlanğıcdı. Ölməzliyin, əbədiyaşarlığın və əbədiyyətin başlanğıcı və sonsuzluğu. İlahi, bu adda nə qədər sehr var? İki heca cahan boyda dəyər, məna. O iki heca etibar, qeyrət, sevgi mücəssəməsidir. Vətənin, xalqın güvənini qazanan şəhid Zeynalov Azad.

Adından bəlli idi azadlığa könül verməsi. Bu gün azad Qarabağ torpaqlarında azad ruhu pərvaz edən bir qəhrəmandı Azad. Zeynalov Azad Rafiq oğlu 1987-ci il yanvarın 7-də (Sənədlərdə 4 mart qeyd olunub.) Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Çomaxtur kəndində dünyaya gəlmişdi. Zeynalovlar ailəsinin ilk göz ağrısı idi Azad. Ailə övlad adlı sevinci ilk onunla yaşamışdı. 1993-cü ildə Şərur rayon Çomaxtur kənd polkovnik İsmayıl Məmmədov adına tam orta məktəbdə təhsil almağa başlamışdı. Azadın özü ilə bir böyüyən arzusu hərbçi olmaq arzusu idi. 2002-ci ilin yay aylarında öz istəyi ilə Cəmşid Naxçıvanski adına Hərbi liseyə qəbul olmaq üçün imtahan vermiş və qəbul olmuşdu. Məktəb illəri Qarabağın işğal dövrünə təsadüf etdiyindən uşaq yaşlarından Qarabağ adlı dərdi sinəyə çəkmişdi. Bir gün o dərdə məlhəm olmaq arzusu ilə yaşayır və o arzunu gerçəkləşdirmək üçün bəzi addımlar atırdı. O, 2005-ci ildə Hərbi liseyi bitirdikdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdu. 2009-cu ildə məktəbi motoatıcı ixtisası üzrə bitirib, həmin ilin 22 iyununda leytenant hərbi rütbəsi almışdı. 2009-cu ildən 2010-cu ilə qədər Silahlı qüvvələrin Təlim və Tədris (TTM) mərkəzində təkmilləşdirici kurs keçmişdi. 23 iyun 2010-cu il tarixindən N saylı hərbi hissənin mühafizə bölüyünün 1-ci mühafizə taqım komandiri vəzifəsinə təyin edilmişdi. Azad Zeynalov 2013-cü il iyunun 26 - da Azərbaycan Silahlı Qüvvələrinin yaranma günündə baş leytenant hərbi rütbəsi almışdı. 2014-cü ildə qısa müddət N saylı hərbi hissədə mühafizə bölüyünün 1-ci mühafizə taqım komandiri vəzifəsində xidmət etmiş, sonra isə 26 sentyabr 2014-cü il tarixindən Qazax qarnizonu hərbi polisinin hərbi müfəttişliyinin rəisi vəzifəsində çalışmışdı. 2017-ci ildə N saylı hərbi hissənin 1-ci tabor 3- cü bölüyünün komandiri vəzifəsinə təyin olunmuş, həmin ilin 27 dekabrda kapitan hərbi rütbəsinə yüksəlmişdi. 2018-ci ildə 4-cü tabor 11- ci bölüyün komandiri vəzifəsində çalışmışdı. 2020-ci ilin may ayında təyinatla Qusar rayon N saylı hərbi hissəyə göndərilmiş, 27 sentyabra qədər orada xidmət etmişdi.

Azərbaycanın yumruq kimi birləşdiyi o gün. Qəlbində vətən sevgisi olan Qarabağ həsrətli insanlar bir xalqın qüdrətini bütün dünyaya bəyan etdilər. O birliyin əzəmətindən Qələbə sədası ucaldı. Bəzi oğullar şanlı bayrağı Qarabağa sancarkən bəziləri tabutları üzərində qürurla daşıdılar. Azad bayrağı tabut üzərində qürurla daşıyan qəhrəmanlardan oldu.

Son dəfə həyat yoldaşı Cəvahir xanımla danışdığında səsindən həsrəti duyuldu. Hələ dünyaya gəlməyən övladını və Aslanını soruşdu. Kim bilir o an nələr düşündü. Qardaşına verdiyi «Gələcəkdə Aslan üçün nə edərsən?» sualı dönüşü olmayacağına bir işarə idi. Bu sual geridə qalanlarını, Aslanını, hələ doğulmayan körpəsini qardaşına əmanət etdiyindən xəbər verirdi. Axı şəhidlər şəhid olacaqlarını öncədən hiss edirlər. Bir də analar hiss edirlər. Səkinə ana da hiss etmişdi. Aldığı nəfəs ürəyinə ağırlıq edirdi Səkinə ananın. Azadından birdə «Ana» sözünü eşitməyəcəyi ona agah olmuşdu. Heç vaxt ürəyindəki o sızıltını hiss etməmişdi. Bu ağrı səbəbsiz deyildi. Hələ 7 ay öncə Allah Azadını ona təkrar bağışlamışdı. Keçirdiyi qəzadan sağ çıxan Azad sən demə çox qısa müddətlik həyat qonağı imiş.

Azad hər zaman hər kəsə dəstək olardı. Xoş xasiyyəti, gözəl aurası, həyat eşqi ilə çağlayan biri olması onu hər kəsə sevdirirdi. Zarafatları ilə dərdləri unutdurmağı bacarsa da özü vətən dərdin heç zaman unutmurdu.

Vətən müharibəsi zamanı Azad da bu azadlıq mübarizəsinə qoşulmuşdu. Azad olan torpaqlar hərbçilərə sanki güc verirdi. Onlar bu gücdən mənəvi qida alırdılar. Torpaqlara yeni nəfəs verənlər ya qəhrəman döyüşçü, ya qazi, ya da şəhid adına layiq görülürdülər. Azad da əvvəl qazi sonra şəhid adına layiq görüldü. Oktyabrın 11-də Füzuli rayonu istiqamətində gedən döyüşlər zamanı yaralı əsgərini döyüş meydanından çıxararkən düşmən gülləsinə tuş gələn qəhrəman başından ağır yaralanmışdı. Həmin gün Füzulidə ilkin müdaxilə göstərildikdən sonra ertəsi gün Bakıdakı Hərbi hospitala göndərilmiş və əməliyyat olunmuşdu. Əməliyyat olduqdan sonra ailəsi ilə danışdığı zaman onun bir «Alo» sözünü deməsinə görə atası Rafiq Zeynalov neçə qurban kəsmişdi. Bacısı Azadə xanım, Səkinə ana Azadın həyata dönüşü üçün nəzir-niyaz paylamışdılar. Ancaq bu sevinc çox uzun çəkməmiş, Azad cəmi 14 gün yaşamaq uğrunda mübarizə aparmışdı. Oktyabrın 26 - da Azad Zeynalov vətən şəhidləri cərgəsinə qoşulmuşdu. Oktyabrın 30-da şəhidin nəşi son dəfə Naxçıvandakı ata ocağına gətirilmiş və elə həmin gün Şərur rayon Şəhidlər Xiyabanında torpağa tapşırılmışdı.

Kapitan Zeynalov Azad Rafiq oğlu xidməti dövründə «Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi» yubiley medalı, «Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi» yubiley medalı, «Qüsursuz xidmətə görə» 3-cü dərəcəli medalı, «Azərbaycan Ordusunun 100 illiyi» yubiley medalı ilə təltif olunmuşdu. Qəhrəman şəhidimiz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra isə «Vətən uğrunda» medalı, «İgidliyə görə» medalı, «Xocavəndin azad olunmasına görə» medalı və «Füzulinin azad olunmasına görə» medalı ilə təltif edilmişdi.





## ŞƏHİD AZAD

Azad bir quş kimi vətənə uçub,
Qarabağ qoxusun ruhuna çəkdin.
Azadlıq həsrəti çəkən qəlbini,
Vətən torpağına bürüyüb, bükdün.

Zülmətə bürünən o otuz ilin,
Aydın bir sabahı sənlə açıldı.
Azad, çöhrəndəki gözəl gülüşdən,
Bir anda cənnətə işıq saçıldı.

Vətən torpağına sən də baş qoyub,
Şəhadət adlanan saraya köçdün.
Vətən sevgisinin böyüklüyünü,
Qanınla yol çəkib, o yolla ölçdün.



**BABAYEV ŞAMİL BALOĞLAN OĞLU KAPİTAN (II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## YASTIĞI BAYRAQDI, YORĞANI TORPAQ...

Ruhu ilə bayrağa sevdalı oğullar var. O oğullar cismini bayraq yolunda göz qırpmadan fəda edirlər. Ruhu vətənə, bayrağa sevdalılar ürəkləri üstündə gəzdirərlər bayrağı. Bir gün bayraq uğrunda şəhid olmaq isə ən böyük arzuları olar. Şəhidlər o arzuya çatarkən son dəfə sevdalandıqları bayrağı öpüb gözlərinin üstə qoyarlar. Şəhid olduqlarını öncədən hiss edən şəhidlərin hər birinin son arzusu, son vəsiyyəti vətən, torpaq, bayraqla bağlı olur. «Şəhid olsam məzarımda başımın altına bayraq sərin.» sözləri şəhid Şamilin son vəsiyyəti olub. Son nəfəsdə dilə gələn bu sözlər əslində bir şəhidin bir xalqa əmanətidir.

Eşqi çıraq olub vətəni aydınlığa çıxaran Babayev Şamil Baloğlan oğlunun qanı ilə yazdığı döyüş yolundan çoxlarımız xəbərdarıq. Ömür yolunu da vərəqləyək.

Babayev Şamil Baloğlan oğlu 26 yanvar 1988-ci ildə Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Camaldın kəndində anadan olmuşdur. Ailədəki 5 övladın sonuncusu olan Şamil 1994-cü ildə Camaldın kənd tam orta məktəbinə qədəm qoymuşdu. 2005-ci ildə təhsilini başa vurduqdan sonra həqiqi hərbi xidmətə getmişdi. Xidmətini Şahbuzda yerləşən N





saylı hərbi hissədə keçmiş, 2007-ci ildə başa vurmuşdu. Bir müddət fərdi işlərlə məşğul olduqdan sonra 2010-cu ildə MAHHXHQ kimi ordu sıralarında xidmətə başlamışdı. Lənkəran şəhərindəki N saylı hərbi hissədə xidmət etmişdi. 2014-cü ildə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul olmuşdu. 2016-cı ildə məktəbi leytenant hərbi rütbəsi ilə bitirmişdi. Yenidən Lənkəran şəhərindəki xidmət postuna qayıdan Şamil Xüsusi Təyinatlı Qüvvələrin atəş-təminat qrupunun komandiri olmuşdu. 2017 - ci ildə baş leytenant hərbi rütbəsi almışdı. 2018-ci ildə Türkiyədə İzmir Foça Jandarma Komanda Okulunda 7 ay müddətində təlim keçmişdi. 2020-ci ildə kapitan hərbi rütbəsinə yüksəlmiş, "III dərəcəli qüsursuz xidmətə görə" medalı ilə təltif edilmişdi.

Şamil ailənin hərbçilərindən biri olmuşdu. Onun qardaşı, dayısı, dayısı oğlu da vətənə sidq ürəkdən xidmət edən hərbçilərdən olmuşlar. Bu ailədə vətənpərvərliyin təbliğatı ən yüksək səviyyədə aparılmışdı.

Şamil son dəfə sentyabrın 26-da oğlu Yusifin ad günündə ayaqüstü oğlunu təbrikə gəlib. 7 yaşının tamamı Yusifin atası ilə olan son ad günü olub. Oğlunu Fatimə xanıma, Fatimə xanımı isə Allaha əmanət edən Şamil dönməyəcəyi yola qədəm qoyub. Qədəmləri onu əvvəlcə Bərdə şəhərinə gətirsə də Şamil könüllü olaraq ön cəbhəyə yollanıb. İllərlə keçdiyi kurslarda öyrəndiyi hərbi biliklərini istifadə etmək məqamı idi.

Şamil Bərdədə olduğu zaman qardaşı Əli ilə əlaqə saxlayanda önə gedəcəyini demir. Bir neçə gün Şamildən gələn zənglər kəsilir. Daha sonra Hadrutdan zəng etdiyində «Füzulidə gedən döyüşlər cəhənnəmi xatırladırdı. Biz o cəhənnəm alovundan çıxdıq.» deyir. Elə o zəng sonuncu zəng olur. 12 gün gözlər telefona dikilir. Həmin o günlər ərzində isə Şamil adını qəhrəman kimi tarixə yazır. Bütün ərazilərə azadlıq toxumun əkən qəhrəman öz heyyəti ilə bərabər düşmənin ağlına gəlməyən ərazilərlə Şuşaya çatır. Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşan kapitan düşmənin Xankəndi istiqamətindən irəliləyən zirehli və canlı qüvvəsini məhv edir. 7 noyabrda Şuşa qalasında yanına düşən minamyotun qəlpələrindən ağır yaralanır. Yaralı halda başqa bir əraziyə yerləşdirilən qəhrəman 8 noyabrda həmin yerin vurulması nəticəsində şəhid olur. Elə həmin gün onun şəhid xəbəri qardaşına çatır. Sonra xəbər təkzib olunsa da 10 noyabrda xəbər təsdiqini tapır. Qardaşının cansız cismini Füzulidə

morqda gördüyü anda qardaşının dünyası zülmətə dönür. Qardaşını öpüb bağrına basan Əlinin gözləri önünə hələ körpəlikdən bayrağa sevdası ilə seçilən Şamil gəlir. O, yenə də sevdası ilə seçilir.

Noyabrın 13-də Şamilin ailəsi, bacı-qardaşı onun cənazəsi ilə bir təyyarədə doğma yurd-yuvalarına yollanırlar. Hər dəfə ata ocağına tələsənlər bu dəfə o anın heç çatmamasını istəyirlər. Axı atalarına, analarına nə deyəcəklər? Atikə ananın oğul tabutunu gördükdə nələr yaşayacağını övladları yaxşı bilirdilər. Elə düşündükləri kimi də oldu...

Şamildən öncə Camaldın kənd məzarlığında şəhid olan qohumu Qasımov Hafis Cavanşir oğlu torpağa tapşırılmışdı. Noyabrın 13-də Babayev Şamil də eyni məzarlıqda torpağa tapşırıldı.

«Mənim atam qəhrəmandı. O, ermənilləri öldürüb, şəhid olub.» Bu sözlər 7 yaşlı Yusifin sözləridi. Bu xalqın hər bir fərdi şəhidlərin məqamını gözəl bilir.

Kapitan Babayev Şamil Baloğlan oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Zəfər» ordeni, «Vətən uğrunda» medalı, «Füzulinin azad olunmasına görə» medalı və «Şuşanın azad olunmasına görə» medalı ilə təltif edilib.





## ŞƏHİD ŞAMİL

Ruhunu bayrağa bükən, qəhrəman,
Cismin də bayrağa bükülü gəldi.
Dilə gətirdiyin sonuncu arzun,
Ruhu inildətdi, ürəyi dəldi.

«Qəlbimin üstündə olan bayrağı,
Məzarda başımın altına sərin.
Məni ayırmayın müqəddəsimdən,
Bayraqda qalmasın mənim gözlərim».

Bu necə eşq idi qəlbinə sığdı?
Bu eşq Peyğəmbərin eşqinə bənzər.
Eşqi bayraq, vətən olan şəhidi,
Cənnətdə mələklər, şəhidlər gözlər.

Vətənin torpağı, vətən bayrağı,
Sənlə bütünləşdi, şəhidim Şamil.
Qanınla canlanan vətən torpağın,
Qorumaq bizimçün olub bir amil.



**MİRZƏYEV YUSİF VƏLİ OĞLU**
**BAŞ LEYTENANT**
**(I Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## MİLLİ QƏHRƏMAN

Bu gün qazanılan qalibiyyətin təməli dünən çəkilən acılardan qoyulub. Dünənlərə nəzər saldıqda Azərbaycanın bu günlərə qədər necə keşməkeşli yollardan keçdiyini görürük. Tarixin toz basmış səhifələrində neçə soyqırımda bitən ömürlərin tamamlanmamış səhifələri var. Göz yaşlarımızın o tozlu səhifələrdə açdığı cığırlardan sanki o gerçəkliyə işıq düşür. Biz tarixi hər zaman ağlaya-ağlaya vərəqləmişik. Vətənin kürəyinə dəyən oxlar vətəndaşların ürəyini qanadıb. Hər qarışında bir qəhrəman oğul uyuyan bu müqəddəs torpaqdan qidalanan oğullar vətənə,vətən isə oğullara qucaq açıb.

Vətəni bağrına basan və vətənin bağrına basdığı Milli Qəhrəman Mirzəyev Yusif Vəli oğlu zamanın unutdura bilmədiyi qəhrəmanlar sırasındadır. 23 may 1958-ci ildə Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Böyükdüz kəndində anadan olan qəhrəman keçdiyi ömür yolu ilə tarixin səhifələrində iz salıb. Ailədə 7 övladdan biri olan Yusifin ailəsi Naxçıvan şəhərinə köçüb, elə Yusif də ilk təhsilini Naxçıvan şəhər İslam Səfərli adına 1N - li tam orta məktəbdə alıb. 1975-ci ildə məktəbi bitirdikdən sonra hərbi xidmətə gedib. Rusiyanın Çita vilayətində xidmət edib. Sonra Naxçıvanda rabitə qovşağında çalışıb. İşlədiyi müddətdə Azərbaycan Xalq Təsərrüfatı (indiki İqtisad Unversitetində) qiyabi olaraq təhsil alıb. Daha sonra Bakı şəhərinə köçüb, Azərbaycan Milli Bankında inspektor vəzifəsinə təyin olunub. İşlədiyi müddətdə xalqı müdafiə etmək üçün Xalq hərəkatına qoşulub. 1990-ci illərdə azərbaycanlılara qarşı törədilən «Qanlı yanvar» gecəsində insanların imdadına çatanlardan biri olub. Onun xalqı müdafiə etməyindən narahat olan bəzi qüvvələr onu həbsxanaya saldırıb. Həmin dönəmdə gördüyü işgəncələrin izi hər zaman onun səhhətində özünü biruzə verib. Sovet hakimiyyətinin hökm sürdüyü vaxtlarda 1991-ci ildə Yusif bankdakı işindən uzaqlaşdırılıb. Xalqın yanında olmaqda israrlı olan qəhrəman tutduğu haqq yolundan geri dönməyib, əksinə xalqa daha da yaxın olub. Mübariz, cəfakeş Yusif Qarabağın qara günlərində vətəndaşlarımıza qarşı törədilən erməni vəhşiliklərinə əngəl olmaq üçün 1992-ci ilin əvvəllərində Qarabağın mübarizəsinə başlayıb. Goranboy, Ağdərə istiqamətində təlim keçən qəhrəman qısa müddətdə adından söz etdirməyi bacarıb. Dəfələrlə yaralansa da o Xankəndinə bayraq sancmaqda qərarlı olub. Ailəsi ilə danışan zaman «Tezliklə şad xəbər eşidəcəksiniz.» deyən qəhrəman şəhid olmazdan bir neçə gün öncə döyüş yoldaşlarını ətrafına toplayıb, bir neçə vəsiyyət edib. «Mən şəhid olacam. Ancaq bilmirəm bu dərdə anam necə dözəcək?» deyib. Vətəni ana, ananı vətən kimi sevən qəhrəman hər zaman anasına fəxarət hissini yaşatmağa çalışıb. Bir dəfə oğlunun yaralandığını eşidən Rəfiqə ana oğlunu görməyə gedib. Həmin zaman oğlunun göstərdiyi qəhrəmanlıqları gözləri ilə görüb, qulaqları ilə eşidib. Rəfiqə ana oğlu ilə bir daha qürur duyub.

Yusif hələ şəhadətindən öncə könüllərdə taxt qurmağı bacarıb. Yaxın dostu Şəmistan Əlizamanlının Yusif Mirzəyevə həsr etdiyi «İgid əsgər» nəğməsi günümüzdə də Yusifin döyüş yolunu tərənnüm edir. Döyüş meydanlarında qanı ilə iz qoyan Yusif Mirzəyev 1993-cü il fevralın 19-da mühasirəyə düşən döyüş yoldaşlarını xilas etmək istəyərkən özündən başqa 3 hərbçinin də olduğu maşını düşmənin atdığı mərmiyə tuş gəlib. Ağır yaralanan Yusif «Hələ arzularım var, ölmək istəmirəm.» deyib. Ancaq Tərtərə gətirilərkən yolda şəhadətə ucalıb.

Yusifin şəhid xəbəri bir anda Naxçıvana səda salıb. Nəşi şəxsi təyyarə ilə Naxçıvana göndərilib. Böyük-kiçik hər kəs şəhidlə vidalaşmaq

üçün Heydər Əliyev adına sarayda vida mərasiminə toplaşıb. İzdihamlı vida mərasimindən sonra Mirzəyev Yusifin nəşi Naxçıvan şəhər Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Baş leytenant Mirzəyev Yusif Vəli oğlu ümummili lider Heydər Əliyevin sərəncamı ilə şəhadətindən sonra Milli Qəhrəman adına layiq görülüb. Naxçıvanda yerləşən məktəblərdən biri və Bakının Nəsimi rayonundakı 44 saylı orta məktəb qəhrəmanın adını daşıyır. Ata həsrəti ilə böyüyən şəhidin yeganə əmanəti Nurlana atasının adını öz oğluna əmanət edib. Milli Qəhrəman Yusif Mirzəyev həm ailəsinin, həm də xalqının qürurudur.

## MİLLİ QƏHRƏMAN

Bakı küçələri qan boyananda,
Xalqın dayağında məğrur dayandı.
Yusifin adını bu xalq, bu millət,
Milli Qəhrəman tək hər zaman andı.

Ruhundan ucalan azadlıq eşqi,
Qondu Xankəndinin viran qəlbinə.
Dedi «Mən vətəni darda qoymaram,
Öz canım lap əldən getsə də belə.»

Öndə savaşardı hər bir döyüşdə,
Qorxu gen düşmüşdü onun gözündən.
Ruhu cilalanıb işıq saçardı,
Bir «ana» bir də ki, «vətən» sözündən.

Ruhu vətən ilə bütövləşənin,
Cismi də vətənə döndü şəhid tək.
Vətənlə bərabər can xilas etdi,
Yusif öz canını fəda edərək.





## CƏFƏROV CƏFƏR İBRAHİM OĞLU
## BAŞ LEYTENANT
**(2012-ci ildə şəhid olmuşdur.)**



## ERMƏNİLƏR BAŞINA PUL QOYDUĞU QƏHRƏMAN

Ey şəhid, səni vəsf etməyə cümlələrin gücü yetmir. Bütün sözlər «Şəhid» sözünün yanında aciz qalır. Bütün sevgilərin sənin vətən sevginin yanında aciz qaldığı kimi... Bu güc, bu qüdrət yalnız Allah vergisi ola bilərdi. Hər gün düşmənin hədəfində olduğunu bilə-bilə qorxmadan düşmən qarşısına çıxacaq qədər cəsarətli idin. Düşmənin bir mayorunu, bir baş leytenantını, bir leytenantını zərərsizləşdirdiyin gündən düşmənin qorxulu yuxusuna çevrilmişdin. Gecə-gündüz səni öldürməyə çalışan düşmən ordusunun xeyli sayda hərbçisi səfərbər olmuşdu. Hətta «sənin başına pul qoyulmuşdu». Ancaq düşmənin unutduğu bir şey var idi. Azərbaycan hərbçisi ölməz, şəhid olar və Azərbaycan ordusu nə şəhidini, nə yaralısını düşmən əlində qoymaz.

Belə mərd oğullar yetirmişdi Naxçıvan torpağı. Vətən qeyrətli oğullar Azərbaycanın ərazi bütövlüyü uğrunda əzəl gündən can alıb, can vermişdilər. O oğullardan biri olan Cəfərov Cəfər İbrahim oğlu 26 dekabr 1985-ci ildə Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Cəhri kəndində dünyaya göz açmışdı. 2 qardaş 1 bacı olmuşdular. O, 1992-ci ildə Babək rayon Cəhri kənd 1 N - li tam orta məktəbə getmişdi. 2000-ci

ildə Heydər Əliyev adına Hərbi liseyə qəbul olmuş, 3 il təhsil almışdı. Liseyi bitirdikdən sonra 2003-cü ildə Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdu. AAHM - dən leytenant hərbi rütbəsi ilə məzun olmuşdu. 2008-ci ildə Təlim və Tədris Mərkəzində 1 il kurs keçdikdən sonra 2009-cu ildə Gəncədə yerləşən N saylı hərbi hissədə taqım komandiri kimi xidmətə başlamışdı. Bir müddət sonra motoatıcı bölük komandiri vəzifəsinə təyin olunmuşdu. Döyüş tapşırıqlarını zamanında və uğurla yerinə yetirən Cəfər 2010-cu ildə baş leytenant hərbi rütbəsinə layiq görülmüşdü. 2010-cu ilin iyul ayında təyinatla Tovuz rayonunun Əlibəyli kəndində yerləşən N saylı hərbi hissədə xidmətini davam etdirmişdi. Dəfələrlə düşmənin yüksək hərbi rütbəli zabitlərini zərərsizləşdirdiyi üçün fəxri fərman və diplomlara layiq görülmüşdü. Cəfərin xidmət etdiyi ərazi demək olar ki, hər gün düşmən atəşinə məruz qalırdı. Açılan atəşlər cavab atəşi ilə susdurulur və bu düşməni daha da azğınlaşdırırdı. Azğınlaşan düşmən 20 iyul 2012-ci ildə növbəti dəfə atəşkəsi pozaraq ərazilərimizi atəşə tutmuşdular. Həmin vaxt döyüş tapşırığını yerinə yetirən Cəfər Cəfərov snayper atəşinə tuş gələrək şəhid olmuşdu. Cəfərin cansız cismini atəş altında olan ərazidən hərbi hissə komandiri Mais Bərxudarov çıxarmışdı.

Bir qardaşın yaşaya biləcəyi çarəsizliyi Malik yaşayıb. 20 iyulda qardaşı Malikə Cəfərin yaralı olduğu xəbəri deyilib və bu xəbər Maliki sarsıdıb. Ancaq Malik bilməzdi ki, duyacağı ən «qara xəbər» hələ qarşıdadı. Qardaşını sağ görmək ümidi ilə Bakıdan Tovuza yola düşən qardaşın ünvana çatan zaman gördüyü mənzərə bütün ümidlərinə nöqtə qoyub. Cəfərin nəşini əvvəlcə Gəncə şəhərinə, oradan da bayrağa bükülü bir tabutda Bakıya, daha sonra isə Naxçıvana aparan qardaş uzanan yollar boyu yalnız bir suala cavab axtarıb. «Atama, anama, bacıma nə deyəcəm?» Mayın 21-də son dəfə ata ocağının qonağı olan Cəfər həmin gün Babək rayon Cəhri kənd məzarlığında torpağa tapşırılıb.

Baş leytenant Cəfərov Cəfər İbrahim oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əmrinə əsasən şəhid olduqdan sonra» Şücaətə görə» III dərəcəli medalı ilə təltif edilib.





## ŞƏHİD CƏFƏR

Əsarət köynəyi məcbur taxıldı,
Sənin də əyninə lap körpə vaxtı.
Yaşa dola-dola böyüdüyünçün,
Əsarət köynəyi cismini sıxdı.

Artıq ilgəyindən ipi qopmuşdu,
Səbr sökülürdü lap yavaş-yavaş...
Duyduğun qorxulu bir nağıl idi,
«Qarabağ» adlanan o qanlı savaş.

O nağıl gerçəyin özüymüş məgər,
Böyüyüb sən bunun fərqinə vardın.
O qanlı savaşda günahsız yerə,
Tökülən qanların qisasın aldın.

Məhv edib düşmənin neçə zabitin,
Düşmənin gözünə dik baxdın, Cəfər.
Şəhadət zirvəsin fəth edən, şəhid,
Gənc yaşda göstərdin böyük bir hünər.



**QULİYEV ORXAN VAQİF OĞLU**
**BAŞ LEYTENANT**
**(2015-ci ildə şəhid olmuşdur.)**

## VƏTƏN AŞİQİ ORXAN

Bu vətəndən güc alan çox gənc şəhid kimi ucalan qəhrəmanlardı. Ömrünün ən gözəl çağında ömrü donub qalan qəhrəman. Bütün arzuları bir arzuya qurban gedən qəhrəman. Gələcək sabahlarda yer alan arzuları arzu olaraq qalan qəhrəmanlardı şəhidlər. Kimisi xınası belə yaxılmayan, kimisi övlad qoxusu duymayan... Hər birinin ardınca düzülən sözləri mirvari tək göz yaşları bəzəyir. Kimisi yarından, kimisi atasından, kimisi də aman - zaman bircə oğul balasından danışır. Həsrətlər necə də bir - birinə bənzəyir. Minaya ananın həsrətli sözləri, hər cümləsinə nöqtə qoyan ahları mənə çox tanışdı. İlk dəfə danışdığım bir ananın demək olar hər kəlməsini duymuşdum. Çünki bu sözləri daha öncəki şəhid analarından duymuşdum. Axı şəhid analarının dərdi birdi. Axı onlar eyni cür ağlayır. Bu dəfə Minayə ananın Orxanını, yeganə ümid çırağını, min bir zəhmətinin bəhrəsini elə Minayə anadan xəbər aldım. Şəhid anasının oğlu haqqında dediklərini öz sözləri ilə yazmaq qərarına gəldim.

- Mən Orxanımı tək başına böyütmüşəm. 1 yaş 2 aylığından şəhid olduğu günə qədər zəhmətini, şəhid olduğu gündən bu günə qədər də həsrətini tək - tənha çəkirəm. Orxan mənim yeganə övlad payım idi. Quliyev





Orxan Vaqif oğlu 1987- ci il oktyabrın 20-də Naxçıvan şəhərində dünyaya gəlib. Elə təhsilini də 1993-cü ildə Naxçıvan şəhərində alıb. Mən hərbi hissədə işlədiyim üçün Orxan demək olar ki, hərbi hissədə hərbçilərin yanında böyüyüb. Uşalıqdan həmişə «Mən də böyüyüb hərbçi olacam» deyirdi. Elə dediyi kimi də oldu. Arzusunun ardınca gedən Orxan 2002-ci ildə Heydər Əliyev adına Ali Hərbi liseyə daxil olub. 2005-ci ildə liseyi bitirib və elə həmin ildə də Heydər Əliyev adına Ali Hərbi məktəbə qəbul olub. 2009-cu ildə AAHM - i bitirib. Hərbinin bir çox sirlərinə yiyələnən Orxan Ağcabədi rayonunda yerləşən N saylı hərbi hissədə taqım komandiri vəzifəsinə təyin olunub. Daha sonra təyinatla Beyləqan rayonunda yerləşən N saylı hərbi hissəyə göndərilib. Orada kəşfiyyatçı bölük komandiri vəzifəsində çalışıb. Hər zaman işində peşəkarlığı ilə seçilən qəhrəman dəfələrlə fəxri fərman və diplomlarla təltif edilib.

Orxanın çox arzuları var idi. O, daima öz üzərində çalışırdı. Ən böyük arzusu Qarabağın azad olunması idi. Orxan həmin torpaqlarda döyüşmək arzusu ilə alışıb-yanırdı. Bir ana kimi oğlumun bu arzusundan həm qürur duyurdum, həm də qorxurdum. Axı mən bilirdim ki, hərbçilərin getdikləri yolun çox zaman dönüşü olmur. Mənim balam dönüşü olmayan yola 2015-ci il martın 13-də çıxdı. Orxan Füzuli rayonunun Alxanlı kəndində xidməti vəzifəsini icra edən zaman qəhrəmancasına şəhid oldu. Oğlum çox sevdiyi torpaq uğrunda şərəfi bildiyi bayrağa büküldü gəldi. Martın 13-də Şərur rayon Şəhidlər Xiyabanında torpağa tapşırıldı. O, hər zaman bayrağı və vətəni qoruyurdu. Son nəfəsinədək də qorudu. Sonuncu nəfəsini də torpağa əmanət etdi. Özündən sonra doğulan Orxanı o nəfəsi duysun deyə...

## ŞƏHİD ORXAN

Ömründə sərt əsdi həsrət küləyi,
Sənin taleyinin rəngi dəyişdi.
Ana zəhmətinin bəhrəsi idin,
Anan taleyinə doğan Günəşdi.

Vətən sevgisini anadan duyub,
Sevdin vətənini ana tək oğul.
Vətənə, anana bir oğul oldun,
Onlar sənin ilə hey qürur duyur.

Orxan, qəlbindəki vətən eşqindən,
Şəhadət adlanan zirvə nurlandı.
Şəhid qanlarıyla müqəddəsləşən,
Füzuli yenidən qana boyandı.

Allahın əmanət etdiyi canı,
Sən qurban elədin vətən yolunda.
Ruhunla Allahın yanına çatdın,
Cismin dinclik tapdı vətən qoynunda.







**HAŞIMLI TURAL ƏBDÜL OĞLU**
**BAŞ LEYTENANT**
**(2017-ci ildə Fevral döyüşlərində şəhid olmuşdur.)**

## ƏMANƏTƏ SAHİB ÇIXAN QƏHRƏMAN

Şəhidlik bir insanın alnına yazılan ən gözəl qismətdir. Hər kəsə nəsib olmayan bir məqam. Heç hər kəs də şəhidlərin daşıdığı ürəyi daşıya bilmir. Hər kəs vətən yaşasın deyə vətənə can vermək iqtidarında ola bilərmi? Xeyir, olmaz. Şəhadət ancaq Allah tərəfindən seçilmişlərin daşıdıqları ürəyin mükafatı ola bilər.

Şəhidləri cənnətdə Peyğəmbərlər bir də özlərindən öncə vətən uğrunda canından keçən şəhidlər qarşılayar. Turalı və dörd döyüş yoldaşını isə yəqin ki, ilk olaraq Aprel döyüşlərində qəhrəmancasına şəhid olanlar qarşıladılar. Çünki Tural və silahdaşları şəhidlərimizin apreldə canlarından keçərək azad etdikləri torpaqların yenidən işğal olunmaması üçün son nəfəslərinə qədər vuruşdular. Onlar şəhidlərin Vətən adlı əmanətlərinə sahib çıxıb özlərindən sonrakı nəsillərə əmanət qoydular.

Qəhrəman vətən oğlunun həyatına nəzər salaq. Haşımlı Tural Əbdül oğlu 1988-ci il dekabrın 27-də Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunda Əbdül Məmmədov və Gülnarə Məmmədovanın ocağında dünyaya göz açmışdır. Ailədə üç övladın hər birini valideynlər vətənə la-

yiq böyütmək üçün çalışmışdılar. Tural özünəməxsusluğu ilə hər zaman fərqlənmişdi. Tural 1996-cı ildə Ordubad rayon Rahim Babayev adına tam orta məktəbdə I sinfə qədəm qoymuşdu. Vətənə duyduğu sevgisi də bərabərində böyüyən Tural IX sinfi bitirdikdən sonra 2004-cü ildə Heydər Əliyev adına Hərbi liseyə qəbul olmuşdu. Liseyi bitirdikdən sonra Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdu. 2011-ci ildə Bakı şəhərində işə başlayan Tural sonra kəşfiyyatçı kimi Ağcəbədidə, daha sonra isə Lənkəranda təlimatçı kimi işləmişdi. Hərbinin çətinliyinə alışan Tural Lənkəranda çox qala bilməyib ərizə yazaraq yenidən Ağcabədidə yerləşən hərbi hissəyə qayıtmaq istədiyini bildirmişdi. Ancaq o Ağcəbədiyə deyil Xocavəndə təyinat almış, 3 il Xocavənddə xidmət etmişdi. Tural kəşfiyyat bölüyünün komandirinin müavini vəzifəsində çalışmışdı. O, xidməti dövründə hər zaman tapşırıqların öhdəsindən layiqincə gəlmişdi.

Tural kimi bir qəhrəmanın həyatından yazmaq asan deyil. Yazdıqca həm onun yarımçıq qalan arzularına yanıram, həm də daha bu oğulun ordu sıralarında olmamağına. Onun arzuları var idi. Hələ Qarabağa bayraq sancacaqdı. Bəlkə də Turalın ən böyük təssüfü elə həmin arzusu oldu, bir də hələ dünyaya gəlməyən oğlunun üzünü görə bilməməsi. Turalın hər iki arzusu onsuz həyata keçdi. Tural şəhid olduqdan cəmi bir neçə ay sonra onun adını daşıyan Turalı dünyaya gəldi. Cəmi 3 il sonra isə Azərbaycan Ordusu Qarabağı düşməndən azad edib, Qarabağın hər qarış torpağına bayraq sancdı. Bir zaman özlərindən öncəki şəhidlərin əmanəti olan vətənə sahib çıxan Turalın əmanətinə də özündən sonrakı qəhrəmanlar sahib çıxdılar.

2017-ci il fevralın 24-dən 25-nə keçən gecə düşmənin yenidən Nərgiztəpə yüksəkliyinə hücum etməsininin qarşısını alarkən baş leytenant Haşımlı Tural Əbdül oğlu və 4 silahdaşı mayor Abdullayev Aqşin İsmayıl oğlu, baş leytenant Nəzərov Şahlar Yaşar oğlu, baş çavuş Qədimov Zülfü Rəhim oğlu və əsgər Cəfərov Zakir Nazim oğlu qəhrəmancasına şəhid olmuşlar. 2 gün şəhidlərin nəşin götürmək mümkün olmur. Nəhayət ki, fevralın 27-də şəhidlərin cansız cisimləri ailələrinə təhvil verilir. Oğlunun cansız cisminə sarılan şəhid atası son dəfə oğlunu üç rəngli bayrağa bürünmüş tabutda öz ata ocağına gətirir. Oğlunu son dəfə bağrına basan Gülnarə ananın ürəyi Turalsızlıqdan alovlanır. Naxçıvanın və bütün Azərbaycanın qəhrəman oğlu fevralın 28-də Ordubad rayon Şəhidlər Xiyabanında torpağa tapşırılır.





Baş leytenant Haşımlı Tural Əbdül oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə həmin dövürdə yenicə təsis olunmuş «Şücaətə görə» medalı ilə təltif olunub.

**ŞƏHİD TURAL**

Hər qarış torpağı qanla yuyulan,
Vətəni əmanət bildin özünə.
Dönmədin tutduğun şərəfli yoldan,
Sonadək sən sadiq qaldın sözünə.

Aprelin qan qoxan sərin küləyi,
Sənin qəlbinə də dəyib keçmişdi.
Vətənə can verən həmin oğullar,
Sənin tək vətəni, yurdu seçmişdi.

Aldın neçə - neçə şəhid qisasın,
Elə bil Xocalı səslədi səni.
Bu boyda vətəni köksünə sıxdın,
Vermədin düşmənə ana vətəni.

O gün elə bil ki, bir ana kimi,
«Laylay Tural» deyib torpaq oxudu.
Torpağın şəhidi verdiyi yuxu,
Bir sonu olmayan şirin yuxudu.



**SADIQLI MƏMMƏDHƏSƏN MEYDAN OĞLU BAŞ LEYTENANT (II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## ŞƏHADƏTƏ TƏLƏSƏN ŞƏHİD

Bir insan sevdiyinə, əzizinə, doğmasına qovuşacağı anı səbirsizliklə gözləyər. O sevdiyi ki, onun naminə yaşayır və onun naminə də yaşamaqdan əl üzməyi düşünür. Hər insanın insanlara olan sevgisi, istəyi başa düşüləndir. Qəlbi olan hər kəsin qəlb döyüntüsünə səbəb olanlar var. Ancaq elə insanlar var ki, hər sevgidən üstün tutduğu bir uca sevgisi var. Başqa sevgilərsə həmin o müqəddəs sevginin işığında bərq vurur. Həmin sevgi vətən sevgisidir. O sevgiyə məskən olan ürək o sevginin qəlibidir. Sevgisi uğruna canını fəda edən bir qəhrəmanın gülə-gülə döyüşə getdiyini eşitdiyimdə sözlərim boğazımda, göz yaşlarım yanağımda düyünləndi.

Sadıqlı Məmmədhəsən Meydan oğlu ailəsinin ilk övlad payı, ilk ümid çırağı idi. O, 1992-ci il 21 fevralda Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Dəmirçi kəndində anadan olmuşdu. Ondan sonra qardaşı Zamin və bacısı Şərmin dünyaya gəlmişdi. Hər zaman böyük övladların həyatda məsuliyyəti daha böyük olur. Məmmədhəsən də elə körpəlikdən sanki böyümüşdü. Elə bil ki, adının ağırlığı surətinə yansımışdı. Məmmədhəsən məktəbli yaşı çatdığında 1998-ci ildə şəhid Etibar Əhmədov adına Dəmirçi kənd tam orta məktəbində təhsil almağa başlamışdı. Eyni zamanda idmanın Yunan Roma güləş növü ilə məşğul olmuş,





dəfələrlə birincilik qazanmışdı. Hər insanın uşaqlıqdan gələcəkdə reallaşdırmaq istədiyi böyük arzuları olur. Məmmədhəsənin də ən böyük arzusu gələcəkdə hərbçi olmaq idi. Hərbi formalara böyük marağı olan qəhrəman 2007-ci ildə IX sinifi bitirdikdən sonra Heydər Əliyev adına Hərbi liseyə daxil olmuş, 2010- cu ildə liseyi bitirmişdi. Elə həmin il Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuş, 2014-cü ildə leytenant hərbi rütbəsi ilə bitirmişdi. Bununla da kifayətlənməyərək Təlim və Tədris Mərkəzinin (TTM) zabit ixtisas kursunu keçmiş, 2015 - ci ildə uğurla başa vurmuşdu. Təyinatla Culfa rayonuna göndərilən Məmmədhəsən 3 il orada xidmət etmiş, 2017-ci ildə baş leytenant hərbi rütbəsi almışdı.

2018-ci ildə Ermənistanın yenidən Naxçıvan Muxtar Respublikası istiqamətində atəşkəsi pozması nəticəsində Əlahiddə Ümumqoşun Ordusu əks-həmlə əməliyyatına başlamışdı. O döyüşdə Məmmədhəsən ən öndə vuruşanlardan olmuşdu. Həmin vaxt Şərur rayonunun Günnüt kəndi, Ağbulaq yüksəkliyi, Qızılqaya dağı, Qaraqaya dağı azad olunmuş, Dərələyəz mahalının Arpa kəndi Azərbaycan Ordusunun nəzarəti altına alınmış, Gorus - Laçın avtomobil yoluna nəzarət etmək imkanı yaranmışdı. Həmin döyüşlərdə göstərdiyi şücaətlərə görə Sadıqlı Məmmədhəsən «Hərbi xidmətdə fərqlənməyə görə» 3-cü dərəcəli medalı və «Azərbaycan Ordusunun 100 illiyi» yubiley medalı ilə təltif edilmişdi. Ömrünü vətənə həsr edən bu qəhrəman atdığı hər addımı vətən naminə atırdı. 2018-ci ildə təyinatla Vayxırda N saylı hərbi hissədə xidmət etdiyi zaman Türkiyəyə "Komanda Temel Kursunu" öyrənməyə göndərilmiş və Azərbaycan üzrə birincilik qazanmışdı. 2019-cu ildə Əlahiddə Ümumqoşun Ordusu üzrə " Ən yaxşı kəşfiyyat bölüyü" yarışında ən gözəl nəticəni əldə etdiyi üçün təltif edilmişdi.

Atılan hər bir addımda Məmmədhəsəni əzmkar xanımı Şərəbanı dəstəkləyirdi. İllərlə ürəyində kök atan sevgisinin sahibi Şərəbanı. Yeddi il öncə edilən sevgi etirafına 2014-cü il 21 fevral ad günündə «hə» cavabı almışdı Məmmədhəsən. Elə həmin il sentyabrın 28-də qovuşmuşdular. Evliliklərinin birinci ilində sevgilərinin bəhrəsi olan Uğurları dünyaya gəlmişdi. Uğurun adını atası qoymuşdu. Hər zaman «Uğur bizim uğurumuzdu.» deyirmiş. Ancaq çox zaman sevdiklərindən uzaqda olduğu üçün Uğurunu doyunca görə bilməmişdi. Kim bilir Uğurun hansı anının sevin-

cini paylaşa bilməmişdi...

Vətənin ümidi olan hərbçilərin vətən xilaskarına çevrildiyi Vətən müharibəsi günlərdiki davam edirdi. Məmmədhəsən də döyüşlərə getmək üçün öz növbəsini gözləyirdi. Hər dəfə televizyada izlədiyi şəhid dəfnlərinə həsədlə baxar, qürurla o şəhidlərin yerində olmaq istədiyini dilə gətirərdi. Hətta bir dəfə oğlu şəhid olan anaya «Ana, qürur duy, sənin oğlun hər kəsə nəsib olmayan bir məqama ucalıb.» sözlərini dilə gətirmişdi. Naxçıvana gələn şəhidlərə göstərilən ehtiramı dilə gətirib «Şəhid olsam məni elimdə, obamda dəfn edin.» deyirmiş. Sanki olacaqlardan xəbərdar imiş. Oktyabrın 23-də son dəfə evlərinə gəldiyində xanımına heç kəsə borcu olmadığını deyib və hər kəsdən halallıq alıb. Sanki ən böyük arzusuna çatırmış kimi sevinən qəhrəman sonuncu dəfə evdən çıxarkən yenidən dönüb xanımına «Şərəbanı, nə olur olsun başını dik tut, sən güclü qadınsan.» deyib. Həmin sözləri 24 oktyabrda döyüşə qatıldığı ilk gündə də yazıb. Həmin gündən sonra ondan gələn zənglər kəsilib.

Məmmədhəsənin döyüş yolu Füzulidən başlayıb Şuşaya qədər gedib. Oktyabrın 27-də Şuşanın girişində baş verən döyüşlər zamanı Məmmədhəsən bir əsgərin yaralandığını görüb. Təkidlə «Mən yaralı əsgəri oradan çıxaracam.» deyib irəli atılıb. Yaralı yoldaşını xilas edən zaman özü snayperlə ürəyinə yaxın nahiyədən vurulub. Ancaq buna baxmayaraq mübarizəyə davam edib. O, özü öz qisasını alıb. Dostları onun əsir düşdüyünü zənn etsələr də Məmmədhəsən dolayı yolla yaralı yoldaşı ilə bərabər döyüş yoldaşlarının yanına gəlib çıxıb. Həmin zaman əsgərlər Məmmədhəsənə ilk yardım göstərib xaricə axan qanı durdura bilsələr də daxili qanaxmaya müdaxilə edə bilməyiblər. Ömrünün yaralı halda keçirdiyi son 3 saatını sevinc içində yaşayıb. Sonda dediyi sözlər isə bunlar olub :

- Mənim telefonumu Uğuruma çatdırın. Məndən sevdiklərimə salam deyin. Onların hər birini çox sevirəm. Mən xoşbəxtəm, çünki son dəfə oğlumla birlikdə qüsl alıb paklanmışam. Son nəfəsimdi...

28 oktyabrda gələn zənglər və hər kəsin Məmmədhəsəni soruşmağı artıq Şərəbanının ürəyində bir nigaranlıq yaratmışdı. Gələn bir zənglə deyilən «Şərəbanı bacı, dostum, qardaşım Məmmədhəsən şəhid olub.» sözləri isə bir xoşbəxt ömürə nöqtə qoydu. Həmin an Şərəbanının nələr yaşadığını izah etməyə heç bir sözün qüdrəti yetməz. Hər zaman sevdiyinin dönüşünü gözləyən Şərəbanı 2 gün sonra sevdiyinə qovuşdu. Ancaq Məmmədhəsən onun arzuladığı kimi gəlmədi. Məmmədhəsən özü xəyal etdiyi kimi Naxçıvana döndü. Hər kəs şəhidini ehtiramla qarşıladı. 30 oktyabrda Sadıqlı Məmmədhəsən Meydan oğlu Şərur rayonunda yerləşən Şəhidlər Xiyabanında torpağa tapşırıldı. Uzun zaman idi oğlunu görməyən Səadət ana oğlunu vətən torpağına tapşırdı. Necə ki, torpağı oğluna tapşırmışdı...





Qəhrəmanların şücaətləri istər xalq istərsə də ölkə başçısı İlham Əliyev tərəfindən qiymətləndirilir. Elə baş leytenant Sadıqlı Məmmədhəsən Meydan oğlu da şəhadətindən sonra «Vətən Uğrunda»medalı , «Xocavəndin azad olunmasına görə medalı,» «Şuşanın azad olunmasına görə»medalı və «Hərbi xidmətlərə görə» medalı ilə təltif edilib.

Bu dünyaya gələn hər kəs bir gün bu dünyadan köçəcək. Ancaq şəhid kimi dünyadan köçənlərin özləri olmasa da izləri bu dünyada əbədi qalacaq.

## ŞƏHİD MƏMMƏDHƏSƏN

Ölümə yürüyüb ölümsüz oldun,
Adınla, ruhunla ürəyə doldun.
Ömrünü vətənə fəda eləyib,
Sən yurdu qorudun, eli qorudun.

Uğura əmanət qoydun vətəni,
Qürurla anacaq övladın səni.
Bu millət heç zaman unutmayacaq,
Yenilməz qəhrəman Məmmədhəsəni.

Özü öz qisasın alan, mərd ərən,
Sonuncu nəfəsin vətənə verən,
Şuşa şahid olub şücaətinə,
Vətən azadlığın gözüylə görən.

Bilirdin yolunun dönüşü yoxdu,
Cənnət yollarının yolçusu çoxdu.
Qanın damladığı vətən torpağı,
Şəhidim, o gündən sənin tək qoxdu.



**ƏLƏKBƏROV RÖYAL FƏRMAİL OĞLU**
**BAŞ LEYTENANT**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## ƏSARƏTİN ƏBƏDİ VİDASI

Qarabağ torpaqları, qanla yoğrulub vətən olan müqəddəs torpaqlardı. Xocalısı bir başqa, Kəlbəcəri bir başqa dağ çəkib ürəyimizə. Hələ illərlə düşmənlərin hər dəfə üzərinə ayaq basanda ürəyimizin oyulduğu Şuşanı demirəm. Bir də Ağdam. O Ağdam ki, tərk edilmiş viranələr şəhərini xatırladır. Qubadlı, oğulların narahat ruhu illərlə pərvazlanan torpaq. Eyni gündə işğal olunan Füzuli, Cəbrayılın sızlayan dərin həsrət yarası. Qartal olub dağlarında süzmək arzusu ilə yaşadığımız Laçın. Neçə illər bu həsrətlə yaşadıq biz. Arzularımızda yer aldı Qarabağ. Yaşımızdan çox oldu həsrətin yaşı. Ancaq ümidimizin ömrü də uzun oldu. Hər oğul vətənə bir Günəş kimi doğdu. O oğullardan biri də Röyal Ələkbərov oldu.

Ələkbərov Röyal Fərmail oğlu 1994-cü il iyun ayının 23-də Naxçıvan Muxtar Respublikasının Kəngərli rayon Qıvraq qəsəbəsində anadan olub. 2000-ci ilin sentyabrında Qıvraq kənd 1 N-li tam orta məktəbdə təhsil almağa başlayıb. Röyalın vətənə, bayrağa, torpağa olan sevgisi orta məktəbdə oxuduğu zamandan açıq-aşkar duyulub. Hər zaman «Mən hərbçi olacam.» deyən Röyal VIII sinfi bitirdikdən sonra Naxçıvan şəhərində yerləşən Heydər Əliyev adına Hərbi liseyə qəbul olub. 2011-ci ildə Heydər





Əliyev adına liseyi bitirib. Daha sonra Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2015-ci ildə leytenant rütbəsi alaraq məzun olub. Təyinatla Daşkəsəndə yerləşən N saylı hərbi hissəyə göndərilib və taqım komandiri vəzifəsində çalışıb. 2015-ci ildən 2018-ci ilə qədər Murovdağ yüksəkliyində taqım komandiri vəzifəsində xidmət edib.2018-ci ildə baş leytenant hərbi rütbəsi alıb. 2018-ci ildən 2020-ci il 16 oktyabra qədər Gəncə şəhərində yerləşən N saylı hərbi hissədə bölük komandiri vəzifəsində xidmət edib. 2020-ci il 27 sentyabrda başlayan Vətən müharibəsində hərbi hissənin heyəti döyüş tapşırıqlarının yerinə yetirilməsi və torpaqlarımızın işğaldan azad olunması üçün döyüş əməliyyatlarına cəlb olunub. Röyal vətən torpaqlarına azadlıq qapısını açmaq üçün qəhrəmancasına vuruşub. Qarış-qarış azad olunan torpaqlarda Röyalın da izi qalıb. 16 oktyabr 2020-ci ildə Cəbrayıl rayonunun işğaldan azad olunması uğrunda gedən döyüşlərdə qarşıya qoyulan tapşırıqları şərəflə yerinə yetirərkən Azərbaycan torpaqlarının azadlığı uğrunda can verən qəhrəmanlardan biri kimi qanı ilə tarix yazıb.

Röyal neçə - neçə qəhrəmanın uyuduğu II Fəxri xiyaban 19 oktyabrda insan izdihamına qərq oldu. El yolunda canından keçən qəhrəman el qolunda əbədiyyətə uzanan yola çıxdı. Röyal Vətən müharibəsində şəhid olan qəhrəmanların sırsında yer aldı. Ancaq sonuncu olmadı. Donub qalan baxışları ilə neçə döyüş yoldaşının el qolunda gəlişini izlədi.

Bir ocağın övlad adlı ilk nübarı, oğul adlı bala payı idi Röyal. Dünyaya gəlişinin sevinci ürək-ürək ayaq tutub yerimişdi. Atasının, anasının nə qədər xəyalları, arzuları var idi. Özündən sonra dünyaya gələn tək bacısının dostu, sirdaşı idi. Hər kəsin ümidlərinə bir dayaq idi. Gedişi ilə ümidlərin dayağı laxladı. Röyallı arzular onsuz yıxıldı. Sevinci kimi kədəri də ürək - ürək ayaq tutub yeridi.

Baş leytenant Ələkbərov Röyal Fərmail oğlu göstərdiyi qəhrəmanlıqlarla xalq ürəyində yer tutdu. Prezident İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı və « Cəbrayılın azad olunmasına görə» medalı ilə təltif olundu.

## SEHİD RÖYAL

Üsyan etdin vətənin əsarət çağlarında,
Min hiylənin izi var qəlbinin dağlarında,
Neçə gənc candan keçdi azadlıq sorağında,
O gənclərin ucalan sədası oldun, igid,
Əsarətin əbədi vidası oldun, şəhid.

Qara dumanı çəkdin, doğdu zəfər Günəşi,
Şəfəqiylə isitdi o Günəş Ərgünəşi,
Ürəkləri qovurdu müharibə atəşi,
Od düşən ocaqların acısı düzüm-düzüm
Qanlı köynəyin ilə sildin vətənin gözün.

Candan keçən şəhidim, sən vətən qibləgahı,
Röyal, sənlə açılıb azadlığın sabahı,
Şəhidlər bu millətin and yeri, səcdəgahı,
Müqəddəs məzarında ucalıb şanlı bayraq
O məzar olacaqdı daim yanan gur çıraq.







## HÜSEYNOV RAQİB ADİL OĞLU
## BAŞ LEYTENANT
## (II Qarabağ müharibəsində şəhid olmuşdur.)

## VƏTƏN QƏHRƏMANI

«Oğlum anasını vətən, vətənini ana kimi sevdi. O sevginin yazıldığı vərəq vətən torpağı, yazan mürəkkəbsə qan oldu. İndi o sevgini oxuduqca o vərəq mənim və bütün Azərbaycan xalqının göz yaşları ilə islanır.»

Rəna ana oğlu şəhid olan minlərlə anadan biridi. O,oğlundan danışanda tək Raqibi deyil bütün şəhidləri sözlərinə sığdırdı. Hər bir şəhidin adını bilməsə də hər bir şəhidi Raqibi kimi sevdiyini dilə gətirdi. Axı bütün şəhidlər Raqib ömürlü oldular...

Evinin ilki, ata - anasının arxalandığı dağ, tək bacısının dayağı idi Raqib. O, 28 iyun (sənədlərdə 3 iyul yazılıb)1993-cü ildə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Mərəlik kəndində anadan olmuşdur. 2000-ci ildə ibtidai təhsilini Mərəlik kənd məktəbində alan Raqib V sinifdən təhsilini Naxçıvan şəhər Heydər Əliyev adına tam orta məktəbdə davam etdirmişdi. Hələ 5 yaşında olduğu zaman tay-tuşları oyuncaq istəyərkən Raqib anasına hərbi forma aldırmışdı. Elə o zamanlardan onun daxilində tüğyan edən duyğuları özünü biruzə verməyə başlamışdı. VIII sinfi bitirdikdən sonra Heydər Əliyev adına Hərbi liseyə daxil olan Raqib 3 il hərbi təhsil aldıqdan sonra 2011-ci ildə Azərbaycan Ali Hərbi Mək-

təbinə daxil olmuşdu. 2015-ci ildə AAHM - dən məzun olduqdan sonra leytenant hərbi rütbəsi ilə Gəncədə yerləşən N saylı hərbi hissədə taqım komandiri kimi xidmətə başlamışdı. 2017-ci ildə təyinatla Tərtər rayonunda yerləşən N saylı hərbi hissədə xidmət etmişdi. Daha sonra Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində bölük komandiri kursunu uğurla tamamlayaraq bölük komandiri vəzifəsinə təyin edilmişdi. 2019-cu ildə TTM - də taborun qərərgah rəisi kursunu da keçdikdən sonra 2020-ci ildə Naftalan şəhərində qərərgah rəisi kimi xidmət etmişdi.

Hələ hərbiyə getmək istədiyi ilk vaxtlarda anası ona əngəl olmağa çalışmışdı. Anasına "Ana, səni tanıdacam. Hər kəs sənə general Raqibin anası deyəcək." deyirmiş. Raqibin general hərbi rütbəsinə çatmağına bir qədər yol qalırdı. Baş leytenant Hüseynov Raqib Adil oğlu növbəti dəfə kapitan hərbi rütbəsi alacaqdı. Ancaq o şəhidlik rütbəsinə layiq görüldü.

27 sentyabrda başlanan Vətən müharibəsində ilk müdafiə xəttini yaranlardan biri Raqib olub. Əslində həmin əməliyyatı Raqibin dəstəsi aparmalı olmadığı halda o sinəsini qabağa verib və həmin çətin əməliyyatı qalibiyyətlə tamamlayıb. Raqib əsil Vətən qəhrəmanıdır. İstər müharibəyə qədər olan xidməti zamanı, istərsə də müharibə dövründə əsil qəhrəmanlıq göstərib. Qolundan və başından yaralansa da o geri çəkilməyib. 28 sentyabrda hərəkətdə olan maşınları raket atəşinə məruz qalıb. Partlayışın gücü ilə maşından çölə çırpılıb. Ağır yaralanan Raqibin yanına növbəti dəfə minamyot düşüb və Raqib ən böyük arzusu olan şəhadətə ucalıb.

Lap körpə vaxtlarından Raqibin başında əcəl dolanmışdı. Dəfələrlə boğulma təhlükəsi ilə üz-üzə qalmış və hər birində də həyata dönmüşdü. Sonuncu dəfə Gəncədə dəm qazından boğulmuş və möcüzə nəticəsində sağ qalmışdı. Yəqin Allah Raqibi başqa cür ölümə layiq bilməmişdi.

Müharibə başlamazdan 2 gün öncə görüntülü zənglə anası ilə danışıb. Dörd il həsrətini çəkdiyi və sonunda ona dayı adını qazandıran Leylasını görüb. Rəna anadan atasından, bacısından və Leyladan muğayət olmağı xahiş edib. Son mesajı isə «Başını dik tut can ana.» olub. 27 sentyabrda atasına vida zəngi edib. O gündən telefonu susub. Hələ də Raqibin telefonuna zəng çatmır. Raqibdən xəbər ala bilməyən ailə hər gələn zəngə Raqibdən bir xəbər olar ümidi ilə cavab verib. 29 sentyabrda Raqibin dostu Rəna anaya zəng edib hərbçi olan kürəkəninin nömrəsini istəyəndə Rəna ananın dünyası qaralıb. Dostu etiraf etməsə də Rəna ana artıq gələcək xəbərin xeyir xəbər olmayacağını düşünüb. Daha sonra Raqibin yaralandığını desələr də öz oğlunu hər kəsdən yaxşı tanıyan ana Raqibin yaralı halda döyüşü davam etdirmək iqtidarında olduğunu bildiyi üçün onun şəhid olduğunu dilə gətirib.





Raqib döyüşə getməzdən əvvəl yoldaşlarına bir peşimanlığını deyib.

- Mən həyatım boyu etdiklərimdən və etmədiklərimdən peşiman deyiləm. Yeganə peşimanlığım 2 ildi evimə getməyib ata - anamın üstünə şəhid kimi döndüyümdə onların kədərə qərq olacaqlarıdı.

Oktyabrın 1-də Raqib sonuncu dəfə evinə gətirilir. Rəna ananın istəyi ilə evində yarım saat qalır. Daha sonra Naxçıvan şəhər məzarlığında dəfn olunur. Oğlunun bu ayrılığına ana ürəyi tab etmir. Rəna ana özünə gələndə Raqibin qarşısında durduğunu və gülümsədiyini görür. O an Raqibinin ölümsüz olduğunu anlayır. Daha sonra da Raqib anasının gözünə görünür. Tez-tez evini ətri bürüyür. Məzarından da bir başqa qoxu gəlir. Bunu çox adamlar duyub, hiss edib. İndi görün Raqibin və digər şəhidlərin qanı tökülən torpaqlar necə gözəl qoxuyur. Raqibin arzusunda olduğu ancaq görə bilmədiyi Şuşa torpağı cənnət ətirli şəhidlərin ətrinə bürünüb. Raqib bir zaman anasına Şuşada kənd, ev alacağı vədini vermişdi. İndi Rəna ana övladının məzarına Şuşa torpağı tökmək arzusundadı. Raqibin məzarın oğul evi bilən ana əvvəllər gününün çox hissəsini oğlunun məzarı üstə keçirərdi. Raqib bir çox insanların yuxusuna girib anasından nigaran olduğunu və İmam Hüseynin yanına getmək istədiyi vaxt bir neçə dəfə anası gəldiyi üçün onu yoldan qaytardıqlarını deyib. Bu yuxuları eşidən Rəna ana oğlunun ruhunu incitməmək üçün daha məzarlığa hər gün getmir. Raqibin bacısının yuxusunda dediyi "Hər can verən şəhid deyil (3 dəfə) ,604 (3 dəfə)" sözləri isə bir sirr olaraq qalır.

Baş leytenant Hüseynov Raqib Adil oğlu xidməti dövründə «Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin 100 illiyi» yubiley medalı, şəhadətindən sonra isə «Vətən uğrunda» medalı, «Suqovuşanın azad olunmasına görə» medalı və «Laçının azad olunmasına görə» medalı ilə təltif edilmişdi.

## ŞƏHİD RAQİB

Daha gözdən damla-damla yaş axır,
Cansız rəsmin məzar daşından baxır,
Doğmaların sənin üçün darıxır,
Bu gedişin günü - gündən böyüyür
Neçə ürək həsrətindən göynəyir.

Vətən oldu hər cümlənin nidası,
Ağır olur şəhidin əlvidası,
Sən ucaldın Raqib, ölüm sonrası,
İndi səni sevgi ilə anırıq
Vətən oğlun şəhid kimi tanırıq.

Hey çəkirdin vətən dərdin sinəyə,
Sən yetişdin vətənimə köməyə,
Şəhidim, tuş gəldi cismin mərmiyə,
Cığır acdı sənin qanın zəfərə
Şahid oldu hər kəs böyük hünərə.







## ƏLİZADƏ FUAD NAZİM OĞLU BAŞ LEYTENANT (II Qarabağ müharibəsində şəhid olmuşdur.)

## CƏSUR ÜRƏKLİ

Biz görmüşük ki, yazda torpaq canlanar, həyat təzələnər. Ancaq 2020-ci ildə Qarabağ torpağında fəsillər yer dəyişdi. Payızda Qarabağ torpaqları cana gəldi. Qəhrəman oğullarının isti nəfəsi toxunduqca Qarabağın 30 illik həsrət buzu əridi. Şəhidlərin ılıq qanı torpağın yeddi qatına qədər gedib çıxdı. O qanlar vətənin ürəyinə toxundu. Necə ki, vətən sevgisi oğulların ürəyinə toxunmuşdu. O oğullar geriyə baxmadan tək vətənə sarı getdilər. Vətənə də çatdılar, torpağa qan qatdılar, vətəni ucaltdılar. Vətənlə bərabər özləri də ucaldılar. Hər kəsin qəhrəmanına çevrildilər. Şəhid adları dildən-dilə düşdü. Körpələr şəhidləri şəkillərdə sevməyə başladılar. Körpələrə bu günümüzün əsil qəhrəmanları olan şəhidlərin adları əmanət edildi. Kim bilir Vətən müharibəsindən sonra doğulan neçə körpə qəhrəman Fuadın adını daşıyır.

Əlizadə Fuad Nazim oğlu 25 iyun (sənədlərdə 5 iyul) 1994-cü ildə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Kolanı kəndində anadan olmuşdur. 2000-ci ildə Naxçıvan şəhər 17 N - li tam orta məktəbdə təhsil almağa başlamışdı. 2008-ci ildə Heydər Əliyev adına Hərbi liseyə daxil olmuşdu. Liseyi bitirdikdən sonra 2011-ci ildə Azərbaycan Ali Hər-

bi Məktəbinə daxil olmuş, 2015-ci ildə təhsilini leytenant rütbəsiylə başa vurmuşdu.

Əlizadə Fuad 2016-cı il yanvarın 1-dən Göygöl rayonundakı N saylı hərbi hissədə xidmətə başlamışdı. Xidmətinin 4 - cü ayında çox uğurlu bir əməliyyatda iştirak etmiş və ilk qalibiyyəti qazanmışdı. O, 2016-ci ildə ordumuzun gücünün, qüvvətinin, qüdrətinin dünyaya səda saldığı Aprel döyüşlərində qəhrəmancasına döyüşən oğullardan biri olmuşdu. Hələ o zaman sirr deyildi ki, bu qələbənin ardı bütöv Qarabağın azadlığı olacaq. Fuad Aprel döyüşlərindən qayıtdıqdan sonra 2016-ci ilin may ayından çətin relyefi olan və strateji baxımdan önəmli olan Murovdağ zirvəsində xidmətə başlamışdı. Murovdağda xidmət etmək digər yerlərdə xidmət etməkdən daha çətin, daha məsuliyyətlidir. Belə bir yerdə 4 il müddətində sinəsini vətənə sipər edən qəhrəman 2018-ci ildə baş leytenant hərbi rütbəsinə yüksəlmişdi. 2020-ci ilin fevral ayından isə Gəncədə yerləşən N saylı hərbi hissədə xidmət etmişdi. Xidməti dövründə «Azərbaycan Ordusunun 100 illiyi» yubiley medalı ilə təltif edilmişdi.

2020-ci il sentyabrın 27-də qəhrəmanlar haqq savaşımız uğrunda haqq dərgahına ucalmağı gözə aldılar. Müharibəyə qatılan hər bir oğul ilk olaraq düşməni məhv etməyi düşünürdü. Lakin bu yolda hər an son nəfəsin çata biləcəyi də bir gerçək idi. O gerçək Fuad və onun kimi qəhrəmanların gözünü qorxutmur, əksinə son nəfəsi vermədən daha çox düşmən məhv etməyi düşünürdülər. Fuad Vətən müharibəsində ən ağır döyüşlərdə, düşmənin «keçilməz sədd» adlandırdığı sədlərin aşılmasında böyük şücaət göstərmişdi. Murovdağ, Füzuli istiqamətlərindəki mövqelərin qorunması önəmli olduğu qədər həm də çətin idi. Fuad və döyüş yoldaşları bunun öhdəsindən gəlməyi bacarmışdılar. Bununla yetinməyən Fuad Cəbrayıl uğrunda gedən döyüşlərdə də mübarizə aparmış və Cəbrayılın azadlığına nail olmuşdu. Fuada qorxu hissi yad idi. Ona görə də yoldaşları ona «Cəsur ürəkli» deyirdilər. Cəbrayıldan sonra hədəf Qubadlını azad etmək idi. Azərbaycan Ordusu bunun da öhdəsindən layiqincə gələ bilmiş və düşmənin pəncəsi Qubadlıdan qoparılmışdı. Ən çətin və ən önəmli yerlərdən olan, ələ keçirilməsi düşmənin boğazına salınacaq ip olan Laçın dəhlizi uğrunda gedən döyüşlərdə də qəhrəmancasına vuruşan oğullar sırasında olan Fuad yaralanmasına baxmayaraq döyüşü dayandırmamış, əksinə bir





neçə yaralı döyüş yoldaşını döyüş meydanından çıxarmağa nail olmuşdu. Noyabrın 7-də Laçın dəhlizi uğrunda son nəfəsinə qədər mübarizə aparmış və qəhrəmancasına şəhid olmuşdu.

Vətən müharibəsi başlanandan vətənə ən çox oğul qurban edən yerlərdən biri də Naxçıvan oldu. 30 noyabrda Naxçıvan yenə də qəhrəman oğullarını qarşılamağın təşvişinə düşdü. Həmin gün Əlizadə Fuadın da nəşi Naxçıvana gətirildi. Naxçıvanlılar hər qəhrəmanını qəhrəmana layiq şəkildə qarşılayır və son mənzilə yola salırdılar. Fuad da 30 noyabrda xalq qəhrəmanı kimi Naxçıvan şəhər məzarlığında torpağa tapşırıldı.

Baş leytenant Əlizadə Fuad Nazim oğlu bir çox ərazilərin işğaldan azad olunmasında göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, «Döyüşdə fərqlənməyə görə» medalı, «Cəbrayılın azad olunmasına görə» medalı, «Qubadlının azad olunmasına görə» medalı və «Laçının azad olunmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD FUAD

Şirin yuxu görürdün,
Oyandın ömür bitdi.
Adını eşidənlər,
Deyirlər ki «İlahi,
bu gənc necə igiddi?!»

Bu boyda bir ürəyi,
Köksü necə daşıyıb?
Gecə-gündüz daxildən,
Vətən dərdli ürəyin
Duyğuları daşlayıb.

"Bitəcək! Bitirəcəm,
Mən vətən savaşını!"
İlahi, kim yağdırıb
Bu millətin başına
Öz nalə - qarğışını?

Bəsdi, daha erməni,
Atın çapdı elimdə.
Koroğlu qeyrəti var,
Polad ruhu daşıyan
Neçə mərd igidimdə.

O mərd ürəklilərdən,
Biri idi Fuad da,
İndi neçə beşikdə,
Körpə bala uyuyur,
Qəhrəman Fuad adda.

O qəhrəman bitirib,
Yurdun haqq savaşını.
Murovdağ, Cəbrayılın,
Qubadlının, Laçının,
Silib gözdən yaşını.





**ƏSGƏRLİ TURAL
ƏLƏMDAR OĞLU
BAŞ LEYTENANT
(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**



## VƏTƏN SİNƏSİNİN PARLAQ İNCİSİ

Biz yaşadıqca həm qazanmağı, həm itirməyi öyrənirik. Əslində ömürdən ayrılan hər fəsili itiririk. Çünki o fəsil ömrümüzdən qopub düşür. Qopub düşən fəsilsə bəzən bizə qazanılması mümkünsüz olanları qazandırır. Biz 2020 - ci ilin payızını bir çox ömürlərin bitdiyi bir fəsil kimi xatırlayırıq. Əslində isə həmin payız ömrü bitənlər cənnət adlı əbədi dünyanı qazandılar. O insanlar həm də bir xalq olaraq bizə qalib ölkə adını qazandırdılar. O adı qazandıranların kimisi hərbçidi, kimisi qazi, kimisi də cənnət adlı dünyanın sakini olan Tural kimi şəhid...

Əsgərli Tural Ələmdar oğlu 20 aprel 1993-cü ildə Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Qıvraq qəsəbəsində dünyaya göz açmışdı. 1999-cu ildə Kəngərli rayon Qıvraq qəsəbə tam orta məktəbinə getmişdi. Tural hər zaman bilik və bacarığı ilə fərqlənməyi bacarmışdı. Vətən sevgisi onun gələcəkdə bir hərbçi olacağından xəbər vermişdi. Tural 2007-ci ildə arzuladığı Heydər Əliyev adına Hərbi liseyə qəbul olmuşdu. 2010-cu ildə liseyi bitirdikdən sonra Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuş,2014-cü ildə məktəbi bitirmişdi. Həmin il sentyabr ayında Təlim və Tədris Mərkəzində hərbi biliklərini artırıb,ixtisasını təkmilləş-

dirmişdi. 2015-ci ildə TTM - ni bitirdikdən sonra Qazax rayonunda N saylı hərbi hissədə leytenant kimi işə başlamış, taqım komandiri kimi xidmət etmişdi. 2018-ci ildə Daşkəsən rayonunda yerləşən N saylı hərbi hissədə xidmətini davam etdirmişdi. Həmin hərbi hissədə baş leytenant hərbi rütbəsi almış və bölük komandiri vəzifəsinə yüksəlmişdi.

Evin tək oğul övladı, iki bacısının dayağı idi Tural. 2019-cu ilin dekabrında atalarının ölümündən sonra iki bacı Turalın hərbidən uzaqlaşmağını istəsələr də Tural «Qarabağı azad etmədən, Xocalının qisasını almadan mən bu peşədən uzaqlaşmaram.» deyib. Turalı bu peşədən uzaqlaşdırmağa heç kimin gücü yetməyib.

Tural sevməyi çox gözəl bacarırdı. Sevgi onun həyatının termini idi. Vətən sevgisi, valideyn sevgisi, bacı sevgisi, yar sevgisi və övlad sevgisi. Elə ilk övladının adını da Sevgi qoymuşdu. Uşağın adını qoyanda «Bu uşaq yoldaşımla mənim sevgimdir.» deyib və o adı qoymuşdu. Sevgi Turalın nəfəsi idi. Bir «ata» deyişi ilə bütün dərdləri unutdurardı. Bir də ailənin körpə sakini Sunay var idi. Tural Sunayı heç doğru - düzgün oxşayıb, əzizləyə bilmədi. Elə sonuncu dəfə evinə avqustun 29-da Sunayın 1 yaşında gəldi. Həmin gün Turalın gəlişi nəinki Sunaya eləcə də bütün ailəsinə böyük hədiyyə oldu. Qızının ad günündə ilk və son dəfə iştirak edən atanın qızına ən böyük hədiyyəsi o gəlişi oldu. Sunay innən sonra ömrünə gələcək hər yaşda ata intizarını hədiyyə alacaq. Bir körpənin atasızlığı çox çətindi.

Vətənin qeyrətli oğlu vətənin alın yazısının dəyişdiyi müharibə zamanı hünərin zəfər gətirəcəyindən şüphə etməmişdi. O, daşlı-kəsəkli yollardan, uca zirvəli dağlardan keçməklə düşmənin xeyli sayda qüvvəsini məhv etməyə, iki postu ələ keçirməyə nail olmuşdu. Müharibənin başlandığı ilk gündən döyüşlərdə iştirak edən Turalın mühüm strateji ərazilərin ələ edilməsində böyük rolu olmuşdu. Murovdağda düşmənə qan uddurmuşdu.Oktyabrın 1-də döyüş tapşırığını qalib kimi başa vurduqdan sonra istirahət etmək yerinə öndə olan əsgərlərə yemək aparmağın vacibliyini demiş, döyüş yoldaşlarının israrına baxmayaraq o əsgərlərə azuqə aparmaq üçün mayoru və əsgəri ilə birlikdə yola düzəlmişdi. Bu zaman düşmən onların olduğu maşına minamyot atəşi açmış, hər üç hərbçi açılan atəş nəticəsində şəhid olmuşdu.





Tural şəhid olmamışdan cəmi bir neçə saat öncə anası ilə danışır. «Ana mən şəhid olacam. Nə olar mənim üçün çox ağlama.» deyir. Şəhidlərin şəhadətlərindən xəbərdar olmaqları bir möcüzədir. Sanki Allah agah edir. Elə həmin gün Tural şəhadətə ucalır. Lakin iki gün Turaldan bir xəbər almaq mümkün olmur. Oktyabrın 3-də şəhidin mübarək nəşi Bakıda yaşayan ailəsinə təhvil verilir. Vüsalə xanım iki körpəsi ilə çarəsizliyə düçar olur. O an ən böyük çarəsizliyi şəhidin anası, bacıları Güney xanım və Vasilə xanım yaşayır. Onlar məsafənin uzaq olduğu səbəbindən dəfn mərasiminə çata bilmirlər. Oğul həsrəti ilə ürəyi yanan ana oğlunun cansız bədəninə sarıla bilmir. Nüşabə ana dünyanın ən çətin və ən çarəsiz anını yaşayır. İllərdi oğlunun üzünü doyunca görə bilməyən ana oğlu ilə son dəfə vidalaşa bilmir.

Tural 3 oktyabr 2020 - ci ildə insan selini xatırladan dəfn mərasimi ilə II Fəxri Xiyabanda torpağa tapşırılmışdı.

Baş leytenant Əsgərli Tural Ələmdar oğlu Ali Baş komandan İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, "Cəsur döyüşçü" medalı, "İgidliyə görə" medalı və «Kəlbəcərin azad olunmasına görə» medalı ilə təltif edilmişdi.

## ŞƏHİD TURAL

Sevgin sevgilərin ən dəyərlisi,
Vətən sinəsinin parlaq incisi.
Bərq vurur məzarın torpaq üstündə,
Torpaq nəfəsinlə aldı nəfəsi.

Peyğəmbər yanında yerin var sənin,
Cənnətdi şəhidim, daim məskənin.
Sənin tək oğullar qurbanı olub,
Sinəsi daş olan qoca vətənin.

Qaraca torpağı boyamısan al,
Sayəndə vətənim çəkmir dərd, məlal.
Səninlə azadlıq kamına çatan,
Vətən qürur duyur adınla, Tural.



**MƏMMƏDOV SAHİL RASİM OĞLU**
**BAŞ LEYTENANT**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## BÖYÜK SEVGİNİN SAHİLİ

Ucsuz-bucaqsız dənizləri xatırladan sevgilər var. O dəniz boyda sevgilərin sahili vətəndi. Mənbəyi ürək, mənsəbi vətən olan sevgilər ürəkdən axıb vətənə tökülür. Töküldükcə vətənin cadar - cadar olan torpağını hamarlaşdırır. O sevgilər bitməzdi, tükənməzdi. O sevgilər can verəndi, həyat verəndi, cahanı ağuşuna alacaq qədər böyükdü. Böyük sevgilərdən yazmaq asan deyil. O sevgini bir yazar kimi sətirlərlə canlandırmaq məsuliyyət tələb edir. Bu dəfə Sahilin böyük sevgisinin limanı sətirlərdi. Oxuduqca bu sevginin dərinliyinə qərq olacaqsınız.

Məmmədov Sahil Rasim oğlu 1995-ci il iyunun 7-də Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhər Qaraçuq qəsəbəsində anadan olub. Ailədə 4 övlad olsalar da böyük bacısı 6 aylığında rəhmətə gedib. Sahil bacısı Rasimə, qardaşı Amil ilə xoşbəxt bir ailədə böyüyüb boya - başa çatıb. Artıq məktəbli yaşına çatan Sahil 2001-ci ildə Qaraçuq kənd tam orta məktəbində I sinfə qədəm qoyub. 2005-ci ildə isə təhsilini Heydər Əliyev adına tam orta məktəbdə davam etdirib. 2009-cu ildə VIII sinfi bitirdikdən sonra Heydər Əliyev adına Hərbi liseyə daxil olub. 3 illik təhsilini başa





vurduqdan sonra 2012-ci ildə isə Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2016-cı ildə həmin məktəbi motoatıcı ixtisası üzrə bitirib. 2016-cı il iyulun 4-də Şəmkir rayonunun Şəmkir korpusunun hərbi birləşməsinin snayper bölüyündə bölük komandirinin müavini kimi xidmətə başlayıb. 2018-ci ilin mart ayında N saylı hərbi hissənin həmlə taborunda taqım komandiri vəzifəsində çalışıb.

Sahilin qəlbi sevgi dənizi idi. Gözəl sevirdi, gözəl görürdü. Sevgi ilə baxdığı cahanda gözlərinin gördüyü, qəlbinin sevdiyi xanım isə Turanə xanım idi. Sevgilər mübarizəsiz olmur. Sahilin də Turanə sevgisi uğrunda mübarizəsi oldu. Nəhayətində Turanə xanım Sahilin möhtəşəm sevgisini sevdi. 2018-ci il 16 apreldə Sahil və Turanə sevgisi nigahla sübut olundu. Ailə qurduqdan sonra Turanə Sahilin xidmət etdiyi yerlərdə onunla bərabər yaşamağa başladı. Turanənin rahat həyatından vaz keçib Sahillə bərabər çətin şəraitdə yaşamağa razı olması onun Sahil sevgisinin sübutu idi. Sonra bu ailənin sevinci, nəşəsi Şəms dünyaya gəldi. Atasının «Nəfəsim» dediyi Şəms sevgi ilə əhatələndi. Vətənini, ailəsini, yarını gözəl sevən Sahil övladını da gözəl sevdi.

Sahil heç zaman iş həyatını evə gətirməyib. Heç vaxt Turanənin narahat olmağını istəməyib. Ancaq 2020-ci il Tovuz döyüşləri zamanı Turanəyə «Haqqını halal et.» yazıb. Bir şəhid xanımının ən çarəsiz anlarından biridir o an. Tovuz döyüşləri zamanı komandiri General Polad Həşimovun şəhid olması Sahili daha çox hiddətləndirib. Həmin vaxt Sahil və onun kimi qəhrəmanlar Polad Həşimovun qisasını almağa çalışsalar da yenidən atəşkəs bərpa olunub. Ancaq qəhrəmanların bu qisası qiyamətə qoymayacağı bəlli idi. Elə də oldu Azərbaycanın yenilməz ordusu cox qısa zaman sonra Ermənistan ordusunun yuxusunu ərşə çəkdi.

Sentyabrın 25-də Sahil evə gəldiyində Turanə onun davranışlarındakı qəribəlikləri hiss edib. Ancaq Sahilə bunu bəlli etməyib. Sahil son dəfə Şəmsi öpüb, qoxlayıb, Turanəni alnından öpüb «Allaha əmanətlərimsiniz.» deyib və gedib. Sentyabrın 26-da gecə statusda «Şəhid olsam haqqını halal etmədiyim insanlar var.» yazıb. Gecəni Sahilin fikri ilə yuxuya gedən Turanə yuxuda qayınının şəhid olduğunu, Sahili tapmadığını görüb. Hər kəs kimi Sahilin əzizləri də səhəri müharibənin başlaması xəbəri ilə açırlar. Həmin gündən Sahildən heç bir xəbər çıxmır. Artıq Turanə

xəstəxanalarda yarını axtarmağa başlayır. Ancaq bu axtarışlar nəticəsiz qalır. Yarı döyüş meydanında olan Turanə özü də düşmənin dinc əhaliyə tuşlanan atəşinə məruz qalır. Gəncənin bombalanması səbəbindən israrlara baxmayaraq Turanə Sahildən xəbər almadan oradan çıxmayacağını deyir. Oktyabrın 4-də Sahilin dostu Turanəyə zəng edib yalandan daxili telefonla Sahillə danışdığını, onun istəyinin ailəsinin Bakıya getməsi olduğunu deyir. Ondan sonra Turanə Bakıya yol alır. Günlər keçir Sahildən heç bir xəbər çıxmır. Son çarəni Müdafiə Nazirliyinə müraciətdə görən Turanə aldığı cavabla yerlə yeksan olur. Sən demə Sahilin adı sentyabrın 28-dən itkinlər siyahısında imiş.

Dekabrın 4-də Sahilin nəşinin tapıldığı xəbərini ailəyə verirlər. Əvvəlcə qardaşı Amil sonra isə Turanə Sahilin buza dönmüş nəşini görür. Daima gülər üzü ilə ətrafına sevinc bəxş edən Sahilin çöhrəsində donub qalmış gülüşünün qarşılığı göz yaşı olur.

27 sentyabrda başlanan II Qarabağ döyüşlərinin ikinci günü Murovdağ, Kəlbəcərin alınması uğrunda mübarizə apararkən şəhid olan Sahilin nəşi 7 dekabr 2020-ci ildə doğma elinə aparılıb. Günlərdi oğlunun səssizliyinə qərq olan Sahilə ananın ürəyi vətən qurbanı oğlunun üç rəngli bayrağa bürünmüş tabutunun gəlişi ilə dağlanıb. Bir zaman dünyaya gəlişi ilə ata tərəfinə ilk oğlan nəvəsi sevincini yaşadan Sahil gedişi ilə də hər kəsi kədərə qərq edib. Sahilə ana oğlunun adını da öz adına yaraşdırıb Sahil qoymuşdu. Bir zaman adı Sahil olan oğulun adı indi Vətən, Bayraq, Torpaqdır. Həyata gəlişi qürurlu olan Sahilin gedişi də qürurlu olub. Sahil elinə qovuşduğu gün Qaraçuq kənd qəbirsanlığında vətən torpağına əmanət edilib.

Baş leytenant Məmmədov Sahil Rasim oğlu şəhadətindən sonra göstərdiyi şücaətlərə ölkə başçısı İlham Əliyevin sərəncamı ilə «Vətən uğrunda» medalı, «İgidliyə görə» medalı və «Kəlbəcərin azad olunmasına görə» medalı ilə təltif edilib. Sahil Məmmədov şəhadətindən öncə də «Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi» yubiley medalı ilə təltif edilmişdi.

Sahil hər kəsin yaddaşında gülən çöhrəsi ilə həkk olunub. Mən də Sahili yağan yağış altında çəkdiyi pozitiv videosu ilə tanımışam. Əslində isə Sahilin sevgisi bütün Azərbaycan xalqının üzərinə o yağış kimi yağdı.





## ŞƏHİD SAHİL

Qorxutmadı gözünü nə yağış, nə də ki, qar,
Qəlbində yer etmişdi vətən adlı bir qübar.
Keşik çəkdin vətənə, dilə gətirdin hər an,
«Azad vətən torpağı olacaq mənə məzar.»

Döyüş meydanlarında can aldın qalaq-qalaq,
Qəhrəmanlıq tarixin sən yazdın vərəq-vərəq.
İzin düşdü vətənin həsrətli yollarına,
İşıq saçdı vətənə azadlıq adlı çıraq.

Gücündən mədət umdu Murovdağ, həm Kəlbəcər,
Azadlığa qovuşdu illər sonra o yerlər.
Vətən üzü gülərkən nigaran bir ananın,
Saatın əvəz etdi elə bil ki, yüz illər.

Şəhid xəbərin ilə ümidlər talan oldu,
Sahil,o son gəlişin ürəklərə dağ vurdu.
Vətən adlı sevginin sahili olan qəlbin,
Vətən üçün döyündü, vətən üçün də durdu.



**ABBASLI ARİF FİRUZ OĞLU**
**BAŞ LEYTENANT**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## BİR ÖMRƏ SIĞMAYAN HƏRBÇİ HƏYATI

Azad vətən sözlərinə şəhidlər, qazilər və hərbçilər dayaqdı. Bu qəhrəmanların sayəsində biz suveren ölkədə yaşayırıq. Hərbçi demək bütöv ölkənin məsuliyyətini çiyinlərində daşımaq deməkdi. Bir hərbçi üçün torpağının düşmən tapdağı altında olması qəbul edilməz haldır.

«Torpaqlarımız azad olunmasa mənə rəqs etmək yaraşmaz!» Bu sözlər Abbaslı Arif Firuz oğlunun tez - tez dilə gətirdiyi sözlərdi. Qarabağın adını eşidib, özünü şəkillərdə görən bu qəhrəman Qarabağa İlahi bir eşqlə bağlanmışdı.

Abbaslı Arif Firuz oğlu 15 dekabr 1993-cü ildə Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Qıvraq qəsəbəsində üç uşaqlı (2 qardaş, 1 bacı) ailədə anadan olmuşdur. 2000-ci ildə Qıvraq qəsəbə Sirac Əsədov adına 1 N - li tam orta məktəbə getmişdi. 2009-cu ildə IX sinfi bitirdikdən sonra 495 bal toplayaraq Naxçıvanda Heydər Əliyev adına Hərbi liseyə daxil olmuşdu. 2009-cu ildə Heydər Əliyev adına Hərbi liseydə kimya fənni üzrə keçirilən olimpiadada 3-cü yerə çıxmışdı. 2012-ci ildə liseyin birincisi olmuş və fəxri kötüyə adı həkk olunmuşdu. 2012-2016-cı





illərdə Azərbaycan Ali Hərbi Məktəbində motoatıcı ixtisasına yiyələnmiş və məktəbi müvəffəqiyyətlə bitirmişdi.Daha sonra 6 aylıq Xüsusi Təyinatlı Qüvvələrin kursunu müvəffəqiyyətlə bitirmiş və Türkiyədə 6 aylıq komando kursunda xizəkçilik, üzgüçülük,dağçılıq, paraşutçuluq ixtisasına yiyələnmişdi. Orduda xidmətlərinə görə «Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi» yubiley medalı ilə təltif edilmişdi.

Oğulların vətən sevgisi bir başqa olur. Bir oğul vətənə sevdalandımı o sevdası uğrunda canından keçmək ən böyük arzusu olur. Axı müqəddəs sevgilər uğrunda canından keçənlər ölümsüzləşir. Vətən sevdalısı olan Arif də ölümsüzləşdi. Hər ürəkdə bir məqbərə ucaldan qəhrəman «Mən şəhid olacam.» dedi və dediyini də etdi. Onun bu arzusunu duyan xanımı hər dəfə göz yaşlarına qərq olurdu. «Bəs mən, bəs Ləman?» Arifin cavabı isə belə olurdı «Mən bu vətəni qorumalıyam ki, mənim ailəm, başqa ailələr firəvan yaşasın.» Öz ömrünü vətənin, vətəndaşların rifahı naminə fəda etdi. Sonuncu nəfəsində «Ləmanımdan doymadım.» sözlərini dilə gətirdi. Bəs həyatdan doydunmu, şəhidim?

«Mən həyatdan şəhid kimi köçəcəm.Əgər bir də həyata gəlsəm yenə hərbçi olacam.» Arifin fərqli yönü bu idi. Vətən eşqi ürəyində, ruhunda kök atmışdı. O, hər zaman özünü şəhidlər cərgəsində görürdü. Doğmalarını da buna hazırlayırdı.

Arifin doğmaları sentyabrın 27-də Vətən müharibəsinin başladığını eşitdiyi anda Arifin dönüşünün necə olacağını təxmin etdilər. Hər kəs Arifin illərdi bu günü gözlədiyini yaxşı bilirdi. Arifin sonuncu nəfəsini vətən üçün verəcəyi heç kimə sirr deyildi.

Abbaslı Arif Hardruta ilk ayaq basan qəhrəmanlardan biri olub. XTQ - in peşəkar zabiti özü ilə bərabər 100-dən çox əsgəri döyüş meydanına aparıb. Savadı və idarəetmə qabiliyyəti ilə döyüşdə fərqlənən Abbaslı Arif Firuz oğlu Murovdağ ,Cəbrayıl ,Hadrut və Füzuli uğrunda gedən döyüşlərdə iştirak edib. Murovdağ istiqamətində gedən döyüşlərdə çox böyük şücaət göstərib düşmənin həmləsin dəf edərək yaralı yoldaşlarına kömək edib. 12 oktyabrda Hadrutda gedən döyüşlər zamanı düşmən həmləsini dəf edərkən öz tabeçiliyində olan yoldaşlarını qorumaq üçün özünü önə atıb, düşmən üzərinə gedib. 20 nəfərə yaxın düşməni tək başına qumbara ilə məhv edib və özü də qəhrəmancasına şəhid olub.

Arifin döyüşlər zamanı göstərdiyi qəhrəmanlıqlardan onun komandiri və döyüş yoldaşları danışdıqca əslində bu sakit görünüşlü qəhrəmanın illərdi bir vulkan kimi dayanıb püsgürəcəyi günü gözlədiyi aşkar olur.

Vətən qəhrəmanı, Qarabağın azadlığı uğrunda canından keçən Arif oktyabrın 14-də II Fəxri Xiyabanda torpağa tapşırılıb.

Baş leytenant Abbaslı Arif Firuz oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Qarabağ» ordeni, «Vətən uğrunda»medalı, «Kəlbəcərin azad olunmasına görə» medalı «Xocavəndin azad olunmasına görə» medalı və «Cəbrayılın azad olunmasına görə» medalı ilə təltif edilib.

Sən dediyin kimi yenidən dünyaya gəlib hərbçi olmayacaqsan, Arif. Ancaq səni örnək götürüb sənin yolunu davam etdirən oğullar çox olacaq. Sən bir qəhrəmanlıq simvolusan, şəhidim.





## ŞƏHİD ARİF

Səninlə ərdi göyə ana vətənin başı,
Qucaq açdı sevincə torpağı, dağı, daşı,
Azadlığa qərq oldu vətənin hər qarışı,
Sən bu azad vətənin qeyrət təcəssümüsən
Şəhidim, azadlığı bəxş edəndən birisən.

Zəfərə cığır açdın yenilməyən əzminlə,
Vətən sevgin hər zaman qürurla gəldi dilə,
Murovdağ, Cəbrayılda axan qan döndü selə,
Gücünə şahid oldu Suqovuşan, Füzuli,
Düşmənin pəncəsindən qurtardın neçə eli.

Düşmən üstə yeridin, düşmən oldu dərbədər,
Yenilməyən qəhrəman, göstərdin böyük hünər,
Ərənlərlə qazandı bu vətən şanlı zəfər,
Can verdiyin vətəni əmanət etdin bizə
Sonsuzadək olacaq xalqım minnətdar sizə.

Elə zəfər anında dondu qaldı həyatın,
Dünyaya vida edib şəhid kimi yaşadın,
Qanınla tarix yazıb, yeni tarix başladın,
Tanıdı Azərbaycan Arif kimi zabiti
Zəkası kəskin olan qılınclardan da iti.



**MƏMMƏDLİ SÜBHAN SƏBUHİ OĞLU**
**BAŞ LEYTENANT**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## HƏRBÇİ QARDAŞIN ŞƏHİD QARDAŞI

Bəzi körpələr vətənə «ata» deyərlər. Çünki onlar dünyaya göz açanda artıq atalarının vətənə döndüyünü görərlər. Torpaq qoxusunu ata qoxusu bilərlər. Onlar böyüdükcə ata məhfumuna fərqli yanaşarlar. Onların ata anlayışı, ata sevgisi başqa olar. Qəhrəman övladı olduqları üçün seçilərlər. Bəziləri də elə qəhrəman atalarının adı ilə adlandırılar. Övladlar adətən baba, nənə adı daşıyarlar. Ancaq qəhrəman şəhid ataların adlarını daşıyan körpələrin də sayı çoxdu. Şəhid ataların oğul övladlarına atalarının adları əmanət edildiyinə çox şahid olsaq da bu dəfə bir şəhid qızının o ada sahiblənd iyinə şahid oldum. Sübhanın Sübhanəsi. Hər dəfə bu ad səsləndikcə Sübhanın adı anılacaq, ruhu şad olacaq. Sübhanə atasının sevgisi ilə böyüməsə də adının qüruru ilə yaşayacaq. Sübhanın «Ömürüm» dediyi ilk qızı Ömür isə Sübhanədən fərqli olaraq körpə xatirəsində həkk olan ata surətini unutmayacaq və ata adlı həsrətlə birgə böyüyəcək. Ən çətin yük isə Aminə xanımın payına düşəcək. Şəhid övladlarını şəhid atalarına layiq böyütmək və ana olmaqla yanaşı həm də ata olmağı bacarmaq. Gənc yaşda bir qadın üçün tənhalığın nə qədər çətin olduğu sirr deyil. Həsrət rüzgarından titrəyən ürək döyünməyə məcburdu. Çünki o ürəkdə Sübhan var.





Sübhanın həyatının izinə düşdüyümdə bu həyatın açılan qapısında üz-üzə qaldığım hər bir yaşanılanın özü özlüyündə yazılacaq bir hekayə olduğu qənaətinə gəldim. İstər Sübhanın valideyn sevgisi, istər iki qardaş olan Sübhan və Sunayın vətən sevgisi, istər Sübhan Amina sevgisi, istər Sübhanın qız övladı sevgisi. Bu ürək yalnız sevgi ilə döyünüb.

Sübhan ailəsinə ilk övlad sevincini gətirib. Məmmədli Sübhan Səbuhi oğlu 12 avqust 1994-cü ildə Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Xincab kəndində dünyaya göz açıb. Özündən sonra bir qardaşı da dünyaya gəlib. İki qardaş dost, sirdaş olublar. Yəqin ki, bacısı olmadığı üçün ailə qurduğu zaman qız atası olmaq arzusuna o qədər könül verib. Axı bir ata üçün qız atası olmaq həm qürur verici, həm də məsuliyyətdi.

Sübhan 2000-ci ildə Kəngərli rayon Xincab kənd tam orta məktəbində təhsil almağa başlayıb. 2009-cu ildə sənədlərini Heydər Əliyev adına Hərbi liseyə verib və qəbul olub. 2012-ci ildə liseyi bitirdikdən sonra Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub. 2016-cı ildə AAHM - dən leytenant rütbəsi alaraq məzun olub. İlk xidmətinə Mingəçevir şəhərində yerləşən N saylı hərbi hissədə taqım komandiri kimi başlayıb. 2016-cı ildə xidmətinə Tərtər rayonunda ön xəttdə yerləşən N saylı hərbi hissədə davam edib. 2017-ci ildə Goranboy rayonunun Ballıqaya istiqamətində yerləşən N saylı hərbi hissədə bölük komandiri kimi fəaliyyət göstərib. 2018-ci ildə təyinatla Bakı şəhərindəki N saylı hərbi hissədə bölük komandiri kimi xidmət edib. 2019 - cu ildə ordu sıralarındakı xidməti dəyərləndirilərək Silahlı Qüvvələr günü baş leytenant hərbi rütbəsinə layiq görülüb. Eyni zamanda «Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi» yubiley medalı ilə təltif edilib.

Sübhanın qardaşı Sunay da qardaşı kimi şərəfli hərbçi peşəsinə yiyələnmişdi. Qardaşının əynində gördüyü formanın məsuliyyətini dərk edərəkdən o da bu formanı daşımaqda qərarlı idi. Hər iki qardaşın vətən sevgisi bənzər idi. Sübhan Sunayın yol göstərəni, həm də dəstəkçisi idi. Sunay üçün Sübhan əvəzsiz idi. Getdi yeri boş qaldı...

44 günə Zəfərin qazanıldığı Vətən müharibəsinin ilk günündə Sübhan və Sunay hər ikisi mübarizə aparan qəhrəmanlardan olub. Sunay hər zaman dualarında «Allahım, Sübhana nəsə olacaqsa ona yox mənə olsun. Onun gözü yolda qalanları çoxdu. Hələ qoxusun duya bilmədiyi körpəsi

doğulmayıb. Ömür ata yolu gözləyir.» deyib. Ancaq Allah hər bəndənin alın yazısını doğulduğu gün yazır. Füzuli, Cəbrayıl uğrunda gedən döyüşlərdə qəhrəman kimi döyüşən Sübhanın son döyüşü 6 oktyabr 2020 - ci ildə olur. Şəhid olduğu ana qədər bölüyündən bir əsgərin də şəhid olmasına şərait yaratmayan Sübhan mühasirədə qalan əsgərləri xilas edir. Ancaq öz canını minamyot qəlpəsindən xilas edə bilmir. Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olur.

Sübhanın özü kimi döyüşdə olan qardaşı şərait yaranan kimi ilk olaraq qardaşına zəng edirmiş. Qardaşlar bir neçə dəfə danışmış, azad olunan ərazilərin sevincini bölüşmüşdülər. Ancaq bu dəfə Sübhan zənglərə cavab verməyib. Sunay oktyabrın 7-də anasına zəng edib. Anası oğluna Sübhanın neçə gündü zəng etmədiyini deyib. Elə o anda Sunay anasının əlindən telefonun düşdüyünü və anasının fəryadını eşidib. Anasına deyilən «qara xəbəri» telefonda duyub. Zəfər sevincini qardaşı ilə birlikdə yaşamağın xəyallarını quran Sunay qardaşının dəfn mərasiminə gəlib çatıb. Vətən müharibəsi qəhrəmanı Vətən müharibəsinin şəhid qəhrəmanını çiyinlərində daşıyıb. Qəhrəman şəhid 7 oktyabr 2020-ci ildə II Fəxri Xiyabanda torpağa tapşırılıb.

Baş leytenant Məmmədli Sübhan Səbuhi oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı,3-cü dərəcəli «Rəşadət» ordeni və «Füzulinin azad olunmasına görə» medalı ilə təltif edilib.

Sübhanın geridə qoyduqları həyatlarına davam edir. Sübhandan sonra onun ailə üzvlərinin sayı da artdı. Sübhanəyə atası varlığını hiss etdirdi. Bir anda göylərdən çilənən yağış damlaları Sübhanəyə atasının hər an onun yoluna nur saçacağına bir işarədir. O, böyüdükcə Azərbaycan xalqının onun atasının şəninə dediyi mədhi, tərifi eşitdikcə bir daha qürurlanacaq.





## ŞƏHİD SÜBHAN

Bu vətən torpağında silinməyən bir izsən,
Ürəklərdə eşq adlı dalğalanan dənizsən,
Sən müqəddəs birisən, sən paksan, sən təmizsən,
Dürr axan pak qanınla vətənim də qüsl alıb
Şəhidim, ruhun kimi adın qəlbdə ucalıb.

Səni mədh edə bilən bir cümlə yaranmayıb,
Sübhan, sənin sayəndə vətən paralanmayıb,
Ürəklərin yarası hələ sayalanmayıb,
Axı sağalmaz olur qəlbin şəhid yarası
Cənnətinə ucalır uca xalqın duası.

Adını qürur ilə daşır Sübhanə qızın,
Ömürün gözəl günün görməkdi sənin arzun,
Neçə qəlbi titrətdi ruzigarı payızın,
Bitən ömürlə birgə müharibə də bitdi
Azərbaycan nəhayət arzuya, kama yetdi.



**BABAYEV ŞAMİL NAZİM OĞLU**
**BAŞ LEYTENANT**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur. )**

## EVDƏN DEYİL, ELDƏN GEDƏN OĞUL

Bəzi insanlar xalqı üçün, vətəni üçün yaşayar. Tək bacardığı yaxşılıq etmək olan o insanların varlıqları nə qədər böyük xoşbəxtlik bəxş edirsə, ayrılıqları da o qədər böyük acı yaşadır. «Evdən deyil, eldən getdi.» deyimi həmin insanlara şamil olunur. Hər insan el qəlbinin əvəzsizi ola bilmir. Şamilin gedişindən sonra el qəlbində necə bir yerə sahib olduğu daha da aydın göründü. Yazılan, deyilən sözlər onun əsil insan adını layiqincə daşıdığına bir sübutdur.

Elin oğlu Babayev Şamil Nazim oğlu 4 yanvar 1994-cü il Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Cənnəb kəndində anadan olub. Ailədə üç qardaşın ortancılı olub. 2001-ci ildə Ordubad rayon Cənnəb kənd şəhid Əliqulu Babayev adına tam orta məktəbə gedib. 2009-cu ildə Heydər Əliyev adına Hərbi liseyə daxil olub. 2012-ci ildə liseyi bitirib. Həmin il Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2016-cı ildə tankçı ixtisası üzrə təhsilini başa vurub. Müdafiə Nazirinin 23 iyun 2016-ci ildəki əmrinə əsasən leytenant hərbi rütbəsi alıb. Təyinatla Ağdam rayonunda yerləşən N saylı hərbi hissədə taqım komandiri təyin olunub. Şamil Aprel döyüşlərinin də iştirakçısı olub. Həmin döyüşlərdə qazanılan





zəfərdə onun da böyük xidməti olub. Bir neçə il Tərtərdə işləyəndən sonra 2020-ci ildə Mingəçevirdə yerləşən N saylı hərbi hissədə bölük komandiri kimi çalışıb.

Şamil Babayevlər ailəsinin tək hərbçisi deyildi. Onun qardaşı Əmrah da Şamil kimi hərbiyə yönəlmiş və o da layiqli bir hərbçi olmuşdu. Hər iki qardaşın qismətində Vətən müharibəsinin qəhrəmanı olmaq varmış. Biri şəhid, biri şahid kimi.

Şamil və Əmrah Vətən müharibəsində eyni istiqamətdə vuruşublar. Hər iki qardaş o alovun içindən qardaşının sağ çıxması üçün dua edib. Axı hərbçilər özlərindən öncə başqalarını düşünürlər. Şamil əvvəlcə Naftalan istiqamətində olsa da sonra Suqovuşan uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşub. Sonuncu nəfəsinə qədər vətən andından dönməyən Şamil oktyabrın 7-də son nəfəsini vətənə fəda edib.

Heç kim Şamilin belə tez gedişini düşünmürdü. Bu gedişlə barışa bilməyən və bu gedişdən ən çox sarsılan balaca Ayan oldu. O, hər dəfə atasının işdən gəldiyi saatlarda ağlayır. Atasının zəngini gözləyir. Axı uşaq nə bilir əbədi gediş nə deməkdi? Ayan Şamil və Sevanə cütlüyünün ilk və tək övladıdır. 2017-ci ildə ailə həyatı quran cütlük ailə xoşbəxtliyinin nə demək olduğunu cəmi 3 il yaşaya bildilər. Sevdiyi ilə sərhəd boyu yerlərdə yaşamaq Sevanə xanımın gözünü qorxutmurdu. Çünki Şamil həm onu, həm vətəni qoruyurdu. Son dəfə müharibə gedən zaman oktyabrın 3-dən 4-nə keçən gecə evinə gələn Şamil qızını doya-doya öpüb qoxladı. Sanki bilirdi ki, bu gəliş son gəlişdi. Sübh tezdən qızı və sevdiyi ilə vidalaşıb uzanan yollarda gözdən itdi.

Sevanə xanım oktyabrın 1-də Şamilin şəhid olduğunu yuxuda görüb. Şamilin şəhid olacağı sanki hər kəsin ürəyinə damıb. Şamilin israrla gəlib ailəsi ilə görüşməsi, Ayanın səhərə qədər yatmaması və Sevanə xanımın gördüyü şəhid yuxusu. Sanki Allah xəbərdar edirmiş.

Şamil oktyabrın 7-də səhər xanımına zəng edib. Həmin gün axşam şəhid olub. Şəhid xəbəri gəlsə də şəhid cənazəsi 51 gün gəlməyib. Neytral zonada qaldığı üçün Şamilin nəşini uzun müddət götürmək mümkün olmayıb. Adı itkin siyahısına düşən Şamilin bu sükutu ürəkləri dağlayıb. Bu sükut bəzən onun yaşadığını düşünməyə də səbəb olub. Hər kəs bir möcüzə olsun deyə Allaha yalvarıb. Ancaq o möcüzə gerçəkləşməyib. Qələ-

bə xəbəri gəlib, ancaq Şamildən hələ də bir xəbər gəlməyib. Qələbədən 18 gün sonra onun nəşini götürmək mümkün olub. Noyabrın 28-də Şamilin nəşi evinə gətirilib. Hansı ana oğlunu məzarda görməyə tab edər? Sevinc ana oğlunun gedişinə əngəl olmağa çalışıb. Özünü oğlunun nəşini aparan maşının qabağına atıb. «Məni aparın balamın məzarında dəfn edin.» deyə fəryad edib. Ah Sevinc ana, ah, Şamilin ruhu çoxdan haqqın dərgahındadı.

Əbədi gedişlər heç unudulmur. Şamil də 28 noyabrda bu dünyadan əbədi olaraq getdi. Ürəklərin bir tikə ümidi də onunla birlikdə dəfn olundu. II Fəxri Xiyabanda Şamil Babayev də qəhrəmanlar arasında öz sırasını aldı.

Daha Şamillə görüşmək ancaq yuxularda mümkün olur. Sevanə xanım da yuxularında tez-tez Şamillə məsləhətləşir. Hətta Şamil yuxuda Sevanəsini Namaza da çağırıb. Sevanə xanımın gördüyü yuxunu danışdığı kimi yazıram.

- Bir dəfə yuxumda gördüm ki, tabut açıldı və mən Şamili gördüm. O, yaşayırdı. Dedim Şamil sən ölməmisən. Dedi «Yox mən ölməmişəm.» Əlini, ayağını öpdüm. Mənə gözəl ürəyə sahib olduğumu dedi. «Sən mənim dəstəmazımsan.» Həyəcanla yuxudan oyandım və azan səsin eşitdim. Şamil məni Namaza çəkdi.

Baş leytenant Babayev Şamil Nazim oğlu vətənin müdafiəsində qürurla və qəhrəman kimi durduğuna görə ölkə başçısı İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda»medalı , 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və «Suqovuşanın azad olunmasına görə» medalı ilə təltif edilib.





## ŞƏHİD ŞAMİL

Sən elin yolunda şam kimi yanıb,
Zəfərin nurunu səpdin yurduma.
Sənin tək oğullar öz gücü ilə,
Güc verdi yenilməz, məğrur orduma.

Döyüş meydanında qardaşın ilə,
Mərdanə döyüşdün çiyin-çiyinə.
Düşmənin ürəyin lərzəyə salıb,
Qoymadın düşməni gülə, sevinə.

Sənin ayrılığın dostun, yoldaşın,
Qəlbini sızladır, şəhidim Şamil.
Adın qəhrəman tək xatırlanacaq,
Nə qədər dövr edib ötsə ay və il.



## ZEYNALOV ELNUR ELSEVƏR OĞLU BAŞ LEYTENANT (II Qarabağ müharibəsində şəhid olmuşdur.)

## QORXUSUZ QƏHRƏMAN

Qorxusuzlar... Bu insanların gücləri qarşısında tap gətirmək mümkün deyil. Suyun altında hərəkət etmək həmin insanlar üçün yerin üstündə hərəkət etmək kimidir. Ən çətin tapşırıqları göz qırpımında yerinə yetirən həmin qorxusuzlara «dəniz pişikləri» deyilir. Əslində II Qarabağ müharibəsinə qədər çoxlarımız Azərbaycan Ordusunda yer alan bu qoşun növündən xəbərsiz idik. Çünki onlar heç zaman nümayişkaranə hərəkət etmirdilər. Müharibə zamanı isə tez-tez Xüsusi Təyinatlı Qüvvələrin SAM və yaxud SAH qoşunlarının adlarını eşitdik. Demək olar ən çətin tapşırıqlarda onlar öndə gedir və düşməni lərzəyə gətirirdilər. Bu heyəti görən düşmən döyüşməkdə tərəddüd edirdi. Çünki sonun məğlubiyyət olacağını yaxşı bilirdilər. Bu heyətin bir üzvü də Zeynalov Elnur idi.

Zeynalov Elnur Elsever oğlu 28 iyul 1994-cü ildə Naxçıvan şəhərində anadan olub. Ailənin iki oğul övladından biri Elnur idi. O, 2001-ci ildə Naxçıvan şəhər Akademik M.C.Cəfərov adına 14 N-li tam orta məktəbdə ilk təhsilini almağa başlayıb. Elnurun yaşından böyük davranışları onu fərqləndirirdi. Hər zaman vətənə layiq olmaq üçün hərbçi peşəsinə yiyələnmək arzusunda olub. Bu minvalla 2009-cu ildə Heydər Əliyev





adına Hərbi liseyə daxil olub. Hərbi liseyi bitirdikdən sonra Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. Kəşfiyyatçı bölüyündə təhsil alıb. 2015-ci ildə AAHM-i bitirib. Təyinatla ilk olaraq Ağstafa rayonunda yerləşən N saylı hərbi hissədə xidmətə başlayıb. Orada taqım komandiri vəzifəsini icra edib. İşlədiyi müddətdə snayper kursu, paraşütçülük, dağ-xizək kursu və nəhayət Xüsusi Təyinatlı Qüvvələrin kursunu uğurla keçib. Elnur Xüsusi Təyinatlıların ən çətin kursu olan sualtı hücum kursunu bitirib. Türklər ona SAT kursları ( Su Altı Atak ) deyir. Bizdə isə Xüsusi Təyinatlı Qüvvələrin SAM/SAH ( Su Altı Müdafiə , Su Altı Hücum ) kursu adlandırılır. Kursu bitirdikdən sonra ilk işlədiyi yerə qayıdıb. 2015-ci ildən 2020-ci ilin iyun ayına kimi Ağstafa rayonunda çalışıb. Sonra isə neçə illər arzusunda olduğu, kursunu keçdiyi Hərbi Dəniz Qüvvələrinin N saylı hərbi hissəsinə göndərilib.

Elnur hələ xidməti dövründə bir çox fəxri fərman və medallarla təltif edilib. O, «Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi» yubiley medalı və «Azərbaycan Ordusunun 100 illiyi» yubiley medalı ilə təltif edilib. Hər zaman Azərbaycan Ordusunda xidmət etdiyi üçün qürur duyub.

Elnur son dəfə 2019-ci ildə evlərinin qonağı olmuşdu. Elnur artıq neçə illər idi ki, o evin sakini yox qonağına çevrilmişdi. Onun evi vətən torpağı, vətən səngəri idi. Bir dəfə gəldiyində isə şəhid olan döyüş yoldaşının paltarlarını ailəsinə təhvil vermək üçün gətirdiyində anasına «Ana, səni şəhid anası edəcəm.» demişdi. Bu sözlərin qarşısında gözləri dolub-boşalan Məlahət ana acizanə baxışla Elnurunu süzmüşdü. Oğlunun bu arzusu Məlahət ananın qəlbində bir yer etmişdi. Çünki o bilirdi ki, bu sadəcə arzu olaraq qalmayacaq. Elnur bu arzuya çatacaq.

27 sentyabr 2020 - ci ildə qazanılan zəfərə doğru ilk addım atıldı. O addımı atanlardan biri də Elnur idi. Elnur Füzuli, Cəbrayıl, Qubadlı və Xocavənd uğrunda gedən döyüşlərdə ən öndə mübarizə aparan qəhrəmanlardan biri olmuşdu. Qubadlıya bayraq sancan qəhrəmanlardan olan Elnur Qubadlının azad olunduğu məruzə edilən zaman da gözümüzü oxşayıb, qəlbimizi fəth etmişdi. Həmin məruzə zamanı sırada düzülənlərdən biri də Elnur olmuşdu. Bu qorxusuzun gözündə yalnız Qarabağ adlı ümid parıldayırdı. Həyat işığının sönmə ehtimalı onun gözünü qorxutmurdu. Təki vətən eşqi son nəfəsi isitsin.

Döyüş vaxtı zəng edəndə «Ana, daha təyyarə ilə gəlməyəcəm. Qarabağdan Naxçıvana kəsə yolla gələcəm.»deyib. Son dəfə oktyabrın 31-də günorta anası ilə danışıb. Cəmi 56 saniyə anasının səsini duyan Elnur "5 dəqiqəyə zəng edəcəm." deyib və bir daha ondan zəng gəlməyib. Elə həmin gün axşam çox çətin və məsuliyyətli əməliyyatın icrasına başlayıb.

Elnurun son əməliyyatı barəsində onun döyüş yoldaşı, həmin əməliyyatın digər icraçısı olan Vətən müharibəsi qazisi İlqar Nurməmmədov danışdı:

- Oktyabrın 31-də Xocavənd rayonu ərazisindəki Qızılqaya yüksəkliyini götürmək tapşırığı verildi. Həmin yüksəklik düşmənin «Keçilməz sədd» adlandırdığı yüksəklik idi. Bununla bağlı onlar özləri bir çox yerdə məlumat paylaşmışdılar ki, «Azərbaycan Ordusunun Qızılqaya yüksəkliyini azad etmə arzusu yalnız xülyadı.» Ancaq o xülya oğulların canı bahasına gerçək oldu. Həmin yüksəklik uğrunda düşmənin XTQ-nin 150 - yə yaxın hərbçisi ilə Azərbaycan Ordusunun XTQ - nin 24 hərbçisi qeyri bərabər döyüş apardı. Döyüşün aparıldığı ərazi düşmən üçün əlverişli olsa da yenə də onlar üçün məğlubiyyət qaçınılmaz oldu. Qızılqaya yüksəkliyinin azad olunmasında Elnurun böyük rolu oldu. Düşmənin PK postu var idi. Düşmən o postdan bizim irəliləməyimizə mane olurdu. Elnur canını sipər edib yaxınlaşıb həmin postu qumbara ilə partlatdı. Həmin postda düşmənin qüvvələrini məhv edən Elnur qəhrəmancasına şəhid oldu. Biz Elnur və onun kimi qəhrəmanların sayəsində addım-addım irəlilədik və Qarabağa çatdıq. Hər zaman Elnurun adı bir qəhrəman kimi yaşayacaq.

Naxçıvanda doğulub Azərbaycana sədа salan vətən oğlunun nəşi noyabrın 2-də Naxçıvana gətirilib və elə həmin gün də Naxçıvan şəhər Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Qorxusuz qəhrəman baş leytenant Zeynalov Elnur Elsever oğlu vətən torpaqlarının müdafiəsi zamanı göstərdiyi şücaətlərə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Qarabağ» ordeni, «Vətən uğrunda» medalı, «Füzulinin azad olunmasına görə» medalı, «Cəbrayılın azad olunmasına görə» medalı, «Qubadlının azad olunmasına görə» medalı və «Xocavəndin azad olunmasına görə» medalı ilə təltif olunub.





## ŞƏHİD ELNUR

Sənin qəlbindəki o qorxmazlığın,
Sabaha ümidin təməl daşıydı.
Məğlub olmaz heç vaxt haqq yolun gedən,
Sənin apardığın haqq savaşıydı.

Oxuduq tarixdən bu günə qədər,
Neçə qəhrəmanın hünər yolunu.
Daha tarixlərdən vərəqləyəcək,
Bu millət yenilməz, mərd Elnurunu.

Şərəflə yaşadın sən öz ömrünü,
Ömrün dastan olub dillərə düşdü.
Vətəni ürəkdən sevən kəslərin,
Qəlbində ucalar şəhidin büstü.

Səni yaşadacaq vətənsevərlər,
Sən özün vətəni yaşadan kimi.
Gözəl Qarabağın xilaskarı tək,
Hər kəs tanıyacaq sənin ismini.



**BƏDƏLOV SEYMUR HÜSEYN OĞLU**
**BAŞ LEYTENANT**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## «QƏHRƏMAN OLMAĞIN VAXTI ÇATDI»

Qarabağın azad olunması hər kəs üçün böyük bir başlanğıcdır. Qarabağa qayıdış uzun illər öncə öz yurd-yuvalarından didərgin düşənlər üçün böyük qayıdışdı. Bir də vətən həsrətindən ruhu didərginlər var idi. Qəhrəman oğulların sayəsində o didərgin ruhlar dinclik tapdı. Əsli, nəcabəti Qarabağdan olan ancaq heç zaman Qarabağı görməyənlər üçün həyatlarının dönüm nöqtəsi olacaq Qarabağ. Bir zamanlar Qarabağın azad olmağını arzu edən xalq indi Qarabağa qayıdış gününü xəyal edir. Ən gözəl xəyaldı Qarabağa qayıdış. Qarabağın azad olunması xəyallarını gerçək edən qəhrəmanların çoxu indi xatirəyə çevriliblər. Bizlər dünya gözü ilə Qarabağı seyr edəndə Seymur kimi qəhrəmanların şəhid ruhları o torpaqları seyr edəcək.

Bizə azadlıq bəxş edənlərdən biri olan Bədəlov Seymur Hüseyn oğlu 20 oktyabr 1993-cü ildə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunda anadan olmuşdur. O, 2000-ci ildə Ordubad rayon 3 N - li tam orta məktəbdə I sinfə qədəm qoymuşdu. Körpəlikdən vətənə olan sevgisi, qorxmazlığı, dəyanəti ilə seçilmişdi. Vətən sevgisi ilə cilalanan ürək





sahibi VIII sinfi bitirdikdən sonra Heydər Əliyev adına Hərbi liseyə qəbul olmuşdu. 3 illik təhsilini uğurla tamamladıqdan sonra 2011-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdu. 2015 - ci ildə hərbi məktəbi bitirən Seymur leytenant hərbi rütbəsinə layiq görülmüşdü. İlk olaraq Naftalan şəhərində yerləşən N saylı hərbi hissədə xidmətə başlayan qəhrəman sonra Tərtər rayonunda və Bakı şəhərində yerləşən hərbi hissələrdə xidmət etmişdi.

Seymur o hərbçilərdən idi ki, hələ illər öncə Aprel döyüşlərində Azərbaycan Ordusunun qalibiyyətində əvəzsiz xidməti olmuşdu. Həmin döyüşlər zamanı Polad Həşimovun rəhbərliyi altında Lələtəpə yüksəkliyi uğrunda mübarizə apararaq qalibiyyət sevincini yaşamışdı. Elə o döyüşlər zamanı Seymur bir çox silahdaşlarının şəhidliyinə də şahidlik etmişdi. Onların yarımçıq qalan Qarabağ arzularını bir gün gerçək edəcəyinə söz vermişdi.

Seymur bir hərbçinin sahib ola biləcəyi biliyə, iradəyə, gücə sahib idi. Xidməti zamanı sərgilədiyi nizam-intizamı, döyüş bacarığının yüksək səviyyədə olması ilə fərqlənirdi. Elə bütün bu öncəliklər nəzərə alınaraq o, 2018-ci ildə baş leytenant hərbi rütbəsinə yüksəlmişdi.

Hələ Aprel döyüşləri zamanı gücünü bütün dünyaya bəyan edən Azərbaycan Ordusu artıq Qarabağı tək arzulamırdı. Bu arzunu gerçək etmək üçün geri sayım başlamışdı. Ermənistan ordusunun üst-üstə etdiyi səhvlər əslində özlərinə qazdıqları quyu oldu. 2020-ci ilin iyul ayında Tovuzda törətdikləri iğtişaşlar zamanı general Polad Həşimov, polkovnik İlqar Mirzəyev və digər 10 hərbçi ilə yanaşı hətta 1 mülki şəxsin şəhid olmasını Azərbaycan Ordusu bağışlayardımı? Polad Həşimovun layiqli davamçıları onun qanı damlayan o yolu sonuna qədər getməkdə qərarlı idilər. Çox hərbçilər kimi Seymuru da Polad Həşimovun şəhid olması dərindən sarsıtdı. Ancaq intiqam alovunu daha gur yandırdı. Cəmi bir neçə ay sonra nəinki Polad Həşimovun, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən bütün şəhidlərin hər damla qanının qisası alındı.

«Mən qəhrəman olacam.» Bu cümlə Seymurun həyat şüarı idi. Hər zaman şəhid kimi can vermək arzusunu dilə gətirərdi. Bu həyatdan başqa cür ayrılmaq onunçün arzuolunmaz idi. Allah sidq ürəkdən edilən arzuları, duaları daha tez gerçəkləşdirir. Seymurun da arzusu tez gerçəkləşdi.

Seymur Vətən müharibəsi başlayan gün ailəsi ilə vidalaşıb, elə həmin gün Füzuli istiqamətində gedən döyüşlərə qatılıb. Müharibəyə gedərkən o qədər sevinirmiş ki, sanki dünyanın ən xoşbəxti imiş. Xoşbəxt idi, çünki ən böyük arzusu gün işığına çıxırdı. Döyüşə gedərkən bunları deyib:

- Biz bu müharibəni sona çatdırmalıyıq. Gələcək nəsillər Qarabağ adlı həsrəti ürəklərində daşımamalıdı. Mən bu həsrətlə böyümüşəm. İstəmirəm oğlum Hüseyn kimi körpələr Qarabağ həsrətli nağıllarla böyüsünlər. Bu döyüş Qarabağ həsrətinin sonu olacaq. Canımı fəda etməyə hazıram.

Seymur bu minvalla illərdi düşmən tapdağı altında qalan bir çox ərazilərin azad olunması uğrunda gedən döyüşlərdə əsil qəhrəman kimi mübarizə aparıb. Füzuli, Hadrut, Cəbrayılın azad olunmasında böyük səy göstərib. Son dəfə oktyabrın 11-də ailəsi ilə danışdığı zaman onlara azad Qarabağı, bütöv Azərbaycanı miras qoyub gedəcəyini bildirib.

Qarabağ uğrunda son mübarizəsi 16 oktyabrda Cəbrayılda olub. Ayağından, qarnından və başından ağır yaralanan Seymurun daha bir mübarizəsi başlayıb. 41 gün həyatda qalmaq üçün mübarizə aparan qəhrəman bu mübarizədə məğlub olub. Noyabrın 26-da ruhu cənnətdə şəhidlərə, cismi II Fəxri Xiyabanda vətən torpağına qovuşub.

«İgid ölər adı qalar.» deyiblər. Seymur kimi bir igidin həm adı, həm izi, həm də sözü daim xatırlanacaq. Bu gün onun döyüş yoldaşları qəhrəmanın keçdiyi döyüş yolundan qürurla danışırlar. "Bu gün həmin gündür. Qəhrəman olmağın vaxtı çatdı." deyən Seymur qəhrəman olmağı bacardı.

Keçdiyi şərəfli ömür və döyüş yolu gələcək nəsillərə örnək olan baş leytenant Bədəlov Seymur Hüseyn oğlu Vətən müharibəsi zamanı göstərdiyi rəşadətə görə Azərbaycanın Ali Baş Komandanı İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Hərbi xidmətdə fərqlənməyə görə» medalı, «Vətən uğrunda» medalı və «Füzulinin azad olunmasına görə» medalı ilə təltif edilib.





## ŞƏHİD SEYMUR

«Qəhrəman olacam»! dedin hər zaman,
Düşdün qəhrəman tək dillərdən-dilə.
Azadlıq müjdəsin son nəfəsinlə,
Seymur, sən çatdırdın vətənə, elə.

Qarabağ adlanan səfalı yurdu,
Seyr etdin dünyada könül gözünlə.
Hər zaman vətəni vəsf eləyərdin,
Dilə gətirdiyin şirin sözünlə.

Ən gözəl kəlməni sona saxladın,
Vətən azadlığın yazdın, oxuduq.
Sənin tək qəhrəman, igid oğulun,
Adın hərf-hərf qəlbə toxuduq.



**QASIMOV HƏMİD ORUC OĞLU**
**BAŞ LEYTENANT**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## «BİZ TARİX YAZANLARIQ»

Ana Vətən...İki sözün birləşməsində cəm olunan sonsuzluq. Bu iki sözün mənəvi dəyərini izah etmək asan deyil. Görəsən vətəni niyə məhz anaya bənzədiblər? Bu sualın cavabı kəlmələrə sığmayacaq böyüklükdədir. İzahı sonsuzdur. Elə Ana Vətən sevgisinin sonsuzluğu qədər. Bu sonsuz sevgini sözlə deyil əməlində övladına aşılayan analar var. O anaların gözlərində əsalətin əksinin bərq vurduğuna şahid oluruq. Bircə baxışları düşməni məhv etməyə yetərlidir. Həmin əsalətli, məğrur anaların bətnində yaranan oğulların ilk qəlb atışlarından vətən sevgisi duyular. Elə həmin o oğullar da əbədi olaraq torpağın bətninə köçən oğullardı. Tovuz ana Həmidini əbədi torpağa verdiyi gün «İki oğlum var. Həmidi vətən, torpaq yolunda qurban verdim. Ümidi də qurban verməyə hazıram.» deyərkən əslində vətən sevgisinin onun üçün necə bir ali sevgi olduğunu dilə gətirdi. Bu sözləri dilə gətirən Həmidi 9 yaşından atasız böyüdən bir ana idi. Çox böyük ürək daşıyırsan Tovuz ana. «Ana Vətən» birləşməsinin önündə gələn «Ana» kəlməsini doğruldursan. Sənin adın vətənə, vətən də sənə yaraşır Şəhid anası. Məğrur ananın özü və böyütdüyü Həmid hər kəsə örnək olmalıdır. Onlar qəhrəmanlar ailəsidir.





Qasımov Həmid Oruc oğlu 11 dekabr 1994-cü ildə Şərur rayon Qışlaqabbas kəndində anadan olmuşdur. Həmid ilk təhsilini Kəngərli rayonunun Qabıllı kənd tam orta məktəbində almışdı. Hələ 9 yaşında ikən həyat ondan atasını almışdı. İki oğul övladını tək başına böyüdən Tovuz ananın bu günkü əsalətli duruşunun səbəbi yəqinki gənc yaşında həyatın vurduğu zərbədən yıxılmamasıdır. Hər iki qardaş vətən sevgisinin mötəbərliyini dərindən dərk edərək böyümüşdü. Elə onun nəticəsi idi ki, Həmid hərbçi olmaqda qərarlı idi. O, məqsədyönlü addımını 2009-cu ildə atmış və Heydər Əliyev adına Hərbi liseyə qəbul olmuşdu. 2012-ci ildə liseyi bitirdikdən sonra 2012-2016-cı illərdə Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdu. 2016-cı il 15 iyunda AAHM - i leytenant hərbi rütbəsi ilə bitirmişdi. Həmin ildən Goranboy rayonunda yerləşən N sayılı hərbi hissədə taqım komandiri vəzifəsində xidmətə başlamışdı. 2017-ci ildə Tərtər rayonunun N saylı hərbi hissəsinin tabeçiliyində olan Milli Qəhrəmanımız Mübariz İbrahimovun adını daşıyan postda xidmətə başlamışdı. Mübariz postunda xidmət etmək məsuliyyət tələb edir. Həmid bu məsuliyyəti dərk edərəkdən orada xidmət etmişdi. Tabeçiliyində olan hərbi qulluqçulara da Mübariz yolunun layiqli davamçıları olmağı tövsiyə etmişdi. O, hərbçilərə bir komandir kimi yox, bir dost, bir qardaş kimi yaxın idi. Hər zaman işində nöqsansız olan Həmid 2019-cu ildə ordu komandanlığı tərəfindən göstərdiyi xidmətləri nəzərə alınaraq baş leytenant hərbi rütbəsinə layiq görülmüş və bölük komandiri vəzifəsinə təyin edilmişdi. Xidmət etdiyi illər ərzində ordu komandanlığı tərəfindən üç dəfə fəxri fərmanla təltif edilmişdi.

Düşmənlə savaş ilk öncə qəlbində başlamışdı Həmidin. Zamanı gəldiyində düşməni öz qanında boğacağı hər kəsə aşkar idi. Həmin an gəldi. Döyüşün başlandığı gün Qardaşına zəng edərək II Qarabağ müharibəsinin başladığını bildirib və qardaşına hərbi komissarlığa gedərək könüllü olaraq döyüşə yazılmasını deyib. «Mən gedirəm sonu nə olur olsun, vətənə layiq dönəcəm. Sonuna qədər gedəcəm. Ya şəhid kimi, ya qazi kimi dönəcəm. Mən olduğum yerdən başlayaraq Qarabağ ərazisindən Naxçıvana yol açaraq gəlirəm. Sən də Naxçıvandan döyüşərək gəl, Qarabağda görüşək. Zəfərimizi bizə yaraşan şəkildə qeyd edək.» deyib. Anasını və nişanlısını qardaşı Ümidə əmanət edən Həmid qəhrəmanlıq salnaməsini sətir - sətir

yazmağa başlayıb.

Həmid döyüşün ilk günü öz döyüş yoldaşları ilə bərabər düşməni məğlubiyyətə uğratmışdı. Döyüş yoldaşlarına nə olur olsun geriyə deyil önə baxmalarını tövsiyə etmişdi. Onun dillərə düşən sözü isə «Biz tarix olan yox, tarix yazanlarıq.» sözləri olmuşdu. Qanla yazılan həmin tarix tarix boyu unudulmayacaq. Düşmənlə üz-üzə döyüşdən çəkinməyən qəhrəman düşmənin ön cəbhəsinə qədər irəliləmişdi. Nə düşmənin açdığı atəş, nə də ölüm gerçəyi onun gözlərini qorxutmamışdı. Bu yolda ölümün əslində bir ölümsüzlük olduğu gerçəyini hər zaman dilə gətirmişdi . Qarnından yaralandığı an yerə yıxılsa da dərhal ayağa qalxmış silahını düşmənə tuşlayaraq düşmənin neçə-neçə əsgərini məhv etmişdi. Düşmən qorxusuz Həmidin qorxusuzluğundan qorxuya düşərək onu snayperlə vurmuşdu. Əsgəri Həmidi ağır yaralı halda döyüş gedən ərazidən kənara çəkmişdi. Əsgərinin «Bizimlə qal komandir.» hayqırışlarına baxmayaraq Həmid son dəfə dünyaya təbəssümlə baxaraq şəhadətə ucalmışdı. 3 oktyabrda vətən sinəsi üstə əbədi göz yuman qəhrəmanın nəşi 3 oktyabrda həyata göz açdığı Naxçıvan torpağına gətirilmişdi. Həmin gün Kəngərli rayon Qabıllı kənd məzarlığında torpağa tapşırılmışdı.

Baş leytenant Qasımov Həmid Oruc oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, «İgidliyə görə» medalı, «Suqovuşanın azad olunmasına görə» medalı və «Laçının azad olunmasına görə» medalı ilə təltif edilib.

Həmid nəsilin Vətən müharibəsində vətənə qurban etdiyi tək şəhid deyil. Həmidin xalası oğlu İbrahimov Qurban Namiq oğlu da son damla qanına qədər vuruşmuş və qəhrəmancasına şəhid olmuşdu.





## ŞƏHİD HƏMİD

«Tarix olan deyil, tarix yazanıq.»
Söyləyib atıldın ər savaşına.
Vətən torpağını məzar elədin,
Od-alov elədin düşmən başına.

Əhdinə yetişdin sən illər sonra,
Tək olan amalın azadlıq idi.
Sənin tək ürəyə sahib olanlar,
Azadlıq uğrunda canını verdi.

Elə nərə çəkdin cahan titrədi,
Düşməni lərzəyə gətirdin, Həmid.
Cismini vətənə sipər elədin,
Çatdın öz arzuna, sən oldun şəhid.



## XƏLİLLİ NAMİQ HƏSƏN OĞLU
## BAŞ LEYTENANT
## (II Qarabağ müharibəsində şəhid olmuşdur.)

## MÖTƏBƏR ŞƏHİD

Əgər hər kəs bu vətəni şəhidlərin vətəni seyr etdiyi kimi və sevdiyi kimi sevsə vətənin nəinki torpağında hətta daşında, qayasında da çiçək bitər. Ona görə hər zaman şəhidlərin vətən sevgisi örnək götürülür. Qəlbində vətən sevgisi, şəhid yanğısı olan hər bir insan şəhidlərin vətən sevgisi ilə qürurlanır. Bəzən də «Kaş ki, mən də bu vətənə can verib şəhid adının mötəbərliyinə layiq görülərdim.» deyirik. O arzuya, kama hər insan çatmır. Yalnız Namiq kimi oğulların məqamı o zirvə olur.

Xəlilli Namiq Həsən oğlu 25 fevral 1994-cü ildə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Azadkənd kəndində dünyaya gəlib. Zəhmətkeş ailədə böyüyüb. Atasının zəhmətlə qazandığı çörəyin qədrini bilib, zamanı gəldiyində haqqını da verib. Ailənin sonuncu övladı Namiq olub. Bunun üçün ailədə hamıdan çox ailədə o sevilib.

Namiq 2000-ci ildə Şəhid Çingiz Vəliyev adına Azadkənd tam orta məktəbində təhsil almağa başlamışdı. Bir şəhid adını daşıyan məktəbdə təhsil alan məktəbli elə körpə yaşlarından şəhid sözünün dərinliyinə qərq olmuşdu. Böyüdükcə bu sözün izahını dərk edən igid oğul bir hərbçi olmaq qərarına gəlmişdi. IX sinfi bitirdiyi zaman həyat onun yolunu Heydər





Əliyev adına Hərbi liseydən salmışdı. O yol nə qədər çətin olsa da Namiq bu çətinliyin öhtəsindən gələcəyinə əmin idi. 2012 - ci ildə liseyi bitirdikdən sonra daha bir önəmli addım atan Namiq Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdu. 2016-cı ildə AAHM - i uğurla başa vurduqdan sonra leytenant hərbi rütbəsi almışdı. Həmin il Kəngərli rayonunda yerləşən N saylı hərbi hissədə taqım komandiri kimi xidmətə başlamışdı.

Namiq ailəcanlı bir övlad idi. Vətən sevgisinin təməli də ailədən başlamışdı. Ailə üzvülərinin hər birini sevirdi. Qardaşı və bacısı onun üçün çox dəyərli idi. Atasını isə dayağı bilirdi. Ailədə ən çox anası Fəridə xanıma bağlı idi. Anası sanki onun dünyası idi. Ancaq 2019-cu ildə o dünya ana yoxluğu ilə viran oldu. Çarəsiz xəstəliyin qurbanı olan Fəridə xanım həyata gözlərini yumduğu gündən Namiqin həyat eşqi sanki söndü. Anasızlıqla sınanan Namiqin tək bir gözləyəni var idi. Qarabağ...

2020 - ci ilə qədər Naxçıvanda xidmət edən Namiq həmin il təyinatla Tərtər rayonunda yerləşən N saylı hərbi hissədə taqım komandiri kimi xidmətə başlamışdı. Nümunəvi xidmət etdiyinə görə bölük komandiri təyin edilmişdi. O, öz əsgərlərini hər zaman döyüşə hazır vəziyyətdə saxlamışdı. Çünki düşmənin «atəşkəs» vədlərinə arxayınlaşmaq olmazdı.

27 sentyabrda pozulan «atəşkəs» əslində bir xalqın pozulan sükutu oldu. Aslan ürəkli cəngavərlərin döyüşə gedərkən gözlərindən oxunan qorxmazlığı dünyanı riqqətə gətirdi. Həmin o oğullar cərgəsində Namiq də dayanmışdı. Sinəsini vətənə tuşlanan atəşlərə sipər edib irəliləyən vətən oğlu Tərtər rayonunun Çaylı kəndini azad etdikdən sonra Suqovuşan istiqamətində vuruşmuşdu. Daha sonra Ağdərənin azad olunması üçün strateji əhəmiyyət kəsb edən yüksəklik olan Ağucux yüksəkliyi uğrunda mübarizəyə başlamışdı. Həmin vaxt Namiq düşmənin atdığı minamyotun partlaması nəticəsində aldığı qəlpə yarasından qəhrəmancasına şəhid olmuşdu.

Ruhu anasına qovuşan Xəlilli Namiqin cismi noyabrın 2-də doğulduğu Azadkənd məzarlığında ana torpağa tapşırılıb.

Baş leytenant Xəlilli Namiq Həsən oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən şəhid olduqdan sonra «Vətən uğrunda» medalı və «Laçının azad olunmasına görə» medalı ilə təltif edilib.

«Şəhidlər bir ölüb min dirilər.» Bu gün Namiqin qardaşı oğlu İlham tez böyümək arzusundadır. Onun bu arzusunun səbəbi isə əmisi kimi hərbçi olub, əmisinin və bütün şəhidlərimizin intiqamını almaqdır.

## ŞƏHİD NAMİQ

Sən şəhid adının mötəbərliyin,
Dərk edib bu yola qədəm qoymuşdun.
Vətən həsrətini hey çəkə-çəkə,
Köksündə qəlbini didib, oymuşdun.

Bu yolda can verən şəhidlər kimi,
Sən də candan keçdin, mötəbər şəhid.
Doğrultdun etibar, güvən, inamı,
Qoymadın vətəni talasın yezid.

Hər qarış torpağın azadlığına,
Min ümid toxumun sizlər əkdiniz.
Vətənin üstünə çökən buludu,
Canlar bahasına sizlər çəkdiniz.

Namiq, xalq ruhunun sarı simidir,
Dildə əzbər olan "Şəhid" kəlməsi.
Şəhidlər hər zaman xatırlanacaq,
Olmasa nə cismi, nə də nəfəsi.





**RZAYEV ZÜLFÜ ZEYNİ OĞLU**
**BAŞ LEYTENANT**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**



## DÜŞMƏNİN GÖZÜNƏ DİK BAXAN İGİD

Türk qanı daşıyan cəngavərlərin boz qurda bənzədilməsi sıradan bir bənzətmə deyil. Bu xalq boz qurd kimi cəsur, döyüşkən oğulları ilə seçilib. Düşmən gözünə dik baxışı ilə düşmən ürəyin qorxuya salıb boz qurd ürəkli qəhrəmanlar. Tarixin tozlu səhifələrində iz salan qəhrəmanların davamçıları bu gün də var, sabah da var olacaqlar. O qəhrəmanların intiqamı böyük olur.

«Qisasımız qiyamətə qalmayacaq! Hər damla qanın qisasın alacam!» deyən oğullardan biri idi Zülfü. Hələ illər öncə Aprel döyüşləri zamanı düşmənə kin qusan Zülfü erməni polkovniki gözlərinə dik baxaraq məhv etmiş, döyüş yoldaşını xilas etmişdi. Arxadan vurmaq Zülfünün kitabında yazmazdı. Lakin bununlada onun ürəyi sakitləşməmişdi. Həmin döyüşlərin canlı qəhrəmanlarından biri olan Zülfü Qarabağı tam azad etmədən ürəyinin rahat olmayacağını bilirdi. Əslində bunu onun ətrafındakı hər kəs bilirdi. Ağlı kəsən gündən ancaq o amal naminə addımlar atırdı. «Çoxlarının dildə dediyini mən əməldə edəcəm.» deyirdi. Vədinə xilaf çıxmadı.

Rzayev Zülfü Zeyni oğlu 9 may 1993-cü ildə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Külüs kəndində anadan olmuşdur. 1999-

cu ildə Şahbuz rayon Külüs kənd tam orta məktəbində təhsil almağa başlamışdı. 2007-ci ildə Heydər Əliyev adına Hərbi liseyə qəbul olmuş, 3 illik ilk hərbi təhsilini almışdı. 2010-cu ildə Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuşdu. AHMM-də oxuduğu 4 il müddətində kəşfiyyatçı ixtisasına yiyələnmişdi. 2014-cü ildə məktəbi leytenant rütbəsi alaraq bitirmişdi. 2014-2015-ci illər ərzində Bakıda Təlim və Tədris Mərkəzində (TTM) həm təhsilini,həm də təlimlərlə ixtisasını möhkəmləndirmişdi. 2015-ci ilin avqust ayından etibarən təyinatla Füzuli rayonundakı N saylı hərbi hissədə xidmətə başlamışdı. 2016-cı ildə isə Azərbaycan Ordusunun ilk Zəfəri kimi tarixə düşən Aprel döyüşlərində iştirak etmişdi. Döyüşlər zamanı göstərdiyi şücaətlərə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə «İgidliyə görə» medalı, 2018-ci ildə «Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 100 illiyi" yubiley medalı ilə təltif edilmişdi. 2019-cu ildə yenidən kurslardan keçərək kəşfiyyat bölük komandiri vəzifəsinə təyin edilmişdi. 2020-ci ildə 5 illik xidmət müddəti başa çatsa da o Qarabağ azad olunana qədər həmin yerlərdə xidmət edəcəyini bildirmişdi. Əsgərlərə bir qardaş qayğısı göstərən Zülfü hər zaman özü əsgərlərdən öndə getmiş, əsgərlərinin canını öz canından çox qorumağa çalışmışdı. Onun «Cana can, qana qan, yetər ki, sən dalğalan» şüarı bayrağa olan tutqusunun izahı idi. Hər zaman həyat yoldaşına dediyi «Hər şey vətən üçün, can üçün, canan üçün. Canım bahasına vətənimi qoruyacam. Vətəni qoruya bilsəm demək ki, hər birinizi qorumuş oluram.» sözləri isə o ürəyin dərin sevdasının xəbərçisi idi.

Azərbaycan xəritəsini hər zaman bir az həsrət, bir az da intiqam dolu baxışlarla seyr edərdi Zülfü. «Bir gün bu xəritədəki bütün ərazilərdə Azərbaycanın üç rəngli şanlı bayrağı dalğalanacaq.» deyərdi. O günün isə uzaqda olmadığını bildirərdi. 30 il Qarabağdan uzaq düşən azərbaycanlılar 2020-ci ildə Qarabağ torpaqlarına qədəm qoydular. Həsrəti bitən və həsrəti bitirən vətəndaşlardan biri də Zülfü oldu.

Sentyabrın 26-da bir çox hərbçilər kimi Zülfü də evinin son dəfə qonağı olub. Gözlərində bir az hüzün, bir qədər də sevinc gizlədib. 2 il idi ailəli olan Zülfünün arzularından biri də ata olmaq olub. Ancaq bu sevinc onun alnına yazılmayıb. Qüsl alıb paklanan Zülfü gülə-gülə evindən çıxıb. Axı o illərdi arzusunda olduğu yola çıxırdı. Sevdiyinin ardınca gözləri dikilən xanımına bu gedişin əvvəlki gedişlərdən olmadığı ayan olub. Ürəyində «Getmə...» desə də bu sözü dilinə gətirə bilməyib. O, bilib ki, yol üstə olan hərbçini yolundan döndərməyə heç bir sözün gücü yetməz.





Vətən müharibəsi başlanan ilk gün yuxarı komandanlığın «Əsgər və zabit heyətini istiqamətləndirmək üçün arxada qal.» əmrini verməsinə baxmayaraq Zülfü öndə döyüşmək istədiyini bildirib. Axı o illərlə yiyələndiyi bilik və bacarığının arxa cəbhədə yox ön cəbhədə lazım olduğunu yaxşı bilirdi. Öndə mübarizəyə başlayan Zülfü Füzuli, Cəbrayıl uğrunda gedən ən ağır döyüşlərin iştirakçısı kimi adını tarixə yazıb. Yaralanmağına baxmayaraq o geri dönməyib. Əsgərinin yaralandığını görən Rzayev onu xilas etmək üçün səngərdən çıxıb. Əsgərinə doğru hərəkət edərkən düşmənin snayperdən açdığı atəşə tuş gəlib və şəhadətə ucalıb.

Oktyabrın 1-də Naxçıvan Vətən müharibəsində canından keçən ilk oğullarını qarşılayıb.Həmin qəhrəman oğullardan biri də Zülfü olub. Zülfü həmin gün bir zaman ilk addım atdığı Külüs kəndində torpağa tapşırılıb.

Baş leytenant Rzayev Zülfü Zeyni oğlu II Qarabağ müharibəsi zamanı göstərdiyi qəhrəmanlıqlara görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə «Cəsur döyüşçü» medalı, «Vətən uğrunda» medalı, «Füzulinin azad olunmasına görə» medalı, «Xocavəndin azad olunmasına görə» medalı və «Şuşanın azad olunmasına görə» medalı ilə təltif edilib.

Vətən əmanətinə, yurd əmanətinə sahib çıxan oğullar çoxdu. Onların canları bahasına sahib çıxdıqları bu əmanətə biz də sahib çıxmalıyıq. Zülfü və onun kimi neçə qəhrəmanın tək əmanəti bu vətəndir.

## ŞƏHİD ZÜLFÜ

Qorxmadan dik baxdın düşmən gözünə,
Naxələf çıxmadın sən öz sözünə,
Hər kəs bələd oldu sənin gücünə,
İllərin qisasın düşməndən aldın
Zülfü, ürəklərdə əbədi qaldın.

Aprel döyüşünün mərd qəhrəmanı,
Yaşatdın bu xalqa ən gözəl anı,
Dünyada ucaltdın Azərbaycanı,
Hər kəs qalib kimi tanıdı bizi
Zülfü, unutmarıq heç zaman sizi.

Çatdı Qarabağa nurlu qədəmin,
Bu qədəm atıldı hər zaman əmin,
O gün sona çatdı yurd adlı qəmin,
Vətən elə bil ki, nura boyandı
Zülfü, qəlbin vətən üçün dayandı.







## QUREŞLİ FİRUZ ƏLİ OĞLU BAŞ LEYTENANT
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## VƏTƏNƏ CAN VERƏN

«Hər şey vətən üçün!» deyib ömrünün hər anın vətən üçün yaşayan oğulların vətənidir bu vətən. Vətəndən başlayan ömürləri vətən üçün bitər o oğulların. Hər biri vətən boyda ürək sahibi olar. O ürəklər vətəni yaşatmaq üçün yaşayar və son çırpınışı da vətəni yaşatmaq üçün olar. Son çırpınış şəhadət sarayının qapısını açar. Şəhid kimi can verən insan şəhadət sarayının sakini olar. O sarayın sakinlərindən biri də Qureşli Firuzdu.

Qarabağın azadlığı üçün şəhadətə ucalan Qureşli Firuz Əli oğlu 3 dekabr 1993-cü ildə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Külüs kəndində dünyaya göz açmışdır. Ailənin iki oğul, bir qız övladından ortancılı Firuz olmuşdu. Yeganə ana hər üç övladını evinin çırağı bilirdi. Firuz isə böyüdükdə vətənə çıraq oldu. 2000-ci ildə Külüs kənd tam orta məktəbində təhsil almağa başlamışdı. Orta məktəbdə oxuduğu zamanlardan vətənpərvərlik ruhunun yüksək olması ilə seçilmişdi. 2009-cu ildə Heydər Əliyev adına Hərbi liseyə daxil olmuşdu. 2012-ci ildə ilk hərbi təhsilini başa vurduqdan sonra Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdu. Məktəbi bitirdikdən sonra 2016-cı ildə Beyləqan rayonunda yerləşən N saylı hərbi hissədə xidmətə başlamışdı. 2017-2018 illərdə Si-

lahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində hərbi biliklərini möhkəmləndirmişdi. Xidməti zamanı istər komandirlərinin istərsə də əsgərlərinin ürəyinə yol tapmışdı. Firuz 2019-cu il iyulun 1-də baş leytenant hərbi rütbəsinə yüksəlmişdi.

Firuz ətrafındakı hər kəsə qarşı mehriban davranışı ilə seçilirdi. Ürəyinin mərhəmət hissi onu fərqləndirirdi. Elə Səmurə xanım da Firuzun ürəyinin gözəlliyinə aşiq olmuşdu. Vətəni sevən bir oğulun ailəsini də sevəcəyinə tərəddüd etməyən Səmurə xanım Firuzun evlilik təklifini qəbul etmiş, ikili 2018-ci il 31 iyulda imzaları ilə sevgi dolu bir ailənin təməlini atmışdılar. Ailə qurduqdan sonra Səmurə xanım Firuzu tək qoymayaraq onunla bərabər xidmət etdiyi Beyləqan rayonunda yaşamağa başlamışdı. 1 il sonra bu ailəni övlad qoxusu bürümüşdü. Bu sevginin ilk və son övlad qisməti Duyğu dünyaya gəlmişdi. Firuz qızına həddindən artıq bağlı bir ata olmuşdu. Bütün hərbçilər kimi çox zaman evindən uzaqda olan Firuz heç kimin gözləmədiyi halda Duyğunun 1 yaşına gəlmiş «Mənim qızımın atasına nə isə olmayıb ki, mənim qızım atasız ad günü keçirsin.» demişdi. Əslində Firuzun o sözlə nə demək istədiyi indi bəlli olur. Firuz Duyğunun atasız ad günləri olacağını hiss etmişdi. Axı hərbçilər çox zaman sevdiklərinin əllərini zamansız buraxır. Firuz da vətənin ona uzanan əllərini tutarkən həm balaca Duyğunun, həm də bütün sevdiklərinin əllərini buraxdı.

Firuzun sevdikləri ilə son görüşü sentyabrın 8-də olmuşdu. Həmin gün heç kimin ağlına gəlməzdi ki, bu son görüşdü. İndi həmin son görüşün hər anının xatirəsi ürəkləri sızladır.

Firuz da bir çox hərbçilər kimi vətənin azadlıq savaşının çatacağı günü gözləyib. O günün çatdığı zaman isə öndə gedən oğullardan biri olub. 27 sentyabrda müharibəyə qatılan Firuz Füzuli, Suqovuşan, Cəbrayıl uğrunda mübarizə aparıb. Döyüşlərin getdiyi zaman 5 oktyabrda xanımına zəng edib. Elə son zəngi də, son sözləri də o olub. Döyüşün gərginliyini xanımından gizlətməyə çalışan Firuz qardaşına zəng edib «Qızıma yaxşı baxın.Səmurədən muğayət olun.Onlar sizə əmanətdi.Mənə bir şey olsa pis olmayın.Allaha əmanət olun.» deyib. Oktyabrın 6-da Füzuli rayonunun azadlıq mübarizəsində düşmənin açdığı top atəşi nəticəsində ağır yaralanıb. Bakıdakı hospitala gətirilən Firuz cəmi 4 gün yaşama tutuna





bilib. Oktyabrın 10-da vətən oğlu vətən şəhidinə çevrilib.

Doğması vətən keşiyini çəkənlərin üz-üzə qalmaq istəmədikləri bir an var. Bu an bayraq təhvil almaqdı. Təhvil verilən bayraq şəhid xəbərçisidir. O bayrağı təhvil alan insan heç vaxt o anı unuda bilməz. Firuzun ailəsinin də şəhid xəbərçisi olan bayrağı təhvil aldığında ürəkləri yandı. Bayrağı yanan ürəklərinə sıxıb şəhid yolunu gözləyən ailə oktyabrın 12-də şəhid nəşini qarşıladı. Vətən qurbanı olan oğul 12 oktyabr 2020-ci ildə Şahbuz rayon Külüs kənd məzarlığında torpağa tapşırıldı.

Firuzun çox arzuları var idi. Ən gözəl arzuları isə qızı Duyğu ilə bağlı idi. Duyğudan «Ata» kəlməsini eşitməyi səbirsizliklə gözləyirdi. Ancaq o bu kəlmənin sevincini yaşamadan həyata gözlərini yumdu.

Baş leytenant Qureşli Firuz Əli oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən öncə «Azərbaycan Ordusunun 100 illiyi» yubiley medalı, şəhadətindən sonra isə «İgidliyə görə» medalı, «Vətən uğrunda» medalı və «Füzulinin azad olunmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD FİRUZ

Vətən, sənçün sonlanan,
Ömür cənnətdə başlar.
Cənnətin sakinləri,
Ölməz, əbədi yaşar.

Cənnət ömürlülərin,
Amalı, arzusu sən.
Uğrunda candan keçib,
Firuz tək oğul, vətən.

Firuz «Ata» kəlməsin,
Duymasa da qızından.
«Ana vətən» sözlərin,
Duydun şəhid oğlundan.

Çox arzu qurban olub,
Sən olan arzulara.
Biz borcluyuq vətənə,
Qurban o oğullara.

Səni şəhid bala tək,
Sevir neçə analar.
Vətənin sütunudur,
Şəhid yatan məzarlar.







**ALLAHVERDİYEV BABƏK BƏXTİYAR OĞLU BAŞ LEYTENANT (II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## BABƏK HÜNƏRLİ QƏHRƏMAN

Tarixi qəhrəmanların qanı ilə yazılan bir vətəndir Azərbaycan. Dünənləri tarix qoxan bu qoca vətənin qəhrəman oğulları çox olub. Babəklər, Nəsimilər, Füzulilər kimi qəhrəmanların adlarını əmanət, yollarını örnək götürən oğullar bu günümüzdə də var. Soykökünə sahib çıxan oğullar özləri də bir tarix yazmağı bacarıblar. Adı Azərbaycan qəhrəmanı Babəkin şərəfinə Babək adlandırılan bir qəhrəman oğul bu dövrümüzün qəhrəmanlıq salnaməsini yazmağı bacardı. Bir zamanlar Babək filminə baxarkən «Oğlum olsun adını Babək qoyacam.» deyən Bəxtiyar Allahverdiyev illər sonra özü bir qəhrəman atası oldu.

Allahverdiyev Babək Bəxtiyar oğlu 30 may 1979-cu ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Dəmirçi kəndində dünyaya göz açmışdı. Daha sonra ailəsi ilə Bakıya köçmüşdü. İlk təhsilini Bakı şəhər Nərimanov rayonu 93 N - li məktəbdə almışdı. Uşaqlıqdan idmana böyük həvəsi olan Babək idmanın kinboks və karate növü ilə məşğul olmuşdu. Dəfələrlə yarışlarda nailiyyətlər əldə etmişdi. VII sinfdə oxuduğu zaman hərb peşəsinə olan sevgisi onun yollarını hərbi məktəb ilə kəsişdirmişdi. İmtahandan uğurla keçən Babək 1993-cü ildə Cəmşid Naxçıvanski adına

Hərbi liseyə qəbul olmuşdu. 1996-cı ildə liseyi uğurla bitirdikdən sonra Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdu. Məktəbi taktiki motoatıcı qoşunlar komandiri ixtisası üzrə bitirən Babək həmin il Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Quru Qoşunlarında xidmət etməyə başlamışdı.

Babək 10 yanvar 2014-cü ildə Aygün xanımla ailə həyatı qurmuşdu. Özü vətənə layiqli xidmət edən qəhrəmanın arzusu iki oğul övladı Bəxtiyar və Çingizi də vətənə layiq oğul kimi böyütmək idi. Övladlarının onu «Dədə» deyə səsləməsindən könlü bir ayrı xoş hal olurdu. Son dəfə sentyabrın 24-də ailə üzvləri ilə birlikdə zaman keçirmişdi. Həmin vaxt böyük oğlu Bəxtiyara «Dədənin şirin balası, 10 noyabrda sənin ad gününə sənə qəşəng hədiyyələr alacam.» demişdi. O oğluna Şuşanın azadlığını hədiyyə etdi.

Babək hər zaman vida edərkən «Qalın salamat, Allaha əmanət.» deyərdi. Son vidası isə «Allaha əmanət olun.» oldu. Gözlərindən əbədi vida olduğu bəlli idi. Ancaq o zaman bunu heç kim anlamamışdı. Doğmaları bilmədi ki, daha mehriban, gülərüz, canayanan Babəkin nurlu çöhrəsini təkcə şəkillərdən bir də məzar daşından görə biləcəklər. Böyüklə böyük, kiçiklə kiçik kimi davrandığı üçün uşaqdan böyüyə hər kəs onu çox sevirdi. Hərbçi olduğu üçün sərt duruşu olsa da ancaq çöhrəsindən nur yağırdı. Axı şəhidlərin çöhrələri nurlu olur.

Şuşanın işğalı Babəkin sağalmayan ürək dağı idi. Hər il Şuşanın işğal tarixində «Az qalıb, bir gün Şuşa azaddır deyəcəyik.» deyirdi. Dediyi kimi də oldu.

Son dəfə noyabrın 1-də ailəsi ilə danışdığı zaman «Hardasan?» sualına «Arzuladığım yerə gedirəm.» cavabını verib. Doğmaları o cavabla Babəkin Şuşanı nəzərdə tutduğunu biliblər. Şuşa həsrətini bitirən oğul Şuşaya ilk girən kəşfiyyatçılardan biri olub. Şuşa sevgisi ilə döyünən ürəyi noyabrın 4-dən 5-nə keçən gecə Şuşada son dəfə çırpınıb. Ən böyük arzusu Şuşanı azad etmək olan Babək Allahverdiyev Şuşa şəhərinin azadlığına can verib şəhadətə ucalıb.

5 noyabrda Babəkin ailəsinə onun şəhid olduğu xəbəri verilib. Bu xəbərlə Babəkin doğmaları, əzizləri hüznə qərq olublar. Oğlunun ad günündə gələcəyini söz verən Babək bir qədər tez gəlib. Bəxtiyar heç ata tabutu «hədiyyə» almağı arzu etməmişdi. 6 noyabrda Babək II Fəxri xiyabanda torpağa əmanət edilən oğullardan biri olub.





Baş leytenant Allahverdiyev Babək Bəxtiyar oğlu şəhadətindən sonra ölkə başçısı İlham Əliyevin sərəncamı ilə «Vətən uğrunda» medalı, «Cəsur döyüşçü» medalı, «Füzulinin azad olunmasına görə» medalı, «Xocavəndin azad olunmasına görə» medalı və «Şuşanın azad olunmasına görə» medalı ilə təltif edilib.

Şəhadəti ilə ölümsülük qazanan şəhid Babək Allahverdiyevin adı xalq tərəfindən də ölümsüzləşdirilib. Qəhrəman şəhidimizin xatirəsini əbədiləşdirmək üçün Mehdiabad qəsəbəsində 4 N-li məktəbdə sinif otağına, Xırdalan şəhəri Bəxtiyar Cəfərov adına 3 saylı məktəb-liseydə sinif otağına adı verilib. Bundan başqa şəhidin təhsil aldığı 93 N-li məktəbdə xatirə lövhəsi hazırlanıb. Babəkin adı Masazır qəsəbəsində və Mehdiabad qəsəbəsində küçələrdən birinə verilərək əbədiləşdirilib.

## ŞƏHİD BABƏK

Bir zaman qəhrəman adını verib,
Babək adlandırdı adını atan.
Adın daşıdığın qəhrəman kimi,
Sən oldun vətənin dadına çatan.

Bir hünər göstərdin zəfər günündə,
Qələbə əzmindən doğdu azadlıq.
İllərlə yağının yağmaladığı,
Qarabağ torpağı oldu abadlıq.

Hünər qılıncını çıxarıb qından,
Düşmənin boynunu vurdun Babək tək.
Babək, sabahların neçə igidi,
Getdiyin yolları örnək biləcək.

Allaha əmanət etdiklərinə,
Vətəni əmanət etmisən, şəhid.
Vətən torpağını yaşatmaq üçün,
Vətən torpağına dönmüsən, igid.



**GÜLMƏMMƏDOV AMİN MAYİS OĞLU**
**BAŞ LEYTENANT**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## AMİNİN «AMİN» DEDİYİ ARZULAR

Bütün qardaşlar və bacılar üçün qardaş itirmək çətindi. Ancaq bir ana bətnində bir-birinə arxalanan əkiz qardaşlar üçün ayrılıq daha ağırdı. Hələ əbədi ayrılığın acısı isə izah olunmaz dərəcədə ağırdı. Onların cismi ayrı olsa da ruhları bir olur. Eyni anda dünyaya gələn, həyatda bütün addımları bərabər atan, hətta geyimləri də eyni olan qardaşlar üçün birinin həyatdan gedişi digərinin cisminin yarısının məzarda dəfn olunması deməkdi. Aminin zamansız gedişinə hər kəs üzüldü. Amma əkiz qardaşı Ramin hər kəsdən çox üzüntüyə qərq oldu. Amin şəhid olduğu anda Ramin hiss etmişdi. Heç kimin heç bir söz demədiyi halda Ramin ürəyindəki ağrının səbəbsiz olmadığını bilirdi. Axı əkizlərin birinə nə isə olduğu halda digəri onu hiss edir.

1995-ci il iyul ayının 31-də Culfa rayonunun Saltaq kəndində dünyaya göz açmışdı əkizlər. Övladlarından birinə Amin adını qoyan Gülməmmədovlar ailəsi digər övladlarına isə Ramin adını qoymuşdular. Bir-birindən ayrılmayan qardaşlar 2001-ci ildə də birlikdə Saltaq kənd tam orta məktəbində təhsil almağa başlamışdılar. Hər zaman vətənpərvərlik mövzularında keçirilən tədbirlərdə birincilik qazanan Amin və qardaşı Respublika üzrə keçirilən «Cəsurlar» yarışında 3-cü yerə layiq görülmüşdülər. 2010-cu ildə hər iki qardaş Heydər Əliyev adına Hərbi liseyə sənəd versələr də Ramin səhhəti ilə əlaqədar qəbul ola bilməmiş, Amin isə ən böyük arzusuna çatmışdı. Həmin gün iki qardaşın həyat yolları ayrılmışdı. 3 il liseydə təhsil alan Amin 2013-cü ildə Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdu. Həm biliyi, həm də mehribanlığı ilə kollektiv arasında rəğbət qazanan Amin hər kəsin qəlbinə yol tapmışdı. Xidməti dövründə bir çox diploma layiq görülmüşdü. 2017-ci ildə AAHM - i bitirərkən leytenant hərbi rütbəsi almış, Füzuli rayonunda yerləşən N saylı hərbi hissədə xidmətə başlamışdı. 3 il ön xətdə uğurlu xidmət etdiyi üçün 2019-cu ildə baş leytenant hərbi rütbəsi almışdı. Elə həmin il son dəfə evlərinə gəlmiş, sevdiklərini görmüşdü.

2020-ci ilin 27 sentyabrında Qarabağda 30 illik zülmət gecədən sonra dan yeri sökülürdü. Zərrə - zərrə yayılan işıq Qarabağı aydınladırdı. Qəhrəman oğullar vətəni azadlıq nuruna qərq etməkdə qərarlı idilər. Amin də o oğullardan biri kimi mübarizə aparıb. Füzuli istiqamətindən döyüşlərə başlayan qəhrəman düşmənin istehkamın yardıqdan sonra Qarabağa doğru daha əmin addımlarla irəliləyib. Cəbrayıl, Qubadlı, Xocavənd uğrunda döyüşüb. Yaralı olsa da döyüşdən uzaqlaşmayıb, əksinə taqım komandiri təyin edilib. Döyüşlər əsnasında ailəsinə zəng etdiyi zaman hər şeyin yaxşı olduğunu deyib, onları nigaran qoymamağa çalışıb. Əkiz qardaşı çox narahat olduğunu dilə gətirib, onun yanına getmək istədiyini desə də Amin buna razı olmayıb. Son dəfə noyabrın 1-də Şuşanın girişindən qardaşına zəng etdiyi zaman sevincək «Şuşaya çatırıq. Neçə illərdi həsrətində olduğumuz torpaqlardayıq.» deyib. Noyabrın 2-də Daşaltıda gedən döyüşlər zamanı yaralanıb və Xocavənddə şəhid olub.

Oğlunun şəhid xəbərini alan ana oğlunun dediyi « Uca məqama yüksələcəm.» sözlərini xatırlayıb. Amin dediyi kimi ən uca məqama yüksəlib.

Aminin nəşi şəhadətindən uzun zaman sonra dekabrın 28-də Naxçıvana gətirilərək öz el-obasında, Culfa rayon Saltaq kəndində torpağa tapşırılıb.

Baş leytenant Gülməmmədov Amin Mayis oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Cəsur döyüşçü» medalı, «Vətən uğrunda» medalı və «Xocavəndin azad

olunmasına görə» medalı ilə təltif edilib.

Hər zaman səslənən arzulara deyilən «amin» kəlməsini adında daşıyan Amin Qarabağın azad olunması arzusuna «amin» dedi və o arzunu gerçək etdi.

### ŞƏHİD AMİN

Bir el var ki, adı gəlcək xəyalda,
İgidlərin ömür yolu canlanır.
Naxçıvanın yetirdiyi çox mərdin,
Ömürləri vətənimə calanır.

İgidlərin sırasında yer alan,
Bir şəhidin ömür yolun oxudum.
Ruhundakı vətən, bayraq sevgisin,
İlmə-ilmə sətirlərə toxudum.

Vətən üçün əziz canından keçən,
Qəhrəman tək yaddaşda qalıb Amin.
Körpəlikdən vətənin xilasını,
Söz vermişdi, buna etmişdi yemin.

O andından dönmədi heç bir zaman,
Qarabağa nur çilədi bir anda.
Ürəyimdə fəxarətim boy atır,
Bu oğulun şücaətin duyanda.





### MURADLI İLKİN İLYAS OĞLU
### BAŞ LEYTENANT
### (II Qarabağ müharibəsində şəhid olmuşdur.)



### QARABAĞIN QANLI CIĞIRLARI

Azərbaycan Ordusunun Vətən müharibəsi zamanı göstərdiyi qəhrəmanlıqlardan tarix boyu danışılacaq. Hər ərazinin azadlığı uğrunda gedən döyüşlər bir qəhrəmanlıq salnaməsi olan bu müharibədə «Əlbəyaxa döyüş» kimi tarixə düşən Şuşa döyüşləri misilsiz bir mübarizə kimi tarixə həkk olunacaq. Dişi ilə, dırnağı ilə Şuşanı düşmən pəncəsindən çəkib alan o oğulların haqları heç bir zaman ödənə bilməz. Haqqını ödəyə bilməyəcəyimiz qəhrəmanlardan biri olan Muradlı İlkinin döyüşdə göstərdiyi şücaətləri eşidən hər kəs onunla qürur duyur.

Muradlı İlkin İlyas oğlu 27 sentyabr 1995-ci ildə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda dünyaya göz açıb. İlkin doğulan zaman düşünməzdi ki, Qarabağ həsrəti ilə böyüyəcək və 25 il sonra doğulduğu gün Qarabağın azadlıq mübarizəsinə başlayacaq. Ailənin ilki olan övlada valideynlər İlkin adı vermişdilər. İlkin özündən sonrakı qardaşları Heydər və Elşənin yol göstərəni idi. 2002-ci ildə Şahbuz rayon tam orta məktəbinə qədəm qoyduğu zaman Həcər ana çox duyğulanmışdı. Onun arzusu İlkinin vətənə layiq bir övlad olması idi. Oldu, həm də vətənin ən layiqli vətəndaşı oldu. Riyaziyyat fənnində xüsusi bacarığı olan İlkini

valideynləri bu yöndə bir peşə seçməyini istəsələr də İlkin hərbçi olmaq arzusunda idi. Elə bu arzudan yola çıxaraq o ilk addımı 2010-cu ildə ataraq Heydər Əliyev adına Hərbi liseyə qəbul olub. 2013-cü ildə hərbi liseyi bitirərək Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2017-ci ildə məktəbi leytenant hərbi rütbəsi ilə bitirib və Gəncədəki N saylı hərbi hissənin kəşfiyyat bölüyündə taqım komandiri vəzifəsində xidmət edib.

İlkin bir kəşfiyyatçı kimi yüksək bacarığa malik idi. Hər zaman verilən tapşırıqların öhdəsindən yüksək səviyyədə gəlib. 3 il ard-arda Azərbaycan Ordusunun «Ən Yaxşı kəşfiyyat Bölüyü» yarışında birinci yeri qazanıb. Bu münasibətlə N saylı hərbi hissənin komandiri Xəqani Cəbrayılov tərəfindən fəxri fərmanla təltif olunub. «Azərbaycan Ordusunun 100 illiyi» yubiley medalı ilə təltif edilən qəhrəman 29 iyun 2020-ci ildə baş leytenant hərbi rütbəsi alıb. Həmin ilin iyul ayında baş verən Tovuz döyüşlərində iştirak edib. Hətda Polad Həşimovun nəşini döyüş meydanından çıxarıb. Tovuz döyüşlərində baş verənlərdən sonra düşmənə nifrəti daha da çoxalan İlkin Vətən müharibəsi başlayan ilk andan bir kəşfiyyatçı kimi lap öndə olub. Kəşfiyyatçı olduğu üçün ən çətin döyüş tapşırığını yerinə yetirən qəhrəman qanı ilə Qarabağa cığır açıb. Murovdağda gedən döyüşlərdə iştirak edib. Murovdağın azad olunması zamanı 2 dəfə qəlpə yarası alsa da hospitala getməkdən imtina edib. Döyüşə davam edən İlkin Kəlbəcərdə daha sonra Hadrutda düşməni torpaqlardan təmizləyib. Hadrutdan sonra Xankəndinə istiqamət alan Xüsusi Təyinatlı Qüvvələrin kəşfiyyatçısı Şuşa uğrunda gedən döyüşlərdə də qəhrəmancasına vuruşub.

Qəhrəmanların qanları ilə yazdıqları Şuşa döyüşləri heç zaman tarixdən silinməyəcək. Sıldırım qayalarda, kol-koslu meşələrdə irəliləyən qəhrəman oğullar Şuşada tarix yazıblar. «Allahu-Əkbər» deyib düşmən üzərinə şığıyan əsgərlərimiz düşmən ordusunu darmadağın ediblər. Soyuq silahla əlbəyaxa gedən döyüşlərdə İlkin 30-dan çox düşmən əsgərini məhv edib. Şuşa qələbəsini bizlərə yaşadan qəhrəman şanlı qələbəyə saatlar qalmış noyabrın 9-da düşmənin atdığı minamyotun partlaması nəticəsində qəlpə yarası alaraq şəhadətə ucalıb.

İndi hər kəs İlkindən öz qəhrəmanı kimi danışır. İlkin nəinki ona əziyyət çəkən valideynlərinin, bütün xalqın ümidini doğruldub. Atası İlyas Muradlı oğlu haqqında bu sözləri dedi:

- Naxçıvanın bir çox oğulları kimi İlkin də çox vətənpərvər idi. Uşaqlıqdan ən böyük arzusu zabit olmaq və Xüsusi Təyinatlı Qüvvələrdə xidmət etmək idi. O kursları keçməyi hər kəs bacara bilməz. Ən azı 500 namizəddən sadəcə 30-u seçilir. Mən oğluma inanırdım. O, bacardı. Üzümü şəhid atalarına tutub deyirəm ki,onlar başlarını dik tutsunlar. Nə qədər canımız yansa da torpaqlarımız azad olundu. İlkinlə sağlığında olduğu kimi şəhid olduğundan sonra da qürur duyuram.

Şəhidimizin Anası Həcər xanım oğlu haqqında bu sözləri dedi:

- Oğlum çox qoçaq idi. Bir dəfə İlkindən müharibənin nə zaman bitəcəyini soruşdum.O, da cavabında «Ana, çox şükür ala-ala gəlirik. Səbirli olun, bütün torpaqlarımızı qaytaracağıq.» dedi. Ordumuzun qələbə qazanacağına əmin idi. Şəhid balam xalqımıza bu zəfəri yaşatsa da özü Zəfərə şəhid ola bilmədi.

Ailənin digər hərbçi övladı Leytenant Heydər Muradlı isə qardaşı haqqında bunları dedi:

- Mənim hərbiyə gəlməyim elə İlkinin sayəsində olub.O, qorxmaz, cəsur igid bir zabit idi. Mən həmişə İlkindən ruh yüksəkliyi alırdım. Mənə deyirdi «Qorxma, qismətinə nə vaxt yazılıbsa onda şəhid olacaqsan.» Bayrağı, vətəni canından çox sevirdi. Günlərlə İlkindən xəbər ala bilməyəndə onu itkinlər, yaralılar arasında axtardım. Sonradan qardaşımın şəhid olduğunu öyrəndim.

Oktaybrın 26-da qardaşı Elşənlə danışan zaman şəhid olan komandiri mayor Əsgərov Rüfətin qisasın alacağını deyib. «Bilirəm bu yolda 99% şəhid olacam. Evdəkilər sənə əmanətdir. Sənə ad günü hədiyyəm azad Qarabağ olacaq.» Bu sözlər İlkinin son sözləri olub. O gündən sonra onunla əlaqə saxlamaq mümkün olmayıb.

Bayrağımızı enməyə qoymayan qəhrəman Bayraq günü şəhadət zirvəsinə ucalıb. Onun nəşi noyabrın 26-da Şahbuz rayonunda torpağa tapşırılıb.

Baş leytenant Muradlı İlkin İlyas oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, «Döyüşdə fərqlənməyə görə» medalı, «Kəlbəcərin azad olunmasına görə» medalı, "Xocavəndin azad olunmasına görə" medalı və «Şuşanın azad olunmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD İLKİN

Sən vətən yolunun qeyrət yolçusu,
Sən ümid yoluna nur çiləyənsən.
Qanlı cığırlardan keçib vətəni,
Düşmən pəncəsindən xilas edənsən.

Vətən torpağının hər qarışına,
Adınla bir tarix həkk eləmisən.
Hələ körpəlikdən sən Qarabağı,
Azad eləməyi hey diləmisən.

O arzu çin oldu qarış və qarış,
Tapdaqdan qurtuldu vətən torpağı.
İlkin, göstərdiyin şücaətlərlə,
Şuşaya sancıldı vətən bayrağı.

Şuşada bərq vuran şanlı bayrağım,
Ruhuna, gözünə bir sığal çəkdi.
Azadlıq uğrunda neçə qəhrəman,
Son damla qanını torpağa tökdü.





**İSMAYILOV ABBASƏLİ**
**İMAMQULU OĞLU**
**BAŞ LEYTENANT**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**



## 7 İL ÖNCƏ HİSS EDİLƏN ŞƏHADƏT

-Ölüm ölümdür ancaq şəhid olmaq ən şərəfli ölümdür. Vətən üçün öldürməyə də, ölməyə də hazıram. Mən şagird deyiləm ki, hər kəsi sevim. Mən kursantam ki, vətən üçün öldürüb, vətən üçün ölüm. Vətən sağ olsun. Hər şey vətən üçün. Vətən, sənə canım fəda. Birinci vətən sevgisi gəlir.

Bu sözlər bir şəhidin 7 il öncə qeyd etdiyi sözlərdi.Onun yazdıqları tək bununla kifayətlənmir. Abbasəli hələ kursant vaxtlarında bir gün evə gəldiyi zaman əlində qara rəngli bağlı bir dəftər gətirib. Qətiyyətlə heç kimin o dəftəri açmamağını tapşırıb. Zamanı gəldiyində dəftərin açılacağını deyib. O zamansa 2020 - ci ildə Abbasəli şəhid olandan sonra çatıb. Dəftəri şəhidin bacısı açıb. «1995 son - 2020 başlanğıc.» Başqa bir qeydində isə Milli Qəhrəman Mübariz İbrahimovun şəkli üzərində «Ardınca mən gələcəm.» yazan Abbasəli artıq getdiyi yolu illər öncə çizibmiş.

İsmayılov Abbasəli İmamqulu oğlu 20 sentyabr 1995-ci ildə Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Qahab kəndində anadan olub. Ailədə 3 uşaq olublar. Abbasəli 2002-ci ildə Qahab kənd tam orta məktəbində təhsil almağa başlayıb. Ən böyük arzusu hərbçi olmaq olan oğulun anası Tamara xanım əvvəlcə oğlunun arzusuna qarşı çıxsa da son-

ra «Getdiyin bu yolu şərəfinlə sona qədər davam et!» deyib. Şərəfli yolun yolçusu Abbasəli 2010-cu ildə Heydər Əliyev adına Hərbi liseyə daxil olub. 2013-cü ildə liseyi bitirdikdən sonra Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub. 2017-ci ildə məktəbi bitirdiyi zaman leytenant hərbi rütbəsi alıb. İlk olaraq Ağcabədi rayonu ərazisində yerləşən N saylı hərbi hissədə xidmətə başlayıb. Həmin vaxt bir çox kurslardan da uğurla keçib. Daha sonra xidmətini Beyləqanda davam etdirib. 2020 - ci il Silahlı Qüvvələrin yaranma günü baş leytenant hərbi rütbəsinə layiq görülüb.

Hərbçi olmaq ailənə, sevdiklərinə həsrət bir ömür yaşamaq deməkdi. Bəlkə də elə bu həsrət Tamara ananın gözlərini qorxudurdu. Son dəfə 2019-cu ildə evinin qonağı olan Abbasəli məzuniyyəti bitməmiş işinin başına dönmüşdü. O, işinə bağlı olduğu üçün səngərdən uzaqda yaşaya bilmirdi.

Vətən sevgisi hər addımından bəlli olan Abbasəli heç kimi yanıltmadı. Həmin gün çatanda tək düşüncəsi Qarabağa qədəm qoymaq olan qəhrəman gedəcəyi yolun necə bir yol olduğunu bilirdi. Döyüşə gedərkən atasına zəng edib anasını, bacısını tapşırıb. Son sözlərini, arzu və istəklərini isə qardaşına deyib. Son dəfə 18 oktyabrda zəng edəndə ərazilərin azad olunduğunun sevincini ailəsi ilə bölüşüb. O danışıq zamanı yanında baş verən partlayış nəticəsində kontuziya aldığını və qulaqlarının yaxşı eşitmədiyini deyib. Füzuli, Cəbrayıl, Zəngilan, Hadrut, Suqovuşan uğrunda gedən döyüşlərdə mübarizə aparan qəhrəmana şəhid olacağı yer də agah olub. Döyüş yoldaşlarına «Mən Qubadlıda şəhid olacam.» deyən qəhrəmanın dediyi kimi də olub. Oktyabrın 22-də Qubadlı uğrunda gedən döyüşlərdə yanında baş verən partlayış nəticəsində şəhadətə ucalıb.

Oktaybrın 24-də ailə digər övladlarının sevdiyinə qovuşduğu günü qeyd etməyi planlaşdırır. Oktyabrın 23-də hazırlıqlar gedən zaman bir neçə qohumun və hərbi komissarlıqdan bir neçə insanın eyni anda gəlməsi xeyrə əlamət olmayan hadisələr olduğunun xəbərçisi idi. Bir oğlunun şad gününə hazırlaşan ananın digər oğlunun şəhid xəbərini aldığı an fəryadı ərşə qalxır. Həmin an şəhid bacısı qardaşına verdiyi "Qardaşım, nə zaman evlənəcəksən" sualının cavabın xatırlayır. «2020-ci ildə toyum olacaq.» Məgərsə bu toy bacının düşündüyü toy deyilmiş. Bacısının toyunda iştirak edə bilməyən Abbasəli qardaşının toyuna bayrağa bükülü tabutda





gəlir. Qardaş toyuna qardaş vayı qarışır. 24 oktyabr Abbasəlinin dəfn günü kimi yaddaşlara həkk olunur. Müqəddəs məzarı Qahab kənd məzarlığında yerləşən Abbasəli kəndin, Naxçıvanın və ümumi Azərbaycanın qüruruna çevrilir.

Döyüşlər zamanı silah yoldaşı ilə bir-birinə vəsiyyət edən zaman «Mən şəhid olsam məzarım üstə Azərbaycan və Türkiyə bayraqları qoşa dalğalansın.» deyib. Sonra Abbasəli şəhid olub, döyüş yoldaşı isə yaralanıb. Yaralı döyüş yoldaşı Abbasəlinin son vəsiyyətini ailəsinə çatdırıb. İndi şəhidin müqəddəs məzarı üzərində iki şanlı bayraq qoşa dalğalanır.

Baş leytenant İsmayılov Abbasəli İmamqulu oğlu Ali Baş komandan İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Azərbaycan bayrağı» ordeni, «Vətən uğrunda» medalı «Cəbrayılın azad olunmasına görə» medalı və «Füzulinin azad olunmasına görə» medalı ilə təltif edilib.

Abbasəli illər öncə qeyd etdiyi kimi bu həyatın sonundan başlayan əbədiyaşarlığa addım atıb. Yazdığı hər sətri gerçəyə dönən, illər öncədən yazdığı ildə və dilinə gətirdiyi yerdə şəhid olan Abbasəli şəhidlərin özlərinin bir möcüzə olduqları haqqındakı düşüncələrimi daha da dərinləşdirdi.

## ŞƏHİD ABBASƏLİ

Şəhid seçilmiş bir bəndə,
Şəhid müqəddəs biridi.
Cismi bizdən uzaqlaşan,
Şəhidlər hər vaxt diridi.

Şəhidlərin ömür yolu,
Duyanın sinəsin dağlar.
Abbasəli yazan sözü,
Oxuyan hər insan ağlar.

O öncədən hiss etmişdi,
Necə şəhid olacağın.
Qubadlının sinəsində,
Əbədiyyən solacağın.

Dediyi il çatan zaman,
Çatdı şəhid zirvəsinə.
Qarabağda düşmənlərə,
Qəhrəman tək gəldi sinə.

Bu oğulun qeyrətinə,
Heyran oldu bütün millət.
Ürəyində bəsləyirdi,
Şəhidim düşmənə nifrət.





## TELMANLI ALLAHYAR ELMAN OĞLU
## BAŞ LEYTENANT
## (II Qarabağ müharibəsində şəhid olmuşdur.)



## CƏBRAYILA BAYRAQ SANCAN QƏHRƏMAN

30 il idi ki, Qarabağda Azərbaycan bayrağı dalğalanmırdı. Bir zamanlar Qarabağın hüsnünə yaraşan şanlı bayrağımız illər öncə mənfur düşmənin əlləri ilə Qarabağın hər yerindən sökülmüşdü. Hər dəfə Azərbaycan bayrağının yerində düşmən bayrağının dalğalandığını gördükcə qisasımız böyüdü. Ümidimiz heç vaxt tükənmədi. Hər zaman Qarabağ arzularımızda yer aldı. Bir gün o arzulardan ümid doğacağını bilirdik. O gün çatdığı zaman mənəvi dəyərlərinə hörməti olmayan düşmən öz bayrağına sahib çıxmadı. Düşmən öz bayrağını döyüş meydanında atıb qaçarkən Azərbaycan Ordusu azad etdiyi torpaqlarda qəhrəman oğullar şanlı Azərbaycan bayrağını ucaltdılar. İllərdi göz yaşları Arazın gur axan sularına qarışan Cəbrayıla ilk olaraq Azərbaycan bayrağını sancaraq bir tarix yazan qəhrəman Telmanlı Allahyar Elman oğlu oldu. Hər kəsin «Cəbrayıla bayraq sancan qəhrəman» kimi tanıdığı Allahyarın ömür yoluna nəzər salaq.

Telmanlı Allahyar Elman oğlu 20 iyul (sənədlərdə 1 sentyabr yazılıb) 1992-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Yengicə kəndində anadan olub. İki qardaşın böyüyü olan Allahyar elə uşaqlıqdan həyatın çətinliyinə tuş gəlib. Nuriyyə xanımın onları necə zəhmətlə bö-

yütdüyünü görən Allahyar hər zaman anasına kömək olub. 1998-ci ildə Naxçıvan şəhər 7 N - li tam orta məktəbdə təhsil almağa başlayıb. Körpəlikdən idmana böyük həvəsi olan Allahyar 5 yaşından idmanın güləş növü ilə məşğul olub. Sonra isə qaydasız döyüşə gedib. VIII sinfi bitirdikdən sonra Heydər Əliyev adına Hərbi liseyə qəbul olub. Liseyi bitirdikdən sonra Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub. 2014-cü ildə hərbi məktəbi uğurla bitirib. Leytenant hərbi rütbəsi ilə Naftalanda yerləşən N saylı hərbi hissədə kəşfiyyat bölüyünün müşahidə postunun komandiri olub. Həmin ərazidə yerləşən müxtəlif hərbi hissələrdə 5 il xidmət etdikdən sonra Beyləqana göndərilib.

Allahyarın adı gəldikdə ilk olaraq onun Aprel döyüşlərində göstərdiyi şücaətlər göz önündə canlanır. Allahyar həmin döyüşlərin canlı qəhrəmanlarından biri idi. Döyüşlər zamanı göstərdiyi şücaətləri hər kəsə bəlli olan qəhrəman hələ o zaman düşmənlə əlbəyaxa döyüşdə düşmənə qan uddurub. Lələtəpə yüksəkliyinin azad olunması zamanı böyük qəhrəmanlıq göstərən Allahyar mayor Məmmədov Rasim Əbdül oğlunun vurulduğunu gördüyü zaman onu döyüş bölgəsindən çıxarmaq istəyərkən özü snayper atəşinə tuş gəlib və başından yaralanıb. Yaralanmağına baxmayaraq döyüşü davam etdirib, Rasim Məmmədovu və digər şəhidləri həmin ərazidən çıxarmağı bacarıb. Atəşkəs elan olunduqdan sonra xəstəxanaya aparılarkən anasına zəng edib. Ancaq yaralı olduğunu deməyib. Anaya Allahyarın vəziyyəti yuxuda agah olub. Sonra Allahyarın yaralı olduğunu bilən ana oğlunu görmək üçün Gəncəyə yollanıb. Oğlunun ilk sözü «Ana, mən niyə o müqəddəs məqama ucalmadım?» olub. Döyüşdən salamat çıxan bir qəhrəman şəhid olmadığı üçün təssüfləndiyini dilə gətirib. Bu ancaq vətən naminə yaşayan bir oğulun arzusu ola bilərdi. Həmin döyüşlərdə göstərdiyi şücaətlərə görə Allahyar «Döyüşdə fərqlənməyə görə» III dərəcəli medal ilə təltif edilib. Bundan əlavə o, «Azərbaycan Ordusunun 100 illiyi» yubiley medalı ilə də təltif edilib. 2016-cı ildə baş leytenant hərbi rütbəsinə yüksəlib.

Tovuz döyüşlərindən sonra Allahyardan gələn zənglər səngiməyə başlamışdı. İl yarım idi üzünü görmədiyi oğlunun səsini də gec-gec duyan Nuriyyə ananın həsrəti günbəgün böyüyürdü. Ana oğlunu evləndirmək





istəsə də Allahyar qanlı yolda olduğunu deyib evlənməkdən boyun qaçırıb.

Allahyarın tək bir amalı var idi. Vətən torpaqlarını azad etmək. O amal uğrunda hər an can qurban etməyə hazır olan Allahyar Vətən müharibəsi başlanan ilk gündən ön cəbhədə mübarizəyə başlayıb. Füzuli uğrunda gedən döyüşlərdə mübarizə aparıb. Ən ağır döyüşlərin getdiyi Hadrut döyüşlərində son nəfəsinə qədər döyüşüb. Həmin vaxt mühasirəyə düşən dəstə Allahyarın sayəsində xilas olub. Oktyabrın 8-də Hadrutda gedən şiddətli döyüşlərin iştirakçısı olan Allahyar öz dəstəsi ilə ertəsi gün dan yeri söküləndə başqa bir əməliyyata başlayıb. Bu əməliyyata gedərkən onlar biliblər ki, geri dönüş olmayacaq. Ancaq bu yolda irəliləməyi gözə alıblar. Döyüşlər zamanı ayağından yara almasına baxmayaraq geri çəkilməyib. Növbəti dəfə Allahyar düşmənin snayper atəşinə tuş gəlib. Yaralı halda 2 saat dəstəsinə göstəriş verib. Qan itkisindən taqətdən düşən Allahyar 4 saat sonra gülə-gülə şəhadətə ucalıb.

Oktyabrın 9-da şəhid xəbəri Naxçıvana çatıb. Hər kəsin ürəyini «Cəbrayıla bayraq sancan oğul şəhid olub.» sözləri dağlayıb. Heç kəsin Nuriyyə anaya «Oğlun şəhid olub.» xəbərini deməyə cəsarəti çatmayıb. Gələn zənglər ananı şübhəyə salıb. Bir anda sanki otaqda «Allahyar şəhid olub.» sözlərini duyan ana küçəyə qaçıb. O an gördüyü mənzərə ilə ananın dünyası başına yıxılıb. Elmarın ürəyinə qardaşının yoxluğu xəbəri elə dağ çəkib ki, Elmar həmin an ürəyi partlayacaqmış kimi hiss edib.Bir oğlu şəhid olan ana ikinci oğlunu itirmək qorxusu ilə üz-üzə qalıb. Bir anda neçə həyat məhv olub. Oktyabrın 12-də Allahyarın nəşi Naxçıvana gətirilib. Elə həmin gün Babək rayon Şəkərabad kənd məzarlığında torpağa tapşırılıb.

Baş leytenant Telmanlı Allahyar Elman oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra 3-cü dərəcəli «Rəşadət» ordeni, «Vətən uğrunda», «Cəbrayılın azad olunmasına görə», «Füzulinin azad olunmasına görə» və «İgidliyə görə» medalları ilə təltif edilib.

## ŞƏHİD ALLAHYAR

Nə gözəl yaraşır hüsnünə bayraq,
İllərlə düşmənə yurd olan torpaq,
Xalqım 30 ildi keçdi bir sınaq,
İgidlər bitirdi yurd savaşını
Daha önə əymir xalqım başını.

Azadlıq yoluna sel tək axdı qan,
Azadlıq yolunda mərdlər verdi can,
Allahyar son dəfə dedi ucadan,
«Vətənçün doğuldum, vətənçün öləm,
Düşmənin qəlbinə sancılsın gülləm.»

Sancdı Cəbrayıla vətən bayrağın,
Süzdü bir eşq ilə vətən torpağın.
Aldı Azərbaycan şəhid sorağın,
Hər kəsin sevgisin qazanan oğul
Vətəndən cənnətə getdi sonsuz yol.





**VƏLİYEV İSMAYIL MEHMAN OĞLU**
**BAŞ LEYTENANT**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**



## CİSMİ ÜRƏYİ KİMİ YANAN OĞUL

Ürək atəşə qərq olduqdan sonra cismin alova qərq olması o qədər də ağrılı olmaz. Bu vətənin Nəsimiləri soyulduqda «uf» demədiyi kimi İsmayılları da vətən yolunda alova qərq olarkən «uf» deməz. İllərdi ürəyi vətən həsrətindən yanan birinin məlhəmi ancaq azadlıq olar. Necə gözəl səslənir «Azadlıq». İllərdi sadəcə arzuları bəzədi bu söz. İllər sonra isə İsmayıl kimi oğulların sayəsində könülləri bəzədi. Bir xalqın qazana və yaşaya biləcəyi ən böyük azadlıq sevincini onlar bizə yaşatdılar.

İsmayıl bir qəhrəman hərbçi adı daşıyırdı. Ömrünün 15 ilini hərbçi kimi xidmət edən İsmayıl Vəliyevin adının əmanət ediləcəyi körpə Vəliyevlər ailəsinin ilk nəvə payı olan İsmayıldan başqası ola bilməzdi. İsmayıl 1996-cı il 24 martda Naxçıvan şəhərində dünyaya göz açdığı zamanlardan hərbçilərin əhatəsində böyümüşdü. İsmayılın atası Vəliyev Mehman İsmayıl oğlu I Qarabağ müharibəsinin qəhrəmanlarından olmuşdu. Vəliyev Mehman 1992-ci ildən 1998-ci ilə qədər Naxçıvan Qarnizonunun tərkibində xidmət etmiş, Sədərək döyüşlərinin fəal iştirakçılarından biri olmuşdu. Əmisi Vəliyev Zaur isə 2000-ci ildən 2002-ci ilə qədər Murovda batareyanın baş zabiti kimi xidmət etmişdi. Vətən keşiyi çəkən

bu qəhrəmanların əhatəsində böyüyən İsmayılın böyüklərinin yolunu davam etdirəcəyi kiçik yaşlarından bəlli idi.

İsmayıl Vəliyev 2002-ci ildə Naxçıvan şəhər Afiyəddin Cəlilov adına 12 N-li tam orta məktəbdə I sinfə qədəm qoymuş, lakin III sinfə qədər həmin məktəbdə təhsil almaq qismət olmuşdu. Hələ uşaq yaşlarında amansız xəstəlikdən 31 yaşlı anası İlhamə xanımı itirən İsmayıl daha sonra atası və qardaşı ilə birlikdə baba evinə köçmüşdü. Nənəsi ona ana nəvazişi göstərmiş, əmisi isə onun ən yaxın dostuna çevrilmişdi. Daha sonra Naxçıvan şəhər 15 N-li məktəbdə təhsilini davam etdirmiş, 2010-cu ildə Heydər Əliyev adına Hərbi liseyə qəbul olmuşdu. 2013-cü ildə liseyi bitirdikdən sonra Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdu. Bir tank komandirinin bilməli olduğu hər bir incəliyi dərindən öyrənən hərbçi 2017-ci ildə leytenant hərbi rütbəsi ilə Qaradağ rayonunda yerləşən N saylı hərbi hissədə tank komandiri kimi xidmətə başlamışdı. 2020-ci ilin iyul ayında baş verən Tovuz hadisələri ərəfəsində Mingəçevirdə yerləşən N saylı hərbi hissəyə təyin olunan İsmayıl Tovuz döyüşlərində iştirak etmişdi. Həmin döyüşlərdə göstərdiyi şücaətlərə görə vaxtından əvvəl baş leytenant hərbi rütbəsi almışdı. Sonra təkrar Mingəçevirdəki N saylı hərbi hissədə xidmətini davam etdirmişdi.

«Baba, sənin adını daşıyıram, sənin kimi qəhrəman olacam.» deyən İsmayıl əslində elə bir qəhrəmanlıq göstərdi ki, nəinki babasının, qohumlarının hətta bütün Azərbaycanın qürur duyduğu bir qəhrəmana çevrildi. İsmayıl zəfərin qanla yazıldığı Vətən müharibəsi başlanan ilk gündən öz tankı ilə düşmən qüvvələrini məhv etmiş, Qarabağa doğru yol açmışdı. Müharibədə olduğunu əvvəlcə ailəsindən gizlətsə də sonradan ailəsi bu barədə xəbər tutmuşdu. Arabir əmisinə zəng etdiyi zaman səsindəki sevincdən zəfərin min ahəngi duyulmuşdu. Ancaq bir neçə gün ondan xəbər ala bilməyən yaxınlarının nigarançılığı daha da artmışdı. Sonradan məlum olmuşdu ki, İsmayılın tankı düşmən hədəfinə tuş gəlib və İsmayıl yaralanıb. Ancaq hospitala getməkdən imtina edərək döyüşlərə davam edib. Əmisi ilə danışan zaman "Ya torpaqları qaytaracam, ya qazi olacam, ya da şəhid olacam." deyib. Onun xəyalında çizdiyi yolu bəlli idi. O yol Füzulidən başlayıb Cəbrayıl, Zəngilan, Qubadlıdan keçib. Döyüşlərdəki şücaətini görən komandanlıq onu Əlahiddə tank komanda bölüyünün komandiri təyin edib. Noyabrın 4-də əmisinə zəng etdiyi zaman «Əmi, mənə dua edin.» deyib.





İsmayıl Azərbaycan bayrağını yanından əksik etmirdi. Hər döyüşün son döyüş ola biləcəyini bildiyi üçün müqəddəs bayrağı hər zaman köksünə sıxırdı. Azad olunan torpaqlarda dalğalanan bayrağımızı gördükcə ruhu rahatlıq tapırdı. Artıq azadlıq sədası Laçının kəndlərindən gəlirdi. Noyabrın 5 - də Laçının Güləbird kəndində İsmayılın idarə etdiyi tank yanmış halda tapılmışdı. Tankın idarə heyəti tankla bərabər alova qərq olmuşdu. İsmayıl canı bahasına qoruduğu vətən bayrağını yanmış əlləri ilə ovcunda sıxıb saxlamışdı. Bəlkə də İsmayıl həmin bayrağı məzarı üstə xəyal edirdi. Ancaq İsmayıl ovcunda sıxıb alovdan xilas etdiyi bayrağın bir parçasını özü ilə bərabər sonsuzluğa apardı.

Noyabrın 17-də Naxçıvana gətirilən şəhidlərdən biri də İsmayıl olmuşdu. Şəhidlərin nəşlərini Naxçıvan Muxtar Respublikasının rəsmi nümayəndələri, hərbçilər və camaat qarşılamış, şəhidlər izdihamla son dəfə evlərinə, daha sonra isə son mənzilə yola salınmışdı. Vətən mücahidinin cansız cismi noyabrın 17-də Naxçıvan şəhər məzarlığında torpağa tapşırılmışdı.

Baş leytenant Vəliyev İsmayıl Mehman oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Döyüşdə fərqlənməyə görə» medalı «Vətən uğrunda» medalı, «Suqovuşanın azad olunmasına görə» medalı, və «Laçının azad olunmasına görə» medalı ilə təltif edilib.

Körpəlikdən ürəyi həm ana, həm də vətən həsrəti ilə yanan İsmayıl vətən torpağını həm də ana kimi bağrına basırdı. Axı anasının cismi vətən torpağına qarışmışdı. İndi isə bütün Azərbaycan xalqı vətən torpağını İsmayıl kimi bağrına basır. Axı İsmayılın cismi vətən torpağına qarışıb...

## ŞƏHİD İSMAYIL

Sən vətən bayrağın köksünə sıxıb,
Azadlıq yoluna qədəm atmışdın.
İllərlə xəyaldan asılı qalan,
Ən böyük arzuna o gün çatmışdın.

Qəhrəman babanın igid nəvəsi,
Mərd vətən oğlunun oğul payıydın.
Ömrünü vətənə həsr edənlərin,
Sən də bir bənzəri, sən də tayıydın.

Ruhun vətən adlı bir həsrət ilə,
İllərlə alışdı, yandı durmadan.
Qəlbin bir rahatlıq tapa bilmədi,
Qarabağ düşməndən azad olmadan.

Azadlıq yoluna ilk qədəm qoyub,
Sən sevinc yaşadın, sevinc yaşatdın.
İllərdi toz tutan arzularına,
İsmayıl, həmin gün igid tək çatdın.

Cismin alovlara qərq olan zaman,
Müqəddəs bayrağı ovcunda sıxdın.
Xilas elədiyin bayraqla birgə,
Dönüşü olmayan bir yola çıxdın.







## İBRAHİMLİ ADİL ASƏM OĞLU
## BAŞ LEYTENANT
## (II Qarabağ müharibəsində şəhid olmuşdur.)

## 43 GÜNLÜK ZƏFƏR YOLU

...7 gün öncə qardaşı Eltonun nəşini Naxçıvana aparan Nargül xanım Bakıya belə dönməyi heç xəyalından da keçirmirdi. Qardaşının nəşin gətirdiyi təyyarə ilə yoldaşı Adilin nəşini qarşılamaq üçün Bakıya qayıdan Nargül xanım yaralı ürəyindən təkrar yaralansa da yenə məğrur duruşunu pozmadı. Əksinə şəhid bacısı şəhid xanımı əsalətini də yansıtmağı bacardı. Adilin şəhid olduğu xəbərini alıb Bakıya gələn Nargül xanım daha sonra onun yaralandığını və Şuşa uğrunda döyüşlərdə iştirak etdiyi xəbərini aldı. Bir anda ümidlər qönçələndi. Daha sonra Adili «gördüm» deyən olmadı. 19 noyabra kimi.

Şəhadətə yüksəlişi ilə bir xalqın yüksəlişinə səbəb olan uca məqam sahibi İbrahimli Adil Asəm oğlu. Qoca vətənin uca şəhid balası...

Əslən Naxçıvan Muxtar Respublikasından olan Adil 1992-ci il sentyabrın 9-da Sumqayıt şəhərində İbrahimovlar ailəsində dünyaya göz açmışdı. Üç övlad böyümüşdü bu ocaqda - Anar, Aygül və Adil. Ailənin son beşiyi olan Adil 1999-cu ildə Sumqayıt şəhər 14 N - li tam orta məktəbdə təhsil almağa başlamışdı. 2008-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi liseyə qəbul olmuşdu. Liseyi bitirdikdən sonra 2011-ci ildə Azərbaycan

Ali Hərbi Məktəbinə qəbul olmuşdu. 2015-ci ildə hərbi məktəbi leytenant hərbi rütbəsi ilə bitirdikdən sonra Təlim və Tədris Mərkəzində (TTM) 6 aylıq kurs keçmişdi. Kursu uğurla başa vurduqdan sonra təyinatla Ağcabədi rayonunda yerləşən N saylı hərbi hissədə xidmətə başlamış və 6 ay həmin hərbi hissədə xidmət etmişdi. Sonra isə xidmətini Haramı düzündə davam etdirmiş və 3 ay da həmin hərbi hissədə xidmət etmişdi. 2016-cı ilin iyun ayında Xüsusi Təyinatlı Qüvvələrin kursunu da uğurla başa vuraraq baş kəşfiyyatçı qrup komandirinin müavini vəzifəsində işə başlamışdı. Bununla da kifayətlənməyən Adil Türkiyənin Sparta vilayətində 6 ay dağçılıq, paraşutçuluq, xizəkçilik, üzgüçülük kursunu uğurla keçmiş və Sertifikatla təltif edilmişdi. Eləcə də «Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi» yubiley medalı və «Azərbaycan Ordusunun 100 illiyi» yubiley medalına layiq görülmüşdü. 2018 - ci ildə baş leytenant hərbi rütbəsi almışdı.

43 gün...

Adil hər ötən anı min ilə bərabər olan, hər saniyəsi qanla tarixin yaddaşına yazılan 44 günlük müharibənin 43 günü Vətən müharibəsində mübarizə aparıb. Bu 43 gün ərzində dəfələrlə yaralanıb. Azadlıq yollarına qanı çilənib qəhrəmanın. Murovdağdan, Hadrutdan, Cəbrayıldan və neçə - neçə həsrətli torpaqlardan keçib o azadlıq yolu. Son nəfəsinə qədər mübarizə aparmaqda qərarlı olan Adil dəfələrlə yaralansa da mübarizədən geri çəkilməyib. Maşınlarının vurulması nəticəsində yanıq xəsarətləri alıb. Ancaq hərbi hospitala getməkdən imtina edib. Daha sonra təkrar travma almasına baxmayaraq yenə də yolundan dönməyib. Zəfər yolunun sonu Şuşada olub. Ayağından iki qəlpə yarası alan Adil Şuşanın zəfər sevinci ilə ağrı- acısını unudub. Yaralı halda günlərlə mübarizə aparan Adil döyüşün son günü 3 güllə yarası alaraq qəhrəmancasına şəhid olub. Əslində ermənilərin niyyəti Adili sağ ələ keçirmək olub. Bunu erməni generalları özləri etiraf ediblər. Şuşanın bir kəndində Adili sağ ələ keçirmək istəsələr də Adil düşmənlə mübarizədən qalib çıxıb. Daha sonra meşədə pusquya salınıb. Yaralı olmağına baxmayaraq orada da düşmənin xeyli qüvvəsini məhv edib. Düşmən onun sağ ələ keçirilməyinin mümkünsüz olduğunu görüb və atəş açıb.

Ömrünün son 8 saniyəsində yaşıl gözlərinin önünə kim bilir kimlər gəldi...





Bir telefon zəngi ilə ürəklər yenidən yaralandı. Nargül Adilin cismində olan nişanələri saydıqca daxilindən parçalandı. Bir ömrə bərabər keçən 30 dəqiqənin sonunda «Dediyiniz bütün nişanələr olan şəhidimiz var.» sözlərini eşidən Nargül bu dəfə Hadruta yol aldı. Orada düzülən şəhidlərin arasından yarını görüb yarına sarıldı. ( O anı təsəvvür edərkən sanki nəfəsim dayanacaq.) Uzanan yollar, məhv olan ümidlər. Nargül bir neçə gün öncə yaşadığı acını təkrar yaşadı. 25 yaşlı bir qadın bir neçə gün ərzində iki əzizinin bayraqlı tabutda çıxdığı son yolda onlara yol yoldaşı oldu. O tabutda Nargülün 11 illik sevgisi, uşqlıq dostu, sirdaşı, ruhu var idi. 3 il 2 ay xoşbəxtliyin hər rəngini yaşayan Nargül dünya ağırlıqda olan yar cənazəsini çiyinlərinə alıb asta-asta addımladı. Atılan hər addım bir ümid fidanını əzdi. Adillə yaşanılacaq xoş günlər o fidanlar kimi məhv oldu. 20 noyabrda II Fəxri Xiyabanda daşlaşmış qəhrəmanlar sırasında Adil də öz yerini aldı.

«Kaş ki, Əbəlfəzimi, Aidəmi doyunca bağrıma basıb qoxlaya bilsəydim.» deyən Adilin əzizləri «Kaş ki, məzarından qoxunu ala bilsəydik.» deyir. 1 yaşı tamam olmayan Aidə hələ bir neçə illər atanın şəkil və məzar olduğunu düşünəcək. 3 yaşı tamam olmayan Əbəlfəz isə hər hərbi formada gördüyü hərbiçini atası zənn edib üstünə qaçacaq. Bu görüntülər isə çox ürəklərə dağ çəkəcək.

Baş leytenant İbrahimli Adil Asəm oğlu Qarabağ torpaqlarına damlayan qanı ilə Vətən qəhrəmanı kimi öz adını yazıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə də layiq olduğu «Vətən müharibəsi qəhrəmanı» medalı, «Vətən uğrunda» medalı, «Şuşanın azad olunmasına görə» medalı, «Kəlbəcərin azad olunmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD ADİL

Bu qoca vətənim nələr görmədi?
Ötən dünənlərin qanlı izi var...
Günahsız tökülən nahaq qanların,
Bir - bir qisasını aldı oğullar.

Elə şücaətlər göstərildi ki,
Min il təkrar-təkrar yazılar hələ.
İgid oğulların adı gələndə,
Adilin adı da hey gəlir dilə.

Son nəfəsə qədər vuruşub bu mərd,
Düşmən ordusunu pərən eləyib.
Qaniçən düşmənin məğlub ordusu,
Onu öz toruna salmaq istəyib.

Düşmən arzusunu gözündə qoyan,
Adil sinə gəlib yağı düşmənə.
Döyüşün sonuncu anı çatanda,
Canını bəxş edib ulu vətənə.





**MƏMMƏDOV ŞƏHRİYAR BAYRAMQULU OĞLU LEYTENANT (2013-cü ildə şəhid olmuşdur.)**



## VARLIĞINI YUXULARDA HİSS ETDİRƏN ŞƏHRİYAR

"Vətənə uzaqdan baxmaq ürəyimi sızladır. O viran qalan torpaqların sükutu qulaqlarımı batırır. Sanki o viran qalmış evlər bizi səsləyir. Gecələr gözlərimi yumduğumda Xocalıda vəhşicəsinə öldürülən uşaqların, qocaların tələşlı baxışları ilə imdad dilədiklərini hiss edirəm. Kəlbəcərdən Bakıya gətirilmək adı ilə Ermənistana aparılan qız-gəlinlərdən hələ də bir xəbər olmaması vicdanımı sızıldadır. Mənim kimi bu vicdan yükü ilə yaşayanlar çoxdur. Biz bu vicdan yükündən xilas olmaq üçün mütləq Qarabağı azad etməliyik!"

Bu fikirlər Qarabağın azadlığını bu dünyada deyil cənnətdən seyr edən Şəhriyarın fikirləri idi. Şəhriyar ruhunun Qarabağda pərvaz etdiyini bacısına yuxuda ayan edib. Şuşa azad olmamışdan bir neçə gün öncə bacısı Çinarə xanımın yuxusuna girib.

- Yuxuda hündür bir dağ gördüm. Şəhriyar dağı göstərib «Bacı, bax bura Şuşadır. Biz Şuşanı azad etdik. Ətrafa baxma. Məhv olmuş düşmən əsgərlərini görərsən ürəyin bulanar. Bir neçə gün sonra Şuşanın azad olacağı xəbərini eşidəcəksiniz.» dedi. Cəmi 3 gün sonra Şuşanın azad olun-

ması xəbərini eşitdik. Mən yuxunu gördüyüm günün ertəsi anama danışdım. Şuşa azad olandan sonra efirdə gördüyüm mənzərələrdən heyrətə gəldim. Şəhriyar məni yuxuda o yerlərə aparmışdı. Bu şəhidlərin ölməzliyinə işarədir.

Allah onu bu dünyaya şəhid olmaq üçün göndərmişdi. 28 dekabr 1988-ci ildə Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Qahab kəndində dünyaya göz açıb Məmmədov Şəhriyar Bayramqulu oğlu. 2 bacısının bir qardaşı idi. Atasının, anasının istəklisi idi vətənin istəkli oğlu. O, 1994-cü ildə Qahab kənd tam orta məktəbində təhsil almağa başlayıb. 2003-cü ildə Heydər Əliyev adına Hərbi liseyə qəbul olub. 2006-cı ildə isə Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub. Hərbi məktəbi leytenant hərbi rütbəsi ilə başa vurub. 2010-2011-ci illərdə Təlim və Tədris Mərkəzində hərbi biliklərini daha da dərinləşdirib. Gəncədəki N saylı hərbi hissədə xidmət edib. Daha sonra təyinatla Ağdam rayonuna göndərilib. Buradakı xidmətini layiqincə yerinə yetirən Şəhriyara baş leytenant hərbi rütbəsi verilməsi qərarlaşdırılsa da bu qərarın sənəd üzərində təsdiqini tapmasına Şəhriyarın ömrü vəfa etməyib. 8 aprel 2013-cü ildə ermənilərin atəşkəsi pozması nəticəsində Şəhriyar düşmənin iki snayperçisini məhv edib və qəhrəmancasına şəhid olub.

Son dəfə ailəsi ilə şəhid olmazdan 3 gün öncə danışıb. Həmin vaxt «Bacıma deyin bir neçə günə ona elə bir hədiyyə göndərəcəm həyatı boyu unutmayacaq.» deyib. Görəsən şəhadətini nəzərdə tutub yoxsa başqa fikirləri olub?

Aprelin 9-da Şəhriyarın nəşi doğulduğu Qahab kəndinə gətirilib və kənd məzarlığında torpağa tapşırılıb.

Leytenant Məmmədov Şəhriyar Bayramqulu oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «İgidliyə görə» I dərəcəli medalı ilə təltif edilib.

- İllər ötüb ancaq mən Şəhriyarın bu həyatda olmadığını qəbul etmirəm. Şəhriyar mənim yuxularımda (əslində bu yuxu deyil, adına yuxu demişik. Bu qədər gerçək yaşanılan duyğular yuxu ola bilməz) varlığını hiss etdirir. Bir dəfə yuxumda «Bacı, sən sözünü tutdun. Hər kəs mənim yoxluğumu qəbul etdi, bir tək sən etmədin» dedi. Bu Şəhriyarın var olmağı deməkdir. Hələ illər öncə yuxumda «8 il sonra bir tanımadığın insan





səni mənim yoxluğuma inandırmağa çalışacaq.»dedi və 8-ci ildə tanımadığım bir nəfər mənə Şəhriyarın necə şəhid olduğunu dedi. Ancaq mən Şəhriyarın varlığını hələ də hiss edir, hələ də yolunu gözləyirəm.

## ŞƏHİD ŞƏHRİYAR

Dözmürdü ürəyin vətən dərdinə,
Vicdan sızıltısı səni sıxırdı.
Düşməndən intiqam almaq istəyin,
Gözündə şimşək tək hər an çaxırdı.

«Xocalı» deyəndə zülmət çökürdü,
İşıqlı dünyana sanki, Şəhriyar.
Vətənsiz elə bil soyuq qış idi,
Ömrünə yetişən çiçəkli bahar.

Bir bahar çağında sipər elədin,
Cismini vətənin dağ-dərəsinə.
O an ruh səsinlə sanki «can» dedin,
Dərisi soyulan körpə səsinə.

Sənin qisasını alıb igidlər,
Vətən qisasını sən aldığın tək.
Vətən eşqi ilə dövr edən qanlar,
Vətən torpağına hey çilənəcək.



**ORUCƏLİYEV QABİL ƏBDÜLƏLİ OĞLU LEYTENANT**
**(Aprel döyüşlərində şəhid olmuşdur.)**

## OĞLU ÖZ ADINI DAŞIYAN ŞƏHİD

Elə yollar var ki, insan getdiyi zaman o yolda dönüşünün bir izi olmayacağından xəbərdar olur. Ancaq yenə də yolundan dönmür. O yol vətən yoludur, o yol azadlıq yoludur. O uzanan yollara neçə - neçə gözlər dikilib qalıb. Bəlkə dönər deyə. Günlər, aylar, illər ötsə də o gözlər yollardan yığılmır. Bir də körpələrin yol gözləməyi ki, var bu ən dözülməzidir. Üzünü görmədiyi, qoxusunu duymadığı, adını daşıdığı atasının illərdi yolunu gözləmək bir körpə ürəyin daşıya biləcəyi ən ağır yükdü. Atasını şəkillərdən tanıyan, ata əvəzinə soyuq bir məzarla tanış olan, heç vaxt atasından «Oğlum» sözün duymayan Qabilin ata həsrətini izah etməkdə kəlmələr aciz qalır. Atasının gözlərinə bənzər gözləri bütün həsrətinin xəbərçisidir. Dörd günlük körpə ikən beşiyində laylalar yerinə nalələr duydu balaca Qabil. Heç o zamanlarda adı Qabil də deyildi. Atası öz atasının adını əmanət etmişdi oğluna. Nə bilərdi ki, oğlu öz adını daşıyacaq. Hər kəs atasının gəlib övladına sarılacağını xəyal edərkən tam əksi oldu. Hər kəs Qabilin al bayrağa bürünmüş tabutuna sarıldı.

Həyatın erkən çağlarında yoxluqla sınanan Qabil 1991-ci il sentyabrın 15-də Naxçıvan şəhərində dünyaya göz açmışdı. Naxçıvan şəhər 1 N - li məktəbdə təhsil almışdı. Qabil uşalıqdan tez-tez əmisi Elmar Orucəliyevdən Sədərək döyüşləri barəsində eşidərmiş. Əmisinin qəhrəmanlıqlarından riqqətə gələn Qabil bir dəfə «Mən də hərbiçi olacam.» sözlərini elə qətiyyətlə deyib ki, elə həmin vaxtdan onun yolu hər kəsə bəlli olub. 2006- cı ildə arzularına uzanan yola ilk qədəmini qoyub. O,Heydər Əliyev adına Hərbi liseyə daxil olub. Liseyi bitirdikdən sonra Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub. Nümunəvi kursantlardan biri kimi hər kəsin rəğbətini qazanıb. Tez-tez AAHM-in məzunu olan qəhrəmanları xatırlayan Qabil bir gün özünün də adının o siyahıda olacağını dilə gətirib. Hər zaman ön xətdə yerləşən hərbi hissələrdə xidmət edib. Öz bilik və bacarıqlarını döyüş yoldaşları ilə bölüşən Qabil «Öyrədə-öyrədə özüm də öyrənirəm.» sözlərini deyib. Vətən oğlu nə vətəni sevməkdən usanıb, nə də vətənin keşiyini çəkməkdən.

Sevməyi gözəl bacaran Qabilin qəlbi Tükəzban xanımın sevgisinə məskən olub. İllərlə bir məktəbdə oxuyan ikili 2014-cü ildə sevgilərinin simvolu olan nişan üzüklərini taxıblar. 2015-ci ildə isə ailə həyatı qurublar. Tükəzban xanım sevdiyi ilə birlikdə onun xidmət etdiyi Tərtər şəhərinə yollanıb. Dörd ay birlikdə orada qaldıqdan sonra Tükəzban xanım ailənin yeni üzvünün gələcəyi səbəbindən Naxçıvana qayıdıb. Sevənlərin həsrətli günləri o gündən başlayıb. Son dəfə 2016-cı ildə bir neçə günlük ailəsinin yanına gedən Qabilin ailəsi ilə son görüşü yanvarın 23-də olub.

Martın 29-da ailənin yeni üzvü, Qabilin ilk və yeganə övladı dünyaya gəlib. Qabil oğul atası olduğunun sevincini döyüş yoldaşları ilə bölüşüb. Oğlunun üzünü yalnız şəkillərdə görən Qabil oğlunun qoxusunu qoxlamaq, onu bağrına basmaq arzusunda idi. Ancaq oğul qoxusunu deyil vətən, torpaq qoxusunu ciyərlərinə çəkdi.

Azadlığın cücərib, boy atdığı bahar. O cücərən azadlığı qanı ilə suvaranlardan biri də Qabil oldu. 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə Ermənistan Ordusunun atəşkəsi pozması ilə müharibə yenidən alovlandı. Azərbaycan Ordusu düşməni pərən-pərən etdi. İllər sonra işğal altında olan bir qisim torpaqlar işğaldan azad olundu. Cocuq Mərcanlı, Lələtəpə, Talış kəndi və bir çox ərazilər düşməndə azad olundu. O azadlıq uğrunda neçə-neçə oğullar can verdi. Onlardan biri də Orucəliyev Qabil Əbdüləli

oğlu oldu. Qabil və bir neçə döyüş yoldaşları Talış kəndini düşməndən azad etmiş və xeyli irəliləməyə nail olmuşdular. Sonra mühasirəyə düşən qəhrəmanlar silahları bitənə qədər vuruşmuş və şəhid olmuşdular. Aprelin 1-dən 2-nə keçən gecə səhərə yaxın şəhid olan Qabildən ailəsi günlərlə xəbər ala bilməmişdi. Onun şəhid olmağı xəbəri aprelin 10-da ailəsinə verilmişdi.

Gənc yaşında ömür gün yoldaşını itirən Nuriyyə ananın ürəyi bu dəfə oğul dərdi ilə yaralandı. İki bacısına, atasının ölümündən 2 ay sonra doğulan qardaşına həm ata, həm qardaş olan Qabilin əbədi gedişi ilə ailə dayağını itirdi. Qabilsizliyin bu ailə üçün nə qədər ağır olduğunu izah etmək mümkünsüzdür.

Leytenant Orucəliyev Qabil Əbdüləli oğlu aprelin 11-də doğulduğu Naxçıvan şəhərində torpağa tapşırılıb. Aprel döyüşlərində Naxçıvanın vətənə qurban iki oğlundan biri olan Qabil Orucəliyev şəhadətindən sonra prezident İlham Əliyevin sərəncamı ilə «Hərbi xidmətdə fərqlənməyə görə» III dərəcəli medalı ilə təltif edildi.





## ŞƏHİD QABİL

Bir bahar dikilib vətən bağında,
Sən də boy göstərdin bir şəhid kimi.
Astaca torpağa sən pıçıldadın,
Qəlbini ram edən vətən sevgini.

Bu eşqlə yaşadın ömrün hər anın,
Bu eşqin yolunda canından keçdin.
Həyatda gedilən yollar içində,
Cənnətə uzanan o yolu seçdin.

Sonuncu nəfəslə cahana çatdı,
Aprel döyüşünün zəfər sədası.
Qabil, vücudundan axan qan ilə,
Sağaldı vətənin həsrət yarası.

Şəhidim, dörd günlük körpə Qabilin,
Daşıdı qəhrəman ata adını.
Heç zaman o duya bilmədi səndən,
Ata qayğısının şirin dadını.

Sənin can verdiyin həmin torpaqda,
Həyat yenilənir, həyat canlanır.
Azad Azərbaycan şəhidlərinin,
Müqəddəs adını qürurla anır.



**QƏMBƏRLİ ELTON BABA OĞLU**
**LEYTENANT**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## BAYRAQ MƏNLİYİM, TORPAQ QEYRƏTİMDİ

Biz xalq olaraq necə iradəli, mətin, məğrur xalq olduğumuzu hər zaman sübut etmişik. 44 günlük müharibə zamanı da biz bunu bir daha gözlər önünə sərdik. Qazanılan qalibiyyətlərin möhtəşəmliyi ilə ölkəmiz Günəş kimi nur saçdı. Hər şəhid də Günəşin bir şəfəqi oldu. O şəhidlər həm nur saçdı, həm də alov. Onların alovuna qərq olan ürəklər də çox oldu. Ancaq qələbəmizin böyüklüyü qədər səbrimiz də böyük oldu. Şəhidlərin geridə buraxdıqları məğrur duruşları ilə düşmənin köksünü dağladı. O məğrur insanlar sübut etdilər ki, bu xalqın biləyi bükülməyəcək. Duruşu ilə əsil Azərbaycan qadınının əsalətinin göstəricisi olan Nargül xanım nəinki bu günümüzün, eləcə də sabahlarımızın simvoluna çevrildi. O əvvəl şəhid Eltonun bacısı kimi sonra şəhid Adilin xanımı kimi bir qadının nə qədər güclü ola biləcəyini göstərdi. Zərif xarıbülbülə bənzəyən bir qadının duruşu uca dağlar qədər mətin oldu.

Qəmbərli Elton Baba oğlunun 44 günlük zəfərə uzanan 23 illik ömür yolu hər günü ilə yaddaşlarda iz buraxıb. O, 1 fevral 1997-ci ildə dünyaya göz açıb. Özündən başqa bir bacısı və bir qardaşı var. 2003-cü ildə Şərur rayon Ələkli kənd tam orta məktəbinə qədəm qoyub. 2011-ci ildə Heydər





Əliyev adına Hərbi liseyə daxil olub. 2014-cü ildə liseyi bitirib. Həmin il Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. Dörd il orada təhsil aldıqdan sonra məzun olub. Sonra Goranboyda N saylı hərbi hissədə xidmətə başlayıb. 2019-cu ilin noyabrında xidmətini Tərtər rayonunda yerləşən N saylı hərbi hissədə davam etdirib. Daha sonra Xüsusi Təyinatlı Qüvvələrin təməl kurslarını birinciliklə başa vurub. Sonra XTQ - də baş kəşfiyyatçı və qrup komandirinin müavini vəzifəsində çalışıb. O, həm də SAT kurslarının komandiri olub. «Azərbaycan Ordusunun 100 illiyi» yubiley medalı ilə təltif edilib.

Azərbaycan Ordusuna qalibiyyət qazandıranlardan biridi Elton. Döyüşlərin başladığı ilk gündən döyüşlərə qatılan qəhrəmanın Füzulidən başlayan döyüş yolu bir çox ərazilərdən keçib. Cəbrayılın azad olunmasında, Xudafərinə bayraq sancılmasında bilavasitə rolu olan Elton Hadrut, Zəngilan və Qubadlı uğrunda gedən bütün döyüşlərdə iştirak edib. Alınan hər torpaqda alın təri ilə yanaşı qanı da damlayan Elton Qubadlını azad etdikdən sonra oktyabrın 19-dan 20-nə keçən gecə Xocavəndin Tuğ kəndi istiqamətində gedən döyüşlərdə digər hərbçi yoldaşları ilə bərabər son nəfəsinə qədər vuruşub və qəhrəmancasına şəhadətə ucalıb.

Şəhid olmazdan 2 gün öncə ailəsi və bütün qohumları ilə danışıb halallaşdığı zaman o çətinlikdə olduğunu biruzə verməyib. Bacısı Nargül xanımla danışanda özü kimi od-alovun içində olan Adili soruşub. Axı o bilirdi ki, o müharibənin hər anında «son» yazıla bilər. Anasına son sözləri isə bunlar olub:

- Ana mən şəhid olsam ağlama. Heç zaman üzülmə nə olar. Bir də şəhid olduqdan sonra məzarı olan şəhidlərdən olsam məzarıma mənim şəklimi yox təkcə Azərbaycan bayrağının şəklini vurun. Çünki mənim cismim torpağa dönsə də ruhum Azərbaycan bayrağının hər əsintisində var olacaq. Bayraq mənliyim, torpaq qeyrətimdi.

- Mən səni şəhid olmağa yox şahid olmağa göndərmişəm oğul...

Ancaq Elton həm şahid oldu, həm şəhid. Eltonun şəhid xəbərini sosial şəbəkələrdən alan yaxınları Sona anaya heç bir söz deyə bilməyiblər. Həmin vaxt Naxçıvanda olan ana Bakıya qayıtmağa çalışdığı zaman oğlunun bayrağa bürünüb Naxçıvana gələcəyindən xəbərsiz idi. Eltonun şəhid xəbərini 23 oktyabrda alan ana ertəsi gün Eltonun gələn yollarına

boylandı.

Bacılar üçün qardaş dərdi ən böyük sınaqdı. Qardaşın cənazəsini ata ocağına aparmaq isə daha böyük bir dərddir. Xəstə ata, balaca qardaş, çarəsiz ana və Eltonun nəşini aparan bacı. O bacı ki, Şəhid bacısı adına layiq davranışlarla özü də bilmədən tarixə düşdü.

Şəhidlər xalqın qürurudur. Qürurlu xalq oktyabrın 24-də şəhidlərini qarşıladı. Vasif Talıbov və bir çox dövlət nümayəndələri şəhidləri ehtiramla qarşılayıb son mənzilə yola saldılar.

Hər zaman ritmik musiqiləri ilə ürəklərə yol tapan zərb alətlərinin mahir ifaçısı, rəqqas bu dəfə lirik nəğmə ilə ürəklərə toxundu. Ömür adlı nəğmə bitdi.

Leytenant Qəmbərli Elton Baba oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə «Vətən uğrunda»medalı, «Döyüşdə fərqlənməyə görə» medalı, «Füzulinin azad olunmasına görə» medalı və «Cəbrayılın azad olunmasına görə» medalı ilə təltif edilib.

Elton ailənin sonuncu şəhidi olmayıb. Ailənin Elton qədər istədiyi, müharibə başlamazdan öncə 22 sentyabrda Eltonla birlikdə deyib - gülən, birlikdə müharibəyə yollanan kürəkəni Adil də şəhid olub. Eltonun yeddisi günü Adilin şəhid xəbəri gəlib...





**ŞƏHİD ELTON**

Qəhrəmanlar oylağı bu vətənin,
Mərd oğullar yığır qəlbə dərd-sərin,
Elton kimi ərənlərin, mərdlərin,
Ürəyində vətən eşqi ucalır
O eşqlərdən bu vətən də güc alır.

Öz cismini sipər edib torpağa,
Al qanından bir rəng qatıb bayrağa,
Çevrilib qəlblərdə sağalmaz dağa,
Özü gedib, adı qalan, şəhidim,
Vətən sənlə qürur duyur, igidim.

Bu vətənlə adın çəkilir qoşa,
Sən dönmüsən iftixar adlı daşa,
Sən ölməzsən, vətən adında yaşa,
Azadlığa imza atdın qanınla
Vətənimə nəfəs verdin canınla.



**ƏLİYEV FƏRMİN FƏRMAN OĞLU**
**LEYTENANT**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## BAYRAQ SEVDALISI

Bayraq bizim üçün dəyəri vətən, şəhid sözləri ilə bütünləşən müstəqilliyimizin simvoludur. Bayraq, vətən, şəhid kəlməsi hər zaman birlikdə duyulur. Şəhid vətən uğrunda canını verib bayrağa bükülür. Yalnız vətən uğrunda can verənlər bu dəyərə sahib olur. Onun üçün bayrağa «şərəfimiz, mənliyimiz» deyirik. Can verərik, ancaq bayrağı yerə düşməyə qoymarıq. Vətən fədailərinin, bayraq sevdalılarının amalları birdi. Amalı tək azad vətən, sevdası isə torpaq, bayraq olan Ferminin bu ali sevdası hər zaman bəlli idi. Bayraq sevdalısı olan qəhrəman 2019 - cu ildə öz toyunu 9 noyabr Bayraq günündə etmişdi. Fatimə xanım ailə qurduğu zaman necə bir ürəkdə yer aldığının fərqində idi. Sevgi yolları qısa olsa da Fatimə xanım bir ömür körpə Fərmanı ilə birlikdə Fərmini yaşadacağına söz verib.

Əliyev Fərmin Fərman oğlu 20 mart 1996-cı ildə Naxçıvan Muxtar Respublikasının Şıxmahmud kəndində anadan olmuşdur. Elə ilk təsilini də Şıxmahmud kənd tam orta məktəbində almışdı. Hələ məktəb vaxtlarından ədəbiyyata böyük marağı olmuşdu. Yazdığı şeirləri ailəsi onun şəhadətindən sonra oxuyub. Ailənin yeganə oğul övladı olan Fərminin iki bacısı var. Tək oğul olmasına baxmayaraq Fərmin vətənə sədaqətini əməlində sübut etmək üçün 2011-ci ildə Heydər Əliyev adına Hərbi liseyə qəbul olmuşdu. Liseyi bitirdikdən sonra Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuş, 4 illik təhsilini 2018-ci ildə leytenant hərbi rütbəsi alaraq başa vurmuşdu. O, Quru qoşunlar üzrə xidməti seçmiş «Xüsusi təyinatlı texnika və sistemlər» ixtisasına yiyələnmişdi. İlk olaraq Naftalan şəhərində yerləşən N saylı hərbi hissədə xidmətə başlamışdı. Sonra Tərtər və Mingəçevirdə xidmətini davam etdirmişdi. Fərmin tabeliyində olan əsgərləri hərbinin sirlərindən xəbərdar etmək üçün onlara təlimlər keçmişdi. Heç vaxt əsgərləri tək qoymur, yeni gələn əsgərlərə xüsusi diqqətlə yanaşmışdı. Məvacibinin çox hissəsini də əsgərlərinin tələbatı üçün istifadə etmişdi.

Fərmin qayğıkeş, mehriban, həfif ürəkliliyi ilə seçilmişdi.Hər kəsə diqqətlə, qayğı ilə yanaşması ilə qəlblərə yol tapmağı bacarmışdı. Hər zaman məzuniyyətini yay aylarına salarmış ki, atasına təsərrüfat işlərində kömək etsin. Fərmin yeri dolmayacaq bir insan idi.

Hər zaman şəhidliyin necə ali bir məqam olduğundan danışan Fərmin özünü o uca zirvədə xəyal edərmiş.Hətta son dəfə atası ilə danışanda şəhid olacağını deyib və o an nələr etməli olduqlarını, məzarına hansı şəkili vurmaqlarını tapşırıb.

Fərmin ailə qurduqdan sonra Fatimə xanım hərbiçi yarı ilə birlikdə Mingəçevir şəhərində yaşamağa başlayıb. Daha sonra Fatimə xanım şəxsi durumu ilə əlaqədar Naxçıvana qayıdıb. Ondan sonra Fərmin gecə - gündüz vətən səngərində olub. 2020-ci ilin iyul döyüşləri zaman Azərbaycan Ordusunun şəxsi heyyətinin xüsusilə Polad Həşimovun şəhid olmasından sonra Fərmin hər aldığı nəfəsi intiqam hissi ilə alıb. Həmin o intiqam günü isə 27 sentyabrda çatıb. Döyüşün ilk günü seçilən 200 nəfərlik heyətin ilk önə çıxanlarından biri Fərmin olub. 50 nəfərlik heyətə başçılıq edən Fərmin dəstəsi ilə birlikdə düşmənin 30 il boyunca möhkəmləndirdiyi istehkamları alt - üst edib, qalibiyyətə gedən yolda irəliləyib. Gülüstan kəndini azad edən dəstə Ballıqaya, Ağcakənd arasında mühasirəyə düşüb. Fərminin taktikası ilə həmin mühasirə yarılıb və hər kəs xilas olub. Onların dəstəsi Ağdərə istiqamətində düşmən ordusunun Xüsusi Təyinatlı Qüvvələri ilə üz-üzə mübarizədən də bir neçə şəhid verərək qalib ayrılıb. Talış kəndini də azad etdikdən sonra növbəti hədəf Ağuçux yüksəkliyi olub.

Düşmən bu strateji baxımdan önəmli olan yüksəkliyi əldən verməməyə çalışıb. Lakin ordumuz istəyinə nail olub, həmin yüksəkliyi də nəzarətə götürüb. Azərbaycan Ordusunun düşmənin 82 mm- lik mina atan batareyasını məhv etməsi düşmənin növbəti hiyləyə əl atmasına səbəb olub. Sentyabrın 29-da Fərminin vətən sevgisi ilə döyünən ürəyi düşmən atəşinə tuş gəlib və o şəhidlik arzusuna çatıb.

Fərmin övladını görmək üçün səbirsizlənirdi. Hər dəfə «Kaş ki, tez dünyaya gələrdi, bircə dəfə üzünü görüb, qoxusunu duyardım.» deyirdi. Ancaq onun bu arzusu ürəyində qaldı. İlk oğul atası olacağını duyduğu anda atasının adını oğluna əmanət edib onu Fərman adlandırmaq istədiyini dilə gətirmişdi. Onun bu arzusu şəhid olduğundan 23 gün sonra gerçək oldu. Fərminin Fərmanı dünyaya şəhid övladı kimi qədəm qoydu. Bütün Azərbaycan xalqı Fərmanı Fərminin əmanəti kimi sevdi.

Quliyev Fərminin cansız cismi oktyabrın 1-də Şıxmahmud kənd məzarlığında «Canımı fəda edəcəm.» dediyi torpağa əmanət edilib.

Leytenant Quliyev Fərmin Fərman oğlu II Qarabağ döyüşlərində göstərdiyi şücaətlərə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə «Azərbaycan bayrağı» ordeni, «Vətən uğrunda» medalı və «Suqovuşanın azad olunmasına görə» medalı ilə təltif edilib.

Fərminin şəhid olduğunu eşidən dostu Quliyev Vəli Vəli (Kamal) oğlu dostunun qisasını alıb. Fərminin hər damla qanının əvəzini düşməndən artıqlaması ilə aldıqdan sonra Vəli Quliyev də şəhadətə ucalıb.

## ŞƏHİD FƏRMİN

Vətən boyda sevgindən,
Vətən özü güc aldı.
Şəhid olan oğullar,
Əbədi qəlbdə qaldı.

Qeyrətini çəkdiyin,
Vətən, torpaq gül açdı.
Bu dəfə Günəş deyil,
Şəhidlər şəfəq saçdı.





Nurundan bir pay aldı,
Qana boyanan torpaq.
Fərmin, məzarın üstə,
Ucaldı şanlı bayraq.

Üzünü görmədiyin,
Oğul payın doğuldu.
Sənin çox arzuların,
Məzarında boğuldu.

Atasın rəsimlərdən,
Sevəcək Fərman bala.
Böyüdükcə anasın,
Tutacaq suallara.

O suallar günbəgün,
Böyüyəcək, artacaq.
Bir körpə atasını,
Bir məzarda tapacaq.

Başqa atalar kimi,
Olmaz isti qucağın.
Vətən boyda bir məzar,
Oldu evin, ocağın.



## QULİYEV VƏLİ VƏLİ (KAMAL) OĞLU LEYTENANT (II Qarabağ müharibəsində şəhid olmuşdur.)

## «BİZ ANADAN GƏLMƏ VƏTƏNİK»

*(Naxçıvan Canavarı)*

Sən mənim şükür duamsan, oğlum. Sənin kimi bir sərvətim olduğu üçün hər zaman Allaha şükür etdim və edəcəm. Mənim əbədiyaşar oğlum, Allahın ən gözəl duyğusu olan analıq duyğusunu sən və Maqsud mənə eyni anda yaşatdınız. Biriniz sağ gözüm, biriniz sol gözüm oldunuz. Atanın da ümidi iki övladı oldu. Sizinlə gələcəyə ümidlə baxdıq. Sən hər kəsin istəklisi idin. Ancaq əkiz qardaşın Maqsudun sanki yarı hissəsi idin. O, səninlə nəfəs alırdı. Qardaşının dostu, sirdaşı, aldığı nəfəsi idin. Gedişinlə qardaşın sanki nəfəssiz qalıb, Vəli.

Vəli, qürurum, fəxarətim mən sənin şəninə nə qədər sözlər desəm də səni vəsf etməyə sözlər aciz qalır. Sənə olan həsrətim sənə olan sevgimin sonsuzluğu qədərdi. Bəzən düşünürəm ki, 23 yaşında bir insan necə belə qəhrəman ola bilər?

Mənim sən adlı möcüzəm 1997-ci ilin 20 iyulunda başlamışdı. Ömrün sanki su kimi axdı. O zaman sənin böyüdüyünə sevinirdim. Daha bilmədim ki, bu ötən zaman bizi ayrılığa yaxınlaşdırır. 2003-cü ildə övladı I sinfə gedən analardan daha çox həyəcanlı idim. Hər kəsin 1 övladı mənim





isə 2 övladım Qazançı kənd şəhid Aslanov Elsevər Eldar oğlu adına tam orta məktəbdə təhsil almağa başlamışdı. O zamanlar sizin böyüyəcəyinizi xəyal edirdim. Ancaq mən bilməzdim ki, sən bütün xalqın ürəyində böyük sevgiyə yelkən açacaqsan. 2009-cu ildən 2011-ci ilə qədər Azər Tağıyev adına 17 N - li məktəbdə təhsilini davam etdirdin.

Doğulduğun gün atan sənə əmisi Vəlinin adını əmanət etdi. Biz o adı sənə verəndə bilməzdik ki, bir gün sən böyüyüb bizi Şəhid atası, Şəhid anası adına layiq görəcəksən. O qədər gözəl yaraşırdı ki, sənə hərbi geyim. Boyuna baxanda qürurum boy - boy olurdu. Nə tez böyüdü mənim Vəlim? İndi vətən qoruyur deyə öz-özümə tez - tez suallar verirdim. Sən 2011-ci ildə Heydər Əliyev adına Hərbi liseyə qəbul olanda o qədər sevincli idin ki, onsuz da hər zaman gülən çöhrən sanki çiçək açmışdı. Sevincin hər birimizin ürəyin isidirdi, Vəli. 2014-cü ildə liseyi uğurla bitirməyinin, sonra Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmağının sevincini və qürurunu yaşatdın, həm də yaşadın. 2018-ci ildə artıq bir leytenant idin. Azərbaycan ordusunun leytenantı Quliyev Vəli Vəli (Kamal) oğlu. Necə gözəl səslənir İlahi. Hərbçi anası olmaq fərqli duyğu idi. Qürur verici, həsrətli, həyəcanlı... Qarşıda isə qismətimdə Şəhid anası olmaq varmış.

İlk xidmətinə Ağcəbədi şəhərində N saylı hərbi hissədə başladığın zaman ön cəbhəyə can atıb düşmənlə sərhəddə yerləşən hərbi hissədə xidmət etdin. Hər zaman ön cəbhədə olmağı üstün tuturdun. Tək məqsədin vətən torpağının keşiyini çəkmək, düşməndən intiqam almaq idi. Sən məqsədinə 2020- ci ilin sentyabrında çatdın. İlk azadlıq mübarizəsinin başladığı və döyüşlərin ən gərgin getdiyi yer olan Füzulidə mübarizə aparsan da mən narahat olmayım deyə bunu məndən gizlədin. Ah oğlum, ana ürəyi hiss etməzmi balasının halını? Səninlə danışdığım anda eşitdiyim toptüfəng səsləri ruhumun qulağını kar etdi. Ən yaxın dostun Ferminin şəhid xəbərini səndən almaq mənə çox ağır gəldi. Gör indi sən o xəbərlə necə sarsılmışdın. O qədər qorxmaz idin ki, 11 il getdiyin hərbçi yolunda bir dəfə də ayağının büdrədiyini hiss etdirmədin. Vətən sevgisi ilə döyünən ürəyin bu sevgidən heç yorulmadı. Əksinə bu sevgidən aldığın güclə düşməndən öc aldın. Cəbrayıldan verdiyin azadlıq müjdəsi mənim həyatda 23 il sonra duyduğum ən böyük müjdə idi. Son dəfə 20 oktyabrda dediyin «Yaxşıyam» sözün hələ də qulağımda cingildəyir. O döyüşdə necə yaxşı

olmaq olardı oğul? Cəbrayıldan göndərdiyin o şəkillərə baxanda yenə həmişəki kimi çöhrəndə təbəssüm görürəm. Ancaq gözlərindən qürurun da hiss olunur.

Düşmən gözünə dik baxan oğul, sənə əbəs yerə «Naxçıvan Canavarı» ləqəbi verilməmişdi. Sən canavar kimi döyüşmüsən. Döyüşünün sədası mənə çatıb. Hərçənd sən məndən döyüşdə olduğunu gizləsən də Füzuli, Hadrut, Cəbrayıl, Zəngilan və Qubadlının azadlığı uğrunda qəhrəmancasına vuruşduğunu bilirəm. Canım oğlum, deyirlər «Vəli Cəbrayıl uğrunda gedən son döyüşündə minamyotla ermənini biçib, həm şəhidlərin, həm də öz qisasını alıb. Oktyabrın 22-də isə şəhadətə ucalıb.» Hər zaman fəxrim olan oğul, sən indi də mənim fəxrimsən.

«Biz anadan gəlmə vətənik.» sözün indi bir aforizmə çevrilib. Sənin kimi mərd ürəkli oğullar bu şüarını tez-tez dilə gətirirlər. Vətəni o qədər gözəl sevdin ki, sevginə heyran oldum. Sevgin uğrunda can verdin. Ancaq ruhunla əbədi var olmağı bacardın.

Mənfur düşmən sənin nəşinlə də savaşmaq niyyətində imiş. Axı sən onları hər zaman ürəklərindən vurmusan. Bir bilsən səndən xəbər ala bilmədiyim günlərdə mən hər gün neçə dəfə öldüm. Sən məni duyub yuxuda şəhidliyini bəlli etdin. Şəhid xəbərin gələn günün öncəsi gecə (4 noyabr) yuxuma gəldin. Eyni şəhid kimi gəldiyin həmin tabutda gəldin və «Ana, mən iki günə gəlib yenidən gedəcəm.» dedin.

Sən generallara yoldaş idin. Sənin şəhid olmağın tək ailəni deyil, generalları, döyüş yoldaşlarını və xalqını hüznə boğdu. Bir general isə «Vəli mənim sağ qolum idi. Sağ qolumu itirdim.» dedi. 11 general səni Bakıdan Naxçıvana yola saldı.

Yuxumda dediyin zaman evimizə gəldin. Yenə səninlə qürur duydum. 6 noyabr sənin vətən torpağına tapşırıldığın gün kimi, mənim də Şəhid anası adına layiq görüldüyüm gün kimi yaddaşlara həkk olundu. Naxçıvan şəhər məzarlığında soyuq torpaq səni də öz köksünə aldı. İsti ana qucağından, soyuq vətən torpağın üstün bilən oğlum, zəfər müjdəli şəhadətin mübarək.

Son sözün «İrəli» oldu. O səsləyişlə önə atılan qəhrəmanlar sənin çatmağa ömrünün yetmədiyi torpaqları da düşməndən azad etdilər. Sən vətən uğrunda can verib cənnəti, ürəkləri qazandın. Leytenant Quliyev





Vəli Vəli oğlu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda»medalı, "Cəsur döyüşçü medalı", «Cəbrayılın azad olunmasına görə» medalı və «Qubadlının azad olunmasına görə» medalı ilə təltif edilmisən.

## ŞƏHİD VƏLİ

Naxçıvan elinin igid, ərəni,
Səninlə vətənim bəxtiyar oldu.
Sənin tək vətənə sahib çıxanlar,
Vətən torpağının qoynuna doldu.

Sayəndə azadlıq nuru çiləndi,
Vətənin dağına, daşına, Vəli.
Qeyrətli oğullar bir sığal çəkdi,
Həsrətli torpağa toxundu əli.

Cəbrayıl işğaldan azad olan gün,
Döyünən ürəyin qanad açmışdı.
Həsrəti burulub ömrünü saran,
Müqəddəs torpağa bayraq sancmışdın.

Bir salam yetirib azad torpaqdan,
Sevinc bəxş etmişdin o gün Culfaya.
Azadlıq tilsimi sökülən zaman,
Çatmışdın qəlbində olan arzuya.

Sən könül verdiyin ana vətənin,
Eşqinin yoluna qərənfil düzdün.
Sevdiyin vətənin yaşasın deyə,
Sən özün həyatdan əlini üzdün.

Sevənlər sevdiyi uğrunda ölər,
Sən isə ölümsüz olmusan, şəhid.
Vətənin seyrinə çıxanlar deyər,
«Keçib bu torpaqdan Vəli tək igid.»



**NURUYEV CAVİD ƏŞİRƏF OĞLU**
**Leytenant**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## AZADLIQ NURUN SAÇAN CAVİD

Vətən deyə and yerimiz, azadlıq deyə amalımız var bizim. Andımıza sadiq qalıb, amalımız uğrunda can verməyi də, can almağı da gözə almışıq. Yetər ki, «Vətən var olsun.» olub dillərin əzbəri, könüllərin bəzəyi. Vətənin bəzəyi isə azadlıq olub. Azadlığa nur saçan şəhidlərdi. Canları bahasına qazandıqları azadlıq vətənə mirasdı. Vətənə azadlıq nurunu saçan qəhrəmanlardan biridi Cavid.

Vətən müharibəsində şücaətləri ilə dildən - dilə düşən Nuruyev Cavid Əşirəf oğlu. O,1998-ci il mart ayının 3-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Oğuz kəndində dünyaya göz açıb. Ailənin dörd övladından yeganə oğul övladı idi. Cavid üç bacısının dayağı, ata-anasının ümidi idi. Körpəlikdən vətən sevgisi gözlərindən oxunurdu. Addımları ilə gələcəkdə vətənin layiqli övladı olacağı o zamanlardan bəlli idi.

Nuruyev Cavid 2005-ci ildə Şərur rayonu 22 N - li Aşağı Daşarx kənd tam orta məktəbində 1-ci sinfə qədəm qoymuşdu. 2012-ci ildə Naxçıvan Muxtar Respublikasında Heydər Əliyev adına Hərbi liseyə daxil olmuşdu. Liseyi bitirdikdən sonra Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdu. Cavid hər zaman işində məsuliyyəti və peşəkarlığı ilə seçilmişdi. O, 4-cü kursda oxuduğu müddətdə 27.12.2018-ci ildə təhsilində fərqləndiyinə görə özünə və valdeyinlərinə təşəkkürnamə göndərilmişdi. 2019-cu ildə məktəbi birinciliklə başa vurub leytenant hərbi rütbəsi ilə Mingəçevir şəhərində xidmətə başlamışdı. Cavid bir hərbçi üçün diqqətin nə qədər önəmli və vacib olduğunu yaxşı dərk edirdi. Buna görə də 2020-ci ildə martın 4-də fəxri fərmanla təltif edilmişdi.





Xalq olaraq əzmli və yenilməzik. Bunun sübutu bu günümüzdür. Əgər belə olmasaydı min illərin sınağından çıxıb azad Azərbaycan olaraq bu günlərə gəlməzdik. Neçə-neçə qanlı pəncələrdən qurtulmuşuq. Kürəyimizdə neçə pəncənin cırmaq izi qalıb. Biz qəlbimizdə acılarımızı da özümüzlə bərabər böyütmüşük. Dünənlərimizi unutmamışıq ki, sabahlarımız işıqlı olsun. Dünənlərdə çıxdığımız qaranlıq yol bu günlərdə aydınlığa çıxdı. 2020-ci il sentyabrın 27-də başlanan II Qarabağ müharibəsində çox qəhrəmanların qəhrəmanlıqlarını duyduq, qürrələndik. Nuruyev Cavid Əşirəf oğlu da Vətən müharibəsində qəhrəmancasına vuruşmuş və bir çox torpaqların azad edilməsində böyük rolu olmuşdu. Murovdağ , Suqovuşan, Ağdərədə yüksək zirvələrin alınmasında iştirak etmişdi.15 oktyabr 2020-ci il tarixində Ağdərə istiqamətində şəhid olmuşdu. Sonuncu dəfə oktyabrın 4-də ailəsi ilə danışanda telefonunun sönəcəyini və narahat olmamaqlarını demişdi. Demək ki, Cavid getdiyi yolun dönüşü olmadığını əvvəlcədən bilirmiş. O susan telefona ailə 53 gün zəng etmiş,ancaq bir cavab gəlməmişdi. Artıq ümidlər də səbrlər kimi tükənmişdi. Cavidin şəhid olduğu xəbəri 29 noyabrda ailəyə verilmiş və bütün ümidlər nöqtələnmişdi. 30 noyabr 2020-ci il tarixində Şərur rayon Şəhidlər Xiyabanında dəfn olunmuşdu.

Leytenant Nuruyev Cavid Əşirəf oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra 3-cü dərəcəli «Vətənə xidmətə görə» ordeni, «Vətən uğrunda» medalı və «Suqovuşanın azad olunmasına görə» medalı ilə təltif edilmişdi.

## ŞƏHİD CAVİD

Oğullar can verən Azərbaycanın,
Qəhrəman oğlusan, şəhidim Cavid.
Sənin göstərdiyin şücaətlərə,
Özün tək igidlər oldular şahid.

Vətən kəlməsiylə döyünən qəlbin,
Vətən sinəsində durdu, dayandı.
Susuz torpaqlara axan qanınla,
Torpağın sinəsi qana boyandı.

Kəsildi nəfəsin, kəsildi səsin,
Sən susdun elə bil dil açdı torpaq.
Günlərlə sinəsi üstə saxladı,
Torpağın köksündə alışdı ocaq.

İllərlə qəlbini didib, talayan,
Həsrətin yetişdi nəhayət sona.
Özündən sonra bir əmanət qoydun,
Azad Qarabağı Azərbaycana.





## MƏMMƏDOV AYXAN RƏFAİL OĞLU
## LEYTENANT
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**



## QURBANI QƏBUL OLAN OĞUL

Hər ocaqda oğul övladı dünyaya gələndə «Vətənə layiq övlad olsun.» deyirlər. Valideynlər oğullarının vətənə layiq olması üçün çalışırlar. Oğul ata-anaları övladlarını çox sevsələr də hər şeydən daha üstün bildikləri vətəni, torpağı oğullarına bir sərdabə bilirlər. Vətən qeyrətdi, namusdu. Torpağı işğalda olmaq hər kəsin alnının ləkəsi deməkdi. Dünyaya göz açan hər oğul o ləkəni təmizləmək iqtidarında olmalıdı. Azərbaycan oğlu elə yetişməlidir ki, ayağının səsindən düşmən lərzəyə gəlsin. Elə vətənə layiq o oğullar qəlblərdə qələbə məşəlin yandırdılar.

«Ana məndən sənə oğul olmaz,mən vətənin oğluyam.» Bu sözləri Ayxan anasına 8 Mart günü demişdi. Bir ananın oğlundan duya biləcəyi ən qürurlu və eyni zamanda qəlb sızladan sözlər idi bu sözlər. Bir neçə ay sonra Ayxan vətənin oğlu oldu.

Zülmətləri yaran Ay kimi Ayxan da illərdi zülmətə qərq olan torpaqlarda bir anda bərq vurdu. Məmmədov Ayxan Rəfail oğlu Naxçıvanın yetirdiyi qəhrəman oğullardandı. 1998-ci il sentyabrın 14-də Şərur rayonunun Xanlıqlar kəndində dünyaya gəlmişdi. Doğulduğu gün özü ilə bərabərində böyük xoşbəxtlik də gətirmişdi. Hər kəs bu xoşbəxtlikdən öz

nəsibini götürmüşdü. Şəlalə ana oğlunu laylalarla oxşayardı. O hər layla dedikdə qəribə bir duyğuya qapılardı. Rəfail Məmmədovun isə tək bir arzusu var idi. Ayxan vətənə layiq övlad olsun. Oldu, həm də o qədər layiqli bir oğul oldu ki, bütün nəsli və Azərbaycan xalqı onunla qürur duydu.

Ayxan 2004-cü ildə Şərur rayon Xanlıqlar kənd Zülfüqar Hüseynov adına tam orta məktəbdə təhsil almağa başlayıb. 2013-cü ildə Heydər Əliyev adına Hərbi liseyə daxil olub. Oranı bitirdikdən sonra 2016 - cı ildə Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. Orada da 4 il təhsil aldıqdan sonra 2020 - ci ildə leytenant hərbi rütbəsi alıb. İyunun 20-də təyinatla Beyləqana göndərilib. 10 gün sonra kəşfiyyat kurslarına qatılıb və 20 günlük kursu müvəffəqiyyətlə başa vurub. Daha sonra Cəlilabada göndərilib. Elə 44 günlük Vətən müharibəsinə də Cəlilabadan yollanıb. Sonuncu dəfə 23 fevral 2020-ci ildə evlərindən, sevdiklərindən ayrılan Ayxan həsrət qaldıqlarına sarılmadan döyüşə yollanıb.

Hər kəs Ayxanın həsrətini çəkirdi. Ancaq bir nəfər vardı ki, Ayxanın hər anının ağrı-acısını hiss edirdi. Çünki Ayxanı ürəyinə bükmüşdü. Soyuq gecələrdə od - alov saçan atəşin içində Ayxanı xəyallarında sevdası ilə isidirdi Sevda. Arzularının hər biri Ayxana uzanıb çatırdı. Barmağındakı nişan üzüyü Ayxanın nişanəsi idi. O qədər sevirdiki Allah Sevdaya yuxuda Ayxanın şəhid olacağını ayan etmişdi.

Oktyabrın 18-də Ayxan ailəsinə zəng edib. Hər kəslə danışıb. Atasına «Ata mənə qurban kəs.» deyib. Ancaq qurbanı hansı səbəbə dediyini deməyib. Səhəri atası oğlunun adına qurban kəsib. Qurbanı kəsilən Ayxan bir daha zəng etməyib. Qurbanının kəsildiyini atası ona deyə bilməyib. Bəlkə illər sonra vətən torpağının azad olunduğu üçün qurban kəsilsin istədi. Bəlkə də şəhadət yoluna qədəm qoyduğu üçün... Zəng etdiyi gündən cəmi 3 gün sonra oktyabrın 21-də Cəbrayıl, Füzuli istiqamətində gedən döyüşlər zamanı şəhid olsa da Ayxanın şəhid olduğu xəbəri oktyabrın 23-də Naxçıvana sədа salır. Bu xəbəri ailəyə deməyə heç kimin cəsarəti çatmır. Min bəhanə ilə qohum-qonşu şəhidin evinə axnaşır. Bu gəl-getlər artıq ailəyə acı gerçəkdən xəbər verirdi. Ancaq onlar Ayxanın yoxluğu barəsində düşünmürdülər.

Oktyabrın 24-də Naxçıvanın səmasında bir təyyarə göründü. O təyyarə ruhu göyə ucalan 12 qəhrəmanın cismini ana torpağına gətirdi. Bir - bir endirilən şəhidlər cərgə ilə düzüldü. Hər bir tabut bir məğrurluq nü-





munəsi idi. Hər biri zəfərin müjdəçisi idi. Naxçıvan camaatı artıq neçənci dəfə idi cərgə ilə düzülən qəhrəman şəhidlərin tabutları başında pərvanə olurdu. Hərəsi son dəfə öz ata ocağına aparılan şəhidlərdən biri olan Ayxan da ata ocağına gətirildi. Elə həmin gün də doğulub boya-başa çatdığı Şərur rayon Xanlıqlar kənd qəbirsanlığında torpağa tapşırıldı. Ayxanın özü ilə bərabər sevgisi və arzuları da dəfn olundu. Gedişi ilə ürəklərə Ayxansızlıq adında dərin və sağalmaz yara vuruldu.

Ölkə başçısı İlham Əliyevin sərəncamı ilə leytenant Məmmədov Ayxan Rəfail oğlu şəhadətindən sonra «Azərbaycan bayrağı» ordeni, «Vətən uğrunda» medalı, «Kəlbəcərin azad olunmasına görə» medalı, «Füzulinin azad olunmasına görə» medalı, «Xocavəndin azad olunmasına görə» medalı və «Cəbrayılın azad olunmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD AYXAN

Sən özün qurban oldun,
Vətənimə, elimə.
Bəs «Mənə qurban kəsin.»
Neyçün gəldi dilinə?

Yoluna qurban dedin,
Yoxsa ki, torpaqlara?
Sən ucalıb bənzədin,
Azad olan dağlara.

Dağlar kimi vüqarlı,
Vətən tək, əziz şəhid.
Adını büküb qəlbdə,
Saxlayırıq biz, igid.

Ay kimi işıq saçdın,
Sən vətənimə, Ayxan.
Əsil vətən oğlu tək,
Vətənimə verdin can.



## NƏCƏFOV YAQUB MƏHƏMMƏD OĞLU
## LEYTENANT
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## QƏHRƏMANLAR AİLƏSİ

***(Şəhid, canlı şəhid, şəhid)***

Vətən bizi dizlərində, biz vətəni qəlbimizdə böyüdürük. Qəlbimizdə kök atan vətən sevgisi ruhumuzla qol - budaq atır,qan ilə dövr edir. Qəhrəmanların keçdiyi döyüş yolu örnək götürülüb gələcək nəsillərə ötürülür.

Nəcəfovlar ailəsi bu vətənə əsil vətəndaş olmağı çox gözəl bacarıblar. Hətta deyərdim ki, bu ailənin hərbçilərinin sayı nə bir deyil, nə də beş. Ailənin ilk hərbçisi Məhəmməd Nəcəfov olub. O, hələ Azərbaycanda ordu qurulmadan öncə vətəni müdafiə edən dəstəyə könüllü olaraq qoşulub. Məhəmmədin qardaşı Vaqif Nəcəfov da qardaşının yolu ilə gedib. Vaqif Nəcəfov 1990-cı illərdə 7 il könüllü olaraq vətəni müdafiə edib. Kiçik qardaş Əli Nəcəfov da qardaşları kimi vətən keşiyini çəkib, Ağdamda sona qədər mübarizə aparanlardan olub. Ancaq hamıya məlum olan səbəblərdən Qarabağdakı münaqişə Qarabağın işğalı ilə sonlanıb. Ancaq bu son bir başlanğıcın təməli idi.

Üç qardaşı ilə birlikdə vətən keşiyin çəkən Məhəmməd Nəcəfovun ocağında vətənə layiq üç oğul övladı böyüyüb. Ailənin ilk övladları olan İsmayıl və İbrahim əkiz olublar. Üçüncü və son beşik isə beş il sonra 7





iyul 2000-ci ildə ailəyə sevinc gətirən Yaqub Nəcəfov olub. Müəllim olan Məhəmməd Nəcəfovun və müəllimə olan Xuraman xanımın yetişdirdiyi bu üç uşaq hər zaman vətən sevgisinin aliliyini hiss etmiş və hiss etdirmişdilər. Əkiz qardaşlar 2001-ci ildə Culfa şəhər 1 N - li tam orta məktəbdə təhsil almağa başlamışdılar. Yaqub isə 2006-cı ildə elə həmin məktəbdə 1-ci sinifə qədəm qoymuşdu. Hər üç qardaş hərbçi peşəsinə yiyələnmək üçün müvafiq addımlar atmışdılar.

Nəcəfov Yaqub Məhəmməd oğlu 2014-cü ildə VIII sinfi bitirdikdən sonra Heydər Əliyev adına Hərbi liseyə daxil olub, 2017-ci ildə bitirib. Elə həmin il Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub. 2020-ci ildə həmin məktəbin IV kurs kursantı idi.

Ovuc-ovuc duaların yerdən göyə ucaldığı, zərrə-zərrə ümidlərdən bütün xalqın güc aldığı 44 günlük Vətən müharibəsində Nəcəfovlar ailəsinin hər üç övladı müxtəlif istiqamətlərdə düşməni lərzəyə gətirmişdi. Nəcəfov İsmayıl Ağdərə, Suqovuşan istiqamətində qəhrəmancasına vuruşmuş və qazanılan zəfərdə payı olmuşdu. O, həmin döyüşdə kontuziya almasına və bədəninin bir hissəsinin yanmasına baxmayaraq qismən sağaldıqdan sonra yenidən xidmətini davam etdirmişdi. Prezident İlham Əliyevin sərəncamı ilə «Vətən uğrunda» medalı, "Cəsur döyüşçü" medalı, «Suqovuşanın azad olunmasına görə» medalı.və «Hərbi xidmətdə fərqlənməyə görə» III dərəcəli medalı ilə təltif edilmişdi. Hal-hazırda baş leytenant Nəcəfov İsmayıl xidmətini davam etdirir.

Əkiz qardaşlardan digəri Nəcəfov İbrahim də Vətən müharibəsində ön cəbhədə vuruşmuş və azadlıq uğrunda sağlamlığından keçən qəhrəmanlardan biri olmuşdu. Ağdamda gedən döyüşlər zamanı ağır yaralanan İbrahim bir çox əməliyyat keçirsə də hələ də bədənində bir neçə qəlpə yarası ilə yaşayır. Bir gözü təmamilə görmə qabiliyyətini itirən qazimizin digər gözü isə 20% görür. Hazırda müalicəsi davam edir. Vətən müharibəsi qəhrəmanı baş leytenant N. İbrahim göstərdiyi şücaətlərə görə ölkə başçısının sərəncamı ilə «Cəsur döyüşçü», «Vətən müharibəsi iştirakçısı», «Ağdamın azad edilməsinə görə» medalları ilə təltif edilib.

Qəhrəmanları ilə seçilən ailənin son beşik övladı Yaqub Nəcəfov ailəyə «Şəhid ailəsi» statusunu gətirən qəhrəman olub. 20 yaşlı qəhrəmanın göstərdiyi şücaət onun nə qədər cəsur, əzmkar olduğunun bariz

nümunəsidir. 44 günlük müharibədə sona qədər mübarizə aparan, demək olar ki, bütün döyüşlərdə iz qoyan, azad olunan rayonlarda şanlı bayrağımızın sancılmasında müstəsna xidməti olan Yaqub Zəfər gününün də sevincini yaşayıb. Füzulinin, Cəbrayılın, Zəngilanın, azad olunmasında, Laçın dəhlizinin alınmasında və nəhayət alınması ilə ermənilərin ümidinin nöqtələndiyi Şuşanın azad olunmasında sona qədər mübarizə aparıb. Şuşa azad olunandan sonra "Artıq Şuşanı azad etmişik." deyə Şuşa dağlarına səslənib. Atasının, əmilərinin və özünün ən böyük arzusunu reallaşdıran Yaqub 9 noyabr 2020 - ci ildə müvafiq bəyənnamə imzalandıqdan sonra erməni xəyanətinin qurbanı olub. Sonuncu nəfəsini uşaqlıqdan adını duyub, həsrətini çəkdiyi Şuşanın sinəsinə qondurub şəhadət zirvəsinə ucalıb.

Noyabrın 9-da şəhid olan leytenant Nəcəfov Yaqub Məhəmməd oğlu noyabrın 19-da Culfa şəhər Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Qəhrəmanlığı dildən-dilə düşən qəhrəman Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə «Vətən uğrunda», «Şuşanın azad olunmasına görə», «Cəsur döyüşçü» medalları ilə təltif edilib.

Bir evin üç Vətən müharibəsi qəhrəmanı var. Bir şəhid, bir canlı şəhid, bir də şahid. Bir evdən çıxıb bütün elin qəhrəmanına çevrilən İsmayıl, İbrahim və Yaqub qardaşları «Üç qəhrəman qardaş» kimi tarixdə və ürəklərdə silinməz iz qoydular.





## ÜÇ QƏHRƏMAN QARDAŞ

Qan ilə dövr edən vətən sevgisi,
Çiləndi vətənin dağ-dərəsinə.
Üç oğul böyütdü Məhəmməd kişi,
Hər biri düşmənə mərd gəldi sinə.

Mərdanə vuruşdu igid İsmayıl,
Cismi ürəyi tək yandı alışdı.
Onun ürəyinin azadlıq eşqi,
Bərq vuran ulduz tək hər an sayrışdı.

Vətən sevgisini dilə gətirdi,
Hər vaxt İbrahimin söylədiyi söz.
Vətən sevdalısı qurban elədi,
Vətənin yolunda iki görən göz.

Sonuncu döyüşün vətən qurbanı,
Oldu bu ocağın son beşik payı.
Yaqub da qoşuldu müqəddəslərə,
Qəlblərdə ucaltdı şəhid sarayı.



**DÜNYAMALIYEV CEYHUN ZEYNAL OĞLU LEYTENANT (II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## ÖMÜR PAYI

Həyatın min dolanbac yolu var. O yolda irəlilədikcə insan gah itirir, gah qazanır. Bəzilərinin ümidləri ölür, bəziləri ümid olur. Yaşamaq və yaşatmaq. Hər kəs yaşayır, ancaq hər kəs yaşatmağı bacarmır. Həm vətəni yaşatmaq, həm bir insanın yaşamaqdan əl üzdüyü zamanda onun əllərindən tutub həyata doğru çəkməyi Ceyhun bacardı. Ceyhun sağlığında xeyirxah insan, vətən sevdalısı adını qazanmışdı. Şəhadətə ucaldıqdan sonra isə Vətən xilaskarı adını qazandı. Vətən xilaskarı 24 illik ömrünü vətən naminə yaşadı.

Dünyamalıyev Ceyhun Zeynal oğlu 1996-cı il oktyabrın 15-də dünyaya göz açanda ailəsi heç düşünməzdi ki, 24 il sonra Ceyhun yeni yaşına Qarabağda qədəm qoyacaq. Ceyhun hədiyyə almayacaq, ancaq əvəzində özü Azərbaycan xalqına azadlıq hədiyyə edəcək.

Dünyamalıyev Ceyhun ailəsinin ilk övlad qisməti idi. Körpəcə qolları sanki xoşbəxtliyə açılan böyük qucaq idi. Özündən sonra doğulan bacısı və qardaşına bir başqa sevgisi var idi sevgisi dünya boyda olan bu oğlanın. Hər yaşında bir başqa özünəməxsusluğu üzə çıxırdı. 2003-cü ildə Culfa şəhər 2 N - li məktəbdə sıraya düzülən birincilər arasında qürurlu





duruşu ilə diqqətləri üzərinə çəkməyi bacarmışdı. «Vətən» deyişi də sanki bir başqa idi. Çünki bu söz dilə gəldiyində qəlbi titrəyirdi.

2011-ci ildə VIII sinfi bitirən kimi Ceyhun ən böyük arzusunun ardınca gedib. Savadı ilə seçilən Ceyhun Heydər Əliyev adına Hərbi liseyə qəbul olub. 2014-cü ildə liseyi bitirib və Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub. 2018-ci ildə də oranı birinciliklə bitirib və sertifikatla təltif edilib. 2018-ci ildə Beyləqan rayonundakı N saylı hərbi hissədə xidmətə başlayıb. 2020 - ci ildə isə 2016-cı il Aprel döyüşləri zamanı Azərbaycan Ordusunun düşməndən azad etdiyi Lələtəpədə xidmətə başlayıb. Ən böyük arzusu Xüsusi Təyinatlı Qüvvələrin tərkibinə qatılmaq olan Ceyhun XTQ - in 2 ay yarımlıq təlimlərindən keçdikdən sonra XTQ sıralarına qoşulub. Daha sonra 2 ay yarım da İsmayıllıda təlim keçdikdən sonra 052-nin tərkibində Vətən müharibəsinə yollanıb.

«Allah amanında olun gedirəm.» Bu səs bir igidin, zəfərdən müjdə verən şəhidin əbədi xatirəsi kimi qorunur. Hər gün dəfələrlə dinlənilən bu səs həsrətli ürəklərin həsrətini artırırmı yoxsa həsrətini dindirirmi bilə bilmirəm. Son dəfə aprelin 2-də evdən çıxan Ceyhunun üzünü 6 ay görməyən ailə üzvləri heç bilməzdi ki, Ceyhunun üzünə əbədi həsrət qalacaqlar.

«Ana Kəlbəcərdən sənə salam deyirəm. Bir bilsən buralar nə qədər gözəldi. Hər yeni gün sənə başqa azad etdiyimiz torpaqlardan müjdə verəcəm.» Bir ana üçün oğlundan bu sözləri duymaq çox böyük bir məna kəsb edir. «Mən böyütdüm səni. Sən məni hər zaman qürurlandırdın. Hər zaman fəxrlə mənim oğlum Qarabağı azad edən oğullardandı deyəcəm.» sözlərini ana təkrar - təkrar ürəyindən keçirirdi. Axı o oğlunun sədasını Cəbrayıldan, Zəngilandan, Xocavənddən, Hadrutdan, Tuğ kəndindən duymuşdu. Sonuncu dəfə isə noyabrın 2-də «Ana Şuşaya giririk sənə oradan zəng edəcəm.» demişdi Ceyhun. Ertəsi gün oğlunun təkcə «Alo» deyişini duydu Gülnarə ana. Ancaq yenə şükür etdi.

Ceyhun rabitəçi olduğu üçün bütün döyüşlərdə öndə gedən döyüşçülərdən biri olub. Azad olunan hər kənd, şəhərdə onun payı var. Şuşada isə ömür payı var. 6 gün ac-susuz, yuxusuz vuruşub. Yaralı olan komandir və kapitanını döyüş bölgəsindən uzaqlaşdırıb. Komandiri şəhid olub. Kapitanı isə həyata tutuna bilib. Kapitanı ona «Mənim əvəzimə kapitan-

lıq et.» deyib. Bir an belə döyüşdən uzaqlaşmağı düşünməyən Ceyhun ayağından iki mərmi yarası almağına baxmayaraq döyüşü davam etdirib. Günlərlə ac-susuz döyüşən Ceyhunun axan hər damla qanı ilə taqəti tükənib. Döyüş yoldaşları onu xeyli müddət olduğu yerdən götürə bilməyiblər. Sonunda Ceyhunu son nəfəsində götürüb tibb personalına çatdırmağa çalışsalar da Ceyhun 9 noyabrda şəhid olub.

Ceyhunun ailəsi 9 gün ondan xəbər ala bilməyib. Hər ötən an ailənin nigarançılığı artıb. Noyabrın 12 - də şəhidimizin anası Gülnarə ana Ceyhunundan xəbərsiz Vətən müharibəsində şəhid olan xalası oğlu Məmmədli Nicat Rizvan oğlunun yas mərasiminə getməyə hazırlaşarkən Ceyhunun yaralandığı xəbərini alıb. Ancaq az vaxtda bu xəbərin yalan olduğunu öyrənib. Günlərdi oğlundan xəbər ala bilməyən ana oğlunun şəhid xəbərini alıb. Noyabrın 13-də Ceyhun bir zaman silahdaşları, indi isə cənnət qonşuları olan 13 şəhidlə birlikdə Naxçıvan torpağına gətirilib. Cəmi 10 dəqiqə həyətlərində qonaq olan şəhidin nəşi Culfa rayon Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Leytenant Dünyamalıyev Ceyhun Zeynal oğlu şəhadətindən sonra Vətən müharibəsində göstərdiyi şücaətlərə görə Ali Baş Komandanın əmri ilə «Cəbrayılın azad olunmasına görə», «Kəlbəcərin azad olunmasına görə», «Şuşanın azad olunmasına görə», «Xocavəndin azad olunmasına görə», «İgidliyə görə» və «Vətən uğrunda» medalları ilə təltif edilib. Qeyd edim ki, qəhrəman şəhidimiz xidməti zamanı da «Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi» yubiley medalı ilə təltif edilib.





## ŞƏHİD CEYHUN

Hər döyüşdə igid kimi vuruşmaq,
Qismət oldu sənə, yenilməz şəhid.
Qarabağın torpağında izin var,
Dastan oldu döyüşlərin, mərd igid.

Azadlığın yoluna qan çilədin,
Əzmin oldu qələbəyə nərdivan.
Göz qırpmadan düşmən üstə yürüdün,
Bir güc aldın sanki Ceyhun, Tanrıdan.

Bu cüssənin daşıdığı ürəyin,
Böyüklüyü heyran etdi hər kəsi.
Qarabağın dağında, dərəsində,
Sayənizdə yayıldı azan səsi.

Bu zəfərlə sən yaşatdın iftixar,
Son döyüşün oldu Şuşa döyüşü.
Şuşamızın dağ-dərəsi izlədi,
Şəhidlərin cənnətə yüksəlişin.



**MƏMMƏDLİ NİCAT RİZVAN OĞLU LEYTENANT (II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## QANLA YAZILAN SON ROMAN

Əslində hər insanın ömrü bir romandır. Ancaq hər insanın ömrü sətirlərə yansımır. Elə insanlar var ki, yaşadığı ömür sətir - sətir yazılır, oxunur və unudulmur. Həyatı örnək götürülən insan heç unudularmı? Körpələrin sözlərində, anaların göz yaşında yer alan insan unudulmaz insandır. Kim bilir Nicat özünü oxuduğu hansı kitabın qəhrəmanı kimi xəyal etmişdi. Bəlkə də oxuduğu kitablarda heç könül dünyasına bənzər bir qəhrəmana rast gəlməmişdi. Elə ona görə də özü roman yazmağa başladı. Özündənmi yazdın o müharibə romanında, şəhidim? Qarabağ həsrətindənmi yazdın, yoxsa düşmənə olan nifrətindənmi? Bəlkə qanla yazdığın qəhrəmanlığından yazdın? Çox suallar var düşüncəmdə. Kaş ki, döyüş zamanı yoxa çıxan əlyazman olan o romanı tapmaq mümkün olardı. Yazarkən nə arzularla yazdın. Övlad kimi oxşadın o sətirləri. Bəzən yuxusuz gecələrin oldu, bəzən də sirdaşın. O roman sən oldun. Səni sənin sətirlərindən oxumaq bu gün əlçatmaz görünsə də bir gün o romanın tapılacağına ümid edirəm.

Məmmədli Nicat Rizvan oğlu 31 iyul 1999 - cu ildə Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda dünyaya göz açmışdır. Ailədə üç





qardaş bir bacı olmuşlar. 2005-ci ildə Culfa şəhər 2 N - li tam orta məktəbdə I sinfə qədəm qoymuşdu. Naxçıvanda böyüyən bir çox oğullar kimi o da VIII sinfi bitirdikdən sonra Heydər Əliyev adına Hərbi liseyə daxil olmuşdu. Təhsil aldığı dövürdə dəfələrlə təşəkkürnamə almış, 2-ci kursda məktəb birincisi olmuşdu. 2016-cı ildə Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdu. Məktəbi leytenant kimi bitirdikdən sonra 2020-ci ildə Ağdam rayonunun Xındırıstan kəndində N saylı hərbi hissədə taqım komandiri kimi xidmətə başlamışdı.

Nicat ailə qurmağa hazırlaşırmış. Əgər müharibə olmasaydı Minayə ana oğlunun vağzalı sədasına qol qaldırıb oynayacaqdı. Ancaq o qollar oğul tabutuna sarıldı.

Nicat hər dəfə döyüş bölgəsindən anasına zəng edəndə döyüşlərdə olmadığını deyib. Anası narahat olmasın deyə ölümlə üz-üzə olduğunu gizlədib. Oktyabrın 4-də anası ilə danışdığı zaman Suqovuşanda çəkdirdiyi şəkilləri göndərib. Anası oğlunun od-alovun içərisində olduğunu anlayıb. Həmin o danışıq ana və oğulun son danışığı olub. Elə həmin gün Nicat tarixə bir qəhrəmanlıq romanı yazıb. Əli ilə yazdığı müharibə romanını heç kim oxuya bilməsə də qanı ilə yazdığı qəhrəmanlıq romanını bütün Azərbaycan xalqı oxuyub və oxuyacaq.

Döyüşlərin şiddətlə davam etdiyi vaxt Nicat ölü sanılan bir erməni əsgərinin qumbaranı çəkdiyini görüb. Ətrafda olan 30 əsgərin sağ qalması üçün Nicat bir an belə düşünmədən özünü qumbaranın üstünə atıb. 30 həyatı xilas edən qəhrəman elə həmin anda şəhid olub. 30 ananın göz yaşları bir Minayə ananın gözlərində cəm olub.

Cəbrayılın azad olunduğu gün Minayə ana Nicatı təbrik etmək üçün ona zəng edib. Ancaq zəngi cavabsız qalıb. Həmin an ananın ürəyindən sanki bir tel qopub. Günlərlə Nicata edilən zənglər cavabsız qalıb. Oktyabrın 9-da Nicatın şəhid xəbəri gəlib. «Acı xəbər tez duyular» misalı öz gerçəkliyini göstərib. Bu xəbər ildırım surəti ilə yayılıb.

Nicat Culfa rayon Şəhidlər Xiyabanında dəfn olunan ilk şəhiddir. 12 oktyabrda həmin xiyabandan cənnətə yol açıldı. O yolun yolçuları isə çox oldu.

Leytenant Məmmədli Nicat Rizvan oğlu ölkə başçısı İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda»medalı, "Cəsur döyüş-

çü" medalı və «Suqovuşanın azad olunmasına görə»medalı ilə təltif edilib.

Şəhadətindən öncə bir neçə vəsiyyətini dilə gətirən Nicat çox sevdiyi kitablarını dostuna, fotoaparatını qardaşına vəsiyyət edib. Qolundakı saatını və 7 manat pulunu isə döyüş yoldaşına verib ki, ailəsinə çatdırsın. Hər zaman xeyriyyəçiliklə məşğul olan qəhrəman telefonunun satılıb pulunun uşaq evinə verilməyini də dilə gətirib. Savadı, düşüncəsi ilə seçilən Nicatın getdiyi sonuncu yolu da fərqli olub.

### ŞƏHİD NİCAT

Torpağın köksünə həkk eləmisən,
Qanınla yazdığın sonsuz romanı.
Son üç damla qanın üç nöqtə olub,
Romanda həkk olub qələbə anı.

Sənin igidliyin, qəhrəmanlığın,
Torpağa yazılıb sətir və sətir.
Oxurkən sətirdən sanki duyulur,
Cənnət qoxusuna bənzər xoş ətir.

Sən neçə ananı xilas etmisən,
Oğul həsrətinin pəncələrindən.
Necə can qurtardın Nicat, bir anda,
Partlayan qumbara qəlpələrindən.

Bilmirəm, köksünə sığan ürəyə,
Necə sığa bildi bu qəhrəmanlıq?!
Oxuyub yetişdim mən üç nöqtəyə,
Sondan başa döndüm yenə bir anlıq.





## QƏHRƏMANOV ELMƏDDİN NİYAMƏDDİN OĞLU LEYTENANT

**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**



### AĞ GÜNƏ ÇIXDI VƏTƏN

Bir zamanlar unudulmaz şairimiz Məmməd Araz Azərbaycanı yatmış vulkana bənzətmişdi. O zaman şair «Ayağa dur Azərbaycan!» deyəndə bilirdi ki, bu xalq ayağa qalxdığı təqdirdə düşməni əzib keçəcək. Bir gün o anın yetişəcəyini hər kəs bilirdi. Uzun zaman keçməyinə baxmayaraq həmin zamanın çatacağı təqdirdə hər kəs xəyalında Qarabağa böyük qayıdışı canlandırırdı. Xəyallar fərqli olsa da gediləcək ünvan bir idi. Qarabağ...

Bu illər ərzində böyüyən körpələr əvvəlki illərin körpələrindən fərqli böyüdü. Hər beşik başında səslənən laylalarda Qarabağ həsrəti dilə gəldi:

Əzizinəm Qarabağ,
Var qəlbimdə yara, dağ.
Oğlum, böyüyüb gətir,
Sən Qarabağdan soraq.

Artıq dünyanı dərk edən uşaq Qarabağ adlı torpağın onu gözlədiyini bilirdi.

Qəhrəmanovlar ailəsində də böyüyən 3 oğul vətən sevgisi ilə böyümüşdü. Evin ortancıl övladı olan Elməddinin isə vətən sevgisi sözlərin izah edə bilməyəcəyi qədər dərin idi.

Qəhrəmanov Elməddin Niyaməddin oğlu 1997-ci il 26 yanvarda Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Qıvraq qəsəbəsində dünyaya gəlmişdi. Elə ilk təhsilini də Qıvraq qəsəbə tam orta məktəbində almışdı. Bir «Ana, Vətən, Ana Vətən» deməyi varmış ki, duyarkən ürəyi titrədirmiş. III sinfdən idmanın karate növü ilə məşğul olmuşdu. VIII sinfi bitirdikdən sonra Heydər Əliyev adına Hərbi liseyə qəbul olmuş, üç il təhsil aldıqdan sonra 2014 - cü ildə liseyi bitirmişdi. Sonra Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuş, 2018-ci ildə bitirmişdi. Həmin il leytenant kimi Ağdamda yerləşən N saylı hərbi hissədə xidmətə başlamışdı. Ürəyində vətən sevgisi və düşmənə sonsuz nifrəti olan Elməddin elə ilk gündən ön cəbhədə xidmət etmişdi. Bir hərbçinin ən böyük arzusu vətən həsrətini bitirmək olur. Ancaq o həsrəti bitirmək üçün atılan addımlar ürəkdə ata, ana, yar həsrətinə yelkən açır. Elməddin 2 ildə ailəsini cəmi bir neçə dəfə görə bilmişdi. 2020-ci ildə sevdiyi xanımla nişanlanan Elməddinin arzuları var idi. İllərlə min bir zəhmətini çəkən anasını ağ günə çıxaracaqdı. Ancaq vətəni ağ günə çıxardı. Həyatda bacısı olmayan Elməddin Təranə ananı həm anası, həm bacısı bilib. Bütün arzularını Təranə anayla bölüşüb. İndi ana oğlunun yarımçıq qalan arzularını ürəyində bürüyüb, büküb. Axı ürək bu qədər acıya necə tab etsin?

Vətən müharibəsinə ilk gündən qatılan qəhrəmanlardan biri idi Elməddin. Hər dəfə zəng etdiyi zaman hər şeyin yaxşı olduğunu deyirdi. Oktyabrın 6-da zəng etdiyi zaman yenə ailəsinə hər şeyin yaxşı olduğunu, qazanılan zəfərləri deyib. Telefonu söndürdükdən bir neçə dəqiqə sonra düşmən tərəfindən atılan minamyotun patlaması nəticəsində boğazından aldığı qəlpə yarası nəticəsində şəhadətə ucalıb. Ertəsi gün ailəsinə Elməddinin şəhid olduğu xəbəri verilib. Məsafənin uzaq olması səbəbindən şəhidin nəşi oktyabrın 14-də Naxçıvan Muxtar Respublikasında ata ocağına gətirilib. Türkiyə konsulluğunun, Naxçıvan İcra hakimiyyətinin, hərbçilərin və xalqın iştirakı ilə şəhid Qıvraq kənd məzarlığında torpağa tapşırılıb. Elməddinlə birgə Qıvraq kənd məzarlığında uyuyan şəhidlərin sayı 5-ə çatıb.

44 günlük müharibənin 11 gününü vətən mübarizəsi aparan leytenant Qəhrəmanov Elməddin Niyaməddin oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğ-





runda» medalı, «Cəsur döyüşçü» medalı və «Ağdamın azad olunmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD ELMƏDDİN

Vətən boyda bir ümman,
Qəlbin ümmana liman,
Vətəndi sənin anan,
Uyuyursan bətnində
Canlanırsan vətəndə.

Dağı da sən daşı da,
Min il ötən yaşı da...
Sənsən hər qarışı da,
Vətənsən başdan-başa
Sən son qoydun savaşa.

Ömrünlə zəfər dərdin,
Ürəklərdə közərdin,
Şəhid olub Elməddin,
Sən üz tutdun cənnətə
Döndün qəlbdə həsrətə.



QƏDİMOV GÜLOĞLAN
NURƏDDİN OĞLU
LEYTENANT
(II Qarabağ müharibəsində şəhid olmuşdur.)

## VİDASI ÜRƏYƏ TOXUNAN ŞƏHİD

Bayraq qürur, torpaq qeyrətdir. Qürurumuzun kölgəsi qeyrətimizin üzərində iz salır. Hər dəfə düşmən ayağı o torpağa dəydikcə vətən qeyrəti çəkən oğulların səbri çarmıxa çəkilirdi. Neçə oğulun uğrunda can verdiyi torpağın işğalda olması bir azərbaycanlı üçün qəbul edilməzdi. Elə o işğalı qəbul etməyən oğullar bütün həyatları boyu vətənə yararlı bir övlad olmaq üçün çalışırlar. Hərbçi peşəsini seçən birinin artıq gedəcəyi ünvan bəlli olur. Hər insan bu müqəddəs peşənin ağırlığını, qürurunu, şərəfini daşımaq iqtidarında deyil. Hər yaşadığı günü son gün kimi yaşayan bir insan hər zaman ölümün gözünə dik baxır. Çünki o insan ölməzliyinin fərqində olur. Axı vətən yolunda can verən ölümsüz olur. Hər iki dünyada ölümsüz olan müqəddəslərdəndir Güloğlan.

Ailəsinin ilki idi Güloğlan. 1997-ci il 18 iyulda Naxçıvan Muxtar Respublikası Kəngərli rayon Qıvraq qəsəbəsində anadan olmuşdur. Böyük olduğu üçün özündən sonra doğulan qardaşının və son beşik bacısının qayğısını çəkirmiş. Heç kimlə işi olmaz, körpəlikdən adəti yaxşılıq etməkmiş. Güloğlan 2003- cü il Qıvraq qəsəbəsində yerləşən 2 N-li məktəbdə ilk təhsilini almağa başlamışdı. Tez-tez hərbçilərlə rastlaşdığından





körpə ürəkdə böyük bir sevgi yaranmağa başlamışdı. Bu hərbçi peşəsinə olan sevgi idi. Orta məktəbi əla qiymətlərlə oxuyan Güloğlan VIII sinfi də əla qiymətlərlə bitirib və ən böyük xəyalına çatmaq üçün ilk addımı atmışdı. O, 2011-ci ildə Heydər Əliyev adına Hərbi liseyə daxil olmuşdu. 3 il müddətində nizam-intizamı, dəqiqliyi və peşəkarlığı ilə müəllimlərinin hörmətini qazanmışdı. Liseyi bitirən zaman müəllimləri belə bir oğul böyütdükləri üçün valideynlərə xüsusi təşəkkür etmişdilər. 2014-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdu. 2018-ci ildə təhsilini başa vurmuş, təyinatla Beyləqan rayonunda yerləşən N saylı hərbi hissədə leytenant hərbi rütbəsi ilə xidmətə başlamışdı. Sonra Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində (TTM) 04.10.2019-cu ildən 16.11.2019-cu ilə qədər fəaliyyət göstərən motoatıcı bölük komandiri kursunu bitirmişdir.

Sonuncu dəfə bayraqlı tabutda evə döndüyü gündən 1 il öncə çıxmışdı evindən. Bacısının universitet xərclərini ödəyirmiş ki, bacısı arzularına çatsın. Atasının, qardaşının da könlünü şad etməyi bacarmışdı. Ancaq ən çox anasını düşünürmüş. Körpəlikdən anasının min bir zəhmətinə şahid olmuşdu. Körpəlikdən anasına onu ağ günə çıxaracağını söz vermişdi. Dediyi kimi də etdi. Ancaq bu xoşbəxt günlərin ömrü qısa oldu.

26 sentyabrda son dəfə ailəsinə zəng etdiyi zaman son sözləri «Özünüzə yaxşı baxın.» oldu. Bunun bir vida olduğunu ailə ertəsi gün anladı. Hər kəs müharibədən danışırdı. Rəqsanə ananın ürəyi həfif-həfif sızıldayırdı. İşlədiyi yerdə baxışlarını hərbçilərə dikib uzun - uzun xəyallara dalırdı. «İlahi, oğlumun timsalında bütün hərbiçilərimizi qoru.» sözlərinin sədası ilə tez-tez yerindən sıçrayırdı. Bir-neçə gün sonra ürəklər bir xəbərlə sarsıldı. Nurəddin kişi oğlunun qara xəbərini gözlərinə çəkib gəldi. Dili söz tutmayan bu biçarə atanın gözləri sanki dil açıb «Güloğlan şəhid olub.» dedi. Oktyabrın 1-də şəhid xəbəri gələn qəhrəmanın nəşini götürmək mümkün olmadığından ailənin şəhidin nəşinə qovuşmağı uzun müddət çəkdi. Dekabrın 5-də müəyyən proseslərdən sonra şəhidin nəşini müəyyən etmək mümkün oldu. Bir il öncə evindən çıxan Güloğlan bir il sonra dekabrın 14 - də azad vətənin qalib şəhidi kimi ata ocağına gətirildi. Həmin gün Qıvraq qəsəbə qəbirsanlığında torpağa tapşırıldı.

Vətən uğrunda canını fəda edən leytenant Qədimov Güloğlan Nurəd-

din oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə «Vətən uğrunda» medalı, «Cəsur döyüşçü» medalı və «Füzulinin azad olunmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD GÜLOĞLAN

Son vidanla toxundun,
Şəhid, sən neçə qəlbə.
İntizarlı baxışlar,
İzin salıb gözlərdə.

Sənsiz səndən danışmaq,
Ağır gəlir, Güloğlan.
Sənsən torpaq üstündə,
Qurumaz bir gül olan.

Sən elə bir çiçəksən,
Bir dəfə biçilirsən.
Külli - bəşər içində,
Şəhid tək seçilirsən.

Qanını içən torpaq,
Dönüb olub gülüstan.
Torpaq altında uyur,
Sənin kimi qəhrəman.





## ƏSGƏROV ELÇİN YALÇIN OĞLU
**LEYTENANT**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**



## İLK QALİBİYYƏTİN CARÇISI

Azərbaycan Ordusu Vətən müharibəsində şahini xatırlatdı. Ordunun hər bir hərbçisi elə bil ki, illərdi düşmən üzərinə şığıyacağı və düşmən gözlərini tökəcəyi günü gözləyirdi. Al qana qərq olmuş qanadlar sanki Tanrıdan güc almışdı. Daha heç bir maneə bu gücün qarşısında tab gətirə bilməzdi. Səbrin daşdığı sonuncu damla qan düşdüyü anda İlahi eşq öz gücünü göstərdi. Bu güc zəfər qapısını taybatay açdı. Vətən oğullarına, cənnət şəhidlərinə qucaq açdı. Vətənin oğlu Elçin cənnətə vətən torpağından keçib getdi.

Əsgərov Elçin Yalçın oğlu 3 fevral 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Qıvraq qəsəbəsində anadan olmuşdur. O, 2004-cü ildə Kəngərli rayon Qıvraq qəsəbə tam orta məktəbində I sinfə getmişdi. Böyüdükcə Elçinin vətən sevgisi də ürəyində cilalanmışdı. Məktəbdə fəallığı ilə seçilən Elçin hər zaman tədbirlərdə iştirak etmiş, məktəbin ictimai işlərində öndə olmuşdu. Körpə yaşlarından ruhundakı vətən sevgisi qanadlanıb uçmağa başlamışdı. Bir gün Qarabağın ən hündür zirvəsinə qonan bir şahin olacağını xəyal etmişdi. Xəyallar atılan addımlarla gerçəyə dönür. O arzulara çatmaq üçün Elçin ilk olaraq 2011-ci

ildə Naxçıvanda Heydər Əliyev adına Hərbi liseyə qəbul olmuşdu. O gün Elçinin sevinci gözlərində bərq vurmuşdu. Bu eşqə ünvan olan ürəyi Allahın seçdiyi bir bəndə daşıdığı sirr deyildi. Elçin 2014-cü ildə liseyi bitirdikdən sonra Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdu. 2018-ci ildə həmin məktəbi kəşfiyyatçı ixtisası üzrə bitirərək N saylı hərbi hissədə leytenant kimi xidmətə başlamışdı.

Hələ yaşanılması arzu edilən çox arzular var idi. Fadəyə xanımla eşq bağına təzəcə qədəm qoymuşdunuz. Nə tez qor düşdü eşq bağına? O bağı bürüyən övlad qoxusunu belə duymadın, şəhidim. Heç o övlad da ata qoxusunu duymadı. Sənin şəhadətinin 32-ci günündə Zəhra dünyaya gəldi. Adını qoyub üzünü görmədiyin, xəyallarında böyüdüb həyatda böyüməsini görmədiyin Zəhra. Ah şəhidim, Zəhranın böyüdükcə verəcəyi cavabsız sualların qarşısında Fədayə xanım necə tab gətirəcək?

Fəxriyyə ana hər zaman Elçini ilə qürur duyurdu. İndi də qürur duyur. Daha Elçini «Vətən» deyə oxşayır. Axı Elçin vətənə dönüb. O, vətən boyda oğul dərdinə vətən boyda şəhid sevgisi ilə tab edir. Şəhid adı o dərdli ürəyin məlhəmidi.

Elçinaz, Şıxəli qardaşlarından bir keçmiş kimi danışmırlar. Çünki şəhidlər sabahları aydınlığa qərq edən işıqdı.

Qürurlu şəhid atası Yalçın Əsgərov oğlunun Zəfər imzasını həm gözündən, həm də sözündən asıb.

Əsgərov Elçin Yalçın oğlu Vətən müharibəsi qəhrəmanı kimi adını tarixə həkk edən oğullardan biridi. O, 2020- ci il sentyabr ayının 27-də başlayan Vətən müharibəsində Fizuli və Cəbrayıl rayonlarının işğaldan azad olunmasında igidliklə döyüşmüşdü. Elçin bu döyüşlərdə dəfələrlə yaralanmasına baxmayaraq geri çəkilməmişdi. Döyüşlər zamanı əmisi oğlu Əsgərli Tural Ələmdar oğlunun şəhid olduğu xəbərini alan Elçin daha da hiddətlənmiş və düşmənin xeyli sayda itki verməsinə nail olmuşdu. Artıq Elçin üçün yalnız bir yol var idi. Qarabağa gedən yol. Son nəfəsinə qədər o yolu getməkdə qərarlı idi. Ancaq gənc zabitin ömrü kimi döyüş yolu da qısa oldu.

Elçinin döyüş yoldaşları onun qəhrəmanlığından, göstərdiyi şücaətlərdən qürurla danışırlar. Onların dediklərindən Elçinin nə qədər ərazilərin azad olunmasında zəhməti olduğu aşkar olur. Elçin öz bölüyü ilə bərabər





ön xətdə vuruşub. Ən ağır döyüşlərin getdiyi Füzuli rayonunun azad olunmasında müstəsna xidmətləri olan Elçin sentyabr ayının 27-də Fizuli rayonunda Vodoprom (Köhnə Su anbarı istiqamətində) 1-ci eşalonu yarmaq əmrini almış, Elçinin bölüyü 1-ci eşalon və 2-ci eşalonu yarmışdı. Azadlıq yolundakı ən böyük maneənin yarılması ilk qalibiyyət idi. Sentyabrın 30-da tabor birləşərək Vilayət postuna girmiş və ən ağır döyüşlərdən sayılan həmin döyüşdə qalib gələrək həmin postu da düşmən işğalından təmizləmişdi.

Oktyabrın 3-də Füzuli rayonunun Nüzgar kəndində düşmənin əsas qüvvələrinin cəmləşdiyi mövqeləri darmadağın etmiş, oktyabrın 4-də Cəbrayıl rayonunun Xorovlu və Şəybəy kəndlərini azad etmişlər. Şəybəy kəndini tək Elçinin bölüyü azad etmişdi. Sentyabrın 9-da Daşkəsən dağında ermənilərin əsas postlarını Elçinin bölüyü darmadağın etmiş və həmin postda düşmənin xeyli canlı qüvvəsi məhv edilmişdi. 5 gün həmin postda müəyyən tapşırıqlar yerinə yetirildikdən sonra oktyabrın 13-də Yerazıllı kəndi istiqamətində 1 gün yol qət etdikdən sonra Füzuli rayonunun Qarakollu kəndini və Üç yol deyilən strateji nöqtəni nəzarətə götürmüşlər. Həmin gecə saat 5-də Xaçın bulaq kəndini keçdikdən sonra Mollavəli yolunu tutan dəstə 3-gün mühasirədə qaldıqdan sonra mühasirəni yarıb Qarğabazar kəndini nəzarətə götürmüşlər. Sonra İlanlı dağında yerləşən postları ələ keçirib Kürdlər, Gecəgözlü və Aybasan kəndlərini işğaldan azad etmişlər.

Elçin 25 oktyabr 2020-ci ildə Füzuli rayonunun Seyidəhmədli kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşmuş,şəhid yoldaşlarını döyüş meydanından çıxararkən özü də qəhramancasına şəhid olmuşdu.

Elçin 30 oktyabr 2020-ci ildə Kəngərli rayon Qıvraq qəsəbə məzarlığında dəfn olunub.

Vətən qəhrəmanı leytenant Əsgərov Elçin Yalçın oğlu Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, «Azərbaycan Bayrağı» ordeni, «Cəbrayılın azad olunmasına görə» medalı və «Füzulinin azad olunmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD ELÇİN

Qətrə-qətrə axan qanlar,
Gur çağlayan, coşan çaydı.
Şəhidlərin son vidası,
Göyə ucalan haraydı.

O harayda intiqam var,
Kar etdi düşmən qulağın.
Elçin kəsdi Füzulidən,
Düşmənin murdar ayağın.

Neçə oğul qan çilədi,
Vətən adlı o bağlara.
Şəhidlərin ruhu qondu,
Göyə ucalan dağlara.

Arzudan doğan ümidlər,
Vətən günün ağ elədi.
Zəhra tək neçə körpələr,
Ata üzünü görmədi.

O atasız körpələrə,
Ana vətən ata oldu.
Anaların oğulları,
Vətənin övladı oldu.





## XƏLİLBƏYLİ TURQUT NADİR OĞLU LEYTENANT

**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**



## HƏKİM ŞƏHİD

Bəyaz paklığın simvoludur. Bəyaz aydınlıqdır. Bəyaz ümiddir. Əbəs yerə həkimlər bəyaz xalat geyinmirlər. Onlar neçə-neçə həyatı xilas edən, neçə ümidsizə ümid olan mələklərdi. Düşünə bilirsinizmi bir insan həyatın xilas etmək duyğusunu? Allah yer üzündəki bəndəsinə başqa bəndəsinin əli ilə həyat bəxş edir. Günahsız körpələr də həkimlərin əllərində can tapır, şəhadətin bir addımlığından dönən qazilər də. Bəzən də yer üzünün bəyaz xalatlı mələyi göy üzünün mələyinə çevrilir. Xəstələrə can verən həkim döyüş yoldaşlarının həyatını xilas edir, həm də vətənə can verir. Adı tarixdə həkim şəhid kimi əbədi qalır. Allah cənnəti əlləri ilə şəfa bəxş edən Turqutun da nuruna qərq edib.

Hər zaman çöhrəsində gülüş əksin salan Turqutun ruhunun gözəlliyi baxışlarından oxunurdu. Xəlilbəyli Turqut Nadir oğlu 4 iyul 1993-cü ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Yengicə kəndində anadan olmuşdur. 2000-ci ildə Yengicə kənd tam orta məktəbində təhsil almağa başlamışdı. 2007-ci ildə Şərur rayon «Fizika-riyaziyyat liseyinə daxil olmuş,2011-ci ildə bitirmişdi. Həmin il Azərbaycan Tibb Universitetinə qəbul olmuşdu. 2018-ci ildə universiteti bitirdikdən sonra hərbi

həkim kimi Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin sırasına qoşulmuşdu. Vətən, bayraq, torpaq deyəndə ruhu əsirdi. Onun üçün bu dəyərlər əvəzsiz idi. Uşaqlıqdan özünü bir hərbçi kimi xəyal edən Turqut böyüyüb iki şərəfli peşəni eyni anda icra etdi. Onun bu peşədə kumiri yaxın qohumu polkovnik - leytenant Çingiz Məmmədov idi. Hər zaman ondan məsləhət alar, onun kimi peşəsinə layiq olmağa çalışardı.

Turqut Beyləqan rayonunda yerləşən N saylı hərbi hissədə xidmətə başlayıb. Beyləqanda şöbə müdürü işləyib. Vətən uğrunda sağlamlığını fəda edən əsgər və zabitlərə həyat bəxş edib. Vətən müharibəsi başlanan gündən bir xilaskar kimi önə atılıb. Füzuli rayonunda arxa cəbhədə olmalı olduğu halda o ön cəbhəni seçib. Döyüşlər zamanı nələr görmədi? Yarımçıq bədənlər, paralanmış ümidlər, çarəsiz baxışlar, imdad səsləri və nələr - nələr... Hər birini xilas etməyə çalışdı Turqut. Dəfələrlə yaralı vətən oğullarını həyata qaytarmağı bacardı. Alov saçan güllələr, mərmilər onun gözünü qorxutmadı. Yaralı əsgərləri döyüş meydanından çıxardı. Sonuncu dəfə 7 oktyabr 2020-ci ildə növbəti döyüş tapşırığını yerinə yetirərkən xəsarət alan hərbiçiləri çıxarmağa çalışarkən bu gün Turqutun adının dilimizə əzbər olduğu hadisə baş verdi. Həmin gün bir neçə həyat qurtaran Turqut son dəfə də həyat qurtarmağı bacardı. Hətta yaralı əsgərin üzərinə atılaraq onu növbəti dəfə xəsarət almaqdan qorudu. Həmin zaman düşmənin atdığı minamyotun yanlarına düşməsi nəticəsində ağır yaralandı. Hər zaman yaralı əsgərlərin dadına çatan, onları çətin vəziyyətdən xilas edən Turqutun o anda köməyinə yetəcək bir loğman olmadı. Həyat xilaskarı vətən xilaskarı kimi şəhadətə ucaldı.

Turqut son dəfə 4 oktyabrda atası Nadir Hüseynovla danışıb. Daha sonra kumiri olduğu Çingiz Məmmədovun bir qrup şəxslərlə əsgərlərə yardım apardığı zaman « Yaralı əsgər və zabitlərin döyüş meydanında can tapşırmağına imkan verməyəcəm. Məndən nigaran qalmayın. Vətənimin bu günündə həm vətənimin keşiyini, həm yaralıların qayğısını çəkməkdən qürur duyuram. Az qalıb, Allahın izni ilə Qarabağda görüşərik.» deyib. Ancaq Turqutun ömür yolu Füzulidə tamamlanıb. Şuşanı, Laçını görmək arzusunda olsa da o torpaqlara qədəm basa bilməyib. Kim bilir yaşasaydı neçə-neçə yaralı əsgəri yaşadacaqdı.

Gülər üzü, xoşrəftarı ilə hər kəsin qəlbinə yol tapan Turqutun cismi 8 oktyabrda II Fəxri Xiyabanda torpağa tapşırılıb, adı isə milyonlarla ürəyə yazılıb.Gözlərindəki həyat eşqi məzardakı rəsminə iz salan bu qəhrəmanın baxışlarına nəzər salan hər kəsin göz yaşları çöhrəsində iz salır.





II Qarabağ müharibəsinin ilk həkim şəhidi leytenant Xəlilbəyli Turqut Nadir oğlu hərbi həkim kimi döyüş bölgəsində göstərdiyi şücaətlərə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Azərbaycan Bayrağı» ordeni, «Vətən uğrunda» medalı «Cəbrayılın azad olunmasına görə» medalı və «Füzulinin azad olunmasına görə» medalı ilə təltif edilib.

Həkim - həyat xilaskarı, şəhid - vətən xilaskarıdı. Həkim şəhid - həyat və vətən xilaskarıdı.

## HƏKİM ŞƏHİD

Şəfalı əlləri toxunan yerdə,
Ümid cücərirdi, həyat bitirdi.
Vətənçün əzasın qurban edənin,
Dadına qəhrəman Turqut yetirdi.

Can xilaskarıydı vətən övladı,
Sonuncu nəfəsi vətənçün oldu.
Vətən torpağının sinəsi üstə,
Bir həkim şəhid tək əbədi soldu.

Hər kəsə şəfadan pay verən kəsə,
Şəfadan pay verən loğman yetmədi.
Bir həkim şəhid tək ömrü bitsə də,
İzi silinmədi, izi itmədi.

Adı sabahların dilinə əzbər,
Yolu gediləcək şərəf yoludu.
Turqut tək vətəni sevən oğullar,
Heç vaxt darda qoymaz bu gözəl yurdu.



VƏLİZADƏ İBRAHİM
MALİK OĞLU
LEYTENANT
(II Qarabağ müharibəsində şəhid
olmuşdur.)

## ELİN QƏHRƏMAN OĞLU

El dərdini dərdi bilən, el oğlu,
El yolunda getdin dönülməz yolu...

Yaxşı insanların ardınca deyilən «Evdən deyil, eldən getdi.» sözlərini tez-tez eşidirik. Bu sözü çox insanlar şəhid Vəlizadə İbrahimə də şamil edir. İbrahim son mənzilə yola salınanda ümidi olduğu çox insanlar onu bala, qardaş, dost kimi yola saldılar. Bir evin kandarından çıxıb neçə-neçə evə ümid işığı saçan oğul gedişi ilə çox ürəkləri sızlatdı. Dərdlilərin, ehtiyac sahiblərinin yol yoldaşı olan İbrahim ən böyük yaxşılığı isə vətənə etdi. Vətəni düşmənin pəncələrindən xilas edən bu qəhrəman etdiyi bütün yaxşılıqların qarşılığında cənnətlə mükafatlandırıldı.

Vəlizadə İbrahim 1997-ci il aprelin 2-də Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Yarımca kəndində anadan olmuşdu. 2003-cü ildə Yaqub Seyidov adına Yarımca kənd tam orta məktəbində təhsil almağa başlamışdı. 2011-ci ildə Heydər Əliyev adına Hərbi liseyə daxil olmuş, oranı bitirdikdən sonra 2014-cü ildə Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdu. 2018-ci ildə AAHM - dən məzun olduqdan sonra təyinatla Tərtər rayonundakı N saylı hərbi hissədə Xüsusi Təyinatlı Qüvvələrin tərkibində xidmətə başlamışdı. Ancaq İbrahim XTQ - in əsgəri olduğunu ailəsindən gizlətmişdi.





İbrahimin vətən sevgisi bambaşqa idi. O, hər zaman «Azərbaycan himni anamın bitməyən şirin laylasıdır.» deyib. Hər dəfə himnimizi duyanda qüruru boy-boy olub. Hətta öz toyunda vağzalı deyil himnimizin sədaları altında sevdiyi ilə əhd-peyman bağlayıb. 2018- ci ildə Billur xanımla ailə həyatı qurduğu zaman kiçik dövlətində böyük sevgisi ilə böyüyəcək körpələrinin də özü kimi dövlətinə, millətinə bağlı olmağını arzu edib. Hətta ilk və son övladına şəhid Fərid Əhmədovun adını əmanət edən zaman bir gün Fəridin böyüyüb adını daşıdığı qəhrəmanın qisasını alacağını da dilə gətirib. 1 yaşlı körpəsini cəmi 10 gün görən İbrahim bala qoxusundan doymayıb. Elə ilk snayper atəşi ilə vurulduğu anda da bunları dilə gətirib:

- Mənimki bura qədər imiş. Mən Fəridimdən doymadım. Kaş ki, bu an balamı görə bilərdim. Kaş ki, Fəridimin qoxusunu ciyərlərimə çəkib şəhid olardım. ( Bunları yazmaq mənim üçün çox ağırdı...)

İbrahim Vətən müharibəsində qət etdiyi şərəfli döyüş yolu ilə yaddaşlarda qalıb. Müharibənin ilk günü mübarizəyə qoşulan İbrahimin çətin döyüş vəziyyətində səhhətində ciddi problemlər yaranıb. Oktyabrın 1-də mədə qanaxması ilə hospitala çatdırılan İbrahimin vəziyyəti ağır olsa da həkimlərin israrına baxmayaraq hospitalda qalmaqdan imtina edib. «Gizirim şəhid oldu, döyüş yoldaşlarım döyüşdədir, mən burada yata bilmərəm.» deyib və gedib. Daha sonra döyüşlər zamanı ayağından yaralansa da yenə də hospitala getməkdən imtina edib. «Torpaqlar alınmayana qədər mənə dincəlmək, yatmaq haramdır.» deyən əzmkar qəhrəman Murovdağ uğrunda mübarizə aparan və Murovdağa bayraq sancan qəhrəmanlardan olub. Murova ümid doğan gün «Bayrağım başı qarlı Murova çox gözəl yaraşır.» deyib şəhid İbrahim. Zəfər sevinci ruhunu oxşayan İbrahim daha sonra Suqovuşan uğrunda gedən döyüşlərdə iştirak edib. Suqovuşanı da düşmənin azğın pəncələrindən azad etdikdən sonra oktyabrın 6-da düşmənin açdığı snayper atəşi ilə şəhadətə ucalıb.

Günlərlə İbrahimdən xəbər ala bilməyən ailəsinə onun şəhid olduğu xəbəri verilib. Naxçıvana gələn şəhidlər sırasında İbrahimin olmaması

ailəni onun sağ olduğuna ümidləndirib. Bir günün min ilə bərabər olduğu zamanlarda ailə dəfələrlə İbrahimin gah şəhid olduğu, gah da itkin olduğu xəbərini alıb. İbrahimin şəhid olduğunu yoldaşı Billur xanıma noyabrın 29-da gördüyü yuxuda başqa bir tanıdığı şəhid ayan edib. Günlərdi İbrahimin şəhid olduğu xəbərini hər kəs bilsə də nə Billur xanıma, nə də Kifayət anaya bu barədə heç kim nəsə deməyə cürət etməyib. Sübh namazı zamanı İbrahimin şəhid olduğu və gətirildiyini eşidən anasının və yoldaşının ümidləri külə dönüb. İbrahim sevdiyinin ad gününə öz şəhidliyini «hədiyyə» edib.

Son nəfəsində oğlunun həsrətini dilə gətirən İbrahimi oğlu Fərid qarşılayıb. Qəhrəman atanın qəhrəman oğlu atası kimi hərbi formada dünyadan xəbərsiz bayraqlı tabuta toxunub. Şəhid xanımı da şəhid yoldaşına layiq şəkildə onu qarşılayıb. Billurun məğrur duruşu əsil Azərbaycan xanımının əsalətini gözlər önünə gətirib.

Vəlizadə İbrahim Malik oğlu 30 noyabrda Yarımca kənd məzarlığında son mənzilə yola salınıb. Bu gediş nələri özü ilə aparmadı? Atalı arzular, sevgi dolu günlər, övlad adlı ümidlər, qardaş adlı dayaq bir məzara sığışdı.

Leytenant Vəlizadə İbrahim Malik oğlu prezident İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, «Suqovuşanın azad olunmasına görə «medalı,»Kəlbəcərin azad olunmasına görə «medalı və 3-cü dərəcəli «Rəşadət» ordeni ilə təltif edilib.





## ŞƏHİD İBRAHİM

İllərin sınağından çıxan bu yenilməz xalq,
Dünənlərdən bu günə gələn müqəddəs bayraq,
Şəhid qanları ilə yoğrulan ulu torpaq,
Səni bağrına basıb əziz balası kimi
Sonuncu nəfəsində sıxdın vətən əlini.

Yenilməz qəhrəmanım, düşmənə gəldin sinə,
İllər sonra çıxardın bu xalqı azad günə,
Qətrə-qətrə damladı qanın torpaq köksünə,
Məlhəm oldun qanınla min ilin yarasına
İbrahim, qədəm qoydun şəhidlər dünyasına.

Səndən qaldı bir miras azadlığın açarı,
Vətənə əmanətdir şəhidim, yadigarın,
Fərid daha yaşamaz o atalı çağları,
O körpənin atası dönüb vətən daşına
Məzar daşın qərq olur gözlərin göz yaşına.

Murovun zirvəsindən silib çisi, dumanı,
Zirvələrə ucaltdın qalib Azərbaycanı,
Sənin tək qəhrəmanlar heyran etdi dünyanı,
Hünər nəğməsi ilə düşmən köksün dağladın
Dillərin əzbəridir şəhid İbrahim, adın.



**BABAYEV ƏLİ HƏSƏN OĞLU**
**LEYTENANT**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## SEVGİSİ İLƏ SEVİLƏN ƏLİ

Bəzi dərdlər var ürəyin tab edə bilmədiyi dərdlər. Yumruq boyda ürəyin çəkməkdə aciz qaldığı dərddir övlad dərdi. O övlad ki, bütün vətən onu övladı bildi. Nə qədər şəhadəti, məqamı ilə təsəlli tapmağa çalışsa da Əlinin yoxluğu atası Həsən Babayevin ürəyinin son çırpıntısı oldu. Oğlunun alova qərq olduğu anları düşündükcə alovlanan ürək Əlinin məzarda uyumağına cəmi 40 gün dözə bildi. 5 övladından tutuna bilməyən şəhid atası cənnət qoxulu son beşiyinin cənnətinə tələsdi. Əlinin dərdinə düçar olanların dərdi üstə dərd gəldi.

Babayevlər ailəsi sevgi dolu ailə idi. Bu ocaqda 3 oğul 3 qız övladı böyümüşdü. Ailənin son beşiyi Əli idi. Əli ümid idi, əli səadət idi. Adının nuru ilə qəlbinin nuru gözlərinə yansımışdı. Gözəl baxdı, gözəl gördü, gözəl sevdi. Sevgisi ilə sevildi şəhid Əli.

Babayev Əli Həsən oğlu 1997-ci il noyabrın 14-də Şərur rayonunun Danyeri kəndində anadan olmuşdu. 2004-cü ildə Danyeri kənd Şah İsmayıl Xətai adına tam orta məktəbdə təhsil almağa başlamışdı. 2012-ci ildə Heydər Əliyev adına Hərbi liseyə qəbul olmuşdu. Sonra yüksək bal toplayaraq 2015-ci ildə Türkiyə Cümhuriyyətinin paytaxtı Ankara şəhərindəki





Kara Harpuklu Hərbi məktəbində təhsilini davam etdirmişdi. Bir ildən sonra yenidən vətənə qayıtmış və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil almışdı. 4 il sonra məktəbi bitirmiş və leytenan rütbəsi almışdı. Son dəfə məktəbdə oxuduğu zaman ailəsi ilə görüşmüşdü. Pandemiya səbəbindən daha sonra nə evlərinə gedə bilmiş, nə də ailə üzvləri onu ziyarət edə bilmişdi.

Leytenant Babayev Əli Həsən oğlu təyinatla Beyləqan rayonunda yerləşən N saylı hərbi hissədə xidmətə başlamışdı. Hələ orta məktəbdə, lisey və hərbi məktəbdə oxuduğu zaman dəfələrlə təşəkkürnamə və fəxri fərmanla təltif edilən Əli xidməti dövründə də komandirlərinin və döyüş yoldaşlarının rəğbətini qazanmışdı. Vətən müharibəsi qəhrəmanı vətən müharibəsinə də elə xidmət etdiyi hərbi hissədən qatılmışdı. İllərlə hərbin dərinliyinə yiyələnən Əli bir neçə saat döyüşdə iştirak etsə də bir qəhrəman kimi ilk səddin aşılmasında böyük rolu olmuşdu. Ən ağır mübarizənin mübarizlərindən biri olan Əli Füzuli istiqamətində xeyli irəlilədikdən sonra Cəbrayıl uğrunda gedən döyüşlərdə də qəhrəmanlıq göstərmişdi. Müharibənin ilk günü sentyabrın 27-də saat 10-11 radələrində hərəkətdə olan texnikaları düşmənin raket atəşinə tuş gəlmiş, maşının daxilində olan 7 hərbçi maşında yanaraq şəhadətə ucalmışlar. Yanaraq can vermək ölümlərin ən dəhşətlisidir. Ancaq deyirlər "Şəhidlər ağrı hiss etmədən şəhadətə ucalırlar." Mən də ümid edirəm ki, ölümlərin ən gözəli olan şəhadətə yetən şəhidlər acı çəkmədən can veriblər.

Son dəfə sentyabrın 26-da qardaşı ilə danışan Əli ilə günlərlə danışa bilməyən ailəsi səssizliyin sükutuna qərq olub. Günlər həftələrə, həftələr aya dönüb. Ancaq Əlidən xəbər almaq mümkün olmayıb. Noyabrın 2-də Əlinin şəhid olduğu xəbərini alan ailəsi ertəsi gün onun nəşinə qovuşublar. Lalə ana «Son beşiyim» deyib əzizlədiyi oğlunu yenə də əzizləyib. Bu dəfə Əli onun oxşamasını cənnətdə duyub. Dərdli ana oğlunun əbədi gedişində ardınca göz yaşları çiləyib.

Neçə - neçə şəhidə əbədi beşik olan Şərur rayon Şəhidlər Xiyabanı Əlinin də son mənzili olub. 27 sentyabrda şəhadətə ucalan şəhidimizin cismi 3 noyabrda uğrunda can verdiyi torpağa qovuşub.

Leytenant Babayev Əli Həsən oğlu müzəffər ordunun Ali Baş Komandanı İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğ-

runda» medalı, «Füzulinin azad olunmasına görə» medalı və «Cəbrayılın azad olunmasına görə» medalı ilə təltif edilib.

Arzusu Qarabağı azad etmək olan Əli azadlıq yolunda ilk can verən şəhilərdən biri kimi hər zaman yaşayacaq.

## ŞƏHİD ƏLİ

Həsrət qığılcımı sıçradı qəlbə,
Yandırdı qəlbini, ruhunu, Əli.
Vətənə həsrətli gözlərlə baxmaq,
Dağladı illərlə dərdli gözləri.

Elə qəlbin kimi yandı, alışdı,
Cismin də alova qərq oldu sənin.
Bu alov illərin buzun əritdi,
Ruhunu isitdi sanki vətənin.

Bitirdin qəlblərin vətən həsrətin,
Ürəkdən ürəyə düşdü sənsizlik.
Yoxluğun o qədər ağır gəldi ki,
Bəzən sümüklərdə sızladı ilik.

Atanın ürəyin bala acısı,
Susuz torpaq kimi çat - çat elədi.
Yan-yana ucalan iki məzarı,
Görənlər gözlərin yaşın çilədi.





## ZAMANLI MƏMMƏD RƏHMAN OĞLU LEYTENANT

**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**



## 12 SAATA YAZILAN QƏHRƏMANLIQ

Yaşamaq, yaşatmaq. Hər insan həyata gəlişi ilə Allahın həyat adlı mükafatına layiq görülür. Bəzi ömürlər saatlardan, bəzi ömürlər illərdən ibarət olur. İllərlə yaşanılan ömürün elə saatları da olur ki, min illərə bərabər olur. Zamanlı Məmmədin ömrünün son gününün 12 saatı kimi. Məmməd həmin o 12 saata həm 30 illik əsarətin qapısın açmağı, həm qəhrəmanlıq dastanını yazmağı, həm həyat xilas etməyi, həm də yaşatmağı sığdırıb. Addım-addım zəfərə çatan qəhrəmanın ömür yolunun hər addımına vətən sevgisi iz salıb.

Əzimkarlığı, qəhrəmanlığı adından başlamışdı Məmmədin. Bir qəhrəman adını daşıdığının qüruru ilə yaşayırdı. Adına layiq olmaq tək amalı idi. Böyük Vətən müharibəsindəki qəhrəmanlığı ilə hər kəsin rəğbətini qazanan Zamanov Məmməd Bəhman oğlunun adını daşıyırdı qəhrəman. Körpəlikdən «Vətən» deyəndə gözləri parlayırdı. Atası Rəhmanın keçdiyi döyüş yolunu nəql etməsi ilə böyümüşdü. Hələ I Qarabağ döyüşlərində Rəhman Zamanov vətən uğrunda savaşan qəhrəmanlardan olmuşdu. Ömrünü vətənə həsr edən Rəhman Zamanovun döyüş yolu Sədərəkdən

başlamışdı. 5 il vətənin müdafiəsində durduqdan sonra 17 il də polis kimi vətən və xalq keşiyində durmuşdu. Atasının formasını geyinib, babasının medallarını yaxasına taxan Məmməd öyünürdü. Körpə olsa da o medalların mahiyyətini anlayır, bir gün özü həmin medallara layiq olmağın xəyallarını qururdu. Xəyallardan başlayır qazanılan uğurlar. Məmməd də xəyallarının ardınca gedib böyük uğurlara imza atdı. Ən böyük imzası isə qanı ilə atdığı Zəfər imzası oldu.

1998-ci ilin 3 avqustunda Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Püsyan kəndində həyata qədəm qoymuşdu Zamanlı Məmməd Rəhman oğlu. Qədəmləri uğurlu olmuşdu ailənin ilk övlad və tək oğul payının. Ardınca Nazlı və Sitarə dünyaya gəlmişdi. Məmməd ümid idi, güvən idi. Bacıları dağ boyda qardaşa arxalanırdı. Firəngiz ana oğul adlı sərvətinə ümidlənmişdi. Oğlu ocağının işığı idi. Köçəri quşları köçəndən sonra Məmmədinin körpələri ilə evinin şənlənəcəyini xəyal edirdi. Gözünə gözəl görünənləri Məmmədinə ad edib gələcək gəlininə pay tuturdu. Hər arzusu oğlu ilə bağlı idi. Ancaq o arzuların hər biri gözündə qaldı Firəngiz ananın.

Məmməd gedəcəyi yolun mötəbərliyini məktəbli çağlarından hiss edirdi. 2004-cü ildə Şərur rayon Püsyan kənd tam orta məktəbində təhsil almağa başlasa da VIII sinfə qədər həmin məktəbdə oxumuşdu. VIII sinfi bitirdikdən sonra 2012-ci ildə Heydər Əliyev adına Hərbi liseyə daxil olmuş, 2015-ci ildə liseyi bitirmişdi. Elə həmin il Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuş, 2019 - cu ildə bitirmişdi. AAHM - dən leytenant kimi məzun olduğu zaman «Şəhid olmaq diləyi ilə...» deyib hərbi salam verməyi ilə əslində arzusunu dilə gətirmişdi.

Məmməd vətənə xidmətə Beyləqan rayonunda yerləşən N saylı hərbi hissədə artilleriyaçı kimi başlamışdı. Yüksək bilik və bacarığa malik olduğu üçün 6 ay xidmət etdikdən sonra 2 fevral 2020-ci ildə komandanlıq tərəfindən Batareyanın Baş Zabiti (BBZ) təyin olunmuşdu. Tovuz döyüşləri zamanı təyinatla Füzuliyə getmişdi. Elə Vətən müharibəsi başlayan zaman da döyüşlərə oradan başlamışdı.

27 sentyabrda atasına "Salam ata, necəsiz? Biz başladıq. Haqqınızı halal edin. Zəng etməyin, telefonu aça bilməyəcəm." sözlərini yazıb. Bir neçə cümləyə sığan min bir duyğu. Bu cümlələrdə nələr yoxdu ki?





Müharibə başlayan zaman Füzuli istiqamətində artileriyadan ilk atəş açanlardan biri olub Məmməd. Dəqiq atışlar nəticəsində düşmənin istehkamını yarmağa nail olan qəhrəman birbaşa generalla ünsiyyətdə olub. Genaral Zamanlının Ermənistan ordusuna divan tutduğunu dilə gətirib. Təxmini 200 mərmi atan Zamanlının açdığı atəşin hər biri hədəfə çatıb. 27 sentyabrda illərdən sonra bir neçə kəndin azad olunduğu sevincini bizə yaşadan qəhrəman həmin gün axşam şəhadətə ucalıb. Ömrünün son anında bir neçə ömürün həyat yollarının uzanmasının səbəbkarı olub. Bütün əsgərlərini sığınacağa yığıb. Sonuncu əsgəri qucaqlayıb səngərə atdıqdan sonra özünü xilas etməyə imkan tapmayıb.12 saatlıq döyüşə böyük qəhrəmanlıq sığdıran Məmmədin şücaətləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən də qiymətləndirilib. Leytenant Zamanlı Məmməd Rəhman oğlu şəhadətindən sonra «Azərbaycan bayrağı» ordeni, «Vətən uğrunda» medalı və «Füzulinin azad olunmasına görə» medalı ilə təltif edilib.

Müharibə, yaralılar, şəhidlər... Sən o şəhidləri və yaralıları döyüş meydanından çıxarırsan və yaxınlaşdığın şəhidin öz qohumun olduğunu görürsən. Yox bu Məmməd ola bilməz. Tanıyırsan ancaq tanımaq istəmirsən. İnanmaq istəmirsən. Bəlkə o deyil deyə şəklin göndərib dəqiqləşdirirsən. Cavab «Odur...» Çarəsizlik...

27 sentyabrda şəhid olan Məmmədin ailəsi onun şəhid xəbərini 28 sentyabrda alıb. Şəhidin nəşi oktyabrın 1-də Naxçıvana gətirilib və Püsyan kənd qəbirsanlığında torpağa tapşırılıb.

## ŞƏHİD MƏMMƏD

On iki saatlıq mübarizənlə,
Bir tarix yazmağı bacarmısan sən.
Düşmən istehkamın yerlə bir edib,
Müjdə yetirmisən sən qələbədən.

Ata-baba yolun şərəflə gedib,
Vətən keşiyində məğrur durmusan.
Məmməd, qəhrəmanlıq dastanı yazıb,
Vətənin torpağı, daşı olmusan.

Sənin döyüş yolun qısa olsa da,
Zəfərin min rəngin saçdın vətənə.
Canın xilas edib o yaşatdığın,
Döyüş yoldaşların borcludur sənə.

Vətən xilaskarı, can xilaskarı,
Adın dilimizin əzbəri olub.
Yolunun iziylə gedən oğullar,
Sənin qisasını düşməndən alıb.







**SADİQOV EMİN**
**RƏŞADƏT OĞLU**
**LEYTENANT**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## ŞƏHİD OLACAĞINI AGAH EDƏN ŞƏHİD

Sən mənə bu dünyanın ən gözəl duyğusunu yaşatdın oğul. Sən doğulan gün ürəyimə sevinc kəpənək kimi qondu. Ancaq onda heç düşünmədim ki, bu sevincin ömrü kəpənək ömrü qədər olacaq. İlk qoxunu duyduğumda cənnət kimi qoxduğunu hiss etdim. Bəlkə də hər ana üçün övladı cənnət qoxur. Ancaq sən bir fərqli idin. Cənnət ətrin evimi 21 iyul 1998-ci ildə bürüdü. Tək ümidim, pənahım sən idin. «Ana» kəlməsini təkcə səndən duyurdum. İndi isə bütün qeyrətli Azərbaycan oğulları və qızları mənə «Ana» deyir. Mənim övlad adlı möcüzəm, səninlə keçirdiyim hər an yaddaşıma elə yazılıb ki, hər biri elə bil dünən yaşanıb. Yəqin Allah səni hər anınla xatırlamağım üçün yaddaşımı güclü edib. Heç unutmuram ilk məktəbə getdiyin günü. Necə sevincli idik. 2004-cü ildə Cəlil Məmmədquluzadə adına 2 N - li tam orta məktəbdə birincilər sırasında yerini alanda sevinc və qürur hissi ilə sənə baxırdım. Eminim artıq bir məktəbli idi. Atan Rəşadətin bir arzusu da səni hərbi formada görmək idi. Ancaq onun ömrü sənin o günlərini görməyə çatmadı. Ürəyi etibarsız oldu. Sən 10 yaşında olanda ürəyi dayandı. Həyatın ilk zərbəsin onda aldım. Ancaq sən mənə ümid oldun. Sabahlarımda oğlum böyüyəcək, oğlum mənə da-

yaq olacaq ümidləri dayanırdı. Asan olmadı sənin böyüməyin. Çətinliyin nə demək olduğunu körpəlikdən öyrəndin. Körpə yaşında böyüdün. VIII sinfi bitirdikdən sonra həm atanın arzusunu, həm də öz arzunu gerçəkləşdirmək üçün hərbçi həyatına ilk qədəm qoydun. Heydər Əliyev adına Hərbi liseydə təhsil aldıqdan sonra 2015-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul oldun. Dörd illik təhsilini başa vurduqda məzun gününün sevincini səninlə birgə yaşamaq üçün mən də Bakıya gəldim. Heç unutmuram məni qarşıladığında dediyin o sözləri. «Ana çətin günlərimiz arxada qaldı. Daha səni şahzadə kimi yaşadacam.» dedin və gözlərindən iki damla yaş düşdü. Uzun illər idi mən sənin gözlərində yaş görməmişdim. Həmin o sevinc və qürur göz yaşları məni çox duyğulandırmışdı. Əminəm sən məzun olanda atanın da ruhu səni izləyirdi. Çünki sən onun ən böyük arzusunu yerinə yetirmişdin.

Artıq bir leytenant idin. Qazaxda başladın xidmətə. Daha böyük həsrətə və ayrılıqlara yol açdıq. Ancaq əbədi ayrılığın qarşıda olduğunu bilmirdim. Cəmi iki dəfə məzuniyyət götürüb evimizə gələ bildin. Martın 6 - da evimizdən çıxanda bu gedişin son olduğunu bilsəydim yollarını kəsərdim. Yox, bacarmazdım. Axı mən çox cəhd etmişdim səni hərbçi olmaq fikrindən daşındırım. Ancaq bacarmamışdım.

2020-ci il 27 sentyabrda müharibənin başladığını eşidəndə mən döyüşdə olan əsgərlər üçün daha çox dua edirdim. Sən həyatında ilk dəfə mənə yalan söyləyib geridə olduğunu demişdin. Axı mən hardan bilərdim ki, Eminim oktyabrın 22-dən 26-na qədər mühasirədə qalıb. 26 oktyabrda səsindəki titrəyişi hiss etmişdim. Bilməzdim ki, o bizim son danışığımızdı. Elə həmin gün balam düşmən gülləsinə tuş gələcək.

Dostcanlı olduğunu döyüş meydanında da göstərmisən oğul. Sonradan eşitdim şücaətlərini. Mənə dedilər düşmənin snayperlə vurduğu komandirin Rauf Əsgərovu sənin əsgərin götürməyə gedirmiş. Sən onu geri çəkib özün qabağa keçmisən. Çatmağa üç metr qalmış sən də snayperlə vurulmusan. Ürəyindən vurulmusan oğul. Sevgi dolu ürəyindən... Səni həmin gün oradan götürmək mümkün olsa da komandirini götürmək mümkün olmayıb. Qismətə bax, geri çəkdiyin əsgər səhəri gün Rauf Əsgərovu götürməyə çalışarkən vurulub və şəhid olub. Demək ki, hər üçünüzün qismətiniz eyni yazılıbmış.





Sən hər zaman məni hər kəsdən yaxşı duyurdun. Məni güclü hesab edirdin. Ona görə də sənin şəhid olduğun xəbərini heç kimin deməyə cəsarət etmədiyi halda sən özün yuxuda dedin. Hər zaman şəhidlərin ölməzliyini dilə gətiririk. Sən şəhid olandan bunu hər dəfə sübut edirsən.

Əslində 27 oktyabrda sənin yaralı olduğunu eşidəndə bu nağıla inanmadım. Mən o xəbəri eşitməmək üçün telefonları söndürdüm. Ancaq ev telefonunu söndürməyi unutdum. Sən yuxuma gəldin və dedin:

- Ana telefonları niyə söndürmüsən?
- Ay oğul, dedilər Emin ölüb.
- Ana, mən ölməmişəm, mən şəhid olmuşam.
- Emin, nə vaxt gəlirsən?
- 5-ci gün gələcəm ana.
- Axı Naxçıvana gətirilən şəhidlər ya 1-ci, ya da 6-cı gün gətirilir.
- Yox ana, mən 5-ci gün gələcəm.

Səhər açılanda hər kəsə hazırlıq görmələrini dedim. Hamı məəttəl qalmışdı ki, heç kim demədiyi halda mən sənin şəhid olduğunu hardan öyrəndim. Dedim Eminim özü dedi. 5-ci gün gələcək oğlum.

2 il öncə 30 oktyabrda mən atamı torpağa tapşırmışdım. 2 il sonra həmin məzarlıqda tək övladımı, dayağımı, Eminimi torpağa tapşırdım. Sənin qəbrinin üstə duranda sağ qolumdan tutduğunu hiss etdim. Ruhun sanki ruhuma keçdi. Əks halda mən o acıya tab edə bilməzdim. (Manya qızım, 6 aydı mən heç kimlə bunları bölüşməmişəm.)

Səni itirdiyim 3 gün idi. Yuxuma gəlmişdin. Sənə hirsləndim ki, mənə sənin şəhid olmağın lazım idi? Mən indi sənsiz necə yaşayım? Üzümə tərs-tərs baxıb dedin «Ana, sən şəhidliyin əlifbasın bilmirsən. Öyrən gələcəm.» 1 ay mənim yuxuma gəlmədin. Mən o 1 ayda "Quran"ı öyrəndim. Bunu hiss etdin və təkrar yuxuma gəldin.Yuxuda məni cənnətindən, gül - çiçəyin içində olduğundan xəbərdar etdin. Elə ona görə də ayaqda qalmağı bacarıram.

Mən illərdi sevdiklərimi məzar daşlarında əzizləyib, oxşayıram. Qismətimdə yar məzarı, ata məzarı və oğul məzarı oxşamaq varmış. Şahbuz rayon Şahbuz kənd qəbiristanlığı mənim ev - eşiyimdi. Çünki ən əzizlərimin məzarı oradadı.

Leytenant Sadiqov Emin Rəşadət oğlu, sən xalqın unudulmaz qəhrə-

manısan. Şücaətlərin Respublikamızın Prezidenti İlham Əliyev tərəfindən də dəyərləndirilib. «Vətən uğrunda» medalı və «Füzulinin azad olunmasına görə» medalı ilə təltif edilmisən. Sayənizdə 30 illik əsarətdən azad olan Kəlbəcərdə indi bir posta sənin adın verilib.

Hər anının həsrətini çəkirəm. Ən çox səndən duyduğum «Aşkım» sözünün həsrətini çəkirəm sevgisi daşlara yazılan oğul.





## ŞƏHİD EMİN

Ana, məzarım üstə düzmə gülü, çiçəyi,
Vətənə qurban etdim mən döyünən ürəyi.
Axı özün deyirdin beşiyimin başında,
"Bu vətənin oğlunun yerə dəyməz kürəyi."

Bəs nədi qəlbindəki bu intizar, bu məlal?
Mən halımdan məmnunam, ana, sən də razı qal.
Bu həyat sınağından üzü ağ çıxa bil ki,
Cənnətimə gələndə edilmə sorğu-sual.

Mən ölü deyiləm ki, mən şəhidəm, anacan,
Kaş görərdin burada necə gözəldi dünyam.
Daha vətən həsrəti sızıldatmır qəlbimi,
Ruhum kimi azaddır vətənim Azərbaycan.

Hərdən düşsəm qəlbinə, sığal çək bayrağıma,
Göz yaşını çiləmə ay ana, torpağıma.
Bilirəm arzuların mənsiz saralıb - solub,
Mən daha çevrilmişəm sənin ürək dağına.

Oxumaq istəməzdin adımı qara daşdan,
Qəbir evim islanır gözündən axan yaşdan.
Yox bacım, yox qardaşım yuxularında deyim,
Ay ana, qoxumu al sən bacıdan, qardaşdan.

Uşaqlıqdan həm ata, həm ana oldun mənə,
Arzum idi səadət, sevinc bəxş edim sənə.
Bilirəm zəhmətinin yox dünyada əvəzi,
Yenə də məzarımda laylay deyirsən mənə,
Oğul tək sarılırsan Eminimin qəbrinə.



**QURBANOV RAUF VAHİD OĞLU**
**LEYTENANT**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## DOĞULDUĞU GÜN DÜNYADAN KÖÇƏN ŞƏHİD

Hər insanın dünyaya gəldiyi gün və dünyadan köçdüyü gün fərqli olur. Çox az insan dünyaya gəldiyi gün dünyadan köç edir. Çox nadir hallarda isə insan doğulduğu gün şəhid olur. Sanki Allah «Vətən üçün göndərdim, missiyasın tamamladı,indi də aparıram.» deyib şəhidi yer üzündən qoparır. İllər öncə oğul gəlişinə sevinən ailə illər sonra oğulun əbədi gedişini çarəsizcə izləyir. «Allah verdi, Allah da apardı. Yəqin yer üzündən daha gözəl olan cənnəti layiq bilib Raufun ayaqları altına sərəcək.» Artıq həmin gün şəhidin tək mövludu yox, həm də şəhadət günü kimi qeyd olunacaq. Ziyarətinə gələnlər «Mövludun və şəhadətin mübarək Rauf.» deyəcək.

Allahın seçilmişlərindən idi Rauf. Baxışları mənalı, gülüşü gözəl idi. Mehribanlığı, dünyagörüşü onu fərqli edirdi. Ailənin iki oğul ovladından biri olan Rauf 1995-ci il oktyabrın 5 - də (sənədlərdə 14 sentyabr yazılıb) Qurbanov Vahid və Sərfinaz xanımı gəlişi ilə sevincə qərq etmişdi. Qurbanov Rauf Vahid oğlu 2001-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Ələkli kənd tam orta məktəbində təhsil almağa başlamışdı. VI sinfdən isə Vərməzyar kənd tam orta məktəbində təhsilini da-





vam etdirmişdi. Rus və və İngilis dilini bilirdi. 2011-ci ildə Heydər Əliyev adına Hərbi liseyə qəbul olmuş, 2014-ci ildə liseyi bitirmişdi. Liseydə oxuduğu zaman bir çox fəxri fərman və diplomlarla təltif edilmişdi. 2014-cü ildə hərbi təhsilini davam etdirmək üçün Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuş, 2018-ci ildə leytenant hərbi rütbəsi ilə başa vurmuşdu. Bir zabit kimi ilk dəfə təyinatla Ağcabədi şəhərində yerləşən N saylı hərbi hissədə işə başlamışdı. Bir müddət sonra Füzuliyə göndərilmiş və orada xidmətini davam etdirmişdi. Həmin ərəfədə erməni zabitinin təxribat cəhdinin qarşısını almış və düşməni zərərsizləşdirmişdi. Bu uğurlu əməliyyatı layiqli şəkildə icra etdiyi üçün Rauf medalla təltif ediləcəkdi. Ancaq Rauf daha böyük bir əməliyyata qatılması səbəbindən o medalı ala bilməmişdi.

Azərbaycan Prezidentinin uğurlu siyasəti, Azərbaycan Ordusunun rəşadəti nəticəsində 44 gün davam edən və böyük qələbə ilə sonlanan Vətən müharibəsinin qəhrəmanı Qurbanov Rauf müharibənin ilk günündən döyüşə qatılan qəhrəmanlardandı. Rauf döyüşlər zamanı yaralansa da bu yolun çətinliyi onu qorxutmayıb. Əksinə bir qədər sağaldıqdan sonra o yenidən döyüşlərə qatılıb.

Rauf ilk ad günü idi ki, Qarabağda qeyd edirdi. 5 oktyabrda ailəsi zəng edib onu təbrik edəndə sevincinin həddi - hüdudu yox idi. Rauf həmin gün hədiyyə almaq yerinə azadlığı hədiyyə etdi. O təbrikdən bir neçə saat sonra Rauf əsgərini qorumaq üçün əsgərinin önünə keçib və düşmənin snayper atəşinə tuş gəlib. 1 saat sonra isə Rauf 2-ci dəfə düşmənin minamyot atəşinə tuş gəlib və qəhrəmancasına şəhid olub. Şəhid olduğu ərazinin davamlı şəkildə atəşə tutulması səbəbindən onun nəşini bir neçə gün götürmək mümkün olmayıb. Yalnız oktyabrın 18-də götürmək mümkün olub.

Naxçıvanın ürəyi qan gölünə dönmüşdü. Hər təyyarə enişində düzülən bayrağa bürünmüş tabutlarda bitən ömürlər hər kəsi göz yaşına qərq edirdi. 6 noyabrda o tabutların birində Rauf da elinə, obasına gəldi. Həmin gün Raufun həm son gəlişi oldu, həm də son gedişi. Gəlişində də göz yaşları ilə qarşılandı, gedişində də göz yaşı çiləndi həsrət yollarına. Qəhrəman şəhid 6 noyabr 2020 - ci ildə Şərur rayon Şəhidlər Xiyabanında dəfn edildi.

11 ay öncə Məleykə xanımla ailə quran Raufun özündən sonra bir

yadigarı belə qalmayıb.

Leytenant Qurbanov Rauf Vahid oğlu Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, «Füzulinin azad olunmasına görə» medalı və «Xocavəndin azad olunmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD RAUF

Sən doğulduğun zaman,
Ümid sənlə doğuldu.
Bu vətənin torpağı,
Qanın ilə yoğruldu.

Qismətinə yazıldı,
Ad günündə son nəfəs.
Bu cahan Qarabağa,
Olmur daha dar qəfəs.

Sayəndə azad quş tək,
Qanad çalır torpaqlar.
Göy üzünə ucalıb,
Şəhid qoxan bayraqlar.

Sən xalqın qəhrəmanı,
Fəxarətisən, Rauf.
Qisas aldığın zaman,
Bir dəfə demədin «uf».

Nahaq axan o qanlar,
Buludlardan çiləndi.
Zəfər günü göylərdən,
Şəhid ruhu ələndi.





**MÖHSÜMOV ELMAR RÖVŞƏN OĞLU LEYTENANT (II Qarabağ müharibəsində şəhid olmuşdur.)**



## QƏHRƏMANLAR AİLƏSİNİN ŞƏHİD ÖVLADI

Azərbaycan xalqı əzimli, yenilməz və böyük xalqdı. Əksər azərbaycanlı ailəsində bunu görmək olar. Hər ailə kiçik dövlətdi. O kiçik dövlətlər çox zaman gizli qalır. Çox insanların o ailələrdən xəbəri olmur. Ancaq Vətən müharibəsində elə qəhrəman ailələr aşkara çıxdı ki, sanki o ailələr bir dövlət kimi göründü. Ailənin bir çox fərdləri Vətən müharibəsində vətən mübarizəsinə qoşuldu. Möhsümovlar ailəsi əsil vətəndaşlıq sərgilədi. Bacı - qardaşlar ancaq döyüşdə olan əsgərləri bir-birindən xəbər alırdılar. Demək olar Möhsümovlar soyadını daşıyan hər ailənin bir nümayəndəsi o döyüşlərdə iştirak edirdi. Rövşən Möhsümovun ocağından üç oğul eyni anda döyüşə qatılmışdı. 14 yaşlı Tuncayın yaşı çatsaydı yəqin ki, o da digər qardaşları Anar, Elnar, Elmar kimi vətən torpağının keşiyinə tələsərdi. Bu ailənin qəhrəmanlarının bütün qəhrəmanlıqlarını çətin ki, bir məqaləyə sığdırıb yazmaq mümkün olar. Hər biri Qarabağda qanı ilə dastan yazan mərd oğullardan şəhid olanı, qazi olanı və hələ də vətənə xidmət edəni var. Əslində digər qəhrəmanları tanımağımın səbəbkarı Vətən müharibəsində şəhid olan Möhsümov Elmar Rövşən oğlu oldu. Onun adının sorağına çıxdığımda bir qəhrəmanlar ailəsi ilə tanış oldum.

Möhsümovlar ailəsinin üçüncü övladı Möhsümov Elmar Rövşən oğlu 3 dekabr 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Xok kəndində dünyaya göz açmışdı. 2004-cü ildə Kəngərli rayon Xok kəndi Məhəmməd Əliyev adına tam orta məktəbdə təhsil almağa başlamışdı. Elmar hər zaman hərbçi olacağını dilə gətirmişdi. Elə bu yolda da lazımı addımları atmış, 2012-ci ildə Heydər Əliyev adına Hərbi liseyə daxil olmuşdu. 2015-ci ildə liseyi bitirdikdən sonra Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuşdu. Elmar kursant olduğu illərdə birinci yeri tutmuşdu. Hər tədbirdə, müşavirədə valideynləri çağrılar və hər kəsə nümunə göstərilərdilər. Elmar hər zaman valideynlərinin başını uca edərdi. Valideynləri yenə də Elmardan qürurla danışır. Çünki özü dediyi kimi elə bir məqama çatıb ki, hər bəndə o məqamın arzusunda olsa da o məqama çata bilmir.

Hicran ana Elmarın uşaqlıq xatirələrini dərin bir ah çəkərək dilə gətirdi.

- Elmarım çox həlim, mehriban və düşüncəli bir övlad idi. Qayğıkeşliyindən hər kəsə pay düşərdi. Böyüklə böyük, kiçiklə kiçik idi. Ünsiyyətcil olduğu üçün hər kəs tərəfindən sevilərdi. Ana, ata, qardaş qədri bilərdi. Mənim balam gözəl olan hər şeyi özündə cəm etmişdi. Elə bil gözəlliyin yer üzünə yansıyan əksi idi. Mən Elmarımdan doymadım. Son 8 ilim ona həsrət keçdi. 8 il ərzində bir dəfə də olsun biz onun ad gününü onunla birlikdə keçirə bilmədik. Son dəfə illərdən sonra atasının ad günündə heç kimin gözləmədiyi halda surpriz edib gəlmişdi. Kaş yenə gələrdi...

Elmar 2019-cu ildə AAHM - i leytenant hərbi rütbəsi ilə bitirdikdən sonra Mingəçevir şəhərində yerləşən N saylı hərbi hissədə Quru Qoşunlarının taqım komandiri vəzifəsində xidmətə başlamışdı. Əynindəki formanı qürurla daşıyan igid addım atdığı torpağın mənəvi dəyərinə layiq hərəkət edirdi. Ancaq onun da barışmadığı bir gerçək var idi. İşğalda olan Qarabağ. O, addımlarını Qarabağ torpaqlarına doğru atmaqda israrlı idi. Həmin günlərin çatdığı zaman Elmar düşmən üzərinə şığıdı. Elmarın müharibədə göstərdiyi şücaətləri haqqında Vətən müharibəsi qazisi Məmmədov Toğrul bunları dedi:

- Elmar həm vətənin, həm də mənim və mənim kimi bir çox əsgərlərin xilaskarıdı. Qorxmaz və qətiyyətli biri idi. Suqovuşanın azad olunmasında Elmarın müstəsna xidməti olub. Vacib yüksəkliklərin alınmasında Elmar öndə gedənlərdən birincisi idi. Biz mühasirəyə düşmüşdük. Silah-sursatımız və azuqəmiz bitmişdi. Artıq son anlarımız olduğunu düşünürdük. Lakin Elmar bütün risqləri gözə alıb öz dəstəsi ilə birlikdə BTR-ə silah - sursat və azuqə yığaraq mühasirəni yarıb bizi xilas etməyi bacardı. Lakin geri dönərkən düşmən tərəfindən onun olduğu zirehli texnika vuruldu və Elmar şəhid oldu. Elmarın şəhid olmağına hər birimiz üzüldük. Elmar ordumuz üçün gərəkli zabitlərdən biri idi. Əminəm ki, onun yolunun davamçıları çox olacaq.





Döyüşün ilk günlərində Ermənistan ordusunun illərlə tikib, bərkitdiyi və ağız dolusu danışdığı «Ohanyan mifini» darmadağın edən Azərbaycan Ordusunun leytenantı Möhsümov Elmar 29 sentyabrda qəhrəmancasına şəhid olub.

Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən leytenant Möhsümov Elmar Rövşən oğlu Ali Baş Komandan tərəfindən şəhadətindən sonra «Vətən uğrunda» medalı, «Suqovuşanın azad olunmasına görə» medalı və «Döyüşdə fərqlənməyə görə» medalı ilə təltif edilib.

Möhsümovlar ailəsinin canlı qəhrəmanı Elnar Möhsümov döyüş zamanı olanları belə dilə gətirdi:

- Mən döyüşə Hadrut istiqamətində başladım. Heç bir təsəvvürün gücü yetməz o yeri canlandırmağa. Düşmən hər hiyləyə əl atsa da qarşımızda 30 dəqiqədən artıq tab gətirə bilmirdi. Həmin döyüşlərdə çox silahdaşımı, dostumu itirdim. Hələ onda bilmirdim ki, qan bağım olan qardaşımı da itirmişəm. O şəhidlərin donan gülüşləri xəyalımdan, o yerlərin qoxusu burnumdan getmir. Həqiqətən şəhid qanının qoxusu bir başqadı. Həyatın həmin günləri unutdurmağa gücü yetməyəcək. Məni ən çox narahat edən Elmarın səssizliyi idi. O səssizliyin səbəbi mənə yuxumda ayan oldu. Döyüş vaxtı çox qısa istirahət zamanı yuxuya getdiyimdə bir qadın çox asta səslə «Sən Elmarı şəhid bil.» dedi. Yuxum çin çıxdı. Kaş ki, çin çıxmasaydı...

## ŞƏHİD ELMAR

Şəhidlərdi bu xalqın and yeri, aman yeri,
Müqəddəs şəhid oldu vətənin güman yeri.
Allahın dərgahına şəhid tək ucalanın,
Cənnətdə gözəl olur əbədi yaşam yeri.

Bu vətənin mayası tutulub qanlar ilə,
Qoşa çəkilir adı Elmarın vətən ilə.
Uzun illər zəfəri arzu edən bu xalqa,
Qəhrəmanlar zəfəri gətirdi şərəf ilə.

Qəhrəmanlıq göstərdi Möhsümovlar ailəsi,
Vətənə nəfəs oldu Elmarın son nəfəsi.
Anar, Elnar dönmədi haqq mübarizəsindən,
Elmar cənnətdən duydu ucalan zəfər səsin.





## ƏLİYEV İBRAHİM MUSTAFA OĞLU LEYTENANT (II Qarabağ müharibəsində şəhid olmuşdur.)



## ŞƏHİD BAYRAĞINI UCALDAN ŞƏHİD

Vətən keşiyini çəkən oğullar bayrağı həm uğruna ölə biləcəkləri, həm də uğruna öldürə biləcəkləri müqəddəs atribut bilirlər. O oğullar yaxşı bilirlər ki, o bayraq onların məzarlarına keşik çəkəcək. Şəhid olduqdan sonra böyüdükləri ocaqda dikilib, o evin bir şəhid evi olduğunu bəlli edəcək. Ancaq hər şəhidə də öz əlləri ilə şəhid olduğunun xəbərçisi olan bayrağı ucaltmaq qismət olmur. Bu İbrahimə qismət oldu. Doğulduğu evdə bayraq ucaltmaq qismət olmasa da xidmət etdiyi Goranboy rayonunun Ağcakənd kəndində yaşadığı evin həyətində bayraq ucaldıb ev sahibinə «Bu evə bir şəhid gələcək.» deyib. Sanki şəhid olacağını öncədən hiss edibmiş.

Əliyev İbrahim Mustafa oğlunun qısa və şərəfli ömür yolundan yazmaq çətin, ağrılı və məsuliyyətlidir. Üç bacının bir qardaşından keçmiş kimi yazmaq izahı olmayan bir acı verir. O bacıların çarəsizliyi duyulmayacaq bir hiss deyil. İbrahim 1997-ci il 17 fevralda üç qız övladından sonra dünyaya gəlmişdi. Gəlişi ürəklərin sevincinə səbəb olmuşdu. Mustafa Əliyev sonbeşik oğluna atası İbrahimin adını əmanət etmişdi. Xəzangül xanım İbrahimi sabahlarının ümidi bəlli etmişdi. İbrahim hər kəsin sevim-

lisinə çevrilmişdi. Böyük- kiçik yeri bilən bu oğul böyük-kiçik ürəyində özünə yer etmişdi. Əvvəl babasının adını daşıdığı üçün rəğbət qazanan İbrahim sonradan öz xasiyyəti ilə sevilməyi bacarmışdı. Məktəbli yaşına çatdığında Kəngərli rayon Qabıllı kənd tam orta məktəbinə qədəm qoymuşdu. Evin tək oğlu olmağına baxmayaraq o uşaqlıqdan hərbçi olacağını dilə gətirmiş və VIII sinfi bitirən zaman bu yolda ilk addımını atmışdı. 2011-ci ildə Heydər Əliyev adına Hərbi liseyə qəbul olan İbrahim 2014-cü ildə liseyi bitirmiş və daha sonra Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdu. 2018-ci ildə məktəbi leytenant hərbi rütbəsi ilə başa vurmuşdu. Elə həmin il «Azərbaycan Ordusunun 100 illiyi» yubiley medalı ilə təltif edilmişdi. 2018-ci ildə Goranboy rayonundakı N saylı hərbi hissədə xidmətə başlamışdı. Xidmətə başladığı ilk gündən seçilməyi bacardığı üçün komandanlıq tərəfindən təşəkkürnaməyə layiq görülmüşdü. İşinə məsuliyyətli yanaşmağının nəticəsi idi ki, 2019-cu ildə Türkiyənin Ankara şəhərində yerləşən "Kara Kuvvetler İstihbarat Okulu"na göndərilmişdi. 2020 - ci il mart ayında kursu uğurla başa vurmuşdu. Quru Qoşunlarının kəşfiyyatçısı kimi lazımi biliklərə yiyələnmişdi. Elə ona görə də bölük komandiri vəzifəsinə əvəzedici təyin edilmişdi. 2020-ci ildə isə rəsmi şəkildə bu işi icra etməyə başlamışdı. İbrahim baş leytenant hərbi rütbəsinə layiq görüləcəkdi. Ancaq bu ona qismət olmadı. Onun ömür yolu Qarabağın azadlıq yolu ilə kəsişdi.

İbrahim hər zaman müharibənin başlayacağı günü gözlədiyini deyirmiş. Sentyabrın 26-da bütün qohum-əqrəbaya zəng edib hər kəslə halallaşıb. O zaman müharibənin başlayacağından xəbərsiz olan qohumlar o zəngin vida zəngi olduğunu bilməyiblər. İbrahim atasına "Anamı qoyma mənə zəng etsin. Mən özüm sizə zəng edəcəm. Mənə zəng etməyin." deyib. İki il idi nişanlandığı sevdiyinə «Ömrüm, qayıtsam sənə yazacam.» sözlərini yazıb. İbrahim sevdiyi xanımla dəfələrlə toy etmək planları qursa da hər dəfə bir maneəyə rast gəlib. Gah qohumların rəhmətə getməsi, gah pandemiya şəraiti səbəbindən sevənlər qovuşa bilməyiblər. Son dəfə 2020-ci ilin martında sevdikləri ilə vidalaşıb evindən çıxanda İbrahim bilməzdi ki, cəmi bir neçə ay sonra sevdiyi bayrağa bürünən cənazəsi evinin qonağı olacaq.

Azərbaycan Ordusunun hərb tarixində qazandığı ən böyük uğura, qa-





libiyyətə qanı ilə imza atanlardan biri də İbrahim oldu. Müharibənin ilk günündən döyüşən qəhrəman dəstəsi ilə birlikdə Suqovuşan istiqamətində irəliləyib, bir neçə strateji yüksəkliyin alınmasında mühüm rol oynayıb. 29 sentyabrda isə çətin döyüşlərdən sayılan Ağdərə istiqamətində gedən döyüşlərə qatılıb. Döyüş yoldaşlarının şəhid olmağından hiddətlənən İbrahim düşməndən qisas almaq məqsədi ilə irəliyə atılıb. Elə həmin an snayper atəşi ilə başından vurulub. İbrahimin və şəhid yoldaşlarının nəşini götürmək mümkün olmayıb.

Artıq neçə gün idi ki, İbrahimdən bir xəbər gəlmirdi. Cəbhədə baş verənləri eşidən ailənin narahatlığı anbaan artırdı. Sentyabrın 30-da ailə Ermənistan telekanalında gedən brifinqdə Azərbaycan Ordusunun hərbiçilərinin şəhid olduğunu görür. Həmin şəhidlərin vəsiqələrini göstərdikləri zaman ailə İbrahimin vəsiqəsini görüb tanıyır.Gördükləri görüntü önündə aciz qalan ailə nə edəcəyini bilmir. Həm övladlarının şəhid olduğu, həm də şəhid nəşinin düşmən əlində olması ürəkdə izahı olmayan acıya səbəb olur. İbrahimin nəşi əldə olunmadığından hələ də ailənin ürəyində «bəlkə sağdır» ümidi baş qaldırır. Günlər bir - birinə calanır ay olur. Ancaq İbrahimdən hələ də bir xəbər çıxmır. 2 ay sonra dekabrın 2-də döyüş meydanında zərərsizləşdirilən Ermənistan hərbçilərinin nəşləri Azərbaycan şəhidləri ilə dəyişdirilən zaman İbrahimin də nəşi qaytarılır. 5 dekabrda şəhidin nəşi ailəsinə təhvil verilir. Bütün ümidlərin nöqtəsi həmin gün qoyulur. Xəzangül ana tək oğlunun gələn yollarına tellərini xalı edir. Tək qardaşlarının toyuna hazırlaşan üç bacının ürəyi şəhid qardaş dərdinə yelkən açır. Dekabrın 7-də İbrahimin gəlişi doğmanı da, yadı da göz yaşlarına qərq edir. Vətənə keşik çəkən qəhrəmanın nəşinə 72 gün vətən torpağı keşik çəkdikdən sonra 7 dekabr 2020-ci ildə Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Qabıllı kənd məzarlığında əbədi olaraq torpağa əmanət edilir.

Leytenant Əliyev İbrahim Mustafa oğlu Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, «Cəsur döyüşçü» medalı, «İgidliyə görə» medalı və «Suqovuşanın azad olunmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD İBRAHİM

Şəhadət yolundan keçəcəyini,
Sanki hiss etmişdin, şəhid İbrahim.
Ucaldıb bayrağı sən söylədin ki,
«Şəhidi olacam mən də bu evin.»

Zirvəyə ucalan bayraq yolunda,
Canı fəda edib sən şəhid oldun.
Bütün bir millətin, bütün bir xalqın,
Şəhid övladı tək qəlbinə doldun.

Bir evin yeganə oğul qisməti,
Bir elin yolunda canından keçdin.
Həyatın nə qədər yolu içində,
Müqəddəs şəhadət yolunu seçdin.

Adını qürurla dilə gətirib,
İşıqlı sabaha örnək bilirik.
Şəhidlər şahidi olan vətəndə,
Bir kəz can tapşırıb, min dirilirik.





## ƏBİLOV KAMAL VİDADİ OĞLU
## LEYTENANT
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**



## VƏTƏNİN OĞUL PAYI

- Oğul, sinəm üstə solmayan çiçək kimi bitmisən. Sən mənim üçün canından keçdin. Məni azğınlaşmış düşmən pəncəsindən sən xilas etdin. İllərlə həsrətlə boynumu büküb yollara göz dikdim. Bəlkə bir vətəndaşım mənə doğru gələr deyib çarəsizcə gözlədim. Bilirəm, uğrumda canından keçən qəhrəman oğullar çox oldu. Hər biri mənə ana kimi qucaq açdı. Mən də mənə can verənləri öz qoynuma sıxıb saxladım. Mənim üçün canından keçən cavanların anaları, ataları mənə sığal çəkəndə mən bilirəm ki, əslində onlar məni balaları kimi oxşayırlar. Mənə «Ana Vətən» deyən anaların çoxu indi məni balası tək qoxlayır. Sizi analar dünyaya gətirdi. Onlar məni sizə elə gözəl sevdirdi ki, yaşatmaq naminə yaşadınız. Arzularınızla, xəyallarınızla birgə qoynumda uyumusunuz. O arzular sizdən geri qalanları sızladır. Ancaq onlar da anlayırlar ki, siz ən böyük arzuya çatmısınız. Bir ocaqda doğuldun vətənə döndün, Kamal.

Əbilov Kamal Vidadi oğlu 1996-cı il mayın 17-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Oğlanqala kəndində anadan olmuşdur. Ailənin son beşiyi idi Kamal. Özündən əvvəl 2 bacı və 1 qardaşı dünyaya

gəlmişdi. Kamal sonuncu olduğu üçün hər kəs onu bir başqa sevirdi. Adını da anası Kəmalə xanım adına uyğunlaşdırmışdı. Ailənin böyükləri hər bir övladının təhsilinə xüsusi önəm verirdi. Vidadi Əbilov övladlarına örnək ola biləcək bir ailə başçısı idi. Onun ocağında vətənə layiq sağlam ruhlu dörd övlad böyüyürdü. Kamal da böyümüş və 2004 -cü ildə Oğlanqala kənd tam orta məktəbində I sinfə qədəm qoymuşdu. Bu uşaq sanki vətən üçün doğulmuşdu. Hər zaman vətənin keşiyində duran oğullara baxanda «Tez böyüyüb hərbçi olacam.» deyirmiş. Kamal böyük arzuya 2011-ci ildə çatıb. O, Heydər Əliyev adına Hərbi liseyə daxil olub. 2014-cü ildə liseyi bitirdikdən sonra Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub.2018-ci ildə AAHM-dən leytenant rütbəsi alaraq məzun olub. Həmin il «Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi» yubiley medalı ilə təltif edilib. Xidmətə Daşkəsən rayonunda yerləşən N saylı hərbi hissədə başlayıb. Tabeliyində olan əsgərlərin hər birinin qardaş kimi qayğısını çəkən Kamal hər kəsin rəğbətini qazanmağı bacarıb. O, həqiqətən seçilmiş biri idi. Hərbçi olmağın sevincini yaşayan hərbçi əslində işinin məsuliyyətini tam olaraq dərk edib. Dörd bir tərəfi dağlarla əhatəli olan bir yerdə xidmət etmək asan deyil. Kəlbəcər, Murovdağ və Daşkəsənin daş-kəsəkli dağları onun gözünü qorxutmayıb. Qəhrəman vətən sevgisi ilə hər bir çətinliyə sinə gəlib.

Yaşının az olmağına baxmayaraq «Qəhrəman» adını qazanmışdı Kamal. Hələ 2020-ci ilin iyul ayında Tovuz döyüşləri zamanı komandiri General Polad Həşimovun və digər şəhidlərimizin qisasını almışdı. Həmin vaxt 25 düşmən hərbçisinin olduğu «Ural» markalı döyüş texnikasını məhv etmişdi. Şücaətinə görə Kamal mükafata layiq görülmüş, təltif edilmişdi.

Kamal hər zaman təlimləri uğurla başa vurar, hərbinin sirlərini dərindən öyrənməyə can atardı. Xidməti dövründə də öyrəndiyi bilik və bacarığını əsgərlərlə bölüşməkdən çəkinmirdi. Döyüş meydanında döyüş taktikalarını sərgiləyir və düşmənin məğlubiyyətinə səbəb olurdu. O, Polad Həşimov yolunun layiqli davamçısı idi. Komandirinin çata bilmədiyi yerlərə bayraq sancmaq arzusunda idi. Bir gün Polad ruhlu Kamal və onun kimilərin Qarabağ səmasında bayraq ucaldacaqları xəyalları 27 sentyabr 2020-ci ildə real oldu. Həmin gün qisas və azadlıq sevinci birləşdi. Həmin sevinci yaşadanlardan biri də Kamal oldu. Murovdağ yüksəkliyini düşməndən azad edənlərdən olan qəhrəman o taylı, bu taylı Murova nəzarəti ələ keçirməyə nail oldu. Bu idi düşmənin yenilgisi. Artıq o anın sevincini yaşamışdı Kamal. Eyni zamanda əsgərlərinin şəhid olmağı kədərini də yaşayırdı. 28 sentyabrda atası ilə danışan zaman dəstəsindən 21 şəhid verdiyinin məyusluğunu dilə gətirmişdi. 30 senytabrda şəhərə yaxın Kəlbəcər istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən atılan minamyotun qəlpəsinə tuş gələn Kamal özü də şəhid olmuş, onun da ruhu şəhidlərin cənnətinə yüksəlmişdi.





Oktyabrın 1-də Əbilovların evinə şəhid xəbəri atəş salıb. Ailənin seçilmişi Allahın seçilmiş bəndəsi olduğunu bir daha sübut edib. Elə həmin gün şəhidin cansız cismi Şərur rayon Şəhidlər Xiyabanında ana vətən torpağına əmanət edilib.

Leytenant Əbilov Kamal Vidadi oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «İgidliyə görə» medalı, «Vətən uğrunda» medalı və «Kəlbəcərin azad olunmasına görə» medalı ilə təltif edilib.

- Bax oğul, hər kəs vətənə can verən şəhidin uca adının nuruna toplanıb. Sən Naxçıvan torpağını ziyarətgaha çevirən şəhidlərin uyuduğu xiyabanda mənə əmanət olunan daha bir unudulmaz qəhrəmansan. Mənə can verən oğul, hər kəs «Vətən» deyəndə «Şəhid» kəlməsi o sözü işıqlandırır.

Vətənin, torpağın dili olsaydı bütün şəhidlərə təşəkkür edərdi. Bütün vətəndaşlar dilsiz vətənin, torpağın danışan dili olaraq şəhidlərimizə təşəkkür edir.

## ŞƏHİD KAMAL

Mən səni canımdan çox sevdim, vətən,
Mən səni anamdan çox sevdim, vətən.
Bildim, mənsizliyin kədərin-qəmin,
Tutacaq doğmalar vətən, sənə tən.

Bildim, həsrətimdən qəlb dağlanacaq,
Bildim, arzularım yaralanacaq.
Tək onu düşündüm getdiyim yolun,
Sonunda bayrağım dalğalanacaq.

Analar oğulsuz qalsa da olar,
Sevənlər həsrətdən solsa da olar.
Təki vətən bizə tənə vurmasın,
Vətən bizə məzar olsa da olar.

Çəkməsin ardımca heç bir kəs məlal,
Cənnət başdan-başa olub cah-cəlal.
Mən vətən torpağın xilas etmişəm,
Bilin cənnətdədir əbədi Kamal.







**NADİRLİ ƏRTOĞRUL HÜMBƏT OĞLU LEYTENANT**

**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## VƏTƏN QURBANININ KƏSİLƏN QURBANI

Qurban...Bu sözün mənası sətirlərə sığmayacaq qədər dərindi. Əslində böyükdən kiçiyə hər kəs qurban kəsmək adətimizin kökünü bilir. Bir də vətən qurbanı var. Öz canını vətənə qurban edən şəhid. Vətən müharibəsinə gedən oğulların hər birinin dönən yollarına qurban deyilmişdi. O oğullardan kimisi özü vətən qurbanı kimi döndü, kimisinin də qurbanları qəbul oldu. Hümbət Nadirlinin qurbanı qəbul oldumu desəm, olmadımı desəm bilmirəm. Vətən qurbanının bayraqlı tabutda dönən yolları üstə kəsilən quzu qurbanının qanı hər kəsin göz yaşları ilə qarışdı. Bu necə təzaddı İlahi? Bu xalqın qanında, ruhunda məğrurluq var. İllərdi neçə-neçə qəhrəman oğulun uğrunda qurban olduğu Sədərək bu dəfə Qarabağa qurban olan Ərtoğrulun gəlişini qarşıladı. Kimdi vətən qurbanı?

Nadirli Ərtoğrul Hümbət oğlu 31 mart 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Qaraağac kəndində 5 uşaqlı ailənin 2-ci övladı olaraq dünyaya göz açıb. Ancaq ailədə 5 uşağa birlikdə böyümək qismət olmayıb. Kiçik bacısı Nilufər hələ körpə yaşında olarkən dünyasını dəyişib. Adından qəhrəmanlıq yansıyan Ərtoğrula bu adı atası

verib. Atası bəzən də onu «Paşam» deyə çağırarmış. İgid şahinə bənzəyən Ərtoğrul uşaqlıqdan cəsur olub. Məhəllədə güləş oyununda hər kəsə qalib gəlib. Bir də həmişə məhəllə uşaqları ilə «müharibə» oyunu oynayıb. Həmin vaxtdan onun düşmənə olan nifrəti gözlərindən oxunub.

Ərtoğrul 2003-cü ildə Sədərək rayon 1 saylı tam orta məktəbdə təhsil almağa başlayıb. Davranışları ilə müəllimləri və sinif yoldaşlarının qəlbinə yol tapıb. Məktəbdə oxuduğu zaman boks, voleybol oyunlarında fəal olub. Müəllim «Gələcəkdə hansı peşəni seçəcəksiniz?»adı altında inşa yazmaqlarını tapşırdığı zaman Ərtoğrul həvəslə hərbçi olacağından yazarmış. Ərtoğrul hər səhər məktəbə gedəndə Şəhidlər Xiyabanının önündən keçib gedərmiş. Hər dəfə də addımlarını yavaşıdıb bir - bir məzarlara nəzər yetirərmiş. Kim bilir hələ o zaman Ərtoğrulun körpə ürəyində necə bir alov varmış? Hər səhər Şəhidlər Xiyabanının önündən keçən oğulun 2012 - ci ildə çatdığı yer məktəb yox Heydər Əliyev adına Hərbi lisey olub. Gecəsini gündüz edən Ərtoğrul nəhayət ki, zəhmətinin bəhrəsini dərib. Həm Ərtoğrul, həm də ailəsi o günü çox gözləmişdi. 3 il elə tez ötüb ki, Ərtoğrul 2015-ci il məzunları sırasında yer alıb. Liseyi əla qiymətlərlə bitirib,məzun köynəyinə «Torpaq uğrunda ölən varsa vətəndir!» sözlərini yazdıran Ərtoğrul əslində o zaman bir mesaj verib.

Ərtoğrul liseyi bitirdiyi il gələcəkdə daha peşəkar bir hərbçi olmaq üçün Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. Burada da bilik və bacarığı ilə seçilməyi bacarıb. 24 iyun 2019-cu ildə AAHM - i leytenant rütbəsi alaraq bitirib. Onun qazandığı nailiyyətlərə hər kəs sevinib.

Ərtoğrul ilk olaraq təyinatla Tovuz bölgəsinə göndərilib. 6 ay xidmət etdikdən sonra Bakıda Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) kursunu uğurla keçib. Daha sonra təyinatla Daşkəsən rayonuna xidmətə yollanıb.

Ərtoğrulun ailəsi ilə son görüşü hər kəsin yaddaşında silinməz iz buraxıb. Şəhid olmazdan bir il əvvəl bacısı Nübar xanımın toy məclisinə xəbərsiz gəlişi ilə hər kəsi sevinc göz yaşlarına qərq edib. O bacısına Qurani-Kərim, bacısının yoldaşına Azərbaycan bayrağı əmanət edib. Onun məğrur duruşu hər kəsi riqqətə gətirib. Atasının iş yoldaşı « Paşam, sən o qapıdan girəndə elə bildim sanki bütün Azərbaycan Ordusu qapıdan girir. Sənin duruşundan elə hiss edirəm ki, elə bil bu gün sən deyirsən ki, Ali





Baş Komandanım əmr versin mən gedib bayrağı Qarabağa sancacam!» deyib. Ərtoğrul kiçikdən böyüyə hər kəslə sağollaşıb, xatirələrində son dəfə gözəl izlər buraxaraq gedib.

Sentyabrın 27-də Vətən müharibəsində iştirak etmək üçün təyinatla Goranboy rayonuna göndərilib. Murovdağın alınmasında döyüş yoldaşları ilə birgə çətin əməliyyatların öhdəsindən uğurla gəlib və bir çox strateji əhəmiyyətli ərazilərin azad olunmasında böyük rol oynayıb. Həmçinin bir çox yaralı hərbçiləri döyüş bölgəsindən çıxarıb. Kəlbəcər uğrunda döyüşlərdə iştirak edib. Həmin istiqamətdə düşmənin istehkamı güclü olduğu üçün zabit yoldaşları ilə başqa bir taktika işlədərək düşmənin arxasına keçib, arxadan əl bombaları ilə istehkamı yarmağa çalışıb. Bu zaman düşmənin çox sayda canlı qüvvəsini əlbəyaxa döyüşdə məhv edib. Lakin düşmən uzaq məsafədən Ərtoğrulu və silahdaşlarını snayperlə vurub. Düşmənin nəzarət etdiyi yerdə olduqları üçün onların nəşini götürmək mümkün olmayıb. Qəhrəman kəşfiyyatçılarımız əsgərlərimizin nəşinin düşmən əlinə keçməməsi üçün gecənin qaranlığından istifadə edərək onların nəşlərini dərədən çıxara bilməsələr də, döyüş meydanından uzaqlaşdırıb, gizlədiblər. 52 gün Ərtoğruldan heç bir xəbər çıxmayıb. Ailəsinin narahatlığı günbəgün artıb. Nə itkin kimi, nə şəhid kimi Ərtoğrulun izinə rastlamaq mümkün olmayıb. Azərbaycan Ordusunun Zəfər qazandığı xəbərini eşidən ailə "Görəsən Ərtoğrul bu sevinci yaşaya bilirmi?" deyə düşünüb. Ancaq ailə həmin an bilməyib ki, həmin azadlığın qurbanlarından biri də Ərtoğruldu. Ərtoğrul və döyüş yoldaşlarının nəşini Kəlbəcər azad olunduqdan sonra götürmək mümkün olub.

Həmin «qara xəbər»...

23 noyabr 2020-ci ildə ailəyə Ərtoğrulun şəhid olduğu deyilib. Günlərlə ümidlə gözləyən ailənin ümidləri puç olub. Bakıda bacısı və qohumları şəhidi son dəfə yaxından görüb. Bacısı deyir: «Şəhid qardaşımın qəhrəmanlığı çöhrəsindən oxunurdu.» 26 noyabr 2020-ci ildə Bakıdan Naxçıvana yenə də qəhrəman oğullar zəfər müjdəli al bayraqlı tabutlarla yola salınıb. Naxçıvanlılar Sədərəyin qəhrəman şəhidini qarşılayıb. Son dəfə evinə gətirilən şəhidin gələn yolları insan izdihamına bürünüb. Çatacağı ünvanda isə atasının Ərtoğrulun dönüşü üçün dediyi qurban kəsilib. Düzdü, o qurban belə dönüş üçün deyilməmişdi. Ancaq şəhid kimi də

olsa Ərtoğrul el-obasına dönüb. Axı hələ tabutda belə dönməyən sədasız şəhidlərimiz var. Şükürlü ailə onun üçün də bu dönüşə şükür edib qurban kəsib. «Şalı», «Paşa» ləqəbli Ərtoğrul 26 noyabrda Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

İndi hər kəs Ərtoğrulun xatirəsini əbədiləşdirməyə çalışır. Qəhrəman şəhidimiz leytenant Nadirli Ərtoğrul Hümbət oğlu ölkə rəhbəri İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, «Döyüşdə fərqlənməyə görə» medalı və «Kəlbəcərin azad olunmasına görə» medalı ilə təltif edilib. Bundan başqa Ərtoğrulun şəhadətə yüksəldiyi ərazidə «Ərtoğrul döyüş mövqeyi» yaradılıb. Atası Ərtoğrulun doğulub böyüdüyü məhəllədə onun əziz xatirəsinə meyvə bağı salıb.

44 günlük Vətən müharibəsində sona qədər döyüşə bilməsə də keçdiyi döyüş yolu ilə hər kəsin qürur mənbəyinə çevrilən Ərtoğrul haqqında yazılacaq sözlər bir məqaləyə sığmayacaq qədər çoxdu.





## ŞƏHİD ƏRTOĞRUL

Bu vətən uğrunda can verənlərin,
Adına deyirik «Vətən qurbanı».
O canlar can verib xilas eləyib,
Düşmən pəncəsindən Azərbaycanı.

Biri milyon - milyon ürəyə dolan,
O canlar bir deyil, nə də ki, iki.
Milyon ürəklərə bir sakin olan,
Ərtoğrul götürdü bir vətən yükün.

Yığıb çiyni üstə neçə kədəri,
Düşmən üzərinə hücuma keçdi.
Hələ bu dünyada yaşamaq varkən,
O igid şəhadət sarayın seçdi.

Onun şəhid kimi döndüyü yola,
Kəsilən qurbanlar ürək dağladı.
Ərtoğrul torpağa tapşırılanda,
Göydəki quşlar da qanad saxladı.



## MƏMMƏDOV ELŞƏN ƏZİZ OĞLU LEYTENANT (II Qarabağ müharibəsində şəhid olmuşdur.)

## YEDDİ BACININ BİR QARDAŞI

Hər zaman dilə gətirilən bir arzu var «Yeddi oğul istərəm, bircə dənə qız gəlin.» Ancaq Məmmədovlar ailəsində bu arzunun tam əksi gerçək olmuşdu. Yeddi qız övladından sonra bir oğul övladı dünyaya göz açmışdı. Həmin körpənin gəlişinə tək ailə sevinməmişdi, bütün el bu ocaqda doğulan körpənin gəlişinə şən olmuşdu. Elə bu körpənin adını da Elşən qoymuşdular. O zaman heç kim bilmirdi ki, bir ailənin ümidi olan bu körpə el yolunda can verəcək. Böyüdükcə ümidlər qol-budaqlanırdı. Ata-anası, yeddi bacısı Elşəni uca dağ bilirdilər. Ailəsinin arxalandığı bu oğula zaman gəldi bütün xalq arxalandı.

Məmmədovlar ailəsinin oğul adlı ümid çırağı 1999-cu il 21 apreldə yanmışdı. O gün sanki bu ailədə toy-bayram idi. Yeddi qızdan sonra doğulan oğula qurbanlar kəsilmişdi. Kim bilərdi ki, bu körpə böyüyüb özü vətən qurbanı olacaq.

Məmmədov Elşən Əziz oğlu Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Şəhid Məmməd (indiki Danyeri) kəndində dünyaya gəlmiş və 2005-ci ildə elə həmin kənddə də orta məktəbə getmişdi. VIII sinfi





bitirdikdən sonra Heydər Əliyev adına Hərbi liseyə daxil olmuşdu. 2016-cı ildə liseyi bitirdikdən sonra Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdu. Elşənin arzuları var idi. Onun arzusu vətənə, ailəsinə layiq övlad olmaq idi. Uşaqlıqdan çətinliyin qara üzünü görən Elşən ailəsini ağ günə çıxarmaq arzusunda idi. O, hərbi məktəbi bitirəndə sevincinin ucu - bucağı yox idi. Həm vətəni, həm ailəsini ağ günə çıxaracaqdı. Ancaq birinci oldu, ikinci yox.

Hərbi məktəbi leytenant hərbi rütbəsi ilə başa vuran Elşən xidmətə Füzuli rayonunun Cocuqmərcanlı kəndində başlamışdı. Bu həmin o ərazi idi ki, cəmi 4 il öncə Azərbaycan Ordusu düşməndən azad etmişdi. Bu torpaqların azadlığı uğrunda neçə mərd oğulun qanı axmışdı. Elşən də bunun fərqində idi. Ona görə də o əraziləri öz canından daha artıq qoruyurdu. Lazım gələrsə öz canını da qurban edəcəyini deyirdi. Dedi və etdi.

Cəmi 3 ay vətənə keşik çəkə bildi Elşən. İllərlə öyrəndiyi savad və bacarığını isə ən önəmli zamanda istifadə etdi. Vətən müharibəsi qəhrəmanı kimi tanınan bu qəhrəmanın göstərdiyi şücaətlər 21 il ömür sürən bir insanın yaşından daha böyük ürəyə sahib olduğunu göstərdi. Budur vətən uğrunda yanmaq. Heç zaman arxa cəbhədə durmazdı Elşən. «Vətən oğlu vətənə sipər olar.» deyirdi. Döyüşlər zamanı vətən sevgisini, əzmini, gücünü əməllərində göstərdi. Əsgərlərinin həyatı da onun üçün önəmli idi. İstəməzdi bir ailənin gözləri yaşlı qala. Ancaq hər kəsi düşünən Elşən öz canını düşünmədi. Döyüşlər zamanı şəxsi heyəti səngərdən çıxmağa qoymayan Elşən özü döyüş tapşırığını icra etməyə çıxdığı zaman ürəyi snayper atəşinə tuş gəldi.Çox oğulun son nəfəsinə şahid olan Füzuli torpağı 21 oktyabrda Elşənin də son nəfəs verdiyi yer oldu.

77 yaşlı Əziz Məmmədov və 65 yaşlı Mələk ananın oğul adlı sevinci cəmi 21 il çəkdi. Hər zaman hər kəsin qeydinə qalan Elşənin son qeydinə qaldığı məhfum isə vətən oldu. Vətən üçün doğulan oğullar cərgəsində Elşənin də adı yer aldı.

Bir zaman dünyaya gəlişi ilə elin sevincinə səbəb olan Elşən bu dəfə əbədi gedişi ilə elin kədərə qərq olmasına səbəb oldu. Hər kəsin rəğbət bəslədiyi gənc insan izdihamı ilə son mənzilə yola salındı. Oktyabrın 24-də yeddi bacının bir qardaşı, yaşlı ata - anasının dayağı Şərur rayon Şəhidlər Xiyabanında torpağa tapşırıldı.

Elşəndən Elşənsiz danışmaq ailənin bütün üzvləri üçün çox çətindi. Onlar hələ də bu gedişə inana bilmirlər. Elşənin ən yaxın olduğu bacısı Gülsarə xanımın hər zəng səsi ilə ruhu titrəyir. Elə o zəng gələn telefonu da Elşənin son yadigarı kimi saxlayır. Həmin telefon Elşənin tabutu ilə birgə gəlmişdi. O hədiyyəni bacısına vermək Elşənin özünə qismət olmadı. Gülsarə xanım da həmin telefonda heç zaman Elşənin səsini duymadı.

Leytenant Məmmədov Elşən Əziz oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı , «Füzulinin azad olunmasına görə» medalı «İgidliyə görə» medalı və «Xocavəndin azad olunmasına görə» medalı ilə təltif edilib.

### ŞƏHİD ELŞƏN

İllərin həsrətin çatdırıb sona,
Oğul səadətin gətirmişdin sən.
Atana, anana, yeddi bacına,
Olurdun hər zaman sən həmdəm, Elşən.

Ümidlə açılan sabah sən idin,
Bircə təbəssümün qəmi silərdi.
Səni sevən hər kəs bir nəfəsini,
Sonu görünməyən sevinc bilərdi.

Allah səni seçib göndərdi, oğul,
Vətənim nuruna qərq olsun deyə.
İllərlə yolunu gözləyənlərə,
Allah göndərmişdi səni hədiyyə.

Sevincin ömrün tək qısaldı, Elşən,
Qəminə qərq oldu səni sevənlər.
Xalqın ürəyində əbədi yaşar,
Ömrünü vətənə fəda edənlər.







### SƏFƏROV ŞAHMAR NAZİM OĞLU LEYTENANT
### (II Qarabağ müharibəsində şəhid olmuşdur.)

### MÜHARİBƏNİ TOY-BAYRAM BİLƏN İGİD

Vətən müharibəsi çox gəncin ömrünün son nidası, son əlvidası oldu. Elə əlvida etdilər ki, bütün xalqı o gediş sızlatdı. Eldən gedən oğullar el qəlbinə dəfn olundular. Həyatlarının son anında düşməni məhv etmək arzusuna çatan oğullar hər biri bir qəhrəman kimi döndülər. El oğullarının cismi el çiynində döndü, ruhu cənnətdə məskən tutdu. Hələ toyu çalınmayan çox gəncin vağzalısı himn və ağılar oldu. Müharibəyə gedəndə «Toy - bayrama gedirəm.» deyən Şahmarın toy çələngi əklil oldu. Hələ sevdiyinə çiçək bağışlamaq qismət olmayan Şahmarın məzarı çiçək yağışına qərq oldu.

Səfərov Şahmar Nazim oğlu 1 sentyabr 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Siyaqut kəndində anadan olmuşdur. Ailənin axrıncısı olan Şahmarın özündən öncə 1 bacı və 1 qardaşı doğulmuşdu. Şahmar 2003-cü ildə Kosacan kənd tam orta məktəbində təhsil almağa başlamışdı. 2011-ci ildə Heydər Əliyev adına Hərbi liseyə qəbul olmuş və 2014-cü ildə liseyi bitirmişdi. Daha sonra Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuş və 4 illik təhsillə hərbi təhsilini daha da təkmilləşdirmişdi. AAHM - dən məzun olduqdan sonra Azərbaycan Ordusunun

bir leytenantı kimi Gəncə şəhərində N saylı hərbi hissədə taqım komandiri kimi xidmətə başlamışdı. Həmin hərbi hissədə əmisi oğlu Səfərov Cəsarət Xaliq oğlunun da əsgər kimi xidmət etməsi onu qürurlandırmışdı. Şahmarla Cəsarət uşaqlıqdan bir-birinə çox bağlı olmuşdular. Cəsarət Şahmarı hər zaman dayağı bilmişdi. Onlar sanki əmioğlu yox qardaş olmuşdular. Həyat da heç zaman onları bir-birindən ayırmamışdı. Nə bu dünyada, nə əbədi dünyada. Ömürləri, alın yazıları bənzər olan bu qəhrəmanların əbədi dünyaları da cənnət oldu.

Şahmar şəhadət zirvəsinə elə 27 sentyabrda çatıb. Müharibənin başladığını eşidəndə sevincinin həddi-hüdudu olmayıb. Əmisinə zəng edib «Qismət olsa görüşərik, olmasa özünüzə yaxşı baxın.» deyib. «Bu mübarizə Qarabağın qurtuluşu, xalqımızın qələbəsi olacaq.» deyib,düşmən üzərinə şığıyıb. Döyüş yoldaşları onun cəsarətindən, şücaətindən ağız dolusu danışırlar. Murovdağın zirvəsinə Şahmar da qanı ilə iz salıb. Ən ağır döyüşlərdən biri olan Murovdağ uğrunda gedən döyüşlərdə qəhrəmancasına mübarizə aparan və Murovdağı azad edən qəhrəman kimi adını tarixə və yaddaşlara həkk edib. Elə döyüşün başladığı gün Murovdağ zirvəsindən şəhadət zirvəsinə yol alıb. Onun şəhid xəbəri hər kəsi sarsıdıb. Ancaq bu gediş Cəsarətə bir başqa təsir edib. Cəsarət bu qisası alacağına söz verib.

Günlər keçib aylara calansa da Şahmarın nəşini Murovdağdan götürmək mümkün olmayıb. Bir yandan Şahmarın şəhid olmağı, bir yandan da onun nəşinin hələ də torpağın üstündə qalmağı ailəni tar-mar edib. Əmiləri qardaşlarının əmanətinin narahat cismini götürmək üçün hər vəchlə çalışıblar. Ancaq Qarabağın tam azad olması, Kəlbəcərin alınması lazım idi ki, Şahmar və digər döyüş yoldaşlarının nəşi götürülsün. Bu ağrıya dözə bilməyən bir əmi həmin müddətdə haqqın dərgahına qovuşub. Şəhidlərin əmisi Ədalət Səfərovun Ruhu əbədiyyətdə Şahmara və Cəsarətə qovuşub.

İki əmioğlu, iki itkin şəhid. İki taleyin əksi sanki bir - birinə düşüb. İntizarla keçən 52 gün. 52 gün sonra 18 noyabrda qəhrəman şəhidin nəşi ailəsinə təhvil verilib. Kədərin taqətdən saldığı doğmaları Şahmarın son vidasına yığışıblar. İnsanlar bilməyiblər al bayraqda gələn Şahmara yas tutsunlar, yoxsa hələ nəşin təhvil ala bilmədikləri Cəsarətə yas tutsunlar. (Hər iki həyatın ağrısı ürəyimi viran etdi.) Həmin gün anaların naləsi ərşə qalxıb. Dərdi ana ürəyin dağlayan Şahmarın nəşi II Fəxri Xiyabanda





vətənə can verən oğulların yanında dəfn olunub. Ancaq Şahmar Səfərovlar ailəsinin dəfn etdiyi son şəhid olmayıb...

Vətən qurbanı olan leytenant Səfərov Şahmar Nazim oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, «Döyüşdə fərqlənməyə görə» medalı və «Kəlbəcərin azad olunmasına görə» medalı ilə təltif edilib.

Daha sənin yaşın dəyişməyəcək qəhrəman şəhidim. Hər il yaşının üstə yaş gəldiyi gün qəlbimdə bir sızıltı olacaq. O sızıltının adı sən olacaqsan,sənin dəyişilməyən yaşın olacaq. Haqqın ödənməzdi ömrünü vətənə calayan şəhid.

## ŞƏHİD ŞAHMAR

Elə doğmalaşdın bir anda mənə,
Elə bil yüz ilin tanışlarıyıq.
Sənin o keçdiyin can bahasına,
Bizlər bu vətəndə şən yaşayırıq.

Hər dəfə dünyaya gəldiyin o gün,
Sən deyil bu vətən, yurd qocalacaq.
Adın vətən ilə qoşa çəkilib,
Zirvəyə çatacaq, hey ucalacaq.

Qələbə, zəfər və şəhid sözləri,
Xalqın yaddaşından silinməyəcək.
Şahmar, yağılardan aldığın vətən,
Yadelli əlində bölünməyəcək.




## ƏLİYEV ƏNVƏR NİZAMİ OĞLU LEYTENANT (II Qarabağ müharibəsində şəhid olmuşdur.)

## SAVADI İLƏ RƏĞBƏT QAZANAN ŞƏHİD

«Şəhidlər seçilmişlərdi» deyimini hər zaman dilə gətirir və eşidirik. Onlar sanki yer üzünə mələk kimi endirilirlər. Hər birinin ardınca düzülən kəlmələr də bənzər olur. Allah onları yaradılışdan seçir. Hər atdıqları addımla seçilirlər. Həm görünüşləri, həm də düşüncələri fərqliliklərinin carçısı olur. Nədənsə biz onların fərqli olduqlarının fərqinə onlar şəhid olduqdan sonra varırıq. Yəqin ki, bu da Allahın bir möcüzəsidir. Şəhid Ənvər də hər addımı ilə seçilirdi. Ancaq bir gün şəhid kimi seçiləcəyini heç kim düşünmürdü.

Əliyev Ənvər Nizami oğlu 4 iyun 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Axaməd kəndində anadan olub. Gəlişi ilə hər kəsi xoşbəxtliyə qərq edib. Zamanın ağuşuna atılan Ənvər böyüyüb. Böyüdükcə addımları da böyüyüb. Məktəbli yaşına çatan Ənvər 2003-cü ildə Axaməd kənd tam orta məktəbində I sinfə daxil olub. Hərbiyə böyük həvəsi olduğu üçün 2012-ci ildə sənədlərini Heydər Əliyev adına Hərbi liseyə verib və daxil olub.17 iyun 2015-ci ildə Heydər Əliyev adına Hərbi liseyi tam orta təhsilini xüsusi nümunəvi attestatla(bütün fənnlərdən 5 (əla)) bitirib. 3 illik hərbi təhsilini müvəffəqiyyətlə başa vurduqdan sonra həmin il Türkiyə Cümhuriyyətinin Ankara şəhərində «Kara kuvvetler Okulu»nda hərbi biliyini daha da inkişaf etdirib.2015-ci ildən 2016-cı ilə qədər Ankarada Hərbi Akademiyada oxuyub. Həmin vaxt Türkiyədə baş verən ixtişaşlarla əlaqədar tələbələr geri çağırıldığı üçün Ənvər də vətənə qayıdıb. Daha sonra 2016-cı ildən 2020-ci ilə qədər Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində " Xüsusi təyinatlı texnika və sistemlər" ixtisası üzrə bakalavr ali peşə ixtisas dərəcəsi alıb(19 iyun 2020-ci il).





Ənvər 4 uşaqlı ailədə böyümüşdü. Hər zaman atdığı addımları və davranışları ilə seçilməyi bacarmışdı. Elmin dərinliyinə qərq olduqca ətrafına sevinc bəxş etmişdi. Bilik və bacarığı sayəsində hər zaman qalibiyyət sevincini yaşamışdı. Riyaziyyat və tarix fənnlərinə xüsusi rəğbəti olan Ənvər bu fənnlər üzrə keçrilən bir çox olimpiadaların qalibi olmuş, bir çox fəxri fərmanla, medalla təltif edilmişdi. O, 2014-2015-ci tədris ilində əldə etdiyi nəticələrə və " ilin ən yaxşı kursantı" olduğuna görə fəxri fərmanla təltif olunmuşdu. Naxçıvan şəhər ümumi təhsil məktəbləri arasında keçirilən fənn olimpiyadasında riyaziyyat fənni üzrə 1-ci yeri tutduğuna görə 06.01.2015-ci ildə fəxri fərmanla təltif olunmuşdu. Daha sonra məktəblilərin fənn olimpiadalarının Respublika turunun yarımfinal mərhələsində riyaziyyat fənni üzrə 2-ci yerin sahibi olmuşdu. 2019-cu ildə Naxçıvan şəhər ümumi təhsil məktəbləri arasında keçirilən olimpiyadaların riyaziyyat fənni üzrə 1-ci yeri tutduğu üçün Ənvər Əliyev Naxçıvan şəhər təhsil şöbəsi tərəfindən fəxri fərmanla təltif olunmuşdu. Ənvər Əliyev Hərbi liseyi gümüş medalla bitirmişdi. NMR- nın Ali məclisinin sədri V. Talıbov Ənvərə saat hədiyyə etmişdi. Bu qədər yüksək bilik qabiliyyəti olan bir zabiti olan ordu əlbəttə ki, məğlub olmazdı.

Qarabağın üzərindən qara buludları çəkən qəhrəmanlardan biri də Ənvər Əliyev oldu. Sentyabrın 27 - də vətənin üzərinə Günəş doğdu. Qəhrəman oğullar Qarabağı azadlıq arzusuna çatdırdılar. Azərbaycanın düşmən tapdağı altında qalan bir çox əraziləri kimi illərdən sonra Suqovuşan da azadlığa qovuşdu. Bu azadlıq qanlarla, canlarla əldə edildi. Suqovuşanın dür axan sularına şəhid qanları qarışdı. 15 oktyabrda Suqovuşan uğrunda mübarizə aparan Əliyev Ənvər Nizami oğlu qəhrəmancasına şəhid oldu. 18 oktyabrda şəhidin nəşi Şərur rayon Şəhidlər Xiyabanında torpağa tapşırıldı.

Cənnətə tələsən şəhidlərdən olan leytenant Əliyev Ənvər Nizami oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı və «Suqovuşanın azad olunmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD ƏNVƏR

Elmin nur saçdığı ömür yolunu,
Şəhadət əbədi nura boyadı.
Sənin qazandığın o cənnət məkan,
Hər kəsin arzusu olan dünyadı.

Allah layiq bilməz hər bəndəsinə,
Cənnətin əbədi sakini olsun.
Dünyada yaşayan hər kəs istəyər,
Adı tarixlərdə sənin tək qalsın.

Sən elə bir zirvə fəth etmisən ki,
Adınla millətin fəxr edir, Ənvər.
Həyatda çox qısa ömür sürsən də,
Ömrünün bir anın verməden hədər.







## QASIMOV HAFİS CAVANŞİR OĞLU LEYTENANT

**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## MÜSTƏQİLLİYİMİZİN ƏBƏDİ CARÇISI

Hər zaman zirvələrdə bərq vuran müqəddəs bayrağımızı bu dəfə qəhrəman oğullar döyünən ürəklərinin üstünə basaraq o bayrağı Qarabağda dalğalandırmaq arzusu ilə yola çıxdılar. «Nə olur olsun bayraq yerə düşməyəcək.» dedilər. Bayrağın kölgəsində əbədi uyumağa razı olan oğulların sayəsində indi Qarabağ səmalarında və şəhid məzarlarında şanlı Azərbaycan bayrağı bərq vurur. O məzarların hər birində vətənin bir qəhrəmanı uyuyur. Vətən torpağında uyuyan qəhrəmanlardan biri də Qasımov Hafis Cavanşir oğludu.

Vətən müharibəsində həm Hafis, həm də qardaşı iştirak etmişdilər. Bu iki qardaşın qəhrəmanlıqlarına, Hafisin zəfərə uzanan ömür və döyüş yoluna nəzər salaq.

Hafis 1998-ci ilin qızmar yay günü Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Camaldın kəndində dünyaya gəlmişdi. 18 iyul ailə son beşiyinin gəlişini bayram etmişdi. Hər zaman qəhrəman oğullar yetirən Naxçıvan torpağında Qasımovlar ailəsində 3 oğul böyümüşdü.

Qasımov Hafis 2004-cü ildə Camaldın kənd tam orta məktəbində

təhsil almağa başlamışdı. Məktəbdə oxuduğu zamanlardan böyük qardaşı Camal kimi o da hərbçi olmaq arzusunda olmuşdu. 2012-ci ildə VIII sinfi bitirdikdən sonra hərbi təhsil almaq üçün Heydər Əliyev adına Hərbi liseyə qəbul olmuşdu. 3 illik təhsilini tamamladıqdan sonra 2015-ci ildə Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdu. Azərbaycan Ordusunun yaranmasının 100 illiyi Hafisin kursantlıq illərinə təsadüf etdiyindən və təqdirəlayiq davranışlarına görə «Azərbaycan Ordusunun 100 illiyi» yubiley medalı ilə təltif edilmişdi. Daha sonra 2019-cu ildə AAHM - i «Şəxsi heyətlə iş üzrə bölük komandirinin müavini» ixtisası üzrə bitirmişdi. Hərbi məktəbi bitirdikdən sonra 2019-cu ildə leytenant hərbi rütbəsi ilə öz ixtisası üzrə N saylı hərbi hissədə xidmətə başlamışdı.

Vətən müharibəsinin başladığını eşidəndə Nigar ananın ürəyində sanki nigarançılıq adlı qasırğa qopdu. İki oğlu eyni anda vətənin azadlığı uğrunda vuruşan ana həm nigaran, həm də qürurlu idi. Oğlu qəhrəman olan analar özləri də qəhrəman sayılır. Sonuncu dəfə 13 oktyabrda Hafislə danışan zaman oğlundan «Ana mən şəhid olacam. Ardımca ağlama. Sən qəhrəman anası olacaqsan.» sözlərini duymuşdu Nigar ana. Elə də oldu.

Baş leytenant Camal Qasımov Murovdağ istiqamətində düşməni lərzəyə saldığı vaxtda leytenant Hafis Qasımov da Füzuli rayonu istiqamətində düşmənə qan uddurmuşdu. Cəbrayılın bir çox ərazilərini, Xudafərin körpüsünü düşməndən azad etdikdən sonra Hafis qəhrəmancasına şəhid olmuşdu.

Bu həyatın ən çətin anlarından biri də qardaş nəşin daşımaqdı. Hələ bir də o qardaş sənin döyüş yoldaşındırsa o acını izah etmək mümkünsüzdür. Camal döyüşdə olduğu zaman qardaşının şəhid olduğu xəbərini alıb. Oktyabrın 14-də şəhid olan Hafisin şəhid olduğu xəbəri oktyabrın 16-da həm ata-anasına, həm də döyüşdə olan qardaşına verilib. Bir tərəfdə vətənin azadlıq anı, digər tərəfdə qardaşın əbədi vidası... Camal son dəfə qardaşını, sirdaşını, silahdaşını nəfəssiz halda görüb. Hafisin buza dönən cismi Camalın intiqam alovunu şiddətləndirib.

Oktyabrın 18-də ailə iki oğlunun dönüşünə şahidlik edib. Camal Hafisi valideyinlərinin yanına heç o şəkildə gətirmək istəməzdi. Bu gedişin ən ağır yükü Camalın çiyinlərinə yüklənib.

18 oktyabr Müstəqillik günü müstəqilliyimiz, azadlığımız uğrunda





can verən daha bir qəhrəman Camaldın kənd məzarlığında əbədi olaraq vətənləşdi.

Leytenant Qasımov Hafis Cavanşir oğlu Vətən müharibəsində qazanılan zəfərdə göstərdiyi şücaətlərə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə «Vətən uğrunda» medalı, «İgidliyə görə» medalı və «Füzulinin azad olunmasına görə» medalı ilə təltif edilib.

**ŞƏHİD HAFİS**

Car çəkdin sonuncu nəfəsin ilə,
Vətən azadlığın bu kainata.
Dedin «İgid oğul o oğuldu ki,
Vətən çağıranda dadına çata.»

İki igid qardaş döyüş zamanı,
Vətən arxalanan oğul oldunuz.
İllərdi vətəni yağmalayanın,
Vətənə kəm baxan gözün oydunuz.

Hafis, qürurusan Azərbaycanın,
Bu xalqın duası ucalır sənə.
Adın unudulmaz, vətən şəhidi,
Canınla can verdin sən bu vətənə.



**HƏMZƏYEV MƏRHƏMƏT RİZVAN OĞLU LEYTENANT (II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## FƏXARƏT TOXUMUN ƏKƏN OĞUL

Şəhid olan oğullar torpağa fəxarət toxumun əkib gedirlər. Günü-gündən cücərib boy atan o fəxarət bütün ətrafını öz ağuşuna alır. Ötən illərlə bərabər şəhid olanlarla fəxr edənlərin sayı artır. Bütün bir nəslin, elin, xalqın fəxr etdiyi qəhrəman oğullar sırasındadır Mərhəmət. Ömrünün ən gözəl illərində ölümü gözə alıb ölümsüzləşən qəhrəmanı daha yaxından tanıyaq.

Həmzəyev Mərhəmət Rizvan oğlu 24 fevral 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Keçili kəndində dünyaya göz açıb. Gəlişi ilə sevinci özü ilə bərabər doğulan Mərhəmət üç uşaqlı ailənin ikinci övladı olub. Ötən günlərin böyütdüyü körpə bir məktəbli kimi 2003-cü ildə Keçili kənd tam orta məktəbinə qədəm qoyub. Körpəlikdən bir hərbçi olacağını xəyal edən Mərhəmətin xəyalları 2012-ci ildə gerçək olub. Həmin il Naxçıvan Muxtar Respublikasındakı Heydər Əliyev adına Hərbi liseyə qəbul olub. Liseydə təhsilini uğurla başa vurduqdan sonra 2015-ci ildə Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub. Dörd illik təhsili müddətində müəllimlərinin rəğbətini qazanıb. 2019 - cu ildə məktəbi bitirən zaman leytenant hərbi rütbəsinə layiq görülüb. İlk olaraq təyinatla





Şəmkir rayonunda yerləşən N saylı hərbi hissədə xidmətə başlayıb.

Mərhəmət qürur duyulası bir övlad, bir qardaş olmuşdu. Hər zaman bir hərbçi kimi yüksək zirvələrə ucalacağını dilə gətirən qəhrəman əslində bu günlərdən xəbər verirmiş. İşinə həddindən artıq bağlı bir hərbçi imiş. Məzuniyyətə gəldiyi zamanlarda işinə dönəcəyi günü səbirsizliklə gözləyirmiş. Son dəfə martın 29-da əzizlərindən ayrılan zaman hər kəs son vidadan xəbərsiz imiş. Mərhəmət Qarabağın azadlığını arzu etdiyi zaman ailəsi nişanlı oğullarının toy planlarını qururmuş. Qərənfil ana oğlunun sevib - seçdiyi xanımı evinə gəlin gətirəcəyi günü xəyal edirmiş. Ah qanına qəltan olan arzular...

Mərhəmət ümumiyyətlə hərbidə baş verənlər barəsində ailəsinə heç bir söz deməzmiş. Son dəfə sentyabrın 26-da danışan zaman da müharibənin başlayacağı barəsində heç bir söz deməyib. Bacısına təlimə gedəcəyini, bir müddət zəng edə bilməyəcəyini deyib. Bacısına «Dönəcəm...» deyib. Dönüb ancaq bacısı Biriliantın arzu etmədiyi kimi.

Arzuların uzandığı yolun Qarabağa çatdığı 27 sentyabrda Mərhəmət də vətənin əsil vətəndaşı kimi önə atılmışdı. Ana vətəni düşmən pəncəsindən qurtaranlardan biri də Mərhəmət olmuşdu. Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə mübarizə aparmış,elə Murovdağ uğrunda gedən döyüşlərdə də şəhid olmuşdu. Murovun qarlı zirvəsi çox oğulların nəşini uzun müddət gizlətdi. Həmin oğullardan biri də Mərhəmət oldu. Qərənfil ananın ürəyi oğul adlı dərddən yanarkən Mərhəmətin cismi Murovun sərt soyuğunda buz bağlamışdı. Müharibənin ilk günlərində şəhid olan qəhrəmanın nəşi müharibə bitəndən xeyli zaman sonra tapılmışdı. 22 dekabr 2020-ci ildə Mərhəmətin nəşi böyük izdihamla Şahbuz rayonunun Keçili kənd məzarlığında torpağa tapşırılmışdı.

Leytenant Həmzəyev Mərhəmət Rizvan oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əmrinə əsasən şəhid olduqdan sonra «Vətən uğrunda» medalı, «Kəlbəcərin azad olunmasına görə» medalı və «Suqovuşanın azad olunmasına görə» medalı ilə təltif edilib.

Hər zaman «Mənimlə qürur duyacaqsınız.» deyən Mərhəmətin bacısı Biriliant xanım qardaşından qürurla danışdı.

- Mən hər zaman qardaşımla fəxr edirdim, indi də fəxr edirəm. Nə yaxşı ki, elə bir qardaşın, vətən oğlunun bacısıyam. O, bizim başımızı

uca elədi. Deyirdim sən mənim fəxrimsən. Deyirdi «Daha çox fəxr edəcəksən.» Yəqin ki, bir gün şəhid olacağını hiss edirmiş. Mərhəmət mənim üçün əvəz edilməzdi. Hər zaman qəlbimdə yaşayacaq. Çünki şəhidlər ölmür.

Yunis üçün də dayağı olan qardaşını itirmək çox ağırdı. Hələ onun çatmadığı nə qədər qardaşlı arzuları var idi...

### ŞƏHİD MƏRHƏMƏT

Mənsizlik nə qədər ağır gəlsə də,
Qürurla dikəlsin sizin başınız.
Ay bacım, qardaşım, bilin vətənə,
Canın qurban edib mərd qardaşınız.

Mənsizlik ürəyin qəm-kədər yükü,
Ruhun sağalmayan bir yarasıdır.
Anadan vətənçün doğulan oğul,
Evin yox vətənin bir balasıdır.

Mənsizlik zülmətə qərq olan yol tək,
Sizi qorxudacaq, mən də bilirəm.
Qoymayın anamın qəlbi sızlasın,
Anamı cənnətdən üzgün görürəm.

Mənsizlik nə qədər çətin olsa da,
Vətənsiz yaşamaq daha çətindi.
Bilin, Mərhəmətin axan qanıyla,
Qəlblərin sağalmaz acısı dindi.







## MƏMMƏDOV ÜMİD FƏRMAN OĞLU LEYTENANT

**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

### «MƏN ŞƏHİD OLACAM»

Qarabağın 30 illik işğal tarixi dönəmində Azərbaycan neçə - neçə şəhid qurban verdi. İstər ordu sıralarının hərbiçiləri, istərsə də mülki vətəndaşlar Ermənistanın separatçı rejiminin insanlığa yaraşmayan terrorunun qurbanı oldular. İllərlə xalqımıza dost görünüb eyni yerdə məskunlaşan hiyləgər qonşularımız bizi yurd - yuvalarımızdan didərgin saldılar. Vətəndaşları şəhid olan Azərbaycanda yeni-yeni vətəndaşlar dünyaya gəldi. Hər doğulan körpənin ilk ana laylasında Qarabağ adı yer aldı. O körpələrdən biri də Vətən müharibəsinin qəhrəman şəhidlərindən biri olan Məmmədov Ümid Fərman oğlu idi.

Ümid 14 mart (sənədlərdə 19 mart yazılıb) 1999-cu ildə Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Nehrəm qəsəbəsində dünyaya göz açmışdı. Hər bir körpə kimi o da həyat nərdivanını pillə-pillə addımlayıb şəhid olduğu yaşa çatmışdı. Ailəsi Ümidi və digər bacı-qardaşını min bir zəhmətlə boya-başa çatdırmışdı. Ailənin ortancıl uşağı olan Ümid 2005-ci ildə orta məktəbə qədəm qoymuşdu. Orta məktəbdə 8 il təhsil aldıqdan sonra 2013-cü ildə Heydər Əliyev adına Hərbi liseyə qəbul olmuşdu. Oxuduğu müddətdə savadı ilə seçilən Ümid liseyi fərqlənmə dip-

lonu ilə bitirmişdi. 2016-cı ildə Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdu. Azərbaycan Ordusunun yaranmasının 100 illiyi həmin illərə təsadüf etdiyindən 2018-ci ildə «Azərbaycan Ordusunun 100 illiyi» yubiley medalı ilə təltif edilmişdi. 2020-ci ildə məktəbi bitirdikdən sonra xidmətə başlamışdı. Həmin ilin iyun ayında ilk olaraq Goranboy rayonunda yerləşən N saylı hərbi hissədə leytenant hərbi rütbəsi ilə xidmət etmişdi. 2020-ci ilin iyul ayında baş verən Tovuz döyüşlərində iştirak etmişdi. Hələ o döyüşlər zamanı düşmənə öz gücünü sübut edən qəhrəman Qarabağın azad olunacağı günün çox yaxın olduğunu dilə gətirmişdi.

Hər dəfə şəhidlərin şəhid olmazdan öncə dilə gətirdikləri fikirləri eşitdikcə onların şəhadətlərindən xəbərdar edildiklərini bir qədər də dərindən anlayıram. Ümid də sentyabrın 3-də doğmaları ilə son görüşü zamanı bu sözləri demişdi «Mən gedirəm, 4-cü maaşımı ala bilməyəcəm. Mən şəhid olacam. Bu bizim son görüşümüzdü.» Bu sözləri dedikdən sonra anasını, atasını qucaqlayıb sonra işinin başına dönmüşdü.

Ümidin illərdi gözlədiyi o gün çatan zaman onun sevinci gözlərinə və sözlərinə yansıyıb. Sentyabrın 26-da bütün qohum - tanışları ilə danışıb, sağollaşan Ümidin bacısına dediyi son sözləri «Mənə nə olur olsun arxamca ağlamayın.» olub. Müharibə başladığı ilk gündən vətən oğlu döyüşə qatılıb. Döyüşlər zamanı Ümidin olduğu tank vurulub, həmin vaxt tankda olan 5 əsgərdən 1 -i şəhid olub. Ümid tankdan çıxan zaman digər 3 döyüş yoldaşının yaşadığını görüb və hər 3 yoldaşının həyatını xilas edib. Daha sonra mübarizəsini davam etdirib. Ümid son nəfəsinə qədər haqq yolundan dönməməkdə və Qarabağın işğal yarasını sağaltmaqda israrlı idi. Elə o yolda da canından keçən oğul oktyabrın 5-də 3 əsgəri ilə birlikdə Suqovuşan istiqamətində gedən döyüşlərdə şəhid olub.

Şəhadət sorağı Naxçıvana çatan qəhrəmanın nəşi 18 oktyabrda doğma yurduna çatıb. Həmin gün şəhidin nəşi Nehrəm kənd məzarlığında torpağa tapşırılıb.

Leytenant Məmmədov Ümid Fərman oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı və "Cəsur döyüşçü" medalı ilə təltif edilib.





## ŞƏHİD ÜMİD

Sən haqqın yolundan dönmədin bir an,
Oldun bu vətənin fəryadın duyan,
Hey dedin «Millətim, qəflətdən oyan,
Qarabağ torpağı səsləyir bizi
Qanla təmizləyək qeyrətimizi.»

İllərlə o qisas günün gözlədin,
Qarabağ dərdinə sən də dözmədin,
Ümid, ümidini heç vaxt üzmədin,
Bildin yetişəcək qisas zamanı
Yerdə qalmayacaq şəhidlər qanı.

Sənin vətən eşqin coşub-daşanda,
Vətən xilas oldu həmin o anda,
Can verdin vətənə Suqovuşanda,
Qanınla qarışdı dür axan sular
Vətənin sinəsi oldu laləzar.



QULİYEV HƏSƏN
İBRAHİM OĞLU
LEYTENANT
(II Qarabağ müharibəsində şəhid olmuşdur.)

## AD GÜNÜNDƏ ŞƏHİD OLAN HƏSƏN

İnsan dünyaya göz açanda alın yazısı yazılmış olur. Doğulduğu gündən məzar evinə qədər atacağı addımları təkcə Allaha aşkar olur. Hər doğulan bəndə seçilə bilmir. Allahın sevdiyi bəndələri seçilməyi bacarır. O bəndələr Allah tərəfindən cənnətlə mükafatlandırılır. Cənnətə layiq olan bəndələr peyğəmbərlərdən sonra şəhidlər və qazilərdi. Bir şəhid cənnətə ayaq basdığı zaman təzim edilərək qarşılanar. Cənnətin şəhid ətirli qonaqları sırasında dünyaya gəldiyi gün dünyadan köçən Quliyev Həsən İbrahim oğlu da var. 24 il öncə 1996-cı il sentyabrın 30-da dünyaya gəldiyi zaman xoşbəxtlikdən qanad açıb uçan ailəsi bilməzdi ki, o xoşbəxtliyin son nöqtəsi 24 il sonra elə həmin gün qoyulacaq. Ailəsinin qaragöz oğlu gənc yaşında qara torpağa qismət olacaq.

Hər insan ömrü boyu arzularla yaşayır. Həsənin də arzuları var idi. Həsənin qeydlərinə, sözlərinə nəzər saldıqca onun ən böyük arzusunun vətən yolunda şəhid olmaq arzusu olduğu aşkar görünür. Həsən qeyd etdiyi «Bir gün hər kəs anamın səsinə oyanacaq, məndən başqa.» sözləri ilə əslində çox şeyi deyib. Bəli, bir gün Şərur rayonunun Qarahəsənli kəndində hər kəs İradə ananın səsinə oyandı, təkcə Həsəndən başqa. Qaragöz





Həsən gözlərini əbədi yumdu. Ümidlər də o qara gözlərin qarası tək qaranlığa qərq oldu.

Həsən ailəsinin xoşbəxtliyi idi. Elə uşaqlıqdan seçilməyi bacarıb. Ağlı, dərrakəsi, gözəl xasiyyət ilə hər kəsin ürəyinə yol tapıb. 2003-cü ildə Milli Qəhrəman Kərim Kərimov adına Qarahəsənli kənd tam orta məktəbində ibtidai təhsil almağa başlayan zaman müəllimləri onun gələcəkdə vətənə layiq bir övlad olacağını dilə gətiriblər. Hələ kiçik yaşlarında hərbçi peşəsinə marağı olan Həsənin böyüdükcə qərarları kəsinləşib. O, 2012-ci ildə Heydər Əliyev adına Hərbi liseyə daxil olub.Təhsilini başa vurduqdan sonra 2015-ci ildə Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2019-cu ildə Həsən Azərbaycan Ordusuna yararlı bir leytenant kimi xidmətə başlayıb. Goranboy rayonunda yerləşən N saylı hərbi hissədə xidmət edən Həsən 2020-ci il iyul ayında baş verən Tovuz döyüşlərindən sonra könüllü olaraq ön cəbhədə xidmət etmək üçün müraciət edib. Həmin döyüşlərdə şəhid olan qəhrəmanların qisasını qısa müddətdə almağa can atıb. Çox keçmədən onun istəyi həyata keçib. 27 sentyabr 2020-ci ildə II Qarabağ müharibəsi başlayan zaman "Vətən üçün ölməkdən daha şərəfli ölüm varmı? Vətən uğrunda ölən varsa vətəndir! Vətən dardadır, biz onu qorumasaq kim qoruyacaq?" sözlərini deyərək döyüşə başlayıb. Gözündə intiqam alovu çaxan qəhrəman düşmənin xeyli sayda canlı qüvvəsini məhv edərək şəhidlərin qisasını alıb. Vətən üçün doğulan qəhrəman ilk dəfə yeni yaşına illərlə düşmən tapdağı altında qalan torpaqlarda keçib. Ancaq yeni yaşının ilk saatlarında vətənin azadlığı uğrunda Talış-Madagiz istiqamətində gedən döyüşlərdə aldığı qəlpə yaralarından qəhrəmancasına şəhid olub.

Bir zaman gəlişi ilə ailəsinə sevinc bəxş edən Həsən oktyabrın 1-də əbədi gedişi ilə hər kəsi hüznə qərq edib. İllər öncə dünyaya göz açdığı Qarahəsənli kəndində torpağa tapşırılıb.

Leytenant Quliyev Həsən İbrahim oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, «İgidliyə görə» medalı və «Suqovuşanın azad olunmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD HƏSƏN

Sən dünyaya gələndə
Heç kim düşünməmişdi,
İllər sonra həmin gün,
Vətənə can verərsən
Şəhadətə yetərsən,

O günün sevincini,
Yoxluğunun acısı,
Gözlərdən, könüllərdən
İlim-ilim itirdi
Sənsizlik qəm gətirdi.

Ən böyük arzun idi,
Ömrünə qədəm qoyan,
Yeni bir yaş gününə,
Qarabağda çatasan
Azadlığı duyasan.

Həsən, arzuna çatdın,
Ancaq ki, bu sevincin,
Gözündəki ümidin,
Ömrü çox qısa oldu
Ömrün gənc yaşda soldu.







## ABDULLAYEV İNTİQAM ALLAHVERDİ OĞLU LEYTENANT

**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## VƏTƏN FƏDAİSİ

Varlığını vətənə, millətə, bayrağa, torpağa fəda edənlərdi fədailər. Fədailərin yükləri çiyinlərində yox ruhlarında olar. Onlar haqq yükünü daşıyarlar. Haqları olan uğrunda haqq mübarizəsi aparar, candan keçib vətənin bir qarışından keçməzlər. Vətən uğruna ömürlərin fəda edilişini çox gördük, eşitdik. Fədailər gözlərimizdə vətən kimi ucaldılar, bayraq kimi müqəddəsləşdilər, şəhid kimi ölümsüzləşdilər. Bir gözümüz kədər göz yaşı, bir gözümüz qürur göz yaşı tökdü. Qürurun ram etdiyi ürəklər şəhid adı ilə əbədi yanan məşələ çevrildi. Mənəviyyatımız bu nurla aydınlandı. Vətən torpaqları aydınlanan kimi.

Vətən fədaisi kimi ürəklərdə yaşayan bir vətən oğludu İntiqam. Elə adından bəlli olduğu kimi düşməndən intiqamını alan bir qəhrəmandı. 1998-ci il avqustun 12-də Ordubad rayonunun Düylün kəndində dünyaya göz açmışdı Abdullayev İntiqam Allahverdi oğlu. Ailəsinin üçüncü, son beşik övladı idi. Körpəlikdən mehribanlığı, vətənpərvərliyi ilə rəğbət qazanmağı bacarmışdı. 2004-cü ildə Ordubad rayon Düylün kənd tam orta məktəbində təhsil almağa başlamışdı. IX sinfi bitirdikdən sonra Heydər Əliyev adına Hərbi liseyə qəbul olmuşdu. Liseyi uğurla bitirdikdən sonra

2016-cı ildə Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) təhsilini daha da təkmilləşdirmişdi. 2020 - ci ildə hərbi məktəbi bitirmiş və leytenant hərbi rütbəsi almışdı. İlk olaraq Qazax rayonunda yerləşən N saylı hərbi hissədə xidmətə başlamış, sonra təyinatla Göygöl rayonuna göndərilmişdi. II Qarabağ müharibəsi başlanan ilk gündən rəşadətli ordunun mübariz əsgəri kimi ön cəbhədə yer almışdı.

"İşğal altında olan torpaqları biz mütləq azad edəcəyik!" Bu sözlər İntiqamın həyat şüarı idi. O bir zabit olaraq bilirdi ki, Azərbaycan Ordusu düşmən tapdağında bir qarış torpaq qoymayacaq. Döyüşlər vaxtı oktyabrın 1-də atası ilə danışan zaman düşmənin layiqli cavabla susdurulduğunu və hər addımın Qarabağa doğru atıldığını deyib. Strateji baxımdan çox önəmli yüksəklik hesab edilən Murovdağ və Kəlbəcər istiqamətində gedən döyüşlərdə mübarizə aparan İntiqam çox əhəmiyyətli yüksəklikləri azad edənlərdən biri olub. Oktyabrın 3-də döyüş yolu tamamlanıb. Vətən uğrunda canını fəda edən fədailər sırasına qoşulub. Ancaq onun nəşini götürmək mümkün olmayıb. Günlər həftələrə calanıb, həftələr aylara. Hər saniyə bir ilə çevrilib. İntiqamın ailəsinin, doğmalarının 165 gün nələr çəkdiyini izah etmək mümkünsüzdür. 165 gün sonra martın 16-da İlaxır çərşənbə günü İntiqamın şəhid xəbəri gəlib. 18 martda isə aylardan sonra İntiqamın nəşi öz el-obasına gətirilib. Aylarla yollara dikilən gözlər İntiqamın tabutda gəlişini seyr edib, qan ağlayıb. Şəhidin nəşi uzun müddət sonra Ordubad rayon Düylün kənd məzarlığında torpağa tapşırılıb.

Leytenant Abdullayev İntiqam Allahverdi oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Cəsur döyüşçü» medalı, «Vətən uğrunda» medalı və «Kəlbəcərin azad olunmasına görə» medalı ilə təltif edilib.





## ŞƏHİD İNTİQAM

«Min dəfə dünyaya gələrsəm əgər,
Ömrümü vətənə qurban edərəm.
Şəhid izi düşən azadlıq yolun,
Şərəflə, namusla mən də gedərəm.»

Bu idi həyatda sənin amalın,
Vətən azadlığı, yurd azadlığı.
İgid oğulların şücaətiylə,
Zirvələr fəth etdi vətən bayrağı.

Adından yansıyan intiqam hissi,
Düşmənin qəlbini yandırıb yaxdı.
Qisas alınacaq o gün yetən vaxt,
İntiqam, gözündə intiqam çaxdı.

Murovdağ zirvəsin sən tək ərənlər,
Fəth edib üç rəngli bayraq sancdılar.
Azadlıq müjdəsin xalqa yetirdi,
Tarixi qan ilə yazan oğullar.



HACIYEV ŞÜKÜR
BAYRAM OĞLU
LEYTENANT
(II Qarabağ müharibəsində şəhid olmuşdur.)

## «YEREVANA (İRƏVANA) QƏDƏR GEDƏCƏYİK»

Azərbaycanın əzəli, əbədi torpaqları var. Bir zamanlar bəzi qüvvələr o torpaqları Ermənistana verib, onların ərazisi kimi göstərməyə çalışıblar. Ancaq azərbaycanlılar yaxşı bilirlər ki, ermənilərin özününküləşdirməyə çalışıb məskunlaşdıqları, hətta paytaxt elan etdikləri həmin ərazilər Azərbaycana məxsus torpaqlardı. Bu vətənin övladları bizim olanı başqasına verməz.

«Yerevana (İrəvana) qədər gedəcəyik!» deyən Hacıyev Şükür özü həmin torpaqlara çata bilməsə də yolunun davamçılarının o torpaqları azad edəcəklərinə şüphəmiz yoxdu. Necə ki, bu günlərdə Azərbaycanın üç rəngli şanlı bayrağı Zəngəzurda dalğalanır, gün gələcək Azərbaycan bayrağı əzəli Azərbaycan torpaqlarında əbədi dalğalanacaq.

Hacıyev Şükür Bayram oğlu Vətən müharibəsi qəhrəmanlarından biridir. O, 1999-cu il avqustun 25-də Naxçıvan Muxtar Respublikasının Babək rayonunda anadan olmuşdur. 2005-ci ildə Babək rayon 1 N - li məktəbdə təhsil almağa başlamışdı. VIII sinfi bitirdikdən sonra Heydər Əliyev adına Hərbi liseyə qəbul olmuşdu. 2016- cı ildə hərbi liseyi bitirdikdən sonra Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdu. 2020-ci





ildə AAHM-dən məzun olduqdan sonra leytenant hərbi rütbəsinə yiyələnmişdi. Xidmətə Ermənistan silahlılarının gecə-gündüz atəşə tutduğu Tərtər rayonundakı N saylı hərbi hissədə başlamışdı.

Şükürün hər zaman dilə gətirdiyi bir arzusu var idi. O, «Mübariz İbrahimovun qisasın alacam.» deyib. Dediyi sözə də əməl edib. «Mübariz postu» nu düşməndən azad edənlərdən biri olan Şükür daha sonra Suqovuşan uğrunda gedən ağır döyüşlərdə iştirak edib. Döyüş zamanı çiynindən yaralanmağına baxmayaraq hospitala getməyib. Özü yaralı olsa da yaralı əsgərlərini döyüş meydanından çıxarıb. Əsgərlərin həyatını xilas etdikdən sonra oktyabrın 12-də sinəsi minamyot mərmisinə tuş gəlib. 6 döyüş yoldaşı ilə birlikdə şəhadətə ucalıb. Neytral zonada şəhid olduqları üçün onların nəşlərini həmin ərazidən götürmək mümkün olmayıb. O müddətdə ailəsi hər yerdə Şükürü soraqlayıb. Şükürün şəhid xəbəri ailəsinə noyabrın 29-da verilib. 30 noyabrda isə şəhidin nəşi Naxçıvana gətirilib. 2 oğul övladından birini vətənə, torpağa qurban verən ailəsi həmin gündən Babək rayonundakı məzarlığı oğul evi bəlli ediblər. Şükürün nişanını, toyunu görmək arzusunda olan doğmaları daha onun məzarı önündə çarəsizcə göz yaşı tökürlər.

Leytenant Hacıyev Şükür Bayram oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Döyüşdə fərqlənməyə görə» medalı, «Vətən uğrunda» medalı və «Suqovuşanın azad olunmasına görə» medalı ilə təltif edilib.

Şükürün arzuları var idi. Hər arzusu vətənlə, torpaqla bağlı idi qəhrəmanın. Ürəyində çox arzular yer alsa da ən böyük arzusuna çatdı. Mübariz ürəkli, Mübariz sevdalı qəhrəman Mübarizin ucaldığı müqəddəs şəhidlik zirvəsinə ucalmaqla onun cənnətinə tələsdi. O, arzusuna çatsa da onu sevənlərin arzuları ürəklərində boyun bükdü.

## ŞƏHİD ŞÜKÜR

Alıb Mübarizin qan qisasını,
Qəlbində yer edən arzuya çatdın.
«Mübariz postu»nu azad eləyib,
Vətən bayrağını sancıb, ucaltdın.

Dedin «Yerevana çatıb, bayrağı-
Həmin torpaqlarda ucaldacağam.
Qoymaram bir qarış vətən torpağın,
Düşmən tapdağında nə qədər sağam.»

İllərlə bu sözlər arzu tək qalıb,
Bizlərə göründü çatılmaz, müşkül.
Şükür, sənin kimi oğullar ilə,
Çatdıq arzumuza bizlər çox şükür.

Sənli duyğuları xəyal bəzəyir,
Qəlblər həsrətinlə sızlayır hər an.
Bircə təsəllisi var bu kədərin,
Bilirik cənnətdi əbədi dünyan.





**HÜSEYNOV MƏTİN RAMİZ OĞLU LEYTENANT (II Qarabağ müharibəsində şəhid olmuşdur.)**



## QOLUNDA BAYRAQ ŞƏHİD OLAN MƏTİN

Azərbaycan xalqı mətin, iradəli, sarsılmaz bir xalqdır. Biz bunun fərqindəyik. Xalq olaraq illərdi yaşadıqlarımızdan sonra halqa-halqa birləşib bütöv Qarabağı ağuşumuza aldıq. Dünyanı heyrətə salan bu birlik bütün duyğuların fövqündədir. Azərbaycanın hər bir yerindən Qarabağın azadlıq harayına səs verən oğullar Qarabağdan bütöv Azərbaycanı salamladılar. İllərlə Ermənistan ordusunun min hiyləsini görərək böyüyən oğullar düşmən hiyləsinə göz yummadı. Naxçıvanın Ermənistanla həmsərhəd olduğunu nəzərə alsaq orada böyüyən oğulların çoxlarının uşaq vaxtı çalınan laylalarını atəş səslərinin kəsdiyi sirr deyil. Hər dəfə erməni təxribatına qurban gedən şəhidlər olduqca bir zaman beşiyində silah səsləri duyan oğullar düşmənə daha dərin nifrət bəslədilər. Böyüyən oğullar vətənin xilaskarı oldular. Mətin də o oğullardan biri kimi tarix yazdı.

Hüseynov Mətin Ramiz oğlu 1997-ci il oktyabrın 27-də Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Düylün kəndində anadan olub. Ailənin 3 övladından sonuncusu Mətin olub. 2004-cü ildə şəhid Surxay Rzayev adına Düylün kənd tam orta məktəbində təhsil alıb. Məktəbə ilk qədəm qoyan andan bir şəhid adı ilə rastlaşan Mətin böyüdükcə

bu adın mənasını daha dərindən dərk edib. Valideynlərinin aşıladığı vətən sevgisi orta məktəbdə oxuyan zaman müəllimlərinin sayəsində daha da cilalanıb. Bu sevgini vətənə həsr etmək niyyətində olan Mətin 2013-cü ildə Heydər Əliyev adına Hərbi liseyə qəbul olub. Burada da nailiyyətlər əldə edən qəhrəman 2016-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub. Hərbi təhsil aldığı müddətdə dəfələrlə təşəkkürnamələrə və fəxri fərmanlara layiq görülüb. 2020-ci ildə leytenant hərbi rütbəsi alaraq məktəbi bitirib. Elə həmin müddətdə təyinatla Ağcəbədi rayonuna göndərilib və N saylı hərbi hissədə peşəsini icra etməyə başlayıb.

Ermənistan ordusu 2020-ci ildə sərhədboyu ərazilərdə ard - arda təxribatlar törədirdi. Azərbaycan ordusu isə hər dəfə düşməni susdurub geri çəkilməyə məcbur edirdi. Ancaq sentyabrın 27-də vəziyyət başqa oldu. Bu dəfə düşmən nəinki susdurulmaqla qaldı, bütöv Qarabağdan çıxarıldı. Düşmən ayağın vətən torpaqlarından kəsən qəhrəman oğullardan biri də Mətin olub. Döyüşlər başlayan ilk zamanlardan döyüşə qatılan Mətin Füzuli, Xocavənd və Şuşa istiqamətində gedən bütün döyüşlərdə iştirak edib. O, döyüşdə olduğunu ata, anasından gizlədib. Təkcə qardaşı harda olduğundan xəbərdar olub. Döyüşlər zamanı bir neçə dəfə yaralanıb. Ancaq buna baxmayaraq o geri çəkilməyərək mübarizəni davam etdirib. Şuşa həsrəti sona çatan Mətin Şuşanın zəfər sevincini yaşayıb. 9 noyabrda Ermənistanın kapitulyasiya aktını imzalamasından bir neçə saat əvvəl Qırmızı Bazar ərazisində yaralı döyüş yoldaşına kömək etmək istədiyi zaman snayperlə ürəyindən vurulub. Şəhid olarkən qolunda bayraq olan Mətinin cismi vətən bayrağına bükülüb.

Noyabrın 3-dən Mətinin ailəsi ondan heç bir xəbər ala bilmirdi. Müharibə bitib, zəfər elan olunmasına baxmayaraq Mətindən nə bir zəng, nə də bir iz yox idi. Bu susqunluq hər kəsi narahat edirdi. Neçə-neçə oğulu bayraqlı tabutda qarşılayan naxçıvanlılar Hüseynovlar ailəsinin ocağına od düşməməsi üçün dua edirdilər. Bir evdən çıxan tabut bir elin çiyinlərinə ağır yük yükləyirdi. Noyabrın 21-də Naxçıvana yenə şəhid xəbəri səda saldı. Noyabrın 22-də şəhidin nəşi doğulduğu el-obasında, Düylün kənd məzarlığında torpağa tapşırıldı.

Leytenant Hüseynov Mətin Ramiz oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən





uğrunda» medalı, «İgidliyə görə» medalı, «Xocavəndin azad olunmasına görə» medalı və «Füzulinin azad olunmasına görə» medalı ilə təltif edilib.

### ŞƏHİD MƏTİN

Dünyaya gəldiyin ilk gündən, Mətin,
Səninlə böyüdü vətən həsrətin.
Ömrünün ətirli bahar çağında,
Şəhadət zirvəsi oldu qismətin.

Şuşa zəfərinin igid fatehi,
İslatdı torpağı sanki qan şehi.
Qolun üstündəki şanlı bayrağı,
Saldı cismin üstə dağların mehi.

Döyüşün sonuncu gününə kimi,
Vətənə sən sipər etdin cismini.
Döyüş yoldaşını xilas edərkən,
Düşmənin gülləsi dəldi qəlbini.

Ruhun qanadlanıb uçdu cənnətə,
Adın ürəklərdə döndü həsrətə.
Vətənə sevdalı olan oğullar,
İstəyir sənin tək cənnətə yetə.



YUSİFOV ƏLİ SÜLƏDDİN OĞLU
LEYTENANT
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## NAXÇIVANA SON GƏLƏN ŞƏHİD

İntizar ürəkdən başlayıb gözlərə süzülər. Baxışlarla hər yerdə izin salar. Ürəyinə intizar düşən birinin baxışları dərin olar. O gözlərə nəzər saldığında gözlərdəki çarəsizlikdə boğularsan. Hər kəlmə səni o gözlərdəki uçurumun mənsəbi olan ürəyə çəkər. O ürəyin dərdinə ehmalca toxunmaq bəs edər ki, intizarın səbəbini anlayasan. «Oğlumu dəfn etsəm də bir gün gələcəyi ümidimi itirməmişəm.» Budur çarəsizlik, budur həyatın ən ağır yükü. Bir anda şəhid atasının çiyinlərindən o yükü çəkib almaq istədim. Ancaq övlad dərdinə kim ata və ana kimi yana bilər? Gözünün ilk nuru, tək oğul övladını itirən bir ata tək övladını deyil dostunu, ümidini, pənahını itirdiyi gerçəyinə dözə bilmədiyini dilə gətirdi. Mən heç bir lüğətdə bu dərdi təsəlli edə biləcək sözün olduğuna inanmıram.

- Şəhid dərdi çəkmək, övladını şəhid vermək çox ağırdı. Ancaq 8 ay övladından heç bir xəbər ala bilməmək başqa dərdə bənzəməz. Mən inanmıram ki, 26 nəfər itkin düşən hərbçilərin ailələrinin çəkdiklərini kimsə çəkə. Bir ata üçün morqlarda oğul axtarmaq çox çətindi. Bilmirəm nə qədər ömrüm var ancaq mən son nəfəsimə qədər morqlarda gördüyüm heç bir şəhidin surətini unutmayacam.





Bir neçə gün şəhid atası Süləddin Yusifova dəfələrlə zəng etmək istəsəm də cəsarətimi toplayıb zəng edə bilmirdim. Çünki 8 ay oğul axtaran, hər gün bir ümidlə «Əlidən bir xəbər çıxar.» deyə gözləyən bir atanın puç olan ümidlərinə toxunmaqdan çorxurdum. Duyacağım hər kəlmənin ürəyimdə dağa, gözümdə yaşa dönəcəyini bilirdim. İllərdi şəhid dərdi ilə sızlayan ürəyimə 42 yaşlı bir şəhid atasının hər kəlməsi dağ çəkdi. Mən heç 42 yaşlı bir şəhid atası ilə danışmamışdım...

- Oğul atası olanda çox cavan idim. Yusifov Əli Süləddin oğlu 14 avqust 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Oğuz kəndində dünyaya gəlmişdi. 1 oğul 1 qız övladım var idi. Əli 2003-cü ildə Aşağı Daşarx kənd tam orta məktəbinə getmiş, 2011-ci ildə isə Heydər Əliyev adına Hərbi liseyə qəbul olmuşdu. Liseyi bitirdikdən sonra Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuş və 2019-cu ildə leytenant hərbi rütbəsi ilə bitirmişdi. Beyləqanda yerləşən N saylı hərbi hissədə xidmətə başlamışdı. 1 il 2 ay xidmət etdikdən sonra 27 sentyabrda Vətən müharibəsinə qatılmışdı. Oktyabrın 3-də zəng edən zaman sevinə - sevinə «Narahat olmayın, qələbə bizimdir.» dedi. Elə son sözləri də o oldu. Oktyabrın 5-də yaralı döyüş yoldaşını çıxarmaq istəyərkən minamyot atəşi nəticəsində şəhid olsa da onları "Gördüm" deyən olmadı. Erməni saytlarında Əli ilə İmanov Məmmədağanın şəkillərini əsir kimi paylaşmışdılar. Yeganə iz o idi. O şəkilləri gördükdən sonra oğlum sağdı deyə bir ümidim var idi. Hər yerdə Əlini axtarsam da onun şəhid ola biləcəyindən daha çox əsir ola biləcəyinə inandırmışdım özümü. Mayın 1-də Əlinin nəşinin Horadiz kəndindən tapıldığını və şəhid xəbərinin təsdiqləndiyini eşitdiyimdə bütün ümidlərim öldü. Bir gün qapıdan girər deyə ümid etdiyim Əli mayın 3-də heç arzu etmədiyim kimi gəldi. Mayın 3 - də Əlinin nəşi Şərur rayon Şəhidlər Xiyabanında torpağa tapşırıldı. Mən nişanlı oğlumun toyuna hazırlaşırdım dəfninə yox...

Leytenant Yusifov Əli Süləddin oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda»,»Xocavəndin azad olunmasına görə» və «Füzulinin azad olunmasına görə» medalları ilə təltif edilib.

## ŞƏHİD ƏLİ

Şəhadətə tələsdin, cənazənsə geçikdi,
Yollarına dikilən gözlər göz yaşı tökdü,
Ürəyin şəhid dərdi bu dünyadan böyükdü,
Dözmək olmur şəhidim, qəm yükünə, hicrana
Həsrətindən ürəklər hey qalıb yana-yana.

Səkkiz ayın acısı min illərə tay oldu,
Gözlər çeşməyə döndü, göz yaşları duruldu,
Ötən zamanla birgə ümid saraldı - soldu,
Ümidin son qönçəsi qoparıldı ürəkdən
Həyat vidan səsləndi şəhidim, vaxtsız, erkən.

Sənsizlikdən bəhs edir atanın hər bir sözü,
Göz yaşına qərq olub ana, bacının gözü,
Əli, gedişin ilə zülmət etdin gündüzü,
Sən qovuşa bilmədin çox sevdiyin yarına
Arzuların dağ çəkdi doğmaların bağrına.







## ƏLİYEV RAMİL QURBAN OĞLU LEYTENANT

**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## «QOYMAYIN NƏŞİMİ DÜŞMƏN ƏLİNDƏ»

Şəhidlik hər insanın diləyə biləcəyi və çata biləcəyi bir məqam deyil. Hər insan özünə şəhid olmağı diləyəcək qədər böyük ürəyə sahib ola bilməz. Hər kəs də şəhidlik arzusuna çata bilməz. Bir nəfər deyib «İlahi, səndən istənilə bilən ən üstün şeyi istəyirəm.» Bu sözləri duyan Peyğəmbər əfəndimiz cavabında «Əgər duan qəbul olsa şəhid olacaqsan. Ondan üstün bir şey yoxdu. Şəhidlik qazanıla biləcək ən gözəl addır.» deyib. Şəhidliyin mənası dinimizdə çox aydın şəkildə vurğulanıb. Şəhidliyin mənasını dərk edən biri o məqama can atar. O məqam sahibləri yerin də, göyün də ölümsüzü olar. Ölümsüz bəndələrdən biri olan Ramilin illər öncə yazdığı dörd misra onun könül dünyasının, arzularının izahıdır.

«Bir gün şəhid olsam vətən, elimdə,
Qoymayın nəşimi düşmən əlində.
Gözləyin nəşimi Araz sahilində,
Öz ata yurduma göndərin məni.»

Ramilin 2016-cı ildə yazdığı bu sətirləri oxuyarkən onun nəşinin 43 gün torpaq üstündə qaldığını düşünüb, həmin vaxtlar ruhunun nə qədər nigaran olduğunu sanki hiss etdim. Şəhid olmaqdan qorxmayan qəhrəman

sanki nəşinin düşmən əlində qalmamasını vəsiyyət edibmiş. Özü, sözü vətən olan qəhrəmanı yaxından tanıyaq.

Əliyev Ramil Qurban oğlu 22 mart 1996-cı ildə Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Güznüt kəndində anadan olub. Ailənin ikinci övladı olsa da hər zaman böyük qardaşının və ata - anasının qayğısını çəkib. Hər yaşda özündən böyük ürəyinin olduğu aşkar olub. 2002-ci ildə Güznüt kənd tam orta məktəbində təhsil alıb. IX sinifdən təhsilini Heydər Əliyev adına Hərbi liseydə davam etdirib. O, həm vətəninin, həm də ailəsinin qayğısına qalan bir oğul olub. 2014-cü ildə liseyi bitirdikdən sonra Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub. 4 illik hərbi təhsilini 2018-ci ildə leytenant hərbi rütbəsi ilə tamamlayıb. Ondan sonra ən şərəfli peşənin layiqli icraçısı kimi Beyləqan rayonunda yerləşən N saylı hərbi hissədə xidmətə başlayıb.

Ramil qardaşı Röyala həddindən artıq bağlı bir qardaş olub. Özündən çox qardaşının xoşbəxtliyini düşünüb. Ata - anası hər zaman Röyalı Ramilə əmanət ediblər. Çünki onun bir qardaşdan daha artıq olduğunu bilirdilər. Ramil Röyalın sağlamlığına qovuşacağı günün arzusu ilə yaşayıb, Röyalın ailə quracağını, övlad sahibi olacağını xəyal edib. «Röyalın Ramili ölməyib. Mən onun bütün arzularını həyata keçirəcəm.» deyib. Ancaq Röyal Ramilsizliyi heç arzu etmədi...

Son dəfə 1 il öncə ayrılmışdı evindən, sevdiklərindən. Gülnarə ana ürəyinin həsrətini bu sözlərə yansıtdı.

- Hər şeyinə həsrət qaldıq. Üzünə, gülüşünə, hətta zənginə də. Övladımla qürur duyuram. Qəhrəman anası olmaq qürur vericidir. Ancaq övlad həsrəti çox ağırdı. Övlad dərdi bütün duyğuların fövqündədir...

Ramil sentyabrın 25-dən 26-na keçən gecə çox sevdiyi qardaşına və dayısına son sözlərini və son təbrikini yazıb.

- Qardaşım, bu gün səndən uzaqda olsam da ürəyim səninlədi. Unutma bu hər zaman belə olacaq. Özüm sənin yanında olmasam da hər zaman məni arxanda hiss edəcəksən. Mənim ən böyük arzum sənin xoşbəxtliyini görməkdi. Arzu edirəm anam, atam sənin xoşbəxtliyini görsünlər.

Bu sözlər Ramilin yazdığı son sözlər olub. Mesajı oxuyan Gülnarə ana göz yaşlarına hakim ola bilməyib. Sətirlərin ardında gizlənən gerçəyin fərqinə varan ailə əslində Ramilin bu sözlərinin bir vəsiyyət olduğu





gerçəyini düşünmək istəməyib. Ancaq təssüf ki, o acı gerçək yaşanıb.

İllərdi ruhunda düşmənlə müharibə aparan, bir gün düşməni məhv etmək arzusu ilə yaşayan Ramil arzusuna çatdı. 27 sentyabrda azadlıq eşqi ilə çağlayan ürəklərin döyüntüsü artdı. Ramil Füzuli istiqamətində döyüşlərə qatıldı. İllərdi düşmənin möhkəmlətdiyi təmas xəttinin yarılmasında onun da rolu oldu. Sentyabrın 28-də azadlığa gedən yolun başlanğıcı sayılan Füzuli uğrunda gedən döyüşlərdə şəhadətə ucaldı.

Əliyevlər ailəsini sükut və çarəsizlik bürüyür. «Axı Ramil Röyaldan xəbər almadan yaşaya bilməzdi. Yaşasa xəbər alardı.» Bir - birini əvəz edən cavabsız suallar 43 gün təkrarlanır. Noyabrın 16-da Qurban Əliyev generaldan eşitdiyi «Başınız sağ olsun.» sözləri ilə yerlə yeksan olur. Evə gəldiyində Gülnarə xanıma Ramilin yaralı olduğunu deyir. Anası oğlunun nəfəs aldığına şükür edir. Ancaq bilmir ki, oğlu son nəfəsini sentyabrın 28 - də vətənə qurban edib. Noyabrın 17-də şəhid gələn yollara göz yaşları çilənir. Ramil doğulduğu evdən cəmi 150 metr uzaqlıqda yerləşən Güznüt kənd məzarlığında torpağa tapşırılır.

Leytenant Əliyev Ramil Qurban oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, «İgidliyə görə» medalı və «Füzulinin azad olunmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD RAMİL

Sənsizliyi izah etmək çətindi,
Kimə sordum qəmlə, kədərlə dindi.
Ürəklərin çəkdikləri qəm yükün,
Hansı sözlə izah edim mən indi?

Röyalın gözləri hey ağlar qalıb,
Atanın bənizi solub, saralıb.
Ümidi sən olan dərdli ananın,
Gənc yaşda telləri bəyaz dən salıb.

Şəhadətə tələsirdin sən yaman,
Qəbul oldu etdiyin o pak duan.
Ramil, ömrü şərəf ilə yaşadın,
Dönmədin sən heç vaxt haqqın yolundan.

Vətən sevdin, «Vətən» oldu son sözün,
Azad yurda dikildi son kəz gözün.
«Qoymayın nəşimi düşməndə qalsın.»
Qəlb sızlatdı həkk etdiyin bu sözün.





## MƏMMƏDOV ELVİN ETİBAR OĞLU LEYTENANT (II Qarabağ müharibəsində şəhid olmuşdur.)



## ETİBARLI OĞUL

Yaşayan hər insan xalq yanında hörmət, dəyər sahibi ola bilmir. Bəzi insanların 70 il yaşayıb qazana bilmədikləri hörməti bəziləri 19,20... yaşlarında qazanıb, xalqın ürəyinə köçürlər. Kiçik dövlət sayılan bir ailədə yaşayıb bütöv bir dövlətin suverenliyi, müstəqilliyi üçün çalışan və lazım gəldiyində bu amal uğrunda can verən etibar sahibləridi hərbçilər. Məmmədovlar ailəsində böyüyən övladların hər biri etibar sahibləri idilər.

Üç oğul, üç ümid, üç hərbçi. Bir evin üç oğul övladından sonuncusu idi Məmmədov Elvin Etibar oğlu. 1 oktyabr 1997-ci ildə Babək rayonunun Nəzərabad kəndində dünyaya göz açmışdı. 2004-cü ildə İsrafil Şükürov adına Didivar kənd tam orta məktəbində təhsil almağa başlamışdı. Elvinin böyük qardaşı Zaur da hərbçi idi. Elvin də qardaşı kimi hərb peşəsinə yiyələnmək üçün çalışmışdı. Qardaşının yolu ilə irəliləyən Elvin 2012-ci ildə Heydər Əliyev adına Hərbi liseyə qəbul olmuşdu. Liseyi bitirdikdən sonra 2015-ci ildə Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdu. 2019 - cu ildə məktəbi bitirmişdi. Leytenant kimi Beyləqan rayonunda yerləşən N saylı hərbi hissədə taqım komandiri kimi xidmətə başlamışdı. «Azərbaycan Ordusunun 100 illiyi» yubiley medalına layiq görülmüşdü. Vətən

müharibəsi zamanı o da bir vətən oğlu kimi döyüşlərə qatılmışdı. O, döyüşdə olduğu barəsində ailəsinə məlumat verməmişdi. Ən çətin və uğurlu əməliyyatlardan sayılan Füzuli döyüşləri zamanı böyük hünər göstərmişdi. Sentyabrın 31-də gecə ata-anası ilə danışmışdı. Oktyabrın 1-də Elvinin dünyaya gəldiyi gün onu təbrik etmək istəyən ailəsi nə qədər zəng etsələr də zəngləri cavabsız qalmışdı. Qismətinə 23 illik ömür payı düşən Elvin dünyaya gəldiyi gün şəhid kimi dünyadan köçmüşdü. Cəbrayıl uğrunda gedən döyüşlər zamanı ayaqlarından yaralanan Elvini yoldaşları tankın üstünə qoyub çıxarmaq istədikləri zaman düşmən həmin tankı vurmuş və Elvin aldığı qəlpə yaralarından şəhid olmuşdu.

Oğlunun ad gününü təbrik etmək istəyən ataya həmin gün oğlunun şəhidlik xəbəri verilib. Bu xəbər duyula və deyilə biləcək ən ağır xəbər idi. Duyduğu anda dünyası qaralan ata bu xəbəri yoldaşı Nisə xanıma necə çatdıracağını düşünüb. Axı analar üçün oğul itirmək diri - diri ölmək deməkdi. Nisə xanım üçün də elə olub. Ruhu ölən ata oktyabrın 6-da oğlunun tabutu üzərində gələn bayrağı oğul dərdi ilə yanan ürəyinə sıxıb. Vətən qəhrəmanının cansız cismi oktyabrın 6-da Nəzərabad kənd məzarlığında torpağa tapşırılıb.

Leytenant Məmmədov Elvin Etibar oğlu Azərbaycan Respublikasının Ali Baş komandanı İlham Əliyevin əmrinə əsasən şəhid olduqdan sonra «Vətən uğrunda» medalı və «Füzulinin azad olunmasına görə» medalı ilə təltif edilib.

Necə ki, Elvin şəhidlərin qisasını aldı, Elvin kimi qəhrəmanlar da onun qisasını aldı və alacaq. Elvinin qisasını alacaq olan oğullardan ikisi isə öz doğma qardaşları Aprel döyüşlərinin canlı qəhrəmanı baş leytenant Zaur Məmmədov və MAHHXHQ Seyfulla Məmmədovdur.





## ŞƏHİD ELVİN

Ruhunda boy atmışdı,
Vətən adlı məhəbbət.
Məhəbbətlə qazandın,
Şəhid kimi səltənət.

Qanınla cığır saldın,
Füzuli, Cəbrayıla.
Çoxdankı arzun idi,
Yatmış vulkan ayıla.

Od püskürdü o vulkan,
Düşmənlərin üstünə.
Qalib xalqın, şəhidi,
Sahibsən böyük ünə.

Millətin etibarın,
Sən doğrultdun, qəhrəman.
Elvin, məhəbbət ilə,
Çoxdu adını anan.

Vətən sinəsi üstə,
Məzarlar düzüm-düzüm.
Şəhidim, unudulmur,
Xatirə olan sözün.



**MƏMMƏDOV ŞƏHRİYAR MÜZƏFFƏR OĞLU LEYTENANT (II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## MƏQAMI UCA ŞƏHİD

Bu dünyaya gələn hər kəs bu dünyadan köçür. Hərənin bir qisməti, bir alın yazısı olur. Həyatdan ayrılan insanlara «öldü» deyirik. Təkcə bu dünyadan şəhid kimi köçənlərə bu söz şamil edilmir. Çünki şəhidlər ölmür, cismən aramızdan ayrılır. Şəhid olan birinin ruhu hər zaman əzizlərinin yanında olur. Şəhid dərdi böyük dərddir. Allah sanki bu dərdin düşdüyü ürəklərə səbr əta edir. Bir də şəhid adı o dərdin təsəllisi olur. Şəhriyarın da əzizləri onun şəhid adına tutunub. Onsuzluqla sınanan ürəklər odsuz-ocaqsız yanır.

Məmmədov Şəhriyar Müzəffər oğlu 22 fevral 1999-cu ildə Babək rayonunun Kalbaoruc Dizə kəndində anadan olub. Ailəsinin son beşiyi idi Şəhriyar. Özündən böyük 2 bacısı, 1 qardaşı var idi. Kiçik olsa da ailədə məsuliyyətini hər zaman dərk edər, böyük kimi davranardı. Şəhriyar 2006-cı ildə Babək rayon Qaraqala kənd tam orta məktəbində ilk təhsilini almağa başlayıb. Daha sonra 2013-cü ildə Heydər Əliyev adına Hərbi liseyə qəbul olub. Liseyi yüksək qiymətlərlə başa vurduqdan sonra 2016-cı ildə Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub. 2020 - ci ildə AAHM - dən leytenant hərbi rütbəsi alaraq məzun olub. Elə həmin vaxt təyinatla Ağcəbədi rayonundakı N saylı hərbi hissədə xidmətə başlayıb. 2020-ci ilin avqust ayında Beyləqandakı N saylı hərbi hissəyə göndərilib. Elə Vətən müharibəsinə də həmin ərazidən qatılıb. Müharibənin başladığı ilk gündən mübarizə aparan qəhrəman son nəfəsinə qədər vuruşub. Füzuli döyüşlərində iştirak edib qalibiyyət qazanan leytenant Cəbrayıl uğrunda da mübarizə aparıb. Kənd - kənd, şəhər - şəhər qan ilə suvarılan azadlıq toxumu günbəgün cücərib boy atıb. Şəhriyarın növbəti döyüşü Xocavənd uğrunda olub. Hər döyüş əməliyyatına girdiyində dönmək şansının az olduğunu bildiyi kimi bu əməliyyatda da dönüşünün olmaq ehtimalının az olduğunu yaxşı bilirdi Şəhriyar. O, ölümün gözlərinə hər zaman dik baxan bir qəhrəman idi. Son dəfə oktyabrın 7-də ailəsi ilə danışan zaman «Hər şey yaxşıdı narahat olmayın. Sağ olsam zəng edəcəm, şəhid olsam zəng edəcəklər. Əgər şəhid olsam mənə məzarlıqda mənzərəli yer ayırarsınız.» deyib. Əslində o bu sözləri gülə-gülə dilə gətirsə də dediyi sözlərin gerçək olduğu zaman nə qədər ağır olacağını düşünüb. Bu zəngdən sonra bir daha Şəhriyardan zəng gəlməyib. Şəhriyar oktyabrın 15-də Hadrut uğrunda gedən döyüşlərdə şəhid olub. Onun şəhid olduğu xəbəri ailəsinə oktyabrın 21-də verilib. Heç kim Şəhriyarın şəhid olduğuna inanmaq istəməyib. Axı hələ onun çatmadığı arzuları var idi. İki il nişanlı olan hərbçi toyunda çiyninə bayraq sərəcək, bayrağa bürünəcəkdi. Ancaq o bayrağa bürünən bir tabutda gəldi. Bu mənzərə yaddaşlara həkk olundu.

Oktyabrın 24-də Şəhriyarın nəşi Babək rayonunun Kalbaoruc Dizə kənd məzarlığında torpağa tapşırılıb.

Leytenant Məmmədov Şəhriyar Müzəffər oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, «İgidliyə görə» medalı və «Xocavəndin azad olunmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD ŞƏHRİYAR

Sənə ölü demirik,
Ölümsüzdür şəhidlər.
Xalq qəlbində uyuyur,
Şəhid olan igidlər.

Qanla tarix yazandan,
Hələ tarix yazacaq.
Səni örnək bilənlər,
Qisasını alacaq.

Sən xalqın yaddaşından,
Silinməzsən, Şəhriyar.
Ürəklər həsrətinlə,
Hər an bağlayır qübar.

Hadrutun yollarında,
Cığır açdın qanınla.
Vətən haqqın ödədin,
Şəhidim,öz canınla.

Biz ödəyə bilmərik,
Şəhidlərin haqqını.
Allahım uca edib,
Şəhidim, məqamını.





## ƏJDƏROV RƏHMAN RASİM OĞLU LEYTENANT

**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**



## CAHAN BOYDA VƏTƏN SEVGİSİ

Vətən, sənin üçün yaşamaq da gözəldi, ölmək də. Sənin sevginlə cilalanan ürəklərin son çırpınışda torpağına pıçıldadığı «Vətən sənə fəda oldum.» sözləri sənə nəfəs verir, güc verir. Vətən şəhidləri ilə ucalır, şəhid dərdi ilə qocalır. Bu tarixi qədimdən qədim olan Azərbaycanın əsir torpaqları illərdən sonra qanlar, canlar bahasına əsirlikdən qurtuldu. O azadlığın müjdəçiləri isə Rəhman kimi qəhrəmanlar oldu. Bir evdə doğulub bir elin qəlbini fəth edən qəhrəmana çevrilən oğullarla vətən canladı.

Vətənə dünya boyda eşqlə baxan Əjdərov Rəhman Rasim oğlu 14 may 1997-ci ildə Babək rayonunun Kalbaoruc Dizə kəndində dünyaya göz açmışdı. Körpə yaşlarından Məhrubə xanım hər iki oğlunu tək başına böyütmüşdü. Analarının zəhmətlə böyütdüyü oğullar həm analarını, həm də vətənlərini sonsuz məhəbbətlə sevmişdilər. Elə o sevginin sayəsində həm Rəhman, həm də Nihat hərbçi olmaq qərarına gəlmişdi.

Rəhman ilk təhsilini Kalbaoruc Dizə kənd tam orta məktəbində alıb. 2011-ci ildə Heydər Əliyev adına Hərbi liseyə qəbul olub. 2014-cü ildə Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub. 2018-ci ildə məktəbi bitirdikdən sonra Azərbaycan Ordusunun leytenantı kimi Beyləqanda xidmətə

başlayıb. 2019-cu ildə Təlim və Tədris Mərkəzində kurs keçərək mühəndis istehkam bölük komandiri kimi çalışıb.

Qəhrəmanlığın, zəfərin qanla yazıldığı II Qarabağ döyüşlərində sentyabrın 27-dən müharibəyə qatılan qəhrəmanlardan biri də Rəhman olub. Füzuli, Cəbrayıl, Hadrut, Zəngilan, Qubadlı uğrunda gedən döyüşlərdə öndə vuruşub. Əsgərlərini özündən çox düşünən Rəhman hər zaman onları qorumağa çalışıb. Noyabrın 1-də Laçın dəhlizində yaralı əsgərlərin köməyinə çatmaq istədiyi zaman yanına düşən minamyotun partlaması nəticəsində şəhid olub. Rəhmanın şəhid xəbəri həmin gün Naxçıvana çatsa da anasına yaralı olduğunu deyiblər. Ancaq noyabrın 6-da Məhrubə xanım acı gerçəyi öyrənib. Bayrağa bürünən qardaş tabutunu gətirən Nihat tək qardaş yox eyni anda sanki dost, sirdaş, ata itkisini yaşayıb. Vətən, torpaq, millət yolunda canından keçən qəhrəmanın nəşi noyabrın 6-da Kalbaoruc Dizə kənd məzarlığında torpağa tapşırılıb. Rəhman Kalbaoruc Dizə kənd məzarlığında dəfn olunan ilk şəhid deyil. Onun dəfnindən 1 həftə öncə qohumu şəhid Məmmədov Şəhriyar Müzəffər oğlunun nəşi həmin məzarlıqda dəfn olunmuşdu.

Rəhman döyüşdən öncə bir döyüş yoldaşı ilə şəkil çəkdirib böyüdüb. Deyib «Bizə nə isə olsa bu şəkildən tanısınlar.» Qismət elə gətirib ki, Rəhmanın həmin şəkili cənazəsinin üstündə gəlib.

Leytenant Əjdərov Rəhman Rasim oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Azərbaycan bayrağı" ordeni, « Vətən uğrunda» medalı, «Xocavəndin azad olunmasına görə» medalı və «Laçının azad olunmasına görə» medalı ilə təltif edilib.





## ŞƏHİD RƏHMAN

Gözəl gülüşlərin dərinliyində,
Kim bilir nə qədər kədər gizlənib?
Vətən sevgisiylə dövr edən qanın,
Vətən torpağına axıb, çilənib.

Bilirəm qəlbində arzun çox idi,
Sən çata bilmədin o arzulara.
Bir payız köç etdin fani dünyadan,
Baxışlar iz saldı sonsuz yollara.

Rəhman, öz canını sən heçə sayıb,
Vətən xilas etdin, can xilas etdin.
Həyatda kimsəni darda qoymadın,
Ehtiyac duyana köməyə yetdin.

Şuşa dağlarına bir sığal çəkdi,
Sənin son baxışın, o son nəfəsin.
Şəhid olduğun vaxt sonuncu dəfə,
Gətirdin dilinə «Vətən» kəlməsin.



SEYİDOV NİHAT
MEHMAN OĞLU
LEYTENANT
(II Qarabağ müharibəsində şəhid olmuşdur.)

## ŞÜCAƏT TOXUMUN ƏKƏN OĞUL

Şəhid qanı müqəddəsdir. Biz şəhidlərin qanlarının torpağa düşdüyünü zənn edirik. Əslində ilk baxışdan zənn etdiyimiz kimi görünür. Ancaq əsil həqiqət başqadır. Şəhidin torpağa düşən bir damla qanı bütün cəmiyyətin, xalqın qanına qarışır. Bir damla qanın Allah yanında olan dəyəri bütün dəyərlərdən üstündür. Allah yanında bu qədər izzət qazanan şəhid əslində bir xalqın xilaskarıdı. Öz canını xalqı, vətəni, dini yolunda fəda edənlər fədailərdi. Hər bəndə bu ada sahib olmaz. Hər bəndə Allahın dərgahında müqəddəslərlə cənnəti bölüşməz. Budur Allah yanında şəhidin dəyəri. Vətən fədaisi Nihatın da uca məqama sahib olmağı bizlərə sirr deyil. Axı o da müqəddəslər kimi Allahın əmanət etdiyi canını vətən yolunda fəda edib.

Şəhadəti ilə şücaət toxumun əkən qəhrəman Seyidov Nihat Mehman oğlu 12 iyun 1998-ci ildə Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Teyvaz kəndində anadan olub. Üç oğulun ilki Nihat idi. Valideyn, vətən qiymətini hələ körpəlikdən dərk etmişdi. Qardaşları Hüseyn və Mirəlinin yol göstərəni idi. Yaşından daha böyük dərrakə sahibi idi. Hər yaşı həyatda, hər addımı isə insanların gözündə böyüdürdü Nihatı.





O, 2004-cü ildə ilk dəfə məktəbə Naxçıvan şəhərində 14 N-li məktəbdə başlasa da daha sonra təhsilini Naxçıvan şəhər 17 N-li məktəbdə davam etmişdi. 2012-ci ildə Heydər Əliyev adına Hərbi liseyə qəbul olmuşdu. 3 illik təhsilini başa vurduqdan sonra 2015-ci ildə Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdu. 2019 - cu ildə hərbi məktəbi bitirmiş və leytenant hərbi rütbəsi ilə Mingəçevir şəhərində yerləşən N saylı hərbi hissədə taqım komandiri kimi xidmətə başlamışdı. 1 il xidmət etdikdən sonra həmin hərbi hissədə bölük komandiri vəzifəsinə təyin edilmişdi. Bir çox vətən oğulları kimi Nihatın da ömür yolunun son nöqtəsi Vətən müharibəsində qoyulmuşdu.

Son dəfə 2019 - cu il noyabrın 2-də evinin qonağı olmuşdu. O zaman oğlunu sevib, əzizləyən İlhamə ana bilməzdi ki, bir il sonra eyni gün oğlunun şəhid cənazəsini oxşayacaq. Bu qismətə həm yer ağlar, həm də göy...

Hər bir insanın ürəyində vətən sevgisi olur. Ancaq bu sevginin aliliyini biz şəhidlərdən öyrənirik. Əsil aşiqlər elə şəhidlərdi. Qəlbi eşqinin əsiri olan Nihat Vətən müharibəsi başlanan ilk zamanlardan döyüş meydanında yer almışdı. Talış və Suqovuşan uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşmuş, oktyabrın 15-də Suqovuşanda şəhadətə ucalmışdı. Nihatın ailəsinə onun şəhid olduğu xəbəri verilsə də nəşi 17 gündən sonra böyüyüb boya-başa çatdığı el-obasına gətirilmişdi. Noyabrın 2-də Naxçıvan şəhər Xətai məzarlığında əbədi mənzilinə köçmüşdü.

Leytenant Seyidov Nihat Mehman oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Döyüşdə fərqlənməyə görə» medalı, «Vətən uğrunda» medalı və «Suqovuşanın azad olunmasına görə» medalı ilə təltif edilmişdi.

## ŞƏHİD NİHAT

Şücaət toxumun torpağa əkib,
Qanınla suvardın sən o toxumu.
Canı fəda edib xalqa yaşatdın,
Qələbə adlanan gözəl duyğunu.

Allah dərgahında qazana bildin,
Şəhid tək müqəddəs olan ülvi ad.
Adını qəlbinə yazıb millətin,
Adın unudulmaz, qəhrəman Nihat.

Dünənlər bu gün tək canlanır hər an,
O sənli dünənlər bu gün kimidir.
Sənin olmadığın dünya içində,
Alınan hər nəfəs qəlbi incidir.







## İSMAYILOV AQİL ƏLİ OĞLU
## LEYTENANT
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## VƏTƏNƏ QURBAN OLAN ARZULAR

Şəhidlər sorğu-sualsız cənnətə girən kəslərdi. Onların hər damla qanları düşdüyü yer paklaşar. Şəhidlərin kəfəni qanlarına bulaşmış paltarlarıdı. Onlar öz pak qanları ilə qüsl alırlar. Müqəddəs şəhidlər hər iki dünyanın əbədiyaşarlarıdı. Fani dünyada adı qalan şəhidlərin əbədi dünyada da ruhu var olur. Aqil bu gün aramızda cismən olmasa da adı dilimizə əzbərdi. Çünki o bir şəhiddir.

İsmayılov Aqil Əli oğlu 18 iyul 1996-cı ildə Naxçıvan Muxtar Respublikasının Şərur Rayonunun Çomaxtur kəndində anadan olub. 2002-ci ildə həmin kəntdə 1-ci sinfə gedib. Aqil 5 uşaqlı ailənin son beşiyi olduğu üçün özünü ailədə hər kəsə sevdirib. Məktəbdə də rəğbət qazanıb. Təhsil aldığı müddətdə ailəsinə heç vaxt şikayət gəlməyib.

Çoxlarının uşaq gözündə gördüyü Aqilin əslində çox zəngin daxili dünyası olub. Hərb peşəsinə böyük sevgisi olan bu oğulun vətən sevgisi hərbçi əmilərindən qaynaqlanıb. Hər zaman əmiləri ilə qürur duyan oğul bir gün özü hərbi formanı qürurla daşımaq arzusunda olub və arzusunun ardınca gedib.

Aqil əqidəsi, savadı ilə hər zaman seçilməyi bacarıb. O, 2011-ci ildə Heydər Əliyev adına Hərbi liseyə qəbul olub. Oxuduğu müddətdə müəllim və tələbə yoldaşlarının rəğbətini qazanıb. 3 illik təhsilini uğurla bitirdikdən sonra 2014-cü ildə Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub.

Arzusu pilot olmaq olub. Lakin imtahanlardan uğurla keçsə də müəyyən səbəblərdən bu arzusuna çata bilməyib. Ancaq bu onu ruhdan salmayıb. Əksinə daha bir imtahan verib Xüsusi Təyinatlı Qüvvələrin tərkibinə qatılıb. 2018-ci ildə təyinatla Cəlilabad rayonunda yerləşən N saylı hərbi hissədə xidmətə başlayıb. Həmin müddətdə Gürcüstanda 6 ay kurs keçib. Hər zaman olduğu kimi bu kursu da uğurla tamamlayan Aqil oradan da əliboş dönməyib. Sertifikatla və döş nişanı ilə təltif olunan qəhrəman daha sonra Xızı rayonunda kurs keçib. Xızı dağlarında keçirilən dağ kursunu da uğurla tamamlayıb. O, bir Xüsusi Təyinatlı Qüvvələrin zabiti olaraq işinin məsuliyyətini hər zaman dərk edib. Xidmət etdiyi müddətdə "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı, "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı və "İgidliyə görə" medalı ilə təltif edilib.

Aqilin ailə üzvləri demək olar ki, onun üzünə həsrət idilər. Aylarla, illərlə onun üzünü görə bilməyən ailə üzvləri üçün Aqilin məzuniyyət götürüb evə gəlməsi toy-bayram olardı. Gənc olmasına baxmayaraq ömrünün hər anını vətənə həsr edib. Bir dəfə bacısının «Aqil, özünə də zaman ayır, bir də gənc olmayacaqsan» sözlərinə Aqil «Qızıl paqonları taxmaq üçün qızıl dəqiqələri qurban vermək lazımdı.» cavabını verib. Çox sakit təbiəti olan bu insan heç kimin qəlbinə toxunmayıb. İstər böyük, istərsə də kiçik onun hörmətini saxlayıb. Axı Aqil özü hər kəsin hörmətini saxlayırdı.

Aqil işi ilə bağlı danışmağı sevməzdi. Hərbidə baş verənlərlə bağlı heç vaxt heç nəyi bölüşməzdi. Elə sentyabrın 25-də bacısı ilə danışanda da heç bir söz deməyib. Bacısı ilə vidalaşıb son dəfə bacısı uşaqlarının üzünə görüb. «Nə olur olsun ürəyini sıxma. Bil ki, hər zaman sənin yanındayam.» deyən Aqilin bu sözləri son vidası olub. Bacısı onun vəziyyətindən nələrinsə baş verdiyini anlasa da o hər şeyin qaydasında olduğunu bildirib. Ancaq Aqil sanki qocalmışdı. «İnsan necə bu qədər tez yaşlanar?» deyə özünə suallar verən bacısı sonralar bunun səbəbini öyrənib. Axı Aqil peşəkar kəşfiyyatçı idi... Elə o susan zəng susub.

27 sentyabrda dildən-dilə düşən «Müharibə başlayıb.» sözləri Aqilin ailəsinin ürəyinə od salıb. Zəngləri cavabsız qalan doğmalar nələrinsə qaydasında olmadığını hiss ediblər və düşüncələrində yanılmayıblar. Aqilin öndə olacağı heç kimə sirr deyildi. Axı bu onun ən böyük arzusu idi. Aqil döyüş başlayan ilk andan etibarən mübarizəyə qoşulub. O, Murovdağ və Kəlbəcər istiqamətində döyüşüb. Müharibənin ikinci günü vətənin azadlığı naminə can verib. Sentyabrın 28-də şəhid olan Aqilin nəşi oktyabrın 1-də Naxçıvana gətirilib. Aqil Naxçıvanın Vətən müharibəsində vətənə qurban olan ilk şəhidlərindən idi.





Şəhid evinin kandarında bir bayraq dalğalanırdı. Heç kim o bayrağı orada dalğalanan təsəvvür etmirdi. O bayrağın yerində qırmızı lent bağlanacaqdı. Hələ bacıları qardaş toyunda süzəcəkdi. Ancaq qismət olmadı. Bir il idi evinə gəlməyən Aqilin 10 dəqiqəlik gəlişi ürəkləri yandırıb yaxdı. Məhbubə ananın «Toysuz gedən balam.» deyə fəryadı qəlb dağladı. Aqil əbədi getdi.

Oktyabrın 1-də Şərur rayon Şəhidlər Xiyabanında şux qamətli, yaraşıqlı bir cavan torpağın köksünə sığındı.

Leytenant İsmayılov Aqil Əli oğlu Ali Baş Komandan İlham Əliyevin əmrinə əsasən şəhid olduqdan sonra «Hərbi xidmətdə fərqlənməyə görə» medalı "Kəlbəcərin azad olunmasına görə" medalı və «Vətən uğrunda» medalı ilə təltif edilib.

## ŞƏHİD AQİL

Bu həyat yollarından,
Bir oğul gəldi, keçdi.
Onun cavan ömrünü,
Qəlpələr dərdi, biçdi.

Evinin son beşiyi,
Daş məzara tələsdi.
Bir payız vətənimdə,
Həsrət adlı yel əsdi.

Şanlı bayraq bəzədi,
Bir evin kandarını.
Aqil ağ gəlinlikdə,
Görmədi öz yarını.

Pak qanına boyanan,
Forması oldu kəfən.
Şəhid nəfəsləriylə,
Nəfəs aldı bu vətən.



## BUDAQOV RUFİZ ŞİRZAD OĞLU
## BAŞ GİZİR
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## «ALOV» LƏQƏBLİ QƏHRƏMAN

Biz qəhrəmanların həyatlarını yazıb hər kəsə örnək göstəririk. Bəzən elə qəhrəmanlar olur ki, həmin qəhrəmanın şücaətlərini tam aydınlığı ilə bəyan etməyə sözün də qüdrəti yetmir. Göz qırpmadan vətən üçün can verən bir insanın ürəyinin böyüklüyünü, qorxmazlığını hansı sözlə izah edim bilmirəm. Çünki o insan son damla qanı ilə torpağa «Vətənə canım fəda.» sözlərini yazıb. Vətən üçün qanı ilə ömrünün son nöqtəsi qoyulan bir qəhrəmandı Budaqov Rufiz Şirzad oğlu.

Rufiz 1977-ci ilin 12 iyulunda Naxçıvan Muxtar Respublikasının Ordubad rayonun Tivi kəndində dünyaya gəlmişdi. Şirzad Budaqov və Bəyim xanım vətənə layiq dörd oğul tərbiyə edirdilər. Hər biri sabahın əsgəri, vətənin işıqlı sabahı idi. Rufiz 1984-cü ildə Tivi kənd tam orta məktəbində təhsil almağa başlayıb. Təhsilini başa vurduqdan sonra 1995-ci ildə vətənə xidməti borcunu yerinə yetirmək üçün hərbi xidmətə yollanıb. Qusar rayonunda yerləşən N saylı hərbi hissədə xidmət edib. 1998-ci ildə "Bakı tank komandanlığı" kursunu keçib. 1999-cu ildə təyinatla Goranboy rayonunda yerləşən N saylı hərbi hissəyə tankist kimi göndərilib.





Lakin Rufiz heç istəmədiyi halda 2004-cü ildə ordudan uzaqlaşmaq məcburiyyətində qalıb. Buna səbəb onun səhhətində yaranan problemlər olub. Rufiz üçün hərbidən uzaq qalmaq asan olmayıb. Bir gün təkrar sağlam bir hərbçi kimi dönmək üçün gedib.

Rufiz 2005-ci ildə sevib, seçdiyi Nüşabə xanımla ailə həyatı qurub. İlk övladları dünyaya gəldikdən sonra ailə Bakı şəhərinə köçüb. Daha sonra ailənin ikinci qız övladı dünyaya gəlib. Ötən illər Rufizi sağlamlığına qovuşdurub. 2012 - ci ildə Rufiz yenidən öz layiqli peşəsinin icrasına başlayıb. İllər öncə üç nöqtə qoyulan hərbçi həyatının ardı elə eyni yerdən Tərtər rayonundan başlayıb. Ailəsi də Rufizi tək qoymayıb və onunla birgə Tərtərdə yaşamağa başlayıb. Elə ailənin son beşik oğul övladı da Tərtərdə dünyaya gəlib.

Budaqov Rufiz işinin peşəkarı idi. Ona günümüzün «Həzi Aslanovu» deyirdilər. Sanki tankın ixtiraçısı idi. Rufiz bir çox uğurlu əməliyyatların icraçısı olmuşdu. Hələ 2016 - cı ildə Aprel döyüşləri zamanı göstərdiyi qəhrəmanlıqla hər kəsin rəğbətini qazanmışdı. Onun açdığı atəşdən düşmən yayına bilməzdi. Sanki ürəyinin alovu açdığı atəşə yansıyırdı. Elə ona görə də ona «Alov» ləqəbi verilmişdi. Həmin vaxt düşmənin tankını hərbi qənimət kimi ələ keçirən Rufiz elə o zamandan düşmənin başın əzmişdi.

Rufiz ordu sıralarında sərgilədiyi hünər və qəhrəmanlıqlarına görə dəfələrlə Müdafiə Nazirliyi və komandanlıq tərəfindən təltif olunmuşdu. 30-dan çox fəxri fərmana layiq görülən Rufiz xidməti dövründə «Qüsursuz xidmətə görə» 3-cü dərəcəli medalı, «Qüsursuz xidmətə görə» 2-ci dərəcəli medalı və «Azərbaycan Ordusunun 100 illiyi» yubiley medalı ilə təltif olunmuşdu.

Və o gün...

Artıq bu xalqın səbri tükənmişdi. Gündən-günə inkişaf edərək qabaqcıl ölkələr sırasında yer alan Azərbaycan özündən qat-qat zəif bir ölkənin kimlərinsə dəstəyi ilə işğal etdiyi Qarabağın işğalına bundan artıq səbr edə bilməzdi. 27 sentyabrda səbrimizi daşıran son damla düşdü. Səbri daşan oğullar «İrəli» deyib Qarabağa doğru yol aldılar. Bu yolda qurulan sədləri, maneələri aşan igidlər düşmən ordusunu əzib keçdilər. Rufiz də idarə etdiyi tankla düşmənin bir çox texnika və canlı qüvvəsini sıradan

çıxarmışdı. Bu düşməni hiddətləndirmişdi. Düşmən Rufizin olduğu tanka bir neçə dəfə atəş açsa da hədəfə çata bilməmişdi. Lakin 29 sentyabrda Rufizin idarə etdiyi tank Talış kənd istiqamətində vurulmuşdu. Sürücü və atıcı tankın aşağı hissəsindən çıxdığı üçün düşmənin atəşindən yayına bilsələr də Rufiz komandir olduğu üçün üst çıxışdan çıxan zaman düşmənin snayper atəşinə tuş gəlmiş və qəhrəmancasına şəhid olmuşdu.

Son dəfə sentyabrın 29-da Nüşabə xanımla danışıb. Xanımı onun səsindən qəribəlikləri sezib. Elə o danışıqdan bir neçə saat sonra Rufiz şəhadətə ucalıb. Axşam sevdiyinin yaralı olduğu xəbərini alan Nüşabə xanım ondan gerçəyi gizlətdiklərini hiss edib. Oktyabrın 2-də şəhidin nəşinin Bakıdakı klinikaların birində olduğu məlum olub. Həmin gün şəhidin nəşi ailəsinə təhvil verilib. 2 oktyabrda Rufiz əbədi vida mərasimi keçirildikdən sonra II Fəxri Xiyabanda torpağa tapşırılıb.

Baş gizir Budaqov Rufiz Şirzad oğlu Vətən müharibəsində göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əmri ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı və «Qarabağ» ordeni ilə təltif edilib.

**ŞƏHİD RUFİZ**

Gözündə intiqam alovu yanıb,
Düşmənin ruhunu qovurdu, Rufiz.
Sənin qəlbindəki qorxusuzluğun,
Çöhrəndə salmışdı sanki dərin iz.

Andından, əhdindən geri dönməyib,
Vətənin qolundan qandalı sökdün.
Günahsız körpələr ölən torpaqda,
Şığıyıb düşmənin üstünə çökdün.

Sən vətən sevdalı qəlbin bəharin,
Bütün millətinə ərməğan etdin.
Qəlbində böyüyən iki arzuna,
Şəhid tək ucalıb bir anda yetdin.







**ƏLƏKBƏROV NİYAMƏDDİN İSRAFİL OĞLU**
**BAŞ GİZİR**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

**VƏTƏNİN OĞUL PAYI**

Ruhu şəhidləşənlərin cismi vətənləşir. Yaşayarkən hər an vətən üçün candan keçməyə hazır olanlar vətənləşdikdən sonra əbədi qəlbdə qalırlar. Əbəs yerə deyilməyib «Şəhidlər ölməz, şəhidlər unudulmaz!» Vətən üçün can verən qəhrəmanları bu xalq nə unudar, nə də unutdurar. Torpağa atılan hər bir addımda torpaq uğrunda can verib, gənc yaşında torpaq altında yatan oğulları düşünər bu xalq. Hər nəfəs aldığında son nəfəsi vətən torpağında donanları, qanı ilə bu torpağı paklaşdıranları unutmarıq. Niyaməddinin və onun kimi vətənə can verən qəhrəmanların əzminin gücü sayəsində azadlıq sevincini yaşayan bu xalq şəhidləri hər zaman yaşadacaq.

Sonuncu nəfəsini vətənə qurban verən Ələkbərov Niyaməddin İsrafil oğlunun bu dünyaya gəlişinin sevincini ailəsi 12 iyul 1989-cu ildə yaşamışdı. Niyaməddin ailənin 4 övladından 3-cü idi. Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda dünyaya göz açan Niyaməddin hələ uşaq yaşlarından düşmənin Azərbaycan torpaqlarına göz dikməyinə şahid olmuşdu. 3 yaşı olarkən ailəsi ilə Sumqayıt şəhərinə köçmüşdü. İlk təhsilini 1996-cı ildə Sumqayıt şəhər 32 nömrəli Texniki Təbiət Elimlər Liseyində

almışdı. 2003-cü ildə təhsilini 35 N - li məktəbdə davam etdirmiş, 2007-ci ildə məktəbi bitirmişdi. Sonra Naxçıvan Dövlət Unversitetinin Jurnalistika fakültəsinə qəbul olmuşdu. Ancaq müəyyən səbəblərdən təhsilini davam etdirməmişdi.

Uşaq yaşlarında silah səslərini duyan, müharibə sözünün mahiyyətini dərk edən Niyaməddin böyüyüb vətənə xidmət edəcəyi günü səbirsizliklə gözləyib. Həmin zaman 2011-ci ilin oktyabrında çatıb. Sumqayıt hərbi komissarlığı tərəfindən hərbi xidmətə çağrılan Niyaməddin həqiqi hərbi xidmətini Ağdam rayonunda yerləşən N saylı hərbi hissədə keçib. Ordunun bir kəşfiyyatçısı kimi 2013-cü ildə xidmətini bitirib. Evə qayıtdıqdan sonra ürəyindəki vətən sevgisi onun yenidən hərbiyə qayıtmağına səbəb olub. MAHHXHQ kimi ordu sıralarına qoşulan Niyaməddin Naftalan şəhərində yerləşən N saylı hərbi hissədə kəşfiyyatçı kimi xidmətə başlayıb.

Niyaməddin Ələkbərov illər öncə Azərbaycan Ordusunun qazandığı ilk qalibiyyət sevincini bizə yaşadan qəhrəmanlardan biri olub. O, Aprel döyüşləri zamanı Lələtəpə yüksəkliyinin azad olunması uğrunda mübarizə aparıb və mübariz bir qəhrəman kimi qalib olub.

Niyaməddin nümunəvi xidmətinə görə Müdafiə Nazirliyinin əmrinə əsasən «Azərbaycan Ordusunun 100 illiyi» yubiley medalı ilə təltif edilib. 2018-ci ildə kursları uğurla tamamladıqdan sonra kəşfiyyatçı gizir kimi fəaliyyət göstərib. Bir çox fəxri fərmana layiq görülən hərbçi 2020-ci ildə keçirilən yarışda birincilik əldə edib və «Ən yaxşı kəşfiyyatçı» adına layiq görülüb.

Müharibə...Bu sözün mahiyyətini gözəl dərk edirdi Niyaməddin. Getdiyi yolun dönüşü olmayacağı gerçəyini də, onun geri dönməyəcəyinin doğmalarına nə qədər çətin olacağını da bilirdi. Bir tərəfdə «Ana» dediyi Xavər xanım, bir tərəfdə «Ana» dediyi vətən var idi. Ancaq o vətəni seçdi. Çünki anası da vətəni sevirdi. «Mən şəhid olsam anam vətənə sarılacaq. Ancaq vətən «ölsə» bizim sarılacaq bir anamız olmayacaq.» düşüncəsi ilə müharibə başlanan ilk gündən müharibəyə yollanıb. Son dəfə oktyabrın 1-də ailəsi ilə danışanda hər şeyin yaxşı olduğunu deyib. Ancaq o, yaxşı bilirdi ki, cəhənnəmi xatırladan alovun içindən sağ çıxmaq şansı çox azdı. Ən şiddətli döyüşlərin getdiyi Füzuli uğrunda döyüşlərdə son damla qanına qədər vuruşan Niyaməddinin son damla qanı oktyabrın 2-də





vətən sinəsinə düşüb. Düşmənin açdığı snayper atəşi ilə şəhadətə ucalan Niyaməddinin nəşi oktyabrın 3-də Sumqayıt şəhər Şəhidlər Xiyabanında torpağa tapşırıb.

Baş gizir Ələkbərov Niyaməddin İsrafil oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra 3-cü dərəcəli «Vətənə xidmətə görə» ordeni, «Vətən uğrunda» medalı və «Füzulinin azad olunmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD NİYAMƏDDİN

Vətənə sarılıb bir ana kimi,
Ruhunla, cisminlə isitdin onu.
Sən elə sevdin ki, Azərbaycanı,
Şəhid tək yetişdi ömrünün sonu.

Füzuli torpağı qan boyananda,
Torpaq da dil açıb sanki inlədi.
Sənin tək vətənə vurğun olanlar,
Torpağın sədasın duydu, dinlədi.

O döyüş gününün ilk anlarından,
Atıldın meydana sən, Niyaməddin.
Güclü ordumuzun mərd əsgərləri,
Dağıtdı düşmənin qurduğu səddi.

«Bu torpaq mənimdi, qoymaram əsla,
Düşmən nəfəsiylə yansın, alışsın.
Damarda dövr edən son damla qanım-
Razıyam, torpağa axıb qarışsın.»

Bu sözü söyləyən bir qəhrəmanı,
Unutmaz heç zaman ulu millətim.
Böyük qələbənin imzasın atmaq,
Şəhidim, sənin də oldu qismətin.



**ƏLƏKBƏROV QULAM NOVRUZ OĞLU GİZİR (1994-cü ildə şəhid olmuşdur.)**

## İLLƏRİN UNUTDURMADIĞI QƏHRƏMAN

Biz keçmişə nəzər saldıqda bu günkü qəhrəmanlıqların təməlinin əslində dünənlərdə qoyulduğunu aşkar şəkildə görürük. Hər dönəmin öz qəhrəmanı olub və o qəhrəmanlar da özlərindən sonrakı nəsilə öz qəhrəmanlıqlarını örnək, vətəni isə əmanət qoyublar. Ata-babalarımızın yolu ilə gedən qəhrəmanlardan biri 1990 - cı illərdə qəhrəmanlıq göstərmiş və bu gün də izi ilə gedilən Ələkbərov Qulam Novruz oğludu.

Ələkbərov Qulam Novruz oğlu 1965-ci ildə iyulun 6-da Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Azad kəndində dünyaya gəlib. Ailədə 7 uşaq (6 oğlan, 1 qız) olublar. 1972-ci ildə Azad kənd tam orta məktəbində təhsil almağa başlayıb. 1982-ci ildə məktəbi bitirib. Bir müddət Sovxozda işləyib. 1983-cü ildə hərbi xidmətə yola düşüb. Xidməti sovet dövrünə təsadüf etdiyi üçün xidmətini Monqolustanda keçib. 1985-ci ildə xidmətini bitirib vətənə dönüb. Daha sonra hərbçi olmaq arzusunda olan Qulam Zaqafqaziya gizirlər məktəbində 6 aylıq kurs keçib. 1988-ci ildə məktəbi bitirdikdən sonra Zaqafqaziya sərhəd dairəsində gizir kimi fəaliyyətə başlayıb. Daha sonra 1989-cu ildə Ordubad rayonunda N saylı hərbi hissədə xidmət edib.





Vətən sevdalı Qulam 1989-cu ildə Məxridə xanımla ailə həyatı qurub. Ailənin övlad payı 2 qızları Ellada və Şəbnəm olub.

1992-ci ilin sentyabrında Naxçıvan Sərhəd dəstəsində zastava rəisi vəzifəsində peşəkar bir sərhədçi kimi hər zaman sərhədlərimizi qoruyub. Müəyyən müddət orada işlədikdən sonra 1993-cü ildə Şərur rayonunun Kərimbəyli kəndində yerləşən zastavaya rəis təyin olunub. 1994-cü il fevralın 19-dan 20-nə keçən gecə xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olub. Qulamın şəhid olmağı ailəsi qədər əsgərlərini də dərindən sarsıdıb. Onun kimi bacarıqlı bir hərbçinin itkisi o dönəm ordu üçün böyük itki idi. İllərlə hərb sənətinin incəliyini dərindən öyrənən bir qəhrəman oğul Naxçıvanın unudulmaz qəhrəmanları sırasında yer alıb. Qulam hər zaman şəhid olmaq arzusunda olub. Hətta «Mən şəhid olacam, mənim büstümü qoyacaqlar.» sözlərini də dilə gətirib. Şəhidlər şəhid olacaqlarını hiss edirlər. Qulam da hiss etmişdi. Ordubad rayonunun Azad kənd qəbirsanlığında uyuyan qəhrəmanın adı 1995-ci ildə Nazirlər kabinetinin əmri ilə işlədiyi hərbi hissəyə verilərək əbədiləşdirilib. Eləcə də şəhadətindən sonra «Azərbaycan bayrağı» ordeni ilə təltif edilib.

2 yaş yarımlıq Ellada və 1 yaşlı Şəbnəm atasız bir həyatla mücadilə edərək böyüdülər. Hər dəfə ata həsrətinin təsəllisini atalarının şəhid adından tapdılar. Məğrur duruşlu 24 yaşında yarsız qalan analarının göz yaşlarını görmədilər. Həyatın bütün çətinliklərinə sinə gələn Məxridə xanım şəhid xanımı adını qürurla daşıdı. İllər keçsə də Məxridə xanım nə yar dərdini, nə də gördüyü «çin» olan yuxusunu unutmadı.

## ŞƏHİD QULAM

Sən elə bir məqam sahibisənki,
Sənin məqamına çatmaq nə mümkün?!
Cismini bu vətən bağrına basdı,
Adını yaralı qəlbimdə büküm.

Yazıb igidliyi bir dastan kimi,
Əmanət qoymusan bizlərə, Qulam.
Vətəni nuruna qərq etmək üçün,
Cisminlə şam kimi sən də yanmısan.

Daha vətən adlı dərin yaramız,
Sanki qaysaqlayıb, sanki sağalıb.
Vətənə can verən hər bir şəhidin,
Yenilməz ordumuz qisasın alıb.





## ƏLƏKBƏROV BAĞIR ƏSƏD OĞLU GİZİR

**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**



## QƏHRƏMAN ATANIN DAVAMÇISI

Şəhid olan bir vətənin şəhid olan balalarının sayı nə birdi nə min. Şəhidlərə şahid olan bu vətən qərinələrdən keçərək bu günlərə gəlib çıxıb. Dünənlərdən bu günlərə atılan addımların izi torpağa qanla həkk olunub. Qanlarla ucalan bu vətən dərdlə qocalıb. Ancaq o dərddən qocalsa da uğrunda can verən qəhrəmanlardan güc alıb. Vətənimin oğulları sayəsində vətən var olub və var olacaq. Ömrünü vətənə həsr edən Ələkbərov Əsəd Bağır oğlu vətənin ağır günlərində vətən qeydinə qalan qəhrəmanlardan olub. Hərbçi peşəsinin ağırlığını çiyinlərində daşıyan Əsəd Ələkbərov vətənə olan bağlılığını, sevgisini ailəsinə də aşılayıb. Evində gələcəyin iki əsgərini böyüdən ata hər zaman şəhidlərin dəyərini və bu vətənin şəhidlərin əmanəti olduğunu öz övladlarına başa salıb. Hər dəfə Şəhidlər Xiyabanına gedəndə ürəyində dərin bir nisgil olan hərbçi bilməzdi ki, illər sonra o şəhid məzarları sırasında onun övladı Bağır Ələkbərovun da məzarı olacaq.

Ələkbərov Bağır Əsəd oğlu hərbçi atanın ikinci oğludu. O, 10 fevral 1995-ci ildə dünyaya gəlmişdi. Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhərində dünyaya gələn Bağır 2001-ci ildə elə həmin şəhərdə 705

N- li məktəbdə təhsil almağa başlamışdı. Sonradan ailənin Culfa şəhərinə köçməsi səbəbindən Bağır təhsilini Culfa şəhər 3 N- li məktəbdə davam etdirmiş, 2012-ci ildə təhsilini başa vurmuşdu. 01.04.2013 - cü ildə hərbi xidmətə getmişdi. Naxçıvan Muxtar Respublikasında N saylı hərbi hissədə snayperçi əsgər kimi xidmət etmişdi. Hərbi xidməti zamanı nümunəvi əsgər olduğu, nizam - intizam qaydalarına əməl etdiyinə görə hərbi hissə komandanlığı tərəfindən ailəsinə təşəkkür məktubu ünvanlanmışdı. Xidmətini bitirməyinə 3 ay qalmış qorxmazlığı, cəsarəti göz önünə alınaraq ona Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) gizir rütbəsi verilmişdi. Qorxu bilməz qəhrəman sanki vətən üçün doğulmuşdu. Atasının yolunu qürurla davam etdirən Bağır seçdiyi peşənin məsuliyyətini gözəl dərk edirdi. O, vətənin azadlığının carçısının elə özü olacağını dilə gətirirdi. Onun üçün də hər zaman çalışır, bir çox beynəlxalq təlimlərdə iştirak edirdi.21 mart 2015 - ci ildə XTQ-in hərbi hissə komandiri Rəşad Aslanov tərəfindən döyüş və ictimai - siyasi hazırlığında əldə etdiyi nailiyyətlərə görə fəxri fərmanla təltif edilmişdi. 2016 - cı ildə snayper kursunu fərqlənmə ilə bitirmiş, 2017-ci ildə yenidən fəxri fərmanla təltif edilmişdi.

2018 -ci ildə Türkiyədə keçirilən "Özəl Kuvvet Tim Kəskin Nişancı" kursunu uğurla bitirmiş və sertifikat almışdı. Bununla yanaşı elə həmin il əlbəyaxa döyüş növündə qalib olduğu üçün fəxri fərmanla təltif edilmişdi.

Hərbidə olduğu hər an gələcəkdə vətənə yararlı bir hərbçi olmaq üçün hər vəchlə çalışan Bağır Ermənistan ordusunun 2018 - ci il mayın 20-dən 27-nə qədər Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonu istiqamətində atəşkəsi pozması nəticəsində baş verən döyüşlərdə qəhrəmancasına döyüşmüşdü. Həmin döyüş tarixin yaddaşına həkk olunmuşdu. O döyüşlərdə Əlahiddə Ümumqoşun Ordusunun əks - həmləsi nəticəsində Şərur rayonunun Günnüt kəndi, Ağbulaq yüksəkliyi, Qızılqaya dağı, Qaraqaya dağı azad olunmuş, Dərələyəz mahalının Arpa kəndi Azərbaycan Ordusunun nəzarəti altına alınmışdır. Bağır döyüşdə göstərdiyi qəhrəmanlığa görə Naxçıvan MR Ali məclisinin sədri Vasif Talıbov tərəfindən mükafatlandırılmışdı.

2019-cu ildə «Azərbaycan Ordusunun 100 illiyi» yubiley medalı ilə təltif olunmuşdu.

Bağır illərlə hərbidə yiyələndiyi elmin və bacarığın sayəsində Qarabağın azadlığa qovuşacağı günün uzaqda olmadığını bilirdi. O günlər çatdı. Bağır və onun kimi minlərlə oğullar Qarabağı anasına qovuşdurdu. Axan şəhid qanları anaların göz yaşları ilə qarışdı. Sentyabrın 27-də başlayan müharibə çox keçmədən ordumuzun üst - üstə qazandığı zəfərlərdən xəbər verdi. Həmin döyüşlərdə qəhrəmanlığı ilə adından söz etdirən snayperçi Bağır Ələkbərov Tehran Mənsimovun dəstəsində yer almışdı. Ermənilərin burnundan intiqam tökən sərrast atıcının açdığı atəş hədəfdən yayınmırdı. Vətənin azad torpaqlarını görmək sevincini yaşayan qəhrəmanın şəhadət arzusunu Allah gerçək etdi. O, 15 oktyabr 2020 - ci ildə Hadrutun azad olunması uğrunda gedən qızğın döyüşlər zamanı qəhrəmancasına şəhid oldu.

Qəhrəman atanın qəhrəman oğlunun qəhrəman oğlu Ələkbərov Bağır Əsəd oğlu ölkə başçısı İlham Əliyev tərəfindən «Vətən uğrunda» medalı, «İgidliyə görə» medalı,»Füzulinin azad olunmasına görə» medalı, «Xocavəndin azad olunmasına görə» medalı və «Şuşanın azad olunmasına görə» medalı ilə təltif edilib.

Ömrünün 3 ilini bir hərbiçi ilə bölüşən Nərmin xanım Bağırsız bir həyatın çətin sınaq olacağından xəbərdardı. O, bilir ki, hər gün övladı Əsədin suallarına cavab tapmadıqca gözləri bir məzarda dikilib qalacaq. O, heç zaman ata qoxusu duymayacaq, atasının üzünü görmədiyi bir körpəyə ata sözünü izah edəcək. O sözü izah etmək bir qadın üçün çox çətin olacaq. Şəhid xanımı xoşbəxt dünənlərinin donub qaldığı bir məzar daşını oxşayacaq. Böyüməyən arzularının məzarını göz yaşları ilə yuyacaq. Tək təsəllisi isə Bağırın əmanətləri olacaq.

## ŞƏHİD BAĞIR

Sən vətən yolunda qurban olan can,
Səninlə yol alıb qəlblərə hicran,
Olmusan vətənin dərdini duyan,
İndi vətən çəkir sənin dərdini
Torpaq övlad kimi oxşar qəbrini.

Sonuncu sözlərin ürək dağıdır,
Yar könlü talanan sevgi bağıdır,
Şəhidim, arzular qəm oylağıdır,
Çəmən də, çiçək də intizar qoxur
Yarın məzar üstə ağılar oxur.

Vətəndə boy atdın, vətənə döndün,
Cənnət qapısında sən də göründün,
Vətən bayrağına şanla büründün,
Yardın şəfəqləri çiyinlər üstə
Adın dilə gəldi Bağır, hər səsdə.







## TAHİROV VÜSAL MEHDİ OĞLU
## GİZİR
**(II Qarabağ müharibəsində şəhid olmuşdu.)**

## VÜSALA ÇATAN ŞƏHİD

Vətəni sevən insan dünyanın ən zəngin insanıdır. Fərqi yoxdur o insan hansı şəraitdə yaşayır. O insanın yaşadığı yerin soyuq bir daxma və ya saray olması önəmli deyil. Soyuq daxma da vətən sevən ürək üçün saraya bərabərdi. O daxmanın nəm qoxan qoxusu həmin insan üçün vətən qoxusudur. Elə insanların hər çətinliyi vətən sevgisini daha da alovlandırır. O ürəklərin ən dəyərli sərvəti vətən sevgisidir. Əslində isə o ürək bütün vətənin sərvətidir. Vətənin ən dəyərli mənəvi sərvətlərindən biri olan şəhid Vüsalın çətin həyat şəraitinin böyük sevgisinə əngəl ola bilmədiyini duyan hər kəs o ürəyə qibtə edir. Axı hər kəsdə elə ürək olmur.

Tahirov Vüsal Mehdi oğlunun 23 illik ömür səhifəsinə yazılan hər andan bir xatirə boylanır. Vüsal 1997-ci il mayın 1-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Məmməd kəndində dünyaya göz açmışdı. İki qız övladından sonra evin son beşiyi kimi ata - anasına oğul sevinci bəxş etmişdi. Həyatın «kasıbçılıq» adlı sınağı ilə sınanan ailə hər zaman bu sınaqdan üzüağ çıxmağı bacarmışdı. Bəzən isti yemək, isti şərait olmasa da sevgilərinin istisi bir - birinə yetmişdi. Beləcə çox çətin şəraitdə böyümüşdü Vüsal. O qorxusuz bir uşaq idi. Hələ 5-6 yaşlarında bunu sübut

etmişdi. Vüsal 6 yaşında olanda atası iş tapmaq məqsədilə ailəsi ilə birlikdə Bakı şəhərinə gəlmiş və Xırdalan şəhərində məskunlaşmışdı. Həyatın sınağı Vüsalın təhsil almaq istəyini də gecikdirmişdi. Vüsal 2005-ci ildə Xırdalan şəhər 5 saylı orta məktəbdə təhsil almağa başlamışdı. Hər zaman idmana böyük marağı olan Vüsal eyni zamanda idmanın futbol növü üzrə də məşğul olmuşdu. Vüsal daha sonra təhsilini Xırdalan şəhər 9 saylı tam orta məktəbdə davam etmişdi. 2015-ci ildə məktəblər arasında keçirilən futbol yarışında onun iştirak etdiyi komanda qalib olmuş və kubok qazanmışdı.

Artıq Vüsal bir gənc idi. Ürəyi isə yaşından çox yaşlı idi. Çünki o ürəkdə Qarabağ həsrəti yer alırdı. Vətən sevdalı oğul 26 oktyabr 2015-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayon hərbi komissarlığı tərəfindən vətən borcunu ödəmək üçün hərbi xidmətə çağrılmışdı. Xidməti zamanı davranışı, nizam - intizamı, layiqli xidmət etdiyi üçün komandirləri tərəfindən dəfələrlə təşəkkürnamə almışdı.

Vüsal çox sakit, hər şeyin yerini bilən, ürəyində pislikdən bir əsər - əlamət olmayan insan idi. Hər zaman komandirləri ona bir qədər sərt davranmağını desələr də o öz xarakterini dəyişməmişdi. O hərbi xidmətini 2017-ci ildə əsil Azərbaycan kişisi kimi başa vurmuşdu. Ancaq o tək hərbi xidmətlə kifayətlənməyib MAHHXHQ kimi ordu sıralarına yazılmışdı. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində MAHHXHQ kursunu uğurla tamamlayaraq 2017-ci ildə N saylı hərbi hissədə manga komandiri vəzifəsində çalışmışdı. 2018 - ci ildə başqa bir hərbi hissədə kəşfiyyatçı snayperçi vəzifəsində xidmətini davam etdirmişdi. Həmin dövürdə Naxçıvan Ümumqoşun Ordu Komandanlığı tərəfindən təşkil olunan xüsusi snayper tapşırıq kursunu uğurla bitirdiyi üçün sertifikata layiq görülmüşdü. Bundan əlavə 2020-ci ildə keçirilən «Atletika və gimnastika» üzrə 100 metr məsafədə qaçış yarışında 1-ci yerə layiq görülərək təltif olunmuşdu. Əsgər Vüsal Tahirov Azərbaycan Ordusunda bütün vəzifələrini uğurlu şəkildə icra etdiyi üçün 2020-ci ilin sentyabrında gizir rütbəsinə layiq görülmüşdü.

Vüsalgil bir evdə beş nəfər hərbçi qalırdılar. Müharibə başlayan gündən bu evin sakinləri get - gedə azalırdı. Vüsal müharibəyə gedən dostlarının hər birinin şəhidlik xəbərini aldıqca döyüşə getmək üçün daha çox





can atırdı. Artıq o evin 5 sakinindən həm evdə, həm həyatda təkcə Vüsal qalmışdı. Adını könüllülər sırasına yazdırıb müharibəyə gedəcəyi günü səbirsizliklə gözləyən Vüsalın gözlədiyi o gün nəhayət ki, çatdı. Vüsal tək oğul olduğu üçün ailəsi onun müharibəyə getməsinə o qədər də könüllü deyildi. Ancaq Vüsal «Mən də bu vətənin oğluyam və bu mənim borcumdur.» deyib, 24 oktyabrda Naxçıvandan döyüşə yollanan son dəstə ilə birlikdə Qarabağa yola düşüb. Lakin gedərkən ailəsi narahat olar deyə təlimə getdiyini deyib. Çünki hər dəfə müharibəyə gedəcəyini dediyində ailə narahat olurdu.

Vüsal döyüşə ilk olaraq Xocavəndin Xaç və Dəmirçilər kəndindən başlayıb. Manqa komandiri olan qəhrəman tabeliyində olan əsgərlərlə birlikdə ilk döyüş tapşırığını uğurla və itkisiz başa vurub. Daha sonra 27 oktyabrda çiyinlərində 25-30 kq ağırlığında silah - sursatla ac-susuz Şuşa istiqamətində irəliləyib. Çanaqçı kəndinə ilk girən dəstə Vüsalgilin dəstəsi olub. Şuşanı gözləri ilə görmək sevincini yaşayan qəhrəman Şuşanın tam azad olunduğu günü görmək arzusunda idi. Ancaq elə həmin gün düşmən tərəfi qəfil hücuma keçib. Düşmənin atdığı iki minamyotdan biri düz Vüsalın yanına düşüb. Vüsal başından qəlpə yaraları alıb. Vüsalın komandirinin dediyinə görə həmin an özünü itirməyən Vüsal başından qan axa - axa «Eşhedü en la ilahe illallah ve eşhedü enne Muhammeden resulullah.» deyə-deyə onlara tərəf gəlib. Həmin vaxt ən ağır yaralı Vüsal olub. Onu təxliyə ediblər. İlk öncə Füzulidə hospitala yerləşdirilib, ertəsi gün Bakı şəhərindəki klinikalardan birinə yerləşdirilib. Bir neçə dəfə əməliyyat olunan Vüsalın səhhəti günü - gündən pisləşib. Bu zaman ərzində Vüsalın ailəsi onu Naxçıvanda təlimdə olduğunu bilib. Ailəsi 8 noyabrda Şuşanın azad olunduğu gün Vüsalın yaralandığını öyrənib. Həkimlər ailəyə Vüsalın ilk gün gəldiyində huşunun özündə olduğunu «Anama deməyin, atama deyin.» sözlərini güclə tələffüz etdiyini deyiblər. Daha sonra get-gedə vəziyyəti ağırlaşıb və komaya düşüb. Birinci əməliyyatdan 11 gün sonra ikinci dəfə də beyinə qansızma, kəllə-beyin travması və miringit diaqnozu ilə 4 saatlıq əməliyyat keçirib. Həkimlərin səylərinə baxmayaraq Vüsal komadan ayılmayıb. Başına su yığılıb, beyin fəaliyyətini itirməyə başlayıb. Üçüncü əməliyyat da nəticəsiz qalıb. Vüsal koma vəziyyətində daha iki gün yaşayıb. 16 noyabrda Vətən müharibəsinin qalib əsgərinin həyat

mübarizəsi sona çatıb. Şəhidin nəşi həmin gün ailəsinə təhvil verilib. Noyabrın 17-də şəhidin nəşi II Fəxri Xiyabanda torpağa tapşırılıb. İzdihamla baş tutan dəfn mərasiminə Müdafiə Nazirliyinin əməkdaşları, Abşeron rayon İcra hakimiyyətinin nümayəndələri, hərbçilər və xalq qatılıb.

Gizir Tahirov Vüsal Mehdi oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, «Xocavəndin azad olunmasına görə» medalı və «Şuşanın azad olunmasına görə» medalı ilə təltif edilib.

Vüsal hər zaman «Kaş ki, Mübariz İbrahimovun evinin qoxusunu duymaq hər kəsə nəsib olardı.» deyib. Vüsal nəinki şəhid qoxusunu duydu, özü cənnəti şəhid qoxusuna bürüdü. Vüsal vüsalına çatdı.

### ŞƏHİD VÜSAL

Sən elə igidlik göstərmisən ki,
Sözlər aciz qalır səndən yazanda.
Hər dəfə ürəyin parçalanırdı,
«Qarabağ işğalda qalıb.» duyanda.

Bilirdin işğalın sonu zəfərdi,
Çünki igidlərin qəlbi dolmuşdu.
Cismi Qarabağdan uzaq düşənin,
Ruhu Qarabağa çoxdan qonmuşdu.

Çatdı illər sonra vüsal zamanı,
Sən də vüsalına çatdın, ay Vüsal.
Düşmənin cavabın elə verdin ki,
Qoymadın verilsin daha bir sual.

Sənin qismətinə bir qazi kimi,
Bir neçə gün ömür sürmək yazıldı.
Vətəni ağ günə çıxaran, şəhid,
Vətəndə sənə də məzar qazıldı.







**NOVRUZLU ÜMİD BAHADUR OĞLU GİZİR**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

### VƏTƏNİN ÜMİDİ

Vətən sevgisi İlahi bir sevgidir. Bəzi insanların vətən sevgisi o qədər böyük, qüsursuz, sonsuz olur ki, o sevgiləri duymaq, görmək insanın qəlbindəki vətən sevgisini daha da zənginləşdirir. Vətən sevgisi uğrunda canından keçib vətənlə bütövləşən şəhidlərin vətən sevgisi örnək sevgidi. Vətən yaşasın deyə yaşamdan əl üzənlər vətən yaşadıqca hər zaman yaşayacaqlar. Elə əbədiyaşar olan Novruzlu Ümid kimi.

Novruzlu Ümid Bahadur oğlu 1992-ci il iyunun 7-də Naxçıvan Muxtar Respublikasının Babək rayonunda dünyaya göz açmışdı.1998-ci ildə 1 N - li Vəli Mahmudov adına tam orta məktəbdə təhsil almağa başlamış,2009-cu ildə məktəbi bitirmişdi. 2010-cu ildə Naxçıvan Muxtar Respublikasının Babək rayon Hərbi komissarlığı tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılmışdı. Xidmətini Qıvraq qəsəbəsindəki N saylı hərbi hissədə keçmişdi. Xidməti zamanı komandirlərinin və hərbçi yoldaşlarının hörmətini qazanmışdı. 2012 - ci ildə xidmətini başa vurmuşdu. Lakin ürəyindəki vətən sevgisi Ümidə hərbidən uzaqlaşmağa imkan verməmişdi. Elə həmin il avqustun 1-də Ümid müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Naxçıvan şəhərində yerləşən N saylı hərbi

hissədə ordu sıralarına qoşulmuşdu. Vətənini, bayrağını, torpağını hər şeydən üstün bilən Ümid bir gün Qarabağ adlı həsrətin bitməsi ümidi ilə yaşayırdı. Adından doğan ümid hissi ürəkləri isidirdi. Heç zaman Qarabağı görməyən, ancaq Qarabağa könül gözləri ilə heyran olan cavanların hər birinin arzusu da, məqsədi də bir idi. Elə bu amalla 2020-ci il 27 sentyabrda başlayan Vətən müharibəsində vətən qeyrətini çəkən, vətən həsrətinin bitməsi arzusu ilə yaşayan oğullar döyüşə atıldılar. Onlardan biri də Novruzlu Ümid Bahadur oğlu oldu. Ümidin təlimlər zamanı ayağı zədələnsə də komandirlərinin təkidinə baxmayaraq oktyabrın 24-də döyüşlərə qatıldı.

Döyüşə başlamazdan öncə Ümid xanımı və uşaqları ilə birlikdə gəzintiyə çıxaraq onlara ömür boyu xatırlayacaqları xoş anlar yaşadıb. Ümidin övladları ilə bağlı çox arzuları var idi. Ən böyük arzularından biri də oğlu Bahadurun kiçik toyunu görmək idi. Ancaq onun bu arzusu da digər arzuları kimi nakam qalıb. Ümid hər şeyi geridə buraxıb azadlıq arzusunun ardınca gedib. Düşməndən azad olunan ərazilər sanki Qarabağ həsrəti ilə ürəyi yanan bu qəhrəmanın yanan ürəyinə sərpilən su olub. Nə olur olsun Qarabağ adlı yükü gələcək nəsillərin çiyinlərinə yükləməmək onun tək məqsədi idi. Elə o məqsədinə də çatıb. Dəfələrlə yaralanmağına baxmayaraq son nəfəsinə qədər döyüşüb. Son danışığında «Şuşaya bayraq sancacam. Oradan sizə şəkillər çəkib göndərəcəm.» deyən qəhrəman 5 noyabrda Şuşanın girişində qəhrəmancasına şəhid olub.

Vətən müharibəsinin qəhrəman şəhidlərindən olan Novruzlu Ümid noyabrın 13-də Babək rayonunda ana torpağına qovuşub.

2 bacının yeganə qardaşı olan Ümidin gedişi ilə bacılarının əvəzsiz «Qardaş» sözü ürəklərinin sağalmaz yarasına çevrildi.

2 körpə bala Bahadur və Nilayın isə ata adlı intizarları gün keçdikcə böyüyür. Onlar hər gün «Atam gələcək.» deyib gözlərini yollara dikirlər. Onların ümidlə gözlədikləri atalarının gəlməyəcəyi gerçəyini isə anaları Gülay xanım dilə gətirə bilmir. Ümidin həsrəti hər kəsin qəlbində günbəgün daha dərin kök atır. Tək oğul övladını vətənə qurban verən şəhid atasının «Ümid mənim dayağım idi. O, məni həyatda tək qoydu.» sözləri çarəsizliyin özüdür.

Oğul dərdi aldığı hər nəfəsdə mərmi kimi ürəyinə dizilən Kimya ana isə «Kaş balam yanımda olaydı. Mən balamın çiynində son mənzilə gedəydim. Ümidimin gedişi ilə evimizin sevinci, çöhrəmizin gülüşü itib.» deyir. Bunun adı bitməyən həsrətdi.





Vətən müharibəsi zamanı Füzuli, Zardağan, Çanaqçı, Sınnaq, Hadrut, Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşan, qazanılan zəfərdə böyük əməyi olan gizir Novruzlu Ümid Bahadur oğlu şəhadətindən sonra ölkə başçısı İlham Əliyevin sərəncamı ilə «Vətən uğrunda» medalə və «Şuşanın azad olunmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD ÜMİD

Ruhunda səs salan azadlıq səsi,
Yayıldı vətənə bir anda, Ümid.
Ən böyük arzundu bayrağımızı,
Sancıb Şuşamıza,olasan şəhid.

Onunçün döyüşdün son nəfəsədək,
Cismin parçalandı torpaqlar kimi.
Həyatdan əlini üzməyənədək,
Vətəndən üzmədin sən öz əlini.

Can verdi yanında dostun, sirdaşın,
Hər şəhid ruhundan bir az güc aldın.
Ən böyük arzuna çatdın amma ki,
Yaşamla arana ayrılıq saldın.

Azad Şuşamızın uca dağları,
Sənin də ruhunun kölgəsi oldu.
Dür axan çayların suları kimi,
Gözlərin göz yaşı yaman duruldu.

İki körpə bala ata rəsmini,
Sıxdı parçalanan dərdli sinəyə.
İndi o körpələr tez-tez gəlirlər,
Bir məzar daşında ata görməyə.



**İSMAYILOV ƏMRAH XUDAVERDİ OĞLU GİZİR (II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## İLK VƏ SON YAŞ

Vətənə can verən qəhrəmanları bu millət hər zaman sayqı duruşu ilə yad edər. Adları çəkildiyi an sanki axar sular durar. Bəzən deyirik «Şəhidə yer də, göy də ağlayır.» Bəzən bulud gözlərdən, gözlər buluddan utanar. Bir- birinin kədərlərini gizləməyə çalışar. Ancaq şəhidlər üçün ağlayan elin göz yaşlarını yağış damlaları öz əsarətinə sala bilməz. Eyni anda minlərlə ananın «Oğul» deyə fəryadı dağı-daşı inlədər. Elin könül yarasına çevrilən şəhidlərin hər birinin adı qürur hiss ilə çəkilər. Çünki o oğullar qəhrəmanlıqları ilə xalqın ürəyinə köçüblər. Əmrahı, onun kimi bu vətənə can verən qəhrəmanları bu xalq unudarmı? Gələcək nəsillərin tanıyıb, adını yaşatmalı olduğu bir qəhrəmandı Əmrah.

İsmayılov Əmrah Xudaverdi oğlu 10 noyabr 1994-cü ildə Naxçıvan Muxtar Respublikası Şərur rayon Cəlilkənd kəndində anadan olub. Ailəsinə ilk övlad sevincini bəxş edib. Ailədə üç övlad olublar. Böyüyüb məktəbli yaşına çatdığı zaman Şərur rayon Cəlilkənd kənd tam orta məktəbində təhsil almağa başlayıb. 2011-ci ildə məktəbi bitirib. 2013-cü ilin yanvar ayında həqiqi hərbi xidmətə çağrılıb. Xidmətini Naxçıvanda N





saylı hərbi hissədə keçib. 2014 - cü ildə həqiqi hərbi xidməti başa vurduqdan sonra MAHHXHQ kimi Xüsusi Təyinatlı Qüvvələrin 3 aylıq gizirlik kursunu keçib. Sonra Qıvraq qəsəbəsində yerləşən N saylı hərbi hissədə gizir kimi xidmətə başlayıb. O, snayperçi olub.

Əmrah hərbçi peşəsinə yiyələn zaman bu vətənin ərazi bütövlüyü uğrunda canından keçməyə hazır idi. Hər zaman düşmənə nifrəti gözlərindən oxunan qəhrəman 2018-ci ildə Azərbaycan Ordusunun uğurlu əməliyyatlarından biri sayılan Günnüt əməliyyatında iştirak edib. O zaman düşmən tapdağından azad olunan torpaqlarda Əmrahın da əzminin gücü iz salıb. Həmin uğurlu əməliyyata görə mükafatlandırılıb. Ancaq «Bu qalibiyyətlə kifayətlənmək olmaz.» deyib bütün ərazilərin, bütöv Qarabağın azad olunacağı günün çatmasını gözləyib. 27 sentyabr 2020-ci ildən başlayaraq Azərbaycan Ordusu Qarabağa doğru irəlilədikcə, qəhrəmanların addımları qalibiyyət izi saldıqca tarix olanların və tarixi zəfərlərin sayı artıb. Əmrah tarixin yaddaşına iz salan II Qarabağ döyüşlərinə oktyabrın 18-də qatılıb. İlk olaraq Cəbrayıl uğrunda mübarizə aparıb. Döyüş yolu Şuşaya qədər uzanıb. Noyabrın 8-də Şuşanın azad olunduğu gün Şuşadan ailəsinə zəng edib onları böyük Qələbə münasibəti ilə təbrik edib. 4 yaşlı Zeynəbə və 2 yaşlı Xudaverdiyə «Siz bizim kimi vətən həsrəti ilə böyüməyəcəksiniz. Siz qalib ordunun qalib hərbçisinin övladları olduğunuz üçün qürur duyacaqsınız.» deyib.

Bu dəfə 10 noyabr tarixinin başqa bir mənası var idi. Bu dəfə 26 ildən sonra hər ad günündə arzuladığı arzusuna çatmışdı Əmrah. Yeni yaşına azad Şuşada girən Əmrah bilmirdi ki, ömrü 26 yaşında donub qalacaq. Yeni yaşında cəmi bir neçə saat yaşayan Əmrah noyabrın 10-da düşmənin açdığı snayper atəşi nəticəsində şəhadətə ucalıb. Ailəsi onun şəhid xəbərini 2 gün sonra alıb. Heç bir kəsin duymaq istəmədiyi o xəbər İsmayılovlar ailəsinin çırağını söndürüb. Noyabrın 13-də şəhidin nəşi ata ocağına gətirilib. İllər öncə bu ocağı Əmrah adlı bir səadət isitmişdi. İllər sonra o səadət əbədi gedişi ilə ürəkləri qaranlığa qərq edib. Həmin gündən Şərur rayon Şəhidlər Xiyabanı Əmrahın da əbədi evinə çevrilib.

Gizir İsmayılov Əmrah Xudaverdi oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, «Xocavəndin azad olunmasına görə» medalı, «Füzulinin

azad olunmasına görə» medalı və «Şuşanın azad olunmasına görə» medalı ilə təltif edilib.

### ŞƏHİD ƏMRAH

Hər kəsin nəsibi olmaz həyatdan,
Dünyaya gəldiyin gündə köçəsən.
Cənnətin ən gözəl olan yerində,
Solmayan bir çiçək kimi bitəsən.

Sənə nəsib oldu bu ali məqam,
Çatdın şəhadətə gənc yaşda, Əmrah.
İndi səndən bizə qalib bir vətən,
Bir də ürəklərdə yurd salan bu ah.

İki körpə balan qürurla gəzir,
Vətən torpağının hər qarışında.
Bir ata həsrəti izini salıb,
Məsum mələklərin hər baxışında.

Ucu-bucağı yox bu sənsizliyin,
Elə bu vətənin özü boydadır.
Sən keçib getdiyin döyüş yolları,
Hər kəsdə vətənə sevgi oyadır.







### RZALI DAŞQIN ELŞAD OĞLU
### KİÇİK GİZİR
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## ÇİÇƏK ÖMÜRLÜ ŞƏHİD

Bu dünyada ömrü çiçək qədər olan şəhidlər xalqın and yerinə çevriliblər. Vətənin hər qarışını ziyarətgaha çevirən həmin qəhrəmanların hər birinin həyat hekayəsi bir romana sığmayacaq qədər genişdir. Qısa ömürlərini o qədər gözəl, mənalı yaşayıblar ki, şəhidlər elə bil cənnətə tələsdiklərindən xəbərdar imişlər. Hər şəhidin həyatın vərəqlədikcə ah bu cavan ömürlüm nə yaşadı ki, nə görə deyə düşünsəm də tanıdıqca nə qədər mənalı ömür sürdüyünə şahid oluram. Hər şəhidin ömür izinə düşdükcə sevgilərinə bir daha heyran oluram. Seçilmişlərin sevgiləri fərqli olur. Rzalı Daşqının sevgisi kimi...

Rzalı Daşqın Elşad oğlu 1993-cü il mayın 27-də Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Yaycı kəndində anadan olub. Bir bacının əkiz qardaşlarından biri olub. 2000-ci ildə 1 N - li Yaycı kənd tam orta məktəbində təhsil almağa başlayıb. Orta məktəbdə oxuduğu zamandan idmanın cüdo növü ilə məşğul olub. Dəfələrlə birincilik qazanıb. Hətta Naxçıvan Muxtar Respublikası üzrə 1-ci yeri qazananda onu Bakı şəhərinə yarışa göndərmək istəyiblər. Ancaq imkansızlıqdan həmin yarışa qatıla bilməyib. Daşqın hələ 2-ci sinifdə oxuyarkən atasını itirib. Həyatın çətin-

liyini körpəlikdən çiyinlərinə yığan Daşqın ailəsinə kömək olmaq üçün erkən yaşlarından çalışıb.2011-ci ildə məktəbi bitirib. 2012 - ci il 9 iyulda hərbi xidmətə gedib. Naxçıvanda yerləşən N saylı hərbi hissədə xidmət edib. 2013 - cü ilin yanvarında xidmətini başa vurub. Hər zaman hərbiyə marağı olub. Özünü hərbçi peşəsindən başqa bir peşədə görməyib.2017-ci ildə nəhayət ki, arzusuna çatıb. Dövlət Sərhəd xidmətinə müraciəti cavabsız qalmayıb. Yevlaxda 6 ay kurs keçdikdən sonra təyinatla Lənkərana göndərilib. 2019-cu ilin aprelinə qədər orada xidmət edib. Sonra isə Xızıya göndərilib. Xüsusi Təyinatlı Qüvvələrdə xidmət etmək arzusu olub.

Daşqın 2019-cu il avqustun 4-də 5 il sevdiyi Fatimə xanımla ailə qurub. Bir - birilərini ülvi sevgi ilə sevən gənclərin birlikdə ötən hər anları bir ömürə bərabər keçib. Ancaq onlar bilmirdilər ki, onların qisməti əbədi ayrılıq olacaq.

Bir xalq olaraq artıq Ermənistanın işğalçı siyasətinə daha çox səbr etmək niyyətimiz yox idi. İllərdi bir-birinə calanan intiqam zəncirlərinin bir gün Ermənistan hakimiyyətinin boğazına keçəcəyi aydın idi. O gün 27 sentyabr 2020-ci ildə çatdı. Daşqın vətənin qeyrətli oğulları sırasında yer alanlardan oldu. Sevdiklərini geridə qoyub daha çox sevdiyi vətənə sahib çıxmağın gərək olduğunu düşündü. Həmin vaxt döyüşdə olan bütün qəhrəmanların bir istəyi var idi. Qarabağı azad etmək. Qəhrəmanlar canlarını vətənə, torpağa sipər etdilər. Azadlıq arzularına yetdilər. Son nəfəslərini verən şəhidlərin çöhrələrinə yansıyan gülüş, sevinc onların arzularına çatmaqlarından və cənnətlərindən xəbər verirdi. Daşqın da oktyabrın 21-də Zəngilan uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid oldu.

Ruhu cənnətdə olan vətən qəhrəmanının cismi oktyabrın 24-də Culfa rayon Yaycı kənd məzarlığında çox sevdiyi vətən torpağına qovuşdu. Gülər üzü şəkillərdə, ömrü isə məzarda dondu qaldı. Həsrəti isə günbəgün böyüdü.

Kiçik gizir Rzalı Daşqın Elşad oğlu döyüş zamanı göstərdiyi qəhrəmanlığa görə prezident İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, 3-cü dərəcəli «Vətənə xidmətə görə» ordeni və «Zəngilanın azad olunmasına görə» medalı ilə təltif edilib.





## ŞƏHİD DAŞQIN

Ruhun da başqa idi,
Qəlbindəki sevgin də.
O sevginin bəhrəsin,
Bütün millətim dərdi,
Həmin zəfər günündə.

Yumruq boyda ürəyin,
Sevgisi coşdu-daşdı.
Damarında dövr edən,
Qanın damladı, şəhid,
Torpağıma qarışdı.

Vətənin oğul payı,
Vətən qoxulu, Daşqın.
Adın dillər əzbəri,
Yaşatmısan zəfəri,
Bitməz yuxulu, Daşqın.



**MƏMMƏDOV SƏNAN HİDAYƏT OĞLU**
**BAŞ ÇAVUŞ**
**(2018-ci ildə şəhid olmuşdur.)**

## SONSUZ DÜNYANIN ƏBƏDİ SAKİNİ

Hər dövrün öz qəhrəmanları var. Son 30 ildə Azərbaycan tarixini yazan qəhrəmanların sayı daha çoxdu. Qərinələr, əsrlər öncə tarix yazanları tarixdən tanıyıb, öyrənənlərin yazdığı tarix həm də qeyrət, mənlik, şərəfin tərənnüm edilməsidir. Vətən sevgisinin aliliyi, müqəddəsləyi həkk olunan o qəhrəmanlıqları qanı ilə yazanlar şəhidlərdi. Tarix yazan qəhrəmanlardan biridir şəhid Sənan.

Şəhid sözü iki hecanın birləşməsindən yaranan sonsuzluqdur. Acısı da, qüruru da, cənnətdəki ömrü də sonsuzdur şəhidin. Əbədi dünyaları sonsuz olanların bu dünyaları çox qısa olur. Şəhidlərin çoxu Sənan ömürlü olur.

Məmmədov Sənan Hidayət oğlu 28 iyun 1998-ci ildə Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda anadan olub. Ailədə 2 qardaş böyüyüblər. Böyük qardaş kimi hər zaman qardaşı Hicrana örnək olub. 2004-cü ildə Culfa şəhər 1 N - li tam orta məktəbdə təhsil almağa başlayıb. 2012-ci ildə Heydər Əliyev adına Hərbi liseyə qəbul olub. 3 illik təhsilini uğurla tamamladıqdan sonra Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub. 2 il oxuduqdan sonra səhhətində yaranan problemlərlə əlaqədar təhsilini yarımçıq qoymaq məcburiyyətində qalıb. Daha sonra könüllü olaraq həqiqi hərbi xidmətə yollanıb. Tərtərdə yerləşən N saylı hərbi hissədə baş çavuş kimi xidmətə başlayıb. Düşmənlə üz-üzə durub vətən keşiyin çəkən Sənan 2017-ci ildə düşmənin atəşkəsi pozması nəticəsində yaralanıb. Sağalması üçün 15 günlük məzuniyyət verilib. Evlərinə getdiyində yaralı olduğunu anasından gizlədib. Xidmətə dönəcəyinə 2 gün qalmış anası oğlunun yaralandığından xəbər tutub. Sənan xidmətə dönməzdən əvvəl anasından bayraqlı bir saat almağını xahiş edib. Oğluna bayraqlı saat alan ana bilməzdi ki o saatın hər saniyəsi oğlunun ömrünün son anını yaxınlaşdırır.

Sənan 2018-ci il yanvarın 7-də anası ilə danışan zaman 3 gün sonra məzuniyyətə gələcəyini deyib. Anası da oğlunun gəlişinə hazırlaşıb. Ancaq oğlunun gəlişinə sevinmək Kəmalə anaya qismət olmayıb. Yanvarın 11-də Ermənistan ordusunun atəşkəsi pozmasının qarşısını alarkən Sənan qəhrəmancasına şəhid olub. Yanvarın 12-də oğul yolu gözləyən ailə şəhid xəbəri alıb. Yanvarın 13-də baş çavuş Məmmədov Sənan Hidayət oğlunun cansız cismi Culfa rayon Yaycı kənd məzarlığında torpağa tapşırılıb.

## ŞƏHİD SƏNAN

Sən oldun vətənin halına yanan,
Vətənə can verən, şəhidim Sənan.
«Şəhid balam» deyib fəryad eləyir,
Məzarın başında illərdi anan.

Bu dərd unudulmaz ötsə də illər,
Gözlərdə payızdı bütün fəsillər.
Ömrü ürəklərə toxunan, şəhid,
Adını söyləyir igid tək ellər.

Sənin gözlərində yox idi qorxu,
Qəlbini zəbt etdi eşq adlı duyğu.
Eşqinin yolunda can verən, oğul,
Yolunu bir örnək götürüb çoxu.

Alıb qisasını igid, ərənlər,
Sən tək vətənimə canın verənlər.
Daima vətəni yaşadacaqlar,
Vətəni namus və qeyrət bilənlər.





## İBRAHİMOV İBRAHİM ETİBAR OĞLU ÇAVUŞ (MAHHXHQ)

**(II Qarabağ döyüşlərində şəhid olmuşdu.)**



## SƏN ADLI SƏNSİZLİK

Hər bir canlı kimi insan da bu həyata doğular. Hər nəfəsi həyatda bir ilmə, bir naxış toxuyar. Hər addımı onu bir az böyüdər. Geridə qoyduğu ömürə hər yeni yaş günündə nəzər salar. "Bu yaşıma mən nə sığdırdım" deyə öz - özünə suallar verər. Ömrünün ötən yaşına bir qəhrəmanlıq salnaməsini yazmağı sığdıran, şücaəti ilə dildən-dilə düşən, doğulduğu gündən Qarabağ adlı həsrət nəğməsinin zümzüməsini eşidən qəhrəman şəhidimiz İbrahimov İbrahim Etibar oğlu. Şəhidim, biz sənin miras qoyduğun azadlığın işığına toplanmışıq. Sən isə əbədiyyətdə Allahın cənnət adlı ecazkar əsərinin sehrinə dalmısan. Necə ki, biz sənin ecazkar şəhid adının sehrinə dalmışıq. Hər kəsə nəsib olmaz şəhid kimi şəhadətdə yeni yaşa dolmaq. Ancaq sən buna layiq görülmüsən. Bilirəm, cənnətinin qonağı çoxdur. Yolunun yolçuları indi səninlə bərabərdi. Bu dünyada sənsizliyin ağır yükünü daşıyan sevdiklərin sənin məqamını düşünüb təsəlli tapırlar. Sən 1992-ci il fevralın 18 - də dünyaya gəlişinlə ailənin ruhunu isitmişdin. İndi hər kəs sənin məzarını ziyarət edir. Sən cənnətdən onları görürsən. Sinə daşına çəkilən sığalları, sənə deyilən laylaları duyursan, şəhidim. Qısa ömrünə nələri sığdırmadınki? Güvəni, inamı, sevgini, sədaqəti, mər-

həməti sətir - sətir yazdın. Bircə atalıq hissini yaşaya bilmədin. O «ata» kəlməsini eşitmədin. Sən sevdiyini də doya-doya oxşamadın, cəmi 14 ayın cütlüyü oldunuz. Gülsümünün ürəyində böyük sevginlə silinməyən iz qoydun və getdin. Səninlə sevincə qucaq açan bir qadın sənsiz kədərin ağuşuna atıldı. Sənsizlik nə qədər çətin olsa da səni sənsiz yaşatdığı addımlara tutunur Gülsümün. Yenə sənə «İbim» deyir. Bu oxşama mənə çox təsir edir. Sevdiyin övlad beşiyi başında oxşamalar deyəcəyi vaxtında yar məzarında oxşamalar deyir. İndi sənin məzarındı onun evi - eşiyi. Hər gün məzarını gül-çiçəklə bəzəyir. Cansız məzar daşından sevgi gözləyir. Şəhidim, bir qadının yaşaya biləcəyi ən ağır sınağı sevdiyin yaşayır. Artıq səsinə də həsrətdi, nəfəsinə də. Heç olmasa yuxularında onu tək buraxma. Heç olmasa gecələrin gəlişini səbirsizliklə gözləsin ki, yaşamağa bir səbəbi olsun.

İbrahim hələ 1998-ci ildə təhsil aldığı 15 N - li tam orta məktəbdə vətənə olan sevgisi ilə seçilirdi. İndi həmin məktəbin şagirdləri İbrahimin qəhrəmanlığını örnək götürürlər. İbrahim həqiqi hərbi xidmətə 2010-cu ilin aprelində getmiş, 2011-ci ilin oktyabrında bitirmişdi. Lakin onun ürəyindəki vətən sevgisi onu hər zaman hərbiyə doğru çəkmişdi. Beləliklə İbrahim 2020 - ci il sentyabrın 6-da ordu sıralarına yazılıb MAHHXHQ kursunu müvəffəqiyyətlə başa vurmuşdu. İbrahim az müddətdə ordu sıralarına yazılmasına baxmayaraq onun alnına Qarabağın azadlıq müjdəçisi olmaq yazılıbmış. Oktyabrın 17-də 6 saatlıq ailəsi ilə görüşməyə gəldiyi zaman hər kəslə halallaşıb, vidalaşıb. Nəfəsi bildiyi Gülsümünə «Həmişə başını dik tut, məğrur dur. Çünki sən hərbçi xanımısan. Sevgini mənə halal elə. Səni heç bir zaman unutmayacam. Şəhid olsam da ruhum səni unutmayacaq. Çünki mən səni ruhumla sevirəm. Hər zaman sənin yanında olacam.» sözlərini deyib və əbədi vidasını edib.

18 oktyabrda döyüşlərin ən çətin məqamında İbrahim Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərə qatılıb. Günbəgün irəliləyən yenilməz ordunun mərd əsgərləri sırasında öndə gedən İbrahim daha sonra Füzuli, Zəngilan, Xocavənd uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşub. 30 oktyabrda Gülsümə zəng edib, həmin torpaqların gözəlliyindən danışıb. «Bu gün mənə və əsgər yoldaşlarıma çoxlu dua edin. Bu gün şəhid olmasaq daha yaşayacağıq.» deyib. Gülsümünü Allaha əmanət edib. Həmin danışıqdan yarım saat sonra Xocavənddə bir yüksəklikdə şəhid olan yoldaşlarının nəşini götürmək üçün bir əməliyyat başlayıb. İbrahim hamıdan öndə gedib. Həmin zaman yanına mərmi düşüb. Cismi yaralanan İbrahimin son sözləri «Ay Allah, mən yaralandım?» sualı olub. Hər zaman deyirlər «Şəhidlər acı duymadan şəhadətə qovuşurlar.» Bu onun bir bariz nümunəsidir.





Oktyabrın 31-də İbrahimin şəhid xəbərini eşidən doğmalarının ürəyini bu acı gerçək dağlayır. Bacı üçün tək qardaşını itirmək olduqca ağır olur. Axı İbrahim bacısının dayağı, dəstəyi idi. Gülsümün o anda ağlına İbrahim döyüşə getdiyi anda gördüyü yuxu gəlir. O zaman Gülsüm Allahdan yuxusunun çin olmamağını istəmişdi. Ancaq o yuxu hər anı ilə gerçəyə döndü. Gələn hərbiçilər, İbrahimin şəkili və bayraq. «İlahi, bu gerçəkdi, yoxsa yenə yuxu görürəm?» deyən Gülsüm bu gerçəyə tab edə bilmir. İki gün ancaq iynə gücünə ayaqda qalan Gülsüm noyabrın 2-də İbrahimin bayraqlı tabutuna qovuşur. İllərlə həsrət çəkdiyini düşünən Gülsüm əsil həsrətin yarının tabutunu çiyinlərində aparanda başladığını anlayır. Bütün naxçıvanlılar bu nakam ömrə, nakam sevgiyə ağlayır. Sevdiyinin üstünə ilk torpağı atmağa əli gəlməyən Gülsüm sevdiyinin məzarına ilk gülləri düzür. Bu mənzərə ürəkləri yandırıb kül edir. Elə Gülsümün yanan ürəyi kimi. 2 noyabr İbrahimin cansız cismi Naxçıvan şəhər məzarlığında torpağa tapşırılır.

- Bu xalq qanları ilə tarix yazan qəhrəmanları unutmayacaq. İbrahim də xalqın qəhrəman oğlu olaraq hər zaman xatırlanacaq. O, mənim qəlbimdə əbədi olaraq qəhrəmanım kimi yaşayacaq. Mən İbrahimin nəfəsini, varlığını hiss edirəm. Əbəs yerə demirlər ki, «Şəhidlər ölməz».

Bu sözləri bir şəhidin xanımı deyir. Biz bu məğrurluqdan güc alırıq. Acısı boyunu aşan insanların məğrur duruşu hər birimizə güc verir.

Çavuş İbrahimov İbrahim Etibar oğlu şəhadətindən sonra Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə göstərdiyi şücaətlərə görə «Vətən Uğrunda», «İgidliyə görə», «Xocavəndin azad olunmasına görə» və «Füzulinin azad olunmasına görə» medalları ilə təltif edilib.

İbrahim o şəhidlərdəndi ki, onun cansız cismi ana nəvazişi ilə oxşanmadı. Çünki onu dünyaya gətirən Səkinə ana İbrahimdən iki il öncə dünyasını dəyişmişdi. Anasının həsrətini tez-tez dilə gətirən oğul çox keç-

mədən əbədiyyətə köçdü. Bir - birinə düşkün olan ana və övlad indi daha gözəl bir dünyanın sakinləridirlər.

## ŞƏHİD

Ömrünü vətənə calayan, şəhid,
Ömrünə cənnətdə ilmə toxunur.
Bu gün olmadığın fani dünyada,
Adına hədiyyə "Quran" oxunur.

Bilirəm cənnətin ən gözəl yerin,
Tanrı layiq bilir şəhid olana.
Torpaq şəhidini bağrına basır,
Olur övladına əbədi ana.

Neçə ürəklərin qəmli nəğməsi,
Qəmli nəğmələrin son nidasısan...
Ürəyi dərdinə qərq olanların,
Dilinin əzbəri, tək duasısan.

Səni unutdurmaz qərinələr də,
Laylası əbədi oxunan, şəhid.
Bir məzar daşında gülüşü donan,
Baxışı ürəyə toxunan, şəhid.







**MƏMMƏDOV SAHİB**
**YAŞAR OĞLU**
**ÇAVUŞ (MAHHXHQ)**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## MÜQƏDDƏS EŞQİN SAHİBİ

Ömrünü vətən uğrunda fəda edən şəhidlərin baxışları şəkillərdə donub qalsa da ürəklərin onlara olan sevgiləri günbəgün böyüyər. O atalar övladlarının gözlərində heç zaman qocalmaz. Onlar şəkildəki məğrur baxışları ilə övladlarına güclü olmağı öyrədərlər. Əlləri olmaz övlada sığal çəkməyə, dilləri olmaz övladı əzizləməyə ancaq övlad o şəkildəki baxışdan bütün sevgini alar. Qız uşaqlarının isə ata sevgisi fərqli və dərin olduğu kimi ata həsrəti də qəlblərini büsbütün zəbt edərcəsinə böyükdür. Ayla, Məryəm və Rübabə ata sevgisi ilə qanadlandıqları zamanda atasızlığa tuş gəldilər. Qızlarına «Cənnətim» deyən Sahib şəhid olub cənnət sakini oldu. Ancaq cənnəti bildiyi qızlarını həsrəti ilə baş-başa buraxdı. 3 qız övladı ilə Sahibin həsrətini çəkən isə Gülnar xanım oldu. Sahibsizliyi xəyallarına belə yanaşdırmayan Gülnar bir anda Sahibin yoxluğuna tuş gəldi. Bu yoxluq onu xoşbəxtlikdən qoparsa da o yaşamdan qopmadı. Çünki Sahibin 3 əmanətinə sahib çıxmalı olduğunu yaxşı bilir.

Məmmədov Sahib Yaşar oğlu Vətən müharibəsi qəhrəmanlarından biridir. Sahib 13 noyabr 1989-cu ildə Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Yaycı kəndində anadan olmuşdu. Ailədə 2 bacı 2 qardaş

olmuşdular. 1996-cı ildə Yaycı kəndində 1 N - li tam orta məktəbdə təhsil almağa başlamışdı. Sahib həm də idmanın cüdo növü ilə məşğul olmuşdu. 2007-ci ildə həmin məktəbin məzunu olmuşdu. Elə həmin il hərbi xidmətə yollanmış, Naxçıvan Muxtar Respublikasında xidmət etmişdi. Xidmətini başa vurduqdan sonra 2 il Türkiyədə yaşamışdı. 2010-cu ildə bənzərsiz bir sevgi ilə sevdiyi Gülnar xanımla ailə qurmuşdu. İlk övladı dünyaya gəldikdən sonra 2011-ci ildə bir hərbçi kimi ordu sıralarına qoşulmuşdu. Təyinatla Quba rayonunda N saylı hərbi hissədə xidmətə başlayan Sahib illərlə Qubada xidmət etmişdi. Hərbçinin xanımı Gülnar xanım hərbçi yarını heç zaman tək buraxmamışdı. Sahibin şəhid olduğu vaxta qədər onunla bərabər Qubada yaşamışdı.

Sahib bir aylıq təlimdən sonra son dəfə sentyabrın 19-da iki günlük ailəsinin yanına gəlir. Həmin zaman xanımına «Sən uşaqların həm atasısan həm də anası. Onlardan muğayət ol,mənim sənə əmanətlərimdi.» deyir. Əslində o görüşün bir vida görüşü olduğunu Gülnar xanım müharibənin başladığını öyrəndiyi an başa düşür. Səhəri «Telefonu söndürürəm məndən nigaran olma.» mesajı ilə açan anda Gülnar xanımın ürəyindəki nigarançılıq toxumu cücərir. O toxum illərdi Gülnar xanımın ürəyində dikilmişdi... Sonrasında ara-sıra Sahiblə danışmaq şansı olan Gülnar xanım son dəfə 17 oktyabrda danışır. Sahib Gülnara «Mən ölsəm o dünyada mənə desələr yaşadığın dünyada nə etdin? Deyəcəm sevdim. Gülnar kimi bir mələyi sevdim.» sözlərini deyir. Oktyabrın 19-da Gülnar xanım Sahibin hərbçi yoldaşlarının xanımlarından Sahib və döyüş yoldaşlarının şəhid və yaralı olduqları xəbərini alır. Günlərlə Sahibdən bir xəbər ala bilməyən Gülnar xanım oktyabrın 23-də gələn zənglə Sevdiyinin şəhid olduğuna əmin olur. 3 körpəsi və 12 şəhid nəşi ilə bərabər Bakıdan Naxçıvana gedən Gülnar xanım həmin gün həyatının ən ağır gününü yaşayır. 23 gün qəhrəmancasına vuruşub oktyabrın 19-da Füzulinin Cəmilli kəndində şəhid olan Sahib oktyabrın 24-də Culfa rayonunun Yaycı kənd məzarlığında torpağa tapşırılır.

Çiçək ananın yar dərdi ilə yaralanan ürəyinə illər öncə 23 yaşlı oğul itkisi dağ çəkdi. Onun yeganə təsəllisi Sahib idi. Sahibin də əbədi gedişi ilə Çiçək ananın oğul adlı ümidləri talandı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə hələ xidmət etdiyi dövrdə «Qüsursuz xidmətə görə» 3-cü dərəcəli medalı ilə təltif edilən çavuş Məmmədov Sahib Yaşar oğlu şəhadətindən sonra da





«Vətən uğrunda» medalı və «Cəbrayılın azad olunmasına görə» medalı ilə təltif edilib.

«Bu məktubu oxuyanda bəlkə yanında ,bəlkə də səndən çox uzaqlarda olacam.Amma harda oluramsa olum bir şey dəyişməz. Səni öz canımdan çox sevirəm. Sən mənim hər şeyimsən. Səni dünyalar qədər sevirəm. Mənim şirin qızım. İnan səndən bir saniyə də ayrı qalmaq isdəmirəm. Əlimdə deyil, olsa nə isə... Həyatım, sənə elə çox söz demək isdəyirəm ki. Həyatım, aşkım,tatlım bu kəlmələri deyərkən çox sevinirəm və sənin də gözlərindəki o işıq saçan parlaqlıqlar mənə həyat verir. İndi sən 5 ayındasan. İn şə Allah…»

Sahib görəsən bu məktubun ardında hansı sözləri yazmaq istəmişdi? Məktubu da ömrü kimi yarımçıq qalan, şəhid.

## ŞƏHİD SAHİB

Vətənə həsr etdin sən öz ömrünün,
10 bahar fəslini, 10 qış fəslini,
Bir payız illərdi donan torpağa,
Sən fəda elədin son nəfəsini.

Savaşdın, düşməni lərzəyə saldın,
Dönmədin haqq adlı savaş yolundan.
Bilirdin çıxdığın şərəfli yolun,
Şəhadət zirvəsi durub sonunda.

İllərdi Qarabağ can üstə idi,
Can verib torpağı cana gətirdin.
Ucaldıb üç rəngli şanlı bayrağı,
Sahib, sən xalqımı kama yetirdin.

Adınla qəlblərdə məşəl yandırdın,
İsinir sevginlə neçə ürəklər.
Bu xalq şəhidini torpağa deyil,
Əbədi olaraq qəlbə dəfn edər.



**QURBANOV XANSU ELSEVƏR OĞLU ÇAVUŞ (MAHHXHQ) (II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## DÜŞMƏNİN QORXULU YUXUSU XANSU

Bəzi insanlar vətəni elə sevirlər ki, onların ürəklərində başqa sevgiyə yer olmur. Tək sevdalandıqları vətən olur. Elə müqəddəs, bənzərsiz sevgilər hər ürəyin daşıya biləcəyi sevgi olmur. Hər sözü vətənlə bağlı olan o insanların duyğularının nuru gözlərindən oxunur. 20 yaşlı bir gəncin qəlbində kök salan vətən sevgisinin bəhrəsini bütün Azərbaycan xalqı dərdi.

Həyat yolları heç də hamar olmamışdı Xansu Qurbanovun. 2000-ci il sentyabrın 23-də Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Cəhri kəndində dünyaya gəlmişdi. İki bacısının və anasının güvəni idi. Uşaqlıqdan anasının nə qədər zəhmət çəkdiyinə şahid olmuşdu. Böyüyüb anasını ağ günə çıxarmaq arzusu idi. 2006-cı ildə Naxçıvan şəhər 15 N - li tam orta məktəbdə I sinfə getmişdi. Böyüdükcə anasının ailə qayğılarında ona dəstək olmaq üçün bəlli yaşdan sonra məktəbdən sonra fərdi işlərlə məşğul olmuşdu. Məktəbi bitirdikdən sonra hərbi xidmətə erkən getmək üçün hərbi komissarlığa müraciət etmiş, lakin hələ 17 yaşı olduğu üçün onun xidmətə getməsinin mümkünsüz olduğu cavabını almışdı. Xansu həmin vaxt aldığı cavabdan məyus olmuşdu. Onun bu məyusluğu polkovnikin nəzərindən yayınmamışdı. Bir qədər Xansu ilə söhbət edən





polkovnik onun dediyi sözlərdən sonra «Nə qədər bu vətənin sənin kimi qeyrətli oğulları var bu vətən basılmaz.» demişdi. 18 yaşı tamam olan kimi Qurbanov Xansu həqiqi hərbi xidmətə yollanmışdı. Əvvəlcə Culfa rayonunda yerləşən N saylı hərbi hissədə, sonra isə Ordubadda düşmənlə üzbəüz olan Qabıcı dağında xidmət etmişdi. Xidmətini başa vurduqdan sonra könüllü olaraq MAHHXHQ kimi ordu sıralarında xidmətini davam etdirmişdi. Xüsusi Təyinatlı Qüvvələrin kəşfiyyatçısı olan Xansu eyni zamanda tankın idarə edilməsini də öyrənmişdi. Tovuz döyüşlərindən sonra isə bir snayperçinin bilməli olduqlarını öyrənmişdi. Bu qorxmaz gəncin tək bir amalı var idi. Qarabağı azad etmək.

Son dəfə evlərinə gəldiyində dediyi sözlərlə əslində çıxacağı yolu tuş etmişdi. Ancaq heç kim o zaman bu sözlərin nə demək olduğunu dərk etmək istəməmişdi. Əslində Xansunun dediyi «Mən bu işğalla barışa bilmirəm. Artıq tam zamanıdır. Bizim güclü ordumuz var. Biz Qarabağı alacağıq. Mən Mübariz İbrahimov kimi qəhrəman olacam. Mən adımı Mübarizin adının yanına yazdıracam.» sözləri onun necə böyük ürəyə və gücə sahib olduğuna işarə idi. O, hər zaman anasına məğrur durmağı, nə olur olsun «Təki vətən sağ olsun.» deməyi tapşırıb. Xansu kimi oğulların sayəsində vətən sağ oldu.

Vətənin haqq mübarizəsində vətəni müdafiə etmək üçün Naxçıvandan Qarabağa yollanan ilk dəstənin içində Xansu da yer alıb. Hər zaman öndə gedən hərbçilərdən biri kimi ən uğurlu əməliyyatlarda iştirak edib. Füzuli, Hadrut, Suqovuşan, Cəbrayıl, Qırmızı bazar, Xocavənd, Tuğ kəndi və Şuşa uğrunda sonuna qədər mübarizə aparıb. Döyüş vaxtı dəstəsi ilə birlikdə mühasirəyə düşüb. «Mən oturub ölümümü gözləyə bilmərəm.» deyib və hücuma keçib. Mühasirəni yarıb həm döyüş yoldaşlarını, həm də öz canını xilas edib. Xansunun döyüş vaxtı göstərdiyi şücaətlərdən hətta bir kitab yazmaq olar. Mən onun etdiyi qəhrəmanlıqların bəzilərini yazıram. Xansu Tuğ kəndi uğrunda gedən döyüşlərdə də böyük qəhrəmanlıq göstərib. Ermənilərə divan tutan qəhrəman düşmənin iki tankını eyni anda partladıb. Bir anda tankların üzərinə qaçaraq an fərqi ilə iki qranatı çəkib tankların içinə atıb. Həmin iki tank o anda partlayıb. Əslində bu qəhrəmanlıqdan yazdıqca 20 yaşlı bir gəncin necə bu qədər qorxmaz və qəhrəman ola bildiyini özüm özümə sual verdim. Şuşanın azad olunmasında bi-

lavasitə rolu olub. «Əlbəyaxa döyüş» kimi tarixə düşən həmin döyüşlərdə Xansu düşmənin neçə-neçə canlı qüvvəsini məhv edib. Onun göstərdiyi şücaətlərdən bu gün komandirləri və döyüş yoldaşları qürurla danışırlar.

«Bacısı Xansudan xarıbülbül gətirməsini xahiş etmişdi. Ancaq Xansu özü xarıbülbül kimi azadlığın simvoluna çevrildi.» Bu sözləri şəhidimizin anası Yemen ana dilə gətirdi. Xansunun qazanılan zəfərdə necə əzmkarlıqla sona qədər mübarizə apardığını Yemen ana qürurla danışdı. Məğrur şəhid anası elə o qəhrəmanlığın aynaya düşən əksi kimi görünür.

Şuşa işğaldan azad olandan sonra bir gün Şuşanın giriş qapısına nəzarəti öz öhtəliyinə götürənlərdən biri də Xansu olub. Bütün ərazilərin azadlıq sevincini yaşayan Xansu qələbəyə iki saat qalmış şəhadətə ucalıb.

Mübariz yolunun mübariz davamçısı olan Xansu 13 noyabr 2020-ci ildə Naxçıvan şəhər məzarlığında torpağa tapşırılıb.

Çavuş Qurbanov Xansu Elsevər oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, «Füzulinin azad olunmasına görə» medalı, «Xocavəndin azad olunmasına görə» medalı və «Şuşanın azad olunmasına görə» medalı ilə təltif edilib.





## ŞƏHİD XANSU

Ərənlər oylağından,
Bir igid gəldi keçdi.
Şəhadət zirvəsini,
Əbədi məskən seçdi.

Şuşanın sərin mehi,
Sığal çəkdi telinə.
Sonuncu nəfəsində,
«Vətən» gəldi dilinə.

Eşqi qönçələnmədən,
Ömrü kimi üzüldü.
Ardınca göz yaşları,
Yanaqlara düzüldü.

Torpağa qurban oldu,
Vətənimin balası.
Xansunu soraqladı,
Yerdə, göydə anası.

Buludlar ağlayanda,
Ana açdı qucağın.
Bəlkə bir ümid düşə,
Aydınlada ocağın.

Şəhidimin anası,
Yuxuda bala gözlə.
Fani həyat içində,
Balanı an xoş sözlə.



**GÖZƏLOV RÜFƏT ƏZİM OĞLU**
**ÇAVUŞ (MAHHXHQ)**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## VƏTƏNƏ SEVDALI OĞUL

«Qarabağı azad edənə qədər mən hərbçi olacam.» dedin,sözünü də tutdun. Qarabağ azad olunana qədər hərbçi oldun. Elə Qarabağı azad edən hərbçilərdən də biri oldun. O azadlıq sevincini yaşadın. Həyatda ən böyük sevincdir azadlıq sevinci. Hər zaman xəyalında canlandırdın, arzularında yer aldı Qarabağın azadlığı. Vətəni nə gözəl sevdin, şəhidim. Eşqinə aşiq olmamaq mümkün deyil, vətən sevdalısı Rüfət Gözəlov.

Gözəlov Rüfət Əzim oğlu 17 mart 1996-cı ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Dəmirçi kəndində anadan olmuşdu. 2002-ci il Dəmirçi kənd tam orta məktəbində I sinfə daxil olmuşdu. 2013 - cü ildə məktəbi bitirmişdi. İdmana böyük marağı olan Rüfət idmanın güləş növü ilə məşğul olmuşdu.

Vətənə ülvi məhəbbətlə bağlı idi Rüfət. Hərbi xidmətə gedəcəyi günü səbirsizliklə gözləyirdi. Nəhayət ki, həmin gün çatdı. 14 aprel 2014-cü il Rüfət üçün unudulmaz gün idi. Çünki «kişilik məktəbinə» qədəm qoyurdu. Vətən qeyrətini çəkməyə tələsən oğul Naxçıvan Muxtar Respublikasının Vayxır qəsəbəsində yerləşən N saylı hərbi hissədə xidmət edib. Rüfət dəqiq və sərrast nişançı olduğu üçün snayperçi kimi xidmət göstərib. Hədəfi gözündən vuran nişançı xidməti dövründə komandirlərinin və döyüş yoldaşlarının etibar və etimadını qazanıb. 2016-cı il sentyabrın 26-da xidmətini başa vurub ordudan təxris olunub. Bir müddət Türkiyənin İstanbul şəhərində yaşayan Rüfət vətən həsrətinə tab etməyib vətənə dönüb. Vətənə döndükdən sonra yenidən ordu sıralarına qoşulmağı qərara alan Gözəlov MAHHXHQ kimi xidmətə başlayıb. Daha sonra Xüsusi Təyinatlı Qüvvələrin hərbçisi kimi fəaliyyət göstərib. İşini layiqincə yerinə yetirən hərbçi xidməti zamanı 3 medal ilə təltif edilib.





Rüfətin vətən daşı olmaq arzusu böyük idi. Ancaq o arzuya uzanan yolun Qarabağdan, Şuşa dağlarından keçməsini arzu edirdi. Elə arzuladığı kimi də oldu. 30 il sükuta qərq olan Qarabağ bir anda igid oğulların ayaq səsləri ilə canlandı. O oğullar sırasında yer alan Rüfət qəlbi ilə sevdiyi torpaqları gözləri ilə seyr etdi. Azad olunan hər addım torpağa qəlbindəki sevgisinin toxumlarını əkdi. Cəbrayıl, Hadrut, Xocavənd, Tuğ kəndi və daha 39 kəndi azad edənlərdən biri oldu. Bu azadlıq Rüfət üçün arzularının real olması demək idi. Onun ən böyük arzusu isə Şuşanı azad görmək idi. Azad olunan hər qarış torpaq onu arzusuna bir qədər də yaxınlaşdırırdı. Rüfət 11 oktyabrdan 27 oktyabra qədər vətən uğrunda mübarizə, azadlıq uğrunda mücadilə etdi. Oktyabrın 27-də sevgisi uğrunda qəhrəmancasına şəhid oldu. Şuşa uğrunda döyüşmək arzusunda olan qəhrəman Qırmızı Bazar istiqamətində gedən döyüşlər zamanı şəhadət zirvəsinə ucaldı. Tarix yazan qəhrəmanın adı tarixin səhifəsinə silinməyən iz saldı.

Müharibə başlayan ilk gündən hər zaman vətənə oğul qurban edən Naxçıvan yenə bir vətən qurbanı oğlunu köksünə sıxdı. Sinəsi daş məzarlardan daşlaşan bu torpaq oktyabrın 30-da Rüfətə də məzar oldu. Şərur rayonunda yerləşən Şəhidlər Xiyabanında dəfn olunan qəhrəmanın dediyi «Şəhid olsam qisasımı almağa ehtiyac yoxdur. Özüm öz qisasımı artıqlamasıyla almışam.» sözləri Rüfətin döyüşlər zamanı düşmənə hansı zərbələri vurduğunu agah edir.

Vətən üçün yaşayan, vətən üçün ucalan çavuş Gözəlov Fərid Əzim oğlu Prezident İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, «Xocavəndin azad olunmasına» görə medalı və «Hərbi xidmətlərə görə» medalı ilə təltif olunub.

Rüfət bir daha sübut etdi ki, şəhidlər şəhadətlərindən xəbərdar olur.

Müharibə başlamazdan cəmi 2 ay öncə Rüfət anasını qucaqlayıb «Ana mən şəhid olacam. Bunu yuxuda görmüşəm. Nə olar çox ağlama.» deyib. Bu sözləri eşidən Ruhəngiz ana ürəyi köksündən sökülə-sökülə «Ay Rüfət bu nə sözdü, mən sənsizliyə necə dözərəm? Qardaşın, bacın sənsizliyin acısın çəkə bilməzlər.» deyib. Rüfət gördüyü yuxunu həyatda həm özü yaşadı, həm də sevdiklərinə yaşatdı.

**ŞƏHİD RÜFƏT**

Aylar bir - birinə calanıb keçər,
Doğulan hər insan həyatdan köçər.
Qəlbi vətən boyda olan insanlar,
Şəhid tək can verib cənnəti seçər.

Özü öz qisasın alan oğullar,
Düşməni hər zaman qəlbindən vurar.
Rüfət tək qorxusuz igid oğulun,
Adı qəhrəmanlıq zirvəsi olar.

«Qarabağ həsrəti bitənə kimi,
Əsgəri olacam ana vətənin.»-
Sözlərin eşqinin bir sübutudur,
Vətən igidi tək tanıdıq səni.

Ürəyin elə bil dənizdi, çaydı,
Şəhidlər vətənə müjdədi, paydı.
Döyüş zamanında çəkdiyin nərə,
Bir xalqın səsidi, sanki haraydı.







**ƏHMƏDOV MƏRHƏMƏT ADİL OĞLU ÇAVUŞ (MAHHXHQ) (II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

**ARZULARIN QURBAN EDİLDİYİ BİR ARZU**

Azərbaycan o ölkələrdəndir ki, ötən hər əsrə neçə - neçə faciə adı həkk olunub. Tariximizi vərəqlədikcə bu qədim xalqın vətən dərdinin nə qədər dərin olduğuna şahid oluruq. Düşmən hiyləsinə, işğalına məruz qalan vətəni düşməndən müdafiə edən qəhrəman oğullar sayəsində nəinki torpaqlarımız işğaldan azad edildi, illərin qisası da düşməndən alındı. Mərhəmət düşməndən qisas alan və azadlıq uğrunda canından keçən şəhidlərimizdəndir. Mərhəməti cahan boyda idi. Ancaq mərhəmətsiz düşmənə qarşı mərhəmətli davranmaq lazım deyildi. Çünki illərdi mərhəmətli davranmışdıq və qarşılığında hər cür acı ilə sınanmışdıq. Artıq acıların son nöqtəsi qoyulacaqdı. Ömürlərə son nöqtə qoyulmaq bahasına olsa da vətən adlı dərd nöqtələnməliydi. Bütün oğulların tək düşüncəsi bu idi.

Əhmədov Mərhəmət Adil oğlu 1991-ci il mayın 14 - də Şərur rayonunun Oğuz kəndində anadan olmuşdur. Ailədə 4 övlad (3 oğlan, 1 qız) olmuşdular. Adil Əhmədov və Xatirə Əhmədova övladlarını min bir zəhmətlə böyüdüb boya-başa çatdırmışdılar. Mərhəmət 1997-ci ildə Şərur rayon Aşağı Daşarx kənd tam orta məktəbində təhsil almağa başlamış,

2008-ci ildə məktəbi bitirmişdi.

Mərhəmət vətən keşiyində duracağı günü səbirsizliklə gözləyib və müddətli hərbi xidmətə həvəslə getmişdi. 10 iyul 2009-cu ildən 1 yanvar 2011-ci ilə qədər hərbi xidmətdə olmuşdu. Xidmətini bitirdikdən sonra bir müddət fərdi işlərlə məşğul olmuşdu.

Mərhəmətin qəlbində 5 illik sevdası taxt qurmuşdu. 2013-cü il oktyabrın 23-də sevdiyi Çinarə xanımla ailə həyatı qurmuşdu. İki dəfə oğul atası olmağın sevincini yaşamışdı. Onun böyük arzuları var idi. İstəyirdi 7 yaşlı İbrahimi və 5 yaşlı Bünyamini elə böyütsün ki, onlar sevgidən, nəvazişdən məhrum olmasınlar. Bir atanın övladlarına verə biləcəyi ən böyük sərvət ata qayğısı, ata sevgisidir. Mərhəmət bir müddət ehtiyac səbəbindən Türkiyənin İstanbul şəhərində işləsə də 2015-ci ildə birdəfəlik vətənə dönmüşdü. Könüllü olaraq 3 ay Xüsusi Təyinatlı Qüvvələrin kəşfiyyat kursunu keçdikdən sonra Qıvraq qəsəbəsində yerləşən N saylı hərbi hissədə xidmətə başlamışdı.

Minlərlə qəhrəman Azərbaycan oğullarından biridir Mərhəmət. Bütün arzularını azadlıq arzusuna qurban verən Mərhəmət son dəfə oktyabrın 9-da ailəsi ilə görüşüb. Evdən ayrıldığı zaman bu gedişin son gediş olduğu bir anda Çinarə xanıma ayan olub. Sevdiyinin ardınca səslənmək istəyib onu yolundan saxlamaq istəsə də susub...

Elə həmin gün ürəyində nigaranlığı başlayan Çinarə xanımı Mərhəmət hər dəfə zəng etdiyində təlimə getdiklərinə inandırmaq istəsə də Çinarə xanım buna inanmayıb. Çinarə xanımın xalası oğlu Həsənov Nihatla bərabər döyüşə qatılan Mərhəmət döyüşdə olduğunu gizlətməyə çalışsa da Nihatın ailəsi onların döyüşdə olduğunu aşkar edib. Mərhəmətin qardaşı da hərbçi olduğu üçün döyüş meydanında baş verənləri ailə duyub, eşidib. Oktyabrın 11 - də döyüş yolu Hadrutdan başlayan Mərhəmət bir çox döyüşlərdə iştirak edib. Xocavəndin bir çox ərazilərini azad etdikdən sonra Daşaltıda vuruşub. Çox önəmli yüksəkliyi düşməndən azad etdikdən sonra düşmənin kor qurşununa tuş gəlib. Ən öndə olduğu üçün ilk vurulan Mərhəmət olub. Yaralı qaldığı müddətdə döyüş yoldaşlarından şirniyyat istəyib. Ancaq çətin şəraitdə olan hərbçilər şəhidin son arzusunu yerinə yetirə bilməyiblər. Mərhəmət 13 saat yaralı qalıb. Onun yaralandığı əraziyə güllə və mərmi yağış kimi yağdığından ona kömək etmək





mümkün olmayıb. 13 saatın sonunda oktyabrın 25-də daxili qanaxmadan şəhadətə ucalıb.

Son dəfə oktyabrın 23-də ailəsi ilə danışan Mərhəmətdən ailəsi xəbər ala bilməyib. Oktyabrın 28-də ailəyə gələn naməlum zənglərdən artıq nigarançılıq daha da artıb. Kənd camaatı Mərhəmətin cənazəsini qarşılamağa hazırlaşsalar da ailə bundan xəbərsiz olub. Çinarə xanım gecə Türkiyədə yaşayan bir tanışının statusunda Mərhəmətin şəklini və yazılan başsağlığını görüb. Bir insan üçün ən böyük çarəsizlik...

Mərhəmət 3 gün 3 gecə oğlanlarına kiçik toy etmək arzusunda idi. Ancaq o arzuların tam əksi oldu. İbrahim və Bünyamin qəhrəman atalarını qarşıladılar. Körpə olsalar da atalarının hansı məqama ucaldığından xəbərdar idilər. Körpə ürəklərinin həsrəti gözlərindən oxundu. O körpələr həmin günü heç zaman unutmayacaqlar. Çünki onlar həmin gün böyüdülər.

Oktyabrın 30-da Naxçıvan Muxtar Respublikasına gətirilən şəhidin nəşi elə həmin gün Şərur rayon Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Cismi bu dünyadan ayrılan şəhidin ruhu vətəndə, adı dillərdə dolaşır. Ömrünü layiqli yaşayıb, şəhid adına layiq görülən çavuş Əhmədov Mərhəmət Adil oğlu Prezident İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda»medalı, "Vətən müharibəsi iştirakçısı" medalı "Xocavəndin azad olunmasına görə" medalı və «Şuşanın azad olunmasına görə» medalına layiq görülüb.

## ŞƏHİD MƏRHƏMƏT

Mən gülmədim zəfər anı güldüyüm tək,
O zəfərin duyğusuyla sevindi köksümdə ürək,
Dedim vətən torpağının hər qarışın azad edək,
Ömrüm vəfa etmədi ki, döyüş yollarım uzansın
Mənim döyüş yoldaşlarım ruhumu onlarla sansın.

Xocavəndin kəndlərində düşmənləri saldıq pərən,
Vətənin hər qarışına çox oldu canını verən,
Şəhidliyə hazır olar vətənin qədrini bilən,
Son nəfəsi verdiyi an şəhid olar azadlığa
Ömrü bitər şəhid kimi qurban olar bu torpağa.

Mən illərlə bu günləri Allahımdan etdim niyyət,
Allah mənə nəsib etdi bənzərsiz olan şəhadət,
Sizlər yazın qəlbinizə adımı şəhid Mərhəmət,
Mən yaşaram qəlbinizdə nə qədər anılsa adım
Sanmayın ki, bu dünyada nakam bir ömür yaşadım.

İki oğul övladımdır vətənimə əmanətim,
Vətənə layiq olsunlar budur tək arzu, niyyətim,
Onları böyüyən görmək olmadı mənim qismətim,
Şəhid övladı olmaqmış onların alın yazısı
Atalı böyümək olur körpələrin tək arzusu.





## İBRAHİMOV RUZİ ƏLİAĞA OĞLU ÇAVUŞ (MAHHXHQ)

**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**



### «MÜHARİBƏ ÖVLADLARIMIZA MİRAS QALMAYACAQ!»

Bayrağı mənliyi, kimliyi bilən oğullar o bayrağı Qarabağda dalğalandırmaq arzusunun atəşində yanırdılar. Artıq nə səbr qalmışdı, nə vətən həsrətinə dözüm. Hər şeyin bir sonu var. Bu səbrin də daşacağını yaxşı bilirdik. Axı cahan boyda bayraqlı tabutların ardınca baxıb nə qədər qisas andı içmək olardı? Bu günün ataları sabahın şəhid ataları olmamaq üçün bu müharibəyə bir son verməli idilər. Ya övladları Şəhid övladı olmalı idi ya da özləri Şəhid atası. Ruzi də birincini seçdi. Mərdana, Uğura Qarabağ adlı bir savaşı «miras» qoymadı.

Aygül xanım Ruzinin yoxluğundan danışdıqca hər cümləsinin nöqtəsi göz yaşı oldu. O qədər çətindir ki, şəhid doğmalarından şəhid həyatını soruşmaq. Hər anı özəl olan şəhid ömrünü izah etmək bir şəhid xanımı üçün də çox çətindi. Ancaq Ruzinin dediyi kimi «Aygül xanım, siz güclüsünüz.»

Şəhid xanımı adını qürurla daşıyan xanımı Ruzinin həyatının ilk günündən bu gününə kimi mənə nəql etdi.

İbrahimov Ruzi Əliağa oğlu 23 fevral 1983-cü ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Yengicə kəndində anadan olmuşdu.

1989 - cu ildə Yengicə kənd tam orta məktəbində təhsil almağa başlamışdı. O, 10 yaşında olarkən atasını itirmişdi. Səmayə ana 4 övladını tək başına min bir zəhmətlə böyüdüb boya-başa çatdırmışdı. Körpəlikdən atasızlığın ağır yükünü çiyinlərinə yığan Ruzi hər zaman anasına dəstək olmuşdu.

2000-ci ildə hərbi xidmətə yollanmış, xidmətini Culfa rayonunda yerləşən N saylı hərbi hissədə keçmişdi. Xidmətini başa vurduqdan sonra Türkiyəyə getmiş orada yaşamağa başlamışdı. Elə sevgi dolu Ruzi və Aygül ailəsinin təməli də orada atılmışdı. 2007-ci ildə ailə quran ikili bir il sonra ilk övlad sevincini yaşamışdılar. Gülayın gəlişi atasını həddindən ziyadə sevindirmişdi.2010-cu ildə isə ailənin ikinci övladı Mərdan dünyaya gəlmişdi. Bu dəfə Ruzi oğul atası olmağın qürurunu yaşamışdı. Uşaqlar böyüdükcə Ruzinin vətənə dönmə istəyi daha da artmışdı. Hələ Türkiyədə yaşadığı müddətdə bir neçə dəfə Naxçıvana gəlib ordu sıralarına qoşulmaq üçün müraciət etsə də o zaman arzusuna çata bilməmişdi. Qismət 2014-cü ilə imiş. Uşaqlar məktəbli yaşına çatanda Ruzi və xanımı birmənalı olaraq övladlarının ana vətəndə təhsil almaqlarını istəmiş və vətənə dönmüşdülər. Elə həmin ilin noyabrında Ruzi üç aylıq kurs keçdikdən sonra Xüsusi Təyinatlı Qüvvələrin sırasına qoşulmuşdu. Ruzi hər zaman bir hərbçi kimi özünü doğrultmağı bacarmışdı.

Ruzinin ən uğurlu əməliyyatlarından biri də 2018-ci ildə Əlahiddə Ümumqoşun Ordusunun tərkibində həyata keçirdiyi Günnüt əməliyyatı olmuşdu. Həmin zaman azad olunan torpaqlarda Ruzinin də müstəsna xidmətləri olmuşdu. Əslində həmin döyüş zamanı Ruzi şəhadətin bir addımlığından dönmüşdü. Başının üzərindən keçən güllə döyüş yoldaşına dəymiş və həmin döyüş yoldaşı gözləri önündə şəhid olmuşdu. Bu Ruzini daha da hiddətləndirmiş, döyüş əzmini artırmışdı. Həmin əməliyyat zamanı Ruzi üçüncü övladı Uğurun (Samuray deyərmiş) dünyaya gələcəyi günü sayırmış. Elə ilk dilinə gələn də «Arzum şəhid olmaqdı. Ancaq övladımı görüb sonra şəhid olsam gözüm arxada qalmaz. Yenə də xeyirlisi.» sözləri olmuşdu. O əməliyyat zamanı Ruzinin göstərdiyi şücaətlər diqqətdən kənarda qalmamış, «Azərbaycan Ordusunun 100 illiyi» yubiley medalı və diplomlarla təltif olunmuşdu.

İbrahimov Ruzi 2020 - ci ildə Türkiyənin Sarıkamış bölgəsində təlimə qatılmışdı. Hər zaman olduğu kimi həmin təlimi də uğurla başa vurmuş və təltif olunmuşdu. Ruzi Mübariz İbrahimovun şücaətlərindən bəhs edər, övladlarına o qəhrəmanı örnək göstərərdi. «Mübarizlə eyni soyadı daşıyırıq. Arzum onun kimi şəhid olmaqdır.» Elə o arzusuna da çatdı. Bir zaman Mübariz İbrahimovu övladlarına örnək göstərən Ruzini indi neçə-neçə övladlar örnək alır.





İbrahimov Ruzi Vətən müharibəsi başlanan ilk gündən özünə yer tapa bilmirmiş. Onun yerinin Naxçıvan deyil müharibə zonası olduğunu deyib dəfələrlə komandanlığa müraciət etmişdi. Müraciəti əsasında oktyabrın 11-də könüllü olaraq müharibəyə yollanmışdı. Evdə bu barədə heç kimə heç bir söz deməyən Ruzi həmin gün axşam yoldaşına zəng edib halallaşıb. Aygül xanım Ruzini fikrindən daşındırmağa çalışsa da artıq gec olub.

Döyüşə qatıldığı ilk gündən addım-addım zəfərə doğru irəliləyən Ruzi bir çox döyüşlərdə iştirak edib. Füzuli, Cəbrayıl, Suqovuşan, Zəngilan, Hadrut, Qubadlı və Şuşa uğrunda gedən döyüşlərdə ruhundan gələn mübarizlik duyğusu ilə əsil qəhrəman kimi mübarizə aparıb. Şuşaya çatana qədər dəfələrlə yaralanmasına baxmayaraq bu mübarizədən son nəfəsinə qədər dönməyib. Ruzi əlbəyaxa döyüşdə çox peşəkar olub. Düşmənin xeyli sayda canlı qüvvəsini əlbəyaxa döyüş zamanı məhv edib. Elə Şuşaya gedib çatma səbəbi də əlbəyaxa döyüşdə yenilməməyi olub. O, hər zaman həyat yoldaşına «Mənə dua et başıma mərmi, bomba düşməsin. Əks halda üzü-üzə döyüşdə heç zaman məğlub olmaram.» deyib. Həqiqətən də dediyi kimi də olub. Əlindən, ayağından yara alsa da Şuşada döyüşü davam etdirib. Erməni əsgərlərinin dedikləri «Biz onları vururduq, onlar yıxılmaq əvəzinə üzərimizə gəlirdi. Sanki film səhnəsi idi.» sözləri aid edilən qəhrəmanlardan biri də Ruzi olub. Dəfələrlə yaralanan Ruzi heç bir atəşdən şəhid olmasa da noyabrın 7-dən 8-nə keçən gecə yanına düşən minamyotun qəlpəsinin ürəyinə dəyməsi nəticəsində şəhadətə yüksəlib. Günlərdi Ruzidən xəbər ala bilməyən Aygül xanım həmin anda Ruziyə «Zəng et nə olar. Bir dəfə səsini duyum. 10 gündür bir xəbərini ala bilmirəm.» yazıb. Ancaq Ruzi Aygülün o mesajını heç zaman oxuya bilməyib.

Ruzinin şəkilləri şəhid kimi paylaşılan zaman ailəsi buna inanmayıb. Qardaşı onun şəhid xəbərini Şəhidlər Xiyabanında alıb. Şəhidləri ziyarət edən qardaş bilməzdi ki, öz qardaşının məzarı da onun ziyarətgahına çev-

riləcək. Hər kəs Ruzini morqlarda axtarsa da günlərlə axtarışlar nəticəsiz qalıb. Noyabrın 12 - də Füzulidə morqda tapılan Ruzinin cansız cismi noyabrın 13-də Naxçıvana yola salınan 13 şəhiddən biri olub. Hər zaman ataları ilə qürur duyan üç övlad atalarının gələn yollarına düzülüb, qüruru və kədəri eyni anda yaşayıblar. Aygül Ruzinin son vəsiyyətini yerinə yetirib. O, Ruzinin dediyi «Aygül, şəhid olsam məni çiyinlərində daşıyarsan.» sözlərini ürəyində təkrarlaya-təkrarlaya cahandan ağır yükü çiyinlərində daşıyıb. Şərur rayon Şəhidlər Xiyabanında Ruzinin də müqəddəs məqbərəsi yer alıb.

İllər öncə 4 övladının əlindən tutub yarının məzarını ziyarətə gedən Səmayə ana illər sonra 3 nəvəsinin əlindən tutub oğlunun məzarını ziyarətə gedir. Hər dəfə də oğluna hesabat verir. İndi Ruzinin övladları atalarının yaşadıqlarını təkrar yaşayır. 10 yaşından atasızlığa məhkum olan Ruzinin 10 yaşlı Mərdanının «Nənə, kaş ki, bir tufan gələ hamımız ölək.» sözləri onun üçün atasızlığın nə qədər çətin olduğunun izahıdır. Axı o atası kimi atasız böyümək istəmirdi...

Çavuş İbrahimov Ruzi Əliağa oğlu Vətən müharibəsi zamanı misilsiz xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, «Şuşanın azad olunmasına görə» medalı, "Xocavəndin azad olunmasına görə" medalı və «Azərbaycan bayrağı» ordeni ilə təltif edilmişdi.





## ŞƏHİD RUZİ

Vətən savaşını sona çatırdın,
Qoymadın «miras» tək gələcək nəslə.
30 il uzanan müharibənin,
Zəfərin sığdırdın bircə fəsilə.

«Şəhadət» hər dəfə bu sözü duyub,
Dərin bir ah çəkib, fəğan elədin.
Qəlbində kök atan qisas hissiylə,
Düşmənin qanını yurda çilədin.

Nə böyük bir ürək sığdı köksünə?!
O ürək vətənin özüydü, Ruzi.
Şuşadan, Laçından silinməyəcək,
Azadlıq bəxş edən igidin izi.



**EYVAZOV İSLAM HƏSƏN OĞLU ÇAVUŞ (MAHHXHQ)**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## ÖLÜMSÜZLƏŞƏN QƏHRƏMAN

Ən pak sevgidir vətən sevgisi. Onu sevən yəqinsiz, tərəddüdsüz sevir. Heç bir qarşılıq gözləmədən, təmənnasız, canından keçməyi gözə alaraq sevir. Düşüncələrinin hər başlanğıcı və bitişi vətən olur vətəni sevənlərin. Bu sevgi alidir, müqəddəsdir. Onun üçün bu sevgi uğrunda canından keçənlər müqəddəs sayılır. Vətən adlı sevgiyə qurban gedən qəhrəmanlar sırasında İslam kimi bir qəhrəmanın da adı özünə yer edib. Bu qəhrəman hər nəfəsdə vətən düşünüb.

Eyvazov İslam Həsən oğlu 1999-cu il aprelin 7 - də Naxçıvan Muxtar Respublikasında anadan olub. Ailədə 2 bacı 2 qardaş olublar. Ata-anasının son beşiyi 2005-ci ildə şəhid Mirələsgər Seyidov adına 39 N-li məktəbə qədəm qoyub. Məktəbi bitirdikdən sonra 2017-ci il aprelin 12-də hərbi xidmətə yollanıb. Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Qıvraq qəsəbəsində xidmət edib. 2018-ci ildə xidmətini başa vurduqdan sonra Türkiyəyə gedib və iki il orada müxtəlif işlərlə məşğul olub. Vətənə qayıtdıqdan sonra könüllü olaraq ordu sıralarına yazılmağa çalışsa da müəyyən səbəblərdən alınmayıb. İslamın hərbçi formasına, beretə olan





sevgisi böyük olub. Nəhayət ki, 2020 - ci ilin avqust ayında İslam arzusuna çatıb. Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) sırasına qoşulub. Cəmi bir ay sonra Vətən müharibəsi başlayıb. Əsgərlər döyüşə seçilən zaman general İslamı seçməyib. İslam önə çıxaraq «Mən illərdi bu arzu ilə yaşayıram. Mən vətənimin bu günündə savaşmalıyam. Məni də seçin.» deyib. General İslamın sözlərindən heyrətə gəlib və onun da adı döyüşə göndərilənlər sırasında yer alıb. O, bu sevinci ailəsi ilə bölüşüb. Oktyabrın 17-də ailəsi ilə halallaşmağa gəldiyi zaman anası oğlunun qanayan qollarını görüb «Bunun üçün illərdi hərbçi olmaq istəyirdin?» deyib. İslamın cavabı isə «Bu nədir ki, mən vətənə canımı belə qurban verməyə hazıram.» olub. Beləcə İslam vətənin ən dar məqamında vətənin dadına çatıb. Döyüşə qatıldığı ilk gündən ön cəbhədə vuruşan qəhrəman qorxu nədi bilməyib. Düşmənin ağır məğlubiyyətə uğramasında böyük rolu olub. Cəbhədən anasına zəng edəndə anasına şəhidlərin, yaralıların düşmən əlinə keçməməsi üçün çalışdığını və azad olunan torpaqların miqyasının günbəgün artdığını deyib. Ana zəif cüssəli oğlunun böyük şücaətlərini duyduqca heyrətə gəlib.Bir addım belə geri çəkilməyən qəhrəman irəli getməkdə döyüş yoldaşlarını ruhlandırıb. Hər dəfə «Hücum» əmri verildikdə İslam öndə gedib. Sonuncu hücumda isə döyüş yoldaşı « İslam bu dəfə sən önə atılma.» deyib. Ancaq İslam onun sözünə baxmayıb və yenə öndə gedib. Qələbəyə 2 saat qalmış İslamgilin dəstəsinin yanına F 1 bombası atılıb. İslamın vətən sevgisi ilə döyünən ürəyi mərmiyə tuş gəlib.

İslamın şəhid olduğundan xəbərsiz olan ailəsi isə Zəfəri bayram edib. Aytən ana bilməyib ki, o zəfər oğlunun qanı ilə qazanılıb. 4 - 5 gün İslamdan heç bir xəbər ala bilməyən ailənin nigarançılığı artıb. Ailə Qaynar xəttə müraciət etmək məcburiyyətində qalıb. Noyabrın 18-də İslamın qohumlarına zəng edib İslamın bəlli nişanəsi olub olmadığını soruşublar. Morqa gedən qohumlar acı xəbəri alıb. Atasının adını qoluna yazdıran şəhidin nəşi noyabrın 19-da 4 şəhidlə bərabər Naxçıvana göndərilib. Son dəfə cəmi bir neçə saatlıq evinin qonağı olan İslam elə həmin gün Qaraçuq qəbirsanlığında torpağa tapşırılıb. Həyatda təkcə bir arzuya çatan şəhidin qalan arzuları özü ilə bərabər dəfn olunub. İslam nə ilk maaşını almayıb, nə arzuladığı kimi atasına maşın almayıb, nə də sevdiyinin əllərindən tutmayıb. Nakam ömürlü şəhidimin arzularının ömrü də nakam olub.

Çavuş Eyvazov İslam Həsən oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, «Füzulinin azad olunmasına görə» medalı və «Xocavəndin azad olunmasına görə» medalı ilə təltif olunub.

Ölümü ilə ölümsüzləşən qəhrəmanların hər birinin həyatına nəzər saldıqda bir amalları olduğuna şahid oluram. Təki vətən yaşasın...

## ŞƏHİD İSLAM

Ən ali sevgidi vətən sevgisi,
Sevgim ürəyimdə coşub çağladı.
Hər dəfə vətənin həsrətin duydum,
Həsrət ürəyimi çarpaz dağladı.

Əl açıb Allahdan hey diləyirdim,
Alım şəhidlərin mən də qisasın.
Ölsəm də vətənim uğrunda ölüm,
Millətim hür olsun, azad yaşasın.

Allah qəbul etdi dualarımı,
Vətənçün can verib torpağa döndüm.
Şəhid dərdi ilə sızlayanların,
Qəmli baxışına mən də büründüm.

Xalqım, unutmayın siz xatırlayın,
Vətənə can verən şəhid İslamı.
Bilin ki, son nəfəs verənə qədər,
Düşməndən almışam çox intiqamı.





## MƏMMƏDOV ƏLİ ABBAS OĞLU ÇAVUŞ (MAHHXHQ)
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**



## ÖVLADI ADINI DAŞIYAN ƏLİ

Deyirlər "Hər kəsin alın yazısı fərqli olur." Ancaq mən şəhidlərin alın yazılarının bənzər olduğuna çox şahid olmuşam. Hər yazdığım şəhid həyatının izinə öncə yazdığım şəhid həyatlarında mütləq rast gəlmişəm. Ömürləri, nakam arzuları, sevgiləri, yaşadıqları və yaşamadıqları bənzərdi şəhidlərin. Hər biri vətən qəhrəmanı, hər biri vətən daşıdır.

Vətənin qəhrəman şəhidlərindən biri də Məmmədov Əli Abbas oğludu. Əli 1997-ci il dekabrın 4-də Şərur rayonunun Maxta kəndində Abbas Məmmədovun və Seyran xanımın ocağında dünyaya gəlib. Əlinin özündən başqa 2 bacısı və 1 qardaşı var. O, 2003-cü ildə Sədərək rayon tam orta məktəbində təhsil almağa başlayıb. Məktəbi bitirdikdən sonra əsil Azərbaycan oğlu kimi vətən keşiyini çəkməyə yollanıb. 2016-2017 -ci illərdə hərbi xidmətdə olub. Vətən borcunu qaytarıb geri gəldikdən sonra qardaş ölkə Türkiyəyə gedib. Uşaqlıqdan idmana böyük həvəsi olan Əli Türkiyədə idmanın MMA (qaydasız döyüş) növü ilə məşğul olub. Daha sonra vətənə dönüb. Vətənə döndükdən sonra 2020-ci il yanvarın 13-də Naxçıvanda MAHHXHQ kimi Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) sırasına qoşulub.

Əli yeni ailə quran şəhidlərimizdən biridi. Əli və Təhminə xanımın da sevgiləri makam qaldı. Bir il nişanlı qalan cütlük 2020-ci il avqustun 15-də ailə həyatı qurublar. Hər zaman şükür etməyi bacaran Əlinin arzularından biri də ata olmaq imiş. Ancaq onun bənzərsiz bir arzusu var imiş. Hər namazda özünə şəhidlik diləyərmiş. Şəhidimizlə ömrünün cəmi 2 ayını birlikdə keçirən, ancaq bir ömür boyu unutmayacağı sevinci, sevgini yaşayan Təhminə xanım şəhidimizin son vidasını göz yaşları içində danışdı.

- Oktyabrın 10-da Əli evə gəldi. Mənə dedi hazırlaş çıxaq gəzək. Birlikdə çıxdıq. Son gəzintinin hər anı şəkillərdə həkk olundu. Sanki bilirmiş kimi hər anı ölümsüzləşdirdi. Evə gəldikdə isə birlikdə namaz qıldıq. Səhər saat 7 -də onunla vidalaşdım. Hərbi salamla yola saldım. Dedim gələndə də hərbi salamla qarşılayacam. Mən Əli şəhid olandan sonra o günün vida günü olduğunu anladım. Əli heç kimə heçnə demədən oktyabrın 11-də Vətən müharibəsinin mübariz döyüşçüləri sırasına qoşulub. Füzuli, Qubadlı, Zəngilan uğrunda gedən döyüşlərdə iştirak edib. Gedəndən 1 həftə sonra mənə zəng etdi. Onun eşitmək istədiyi müjdəni ona dedim. Həmin an ağladığını hiss etdim. «Gələcəm, nə səni, nə də övladımı tək qoymayacam.» dedi. Gedəndə 2 həftəyə dönəcəyini demişdi. Sözünü tutdu, 2 həftəyə döndü. Ancaq al bayraqlı tabutda...

Əlinin ürəyi oktyabrın 23-də düşmən atəşinə tuş gəlib. Şəhid olmamışdan öncə dostuna «Şəhid olsam övladım sizə əmanətdi.» deyib. Şəhidlər şəhid olacaqlarını öncədən hiss edirlər. Əli Allahından dilədiyi şəhadətə qovuşdu. Ancaq arzusunda olduğu bala qoxusunu duymadı. İndi bircə onunla təsəlli tapıram ki, Əli iki gün də olsa o xəbərin sevincini yaşaya bildi. Əbədi həsrətimin başlanğıcı 26 oktyabrda başladı. Hərbi salamla yola saldığım qəhrəmanımı hərbi salamla şəhid kimi qarşıladım. Əlidən əllərim üzüldü. Mən həyatı onunla sevmişdim. Onsuz həyatın mənim üçün bir mənası yoxdu. Mən hər zaman Əliyə onsuz yaşaya bilməyəcəyimi deyirdim. Ancaq yaşayıram,yaşamalıyam,yaşatmalıyam. Əlinin bu həyatda olan yeganə əmanəti ilə yenidən Əlini yaşatmalıyam. Əlinin şəhadətindən aylar sonra iyunun 15-də Əlinin yeganə əmanəti Əli dünyaya göz açdı. Əli cismən yanımızda olmasa da ruhən yanımızda idi. Onun ən böyük arzusu onsuz gerçək oldu.





İndi mənim evim-eşiyim Şərur rayonunun Maxta kənd qəbirsanlığında yarım uyuyan məzardı. Cənnətinə qovuşmaq üçün onsuz hər anı cəhənnəmdəki kimi yaşayıram.

Vətən uğrunda canından keçən qəhrəman şəhidimiz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə «Vətən uğrunda», «Şuşanın azad olunmasına görə», «Xocavəndin azad olunmasına görə»,"Hərbi xidmətlərə görə" medalları ilə təltif edilib. Şəhidimizə verilən ən böyük mükafat isə onun qazandığı cənnət, bir də xalq ürəyindəki yeridir.

## ŞƏHİD ƏLİ

Qanınla sağaldı neçə ürəyin,
İllərlə qanayan vətən yarası.
Biz məlhəm olmadıq vətənə amma -
Sən vətən qoxudun, vətən balası.

Allah duydu sənin dualarını,
Seçib cənnətinə apardı səni.
Adının işığı düşdü bəxtinə,
Əbədi cənnətdə gördün Əlini.

Şəhidim, duymadın bala qoxusun,
Balan əmanətdi səndən vətənə.
Böyüyüb övladın sahib çıxacaq,
Atası Əlinin əmanətinə.

Adın aydınladır bütün bəşərin,
Ruhunda böyüyən vətən sevgisin.
Allah ilmə-ilmə toxuyub sanki,
Torpağın köksünə şəhid incisin.



**RÜSTƏMOV BASİD İDRİS OĞLU ÇAVUŞ (MAHHXHQ)**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## ALLAHIN ADINI DAŞIYAN SEVİMLİ BƏNDƏ

Allahın 99 adı var. Bu adlardan biri də Basid adıdır. Bu adın mənasını dərk edən biri bu adı duyduğu an ürəyi titrəyir. Basid adını daşıyan biri isə hər dəfə səslənən adı ilə Allahı xatırladır və xatırlayır. Allahı unutmayan bir bəndə elə Allahın ən sevimli bəndəsidir. Allah da sevimli bəndələrini hər zaman seçir. Elə ona görə də Basid seçilərək cənnətlə mükafatlandırılıb. O,hər insanın arzulayıb ancaq hər insana qismət olmayan şəhid adı ilə əbədiyyətə qovuşub. Allahın bir adını daşıyan bəndə cənnətdə peyğəmbər qonşusu olub. Bəs bu uca adın və uca məqamın sahibi olan şəhid Basid kim idi?

Rüstəmov Basid İdris oğlu 2 iyun 1996-cı ildə Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Xok kəndində dünyaya göz açıb. Basid ailədə ilk övlad olub və özündən sonra bir qardaşı da dünyaya gəlib. 2002-ci ildə Xok kənd tam orta məktəbində təhsil almağa başlayıb. 2013-cü ildə təhsilini başa vurub. Hərbi xidmətə getmək vaxtı çatanda 2014-cü ildə hərbi xidmətə yollanıb. Şahbuzda strateji və qorunması baxımından önəmli, Ermənistanla üz-üzə olan Soyuq dağ, Şimşək yüksəkliyində xidmət edib. 2015-ci ildə xidmətini başa vurub. Bir müddət Türkiyədə işlədikdən sonra





vətənsiz yaşamağın mümkün olmadığını deyib və vətənə dönüb. Sonra ən məsuliyyətli hərbçi peşəsinə yiyələnmək üçün addımlar atıb. 2019-cu ildə MAHHXHQ olaraq Xüsusi Təyinatlı Qüvvələrin hərbçisi kimi xidmətə başlayıb. Əlahiddə Ümumqoşun Ordusunun 3 aylıq kursunu uğurla keçdiyi üçün komandirləri tərəfindən təltif edilib. 2020-ci ildə Kəngərli rayonunun Qıvraq qəsəbəsində yerləşən N saylı hərbi hissədə və sonra Sədərəkdəki N saylı hərbi hissədə xidmət edib. Bir hərbçi olaraq Basidin də böyük arzusu Qarabağda şanlı Azərbaycan bayrağını dalğalandırmaq idi. O, bu arzusunun gerçək olacağını 2020 - ci ilin 27 sentyabrında bildi.

Həmin gün bir xalqın azadlıq sədası dünyaya yayıldı. O səda cəbhədəki hərbçilərin sədası idi. O səsə səs verənlərdən biri də Basid oldu. Oktyabrın 18-də Naxçıvandan Qarabağa yollanan növbəti heyətin sırasında Allahın adını daşıyan Allahın sevimli bəndəsi də könüllü olaraq yer aldı. Polkovnikin Şəhid atasına dediyi sözlərə görə Basid dəfələrlə önə çıxıb və generaldan onu da seçməyini xahiş edib. General bir qədər tərəddüd etsə də Basidin israrları qarşısında razılığa gəlib və onu da seçib. Haqq savaşında haqlı olan qazanır. Haqqın yolunda can verənlər isə şəhid olur. Əbəs deyilməyib «Allah, din, vətən, torpaq uğrunda can verənlər ölü sayılmır. Onlar şəhid olub əbədiyaşarlıq qazanır.» Basid də bu gerçəyi bilərəkdən bu şərəf yolun addımladı. Bu yolun yolçusu nəinki Basid oldu,eləcə də Basidin həqiqi hərbi xidmətdə olan digər qardaşı Samit də könüllü olaraq döyüşlərə qatıldı.

Basid döyüşə qatılan gündən hər gün ailəsinə sağ-salamat olduğunu xəbər edirmiş. Ata-anasına çox bağlı övlad olduğundan istəmirmiş ki, ailəsi ona görə narahat olsun. Buna görə də dəfələrlə yaralanmasına baxmayaraq bunu ailəsindən gizlədib. Cəbrayıl uğrunda gedən döyüşlərdə sağ ayağından qəlpə yarası alsa da mübarizəsini yarımçıq qoymayan qəhrəman daha sonra Zəngilanda çiynindən qəlpə yarası alıb. Lakin o yenə də haqq mübarizəsində yolundan dönməyib. Bakıdakı hospitala göndərildiyi halda o bu göndərişdən imtina edib və yaralı halda sona qədər vuruşub. Son döyüş günü isə 9 noyabrda qələbəyə son saatlar qalmış olub. Həmin gün yanına düşən minamyotun partlaması nəticəsində aldığı qəlpə yaralarından şəhadətə ucalıb.

Basidin şəhid olduğunu ilk olaraq qardaşı Samit bilib. Ancaq o bunu

ata-anasına deyə bilməyib. Basid və silahdaşlarının nəşi neytral zonada qaldığı üçün bir neçə gün götürmək mümkün olmayıb. Basidin nəşi götürüldükdən sonra artıq onun şəhadət sorağı Naxçıvana çatıb. Ancaq yenə heç kim ata - anaya bu acı gerçəyi deməyə cəsarət etməyib. Axı Firəngiz ana oğul tabutu deyil oğul yolu gözləyirdi ki, xonça tutub elçi getsin. Noyabrın 19 -da bütün arzuları kölgəsində qoyan «Başınız sağ olsun, Basid şəhid olub.» sözləri eşidildi. O an İdris Rüstəmovun beli büküldü. Axı oğul tabutu ata çiyinləri üçün çox ağır bir yükdü.

19 noyabrda Xok kənd məzarlığı növbəti şəhidini bağrına basdı. Bir zaman çiyin-çiyinə vətən keşiyini çəkən 7 silahdaş indi 7 şəhid kimi yan-yana uyuyublar. Bu şəhidlərin ən böyüyünün 33, ən kiçiyinin 20 yaşı var.

Çavuş Rüstəmov Basid İdris oğlu bir vətən qəhrəmanı, şəhid adı ilə mükafatlandırılmaqla yanaşı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı və «Xocavəndin azad olunmasına görə» medalı ilə təltif edilib.

### ŞƏHİD BASİD

Allahın seçilmişi, ruhuna qurban sənin,
Qarabağ torpağında düşmənə oldun qənim,
Sonsuzadək borcludu sənə xalqım, vətənim,
Yurd həsrətin bitirib, qucaq açdın zəfərə
Cismin vətənə döndü, ruhun ucaldı göyə.

Allahın seçilmişi, vətən qədər əzizsən,
Vətən torpaqlarından silinməyən bir izsən,
Dilimizdə əzbərə dönən kəlməsən, sözsən,
Şəhid Basid, adını qürurla söyləyirik
Səni rəhmətlə anıb, təşəkkür eləyirik.

Allahın seçilmişi, haqqın əsla ödənməz,
Vətənə can verənlər bilirik heç vaxt ölməz,
Şəhid nurun bərq vurar, o nur heç zaman sönməz,
Vətəni aydınladar şəhid olan bəndələr
Şəhid tək vətən sevən bu vətənə can verər.





## XƏLİLLİ MURAD VƏLİ OĞLU ÇAVUŞ (MAHHXHQ)

**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**



### «CAN VERƏCƏYİK, TORPAQ YOX!»

Şəhid ömrü həyatın ən gözəl anında donub qalan ömürdü. Sevinci şəkillərdən boy göstərən, sabahına məzar daşı kölgə salan, Günəş işığından pay almayan ömür sahibidir şəhid. Adının nuruna cəm olar bütün bir ölkə. Nə son nəfəsi unudular, nə son sözləri. Gözləri dönər göy üzünə. Başımızı qaldırıb səmaya nəzər salanda sanki cənnətə ucalan şəhidin gözlərinə dikilər gözümüz. Hər vətən sözümüzdə səslənər adı, hər bayrağa baxanda nur üzünün əksin görərik. Ölməz, Allah tərəfindən əbədi dünyada əbədi var olmaqla mükafatlandırılar şəhid. Bu dünyada azadlığa, əbədi dünyada şəhadətə yol alar şəhid. O yolun yolçularındandı Murad.

Xəlilli Murad Vəli oğlu 1994-cü il 14 iyulda Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Çomaxtur kəndində anadan olmuşdur. 2000-ci ildə ibtidai məktəbə Çomaxtur kənd tam orta məktəbində başlasa da daha sonra təhsilini Bakı şəhərində Namiq Məmmədov adına 9 N - li tam orta məktəbdə davam etmişdi. 2011-ci ildə məktəbi bitirmişdi. Hər zaman vətənə xidmət edəcəyi günün çatacağını səbirsizliklə gözləyən Murad 2012-ci ildə hərbi xidmətə yollanmışdı. Culfa rayonununda xid-

mət etmiş və 2014-cü ilin baharında xidmətini başa vurmuşdu. Bir neçə il Türkiyədə yaşayıb, işlədikdən sonra 2017-ci ildə Aysun xanımla ailə həyatı qurmuşdu. 2018-ci ildə ata adı ilə mükafatlandırılmışdı. Balaca Fatiməsini vətənə həsrət böyütmək istəməyən Murad 2019-cu ildə vətənə qayıtmışdı.

Xəlilli Murad hər zaman hərbçi olmaq arzusunda olmuşdu. Ancaq illərlə arzusuna çata bilməmişdi. Nəhayət ki, 3 ay kurs keçdikdən sonra 2020-ci il oktyabrın 2-də Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) tərkibində hərbçi həyatına başlamışdı.

27 sentyabr 2020-ci il, gediləcək yol zəfər, lazım və vacib olan isə hünər idi. Artıq günlər idi ki, Murad cəbhədə baş verənləri dinləyir və hər an döyüşə qatılmaq əmrini gözləyirdi. O gün 18 oktyabr tarixində çatdı. Döyüşə elə yollandı ki, bilməyən onun bir şadyanalığa yollandığını sanardı. Sevinərək döyüş meydanına atılan Muradın şüarı «Qələbə bizimdir! Can verəcəyik, ancaq torpağımızdan bir qarış da verməyəcəyik. 27 illik bu həsrət, bu işğala son verəcəyik.» sözləri idi. Dediyi kimi can verdi, ancaq torpaqlarımızdan bir qarış da vermədi. Əksinə işğal altında olan ərazilərimizi də azad edənlərdən oldu.

Son dəfə oktyabrın 26-da Aysun xanımla danışdığında ona qürurlu və məğrur durmağı tapşırıb. «Sən qalib ordunun qalib əsgərinin xanımısan. Burda hər nəfəs son nəfəs ola bilər. Biz o son nəfəslə ölməyəcəyik. Şəhidlər ölməzdir! Fatiməm sənə əmanətdir. Ona gözəl bax, qoru qızımı. Böyüyəndə atasının kim olduğunu biləndə vətəni daha çox sevəcək. Çünki vətənin atasından bir əmanət olduğunu biləcək.» Elə son danışığında güllə səslərini Fatimənin səsi kəsib. Murad qızının səsini duyduğu zaman bir neçə saniyə hər şeyi unudub. Fatiməsinin əlindən tutub onu məktəbə aparmağı, məzun gününü, bəyaz göyərçin tək uçuşunu və. s. xəyal edib. O, bilirdi ki, həmin günləri yalnız xəyalında yaşaya biləcək.

29 oktyabrda Aysun xanımın ruhuna bir anlıq qaranlıq çökür. Sanki o an sevgi işığının əbədi söndüyünü hiss edir. Fatimə də susmaq bilmir. Sanki atasının son nəfəsini verdiyini hiss edir, onun üçün fəryad edir. Bu narahatlığın səbəbi ertəsi gün bəlli olur. Oktyabrın 30-da Muradın şəhid xəbəri gəlir.

Döyüş yolu Xocavənd-Hadrut istiqamətindən başlayan Murad Füzuli





rayonu istiqamətində döyüşmüş, Şuşa uğrunda gedən döyüşlərdə də qəhrəmanlıq göstərmişdi. Daşaltıya qədər irəliləyən qəhrəmanın son döyüşü də elə Daşaltı uğrunda gedən döyüşlər olmuşdu. Daşaltıda snayper atəşi nəticəsində şəhid olmuşdu.

Maman ana dörd övladı dünyaya gətirəndə bilməzdi ki, bu övladlardan biri onu ən layiqli ada «Şəhid anası» adına ucaldacaq. Övladını vətənə qurban verən ananın ürəyi nə qədər yansa da oğlunun müqəddəs şəhid adına tutunub. Ürəklərdə yaşayan balasının adının dillərdən düşməməsi Muradın daim var olacağının sübutudur.

Şəhidinə dəyər verməyi bacaran xalq noyabrın 2-də müqəddəs şəhidini Şərur rayon Şəhidlər Xiyabanında müqəddəs torpağa əmanət edib.

Çavuş Xəlilli Murad Vəli oğlu şəhadətindən sonra ölkə başçısı İlham Əliyevin sərəncamı ilə «Vətən uğrunda» medalı, «İgidliyə görə» medalı, «Xocavəndin azad olunmasına görə» medalı, «Füzulinin azad olunmasına görə» medalı və «Şuşanın azad olunmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD MURAD

Vətən torpağının hər qarışına,
Azadlıq toxumun səpdi igidlər.
Həmin toxumları qanları ilə,
Suvardı qəhrəman qazi, şəhidlər.

Bu necə igidlik, necə şücaət?!
Adın qəhrəman tək səslənir, Murad.
Vətən azdlığın bizə bəxş edən,
Ölməz şəhid kimi qoymusan bir ad.

Adın vətənimə nur saçdığı tək,
Ruhun da cənnəti işıqlandırır.
Azadlıq kəlməsi səslənən zaman,
Körpə Fatiməni qürurlandırır.




**CƏFƏROV ÜLVİ HABİL OĞLU ÇAVUŞ (MAHHXHQ) (II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## ƏSGƏR MARŞININ MAHİR İFAÇISI

Vətənin keşiyində vətən boyda ürəyə sahib olanlar durur. Əslində ilk baxışda sadəcə bir insan kimi görünən həmin qəhrəmanları fərqləndirən ürəkləri, əməlləridi. Bizsə o fərqliliyin fərqinə çox zaman gec, ölümsüzləşdiklərindən sonra varırıq. Əslində isə onların körpəlikdən atdıqları hər addım bu günlərinin xəbərçisi olub. Etdikləri hərəkət, dedikləri söz hər biri ürəklərinin vətən sevdasından xəbər verib. Bəzi sözlər var ki, tanımadığın insanı tanımağın üçün oxumağın yetərlidi. Həyatda heç zaman görmədiyim Ülvinin hələ 2018-ci ildə paylaşdığı bir paylaşımı diqqətimi çəkdi. O Həzrəti Peyğəmbərin (s.ə.s) bu sözlərini yazmışdı. «Sərhəd boyunca vətəni qoruyan gözləri cəhənnəm atəşi yandırmayacaq. Allahın razılığı ilə vətəni qoruyanlara isə daim savab yazılacaq.» Qəhrəmanımızın ömür yolunu atasından, hər kəsə ən yaxın dostu kimi tanıtdığı Habil Cəfərovdan xəbər aldım. Habil Cəfərov özü də SSR-nin tərkibində olduğumuz zaman 5 il xidmət edib. Daha sonra isə 20 il bir polis kimi vətənin və vətəndaşların keşiyini çəkib. Dəyanətli şəhid atası oğlunu əsil qəhrəman atası kimi mənə tanıtdı.

- Mən tək oğul yox həm də ən yaxın dostumu itirmişəm. Ancaq onun





sayəsində saysız-hesabsız övlad qazanmışam. Bu Ülvinin qüdrətidir. Ülvini 1998-ci il 16 yanvarda ilk dəfə qucağıma almışdım. Kəngərli rayonunun Xok kəndində dünyaya gəlmişdi. Elə həmin kənd məktəbində də ilk təhsilini almışdı. Həddindən ziyadə vətənpərvərliyi ilə hər zaman seçilməyi bacarırdı. Onunla bağlı çox xatirələr var... Ülvi hələ 1-ci sinifdə oxuduğu zaman Əlifba bayramında ona həvalə olunan şeiri deyil «Əsgər marşı» nı səsləndirmişdi. Həmin zaman marşı sanki bir əsgər kimi qətiyyətli şəkildə mahir bir ifaçı kimi səsləndirərək ayaq üstə alqışlanan Ülvi son döyüşə gedərkən də marşı səsləndirib şəhid kimi dönüşündə yenə də ayaq üstə alqışlandı. Onun uşaqlıqdan ən böyük arzusu idi hərbçi olmaq. Hərbi liseyə qəbul ola bilməsə də o bu yolu getməkdə qərarlı idi. 2015 -ci ildə Ülvi ən böyük arzularından birinə çatdı. O, vətəni sərhəd boyunca qorumaq, vətən keşiyini çəkmək üçün hərbi xidmətə yollandı. Xidmətini Şahbuz rayonunda yerləşən N saylı hərbi hissədə keçdi. Xidmətini başa vurduqdan sonra könüllü olaraq müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) kimi vətənin keşiyini çəkmək qərarına gəldi. Xüsusi Təyinatlı Qüvvələrin 3 aylıq kursunu uğurla keçdi.

Ülvi bir il öncə 2019-cu ildə sevdiyi xanımla nişanlanmışdı. 2020-ci ilin noyabrında toyu olacaqdı. Ancaq qismətə baxın...

Ülvi 2020-ci il 27 sentyabrda Vətən müharibəsi başlananda könüllü olaraq döyüşdə iştirak etmək üçün komandanlığa müracət ünvanlayıb. Oktyabrın 24 - də növbəti dəstə ilə Qarabağa getməli olduğu halda israrla oktyabrın 17-də gedən dəstə ilə gedib. Döyüşə getməzdən əvvəl ailəsi ilə vidalaşmağa gəldiyində «Haqqınızı halal edin, mən döyüşə gedirəm» deyib. Ailə bu şərəfli yolun yolçusunu Allaha əmanət edib. Döyüşə Cəbrayıl rayonu istiqamətindən başlayıb. 24 oktyabrda bacısının ad günündə Cəbrayıldan zəng edib «Çox keçməz sənə Qarabağın azadlığını hədiyyə edərəm.» deyib. Atası ilə danışdığında isə «Ata kaş ki, sənin hələ də uşaq gözündə gördüyün oğlunun necə döyüşdüyünü görə bilərdin.» deyib. Mərd, qorxmaz, düşmənə nifrəti və vətən həsrəti gözlərindən oxunan Ülvi bir qəhrəman kimi adından söz etdirməyi bacarıb. Ülvinin döyüş yoldaşları bu gün onun sayəsində neçə evin işığının sönmədiyini dilə gətirirlər. Əyninin isti geyimini, son tikəsini döyüş yoldaşına verən belə bir qəhrəmanın adını hələ çox eşidəcəyik. Şuşanın Topxana meşəsində ən ağır

döyüşlərdə iştirak edən Ülvi daha sonra Daşaltı uğrunda mübarizə aparıb. Düşmənin əldən vermək istəmədiyi həmin ərazini azad etdikdən sonra düşmən yenidən artilleriya atəşi açıb. Bu zaman yanına düşən minamyotun qəlpəsinin boynunu zədələməsi nəticəsində qəhrəmancasına şəhid olub. Oktyabrın 31-də şəhid olan Ülvinin şəhid xəbəri noyabrın 1-də ailəsinə deyilib. Ailənin gözündə cahan sanki bir anda zülmətə qərq olub. Gülərüz, şirinsöz Ülvini itirmək ailənin sevincini itirməsi demək idi. Noyabrda toy evi kimi bəzəniləcək ev Azərbaycan bayrağı ilə «bəzənib». Bəy libasında sevdiyinin əlindən tutub evinə gəlməli olan Ülvi bayraqlı tabutda çiyinlər üstə son dəfə evinə gəlib. Vağzalı sədası ilə qol qaldırıb süzəcək olan Cavan ananın «oğul» deyə fəryadı göyə ucalıb. Axı o belə arzulamamışdı...

Hələ 1992-ci ildə Xok kəndi vətənə oğul qurban vermişdi. Vətən müharibəsində də Naxçıvanın ən çox şəhid verən kəndlərindən biri həmin kənd oldu. Ülvi kəndin bu döyüşdə verdiyi ilk şəhidi oldu. Ülvi ilə bərabər Xok kəndi Vətən müharibəsində 7 şəhid verdi. Xok kənd məzarlığı qəhrəmanların uyuduğu müqəddəs ziyarətgaha çevrildi.

Çavuş Cəfərov Ülvi Habil oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, «İgidliyə görə» medalı, "Xocavəndin azad olunmasına görə" medalı və «Şuşanın azad olunmasına görə» medalı ilə təltif edilib.

Elə ürəklər var ki, daha yazın istisi o ürəklərin həsrət buzunu əritmir. Ümüd və Ümidənin ürəyindəki həsrətin çətin ki, donu açıla. Bir də körpə lap körpə ürəklərində dayı həsrətinin sızıltısını duyan Mələk, Məryəm, Əhməd və Fatimə var. Həsrətləri özləri ilə böyüyəcək körpələr...





## ŞƏHİD ÜLVİ

Sənin eşqin yaranıb sən doğulan anda, şəhid,
Bu eşqi daşımısan dövr edən o qanda, igid.
Sənin kimi bir oğul yetirən bu məmləkətin,
Dolana bilməz idi Qarabağında o yezid.

Dilinə əzbər oldu körpəlikdən «Əsgər marşı»,
Deyirdin «Kaş ki, çata Qarabağın haqq savaşı.»
O savaş çatan zaman atıldın ər meydanına,
Ülvi, məzarın oldu Qarabağın dağı-daşı.

Sənə öldü demirik, çün dirilərdən dirisən,
Bu xalqın, bu millətin ən müqəddəs and yerisən.
Vətən adlı savaşa öz qanıyla nöqtə qoyan,
Bizə zəfər yaşadan qəhrəmanlardan birisən.



**ƏLİYEV LƏTİF ORUC OĞLU ÇAVUŞ (MAHHXHQ) (II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## 25 SƏHİFƏLİK ÖMÜR KİTABI

Vətən- şəhidlərin qurban olan canlarıdı. Vətən- itkinlərin dönmədikləri yollarıdı. Vətən- adsız şəhidlərin naməlum məzarlarıdı. Vətən- qazilərin görməyən gözləri, ayaqları, qollarıdı. Vətən - vətənçün hər an ölməyi və öldürməyi gözə alan hərbiçilərin tək sevdalarıdı. Vətən- 25 yaşlı bir gəncin dünəni və uğrunda canından keçdiyi sabahlarıdı. İki hecaya sığan sonsuz və müqəddəs sevgidi Vətən. Hər dəfə dilə gəldiyində uğrunda canından keçən gəncin nöqtələnən ömrü xatırlanır. Hələ ömür kitabının cəmi 25 səhifəsi yazılan, o kitaba nə yar, nə övlad adı düşməyən Lətifin ömür kitabının boş qalan səhifələrinə əslində qəhrəmanlıq əks olunub.

Kimdi Orucov Lətif? Vətəni belə gözəl sevməyi kimdən öyrəndi? Müqəddəsləşməyi necə bacardı?

Əliyev Lətif Oruc oğlu 1995-ci ilin 15 avqustunda Şərur rayonunun Xanlıqlar kəndində dünyaya göz açmışdı. Əliyevlər ailəsində dörd övlad böyüyürdü. Ötən zamanın böyütdüyü Lətif məktəbli çağına çatdığı zaman 2002-ci ildə Xanlıqlar kənd tam orta məktəbində təhsil almağa başlamışdı. Məktəbi bitirdikdən sonra 2013-cü ildə hərbi xidmətə getmişdi. Xidmətini





Şahbuz rayonunda yerləşən N saylı hərbi hissədə başa vurmuşdu. 2014-cü ildə xidmətini başa vurduqdan sonra bir müddət fərdi işlə məşğul olmuşdu. Ancaq fikri vətənin yanında qalmışdı. Elə sözünün əvvəli də axırı da vətən idi. Bir neçə dəfə könüllü kimi ordu sıralarına qoşulmaq istəsə də qoşula bilməmişdi. Sonuncu cəhdi uğurlu alınmışdı. 2 aylıq MAHHXHQ kursunu uğurla keçdikdən sonra Lətif ən böyük arzusuna çatmışdı. 2020 - ci ilin aprel ayında hərbçi adına layiq görülmüşdü. Ağlı kəsəndən qurduğu xəyalları gerçək olmuşdu. O, artıq bir vətən keşikçisi idi. 1 ay işlədikdən sonra komandirinin "Kim Xüsusi Təyinatlı Qüvvələrin tərkibinə qatılmaq istəyirsə bir addım qabağa çıxsın." sözlərini eşitdiyi anda ilk önə çıxmış və XTQ - nin sırasına qoşulmuşdu.

Lətif Vətən müharibəsi başlayan ilk günlərdən döyüşə qatılmaq istəsə də ehtiyatda saxlanılmışdı. Döyüşə qatılmaq əmri 17 oktyabrda verildiyi anda Nigar anaya zəng edib xudahafizləşən oğulun döyüş yolu 18 oktyabrda başlamışdı. Füzuli rayonu uğrunda gedən döyüşlərdə mübarizə aparan Lətif oktyabrın 27-də düşmən gülləsinə tuş gəlmiş və qəhrəmancasına şəhid olmuşdu.

Hər kəs nigaran idi. Cəbhədə baş verənlər insanlara müxtəlif duyğular yaşadırdı. Qazanılan uğurlar sevinc göz yaşlarına, şəhid xəbərləri isə kədər göz yaşlarına səbəb olurdu. Bütün Azərbaycan xalqı övladı döyüşdə olan ana qədər nigaran və həyəcanlı idi. Ürəklərin təlatümü hər ötən an bir qədər də artırdı. Nigar ana ev-eşiyə sığa bilmirdi. Sanki hər an bir xəbər eşidəcəkmiş kimi gözünü yollara dikmişdi. O xəbər oktyabrın 29 - da gəldi,bir tufan kimi əsib ürəkləri viran qoydu.

Özündən geriyə gözü yaşlı bir ana, bir də şəkilləri qalan Lətif 2 noyabr 2020 - ci ildə Şərur rayon Şəhidlər Xiyabanında əbədiyyətə uğurlandı.

Çavuş Əliyev Lətif Oruc oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, "İgidliyə görə" medalı və "Şuşanın azad olunmasına görə"medalı ilə təltif edilib.

Bir ömürün son səhifəsini oxuyub tamamladıq. Kaş ki, bu qədər qısa olmasaydı...

## ŞƏHİD LƏTİF

Vətən oğlu adını,
Sən qürurla daşıdın.
Həyatın iyirmi beş,
Baharını yaşadın.

Ən böyük arzun idi,
Vətən keşiyin çəkmək.
Düşməndən qisas alıb,
Düşmən bağrını dəlmək.

Sən çatdın amalına,
Vətənin cəsur oğlu.
Qismətinə yazıldı,
Sənin də döyüş yolu.

Ömrünü fəda etdin,
Şəhid kimi vətənə.
Lətif, bir məlhəm oldun,
Vətənimin dərdinə.

Səndən geriyə qalan,
Bir şəkildi bir məzar.
Gözü yaşlı ananın,
Qəlbini tutub qübar.

Həsrətinə tuş gəlib,
Bacı, qardaş ürəyi.
Uca Yaradan olsun,
Dərdlilərin köməyi.





## MƏMMƏDOV ZAMAN HABİL OĞLU ÇAVUŞ (MAHHXHQ)

**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**



## ZAMANIN UNUTDURA BİLMƏYƏCƏYİ ZAMAN

Şəhidlik ölümlərin ən gözəlidir. Allah sevdiyi bəndələrini bu ölümlə mükafatlandırar. Əslində bu ölüm cismin yox oluşu, ruhun əbədi var olmağıdır. Allah hər kəsin ruhuna əbədi var olmağı nəsib etməz. Şəhidlər doğulanda şəhid nuru onların çöhrələrinə yansıyır. Şəhidlərin bir-birinə bənzəməsi əbəs deyil. Çünki onların çöhrələrindəki nur bir-birlərinə bənzəyir. Allahın sevdiyi, seçdiyi, şəhid kimi ali bir ada layiq gördüyü bəndələrindən biri də Zamandı.

Məmmədov Zaman Habil oğlu 3 avqust 1995-ci ildə Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Şahtaxtı kəndində anadan olmuşdur. Ailənin iki oğul övladından biri idi. O, 2002-ci ildə Şahtaxtı kənd Akademik Zərifə Əliyeva adına tam orta məktəbə getmişdi. 2013-cü ildə məktəbi bitirmişdi. 2014-cü ilin yanvar ayında hərbi xidmətə getmiş, xidmətini Qıvraq qəsəbəsində keçmişdi. Xidmətini başa vurduqdan sonra bir hərbçi kimi daima vətən keşiyini çəkmək üçün 2016-cı ildə MAHHXHQ kimi ordu sıralarına qoşulmaq üçün addımlar atmışdı. O, Xüsusi Təyinatlı Qüvvələrin kursunu uğurla keçmiş və XTQ-in dəstəsinə qoşulmuşdu.

Xaraktercə mülayim olan Zaman hərbçi yoldaşlarının və komandirlərinin rəğbətini qazanmağı bacarmışdı.

Zaman Azərbaycan hərb tarixində xüsusi önəm daşıyan Günnüt əməliyyatında böyük hünər göstərib. 2018-ci il mayın 20-dən 27-nə qədər davam edən bu əməliyyatda Əlahiddə Ümumqoşun Ordusunun əks həmləsi nəticəsində işğal altında olan ərazilərimizin bir qismi azad olunub və ordumuzun nəzarətinə keçib. Həmin ərazilər böyük strateji əhəmiyyət daşıyan ərazilər idi. 44 günlük zəfərin qazanılmasında o ərazilərin ordumuzun nəzarətində olması önəmli rol oynadı. Həmin vaxt Zamanın dostlarından şəhid olanlar olmuşdu. Hər zaman Zaman onların qisaslarını alacağını demişdi. Hərbinin sirlərini daha dərindən öyrənmək üçün durmadan çalışmışdı. O, 2019-cu il fevralın 4-də Türkiyənin Kars vilayətində 16 ölkə hərbçilərinin qatıldığı təlimə qatılmış və birinci olmuşdu. Geri döndüyü zaman çavuş hərbi rütbəsi almışdı. Həmin ilin sentyabrında komanda kursunu da uğurla başa vurmuşdu.

Darda qalan Qarabağın azad olunması Zamanın ən böyük arzusu idi. Bir gün Qarabağın azadlıq savaşı başlayacağı təqdirdə bir an belə düşünmədən haqq savaşına qatılacağı hər kəsə bəlli idi. 27 sentyabrda həmin haqq savaşı başladığı zaman Zaman komandirinə müharibəyə qatılmaq istədiyini məruzə etmişdi. Uzaqdan müharibəni seyr etmək onun üçün dözülməz idi. Nəhayət Zaman eşitmək istədiyi o cavabı almışdı. İlahi, bir insan ölümün ağuşuna bu qədər sevincək gedə bilərmi? Oktyabrın 9-da evə gəldiyində təlimə gedəcəkərini demiş, bəzi əşyalarını götürmüş, doğmaları ilə halallaşmış və əbədi ayrılığa yelkən açmışdı. Oktyabrın 11-də qardaşına yazdığı mesajdan sonra onun müharibəyə getdiyi bəlli olmuşdu.

Zaman hər dəfə döyüş bölgəsindən zəng etdiyində sevincək danışar «Toy-bayramdayıq.» deyərmiş. Döyüşə qatıldığı gündən düşmənin mövqelərinin məhv edilməsi üçün koordinatları öyrənən Zamanın bir çox uğurlu əməliyyatlarda mühüm rolu olmuşdu. Ermənin qanının murdar olduğu üçün öz bıçağını ermənilərin qanına batırmaq istəməyən Zaman ermənilərin qulaqlarını öz bıçaqları ilə kəsmişdi. Qorxmaz, mərd oğulun göstərdiyi şücaətlər saysız - hesabsızdır.

Döyüşlərin birində Zamanın halının pis olması səbəbindən komandiri onu geri qayıtmağa məcbur etsə də «Ölsəm vətən üçün öləcəm.» deyən





qəhrəman başqa qrupla təkrar irəliləyib.

Zaman son dəfə qardaşına zəng etdiyində həmkəndlisi Həsənov Elməddin Elşən oğlunun şəhid olduğunu xəbər verib. Daha sonra dostuna zəng edib getdiyi yolun dönüşü olmayacağını deyib. «Şəhid olsam evdəki böyük bayrağımı məzarımın üstə sərərsən, kiçik bayrağımı həyətimizə asarsan. Qardaşıma deyib nigaran qoymaq istəmirəm.» deyib. Bir də onunla birgə döyüşdə olan uşaqlıq dostu Pənahın sağ qayıtmağı üçün qurban dediyini, əgər özü şəhid olsa qurbanı Zamanın adından atasının kəsməyini tapşırıb. (Nə böyük ürəyin varmış, şəhidim. ) Həmin gündən sonra Zamanla heç cür əlaqə saxlamaq mümkün olmayıb.

Artıq 5 gün idi Zamanın zəngləri susmuşdu. Hər kəs narahat idi. O nigarançılıq əbəs deyildi. Çünki od-alovun içində olan oğullar var idi. Onlardan biri də Zaman idi. Zaman əvvəlcə ayağından yaralansa da, yarasını bağlayaraq döyüşə davam etmiş, sonra oktyabrın 28-də Şuşa uğrunda gedən döyüşlərdə təkrar yaralanmışdı. Bu dəfə yarasının dərin olması və axan qanı dayandırmağın mümkünsüzlüyü səbəbindən oktyabrın 29- da qəhrəmancasına şəhid olmuşdu. Şəhid olarkən son sözləri «Mən şəhid olmaqdan əsla qorxmuram. Şəhidlik mənim ən böyük arzumdu. Şəhid olduğum xəbərini atama, anama, qardaşıma verdikləri anı düşünürəm. O anda doğmalarım nə qədər əzab çəkəcəklər.» olmuşdu.

Oktyabrın 29-da xəbəri gətirən hərbiçilərə şəhidin atası Habil Məmmədov tapşırır ki, Zamanın nəşi gəlməyənə qədər bu barədə şəhid anası Raziyə xanım bilməsin. Ancaq anadan balasının şəhid olduğunu gizlətmək nə mümkün?!

Şəhidin mübarək nəşi oktyabrın 30-da Kəngərli rayonu Şahtaxtı kəndindəki ata ocağına gətirilib. Müharibəyə səssizcə gedən Zaman müharibədən Zəfər müjdəli şəhid kimi dönüb. 30 oktyabrda Şahtaxtı kənd məzarlığında torpağa tapşırılıb.

Çavuş Məmmədov Zaman Habil oğlu göstərdiyi şücaətlərə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, Şuşanın azad olunmasına görə» medalı, "Xocavəndin azad olunmasına görə" medalı, "Cəsur döyüşçü" medalı və «Şücaətə görə» medalı ilə təltif edilib.

### ŞƏHİD ZAMAN

Deyirlər sevgilər əlçatmaz olsa,
O sevgi dillərə dastan olacaq.
Sən vətən sevginə qovuşdun, şəhid,
Sevgin sətir - sətir hey oxunacaq.

Zamanın qüdrəti yetməyəcəkdi,
Adını tarixdən silməyə, Zaman.
Sənin tək qəhrəman vətən oğlunu,
İtirmək ürəyi sızladır yaman.

Vətəndi amalın, vətəndi andın,
Andına sən sadiq qaldın hər bir vaxt.
Vətənçün Şuşada canını verdin,
Qurdun şəhid kimi könüllərdə taxt.





**YÜZBAŞIYEV İSMAYIL FƏZAYİL OĞLU ÇAVUŞ (MAHHXHQ) (II Qarabağ müharibəsində şəhid olmuşdur.)**



### ALLAHIN DUYDUĞU BƏNDƏ

Allah bəndələrini duyar, eşidər,darda qoymaz. Məzlumun ahı tez çatar Allaha. Günahsızca qətl edilən xalqın da ahı çatdı. Əslində biz deyirik 30 il gözləmişik. Xeyir, gözləməmişik. 30 il ərzində hər doğulan körpəni Qarabağa gedəcək yolun yolçusu kimi böyütmüşük. 30 il ərzində o azadlıq ümidləri pillə-pillə ucaldı. Nə qədər oğullar Allaha əl açıb haqq savaşımızın, intiqamımızın qiyamətə qalmamağını arzu etdilər. Allahın duyduğu bəndələrdən biri də İsmayıl oldu. Elə adından bəlli idi Allahın onu eşidəcəyi.

«Kaş ki, İsmayıl yaşayardı, onun yerinə mən ölərdim.» Bu söz mənə çox təsir etdi. Bu sözü deyən İsmayılla eyni döyüşdə olan döyüş yoldaşıdır. Çünki həmin döyüşlər zamanı İsmayıl həm əsil qəhrəmanlıq, həm də əsil insanlıq sərgiləmişdi. «Artıq neçə gün idi dayanmadan döyüşür, meşələrlə irəliləyirdik. Nə azuqəmiz nə taqətimiz qalmışdı. İsmayıl o anda son qidasını bizə verdi. Hətta puşlatını da çıxarıb yanımızdakı döyüş yoldaşımıza verdi.» Döyüş yoldaşlarının dediklərindən belə qərara gəldim ki, onun şəhid olduğu gün Azərbaycan Ordusu bir qəhrəman, yer üzü isə əsil insan itirib.

Yüzbaşıyev İsmayıl Fəzayil oğlu 1997-ci il aprelin 1-də Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Böyükdüz kəndində anadan olub. Ailədə 3 uşaq (2 qardaş, 1 bacı) olublar. 2003-2014-cü illərdə Böyükdüz kənd tam orta məktəbində təhsil alıb. Məktəbi bitirdikdən sonra 2015-ci ildə həqiqi hərbi xidmətə yollanıb. Bu İsmayılın ən böyük arzularından biri idi. Xidmətini Babatda kəşfiyyatçı kimi başa vurub. Lakin vətən keşiyində durmağı tək müddətli həqiqi hərbi xidmətlə başa vurmaqla kifayətlənməyib. O, MAHHXHQ kimi 2019 - cu ildə yenidən ordu sıralarına qoşulub.

İsmayılın çöhrəsində hər zaman təbəssüm olarmış. Demək olar ki, onu qəmgin halda görmək mümkün deyilmiş. Ancaq bir dəfə hərbçi yoldaşı İsmayılı gərgin və əsəbi halda görüb. Bunun səbəbini soruşduqda aldığı cavab bu olub «Müharibəyə gedənlərin adları arasında mənim adım yoxdu.» İsmayıl günlərdi başlayan Vətən müharibəsinə qatılacağı günü gözləyib. Ancaq o günün uzandığını gördükdə israrla könüllü şəkildə adını yazdırıb və 17 oktyabrda müharibəyə yollanıb. Füzuli, Xocavənd, Hadrut, Tuğ, Laçın dəhlizi, Daşaltı uğrunda gedən döyüşlərdə vətənin azadlıq mübarizəsinin qəhrəman döyüşçüsü kimi mübarizə aparıb. Həmin o ərazilərin azad olunması uğrunda bütün gücünü səfərbər edib. Neçə erməni əsgərini məhv edib. Məhv etdiyi düşmənin sayını öz qeyd dəftərində yazıb. İlk düşməni məhv etdiyi anın sevincini isə döyüş yoldaşları hər an xatırlayır. Döyüş yoldaşlarının dediklərindən:

- Döyüş zamanı heç bir çətinlik onun gözünü qorxutmurdu. Əksinə o, sanki bu çətinlikdən zövq alırdı. Növbəti dayanacaq Şuşa idi. Şuşaya çatmağa çox az qalmışdı. Hər zəfərin sevinci ürəyində bir iz salan İsmayıla Şuşanın azadlıq sevincini yaşamaq qismət olmadı.

İsmayıl noyabrın 6-da Şuşa yolunda qəhrəmancasına şəhid olub. Anasını və vətənini çox sevən qəhrəman son nəfəsində anasını düşünüb «Anamın ürəyi xəstədi, anama deməyin.» deyib, ardınca kəlimeyi - şəhadət gətirib və gözlərini əbədi olaraq yumub. Həmin o atəş zamanı İsmayılın döyüş yoldaşları pərən-pərən düşüblər. Həmin zaman heç kim onun şəhid olduğunu bilməyib. Şuşa işğaldan azad olunandan sonra döyüş yoldaşları İsmayılın şəhid olduğunu öyrəniblər. Bu xəbər onlar üçün ən üzücü xəbər olub. Müharibədə çox dost öz dostunun şəhid olmağına şahid





olub. Ancaq heç kim həmin dostun İsmayıl olmağını istəməzdi. İsmayılın şəhid xəbəri ən çox Əhmədi sarsıdıb. Axı İsmayıl onu qoruyurdu. İsmayıl hər zaman zarafatla «Bircə Əhmədi sağ - salamat aparıb atasına təhvil versəydim dərdim olmazdı.» deyirmiş. Ancaq özü sağ - salamat qayıtmadı. İndi Əhməd İsmayılın daş məzarda donan rəsminə baxıb həmin o günləri xatırlayır.

Bir ailə üçün şəhid xəbəri almaq həm kədər yaşadır, həm qürur. Yüzbaşıyevlərin kədərinə bütün xalqın şərik çıxması onlara təsəlli olur və qürurlandırır. 13 noyabrda şəhidin izdihamlı dəfni ailəni ayaqda tutub. Xalqın onların dayağı olmasından ailə güc alıb. Böyükdüz kənd məzarlığında dəfn olunan İsmayılın məzarı indi bütün kənd camaatının və xalqın ziyarətgahına çevrilib.

İsmayıl Nəzakət anaya «Ana mən vətənə can verən oğullardan nə artıq deyiləm nə də əksik. Mən də onlar kimi bir vətəndaşam. Hər bir vətəndaş bu vətəni yaşatmalıdır.» demişdi. Elə o zaman Nəzakət ana bu günləri yaşayacağını bilirdi...

Çavuş Yüzbaşıyev İsmayıl Fəzayil oğlu bir Vətən müharibəsi qəhrəmanı kimi ölkə başçısı İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, «İgidliyə görə» medalı, «Xocavəndin azad olunmasına görə» medalı və «Şuşanın azad olunmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD İSMAYIL

Vətəni sevən oğul,
Dünənin sınağından,
Sən alnıaçıq çıxıb,
Sabahlara çatacaq,
Mərdlik nümunəsisən
Susmaz zəfər səsisən.

Vətəni sevən oğul,
Vətən sinəsi üstə,
Addım atdığın yerlər,
Qanın rəngli laləyə,
Bürünüb başdan-başa
Ruhun edir tamaşa.

Vətəni sevən oğul,
Adın düşüb dillərə,
Hər kəs «İsmayıl» deyib,
Eşqlə məhəbbət ilə,
Adını anır, şəhid,
Xalq səni tanır, igid.

Vətəni sevən oğul,
Füzuli, Laçın, Hadrut,
Torpağında iz salıb,
Şuşa sinəsi üstə,
Verdin son nəfəsini,
Allah duydu səsini.





## SALAHOV SƏRXAN HƏSƏNQULU OĞLU ÇAVUŞ (MAHHXHQ)

**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**



## SƏRXANIN QISA HƏRBÇİ HƏYATI

İllərdi namərd düşmən səbrimizi çarmıxa çəkirdi. Uşaqdan böyüyə kimi bir gün mərd oğullarımızın xəbis düşmənin ayaqlarını Qarabağdan kəsəcəyi günün çatacağını yaxşı bilirdik. Hər guşəsi sanki Allahın nəqş etdiyi bir gözəllik olan Qarabağı düşmən illərlə nə qədər yağmalasa da o əsalətindən ödünc vermədi. Elə mərd Azərbaycan oğullarını da əsalətli görüntüsü ilə qarşıladı. Vətən həsrətli torpaqlar qəhrəman oğullarını bağrına basdıqca sanki illərdi susuzluqdan cadar-cadar olan torpaqlar cana gəldi. İllərdən sonra vətəndən gələn ayaq səslərini duyan dağlar - daşlar sanki dil açıb övladlarını salamladı. Ancaq bu qayıdış qurbansız olmadı. Bəzi oğullar Qarabağa igid kimi, bəzi oğullar şəhid kimi çatdılar.

Qarabağa şəhid kimi çatan qəhrəmanlardan biri də Salahov Sərxan Həsənqulu oğludu. Sərxan 1 mart 1991-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Ələkli kəndində Həsənqulu və Müşgünaz Salahovların ailəsində dünyaya göz açmışdı. Ailənin tək oğul övladı olan Sərxan iki bacısının dayağı olmuşdu. 1997-ci ildə Ələkli kənd tam orta məktəbində təhsil almağa başlamışdı. Sərxan uşaq yaşlarından ailəcanlı, canayanan, mehriban davranışları ilə hər kəsin sevimlisinə çevrilmişdi. O,

2008-ci ildə məktəbi bitirmiş, 2009-cu ildə vətənin keşiyini çəkmək üçün həqiqi hərbi xidmətə yollanmışdı. Xidmətini Batabatda keçmiş və 2010-cu ildə xidmətini başa vurmuşdu. Sonra Türkiyədə yaşayan doğmalarının yanına getmiş, lakin orada bənd almamışdı. Yenidən vətənə döndükdən sonra fərdi işlərlə məşğul olmuşdu. 2013-cü ildə ailə qurmuş və bu evlilikdən 2 qız övladı Məryəm və Fatimə dünyaya gəlmişdi.

İlləri illərə calayan Sərxan 2020-ci ildə vətənin keşiyində durmaq qərarına gəlib. Anasının xəstə olduğunu görən oğul bu müjdəni anasına verib. Axı Müşgünaz ana illərdi oğlunu bir hərbçi kimi görmək arzusunda idi. Sənədlərini toplayıb lazımı yerlərə təqdim edən Sərxan çox qısa zaman kəsiyində ordu sıralarına qəbul olduğu müjdəsini alıb. 7 sentyabrda kursa başlayıb. Bir müddət sonra Azərbaycan Ordusunun Azərbaycanın ərazi bütövlüyünü bərpa etdiyi Vətən müharibəsi başlayıb. Oktyabrın 15-də son dəfə evlərinə gələn Sərxan hər kəslə vidalaşıb və müharibəyə yola düşüb. Oktyabrın 18-dən digər qəhrəmanlar kimi müharibəyə başlayıb. Füzuli rayonu istiqamətində gedən döyüşlərdə iki qəlpə yarası alıb. Tibb məntəqəsinə yerləşdirilsə də o qalmaqdan imtina edib və ertəsi gün yenidən mübarizəsini qaldığı yerdən davam etdirib. Döyüşlər gedən zaman qolundakı qəlpəni özü çıxarıb. Hər zaman döyüşdə olduğunu anasından gizlədən Sərxan son dəfə oktyabrın 19-da anası ilə danışdığı zaman anası narahat olmasın deyə arxada olduğunu deyib. Müşgünaz ana Sərxan şəhid olduqdan sonra oğlunun Cəbrayıldan keçib Şuşaya yön adığını öyrənib.

Vətən müharibəsində Sərxanla bərabər onun həmkəndlisi, uşaqlıq dostu Qurbanov Rauf Vahid oğlu da iştirak edib. Günlərlə Raufdan bir xəbər ala bilməyən Sərxan hər yerdə onu axtarıb. 1 ay sonra gələn zənglə «Rauf şəhid olub.» xəbərini eşidən zaman yerindən sıçrayan Sərxan elə həmin an (2 noyabrda) düşmənin snayperlə açdığı atəş nəticəsində şəhadətə ucalıb. Qismətə baxın Rauf və Sərxanın nəşi eyni gündə eyni təyyarə ilə Naxçıvana göndərilib. 6 noyabrda Ələkli kəndinə, bir məhəlləyə iki şəhid gətirilib. İki ocağa eyni anda atəş düşüb. İki dostun cənazəsi eyni gündə Şərur rayon Şəhidlər Xiyabanında dəfn olunub. Vətən müharibəsinə qatılmaq hər ikisinə qismət olan dostlar cənnətə də bərabər gediblər.

Çavuş Salahov Sərxan Həsənqulu oğlu 40 gün kurs keçsə də 44 günlük zəfər tarixində əsil qəhrəman olduğunu sübut etdi. Zəfər müjdəçisi





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, "Füzulinin azad olunmasına görə" medalı, "Xocavəndin azad olunmasına görə" medalı və «Cəbrayılın azad olunmasına görə» medalı ilə təltif edilib.

Biz Vətən müharibəsində çox qəhrəmanlıqlara şahid olduq. Əslində bu müharibə xalqımızın mübarizlik əzminin gücünün carçısı oldu.

## ŞƏHİD SƏRXAN

Vətən keşikçisi tək,
İllər vurmadın başa.
Ancaq bir şəhid kimi,
Adın yazıldı daşa.

Geyindiyin formanın,
Heç rəngi getməmişdi.
Hərbidə iki ayın,
Tam olub bitməmişdi.

Ancaq sənin ürəyin,
Vətənlə döyünürdü.
Bu dəfə Qarabağda,
Bir ümid görünürdü.

O ümid işığını,
Yandıranlardan oldun.
Sərxan, bir qəhrəman tək,
Vətən qoynuna doldun.



**HƏSƏNOV ELMƏDDİN ELŞƏN OĞLU ÇAVUŞ (MAHHXHQ) (II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

**«QARABAĞ BİZİMDİR!»**

«Qardaşım, bu dünyada sənsizliyin acısı ilə sınansam da cənnətdə anamla bərabər olduğunuzu düşünüb təsəlli tapıram.»

Əksər hallarda şəhidlərimizin həyatlarını analarından xəbər alıram. Elməddini isə bacısından xəbər aldım. Nuranə xanımın hər kəlməsi gözlərimdə bir damlaya çevrilib özünü kirpiklərimdən asdı. Ana həsrəti çəkən qız həyatını qurban etdiyi qardaşını vətənə qurban verdiyini dilə gətirdikcə ürəyimin qəm yükü bir qədər də artdı.

- Biz hər zaman yoxluqla sınanmışıq. Hər zaman bizim evdə «biri vardı, biri yox». Atamla, anam çətinliklə bizi böyütdülər. Elməddin də körpəlikdən evimizə qazanc gətirməyə çalışırdı. Evdə iki uşaq idik. Mən və qardaşım. Qardaşım Həsənov Elməddin Elşən oğlu 1996-cı il fevralın 25-də Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Şahtaxtı kəndində dünyaya gəlmişdi. Ad günü Xocalının işğal günü ərəfəsinə düşdüyü üçün ağlı kəsəndən ad günlərini qeyd etmirdi. «Xocalının qisasını aldıqdan sonra mən özümə ad günü keçirəcəm.» deyirdi. Daxili dünyası vətən sevgisi ilə zəngin idi. İlk dəfə 2003-cü ildə Akademik Zərifə Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbində «Ana, Vətən» sözlərini «Ana Vətən» kimi yazmağı öyrənmişdi. Qəlbinin hər döyüntüsündə vətən kəlməsi çırpınırdı. Ancaq bəzi uğursuzluqlar yaxasından əl çəkmirdi. 2010-cu ildə Heydər Əliyev adına Hərbi liseyə daxil olsa da 2013-cü ildə müəyyən səbəblərdən liseyi bitirə bilmədi. Fərziyyə anamın ən böyük arzusu oğlunun hərbçi olmasını görmək idi. Ancaq liseyi bitirə bilməyən Elməddin vətən sevgisindən dönməyərək 2013 -2014-cü illərdə Naxçıvan Muxtar Respublikasında N sayılı hərbi hissədə müddətli həqiqi hərbi xidmətə getdi. Elməddin hərbi xidmətdə olan zaman anamız amansız xəstəliyə düçar oldu. Ölümlə mübarizə aparan anamın xəstəliyini Elməddindən gizlətdik. Elməddin 2014-cü il iyun ayının 25-də xidmətini davam etdirmək üçün N sayılı hərbi hissəyə kəşfiyyatçı snayper vəzifəsinə göndərildi . 2015-ci il oktyabrın 1-də xidmətini başa vurub ehtiyata buraxıldı. Elməddin evə döndüyündən sonra anamızın xəstəliyindən xəbər tutdu. Cəmi bir neçə ay sonra anamız həyat mübarizəsində məğlub oldu. Anamın itkisi bizi çox dərin yaraladı. Ən böyük yoxluğu yaşadıq. «Bizim evdə biri oldu, biri yox.» Anamı itirdikdən sonra Elməddinlə bir - birimizə tutunduq. Atamı, qardaşımı tək qoymayacağımı özümə söz verdim. Bir ana qayğısı göstərə bilməsəm də bacı nəvazişini qardaşımdan əsirgəmədim. «Anamı hər zaman yanımda hiss edirəm.» deyən Elməddin anamın və özünün ən böyük arzusunu çin etmək xəyalından bir an da dönmədi. Dəfələrlə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi ordu sıralarına qoşulmaq üçün müraciət etsə də qəbul ola bilmirdi. 8-ci cəhdi uğurlu alındı. O, arzusuna çatdı. 2018-ci ildə Xüsusi Təyinatlı Qüvvələrin sıralarına snayperçi kimi daxil oldu. Növbəti hədəf isə Qarabağ arzusu idi. O, bu arzuya açılan qapıdan ilk keçən qəhrəmanlardan oldu. Döyüşə gedərkən nə atama, nə də mənə bir söz demədi. Təlimə getdiklərini, zəng çatmasa narahat olmamağımızı dedi. Ancaq Elməddinin bu vidası başqa idi. Mən onun davranışlarından nələrinsə olduğunu hiss etdim. Yenə də qardaşımın dediyi yalana inanmaq istədim. Son dəfə sarıldım. Bir də ana kimi sarıldım anasızıma və getdi... Günlər sonra top-tüfəng səsinin «müşayiəti» ilə bizə zəng etdi. Ürəyim tir-tir əsdi. Qardaşımın alovun içində olduğunu düşünərək gecəmi gündüz etdim. Elməddin od - alovun içində öz canını deyil yenə bizi düşündü. Elə orada olmağının səbəbi də biz xalq idik. Füzulidə yarılan istehkamlar, alınan torpaqlar Elməddin və onun kimi oğulların azadlıq

tablosunun ilk cızma-qaraları oldu. Sonra o tablo böyüdü. Tabloya Qubadlının Günəşli şəhəri həkk olundu. Ancaq o tablonun qırmızı rəngləri çox idi. 21 oktyabrda Qubadlı istiqamətində gedən döyüşlər zamanı o tabloya Elməddinin də qanı iz saldı. Qanla həkk olan son söz isə Elməddinin son nəfəsə sığdırdığı «Qarabağ bizimdir!» sözü oldu. Qəlbinin gözəlliyi çöhrəsinə yansıyan nur üzlü qardaşımın gülüşü çöhrəsində əbədi dondu. Oktyabrın 26-da qardaşım son dəfə biri olub, biri olmayan evimizin qonağı oldu. O gün həm anamın olmağını istədim, həm anamın olmadığına şükür etdim. Əgər anam olsaydı Elməddini anası ağlayardı deyə üzüldüm, anamın oğul tabutunu gözləri ilə görmədiyinə isə şükür etdim. Dayağım, dəstəyim, hər kəsim olan qardaşım Şahtaxtı kənd məzarlığında bir məzara sığışdı. Ana, qardaş məzarı gözlərimi, ürəyimi dağladı. Ana balasına, bala anasına qovuşdu.

Çavuş Həsənov Elməddin Elşən oğlu həm vətən oğlu adını qazandı, həm də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə «Vətən uğrunda» medalı və «Qubadlının azad olunmasına görə» medalı ilə təltif edildi.

Elməddinin dostuna etdiyi son vəsiyyətini dostu onun dediyi zaman yerinə yetirdi. Elməddinin şəhadətinin 6-cı günündə dostu onun verdiyi bir miqdar pulu sahibinə çatdırdı. Ömrünün hər anında ailəsini düşünən oğul döyüşdə olduğu zaman da əzizlərin düşünmüşdü.





## ŞƏHİD ELMƏDDİN

Dünyanın ən çətin ayrılığına,
Zamansız tuş gəldi mənim ürəyim.
Xəyaldan asılan ana rəsminə,
Hər zaman olurdu mənim gərəyim.

Mənimçün əzizdi ana və vətən,
Biri varım oldu, birisə yoxum.
Anam hansı gecə qonağım oldu,
Həmin yuxum oldu ən şirin yuxum.

Hər ana diləyər Yaradanından,
Övladı layiqli vətəndaş olsun.
Mənim anamın da arzusu idi,
Tək oğlu vətənin hər vaxt qorusun.

Qorudum ay ana, ana vətəni,
Ruhum şəhid kimi yanına gəlir.
Vətəni ürəkdən sevən hər insan,
Elməddin adını fəxrlə deyir.



**BAĞIROV RAMİN NƏRİMAN OĞLU
ÇAVUŞ (MAHHXHQ)
(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## QƏHRƏMAN QARDAŞLAR

Qarabağı görməyən oğulların Qarabağ sevgisini duyduqca bu sevginin İlahi bir sevgi olduğuna bir daha şahid oluruq. Sanki Qarabağ yaralı olduğu üçün daha çox sevilib. Qarabağın işğalından sonra dünyaya gələn uşaqlar necə olub ki, Qarabağa bu qədər bağlı olublar? «Vətən sevgisi qandan gəlir.» deyimi tam yerinə düşür. Demək ki, ailələr Qarabağı o övladların xəyallarında canlandırmağı bacarıblar. Bu onu göstərir ki, zamanın ötməsi bizə Qarabağ adlı həsrətimizi unutdurmayıb, əksinə o həsrət daha da dərinləşib. Əgər belə olmasaydı Qarabağı heç zaman görməyən Ramin və onun kimi oğullar Qarabağ uğrunda canından keçməzdi. Bir zamanlar Qarabağı nağıllardan dinləyən uşaqlar hər biri Qarabağda bir qəhrəmanlıq dastanı yazdılar.

Heç kim bilmirdi ki, 1999-cu il aprelin 19-da dünyaya gələn Bağırov Ramin Nəriman oğlu gün gələcək bir qəhrəman kimi bütün Azərbaycana səda salacaq. Hər kəs onda olan ürəyə valeh olacaq. Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Badamlı qəsəbəsində dünyaya gələn bu qəhrəman oğul Qarabağda şəhid oldu. Ramin hələ 2006-2013-cü illərdə Şahbuz rayon Badamlı qəsəbə tam orta məktəbində oxuduğu zaman





davranışları ilə gələcəkdə bir hərbçi olacağını bəlli edirdi. 2013-cü ildə Heydər Əliyev adına Hərbi liseyə sənədlərini verib və qəbul olub. 2016-cı ildə liseydən məzun olduqdan sonra həmin il Azərbaycan Ali Hərbi Məktəbinə (AAHM) qəbul olub. 3-cü kursda bəzi səbəblərdən məktəbdən ayrılmaq məcburiyyətində qalıb. Bu Ramini üzsə də onu vətən amalından döndərməyib. 2019-cu ildə həqiqi hərbi xidmətə yollanıb.Azərbaycan Ordusunun 2016-cı ildə düşmən tapdağından azad etdiyi Lələtəpədə xidmət edib. Xidmətini başa vurub Naxçıvana qayıtdıqdan sonra ordu sıralarında qalıb vətənə hələ uzun illər xidmət etmək üçün Əlahiddə Ümumqoşun Ordusunun kəşfiyyatçı kursunu keçərək Xüsusi Təyinatlı Qüvvələrin tərkibində kəşfiyyatçı kimi xidmətə başlayıb.

Ramin Bağırovlar ailəsinin ilk və tək vətən keşikçi deyildi. Onun böyük qardaşı Şirməmməd də hərbçi peşəsinə yiyələnib vətənə layiqincə xidmət edirdi. Nəriman Bağırov və iki hərbçi anası Sayimə ana oğlanları ilə qürur duyurdular. İki hərbçi qardaşın tək bacısı olan Aysel xanım da hər zaman qardaşları ilə fəxr edirdi.

Vətən müharibəsi başlanan gündən hər iki qardaş müharibəyə getməyə can atmış, ilk olaraq müharibəyə Ramin yollanmışdı. Oktyabrın 17-də Naxçıvandan Bakıya yola düşəndə zəfər müjdəsi ilə dönəcəyini söz vermişdi. 18 oktyabrda Füzuli istiqamətində döyüşlərə qatılan Ramin daha sonra Cəbrayıl, Zəngilan və Xocavənd uğrunda gedən döyüşlərdə iştirak etmişdi.

Bir həftə öncə Raminin Naxçıvandan Bakıya uçduğu təyyarə ilə 24 oktyabrda Şirməmməd müharibəyə yollanıb. Bir evdən iki oğul Vətən uğrunda mübarizə aparıb. Hər ikisinin amalı bir olan qardaşlar ayrı-ayrı istiqamətlərdə vuruşublar. Füzuli istiqamətində döyüşə başlayıb Daşaltıya qədər irəliləyən Şirməmmədə noyabrın 3-də komandanlıq tərəfindən döyüşdən kənarlaşdırıldığı barəsində əmr verilib. Səbəb kimi də iki qardaşın eyni vaxtda döyüşdə ola bilməməsi göstərilib. Şirməmməd döyüşdən onun yox Raminin uzaqlaşdırılmağını istəyib. Lakin onun ailəli olduğu əsas gətirilərək döyüşdən uzaqlaşdırılıb. Əslində isə səbəb tam başqa idi. İşin əslini Şirməmməd Naxçıvana qayıdanda öyrənib. O, evinə döndüyü zaman həyətlərindən asılan bayrağı gördüyündə dünya gözlərində qaralıb. Sən demə həmin gün Raminin yeddisi imiş. Xocavənd uğrunda gedən

döyüşlər zamanı başından snayperlə vurulan Ramin yeddi gün öncə 30 oktyabrda Şalıbuz rayon Badamlı kənd məzarlığında torpağa tapşırılıb. 27 oktyabrda qardaşı Ramin şəhid olduqdan sonra Şirməmmədin döyüşdən uzaqlaşdırılmaq qərarı verilib. Şirməmməd döyüşdə göstərdiyi şücaətlərə görə "Cəsur döyüşçü" medalı və "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

Ramin vətəni çox gözəl sevdi. Bu sevgi heç bir əngəl tanımadı. Ramin əməli ilə sevdiyinin uğrunda ölməyin nə demək olduğunu sübut etdi. Qəlbi büsbütün vətən sevgisi ilə əhatələnən çavuş Bağırov Ramin Nəriman oğlu Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, «İgidliyə görə» medalı və «Xocavəndin azad olunmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD RAMİN

Allahın sevimli bəndəsi kimi,
Cənnətə övliya olmusan, Ramin.
Hər dəfə azadlıq arzularına,
Ürəkdən deyərdin sən «amin, amin».

Ruhundan ucalan o gözəl arzu,
Ucalıb, ucalıb çatdı Allaha.
Arzun bir gerçəyə döndü, şəhidim,
Çıxdı Qarabağım nurlu sabaha.

O sabah nurunun parlaq şəfəqi,
Şəhadət nurundu, şəhid qardaşım.
Mübariz, qəhrəman bir oğul kimi,
Sən sona çatdırdın vətən savaşın.





## ABDULLAZADƏ TAĞI İLHAM OĞLU ÇAVUŞ (MAHHXHQ) (II Qarabağ müharibəsində şəhid olmuşdur.)



## TAĞININ ÖMÜR VƏ DÖYÜŞ YOLU

Bəzi uşaqlar var ki, gecələr beşiklərində laylay yerinə güllə səsləri eşidiblər. Müharibənin ən sərt üzü də elə budur. Uşaqların öz uşaq xəyallarını yaşaya bilməməsi. Müharibə dəhşətli bir kəlmədir. Hər kəsdən nə isə oğurlayır. Kiminin xəyallarını, kiminin sevincini, kiminin sevgisini, kiminin oğlunu, kiminin atasını. Müharibə Tağıdan uşaqlığını aldığı kimi onun yaxınlarından da Tağını aldı.

Abdullazadə Tağı İlham oğlu 4 may 1992-ci ildə Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhər Dəmirçi kəndində anadan olmuşdur. Doğulduğu illər müharibə illərinə təsadüf etdiyindən Naxçıvanın düşmənin atəşinə məruz qalmasını görə - görə böyümüşdü. Oğullar vətən qeyrətini bir başqa çəkər. Üç bacının bir qardaşı olan Tağı da körpəlikdən böyüyüb vətən qeyrətini çəkmək arzusunda idi.

İllər Tağını böyüdüb bir məktəbli yaşına çatdırmışdı. O, 1999-cu ildə 1 N - li tam orta məktəbdə təhsil almağa başlamışdı. Tağı çox mülayim xarakterə malik bir uşaq olduğu üçün sinif yoldaşları və müəllimlərinin rəğbətini qazanmışdı. 2010-cu ildə orta məktəbi bitirdikdən sonra həmin ilin payızında vətənə xidməti borcunu yerinə yetirmək üçün həqiqi hərbi

xidmətə yollanmışdı. Hərbi xidmətini Ordubad rayonu ərazisində yerləşən dağların qarlı zirvələrində layiqincə yerinə yetirən Tağı xidməti zamanı da bütün tapşırıqlarını zamanında və düzgün yerinə yetirdiyi üçün komandirlərinin və əsgər yoldaşlarının gözlərində ucalmağı bacarmışdı. Xidmətini 2011-ci ildə başa vurduqdan sonra evə qayıtmışdı. Hərbidən qayıtdıqdan sonra da vətən naminə addımlar atmaq istəyindən daşınmayan Tağı Sədərək rayon Heydərabad qəsəbəsində yerləşən orta məktəbdə hərbinin sirlərini məktəbli gənclərə öyrətmək üçün Hərbi müəllim vəzifəsini icra etməyə başlamışdı. Uşaqlarda vətənpərvərlik ruhunun aşılanmasında, onların hər birinin gələcəkdə vətənə layiq bir övlad olması üçün əlindən gələni etmişdi. Lakin bununla kifayətlənmək niyyətində olmamışdı.

Tağı 2014-cü ildə Nuranə xanımı gördüyü an «Ailə quracağım xanım bu xanımdır.» deyib. Sevənlər əvvəlcə sevgilərinin rəmzi olan üzükləri bir-birinə əmanət ediblər, sonra isə gələcək ömürlərini, arzularını.2016 - cı il avqustun 27-də sevənlər ailə qurublar. 2017-ci ildə Allah ailəni övlad sevinci ilə mükafatlandırıb. Tağı oğlu Yusifin azad, suveren bir ölkədə yaşamağı üçün önəmli addımlar atıb. Bir neçə il hərbidən uzaq qalsa da o yenidən hərbiyə qayıtmağa qərar verib və bu yolda ailəsindən dəstək alıb. Yenidən ordu sıralarına qoşulmaq üçün üç aylıq kurs keçdikdən sonra əzmi, gücü və iradəsi ilə Sədərək rayonunda yerləşən N saylı hərbi hissədə xidmətə başlayıb. 1 il xidmət etdikdən sonra Xüsusi Təyinatlı Qüvvələrin sırasına qoşulub.

Hələ uşaq olduğu zamandan düşmənə nifrət bəsləyən Tağı «Bir gün böyüyəcəm, vətənimin keşiyini çəkəcəm, Qarabağı azad edəcəm.» deyirdi. Həmin o gün 2020-ci ilin 27 sentyabrında çatdı. Qarabağa yol alan dəstə-dəstə oğulların arasında yer aldı. Oktyabrın 11-də könüllü olaraq növbəti dəstənin tərkibində Qarabağa getdi. Döyüşlər zamanı düşmənin 35-ə yaxın canlı qüvvəsini məhv edən Tağı düşmənin qorxulu yuxusuna çevrilmişdi. Yenilməz Azərbaycan Ordusunun gücü qarşısında Ermənistan ordusu süquta uğramışdı. Mübarizə apardığı 17 gün ərzində azad olan torpaqlarda Tağının da böyük rolu olmuşdu. Həmin döyüşlər zamanı mühasirəyə düşən döyüş yoldaşlarını mühasirədən çıxarmağa nail olan Tağı o gün neçə ocağın çırağını sönməkdən xilas etmişdi. Döyüşlərdə çox qısa müddətlik fasilə zamanı ailəsinə zəng etdiyində qalibiyyətdən müjdə vermişdi. Sonuncu dəfə 23 oktyabrda ailəsi ilə danışa bilmişdi. Həmin danışıq zamanı ailəsi onun nə qədər sevincli olduğunu səsindən hiss etmişdi.





Ən şiddətli döyüşlər gedən ərazilərdən biri də Hadrut oldu. Düşmən o bölgəni əldən vermək istəmirdi. Ancaq bu sadəcə xülya idi. Bu dəfə 30 ilin pozulan sükutu zəfərlə bitməli idi. Bu minvalla döyüşə atılan oğullar heç bir çətinlikdən qorxmayaraq irəli doğru addımlayırdılar. Oktyabrın 27 - də Hadrutun Tuzluca yüksəkliyində baş verən şiddətli döyüşlər zamanı yaralanan döyüş yoldaşlarını 28 oktyabrda döyüş bölgəsindən çıxarmağa çalışan Tağı düşmənin ağır artilleriyadan açdığı atəş nəticəsində 4 döyüş yoldaşı ilə bərabər şəhadətə ucalıb. Bir neçə gün sonra 2 noyabrda şəhidin nəşi yüksək səlahiyyətli şəxslərin iştirakı ilə Bakıdan Naxçıvana göndərilib. Vətənin işğal adlı dərdini sinəyə çəkməyib, bu dərdin məlhəmi olan Abdullazadə Tağı Sədərək rayonunda vətənə can verən qəhrəmanların dəfn olunduğu Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Çavuş Abdullazadə Tağı İlham oğlu Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, «İgidliyə görə» medalı, «Xocavəndin azad olunmasına görə» medalı və «Şuşanın azad olunmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD TAĞI

Əzəl gündən vətənimə göz dikib,
Müsibət yaşadıb xalqıma yağı.
Ana vətən tapdaq altda qaldıqca,
Elə bil çarmıxa çəkilib Tağı.

Dözərmiydi sonsuzadək oğullar,
Namusumuz olan vətən talansın?
Qəhrəmanlar onun üçün böyüyür,
Bu vətənin keşiyində dayansın.

O arzuyla çəkdi vətən cəfasın,
Bir ocağın bircə oğul murazı.
Həsrət fəsli kimi tarixdə qaldı,
Ömrünün bitdiyi həsrət payızı.



QULİYEV KƏNAN VAQİF OĞLU
ÇAVUŞ (MAHHXHQ)
(II Qarabağ müharibəsində şəhid olmuşdur.)

## VARLIĞINI HİSS ETDİRƏN ŞƏHİD

Hər zaman şəhidlərin əbədiyaşar olduğunu deyirik. Bəs hər kəs şəhidlərin şəhadətlərindən sonra var olduqlarına şahid ola bilirmi? Şəhidlər hər kəsin gözünə görünür və ya yuxusuna gəlirmi? Bu sualları mən deyil mənə vermiş olsaydılar cavabım «Xeyir» olardı. Hər kəs şəhidin varlığını hiss edə bilməz. Mən istər həyatda, istərsə də yuxularımda şəhidlərimizin varlığını hiss edirəm. Bu gün də Kənanı hiss etdim. O hissləri izah etmək çox çətindi. Ruhunla ruhumu duyduğunu duydum şəhid...

- Kənan mənim hər şeyim idi qızım. Atamı itirdim atam oldu, anamı itirdim anam oldu, qardaşımı itirdim qardaşım oldu. O mənim dayağım, şirin sözlüm, gülər üzlüm idi. O qədər yanımlı övlad idi ki, indi yoxluğu ilə bizi yandırıb kül edir. Tək oğul övladım idi. Balamın xoşbəxtliyinə, yarına qovuşmağına elə sevinirdim ki, bilmədim xoşbəxtliyi də, ömrü kimi yarımçıq qalacaq. Yarımçıq yar qoydu getdi. Ayselimin ağ bəxti qara oldu. Oğlum canını vətənə qurban etdi. Oğlumun yarı da özünü sevdiyinin ailəsinə qurban etdi. Qeyrətli gəlinim bir an belə bizi tək qoymadı. Mənim bir qızım, bir oğlum var idi. Qızım ailə qurdu ocağımdan köçdü. Ocağımın işığı Kənanımın ailəsi idi. O da belə yarımçıq qaldı. İndi oğlu-





mun qoxusun gəlinimdən alıram. (Bir şəhid ansından gəlini haqqında bu sözləri duyduğumda göz yaşlarıma hakim ola bilmədim. Nə böyük ürəyiniz var Aysel xanım...) Oğlumun Aysellə bağlı çox arzuları var idi. Ancaq çoxu yarımçıq qaldı. Oğlumun Aysela seçib qoyduğu üzüyü oğlum şəhid olandan 20 gün sonra götürüb Ayselin barmağına taxdım. Bu həyat hər kəsin ürəyinə od saldı.

Quliyev Kənan Vaqif oğlu 1992-ci il sentyabr ayının 11-də Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda anadan olub.1998-ci ildə Culfa rayon Məhərrəm Əsgər oğlu adına 2 N - li tam orta məktəbdə 1-ci sinfə daxil olub. 2009-cu ildə həmin məktəbi bitirib. 2010-cu ildə Naxçıvan Texniki peşə və sürücülük məktəbində B, C, D kateqoriyası üzrə təhsil alıb və 3 il sürücü kimi işləyib. Sürücü işləyən zaman qəzaya düşüb. Amma burnu belə qanamadan çıxıb. Allah Kənanı o gün ölümün bir addımlığında saxlayıb. O vaxt Kənanın həyatda qalmağına şükür edən doğmaları bilmirdilər ki, onun ömür yolu uzun deyil.

Kənanı bir də şəhid xanımı adını layiqincə daşıyan, Kənanın atasına «ata», anasına «ana» deyən, Kənan gedəndən sonra bir an belə o ailəni tək buraxmayan Aysel xanımdan soraq aldım. Bu ailənin təməlində böyük sevgi olduğunu hiss etmişdim və yanılmadım. 7 illik bir sevgi. Hər anı xoş xatirə, hər anı səadətlə dolu sevgi hekayəsi. Gənclərin baxışları hələ tələbə vaxtlarında qəlblərinə toxunmuşdu. İllər ötdükcə sevgiləri daha da böyüyən, dərinləşən Kənan və Aysel 17 noyabr 2018 - ci ildə sevgilərini nigahla hər kəsə bəyan etmişdilər. Bu ailənin xoşbəxliyinə sevinənlər çox idi. Aysel sanki Kənanla tamamlanmışdı. Kənan ata həsrəti çəkən qıza bəzən ata qayğısı göstərmiş,bəzən qardaş, bəzən də sirdaş olmuşdu. Ailə ailənin yeni üzvünün gəlişi ilə xoşbəxtliyə qərq olsa da lakin körpələri cəmi 1 həftə ömür yaşamışdı. Məsum mələk 26 oktyabrda cənnətə gedib 1 il sonra gələcək atasını gözləmişdi.

Kənanın ürəyi vətənlə bir döyünürdü. Hər dəfə deyirdi «Qarabağa basılan düşmən ayağını ürəyimin üstündə hiss edirəm.» O ayaqların o torpaqlardan kəsiləcəyi zamanı səbirsizliklə gözləyirdi. Tək oğul olmasına baxmayaraq hər zaman müharibə başlasa könüllü gedəcəyini dilə gətirirdi. Şəhidlik Kənanın ən böyük arzusu idi. Vətən müharibəsi başlanan ilk gündən Naxçıvana şəhid xəbərləri gəlirdi. Bir dəfə Naxçıvana gələn şə-

hidin nəşini qarşılamağa tələsən Kənan «Mən mütləq oraya getməliyəm. Mən bu gün o dəfnə getməsəm səhər mən də çiyinlərdə gələndə heç kim məni qarşılamağa gəlməz.» deyib. Sanki ürəyinə damıb. Həmin gündən bir neçə gün sonra ailədə heç kimə demədən könüllü olaraq döyüşlərə yollanıb. Ailəsi onu dağda bilib. 2 gün sonra Kənan atasına zəng edib «Bu yolun gedişi var dönüşü yoxdu. Aysel və anam sənə əmanətdi. Haqqınızı halal edin.» deyib. Oktyabrın 22-də Xocavənd - Qubadlı istiqamətində səhərə yaxın saat 5-də güclü döyüş başlayıb. Kənanda ən ağır silah olub. Həmin silahla bir çox döyüşlərdə 50-60-a yaxın erməni zabitini məhv edib. Ermənilər onun qarşısını yalnız snayper atəşi ilə ala biliblər. Kənanın sevgi dolu ürəyi bir anda al qana qərq olub. Tuğ kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Oktyabrın 24-də Kənanın şəhid olduğu xəbəri ailəsinə deyilib. Nəşi 26 oktyabrda doğulduğu torpağa gətirilib və Culfa şəhər məzarlığında torpağa tapşırılıb.

Çavuş Quliyev Kənan Vaqif oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, «Hərbi xidmətdə fərqlənməyə görə» medalı, «Şuşanın azad olunmasına görə» medalı, «Füzulinin azad olunmasına görə» medalı və «Xocavəndin azad olunmasına görə» medalı ilə təltif edilib.

Kənan şəhid olduqdan sonra dəfələrlə ailə üzvülərinə varlığını istər həyatda istərsə də yuxularda aşkar edib. Bəzən o qədər yaxın olur ki, onun bu dünyada olmadığına inanmaq mümkün olmur. Onun ruhunun sevdiklərinin yanında olmağı barəsində çox danışdılar. Ancaq bir hadisə mənə çox təsir etdi.

Kənan şəhid olduqdan bir müddət sonra yanvarın 19-dan 20-nə keçən gecə atasının yuxusuna gəlib «Ata, sabah işə getmə.» deyib. Ertəsi gün atası işə getməyib. 20 yanvar faciəsi ilə əlaqədar evi ziyarətə gələn qonaqlar da çox olub. Bu zaman qapı döyülüb. Hər kəs qapını döyəni içəri dəvət etsə də içəri heç kim girməyib. Qapıya doğru gedən ev sakinləri qapıda heç kimin olmadığını görüblər. Dəfələrnən o qapı elə döyülüb. Ailə bunun Kənan olduğu qənaətindədi. Kənan yuxulara da tez-tez gəlir. Hər zaman da cəmi 1 həftə yaşayan oğlu ilə cənnətdə birlikdə olduqlarını deyir. Yuxuda görənlər onu müqəddəs yerlərdə, cənnətdə görürlər. Kənan həm varlığını, həm cənnətini çox insanlara aşkar edib. Cənnətin əbədi sakini, adın bu dünyada əbədi var olacaq.





## ŞƏHİD KƏNAN

Bu dünyadan gen düşsən də,
Bir nəfəs qədər yaxınsan.
Dünya bir cənnətə dönər,
Sən ruhun ilə toxunsan.

Yuxularda cənnətindən,
Danışırsan dosta, yada.
Sən qərar tuta bilmədin,
Fani olan bu dünyada.

Vətən dərdi sıxdı sənin,
Bala dərdli ürəyini.
Körpəykən məzara qoydun,
Bala adlı mələyini.

İstəyirdin heç bir ana,
Daha balasız qalmasın.
Qarabağın bitməz dərdi,
Gələcəyə uzanmasın.

Sən bitirib o savaşı,
Tarix yazdın, şəhid Kənan.
Səni məzarda axtarır,
Atan, anan bir də sonan.



**ALMƏMMƏDOV İMAN TARVERDİ OĞLU ÇAVUŞ (MAHHXHQ) (II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## DƏNİZ GÖZLÜ ŞƏHİDİM

Kürəyindən zərbə alan bir xalqın heç zaman intiqam alovu sönmür. Nə ötən illər, nə də qərinələr o keçmişin izini silə bilmir. Əksinə o qisas böyüyür. O qisasın böyüdüyü ürəklər ilk döyüntülərində bu vətənə sevdalanır. İlk sözləri də son sözləri də «Vətən» olur. «Vətən» kəlməsi ilə dil açan körpələr böyüyüb Qarabağa ayaq açdılar. O Qarabağa ki, azərbaycanlı addımının izinə həsrət qalmışdı. Ancaq həsrət 2020 - ci ildə bitdi. Həsrəti bitirən isə Alməmmədov İman kimi oğullar oldu.

İmanın özü ilə bərabərində böyümüşdü vətən sevgisi. 1999-cu il mayın 17-də Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Kolanı kəndində dünyaya göz açmışdı. Onlar bir ocaqda üç qardaş böyümüşdülər. Qardaşların ortancılı İman idi. 2005-ci ildə ibtidai təhsilini Kolanı kənd orta məktəbində almış, daha sonra isə V sinifdən XI sinfə qədər Vayxır kənd tam orta məktəbində təhsilini davam etdirmişdi. Eyni zamanda idmanın qaydasız döyüş növü ilə məşğul olmuş və 2-ci yerin sahibi olmuşdu. Məktəbi bitirdikdən sonra Naxçıvan Regional Peşə Tədris Mərkəzində « traktorçu, maşınçı» peşəsinə yiyələnmişdi. Daha sonra qeyrətli vətən oğulları kimi vətən xidmətini çəkməyə yollanmışdı. Xidmətini





Culfanın Kilid yüksəkliyində keçmişdi. Xidmətini başa vurduqdan sonra da könüllü olaraq müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) kimi orduda qalıb vətənə xidmət etmişdi. İman kəşfiyyatçı kimi peşəkar idi. O, bunu Vətən müharibəsində sübut etdi.

Hər şəhid dərdli könül qapısını döydüyümdə nə ilə qarşılaşacağımı yaxşı bilirəm. Mahruqə anadan oğlunu xəbər alarkən hər bir kəlmə göz yaşının şahidliyi ilə dilə gəldi.

- Qeyrətli oğlum vətən qeyrətini layiqli şəkildə çəkdi. İki oğlum vətənə xidmət edirdi, üçüncü oğlumun da xidmətə getməyinə az qalıb. İman şəhid olduqdan sonra Valeh çox can atır ki, qardaşının şəhid olduğu torpaqlara gedib o torpaqlarda xidmət etsin. Qardaşı vətən sevgisini İman kimi bütün sevgilərdən öndə bilir. İman nişanlı idi. Sevdiyi xanımla sevgilərini əbədiləşdirmək istəyirdi. Nişan üzüyünü apreldə taxmışdı sevdiyinin barmağına. Toy edəcəkdi ancaq nənə, babasının dünyasını dəyişdiyi səbəbindən toyu ləngidi. Müharibə başlayandan isə oğlum ipə-sapa yatmırdı. Müharibəyə getmək üçün könüllü müraciət etmişdi. Oktyabrın 11-də Qarabağa gedənlər arasında yer almışdı. Getməzdən öncə evimizə gəldiyində müharibəyə gedəcəyi barəsində bizə heçnə demədi. Təyyarədən zəng edib "Sağlıqla qalın, Mətin gilin yanına gedirəm." dedi. Mətin xalası oğludu. O da müharibədə idi. İman Naxçıvan səmalarında gözdən itdi. Həmin gedişdən sonra bütün cahan mənə dar oldu. Füzulidə yaşayan xalasına «Gəlmişəm səni qoruyam, Füzulini sizə qaytaracağıq.» deyib. Müharibədə olan zaman arabir zəng edirdi. Torpaqlarımızın azad olunduğu üçün qürurlu idi. Son dəfə noyabrın 9-da Şuşa şəhərindən zəng elədi. Səsi bir qəribə gəlirdi. Sən demə mənim dəniz gözlüm həmin an yaralı imiş. Dedi «Ana qurtardıq, Qarabağ azaddır.» Gəldiyində ona toy edəcəyimi dedim. O qədər arzularım var idi. Arzularımızı bir - bir bölüşdük, sonra sağollaşdıq. Axşam saatlarında qəfil ürəyim sıxıldı. Sanki göy üzü üzərimə çökmüşdü. Ürəyim partlayırdı. Dedim İmanıma nəsə oldu. Demə o anda oğlumu yaralı halda xəstəxanaya çatdırmaq istəyən avtomobil minaya düşüb (qəzaya düşdüyü də deyilir) və İman o an şəhid olub. «Ana ürəyi hiss edər» deyirlər. Mən də hiss etdim. Sonradan İmanın göstərdiyi şücaətləri duyduqca ürəyim köksümə sığmadı. İman 25 hərbçi ilə Şuşanın Topxana meşəsində mühasirəyə düşüb. Komandirlər onlardan əllərini

üzdüyü vaxtda bir də görüblər İman gəlir. Peşəkar kəşfiyyatçı olan İman həmin mühasirədən çıxmağı bacarmış və döyüş yoldaşlarını xilas etmək üçün əlavə güclə həmin yerə qayıtmışdı. İmanın sayəsində həmin mühasirə yarılmış, 25 həyat xilas olmuşdu. Komandiri deyirdi «Bir dəfə düşmən tankı düz İmanın üzərinə sürdü. Biz ondan ümidimizi kəsdik. Tank keçdikdən sonra bir də gördük ki, İman ayağa durub üst - başını təmizləyir. Düşmən gülləsi, tankı onu məğlub edə bilmirdi. Dəyanətli oğul idi.» İmanın xatirələri, arzuları ürəyimi dağlayır. Balamçün tutduğum xonçaları məzarına düzdüm. Mən bəy otağı bəzəmək yerinə məzar bəzədim. Xınası qanla qarışan oğlum, deyib qovruluram. Göy üzünə baxanda elə sanıram ki, dəniz gözlümün gözləri göy üzünün mavisinə qarışıb. Elə bilirəm İman göy üzündən mənə baxır. Axı deyirlər «Şəhidlər göylərə ucalır.» Balam həm göyə ucaldı, həm ürəklərdə ucaldı. Xalqın oğlumun adını uca tutması məni ayaqda tutur. Bir ana üçün İman kimi oğul itirmək asan deyil. İman deyirdi «Ən gözəl qoxu anamın qoxusudu. O qoxunu heç bir şey əvəz edə bilməz.» Mən də deyirəm ən gözəl qoxu İmanımın qoxusudu. Onu heç kim əvəz edə bilmir.

Çavuş Alməmmədov İman Tarverdi oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, «Xocavəndin azad olunmasına görə» medalı, «Füzulinin azad olunmasına görə» medalı və «Şuşanın azad olunmasına görə» medalı ilə təltif edilib.





## ŞƏHİD İMAN

Gözlərin vətənin lap özü kimi,
Qəlbi ram edirdi, sevindirirdi.
Mənalı baxışın daxilindəki,
Bütün gözəlliyi aşkar edirdi.

Sənin ürəyinin vətən sevgisi,
Coşub, çağlayırdı ümmanlar kimi.
Sənin tək qəhrəman oğullar sıxdı,
Vətənin uzana qalan əlini.

İndi səndən bizə bir miras qalıb,
Qanla qazanılan azadlıq, İman.
Vətənin işıqlı gələcəyinə,
Öz gələcəyini sən etdin qurban.

Anan məzarının üstünə düzdü,
Oğulçün tutduğu toy xonçaların.
Heç bir kəs sağalda bilməyəcəkdi,
Qəlblərin sən adlı dərd, yaraların.



**MƏMMƏDOV KƏMALƏDDİN İSRAİL OĞLU ÇAVUŞ (MAHHXHQ) (II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## ŞUŞADA BİTƏN ÖMÜR

Həzin - həzin payız mehi sanki Qarabağın qoxusunu gətirirdi. Gözləri yola dikilən Nəzakət ana ağacdan bir-bir qopub düşən yarpaqlara nəzər saldıqca ürəyi titrəyirdi. Sanki o gün havada bir təlatüm var idi. Yoxsa ana ürəyi hiss etmişdi? Yox, bu qədər nigarançılıq səbəbsiz ola bilməzdi. Havadan da Kəmaləddinin qoxusu gəlirdi. Yoxsa Kəmaləddinin o an cismi yaşamdan qopub yarpaqla bir düşdü, ruhu anasınamı sarıldı? Bir anda cahan sanki zülmətə qərq oldu. Uzaqdan, lap uzaqdan Kəmaləddinin doğulduğu günün xatirələri boylandı.

Necə xoşbəxt idi həmin gün Nəzakət ana. Ocağına ikinci övlad qədəm qoymuşdu. Atası İsrail Məmmədov da sevincini gizlətmirdi. 1996-ci il sentyabrın 10-u bu ailə üçün unudulmaz bir günə çevrildi. Məmmədov Kəmaləddin İsrail oğlunun dünyaya gəldiyi o günün bir neçə il sonra bütün xalqın yaddaşına yazılacaq bir gün olacağı o zaman bəlli deyildi. Üç qardaş bir-birinə dayaq oldular. Üç uşaq zəhmətin iz saldığı cadarlı əllərin bəhrəsi ilə böyüdülər . Haramdan uzaq olmaq bu ailə üçün lap öndə dayanan qanun idi.

2003-cü ildə ailənin sevinci bir qədər də artmışdı. Kəmaləddin artıq bir məktəbli kimi həyat yollarında önəmli bir pilləyə addım atmışdı. Doğulduğu Xok kəndində ilk təhsilini alan bu məktəblinin gün gələcək bütün Kəngərlinin, Naxçıvanın, hətta Azərbaycanın qəhrəman oğlu kimi tanınacağından hər kəs xəbərsiz idi. Kəmaləddin 11 illik təhsilini 2014 - cü ildə başa vurmuşdu. Bir neçə ay sonra 20 oktyabr 2014-cü ildə hərbi xidmətə yollanmışdı. 2016-cı ildə xidmətini başa vurmuşdu. Lakin onun vətən sevgisi yolunu yenidən vətən səngərindən salmışdı. Könüllü olaraq müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) kimi ordu sıralarına qoşulmuşdu. Əsil Azərbaycan oğlu kimi vətənin azadlıq mübarizəsində son nəfəsinə qədər mübarizə aparmışdı.





Kəmaləddin bir çox ərazilərin düşməndən azad olunmasında əsil qəhrəman kimi vuruşub. Onun döyüş yoldaşları Kəmaləddinin necə bir qəhrəman olduğunu dilə gətirdikdə ordumuzun elə bir hərbçini itirməsinin məyusluğunu da dilə gətirirlər. Neçə-neçə ərazilərimizin azad olunmasında son damla qanına qədər mübarizə aparan Kəmaləddin Cəbrayıl, Qubadlı, Xocavənd və Şuşanın azad olunmasına səbəb olan əsgərlərdən biri olub. Şuşanın azad olunduğu günün sevincini elə Şuşada yaşayıb. Lakin 9 noyabrda dostunu xilas etməyə çalışarkən öz canından olub və şəhadətə ucalıb. Noyabrın 13-də cənazəsi anadan olduğu ata-baba yurdu olan Xok kəndində kənd məzarlığında torpağa tapşırılıb.

Şücaəti ilə dildən-dilə düşən Çavuş Məmmədov Kəmaləddin İsrail oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əmrinə əsasən şəhadətə ucaldıqdan sonra «İgidliyə görə» medalı, «Vətən uğrunda» medalı və «Şuşanın azad olunmasına görə» medalı ilə təltif edilmişdir.

## ŞƏHİD KƏMALƏDDİN

Qanınla Şuşada bir tarix yazıb,
Düşdün könüllərə bir qəhrəman tək.
Bu vətən var olub, yaşasın deyə,
Susdu əbədilik sinəndə ürək.

Kəmaləddin, adın dillərə əzbər,
Yolun sabahların ümid yoludur.
Sənin tək qeyrətli övladı olan,
Bu xalq müqəddəsdir, bu xalq uludur.

Ruhun qarşısında baş əyib önə,
Adını qürurla, eşqlə deyirik.
Vətənin sayəndə yaşadığını,
Bizlər xalq olaraq gözəl bilirik.

Azadlıq eşqinlə yurda can verib,
Müqəddəs zirvəni sən də fəth etdin.
Adın dilimizdə şüara döndü,
Şəhid tək bu fani dünyadan getdin.





**NOVRUZLU PƏRVİZ QORXMAZ OĞLU**
**ÇAVUŞ (MAHHXHQ)**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**



## SONUNCU AD GÜNÜ

Astaca, lap astaca «Vətən sonuncu nəfəsim azadlığının açarıdı.» dedi vətən oğlu. Bu pıçıltı xalqın ürəyini etizaza gətirdi. Son nəfəsin qüdrətinə baxın. Görün necə böyük bir qüvvədi son nəfəs. Bircə anda ürəkdən ürəyə yol açdı. Bu İlahi bir qüvvədi. Axı elə şəhidlər İlahinin bəxşişidir. Şəhidə olan sevgi şəhidin sevgisi qədər saf, sonsuz olur. Bu eşqin gücündən şəhid doğulur. Hər ürəkdə böyüyür şəhid adı. Hər ürəkdə şəhid Pərviz sevgisi tumurcuqlanır. Adın qəlbimdədir vətən oğlu.

Novruzlu Pərviz Qorxmaz oğlu 1997-ci il oktyabrın 15-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Çərçiboğan kəndində dünyaya göz açmışdır. Ailədə 4 övlad olmuşdular. Evin ən sonuncu sakini də Pərviz olmuşdu. Ancaq həyatdan ən tez ayrılan da Pərviz olmuşdu. 2004-cü ildə Çərçiboğan kənd tam orta məktəbində təhsil almağa başlamış, 2015-ci ildə elə həmin məktəbin məzunu olmuşdu. Hərbçi olmaq ən böyük arzularından biri idi. 18 yaşın tamam etmək üçün ötən günləri sayırdı. Ötən hər gün onu vətən keşiyini çəkmək arzusuna çatdırırdı. Məqamı çatanda Pərviz də əsil vətən oğlu kimi ordu sıralarında xidmətə başlamış, xidmətini Naxçıvan Muxtar Respublikasında N saylı hərbi hissədə keçmişdi.

Hərbi xidməti dövründə 15-17 avqust 2016-cı il tarixində keçirilmiş "Ən yaxşı kəşfiyyat qrupu" yarışında I yer tutduğuna görə fəxri fərmana layiq görülmüşdü. Xidməti dövründə rəğbət qazanmağı bacarmışdı. 2017-ci il mart ayının 23-də hərbi xidməti kəşfiyyatçı əsgər kimi başa vurmuşdu. Bir zaman hərbçi yoldaşlarının arzularında «Ad gününü Qarabağda qeyd edəsən.» sözləri yer almışdı. İllər sonra o arzu gerçək oldu. O arzunun çin olduğu gün əslində bir xalqın arzusu çin olmuşdu. Bu arzuya uzanan yolun başlanğıcı 2020-ci ilin iyulunda başlamışdı. Pərviz arzusunda olduğu MAHHXHQ kursunu uğurla tamamlamış və yenidən vətənə xidmətə başlamışdı. Arzusu isə Qarabağı azad etmək idi.

27 sentyabrdan vətənin dörd bir yanına Qarabağdan azadlıq müjdələri çatırdı. Bütün qəhrəman oğullar kimi Pərviz də Qarabağın azadlıq mübarizəsinə qatılmaq arzusunda idi. Könüllü olaraq müraciət etmiş və «hə» cavabın almışdı. Sonuncu dəfə oktyabrın 8-də evlərinə gəlmişdi. Anasına bir neçə günlük dağa gedəcəklərini, bunun üçün də isti paltar və azuqə lazım olduğunu demişdi. Oktyabrın 11 -də Naxçıvandan Qarabağa gedən növbəti heyətin üzvüləri arasında Pərviz də yer almışdı. Cəbrayıl, Füzuli, Xocavənd, Laçın və Şuşada vətən torpaqlarının müdafiəsində sona qədər mübarizə aparmışdı. Döyüşlər zamanı dörd dəfə ailəsinə zəng edə bilmişdi. Bir zamanlar ona arzu edilən «Ad gününü Qarabağda qeyd edəsən.» arzusuna 2020-ci il oktyabrın 15 - də çatmışdı. 23 yaşını Xocavənddə döyüşərək qeyd etmişdi. Bu onun sonuncu ad günü, ömrünün sonuncu payızı olmuşdu.

Döyüş yoldaşının dediyinə görə Pərviz şəhid olacağını öncədən hiss etmiş və dilə gətirmişdi. Şəhid olmazdan öncə vətəni xilas edən qəhrəman bir neçə silahdaşının da həyatını xilas etmişdi. O, yaralı döyüş yoldaşını 2 km çiynində daşıyıb təxliyə maşınına çatdırmışdı. Şuşa uğrunda gedən döyüşlərdə mühasirəyə düşən qəhrəman 6 gün ac-susuz mühasirədə qalmışdı. O zaman xilas olan qəhrəmanın şəhadəti unudulmaz bir gündə olmuşdu. Şuşadan zəfər müjdəsi yetirən qəhrəman noyabrın 9-da Bayraq günü şanlı bayrağımızı Şuşada dalğalandırdıqan sonra Qələbəyə cəmi bir neçə saat qalmış şəhadətə ucalmışdı. Son damla qanı müharibənin sonuncu günü torpağa damlayan Pərvizin şəhid xəbəri 14 noyabrda ailəsinə verilmişdi. Hər kəsin sevimlisi olan, böyük-kiçik yeri bilərək onu





tanıyanların ürəklərini fəth edən qəhrəman şəhadəti ilə bütün Azərbaycan xalqının ürəyinə yol tapdı. 17 noyabrda Pərvizin nəşi Şərur rayon Şəhidlər Xiyabanında torpağa tapşırıldı.

Çavuş Novruzlu Pərviz Qorxmaz oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əmrinə əsasən şəhid olduqdan sonra «Vətən uğrunda» medalı, «Xocavəndin azad olunmasına görə» medalı və «Şuşanın azad olunmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD PƏRVİZ

Olmaz şəhidlərin ölüm qorxusu,
Şirindi dərindən-dərin yuxusu.
Şəhidin keçdiyi müqəddəs yoldan,
Keçib getmək istər indi çoxusu.

O yolun kandarın ömürlər hörüb,
Pərviz də o yolda son dəfə gülüb.
Qəlbini ram edən vətən sevgisi,
Bütün sevgiləri yarıda bölüb.

Zəfərin sevincin yığıb qəlbinə,
Canla həmdəm olub vətən dərdinə.
Vətən həsrətini sona çatdırıb,
Qəlbdə yelkən açıb öz həsrətinə.



**RZAYEV KƏNAN ƏBDÜRRƏHMAN OĞLU ÇAVUŞ (MAHHXHQ)**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## VƏDİNƏ ƏMƏL EDƏN ŞƏHİD

Vətənə əsil vətəndaş olmağı bacaran şəhidlər vətəndaşların gözdə yaşına çevrilib. Hər şəhidin nakam qalan arzuları ilə qəlbimiz dağlanır. Özümüzü şəhidlərin geridə buraxdıqlarının yerinə qoyduqca ürəyimizin yanğısı artır. Şəkillə danışan ata - analar, gecələrin zülməti bəxtlərinə yansıyan yarlar, məzar daşına sığınan körpələr... Bu insanların nə qədər böyük həyat sınağı ilə sınandıqlarının fərqinə varmaq çətin deyil. Hər birinin dərdi kimi fəryadı da birdi. Axı hər biri «şəhid» deyib ağlayır.

Bahar ananın oğul dərdini duyduqca ürəyim qübar bağladı. «Kaş ki, Kənanım bircə dəfə ürəyimə toxunacaq bir hərəkət edərdi. Kaş ki, bu qədər yaxşı övlad olmasaydı. Mən bu gedişlə barışa bilmirəm.» deyən ananın fəryadı hər gün göyə ucalır. Ana ürəyi 25 yaşlı oğul həsrətinə dözmür.

1995-ci il sentyabrın 12-də Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Qızılca kəndində anadan olmuşdu Rzayev Kənan Əbdürrəhman oğlu. 2002-ci ildə Qızılca kənd tam orta məktəbində I sinfə qədəm qoymuşdu. 2011-ci ildə məktəbi bitirmişdi. Elə həmin il vətənə xidmət etmək üçün hərbi xidmətə yollanmışdı. Xidmətini Culfa rayonunun Qıvraq qəsəbəsində yerləşən N saylı hərbi hissədə kəşfiyyatçı kimi başa vurmuşdu. Evə döndükdən sonra qardaş ölkə Türkiyə Cümhuriyyətinə getmiş və 4 il vətəndən uzaqda yaşamışdı. Ancaq vətən sevgisi sonsuz olan qəhrəman yenidən vətənə dönmüşdü. 2020-ci ildə MAHHXHQ kursunu uğurla keçdikdən sonra ordu sıralarına qoşulmuşdu. 3 ay xidmət etdikdən sonra Vətən müharibəsi başlamışdı. Müharibənin başladığını eşitdiyi anda könüllü olaraq adını yazdırmış və vətənin dar məqamında önə atılmışdı. Anasının narahat olduğunu gördükdə isə «Mən ölən oğullardan artıq deyiləm. Dönüşüm necə olur olsun möhkəm olun.» demiş, oktyabrın 18 -də vətən qəhrəmanı Vətən müharibəsində boy göstərmişdi. Son zəngi oktyabrın 18 - də olan Kənan «Məndən nigaran qalmayın. Anama yaxşı baxın. Biz müharibəni bitirməliyik. Mən getməsəm gələcək nəsillər yenə müharibənin acısını çəkəcəklər. Bu müharibə bir dəfəlik nöqtələnməlidi. Həmin nöqtəni biz qoymalıyıq.» demişdi. Bu sözlər Kənanın son sözləri, son vəsiyyəti olub. Ondan sonra Kənanla əlaqə saxlamaq mümkün olmayıb. Kənan hər zaman verdiyi sözə əməl etdiyi kimi yenə də sözünü tutub, vətəni azadlığa qovuşdurub. Bir çox ərazilərdə gedən döyüşlərdə iştirak edən qəhrəman Tuğ kəndi uğrunda gedən intensiv döyüşlərdə son nəfəsinə qədər mübarizə aparıb və elə həmin döyüşlər zamanı da qəhrəmancasına şəhid olub.

Günlər keçdikcə hər kəsin nigarançılığı artırdı. Axı Kənan sevdiklərini xəbərsiz qoymazdı. Hər ötən an acı gerçəyi daha da yaxınlaşdırırdı. 24 oktyabrda əvvəlcə Kənanın yaralı olduğu deyilsə də sonra ailəsinə bayraq təhvil verib «Başınız sağ olsun.» deyilib. O cümlə bütün ümidlərə nöqtə qoyub. Bir il öncə toyu olan Kənanın hələ bəy otağının qırmızı lenti açılmamış o otağın qapısı bağlı qalıb. Kənan yenicə doğulan körpəsindən doymamışdı. Bu nakam taleyə hər kəs ağlayır.

Kənan müharibəyə getməzdən əvvəl kartını dostuna həvalə edib «Dönsəm təhvil alacam, dönməsəm anama təhvil verərsən. Deyərsən ən gözəl ölüm şəhid olmaqdı.» deyib. Hər şeyi əvvəlcədən bilirmiş kimi bəzi addımlar atıb.

Qarabağa qurban olan Kənanın cansız cismi oktyabrın 26-da Naxçıvan Muxtar Respublikasına gətirilib. Bütün vətəndaşlar vətən şəhidini layiqli şəkildə qarşılayıb və həmin gün izdihamlı dəfn mərasimi ilə Culfa rayon Qızılca kənd məzarlığında torpağa tapşırılıb.

Çavuş Rzayev Kənan Əbdürrəhman oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, «Hərbi xidmətlərə görə» medalı, «Xocavəndin azad olunmasına görə» medalı və «Şuşanın azad olunmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD KƏNAN

Ana yurdum, səndən doymaq nə mümkün?!
Qoxunu qəlbimə sıxıb gedirəm.
Vətənə can qurban edənlər kimi,
Öz canımı sənə sipər edirəm.

Mən olmasam zərər, ziyanı olmaz,
Sən olmasan sonun olar təməli.
Vətənimin bu günündən bəllidir,
Qan - qadalı keçmişləri, dünəni.

«Kənan» deyib fəryad etsə də anam,
«Vətən» deyib gözü yolda qalmasın.
Xarıbülbül çiçək açar zamanda,
Düşmən əli o gülə toxunmasın.







## İBRAHİMOV QURBAN NAMİQ OĞLU ÇAVUŞ (MAHHXHQ)

**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## «VƏTƏN» DEYƏN OĞULLAR

Bəzi ömürlər var vətəndən başlayıb vətəndə bitir. Elə bil o insanlar elə vətən üçün dünyaya gəlir. O həyata nəzər salanda həyatın hər anının vətənlə bağlı olduğuna şahid oluruq. Həmin insanlar hər anlarında «Vətən» deməyi bacaranlardı. İbrahimovlar ailəsinin isə hər 3 oğul övladı «Vətən» deməyi bacardılar. Hər 3 qardaş hərbçi peşəsinə yiyələnib vətənə layiq olmaq üçün addımlar atdılar. Böyük qardaş İbrahimov Aftandil illərdi ki, Dövlət Sərhəd Xidmətində çalışır. Digər qardaş İbrahimov Əli xidmətdən artıq çavuş kimi Xüsusi Təyinatlı Qüvvələrdə xidmət edib. 2018-ci il may ayında Günnüt kəndinin işğaldan azad olunmasında böyük rolu olub. Həmin ilin iyul ayında döyüş tapşırığını yerinə yetirib geri qayıdarkən hərbi maşının qəzaya uğraması nəticəsində bir çox xəsarətlər alıb və ehtiyata buraxılıb. Üçüncü qardaş Qurban isə Vətən müharibəsi şəhidi kimi adını tarixə yazıb.

İbrahimov Qurban Namiq oğlu 5 iyun 1998-ci ildə Kəngərli rayonunun Qabıllı kəndində anadan olub. Ailədə 4 övlad (3 oğlan, 1 qız) olublar. Qurban 2004-cü ildən 2015-ci ilə qədər Qabıllı kənd tam orta məktəbində təhsil alıb. 2016-2017-ci illərdə Xüsusi Təyinatlı Qüvvələrdə kəşfiyyat-

çı-istehkamçı vəzifəsində xidmət edib.2019-cu ilin dekabr ayında Naxçıvanda Xüsusi Təyinatli Qüvvələrdə kəşfiyyatçı snayper vəzifəsində çalışıb. Bir çox nailiyyətləri olub. Orduda keçirilən yarışda birinci yeri tutan Qurban fərqləndiyi üçün təşəkkürnamə və fəxri fərmanla təltif edilib.

Qurban vətən qurbanı olmağın mükafatından xəbərdar idi. Hər zaman namazlarında özünə vətənə can verən şəhidlərin şəhadətindən arzu edərdi. O, gözəl bilirdi ki, şəhidlər cənnətə sorğu - sualsız girən kəslərdi. Ona görə də bu müqəddəs yolun yolçusu oldu.

Qurban yoxluğu uşaqlıqdan dərk etmişdi. Kasıb bir ailədə böyüsə də onun kasıblığı mənəviyyatına sirayət etməmişdi. Mənəviyyatca çox zəngin bir insan olmuşdu. Hər zaman təbəssümü ilə ətrafını da sevindirməyi bacarmışdı. Elə döyüşə də gülə-gülə getmişdi. Son dəfə evdən çıxanda növbəyə getdiyini demişdi. Səhəri gün zəng edəndə onun səsindən sevinci duyulmuşdu. Vətənpərvər ruhda musiqilər oxuya-oxuya döyüşə yollanan Qurbana qardaşının sözləri bu olmuşdu:

- Getdiyin yol şərəfli yoldu. Bu yolu getmək hər kəsə qismət olmur. Necə dönürsən dön sənlə fəxr edəcəm, qardaşım. Ancaq çalış ki, sağ qayıdasan. Sənə ehtiyacımız var.

Qurbanın cavabı isə :

- Qardaşım, alnımıza nə yazılıbsa odur. Biz öhtəmizə düşənləri etməliyik deyib və göy üzünün sonsuzluğunda gözdən itib.

Oktyabrın 11-də Naxçıvandan gedən ilk Xüsusi Təyinatli dəstə ilə Qurban da Qarabağ uğrunda döyüşlərə qatılıb. Hadrut, Cəbrayıl, Xocavəndin işğaldan azad olunması üçün sonadək mübarizə aparıb. Ən şiddətli döyüşlərin getdiyi Laçın dəhlizində döyüşən qəhrəmanın son döyüşü Şuşa uğrunda olub. Şuşaya girmədən öncə ayağından yara almağına baxmayaraq o mübarizəsini davam etdirib. Döyüş yoldaşlarının təkidinə baxmayaraq «Bu yara ölümcül yara deyil. Mən yoldaşlarımı döyüş meydanında tək buraxa bilmərəm.» deyib və son damla qanını fəda edənə qədər mübarizəsindən dönməyib. Düşmənin bir çox canlı qüvvəsini məhv edən Qurban Şuşa azad olunduqdan sonra Qələbəyə çox az zaman qalmış yaralı döyüş yoldaşlarını döyüş bölgəsindən təxliyə edərkən başından aldığı minamyot qəlpəsi nəticəsində şəhid olub.

Qurbanın şəhid xəbəri doğmalarının duya biləcəyi ən ağır xəbər idi.





Xəbəri ilk olaraq şəhidin atası Namiq İbrahimov alıb. Bu xəbər atanın qaldıra biləcəyi bir xəbər deyildi. O an digər övladlarına oğlunun şəhidlik xəbərini necə verəcəyini düşünən ata dünyanın ən çətin anı ilə üz-üzə qalıb. Şəhid xəbəri gələn Qurbanın nəşini götürmək bir qədər zaman alıb. Həmin zaman kəsiyində çəkilən acı ürəkləri taqətdən salıb. Qurbanın nəşini bir neçə gün sonra götürmək mümkün olub. Dərdli şəhid atası morqlarda oğul axtarışına çıxıb. Gördüyü hər mənzərədən ürəyinin sapı bir az incəlib. Noyabrın 12 - də Şəhid atası oğlunun nəşini tapa bilib. Oğlunu qolları üstə alan dərdli ata digər oğluna zəng edib acı xəbəri verib. Bir ata üçün həyat yoldaşına oğul tabutu gətirmək ən çətin andır. Noyabrın 13-də oğlunun cənazəsini ocağına gətirən ata həmin gün oğluna əbədi vida edib. Qurban Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Qabıllı kənd məzarlığında torpağa tapşırılıb. Bu həsrətə ata ürəyi cəmi 12 gün dözə bilib. Oğlunun dəfninin 12-ci günü Şəhid atası «Qurban» deyə-deyə son nəfəsini verib.

Çavuş İbrahimov Qurban Namiq oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Bayraq» ordeni, «Vətən uğrunda» medalı, «Xocavəndin azad olunmasına görə» medalı və «Şuşanın azad olunmasına görə» medalı ilə təltif olunub.

## ŞƏHİD QURBAN

Bu həsrətin bənzəyir,
Boş qalan beşiklərə.
Sən bir dəfə köç etdin,
Biz ölürük min kərə.

Dərdinə dözmədi heç,
Atanın qəlbi, Qurban.
Həsrətə tab etmədi,
Sənə qovuşdu atan.

Üç qardaş vətən üçün,
Bir evdə böyüdünüz.
Uca xalqın gözündə,
Həsrət, kədər gördünüz.

Axı nə qədər dözər,
Xalqım dərdə, zillətə?
İşğal sözü yaraşmır,
Şəhid verən millətə.

Birgə addım atılıb,
Vüsala bir çatıldı.
Sənin kimi oğullar,
Döyüşə mərd atıldı.







**ƏSGƏROV TƏBRİZ ÇAPAY OĞLU**
**ÇAVUŞ (MAHHXHQ)**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## MƏZARA YAZILAN SEVGİ

«Hər canlı bir gün mütləq ölümü dadacaq.» Bu əbəs deyilən bir ifadə deyil. Dünyaya gəlmək və dünyadan getmək hər canlı kimi insana da xasdır. Yalnız dünyadan gedişi ilə əbədi var olmaq isə təkcə insana məxsusdur. Bunu isə hər insan bacarmır. Allahın seçdiyi bəndələr dünyadan şəhid kimi köçdükdə əbədi var olurlar. Çünki o insanlar hər iki dünyanın müqəddəsləridir. Təbriz Əsgərov da həmin müqəddəs insanlar sırasındadır. Çünki o da dünyadan şəhid kimi köç edib.

Əsgərov Təbriz Çapay oğlu 1997-ci ilin iyun ayının 15-də Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Xok kəndindən anadan olub. Ailədə 1 oğlan, 2 qız övladı böyüyüb. Bacıları ilə hər zaman dost olmağı bacarıb. İlkanə xanım və Aytac xanım düşünməzdilər ki, gün gələcək qardaş adlı dayaqlarını cismən itirəcəklər.

Təbriz 2004-ilde Xok kəndində Məhəmməd Əliyev adına tam orta məktəbdə I sinfə qədəm qoyub. 2015-ci ildə həmin məktəbi bitirib. Məktəbi bitirdikdən sonra sürücülük məktəbinə gedib. Hər şəhid həyatından yazarkən şəhid olduğum vətən sevgisinə Təbrizin həyatından da yazanda

rast gəldim. Vətənə, xalqa ruhən bağlı olan Təbriz 2016-cı ilin iyun ayında həqiqi hərbi xidmətə yolanıb. Xidmətini Sədərək və Şahbuz rayonları istiqamətində keçib. 2017-ci il dekabrın 13-də xidmətini başa vurub. Lakin o hərbidə qalmaq və vətən xidmətini davam etmək qərarına gəlib. MAHHXHQ kimi ordu sıralarına geri dönüb.

Bacıların qardaş sevgisi bir başqa olur. Ərköyüncə bir sevgi. Deyilən «Bacı» kəlməsi bütün dərdlərin dərmanı kimi olur. İlkanə xanımın qardaşına olan sevgisini dinlədikcə hər kəlməni ürəyimi dağlayan bir köz kimi hiss etdim.

- Cənnət ətirlim idi o mənim. Sanki bir mələk idi qardaşım. Sən demə elə mələk imiş. Mən bunun fərqinə gec vardım. Uşaqlıqdan evin yükünü çiyinlərinə götürdü. Atamın, anamın əziyyət çəkməyini heç istəmirdi. Onları rahat yaşatmaq arzusu idi. Cismani gedişi atamın, anamın sinəsində bala adlı yara açdı. Axı onun arzuları var idi. Axı bizim arzularımız var idi. Əhd etmişdik ki, müharibədən dönən kimi ona toy edəcəyik. Ancaq bütün arzularımız kimi həmin arzumuz da ürəyimizdə qaldı. Təkcə Təbriz arzusuna çatdı. Qarabağın azadlıq arzusuna, şəhadət arzusuna. Onsuz həyatda sadəcə nəfəs alıram, yaşamıram. Elə bil yaşamaq sevincimi itirmişəm. Sahibsiz qalan əşyaları, boş qalan otağını gördükcə sanki ürəyimi çəkib köksümdən çıxarırlar. Ondan duymaq istədiklərimi onun telefonundan özümə yazıram. Sonra isə öz telefonumdan ona cavab yazıram. Bunun adı çarəsizlikdi. Bir bacının ən böyük itkisi qardaş itkisidir.

Təbrizin ən böyük arzusu Qarabağda ev almaq olub. Ancaq o düşünməzdi ki, bir gün bütün Qarabağı düşməndən alacaq. Onun arzuladığı həmin gün çatanda heç tərəddüd etmədən müharibəyə yollanıb. Sentyabrın 28-də cəbhəyə yollanan Təbriz bir çox ərazilərdə döyüşüb. Füzuli, Cəbrayıl, Hadrut, Zəngilan, Laçın dəhlizinin alınması uğrunda mübarizə aparıb. Sonra bir dəstə ilə Xocavənd və Şuşa istiqamətində irəliləyib. Yaralanmağına baxmayaraq o döyüşü davam etdirib. Qırmızı bazar istiqamətində mühasirəyə düşüb və 5 gün mühasirədə qalıb. Həmin vaxtda düşmənin bir çox zirehli və canlı qüvvəsini məhv edib. Mühasirədən çıxmağı bacarıb. Döyüşün ən çətin şərti susuzluqdu. Təbriz buna baxmayaraq öz su ehtiyatını 18 yaşlı əsgərinə verib. Ürəyi vətən eşqinə məskən olan qəhrəman Qarabağın hər qarışının azadlığına sevinib. Noyabrın 9-da azad





Şuşa şəhərində yanına düşən minamyotun partlaması nəticəsində aldığı qəlpə yarasında şəhadətə ucalıb. Onun şəhid olduğunu isə ilk olaraq çox sevdiyi bacısı öyrənib. Ancaq bu xəbəri ata-anasına deməyə cəsarəti çatmayıb. Qardaş acısın günlərlə ürəyində yaşayıb. Noyabrın 13-də Təbrizin cənazəsi Naxçıvandakı evlərinə gətirilib. Həmin gün Xok kənd məzarlığında torpağa tapşırılıb.

Çavuş Əsgərov Təbriz Çapay oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «İgidliyə görə» medalı, «Vətən uğrunda» medalı, «Xocavəndin azad olunmasına görə» medalı və «Şuşanın azad olunmasına görə» medalı ilə təltif edilib.

Təbrizin son məktubu, son sözləri, son arzusu sətirlərdə dondu qaldı. Sevdiyini atasından istəyəcəkdi. Yar əlindən tutub ata ocağına gətirəcəkdi. Ancaq bu arzular da neçə gəncin nakam arzuları kimi daş məzara yazıldı.

## ŞƏHİD TƏBRİZ

Vətənin qönçə ikən əbədi solan, gülü,
Evinin, ocağının avazı xoş, bülbülü.
Sənin sevincin ilə çağlayan neçə ürək,
Sən getmisən elə bil dönüb olub qan gölü.

Sevgisi sətirlərdə donub qalan, Təbrizim,
Sahilsizdi, çağlayır sənin sevgi dənizin.
O sənli xatirələr sızıldadır ürəyi,
Asılıb xəyallardan işıq saçan bənizin.

Son məktubun sevginin bitməyən romanıdır,
Dedin «Bacı qardaşın nəfəsidir, canıdır.»
Bütün igidlər kimi sən savaş meydanında,
Göstərdin ki, həmin gün intiqam zamanıdır.

Vətəni xilas etdin düşmənin pəncəsindən,
Sonuncu dəfə baxdın ömrün pəncərəsindən.
Vətənin köksü üstə düşdüyün həmin zaman,
Zəfərin ətri gəldi sənin son nəfəsindən.



**MƏDƏTLİ ZÜLAL RƏHİM OĞLU ÇAVUŞ (MAHHXHQ)**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## ARZUSUNA ÇATAN ZÜLAL

İnsan doğulduğu gündən ömür yollarını arzular bəzəyir. Bəzi arzular arzu olaraq qalır. Bəzi arzularsa gerçək olur. Ömrün bəzəyi şirin arzulardı. Gələcəyə doğru boylanan ümidlərdi arzular. Elə arzular da var ki, o arzuya çatmaq üçün bütün arzularını qurban verirsən. Mədətli Zülal Rəhim oğlu kimi.

1991-ci il avqustun 14 -də dünyaya gəlmişdi Zülal. Hər il doğum gününü qeyd etdikdə ürəyində bir arzu tumurcuqlayırdı. «Kaş ki, növbəti ildə ad günümü azad Qarabağda qeyd edə bilərdim.» Bu arzu onun illərlə gerçəkləşməyən arzusu oldu. Ancaq sonunda Zülalın ürəyindəki Qarabağın azadlıq arzusu gerçəkləşdi. Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Çomaxtur kəndində dünyaya göz açan Mədətli Zülal oktyabrın 19-da Xocavənd istiqamətində şəhid olaraq gözlərini dünyaya əbədi yumdu.

Döyüş yolu sentyabrın 27-də başlanan Zülalın bu döyüşə uzanan ömür yolu Şərur rayonunun Çomaxtur kəndindən başlamışdı. 1997-ci ildə Çomaxtur kənd tam orta məktəbində ilk təhsil almağa başlamışdı. Həmin məktəbdə IX sinifə qədər təhsil aldıqdan sonra Türkiyəyə getmişdi. Daha sonra hərbi xidmətə getmək zamanı çatdığında 2010-cu ildə vətənə dönərək həqiqi hərbi xidmətə getmişdi. Şahbuz rayonunun N saylı hərbi hissəsində xidmət keçən Zülal xidməti dövründə seçilməyi bacarmışdı. Hərbi xidmətini başa vurduqdan sonra yenidən Türkiyəyə qayıtmışdı.





Zülal üçün Türkiyə ikinci vətəni kimi əziz idi. Ömründən keçən çox illəri Türkiyədə yaşamışdı. Elə ailə həyatını da orada sevib - seçdiyi xanımla qurmuşdu. Aygül xanım Zülalın öz həmkəndlisi idi. Zülalın iki övladı Dənizi və Rəhimi gözlərinin nuru idi. Güzəranı nə qədər xoş olsa da Zülal vətən həsrətinə daha çox tab edə bilməmiş, 2016-cı ildə vətənə dönmüşdü. Bu dönüş onun yollarını ordu sıraları ilə kəsişdirmişdi. O, MAHHXHQ kimi Xüsusi Təyinatlı Qüvvələrin əsgəri olaraq vətən keşiyini çəkməyə başlamışdı. Bir hərbçi olmaq Zülalın ən böyük arzusu idi.

Vətən keşiyini çəkən qəhrəman Vətən müharibəsi zamanı vətənin müdafiəsinə Füzulidən başlayıb. Ən ağır döyüşlərdən qalib kimi çıxan Zülal şəhid olduğu günə qədər bütün döyüşlərdə iştirak edib. Cəbrayıl, Hadrut, Zəngilan uğrunda mübarizə aparıb. Xocavəndin azad olunmasında böyük rolu olub. Ən son döyüşü isə Xocavəndin Tuğ kəndi uğrunda gedən döyüş olub. Qəhrəmanlıq zirvəsini fəth edən Zülal 19 oktyabrda şəhadət zirvəsini də fəth edib.

Zülalın sonuncu zəngi 18 oktyabrda olmuşdu. Atası ilə danışdığında hər şeyin qaydasında olduğunu demiş və onu arxayın salmağa çalışmışdı. Ancaq bu sözlərin nə narahat ata ürəyini, nə də narahat ana ürəyini sakitləşdirməyə gücü yetməmişdi. O zəngdən sonra Zülalın telefonu susmuşdu.

Oktyabrın 24-də isə o sükutu şanlı bayrağa bürünüb gələn tabut pozdu. Şərəbanı ananın gözlərindən süzülən oğul dərdi sözlərinə calandı. Həmin gün Zülalı deyib gələnlər Şərur rayon Şəhidlər Xiyabanına yol saldı. Qəhrəman şəhid göz yaşı və alqışlarla torpağa tapşırıldı.

Çavuş Mədətli Zülal Rəhim oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «İgidliyə görə» medalı, «Vətən uğrunda» medalı, «Xocavəndin azad olunmasına görə» medalı və «Şuşanın azad olunmasına görə» medalı ilə təltif edilmişdi.

## ŞƏHİD ZÜLAL

Payızda torpaqda yarpaqlar deyil,
Həyatdan ayrılan ömür qurudu.
Şəhidin bizlərə son əmanəti,
Şərəflə getdiyi zəfər yoludu.

Zülal tək övladın çoxdur, vətənim,
Sonuncu nəfəsi torpağı öpən...
Qürurdan qoy başın göylərə ərsin,
Şəhid balasının anası, vətən.

Eşqin elə tutdu şəhid qəlbini,
Səninçün yaşadı, səninçün öldü.
Uğrunda canını fəda edən an,
Ürəyi sevindi, çöhrəsi güldü.

İndi qürur duyur şəhid adıyla,
Atası, anası, iki balası.
Gedib məzarına bir sığal çəkir,
Qəlbi həsrət çəkən nazlı sonası.





## GÖYDAĞLI RAMAZAN ƏBÜLFƏT OĞLU ÇAVUŞ (MAHHXHQ)

**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**



## GÖYDAĞDAN UCA GÖYDAĞLI

Elə ürəklər var ki, ucsuz-bucaqsız cahan böyüklüyündədir. Bu ürəyin böyüklüyü isə ona sığan sevgilərdən bəllidir. İnsanın ürəyi ilə sevdiyinə qane olmayıb ruhu ilə də sevdiyi məhfum isə vətəndir. Bir ürəyin duyduğu ən böyük sevgidir vətən sevgisi. Yeganə sevgidir ki, uğrunda öldükdə intihar sayılmır, əksinə Allah onu cənnət ilə mükafatlandırır. Onlar müqəddəs sayılırlar. O müqəddəslər şəhid adlanır. Şəhidlərin sevgiləri də, amalları da bənzərdi. Hər birinin bəxt yazısından bir kədər toxumu düşür qəlbimə. O toxum göz yaşlarımla böyüyür. Qəlbimdə dəfn olunan bir şəhid də Ramazan Göydağlıdır.

Ramazan 1997-ci ilin soyuq 4 fevral günündə gəlişi ilə ocağını isitmişdi. Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Kırna kəndində dünyaya göz açmışdı. 2 qız övladı olan ailəyə oğul övladının gəlişi sanki toy-bayram idi. O zaman Ramazanın gəlişini Allahın onlara bir bəxşişi olduğunu düşünən ailə bilməzdi ki, bu uşaq vətənə bəxş olunan ümiddir. Zülfünaz ana hardan bilərdi ki, onun dünyaya gətirdiyi oğul 23 il sonra bütün vətənin oğlu olacaq.

2003-cü ildə Culfa rayon Kırna kənd tam orta məktəbində təhsil almağa başlayan Ramazan 2014-cü ildə məktəbi bitirmişdi. 2015 - ci ildə hər bir vətən qeyrəti çəkən oğul kimi həqiqi hərbi xidmətə yollanmışdı. 2016-cı ildə xidmətini başa vurmuşdu. Bir müddət Qazaxıstanda, Türkiyədə yaşasa da yenidən vətənə qayıtmışdı. Müəyyən müddət keçsə də Ramazan yenidən orduda xidmət etməyin vacibliyini dilə gətirərək könüllü olaraq ordu sıralarına daxil olmuşdu. 2020-ci il sentyabrın 5-də hərbi kursa başlamışdı. Kursu bitirən kimi könüllü olaraq müharibəyə yollanmışdı. Ramazana hərbçi kimi uzun müddət xidmət etmək qismət olmadı. Ancaq o qısa müddət Ramazanın bir qəhrəman olmağına bəs etdi. Ramazan ilk maaşını belə ala bilmədi. Ürəyində arzuları var idi. İlk maaşı ilə əzizlərinə hədiyyələr bəxş edəcəkdi. Ancaq bütün xalqa zəfər sevincini bəxş etdi.

Müharibəyə getməmişdən öncə evlərinə gəldiyində atası, anası hərbçi övladlarını gördükdə çox sevinmiş, həm də qürurlanmışdılar. Axı Ramazan qürur duyulası, anasına, atasına bağlı bir oğul idi. Son dəfə anasını, atasını bağrına basıb «Mən Qarabağa gedirəm.» dedi. Bu qərar elə bir qərar idi ki, valideynlər sadəcə «Uğur səninlə olsun. Allaha əmanət ol.» deyə bilmişdilər. Son dəfə anasından gülməyini istəyən Ramazan səhər getməli olduğu halda gecəni evdə gözləyə bilməyib, hərbi hissəyə gedib. Oktyabrın 17-də Qarabağa gedən oğullardan biri də Ramazan olub.

Ramazanın döyüş yolu müharibənin 20-ci günündə Cəbrayıldan başlamışdı. Rəşadətli ordumuzun günü - gündən azad etdiyi ərazilərin miqyası genişlənirdi. Füzuli, Hadrut, Xocavənd uğrunda mübarizə aparan əzmkar hərbçilərdən biri də Ramazan olub. Düşmənin bir çox canlı qüvvəsini məhv edən Ramazan və dəstəsi mühasirəyə düşmüş və son güllələri bitənə qədər mübarizə aparmışdılar. «Gün bu gündür. Bu günün azadlıq mübarizəsini sabaha qoymayacağıq!» deyən qorxmaz qəhrəman Xocavənd rayonunun Uluyan dağ ərazisində düşmən gülləsinə tuş gəlmiş və vətən qurbanı kimi gözlərini əbədi yummuşdu. Vətən müharibəsində 11 gün mübarizə aparan Ramazan oktyabrın 28 - də şəhadətə ucalmışdı.

Ramazanın şəhadət xəbərini noyabrın 1-də ilk olaraq atası eşidib. «Axı mən Zülfünaza necə deyim ki, oğlumuz şəhid olub?» sualına özü də cavab tapa bilməyən şəhid atasının ürəyinin fəğanı ruhuna od salıb. Bir də anaya oğlunun daha həyatda olmadığı xəbərini vermək yükünü çiynina götürən dərdli şəhid atası ertəsi gün oğul nəşini çiyninə götürüb.»Ah oğul, kaş mən tək oğul nəşini çiynimə götürməzdim. Kaş tək oğul çiyinlərində





mənim nəşim gedərdi.» deyən dərdli atanın sözləri hər kəsi göz yaşlarına qərq edib. 2 noyabr bir evin tək oğlu olan Ramazan Göydağlı Kırna kənd məzarlığında torpağa tapşırılıb.

Çavuş Göydağlı Ramazan Əbülfət oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, «Füzulinin azad olunmasına görə» medalı və «Xocavəndin azad olunmasına görə» medalı ilə təltif edilib.

Ramazan bu həyatdan toysuz-büsatsız köçdü. Nə sevdiyinə sevgisini etiraf edə bilmədi, nə bir yadigarı qalmadı. Vağzalısı ağılar, bəy otağı isə məzarı oldu. Ürəklərdə Ramazan adlı sağalmaz yara yarandı.

Əsalətli Göydağın şərəfinə Ramazan Göydağlı adlandırılmışdı. Daha sonra dağlardan da uca bir zirvəyə ucaldı. Elə dərdi də dağlardan böyük oldu...

## ŞƏHİD RAMAZAN

Ucalan dağlar da həsəd aparır,
Ən uca ad olan şəhid adına.
Dağlar boylandığı vətən, torpağın,
Dar gündə yetişdin sən imdadına.

Qoymadın yaşayaq sinəsi dağlı,
Canınla, qanınla dərdi sağaltdın.
Şəhid tək can verdin sən də, Göydağlı,
Vətən bayrağını şanla ucaltdın.

Bütün sevdaların ən müqəddəsin,
Qəlbində bəsləyib böyütdün sən də.
Vətən övladının ruhunun səsi,
Duyulur ucadan - uca vətəndə.

Cəbrayıl, Füzuli, Hadrut, Xocavənd,
Sənin tək qoxuyur şəhid Ramazan.
Qorxmaz oğulların pak qanlarıyla,
Paklanıb vətənim bu Azərbaycan.



**TAĞIYEV AZƏR KAMİL OĞLU ÇAVUŞ (MAHHXHQ)**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## NAKAM ÖMÜRLÜ

Şəhid olan oğullarla kimsəsizləşər analar. Ümidləri telləri tək qoparılar. Oğul gəlişini toy-bayram edən analar oğullarının əbədi gedişi ilə barışa bilməzlər. Vətənə qurban olan oğullardan başlayar bu vətən. Şəhid anaları vətəni daha çox sevməyə başlayarlar. Vətənin çınqılı, daşı bir başqa doğmalaşar. Elə oğlunun daşa dönən şux qaməti də bir başqa olar. Köksünə basdığı oğul buz kimi hərəkətsiz baxdıqca ananın ruhu od tutub yanar ki, bəlkə oğlu onun yanmağına tab etməyib dönər. Ancaq cənnətə gedən şəhid geri dönərmi?

Könül ananın oğul dərdi köksündə çatılan alovdur. Bu yanan ürək oğul dərdi ilə yanan ürəklərdən biridir. Dərdlərinin adı şəhid olan anaların çəkdikləri acıları da eynidir, nalələri də. Axı şəhid dərdi bir evin yox bir elin dərdidir. Anaların hər birinin ürəyi Azər üçün Könül ananın ürəyi kimi yandı. Axı necə yanmasın? Cəmi 21 il ömür yaşayan Azər öz ömrünü vətən, torpaq, xalq yolunda qurban etdi. Hər kəs bu qəhrəman oğulun adını dilə gətirəndə «nakam ömürlüm» deyib fəğan etdi. Elin «oğul» deyib ürəyini dağladığı Tağıyev Azər Kamil oğlu 1999-cu il dekabrın 20-də





Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Şahtaxtı kəndində anadan olmuşdur. Ailənin üç övladından ikincisi Azər idi. Azər orta təhsilini Akademik Zərifə Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbində almışdı. Məktəbi bitirdikdən sonra vətənə xidməti borcunu yerinə yetirmək üçün həqiqi hərbi xidmətə getmişdi. 2018-ci ildə bir əsgər kimi ordu sıralarına qoşulmuşdu. Həqiqi hərbi xidmətini başa vurduqdan sonra orduda qalıb vətənə xidmət etmək qərarına gəlmişdi. MAHHXHQ kimi Xüsusi Təyinatlı Qüvvələrin tərkibində kəşfiyyatçı qumbara atan vəzifəsini icra etmişdi.

Azər sevgi dolu bir gənc idi. O, könül verdiyi xanımla 2019 - cu ildə nişanlanmışdı. Hər bir gənc kimi Azərin də arzuları çox idi. Onun da evlilik xəyalları var idi. Lakin o arzuların hər biri arzu olaraq qaldı.

İllər ötüb keçirdi. Lakin ötən illərlə bərabər ürəklərin Qarabağ adlı yarası da dərinləşirdi. Qəlbində vətən yarası yer edən oğullardan biri də Azər idi. Vətən müharibəsi başlanan ilk gündən müharibəyə qatılmaq arzusunda olan gənc oktyabrın 16 - da gecə evlərinə gəlib. Hər kəslə halallaşıb, vidalaşdıqdan sonra Qarabağa gedəcəyini deyib. Bunu eşidən anasının narahatlığını gördükdə isə anasını bərk-bərk qucaqlayıb «Ana, hər kəsə şəhidlik qismət olmur. Bu uca məqam mənə qismət olsa ən xoşbəxt bəndə olaram. Şəhid olsam üzülməyin. Bilin ki, arzuma çatmışam.» deyib. Sonra Naxçıvandan Qarabağa gedən dəstə ilə birlikdə Vətən müharibəsinə yollanıb.

Azər Qarabağ döyüşləri zamanı Hadrut istiqamətində gedən qızğın döyüşlərdə iştirak edib. Daha sonra Xankəndi istiqamətində irəliləyib. Şuşaya ayaq basan ilk dəstədə olub və illərlə arzusunda olduğu o anı yaşayıb. Şuşada «Əlbəyaxa döyüş» kimi tarixə düşən döyüşlərin iştirakçılarından biri olub. Şuşanın azadlıq sevincini xalqa bəxş etdikdən sonra 9 noyabrda minamyot partlaması nəticəsində ayağından aldığı qəlpə yarası səbəbindən kəskin qan itirib və şəhadətə ucalıb.

Azərdən gələn zənglər günlər idi ki, susmuşdu. Bu ailənin narahatlığına səbəb olurdu. Noyabrın 12-də Kamil Tağıyevə gələn zənglə oğlunun şəhid olduğu xəbəri deyilib. Bu xəbəri təkrar dilə gətirən ata oğlunun şəhid olduğunu dedikcə ürəyi min parçaya bölünüb. Bir gün sonra şəhid cənazəsi ata ocağına gətirilib. Daha bir oğulun xınası qanla qarışıb, xon-

çası məzarına düzülüb. Toy tarixi bəlli olmayan Azərin torpağa əmanət edildiyi gün unudulmaz tarixə çevrilib. Azərin cismi 13 noyabr 2020-ci ildə Kəngərli rayon Şahtaxtı kənd məzarlığında torpağa tapşırılıb.

Çavuş Tağıyev Azər Kamil oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əmrinə əsasən şəhid olduqdan sonra «Bayraq» ordeni, «Vətən uğrunda» medalı, "Xocavəndin azad olunmasına görə" medalı, "Füzulinin azad olunmasına görə" medalı və «Şuşanın azad olunmasına görə» medalı ilə təltif edilib.

### ŞƏHİD AZƏR

Ellər səni qəlbinin,
Sağalmaz dərdi bilir.
Doğma da, yad da sənə,
«Nakam ömürlüm» deyir.

Arzusu nakam, şəhid,
Xınan qanla qarışdı.
Üç rəngli şanlı bayraq,
Məzarında sayrışdı.

Al qanınla yuyuldu,
Alınların ləkəsi.
Torpağa sığal çəkdi,
Şəhidlərin nəfəsi.

El yolunda ömrünü,
Bir körpü etdin, Azər.
Gənc yaşda qismət oldu,
Sənə də soyuq məzar.

Şəhid tək geri döndün,
Qəhrəmanlar yurduna.
Qalibiyyət yaşatdı,
Mərd oğullar xalqına.







## TEYMUROV ELVİN MUSTAFA OĞLU ÇAVUŞ (MAHHXHQ) (II Qarabağ müharibəsində şəhid olmuşdur.)

### ARZUSU ÖZÜYLƏ BÖYÜYƏN İGİD

Elə oğullar varki sanki anadan hərbçi doğulurlar. Düşüncələri, fikirləri təkcə vətən keşiyini çəkmək olur o oğulların. Özləri böyüdükcə arzuları da böyüyür, addımları da. Hər sözləri, söhbətləri «Vətən» olan oğulların ömürlərinin son nidası da vətən uğrunda qoyulur. Ürəkləri vətən sevgisi ilə döyünən oğullar heç zaman son nidadan qorxmurlar. Teymurov Elvin Mustafa oğlu da heç zaman vətən üçün ömrünə qoyulacaq son nidadan tərəddüd etmirdi. Əksinə hər zaman hərbçi kimi şərəfli bir peşəyə sahib olub, şəhid kimi də vətənə can vermək arzusunu dilə gətirirdi.

Bu qəhrəman oğul 20 may 1999-cu ildə Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Nehrəm qəsəbəsində anadan olmuşdu. Körpəlikdən sakit xarakteri ilə seçilmişdi. Özündən böyük qardaşının hər zaman hörmətini saxlamışdı. 2005-ci ildə Nehrəm kənd Elşad Əliyev adına 2 N - li tam orta məktəbdə təhsil almağa başlamışdı. İbtidai məktəbi əla qiymətlərlə başa vurmuşdu. V sinifdə oxuyan zamandan isə hərbçi peşəsinə meyil salmışdı. Orta məktəbi bitirdikdən sonra 2017-ci ildə həqiqi hərbi xidmətə getmişdi. Vətən xidmətini layiqli şəkildə yerinə yetirən Elvin xidmətini başa vurmuşdu. Bir müddət sonra MAHHXHQ kimi ordu sıra-

larında xidmət etmək qərarına gəlmişdi. Xüsusi Təyinatlı Qüvvələrin bir hərbçisi olmaq Elvinin ən böyük arzusu idi. O, bu arzusuna 2020-ci ilin yanvar ayında çatmışdı. Hərbi kursu uğurla tamamladıqdan sonra 2020-ci ilin aprel ayında MAHHXHQ kimi Azərbaycan Ordu sıralarına daxil olmuşdu. Ən böyük arzusuna çatan hərbçinin sevinci hər sözündən bəlli imiş. Ancaq o şərəfli peşənin sevincini çox qısa müddət yaşaya bilmişdi. Elvin hərbçi peşəsinin sahibinin yüksələ biləcəyi ən uca məqama yüksəlmişdi.

Elvinin hər duasında Qarabağa getmək arzusu yer alırdı. Müharibə başlayan gündən tək istəyi müharibəyə getmək idi. O, bu arzusuna oktyabrın 17 - də çatdı. Müharibəyə getməzdən əvvəl hər kəsə zəng edib halallaşan Elvin qardaşı ilə danışdığında «Anam sənə əmanətdir. Ona yaxşı bax. Mənim getdiyim namus, qeyrət yoludur. Olar birdən sağ qayıtmaram. Anamı qoyma çox üzülsün. Haqqını halal elə.» deyib və 17 oktyabrda Qarabağa doğru yol alıb. Döyüş bölgəsinə çatanda isə həmin döyüşdə ya şəhid, ya da qazi olacaqlarını bilən hərbçilər bir - birilərinə vəsiyyət ediblər.» Birimizə bir şey olsa əşyalarımızı ailələrimizə çatdırın ki, son əmanətlərimiz kimi saxlasınlar.» Elvinin də son vəsiyyəti «Əşyalarımı ailəmə çatdırıb deyin ki, oğulları vətən uğrunda canından keçib. Heç ağlayıb, sızlamasınlar. Əksinə qürur duyub, başı dik gəzsinlər.» olub. Uşaqlıqdan vətənin azadlıq savaşına qatılmaq arzusunda olan Elvin 21 yaşında azadlıq savaşının bir qəhrəmanı kimi yaddaşlarda həkk olunub. Oktyabrın 22-də Füzuli-Hadrut istiqamətində gedən döyüşlərdə düşmənə sarsıdıcı zərbələr endirib,elə həmin gün də qəhrəmancasına şəhid olub.

Tarix boyu vətənin azadlığı uğrunda Naxçıvan torpağı çox oğullarını qurban verib. Əbəs yerə Naxçıvana «Qəhrəmanlar oylağı» deyilmir. Vətən müharibəsində də ən çox şəhid verən bölgələrdən biri Naxçıvan Muxtar Respublikası olmuşdu. Hər dəfə səmada görünən təyyarə ürəklərə od salırdı. Daha təyyarələrin sərnişinləri şəhidlər və şəhid yaxınları idi. Oktyabrın 26-da gələn təyyarənin şəhid sərnişinləri sırasında Elvin də var idi. Bu gəliş əbədi gedişin xəbərçisi idi. Bir neçə dəqiqəlik evinin qonağı olan şəhid Babək rayonunun Nehrəm qəsəbə məzarlığında dəfn olunub.

Çavuş Teymurov Elvin Mustafa oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən





uğrunda» medalı, «Şücaətə görə» medalı və «Şuşanın azad olunmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD ELVİN

Ən böyük arzundu bir hərbçi kimi,
Vətən keşiyini çəkəsən, oğul.
Vətənin namusun, qeyrətin çəkib,
Sən də addımladın şərəfli bir yol.

Hər vətən oğluna nəsib olmaz ki,
Sənin tək vətənə can qurban etsin.
Vətənin sədası ərşə çıxanda,
O anda vətənə köməyə yetsin.

Hər zaman qürurla dilə gətirib,
Deyirdin «Vətəni candan çox sevin.»
Canından da üstün bildiyin vətən,
Səndən əmanətdir bizlərə, Elvin.



İSGƏNDƏROV NİYAMƏDDİN QULU OĞLU
ÇAVUŞ (MAHHXHQ)
(II Qarabağ müharibəsində şəhid olmuşdur.)

## VƏTƏNİN LAYİQLİ OĞLU

«Bu həyatda layiqli bir iş görmək istəyirəm.» Bu sözlər bir şəhidin dediyi sözlərdi. Əslində sadəcə söz deyil. Bu sözlərə son nöqtəsinə qədər əməl edilib. Şəhid Niyaməddin özündən sonra elə bir iz qoyub ki, hər kəs o yolun yolçusu olmaq sevdasına düşüb. Əslində dediyi bir cümlə ilə çox söz deyib qəhrəman şəhidimiz. Uşaqlıqdan həyatın sərt sınaqlarına tuş gəlsə də hər zaman ayaqda qalmağı bacarıb. Çatdığı həmin yaşa qədər ayağı çox daşdan-daşa dəyib. Həyatın bütün uğursuzluqları onun başına gəlib. Elə illərlə bəxtinə işıq düşməyən Qarabağ kimi qara bəxtli idi. Ancaq tale yolları sərt qayalara çırpılan Niyaməddin özü bir gün Qarabağın qara bəxtini ağ etdi. O, da Qarabağa ümid işığı saçan oğullardan biri kimi yaddaşlarda iz qoydu. Həyatda atıla biləcək ən layiqli addımı atdı. Vətənə azadlıq sevincini yaşatdı.

İsgəndərov Niyaməddin Qulu oğlu 1985-ci il dekabrın 6-da Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Xok kəndində anadan olmuşdur. Üç övladlı ailənin ilk övladı olan Niyaməddin ailəsinə övlad adlı sevinci daddırmışdı. Niyaməddin ilk təhsilini Kəngərli rayon Xok kənd tam orta məktəbində almışdı. 1992-ci ildə məktəbə başlayan oğul





2003-cü ildə təhsilini başa vurmuşdu.

Niyaməddinin böyük arzuları hər zaman vətənlə bağlı olmuşdu. Arzuların ilkinə 2004-cü ildə çatmışdı. Vətən xidmətini çəkmək üçün həqiqi hərbi xidmətə yollanan oğul xidmətini Naxçıvanda keçmişdi. Niyaməddin hər zaman bir hərbçi kimi orduda xidmət etmək arzusunda olmuşdu. O,bu arzusuna 2013-cü ildə çatmış, Daxili Qoşunların tərkibində MAHHXHQ kimi xidmətə başlamışdı. Üç il xidmət etdikdən sonra müəyyən səbəblərdən yenidən çox sevdiyi işindən ayrılmaq məcburiyyətində qalmışdı. Ancaq bu ayrılıq bir müddət sonra bitmiş, Niyaməddin yenidən işinin başına dönmüşdü. 2020-ci ilin mart ayında yenidən MAHHXHQ kimi ordu sıralarında yerini almışdı. Elə həmin zəfər ilində zəfəri yaşadanlardan biri də Niyaməddin olmuşdu.

2020-ci ilin sentyabr ayında Azərbaycan Ordusunun illərdi işğalçı Ermənistanın tapdağı altında qalmış torpaqlarımızı azad etmək üçün atdığı addımlara biganə qalmayan oğullardan biri də Niyaməddin olmuşdu. Ailəsinə demədən könüllü olaraq döyüşlərə getmək istədiyi barəsində komandanlığa müraciət ünvanlamış və bu müraciət qəbul olunmuşdu. Oktyabrın 18-də Qarabağa qədəm basan oğullardan biri də Niyaməddin olmuşdu. O, illərdi həmin günü çox gözləmişdi. Nəhayət ki, qisas günü çatmışdı. Hər dəfə ailəsi ilə danışdığında bütöv Qarabağın azad olacağı günə az qaldığını deyən qəhrəmanın son danışığı oktyabrın 28-də olmuşdu. Ondan sonra Niyaməddindən heç bir xəbər gəlməmişdi. Qarabağdan zəfər sədası alan ailə Niyaməddinin günlərdi qərq olduğu sükutun pozulacağına böyük ümid bəsləmişdi. O sükut noyabrın 21-də Niyaməddinin şəhid xəbəri ilə pozulmuşdu. Noyabrın 22-də isə şəhidin nəşi Naxçıvana gətirilmiş və dünyaya göz açdığı Xok kənd məzarlığında torpağa tapşırılmışdı.

Çavuş İsgəndərov Niyaməddin Qulu oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «İgidliyə görə» medalı, «Vətən uğrunda» medalı və «Xocavəndin azad olunmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD NİYAMƏDDİN

Vətənə layiqli övlad olmaqçün,
Neçə illər boyu sən də çalışdın.
Candan çox sevdiyin bu vətənimdə,
Qanınla, canınla sən torpaqlaşdın.

Vətənə, millətə siz yaşatdınız,
Azadlıq adında gözəl duyğunu.
Düşmən tapdağından xilas etmisən,
Qarabağ adlanan gözəl yurdumu.

Niyaməddin, səni igid tək tanır,
Vətən sevgisiylə ömür sürənlər.
Vətəndə dəyərli sərvət sayılır,
Vətənlə, torpaqla ömür bölənlər.





## MİRZƏYEV ASLAN MƏQSUD OĞLU ÇAVUŞ (MAHHXHQ) (II Qarabağ müharibəsində şəhid olmuşdur.)



### ŞUŞADA DONAN ÖMÜR

Vətən müharibəsinin hər saniyəsi, hər anı ayrı-ayrılıqda bir qəhrəmanlıqdan bəhs edən bir tarixdi. O tarixi yazan isə qəhrəman oğullardı. Tarixi qanı ilə yazan oğulları tarixə yazmaq böyük məsuliyyət tələb edir. Ən böyük əsəri qanı ilə vətən torpağına yazan oğulların ömür və döyüş yollarını yazmaq asan deyil. Vətəni şərəf bilən qəhrəmanların şərəfli ömür yolları bu xalqın sabahlarında örnək götürülüb addımlanacaq yoldu. Şəhidlərin cənnətə uzanan yollarının təməli vətən, sonu isə şəhadət zirvəsidir. Həmin zirvənin 20 yaşlı bir sakini var. Heç zaman yaşı artmayacaq, cənnətin əbədi cavan, əbədiyaşar sakini Aslan.

Mirzəyev Aslan Məqsud oğlu 17 iyul 2000-ci ildə Kəngərli rayon Xok kəndində anadan olmuşdur. Ailədə 2 qardaş, 1 bacı olmuşlar. 2006-cı ildə Kəngərli rayon Xok kənd tam orta məktəbində təhsil almağa başlamışdı. 2015-ci ildə IX sinifi bitirdikdən sonra müəyyən səbəblərdən təhsildən uzaqlaşmışdı. 2017-ci ildə hərbi xidmətə getmək zamanı çatanda həqiqi hərbi xidmətə yollanmışdı. Naxçıvanda yerləşən N saylı hərbi hissədə xidmətə başlamışdı. Xidmətinin 15-ci ayında könüllü olaraq MAHHXHQ kimi ordu sıralarında qalıb xidmət etmək üçün adını yazdırmışdı. Xüsusi

Təyinatlı Qüvvələrin kursunu uğurla keçmişdi. Sonra Kəngərli rayon Qıvraq qəsəbəsindəki N saylı hərbi hissədə xidmət etmişdi. Vətən müharibəsi başlamazdan bir müddət öncə kurslar keçərək hərbi biliklərini dərinləşdirmişdi. O, bir kəşfiyyatçı olduğu üçün hər zaman öndə getməli olduğunun məsuliyyətini dərk etmişdi. Vətən müharibəsi başlayan ilk gündən müharibəyə yollanmaq istəsə də oktyabrın 11-də döyüşə yollanmışdı. Füzuli, Cəbrayıl, Hadrut, Daşaltı, Qırmızı Bazar istiqamətində gedən döyüşlərdə əsil qəhrəman kimi döyüşən Aslan sona qədər mübarizədən geri çəkilməmişdi. Döyüşlər zamanı bir neçə dəfə yaralanmışdı. İlk olaraq qolundan qəlpə yarası alsa da o hospitala getməmiş, hərbçi yoldaşlarının köməyi ilə qəlpəni özü xaric etmiş və yenidən mübarizəsini davam etdirmişdi. İkinci dəfə isə snayper atəşinə tuş gəlmiş və ağır yaralanmışdı. Döyüş yoldaşları onu xərəkdə döyüşdən kənarlaşdırmışlar. Lakin Aslanın qismətində şəhid olmaq varmış. Bütün döyüşlərdə zəfər sevincini yaşayan qəhrəman böyük qələbəyə 4 saat qalmış yenidən düşmənin minamyot atəşinə tuş gəlmiş, aldığı ağır yaralardan elə həmin anda şəhid olmuşdu.

Aslan kəşfiyyatçı olduğu üçün ailəsi onun öndə gedənlərdən biri olduğunu bilirdi. Ailəsi günlərlə xəbər ala bilmədiyində onun hansısa bir çətin tapşırığı yerinə yetirdiyini bilirdi. Bu dəfə isə Aslan ən məsuliyyətli tapşırığı layiqincə yerinə yetirib. Şuşaya zəfər bayrağını sancan qəhrəmanın şəhid xəbəri noyabrın 13-də ailəsinə deyilib. Noyabrın 14-də nəşi Naxçıvana gətirilən şəhid elə həmin gün Xok kənd məzarlığında torpağa tapşırılıb.

Çavuş Mirzəyev Aslan Məqsud oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əmrinə əsasən şəhid olduqdan sonra «Vətən uğrunda» medalı, "Şuşanın azad olunmasına görə" medalı və "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilib.

Bir şəhid atasının oğul dərdini yansıdan bu kəlmələr ürəyimi dağladı.

- Mən bu həyatda atamı hər kəsdən çox sevirdim. Onu itirdiyim gün mən həyatımın ən böyük acısını yaşadığımı sanmışdım. Ancaq yanılmışam. Mən ata dərdini oğul dərdi ilə unutdum. Aslan mənə yaşadığım bütün sevinci də, kədəri də unutdurdu...





## ŞƏHİD ASLAN

Şuşada dondu qaldı,
Sənin son baxışların.
Torpağa bəzək verir,
Azadlıq naxışların.

İlmə - ilmə toxunub,
O azadlıq qan ilə.
Aslan, adını xalqın,
Eşqlə gətirir dilə.

Damlayıb torpağıma,
Sənin müqəddəs qanın.
Vətən, bayraq uğrunda,
Qurban olub gənc canın.

Qoşuldun cənnətdəki,
Şəhidlər sırasına.
Adın indi çevrilib,
Dillərin duasına.

Kəngərlidə doğuldun,
Səda saldın cahana.
Qələbə bəxş elədin,
Bütöv Azərbaycana.



**ƏSGƏROV VÜQAR RZA OĞLU ÇAVUŞ (MAHHXHQ) (II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## QOŞA QARDAŞ MƏZARI

Qəmin göz dikdiyi ürəklər var. Qəm bir an da o ürəklərdən uzaq düşmür. Həyatın alıb apardıqları ürəkdə yer edir. İlk qəm yarasının üstünə təkrar - təkrar vurulan yaralardan sonra ürəyin hər döyüntüsündə o yara qanayır. Bir ürəyə övlad dərdi düşdümü daha o ürəyin kandarından belə sevinc ötməz. Bir də ola ki, ürəyə övlad dağının üstə övlad dağı dəyə. 2 oğul övladının hər ikisini torpağa verən Rza Əsgərov və Səmayyə xanım bu dərd yetməzmiş kimi bir də kürəkənlərini itiriblər. Bu ailənin 4 övladının üzünə sevinc qapısı açılmayıb.

Vüqar Əsgərovlar ailəsinin sonuncu övladı idi. 26 noyabr 1994-cü ildə Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Qarabağlar kəndində anadan olub. 2001-ci ildə Qarabağlar kənd şəhid Əbülfəz İmanov adına 1 N - li tam orta məktəbdə təhsil almağa başlayıb. 2012-ci ildə məktəbi bitirdikdən sonra universitetə qəbul olsa da imkansızlıqdan oxuya bilməyib. Həmin il həyat Əsgərovlar ailəsini böyük bir sınaqla sınayıb. Bu sınağın adı ölüm, bu sınağın adı övlad itkisi, qardaş yoxluğu idi. Cavanşirin Rusiyadan gələn ölüm xəbəri ailə üçün böyük faciə idi. Bacısı qızının ad gününə gedərkən avtomobil qəzası nəticəsində həlak olan Cavanşir ürəklərə ilk dağı çəkmişdi. Elə o dərdlə ata ürəyi sağalmaz xəstəlik tapmışdı. Qardaş itkisi Vüqarı həyatdan soyutmuşdu. Dərdini susan Vüqar acısını bölüşməz, ürəyinin naləsini özü dinləyərdi.





Vüqar 2013-cü ildə həqiqi hərbi xidmətə çağrılıb. Xidmətini Şahbuz rayonunda Batabatda yerləşən N saylı hərbi hissədə keçib. Hərbi xidmətini başa vurduqdan sonra bir müddət Türkiyədə çalışıb. Daha sonra isə yenidən vətənə dönüb. Bir müddət fərdi işlərlə məşğul olduqdan sonra ürəyindəki vətən sevdası onu hərbiyə doğru çəkib. 2019-cu ildə könüllü olaraq MAHHXHQ kimi ordu sıralarının tərkibinə qoşulub. Xüsusi Təyinatlı Qüvvələrdə xidmət etsə də bunu ailəsindən gizlədib. Atasının səhhətindəki problemlərə görə heç zaman çətinliyini biruzə verməyib. Son dəfə oktyabrın 17-də evlərinə gəldiyində «Bir müddət Culfaya gedirik, yol uzaqdı evə gəlməyəcəm.» deyib. Döyüşə getdiyi barəsində heç kimə heçnə deməyib. Oktyabrın 19-da bacısı Baharla danışan zaman bacısı nə qədər soruşsa da yenə müharibədə olduğunu deməyib. Hər kəlməsində atasından nigarançılığını dilə gətirib. Sanki hiss etmişdi ki, atasının, anasının oğul dərdini təzələyəcək. 1 gün sonra oktyabrın 20-də Qubadlı uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşduqdan sonra Şuşa istiqamətində irəliləyən zaman düşmənin açdığı snayper atəşinə tuş gəlib. Ayağından aldığı yara nəticəsində qan itkisi səbəbindən şəhid olub. Vüqarın şəhid xəbəri oktyabrın 25-də Naxçıvana çatsa da heç kim cəsarət edib ailəyə ikinci dəfə oğul itkisini xəbər verə bilməyib. Ailə oktyabrın 26-da cənazə gələn müddətdə Vüqarın şəhid olduğundan xəbər tutub. 26 oktyabrda Əsgərovlar ailəsi Qarabağlar kənd məzarlığında ikinci övladlarını torpağa tapşırıblar. Qoşa qardaş məzarı görənlərin ürəyinə dağ çəkib. Ancaq Vüqar torpağın bu ailədən aldığı son can olmayıb. Vüqarın 40-ı günü Rusiyada yaşayan bacısı Sevinc xanımın həyat yoldaşı ürək tutmasından qəfil dünyasını dəyişib. Bu ailənin kədəri - kədərə qarışıb.

Çavuş Əsgərov Vüqar Rza oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Hərbi xidmətlərə görə» medalı, «Vətən uğrunda» medalı, «Xocavəndin azad olunmasına görə» medalı və «Şuşanın azad olunmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD VÜQAR

Qəm olmuşdu hər zaman,
Sənin ömrünə calaq.
İndi sənin həsrətin,
Yığılıb qalaq - qalaq.

Çəkdiyin qardaş qəmi,
Hey dağladı qəlbini.
Söyləmədin heç kimə,
Vüqar, sən öz dərdini.

Ailənin tək ümidi,
Sənə idi qəhrəman.
Gedişinlə saralır,
Dərdindən atan,anan.

Sağalmaz qardaş dərdi,
Sızladır bacı qəlbin.
Sən də vaxtsız buraxdın,
İki bacının əlin.

Tək bir sevgi yolunda,
Ömrünü heçə saydın.
Allahın bu vətənə,
Göndərdiyi bir paydın.







## RAMAZANOV RASİM İSMAYIL OĞLU ÇAVUŞ (MAHHXHQ) (II Qarabağ müharibəsində şəhid olmuşdur.)

## ŞƏHİD MƏKTUBU

«Bəlkə də biz şəhid olduq,bizlərə bu yerlərə təkrar gəlmək qismət olmadı. Ancaq gələcək nəsillər bu torpaqlara gəldiyində bizlərə bir rəhmət oxuyar.»

Bu sözlər sabahını sabahımıza qurban verən şəhidlərdən birinin döyüş zamanı dediyi sözlərdi. Bu deyilənlər sadəcə söz deyil. Rasim vətənə olan sevgisini əməli ilə sübut etdi. Gələcək nəsillərin firəvan yaşaması arzusunu gerçəkləşdirdi. Başqa arzular bu arzunun yollarına qurban edildi.

Cəmi 22 bahar yaşadı Rasim. 26 iyul 1998-ci ildə Naxçıvan Muxtar Respublikasının Babək rayonunda anadan olmuşdu Ramazanov Rasim İsmayıl oğlu. 2004-cü ildə Babək rayon Vəli Mahmudov adına tam orta məktəbdə təhsil almağa başlamış,2015 - ci ildə təhsilini başa vurmuşdu. 2016-cı ildə həqiqi hərbi xidmətə getmişdi. Xidmətə Kəngərli rayonunda yerləşən N saylı hərbi hissədə başlamış, 11 ay orada xidmət etdikdən sonra könüllü olaraq Sədərək rayonunda düşmənlə üz-üzə olan N saylı hərbi hissəyə getmişdi. 2018-ci ildə xidmətini başa vurduqdan bir müddət sonra yenidən könüllü olaraq ordu sıralarına qayıtmış, MAHHXHQ kimi Xüsusi Təyinatlı Qüvvələrin tərkibində sürücü vəzifəsində çalışmışdı. 2019- cu

ildə Türkiyə Ordusunun və Azərbaycan Ordusunun keçirdiyi «Sarsılmaz qardaşlıq» adlı təlimdə iştirak etmişdi.

Rasim ailədə iki qardaşdan biri olub. Onun kiçik qardaşı Rahim də hərbçi peşəsinin dərinliyini bilmək üçün Heydər Əliyev adına Hərbi liseyi bitirib və AAHM - ə qəbul olub.

Vətən müharibəsi başlayanda Naxçıvanın Xüsusi Təyinatlı Qüvvələri döyüşə hazır vəziyyətə gətirilmişdi. Baxmayaraq ki, sürücülər döyüşə aparılmırdı, ancaq Rasim könüllü olaraq önə çıxıb oktyabrın 11-də Qarabağa göndərilən heyətin tərkibində yer almışdı. Döyüşə getdiyini ailəsindən gizlədən Rasim oktyabrın 11-də Bakıdan qardaşına zəng edib və müharibəyə getdiyini və bunu anasına deməməyi tapşırıb. Döyüşə Füzulidən başlayan qəhrəman iştirak etdiyi bütün döyüşlərdə qəhrəmanlıq göstərib. Oktyabrın 18-də çox çətin əməliyyatlardan biri sayılan Tuğ kəndi istiqamətində gedən döyüşlərə qatılmazdan öncə bir məktub yazıb və döyüş yoldaşı Röyal Abdullazadəyə verib. «Mən şəhid olacam, bunu hiss edirəm. Sənin qızının duası səni qoruyacaq. Mənim bu şəhid məktubumu ailəmə çatdırarsan.» deyib. Rasim və dəstəsi məktubu yazdıqdan 1 gün sonra Tuğ kəndi istiqamətində mühasirəyə düşüblər. Rasim şəhid olub, Röyal yaralanıb.

Azərbaycanın bütün bölgələri kimi Naxçıvan da ard-arda şəhid xəbərləri ilə sarsılırdı. Oktyabrın 24-də hərbçi qardaşı internetdə Rasimin şəkilini görür. «Babək rayonunun şəhidi var.» Gördüyünü, oxuduğunu Rahimin beyni sanki qəbul etmir. Oktyabrın 26-da qardaşının cansız cismi ilə eyni təyyarədə ata ocağına gedərkən «Allahım, mənə güc ver ata-anama təsəlli olum.» deyir. O, bilirdi ki, bir oğulu itirən valideyinlər üçün digər oğulu çarəsiz görmək nə qədər ağırdı. O an sanki Allah şəhid qardaşına bir güc bəxş edir. İllərdi qardaşının üzünü doğru-düzgün görə bilməyən Rahim üçün Rasimi 26 oktyabrda Babək rayon məzarlığında torpağa tapşırmaq çox ağır idi. Ancaq o ayaqda qalmaq məcburiyyətində idi. İndi qardaşı onu yuxularında cənnətindən, məqamından xəbərdar edir. Rasimin bu həyatda bir qəhrəman kimi izi, bir də son məktubdakı bu sözləri qalıb.

- Canım anam, ailəm, yol gedirəm. Tapşırığa çıxıram nə olacaq bilmirəm. Amma ürəyimə damıb getdiyim yoldan qayıtmayacam. Nəsə olsa





ağlamayın. Canım atam, anam, onu bilin ki, bir qəhrəman valideynlərisiniz. Başı dik durun. Mən cənnətdə olacam. Anam, bilirəm çətindi. Ancaq vətən sağ olsun. Sən böyütdün, boya-başa çatdırdın amma vətən üçün, xalq üçün getməliyəm. Sağ olun.

Rasimin son anlarına, son sözlərinə şahid olan şəhidlərin şahidi Röyal Abdullazadə onun son vəsiyyətini yerinə yetirib, şəhid məktubunu şəhid ailəsinə çatdırıb.

Çavuş Ramazanov Rasim İsmayıl oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əmrinə əsasən şəhid olduqdan sonra «Hərbi xidmətlərə görə» medalı, «Vətən uğrunda» medalı, «Füzulinin azad olunmasına görə» medalı, «Xocavəndin azad olunmasına görə» medalı və «Şuşanın azad olunmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD RASİM

Sonuncu məktubu yazdığın zaman,
Görəsən ürəyin necə titrədi?
O an son vidanı söyləmək üçün,
Hansı əzizini görmək istədin?

Ağ kağız üstünə düzdüyün sözlər,
Səndən geri qalan son xatirədir.
Getdiyin o yolda çəkdiyin acı,
Dostun da, yadın da qəlbin göynədir.

Sən necə sığdırdın bu boyda eşqi,
Bu qədər gənc yaşda qəlbinə, Rasim?
Vətən sevgisiylə döyündü hər vaxt,
Elə vətən üçün dayandı qəlbin.

Özün dediyin tək qismət olmadı,
Alınan torpaqda səfa sürəsən.
Ən böyük arzundu sənin həyatda,
Qarabağ torpağın azad görəsən.



**İBRAHİMOV AYAZ SULTAN OĞLU ÇAVUŞ (MAHHXHQ) (II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## ŞƏHİD OLACAĞINI DİLƏ GƏTİRƏN ŞƏHİD

Hər şəhid həyatına nəzər saldıqca o həyatın yaşanılmışları və yaşanılmamışları ürəyimdə dərin bir iz salır. Hər şəhid doğmasının göz yaşı ürəyimə axır. Anaların göz yaşı ürəyimi bir başqa sızladır, ataların göz yaşı isə bir başqa. Bu dünyanın ən ağır dərdidir şəhid dərdi. O dərdi çəkən birinin könül qapısını döyərkən əslində duyacağım kəlmələri təxmin edirəm. Bəzən də duyduğum kəlmələrin ağırlığı altında ruhum əzilir. Bir şəhid atasının oğul qüruru və oğul həsrətinin böyüklüyü bərabərdi. Qürurla başlayan hər cümlənin son nöqtəsi həsrət oldu.

- Ayazın boğazından heç zaman haram tikə keçirməmişəm. Qeyrətli, qayğıkeş, vafalı oğul idi. Onun doğulduğu gün həyata başqa gözlə baxmağa başladım. Ümidim oğlumla bərabər böyüdü. 10 iyun 1998-ci il həm Ayazın, həm ümidlərimin doğulduğu gündür. Ancaq o ümidlərin ömrü Ayazın ömrü kimi qısa oldu. İki qız övladımdan sonra Babək rayon Məmmədrza Dizə kəndində dünyaya gəlmişdi Ayaz. 2004-cü ildə elə həmin kənddə yerləşən tam orta məktəbdə təhsil almağa başlamışdı. O, hamının qəlbinə yol tapmışdı. Bütün məktəb kollektivinin istəklisi idi. 2015-ci ildə





məktəbi bitirdi. 2016-cı ildə vətənə xidmət etmək üçün həqiqi hərbi xidmətə getdi. Xidmətini Qıvraq qəsəbəsindəki N saylı hərbi hissədə keçdi. 2017-ci ilin dekabrında xidmətini başa vurub evə qayıtsa da cəmi 3 ay ordudan uzaq qala bildi. 2018-ci ilin iyun ayında Xüsusi Təyinatlı Qüvvələrin 3 aylıq kursunu uğurla keçib MAHHXHQ kimi XTQ-in tərkibinə daxil oldu. Naxçıvanda N saylı hərbi hissədə 2 il xidmət etdikdən sonra könüllü olaraq Vətən müharibəsinə yollandı. Müharibəyə getməzdən 2 gün öncə evə gəldi. Mənə gedəcəyini desə də bunu anasından gizlətdi. Oktyabrın 24-də hava limanından zəng etdi. Gedib görmək istəsəm də buna icazə verilmədiyini dedi. Kaş ki, son dəfə oğlumu bağrıma basa bilsəydim.(Bu sözlərdən sonra bir neçə dəqiqəlik sükutu hıçqırıq səsləri pozdu. Mən bu sözlərin ağırlığına tab edə bilməyəcək qədər əzab çəkdim.) Elə həmin gün Ayaz Füzulidə döyüş meydanında boy göstərib. Dayısı oğlu Bağırov Murad Sahib oğlu ilə birlikdə döyüş meydanına atılıblar. Onun şücaətlərini həm Murad, həm də digər döyüş yoldaşları qürurla dilə gətirirlər. Laçın dəhlizini nəzarətə keçirdikdən sonra Şuşanı da azad edənlərdən olub. Ayaz bizə noyabrın 7-də ilk və son zəngini etdiyi zaman Qələbə gününün yaxında olduğunu dedi. Ancaq nə Ayaz, nə də biz bilməzdik ki, noyabrın 9-da Qələbəyə 8 saat qalmış Ayaz şəhadətə ucalacaq. Minamyot partlaması nəticəsində qəlpə Ayazın ürəyinə sancılıb və o həmin anda şəhid olub.

10 noyabrda Ayazın şəhid xəbəri qohumlara deyilib. Qardaşım xəbəri məndən gizlədib. Noyabrın 12-də qardaşım mənə dedi «Sultan, daha dayana bilmirəm, sənə bir söz deməliyəm.» O anda qardaşımın nə deyəcəyini təxmin etdim və həmin sözü dilinə gətirməməsini xahiş etdim. Ancaq «Ayaz şəhid olub.» sözlərini eşitmək istəməməyim bu acı gerçəyi dəyişmirdi. Bəs mən bu xəbəri Gülüyə necə deyim? Necə deyim ki, gözümüzün ağı - qarası bircə oğlumuz şəhid olub? Əvvəl dedim yaralıdı. Noyabrın 13-də oğlumun nəşi evimizə gətirilmədən bu acı xəbəri şəhid anasına dedim. Həyatımda ən çarəsiz an idi. O çarəsizliyin izi ilə həyatımızı davam edirik. 13 noyabr 2020-ci ildə Ayaz Babək rayon Məmmədrza Dizə kənd məzarlığında torpağa tapşırıldı.

Ayaz şəhid olmazdan öncə yaşanılacaqlardan xəbərdarmış kimi əmisi oğlu ilə söhbəti zamanı darvazaların göstərib «Bax gör buraya Türkiyə və Azərbaycan bayrağı necə gözəl yaraşar. Bu kəndə bayraqda ilk özüm

gələcəm.» deyib. Döyüşlər zamanı isə bir şəkil çəkdirib onunla eyni yerdə olan dayısı oğluna «Mən şəhid olanda məzarıma və maşınlara bu şəklimi vurarsınız.» deyib. Bu həyatda arzuları yarımçıq qalan Ayazın son arzuları (vəsiyyəti) yerinə yetirilib.

Çavuş İbrahimov Ayaz Sultan oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «İgidliyə görə» medalı, «Vətən uğrunda» medalı və «Şuşanın azad olunmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD AYAZ

Xəyalda canlanır xoş xatirələr,
Arzular bəzərdi ah nələr-nələr...
Sənsiz kədər yaşı calayır gözlər,
Evinin tək oğul övladı Ayaz,
Sənsiz qışa dönüb gələn bahar-yaz.

Atanın qəm yükü yaman ağırdı,
Sənli sabahlara gözəl baxırdı,
Ardınca nə qədər səni çağırdı,
Sükutun batırdı yerin qulağın
Atanın qəlbinə vuruldu dağın.

Bir ana qəlbinə həsrəti bükür,
Elə «Ayaz» deyir, göz yaşı tökür,
Bu dünya ananın başına çökür,
Səni daş məzarda səssiz görəndə
Bəyaz saçlarını dərdli hörəndə.

Kim əvəz edəcək səni dünyada?
Bacılar qərq olub indi fəryada,
Sən layiq görüldün «şəhid» tək ada,
Cənnət ayaqların altda sərildi
Şuşa torpağında ömrün dərildi.





**HÜMBƏTOV İMAMƏDDİN MUXTAR OĞLU ÇAVUŞ (MAHHXHQ) (II Qarabağ müharibəsində şəhid olmuşdur.)**



## ÖZÜ TARİX YAZAN QƏHRƏMAN

Vətənə layiq övlad olmaq üçün nə xüsusi bir elmə, nə bacarığa, nə də madiyyata ehtiyac yoxdur. Mənəvi dünyanın zəngin olması yetərlidir ki, vətənə layiq olasan. Əgər ruhən vətənə bağlı birisənsə cismən də vətənə dönmək arzusunda olarsan. Yaşadığın ömrü vətən üçün yaşayarsan, ancaq yaşlanmazsan. Gənc yaşında solub vətən olan vətən ömürlülərin adları ilə qoşa çəkilər adın. Vətən, bayraq, torpaq sözlərinin yanında şəhid sözü qürurla deyilər. Şəhid adı həsrətin kölgəsinə sığınar, kədərin göz yaşında yuyunar, ancaq qürurun işığında parlayar. Həyatda bir dəfə üzünü görməyən insanların dilinin əzbəri, qəlbinin əbədi sakininə çevrilər şəhidlər. İlahi duyğular cəm olar müqəddəslərin adında. İmaməddin də şəhadətə ucalıb müqəddəsləşən bəndələrdəndi.

Hümbətov İmaməddin Muxtar oğlu 5 sentyabr 1998-ci ildə Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Payız kəndində anadan olmuşdur. 2005-ci ildə Payız kənd tam orta məktəbində 1-ci sinfə qədəm qoymuşdu. Hələ körpəlikdən arzusu, duası Qarabağa qovuşmaq olmuşdu.

Orta məktəbdə oxudu zaman dərslərində çox da müvəffəqiyyət qazana bilməmişdi. O zaman zəif qiymətlər alan İmaməddin illər sonra özü öz qanı ilə yazacağı tarixin sətir - sətir oxunulacağından xəbərsiz idi. Onun bir arzusu var idi. Hərbçi olmaq. Bu yola cəhd eləsə də cəhdi uğursuz alınmışdı. 2016-cı ildə məktəbdən məzun olduqdan sonra həmin ilin oktyabrında həqiqi hərbi xidmətə getmişdi. Hərbi xidmətini layiqincə başa vurmuşdu. Lakin İmaməddin hərbçi olmaqda israrlı olmuşdu. Bu minvalla yenidən orduya qatılmaq üçün müraciət etmişdi. Bir çox maneələrlə rastlaşsa da sonunda arzusuna çatmışdı. Xüsusi Təyinatlı Qüvvələrin 3 aylıq kursunu uğurla keçdikdən sonra hərbçi formasını qürurla daşımağa başlamışdı. Əslində İmaməddin əynindəki formanın mahiyyətini gözəl dərk edirdi. Hərbçilərin «kəfən» bilib geyindikləri formada can vermək onun arzusu idi. Ancaq o canını Qarabağın azadlığı uğrunda verməyi diləyirdi.

İmaməddinin şəhadətə uzanan yolu Hadrutdan başlamışdı. Hadrut azad olunduqdan sonra ard-arda kənd və şəhərləri azad edərək Şuşa ətrafına çatmışdı. Çox istəyirdi Şuşanın azadlığını görsün. Özü bunu görməsə də azadlıq yolunu açanlardan biri olmuşdu. Oktyabrın 19-da qəhrəmancasına şəhid olmuş,oktyabrın 24 - də Babək rayon Payız kənd məzarlığında torpağa tapşırılmışdı.

Çavuş Hümbətov İmaməddin Muxtar oğlu Azərbaycan Respublikası Ali Baş Komandanı İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı ilə təltif edilib.





**ŞƏHİD İMAMƏDDİN**

Sənin xilas etdiyin,
Qarabağ torpağında,
Addımların iz salıb,
Cismin torpağa dönüb,
Ruhun göyə ucalıb.

O torpaqlar müşk qoxur,
Qanının qoxusu tək.
O cənnət qoxusunu
Üzü vətənə sarı,
Əsib gətirir külək.

İmaməddin, tarixin,
Neçə səhifəsinə,
Yazıldın sətir - sətir.
Allahın seçdikləri,
Şəhid tək kama yetir.



**SƏFƏROV QƏŞƏM TAMƏDDİN OĞLU ÇAVUŞ (MAHHXHQ) (II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## VƏTƏN SEVGİSİ ƏNGƏL TANIMAZ

Vətəni, torpağı uğruna yanan şəhidlərin işığı vətəni aydınlığa çıxarar. Şəhidlər şam kimi yanıb xalqın ürəyini vətən həsrəti ilə yanmaqdan xilas edər. Cismi torpağa, adı ürəklərə dəfn olar şəhidlərin. Şəhidlərin adları anıldıqca şəhidlərin ruhları şad olar. Həyatdan köçüb əbədiyaşarlıq qazanan şəhidlərin əbədi dünyaları gözəl olar. Şəhidlərin qanı torpağı paklaşdırar. Əbəs yerə «Müqəddəs vətən» demirik. Bu vətəni öz qanı ilə müqəddəsləşdirən oğullardan biri də Qəşəmdir.

Səfərov Qəşəm Taməddin oğlu 1 noyabr 1997-ci ildə Şahbuz rayonunun Yuxarı Qışlaq kəndində anadan olmuşdu. 2004 - cü ildə Yuxarı Qışlaq kənd tam orta məktəbində ilk təhsilini almağa başlamışdı. 2012-ci ildə Heydər Əliyev adına Hərbi liseyə qəbul olmuşdu. Liseydə oxuduğu zamanlarda bir neçə yarışda iştirak etmiş və birincilik qazanmışdı. Qəşəm Naxçıvanda ən yaxşı kros qaçış birincisi kimi tanınırdı. 2015-ci ildə Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdu. Ancaq müəyyən səbəblərdən hərbi təhsilini başa vura bilməmişdi. 2017-ci ildə həqiqi hərbi xidmətə getmişdir.





Heç bir maneə Qəşəmin vətən sevgisinə əngəl ola bilməmişdi. Çünki Qəşəm ruhu ilə vətənə sevdalanmışdı. Vətən sevdalısı olan oğul bu sevda uğrunda can verməyə hazır idi. Xüsusi Təyinatlı Qüvvələrin kursunu uğurla keçən Qəşəm XTQ hərbçisi kimi xidmət etmişdi. Vətən müharibəsi başlanan gündən Naxçıvandan Qarabağa bir neçə dəfə hərbçilər göndərilmişdi. Qəşəm hər dəfə könüllü olaraq müharibəyə getmək üçün müraciət etsə də onun gözlərindəki problem səbəbindən istəyi nəzərə alınmamışdı. Ancaq o Qarabağa getməkdə qərarlı idi. Nəhayət ki, Qarabağa göndərilən növbəti heyətin sırasında Qəşəmin də adı yer almışdı. Müharibəyə getməzdən əvvəl ailəsi ilə görüşdüyü zaman müharibəyə gedəcəyi barəsində heç bir söz deməmiş, kursa gedəcəyini demişdi. Oktyabrın 18-də Qəşəm Qarabağ uğrunda gedən döyüşlərə qatılmışdı. Bir çox ərazilərin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edən qəhrəman noyabrın 1-də düşmənin açdığı atəşə tuş gəlmiş və qəhrəmancasına şəhid olmuşdu. 01.11.1997-ci ildə dünyaya gələn Qəşəm 01.11.2020-ci ildə dünyadan köçmüşdü. Bir zamanlar Qəşəmin doğum günü kimi qeyd olunan o tarix Qəşəmin şəhadət günü kimi yaddaşlara həkk olunmuşdu. Şəhidin nəşi noyabrın 2-də Yuxarı Qışlaq kənd məzarlığında torpağa tapşırılmışdı.

Çavuş Səfərov Qəşəm Taməddin oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə «Vətən uğrunda» medalı, «Füzulinin azad olunmasına görə» medalı və «Xocavəndin azad olunmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD QƏŞƏM

Qanın damlayan torpaq,
Müqəddəsdir, əzizdir.
Adın düşən ürəklər,
Elə bil ki, dənizdir.

Dənizin dalğası tək,
Kədər qəlbə çırpılır.
Həsrətə tuş gələn qəlb,
Min hissəyə ayrılır.

Bu dərdin sonu yoxdur,
Adı şəhid dərdidir.
Qəşəm, qəfil gedişin,
Dostu, yadı incidir.

Vətəni elə sevdin,
Sevginə qurban oldun.
Cismən həyatdan köçdün,
Şəhid, qəlblərə doldun.





## CƏLİLOV SAHİL OKTAY OĞLU
## ÇAVUŞ (MAHHXHQ)
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**



## XOŞBƏXTLİK QARABAĞA GEDƏN YOLDU

Alın təri qanı ilə qarışıb torpağa düşən qəhrəmanlar bütün xalqın alnından işğal adlı ləkəni sildilər. Xoşbəxtliyi Qarabağa gedən yolda görən qəhrəman oğullar sinələrini vətənə sipər, kürəklərini isə körpü etdilər. İllərdi vətəndən uzaq düşən Qarabağa illərdən sonra igidlər yol açdılar. Sınmış ümidləri, yanmış körpüləri verdikləri canları ilə bərpa etdilər. Hələ körpəlikdən Xocalıda süngüdən keçirilən körpələrin qisasını alacağına and içən Sahil verdiyi sözü tutaraq qisası qiyamətə saxlamadı.

Cəlilov Sahil Oktay oğlu 17 may 1998-ci ildə torpaqlarının 20%-i düşmən tapdağında olan bir vətənin gözəl guşələrindən biri sayılan Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Dərvişlər kəndində dünyaya gəlmişdi. Dörd övladı olan ailənin dördüncüsü olmuşdu. 2004-cü ildə Dərvişlər kənd tam orta məktəbində I sinfə qədəm qoymuşdu. Hələ orta məktəbdə oxuduğu zaman vətənə olan sevgisi onu fərqləndirmiş, Xocalı faciəsinin il dönümünə həsr olunan tədbir zamanı qisas andı içərək göz yaşları tökmüşdü. Sahil ruhunda vətən dağı daşıyırdı. Bir gün vətənin imdadına yetəcəyi günün çatacağını ümidlə gözləyirdi. Sahil 2015-ci ildə məktəbi bitirmiş, 2016-cı ildə həqiqi hərbi xidmətə getmişdi. Xidmətini

bitirdikdən sonra MAHHXHQ kimi hərbidə qalıb vətənə xidmət etmək istəyini ailəsinə dediyi zaman ailəsi onun fikrini dəstəkləmişdi. Atası Oktay Cəlilov və Həqiqət xanım bilirdilər ki, Sahili bu yoldan döndərmək mümkünsüzdür. Axı bu vətənə aşiq oğul körpəlikdən «Vətən» deyişi ilə ürəkləri fəth etmişdi. 2019-cu ildə MAHHXHQ kimi Xüsusi Təyinatlı Qüvvələrin kəşfiyyatçısı olaraq xidmətə başlamışdı. Türkiyənin Sparta şəhərində 3 ay «Komando təməl» kursunu keçmiş və diploma layiq görülmüşdü.

«Ölüm bizə nə yaxındır, nə uzaq. Biz ölümün özüyük. Bir gün vətən uğrunda şəhid olsaq bu bizə şərəfdir.» Bu sözlər Sahilin həyat şüarı idi. Bir gün həmin şüarı Qarabağda səsləndirmək arzusu ilə yaşayıb. Elə Qarabağda başlayan haqq savaşına da uzaqdan baxmaqla kifayətlənməyib. Oktyabrın 17-də Qarabağa doğru yol alan qəhrəman müharibənin ən şiddətli zamanlarında özünü vətən harayına çatdırıb. Füzuli uğrunda o da bir qəhrəman kimi döyüşüb. Oktyabrın 22-də mühasirəyə düşsələr də Sahil dəstəsi ilə mühasirəni yarmağı bacarıb. Xocavənd uğrunda mübarizə aparıb. Elə son döyüşü də Xocavəndin Tuğ kəndi istiqamətində olub. Yaralı döyüş yoldaşını xilas etməyə çalışıb. Lakin oktyabrın 22-də düşmən snayperinə tuş gələn Sahil alnından aldığı ağır yara nəticəsində şəhid olub. Ailəsi Sahilin şəhid olduğu xəbərini oktyabrın 24-də alıb. Oktyabrın 26-da isə şəhidin nəşi Naxçıvana gətirilib və Şərur rayon Şəhidlər Xiyabanında dəfn edilib.

Çavuş Cəlilov Sahil Oktay oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Döyüşdə fərqlənməyə görə» medalı, «Vətən uğrunda» medalı, «Füzulinin azad olunmasına görə» medalı, «Xocavəndin azad olunmasına görə» medalı və «Şuşanın azad olunmasına görə» medalı ilə təltif edilib.





**ŞƏHİD SAHİL**

«Ölüm bizə nə yaxındır nə uzaq,
Elə bizlər o ölümün özüyük.
Yumruq boyda ürəkdə daşıyırıq,
Cismimizdən ağır həsrət adlı yük.»

Boyun əyib razı gəlmədin əsla,
Qarabağın qara olan bəxtinə.
Hey böyüyüb çarə tapmaq istədin,
Bu millətin vətən adlı dərdinə.

Xoşbəxtliyi Qarabağda görürdün,
O yolları getmək idi niyyətin.
Vətən oğlu, o yerlərdə can vermək,
Yazıldı bəxtinə, oldu qismətin.

Alnından damlayan hər bir damla qan,
Sildi bu millətin alın ləkəsin.
Sahil, sənin kimi igid, ərənlər,
Yazdı qanı ilə zəfər kəlməsin.



## CƏLİLOV HƏSƏN MƏHƏRRƏM OĞLU ÇAVUŞ (MAHHXHQ)

**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## ARZUYA YETƏN ŞƏHİD

"Vətən torpağından pay olmaz. Vətən mənlikdi, şərəfdi, qürurdu. Bizim isə vətənimizin bir hissəsi düşmən tapdağındadır. Düşmənin torpağımıza ayaq basmasını qəbul edə bilmərik. İncinən qürurumuzun məlhəmi yalnız azadlıq ola bilər. İllərdi ki, işğalda qalan Qarabağ uğrunda can verən şəhidlərin ruhu narahatdı. Çünki onların qanı axan torpaqda düşmən səfa çəkir. Biz düşmənin ayağını vətən torpağından kəsməliyik!" demişdi hələ məktəbli yaşlarında Həsən Cəlilov. Bu sözləri deyən bir məktəblinin böyüyəndə Milli Qəhrəman Kərim Kərimov kimi bir qəhrəman olacağı bəlli idi.

Cəlilov Həsən Məhərrəm oğlu 30 mart 1995-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Qarahəsənli kəndində anadan olmuşdur. İki bacının bir qardaşı,evin son beşiyi idi Həsən. Tək oğul olduğu üçün ailəsi bütün ümidini ona bağlamışdı. Axı qızlar «köçəri quşdur».Ancaq heç kim təsəvvür etməzdi ki, Həsən gənc yaşında bu həyatdan əbədi köçüb gedəcək.

Həsən Cəlilov 2001-ci ildə Azərbaycanın Milli Qəhrəmanı Kərim Kərimov adına Qarahəsənli kənd tam orta məktəbinə qədəm qoyub. O,





mehribanlığı, səmimiliyi ilə yanaşı dərrakəsi ilə də seçilirdi. Hər zaman şəhidlərin anım gününə həsr olunan tədbirlərdə «Qisas qiyamətə qalmaz.» deyən Həsən o qisas gününün çatacağını ümidlə gözləyirdi. Məktəbi 2012-ci ildə bitirdikdən sonra Həsən Şərur rayon Texniki peşə məktəbinə qəbul olub. 2 il təhsil aldıqdan sonra 2014-cü ildə həqiqi hərbi xidmətə gedib. Culfa rayonunda yerləşən N saylı hərbi hissədə xidmət edib. 2016-cı ildə xidmətini başa vurub. Hər zaman könüllü olaraq vətənə xidmət etməyi düşünən Həsən bir neçə il sonra MAHHXHQ kimi ordu sıralarına qoşulub. Beləliklə o arzusuna daha bir addım yaxınlaşıb. Addımları Həsəni günbəgün daha önə doğru aparıb və nəhayət Qarabağa doğru yönəlib.

27 sentyabrda Ermənistan ordusu yenidən özlərinə yaraşan kimi sözlərinin, imzalarının təkzibini göstərərək atəşkəsi pozdular. Bu ilk idimi? Xeyir, illərdi onların etdikləri elə bundan ibarət idi. Artıq bıçaq sümüyə dayanmışdı. Bu dəfə düşmənin cavabı sadəcə cavab atəşi olmadı. Bu dəfə düşmən ordusu yerlə yeksan edildi. Düşmənə divan tutan oğullardan biri olan Həsən 24 oktyabrda könüllü olaraq Qarabağa gedən oğulların sırasında yer aldı. Şuşa ətrafında gedən döyüşlərdən başlayan mübarizəsinin nəticəsində bir çox ərazilərin, kəndlərin azadlıq sevincini yaşadı. Şuşanın azadlıq sevincini yaşamaq arzusu olan Həsənin bu arzuya gedən yolunu düşmənin açdığı artilleriya atəşi kəsdi. Həsən oktyabrın 28-də başından aldığı xəsarətlər nəticəsində şəhadətə ucaldı. Bir gün sonra Həsənin nəşi Naxçıvana gətirildi. Qarahəsənli kənd məzarlığında uyuyan qəhrəman şəhidlərə zəfər müjdəsi gətirən Həsənin də məzarı 30 oktyabrda şəhidlərin məzarları sırasında yer aldı.

Çavuş Cəlilov Həsən Məhərrəm oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "İgidliyə görə" medalı, «Vətən uğrunda» medalı və «Şuşanın azad olunmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD HƏSƏN

Hər qarış vətən torpağın,
Vətənin şanlı bayrağın,
Meşəsin, Aranın, dağın,
Sevdin, canından çox sevdin
Vətəni şərəfin bildin.

Tufan oldun yurdda əsən,
Düşmənin bileyin kəsən,
Sən oldun, qəhrəman Həsən,
Qarabağın xilaskarı
Payız gətirdin baharı.

Arzu, ümid çiçək açdı,
Yurda Günəş şəfəq saçdı,
Oğullar vətəni qucdu,
Balasız qalmadı torpaq
Söndü neçə evdə çıraq.







**İBRAHİMOV SEYMUR ZAMİN OĞLU ÇAVUŞ (MAHHXHQ) (II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## 20 YAŞLI VƏTƏN XİLASKARI

Insanın həyata gəldiyi günün sevinci bir başqa olur. Hər dəfə insan yeni yaş günündə bir yaş böyüməyin tələsı içində keçmişə boylanır. Bəs mən bu yaşa nə sığdırdım? Bu günə qədər yaşanılan ömrümdə hansı addımı atdım. Seymur 20-ci yaşının tamamında heç vaxt olmadığı qədər sevincli idi. Necə olmasın? Axı o xəyallarında canlandırdığı anları həyatda yaşayırdı. Ancaq şəkillərdən, mavi ekranlardan gördüyü Azıx kəndində yubiley yaşını silahdaşları ilə birlikdə qeyd edirdi. Qeyd edirdi deyərkən 3 gün ac - susuz olan əsgərlərin ruzisi sanki o gün Allah tərəfindən göndərilmişdi. Seymurun yeni yaşında qarşısında çox çətin bir əməliyyat dururdu. Bu Seymuru qorxutmur əksinə qürurlandırırdı. 20 yaşlı bir gəncin Qarabağın xilaskarı adına layiq görülməsi ruhunu bir başqa şad edirdi. Hər zaman «İbrahimov» soyadını duyduğu zaman o soyada layiq olacağını və Mübariz İbrahimov yolunun davamçısı olacağını dilə gətirirdi. «Şəhid Mübariz İbrahimov adı kimi şəhid Seymur İbrahimov adı da tarixə həkk olunacaq.» deyən qəhrəman bu amalından bir an da dönmədi. «Cənnətdə Mübariz İbrahimova salam verəcəm.» deyə-deyə mübarizlik duyğusu ilə coşan ürəyini vətənə sipər etdi.

İbrahimov Seymur Zamin oğlu 20 oktyabr 2000-ci ildə Naxçıvan şəhərinin Tumbul kəndində dünyaya göz açıb. 2007-ci ildə Naxçıvan şəhər Tumbul kənd 13 N - li tam orta məktəbdə təhsil almağa başlayıb. IX sinifə qədər həmin məktəbdə təhsil alıb. Seymur həyat dolu bir gənc olub. Musiqini çox sevib. Elə ona görə də Musiqi məktəbinə gedib və nağarada ifa etməyi öyrənib. Musiqi məktəbini diplomla bitirib. 2018-ci ildə isə vətənə bağlı olan bu gənc Vətənin keşiyində durmaq üçün həqiqi hərbi xidmətə gedib. Şahbuz rayonunda yerləşən N saylı hərbi hissədə xidmət edib. Xidmətini başa vurduqdan sonra MAHHXHQ kimi orduda qalmaq və vətənə uzun illər xidmət etmək üçün könüllü olaraq müraciət edib. Xüsusi Təyinatlı Qüvvələrin kəşfiyyat kursunu keçdikdən sonra kəşfiyyatçı kimi xidmət edib. Xidmətinin yeddinci ayında Vətən müharibəsi başlayıb. Mübariz ruhlu qəhrəman könüllü olaraq Qarabağa yollanıb. Füzulidə döyüşlərə qatılan Seymur Şuşaya, Daşaltıya qədər irəliləyənlərdən olub. Azərbaycan Ordusunun ən çətin və ən uğurlu əməliyyatlarından biri hesab edilən Daşaltı əməliyyatında son nəfəsinə, son damla qanına qədər mübarizə aparıb. Həm düşmənlə mübarizə aparan igid, həm də yaralı və şəhid olan silahdaşlarını təcili tibbi yardım maşınlarına çatdırıb. Ancaq onun mübarizəsi noyabrın 1-də aldığı ağır yaralar nəticəsində başa çatıb. Qəhrəmancasına şəhid olan Mübariz yolunun layiqli davamçısı nəinki Mübariz İbrahimova salam hətta zəfər müjdəsi çatdırmaq üçün cənnətə tələsib. Tacirə ana 3 övladından birini vətənə qurban edib şəhid anaları cərgəsinə qoşulub. Noyabrın 6-da Seymurun cənazəsi Tumbul kənd məzarlığında torpağa tapşırılıb.

Çavuş İbrahimov Seymur Zamin oğlu Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Hərbi xidmətlərə görə» medalı, «Şuşanın azad olunmasına görə» medalı, "Füzulinin azad olunmasına görə" medalı, "Xocavəndin azad olunmasına görə" medalı və «Vətən uğrunda» medalı ilə təltif edilib.





## ŞƏHİD SEYMUR

Ruhunda var idi Mübariz əzmi,
Əzminlə nurlandı zülmət, qaranlıq.
İllərlə düşmənin zəbt elədiyi,
Torpaqlar olmuşdu talan, viranlıq.

Elə bil dil açıb fəryad edirdi,
Sinəsi qəlbin tək dağlanan ellər.
Addım izlərinlə nura qərq oldu,
Həsrətə son verdi o qərib ellər.

Mübariz adının yanına yazdın,
Mərd Seymur adını sən, İbrahimov.
Həyatda ilk dəfə xoşbəxtliyini,
Vətən adlı həsrət almadı girov.



# MƏMMƏDƏLİYEV SADAY RZA OĞLU ÇAVUŞ (MAHHXHQ)

**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## QƏHRƏMAN SADAY

Bir xalqın ən böyük mənəvi zənginliyi milli dəyərləridir. Milli dəyərləri bir xalqı ucaldar. Hər bir vətəndaş o dəyərlərə sahib çıxmalıdı. O dəyərləri ən gözəl sahiblənənlərsə şəhidlərdi. Vətən, torpaq, bayraq, xalq yolunda canından keçən şəhidlər özləri ən böyük dəyərə sahib olurlar. Bu torpağın köksündə uyuyan neçə - neçə gənc ömürlülər bu vətənin ən böyük sərvətidir. Qanları axan torpağı müqəddəs edən oğulların məzarları and yerimizdi. Bizlər o oğullara borcluyuq. Elə bu vətən özü də həmin oğullara borcludu. Bu vətən, bu torpaq qəhrəman oğullar sayəsində didilib, parçalanıb, bölünməkdən xilas olub. Vətəni xilas edən oğullardan biri də Məmmədəliyev Sadaydı.

Məmmədəliyev Saday Rza oğlu 1 mart 1998-ci ildə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Darkənd kəndində anadan olmuşdur. Ailənin bircə oğul övladı, bacısının istəklisi idi Saday. O, 2004-cü ildə Ordubad rayon Aza kənd tam orta məktəbində təhsil almağa başlamışdı. 2015-ci ildə təhsilini başa vurmuşdu. 2016-cı ildə həqiqi hərbi xidmətə yollanmışdı. Xidmətini başa vuran Saday bu yolu davam etdirmək üçün MAHHXHQ kimi xidmət etmək istəyini bildirmişdi. Xüsusi Təyinatlı





Qüvvələrin kursunu keçdikdən sonra arzusuna çatan qəhrəman XTQ-in hərbçisi kimi vətənə xidmətə başlamışdı.

II Qarabağ müharibəsinin qəhrəmanlarından biri olan Məmmədəliyev Saday oktyabrın 11-də Qarabağ torpaqlarına qədəm basıb. O qədəm basılan torpaqlarda neçə şəhidin qanı var idi. Saday o qanların qisasını alacağına söz verib, döyüşə başlayıb. Füzulidən başlayan döyüşləri Şuşada da davam etdirib. Son dəfə oktyabrın 24-də ailəsi ilə danışdığı zaman Şuşaya 10 kilometr qaldığını bildirib. Vətən qəhrəmanı noyabrın 7-də Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Günlərlə Sadaydan bir xəbər ala bilməyən ailəsi noyabrın 10-da onun şəhid olduğu xəbərini alıb. Bir ailə üçün tək oğul övladını itirməyin acısı böyük, izahı mümkünsüzdür. 3 gün sonra şəhidin nəşi Ordubad rayon Darkən kənd məzarlığında torpağa tapşırılıb.

Çavuş Məmmədəliyev Saday Rza oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı və «Şuşanın azad olunmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD SADAY

Gecənin sükutun pozan səs kimi,
Bir həsrət qəlbində salmışdı haray.
Ruhunun gözləri qan ağlayırdı,
Sən dözə bilmirdin bu dərdə, Saday.

Düşmən əllərində vətən düşünmək,
Qəlbini çarmıxa çəkirdi hər an.
Deyirdin «Vətənin, xalqın yolunda,
Hər zaman hazıram mən də verim can.»

Şuşa torpağına addım atanda,
Sevinc göz yaşların ruhuna axda.
Vətən torpağına sarıldığın tək,
Torpaq da cismini bağrına sıxdı.



**BABAYEV BABAXAN ƏLÖVSƏT OĞLU**
**ÇAVUŞ (MAHHXHQ)**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## «BİZ ÖLMÜRÜK, ŞƏHİD OLURUQ»

«Biz ölmürük, şəhid oluruq.» Bu cümlənin mənası çox böyük və dərindir. Bu ölümün əslində ölümsüzlük olduğunu dərk edən oğullardan biri idi Babaxan. Vətən həsrəti ən böyük həsrəti, şəhid dərdi isə ən böyük dərdi idi. Vətən müharibəsi zamanı Naxçıvanın vətənə qurban etdiyi 13 şəhidin nəşi Naxçıvana gətiriləndə Babaxan bu sətirləri yazmışdı.

Göy üzü zülmətə bürünüb yenə,
Elə bil kainat ağlayır bu gün.
Analar, bacılar gözü yaşlıdır,
On üç qardaşım şəhiddir bu gün.

Həmin on üç şəhidin timsalında bütün şəhidlərin qisasını almaqda qərarlı idi Babaxan. Vətən boyda ürək sahibi olan Babaxanı yaxından tanıyaq.

Babayev Babaxan Əlövsət oğlu 10 fevral 1996-cı ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Aşağı Yaycı kəndində dünyaya göz açmışdı. Əlövsət və Kamilə Babayevlərin dörd övladının sonuncusu





olmuşdu. Babaxan ailəsinin Bakıya köçməsi səbəbindən 2003-cü ildə Sabunçu rayon Pirşağı qəsəbəsində yerləşən 188 N - li tam orta məktəbdə təhsil almışdı. Eyni zamanda idmanın sərbəst güləş növü ilə məşğul olmuş və bir çox nailiyyətlər əldə etmişdi. 2014-cü ildə təhsilini başa vurmuşdu. Elə həmin il vətənə xidməti borcunu yerinə yetirmək üçün həqiqi hərbi xidmətə getmişdi. 2016-cı ildə hərbi xidmətini başa vurduqdan sonra bir müddət fərdi işlərlə məşğul olmuşdu. Lakin ürəyindəki vətən sevdası hər zaman onu hərbiyə doğru çəkmiş, 2018-ci ildə o arzusuna çatmışdı. Könüllü olaraq MAHHXHQ kimi xidmətə başlayan Babaxan 1 il sonra Xüsusi Təyinatlı Qüvvələrin hərbçisi olmuşdu.

Vətən müharibəsi başladığı ilk gündən Qarabağa getmək istəyən Babaxan Naxçıvana gətirilən şəhidlərin qisasını almağı söz vermişdi. Nəhayət oktyabrın 11-də Qarabağa gedən növbəti heyətin üzvləri sırasında o da öz yerini almışdı. Füzuli, Suqovuşan uğrunda gedən döyüşlərdə mübarizə aparan Babaxanın son döyüşü Hadrut uğrunda olmuşdu. Oktyabrın 17-də Babaxan qəhrəmancasına şəhid olmuş, nəşi bir həftə neytral zonada qalmışdı. Bir həftə sonra nəşini götürmək mümkün olmuş və oktyabrın 24-də Naxçıvana göndərilmişdi. Elə həmin gün Şərur rayon Şəhidlər Xiyabanında dəfn olunmuşdu.

Çavuş Babayev Babaxan Əlövsət oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, «Füzulinin azad olunmasına görə» medalı və «Suqovuşanın azad olunmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD BABAXAN

«Biz ölmürük heç zaman,
Bizlər şəhid oluruq.
Vətən olan torpağı,
Qanımızla yuyuruq.»

O torpaqlar uğrunda,
Neçə oğul vuruşub.
Qanın düşən torpaqlar,
Azadlığa qovuşub.

Can verdin öz canından,
Vətənimə, torpağa.
Cansız cismin büründü,
Ay-ulduzlu bayrağa.

Şəhidsən el yolunda,
Bir evin oğul payı.
Qəlblərdəki dərdinin,
Yox dünyada bir tayı.

Səni igid tək tanır,
Bütün xalqım, Babaxan.
Şəhidlərlə canlanır,
Vətənim Azərbaycan.





## MƏMMƏDOV ARAZ QƏHRƏMAN OĞLU ÇAVUŞ (MAHHXHQ)

**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**



## ARAZIN ÖMÜR YOLU

Azad vətən qəhrəmanların ən gözəl sənət əsəridir. O əsərin ərsəyə gəlməyi heç də asan başa gəlməyib. Kimi son damla qanından, son nəfəsindən keçib,kimi sağlamlığından, ümidlərindən. Hər bir qəhrəmandan bir iz var bu əsərdə. Ümidin bitdiyi yerdə doğulan ümidlər azad vətənin sabahıdır. O vətənin ki, qəhrəmanların sayəsində bütövləşib. İllərdi mənfur düşmənlərin min hiyləsinin qurbanı olan bu vətənin övladları düşmən hiyləsinə uymayacaq və düşməni məhv edəcək qədər güclənmişdi. Həmin oğulların vətənin bir qarışını belə düşməndə qoymayacağını bilirdik. Hər biri beşikdən Qarabağ yanğısı ilə böyümüşdü. Xudafərinin göz yaşı ilə qarışan Arazın axan sularının bir gün sevinclə çağlayacağını bilirdik. Həmin sevinci bizə Araz Məmmədov kimi qəhrəmanlar yaşatdı.

Məmmədov Araz Qəhrəman oğlu 16 iyul 1997-ci ildə Naxçıvan şəhərinin Tumbul kəndində anadan olub. 2003-cü ildə Tumbul kənd tam orta məktəbində təhsil almağa başlayıb. 2014-cü ildə təhsilini başa vurub. 2015-ci ildə həqiqi hərbi xidmətə gedib. 2017-ci ilin sonunda xidmətini başa vurub.

Arazın qəlbi vətən sevgisi ilə döyünürdü. Elə buna görə də 2020-ci

ilin iyulunda könüllü olaraq ordu sıralarına qoşulmaq qərarına gəlmişdi. Xüsusi Təyinatlı Qüvvələrin 3 aylıq kursunu bitirdikdən sonra MAH-HXHQ kimi xidmət etməyə başlamışdı.

II Qarabağ müharibəsinə könüllü olaraq yollanıb. Anasına zəng edib «Ana, biz Qarabağı azad etməyə gedirik. Bu yolun gedişi var, dönüşü olmaya bilər.» deyib və vidalaşıb. Son dəfə Şuşa azad olan gün Şuşadan anasına zəng edən Araz ertəsi gün qəhrəmancasına şəhid olub. Günlərlə Arazdan xəbər ala bilməyən ailə noyabrın 18-də hərbi komissarlıqdan aldığı cavabla Arazın şəhid olduğu xəbərini öyrənib. Noyabrın 19-da şəhidin nəşi Tumbul kənd məzarlığında torpağa tapşırılıb.

Çavuş Məmmədov Araz Qəhrəman oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı və «Xocavəndin azad olunmasına görə» medalı ilə təltif edilib.

Hələ çatmadığı çox arzuları var idi Arazın. Ailəsinin ən son üzvü olan Araz cənnətə tələsdi. Geridə isə gözü yaşlı insanlar qaldı. Hər dəfə adı gələndə sanki gözlərdəki göz yaşları kirpiklərdən asılıb intihar edir. Həyatda heç vaxt Arazı görməyən insanlar onu qəlbinin ən əziz kəsi bilir. Şəhid Araz hər kəsin qəhrəmanıdı.





## ŞƏHİD ARAZ

Qəlbin coşqun Araz tək,
Hey coşub-çağlayırdı.
Qarabağın kəm bəxti,
Qəlbini dağlayırdı.

Çöhrənə yansımışdı,
Çəkdiyin hər məlalın.
Araz, sən söyləyirdin,
«Yurdu yaddan qurtarım.»

O gün çatdığı zaman,
Atıldın meydanlara.
Torpağı məzar etdin,
Qaniçən düşmənlərə.

Azadlığa qovuşdu,
Qarabağ qarış-qarış.
Vətənə əksin saldı,
Neçə - neçə son baxış.



## ORUCOV COŞQUN ORUC OĞLU ÇAVUŞ (MAHHXHQ) (II Qarabağ müharibəsində şəhid olmuşdur.)

## TARİX OLAN ŞƏHİD

Bəzən şəhid həyatından yazmağa başlayarkən yazacağım cümlələr boğazımda düyünlənir. Axı 19 yaş ömür yaşayan bir gəncdən necə bir keçmiş kimi yazım? Hələ sevgisini etiraf etməyən, bəlkə də heç sevdiyinin gözlərinə baxmağa macal tapmamış olan gənclərdən yazmaq çox ağırdı. Anasının xınalı quzuları olan o körpə şəhidlərin arzuları ürəklərində dəfn olunub, doğmalarının arzuları isə daşa dönüb. Bir ana üçün övladından yox kimi danışmağın ağırlığını hiss etməmək mümkün deyil. Övladını ilk qoynuna aldığı gündən torpağın qoynuna verdiyi günə qədər yaşanılanları dilə gətirmək çox çətindi. Bəzən deyiləcək bütün kəlmələri bir sükut izah edir...

Coşqun hələ arzular qururdu. Qurduğu arzulara çatacağı ömrü isə qabaqda idi. Vətənə layiqli bir övlad olacağı körpəlikdən hiss olunurdu. Heç böyümədi ki, Fərqanə ananın gözündə...

Orucov Coşqun Oruc oğlu 2001-ci il yanvarın 28-də anadan olmuşdu. Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda dünyaya göz açsa da ömrünü Bakı şəhərində yaşamışdı. 2007-ci ildə Bakı şəhərində 315 N - li tam orta məktəbdə təhsil almağa başlamışdı. Musiqiyə marağı olduğu üçün 2010-cu ildə 3 saylı Musiqi məktəbində təhsil almış, qarmonda ifanın dərinliyini öyrənmişdi. 2018-ci ildə məktəbi bitirdikdən sonra bir Azərbaycan oğlu kimi vətənin, torpağın keşiyin çəkmək üçün həqiqi hərbi xidmətə getmişdi. Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda yerləşən N saylı hərbi hissədə xidmətini başa vurduqdan sonra MAHHXHQ olaraq kəşfiyyatçı kimi fəaliyyət göstərmişdi.

Vətən müharibəsinin könüllü qəhrəmanlarındandır Coşqun. Döyüşlərə oktyabrın 17-də yollanmışdı. Hər zaman öndə gedən qəhrəmanın göstərdiyi şücaətlər yaşından daha böyük ürəyə sahib olduğunun göstəricisidir. O ürək böyük olmasaydı bu böyüklükdə vətən sevgisini daşımazdı. Hadrut döyüşlərinin qəhrəmanlarından biri də Coşqun olub. Düşmən onun hədəfindən yayına bilmirdi. Düşmənin məğlubiyyətinin səbəbkarlarından olan qəhrəman düşmənin bir çox canlı qüvvəsini məhv etdikdən sonra snayper atəşinə tuş gələrək oktyabrın 21-də şəhadətə ucalıb. Oktyabrın 25 - də isə şəhidimizin nəşi Suraxanı rayonunda yerləşən Dədə Qorqud məzarlığında torpağa tapşırılıb.

Çavuş Orucov Coşqun Oruc oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Hərbi xidmətlərə görə» medalı, 3-cü dərəcəli «Vətənə xidmətə görə» ordeni, «Vətən uğrunda» medalı, «Xocavəndin azad olunmasına görə medalı və «Füzulinin azad olunmasına görə» medalı ilə təltif edilib.

Nə bir nişanəsi, nə bir yadigarı qaldı Coşqunun. Elə bil bu dünyaya daş olmaq üçün gəlmişdi. Gülüşü donan o məzar daşına indi vətənin əksi düşür. Vətən kimi görünür, vətən kimi sevilir. Onun vətəni sevdiyi kimi sevirik onun şəhid adını. Bir zamanlar Coşqun deyə çağrılan adının önünə indi müqəddəs şəhid adı həkk olunub. Şəhid Coşqun eşqlə anılır, qəhrəman tək tanınır.

## ŞƏHİD COŞQUN

Sən nə tez böyüyüb bir qəhrəman tək,
Vətənin qeyrətin çəkdin, ay Coşqun?!
Qalib bir ordunun əsgəri kimi,
Zəfər sevincini yetirən oldun.

Bizlər düşünməzdik bir gün gələcək,
Vətənə azadlıq yetirəcəksən.
Heç vaxt görmədiyin o torpaqlarda,
Şəhid biri kimi can verəcəksən.

Bayraqlı tabuta sığdığın o gün,
Bu dünya daralıb zindana döndü.
Dünyadan gənc yaşda köçdüyün zaman,
Evinin işığı əbədi söndü.

Səninlə bərabər məzara köçdü,
Səninlə canlanan şirin arzular.
Ruhunda vətənə eşq bəsləyənlər,
Torpağa qarışıb tarix oldular.





**SEYİDOV MİRYASİN MİRQAFAR OĞLU**
**ÇAVUŞ (MAHHXHQ)**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**



## ARZUSUNA ÇATAN MİRYASİN

İllərdən sonra qazanılan zəfərdə əvəzsiz rolu olan qəhrəmanlar sabahımızın qəhrəman oğullarının müəllimləridir. Bu günün gəncliyi vətənin qəhrəman oğullarının yollarını örnək götürürlər. Necə ki, həmin qəhrəmanlar özlərindən öncəki qəhrəmanların izlərini örnək götürmüşdülər. Əbəs deyilməyib ki, «Şəhidlər bir ölüb, min dirilər.» Bir şəhidin qanının çiləndiyi torpaqda Miryasin kimi min qəhrəman boy atar. Miryasinin qanının çiləndiyi torpaqda yenə Miryasinlər addımlayacaq. Bu vətənin qəhrəmanlarının kökü heç zaman kəsilməyəcək.

Seyidovlar ailəsi hələ 1941-45 - ci illərdə ilk şəhidlərini vermişdi. Seyid nəslindən olan bu ailə hər zaman vətənpərvərliyi ilə seçilmişdi. Ailənin daha bir qəhrəmanı isə 2020-ci ildə Vətən müharibəsində şəhid olan Miryasin Seyidovdur.

Seyidov Miryasin Mirqafar oğlu 23 dekabr 1998-ci ildə Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Əbrəqunus kəndində anadan olub. Ailədə 4 övlad olublar. 2005-ci ildə Əbrəqunus kənd tam orta məktəbində təhsil almağa başlayıb. 2016-cı ildə məktəbi bitirib. 2017 - ci ildə həqiqi hərbi xidmətə gedib. Qıvraqda çətin relyefi olan dağlarda xidmət

edib. Xidməti zamanı nümunəvi əsgər olduğu üçün tərifnaməyə layiq görülüb. 2018-ci ildə xidmətini başa vurduqdan sonra Türkiyənin Bodrum şəhərində işləyib. Sonra isə Azərbaycana qayıdıb və fərdi işlərlə məşğul olub. 2020-ci ildə MAHHXHQ kimi ordu sıralarına qatılmaq üçün müraciət edib. Xüsusi Təyinatlı Qüvvələrin kursunu keçdikdən sonra xidmətə başlayıb. Xidmətə yeni başlamasına baxmayaraq o könüllü olaraq Vətən müharibəsində iştirak etmək istədiyi barədə müraciət ünvanlayıb. Miryasin Qarabağı azad etmək arzusuna yaxınlaşıb.

Son dəfə oktyabrın 16-da evlərinə gəlib. Həmin gün anası Miryasini həsrətli gözlərlə süzüb "Miryasin, ürəyim qırılır,birdən səni də apararlar." deyib. Miryasinin «Ana, nə sən o analardan artıq deyilsən, nə də mənim canım o oğullardan artıq deyil.» sözləri qarşısında ana bir anda duruxub. Miryasinin cavabı sanki o an ananı yuxudan oyadıb. Ertəsi gün vidalaşan zaman anasına Culfaya kursa gedəcəklərini deyib. Ancaq ailə üzvülərini qardaşına əmanət edən Miryasin gedəcəyi yerin Qarabağ olduğunu qardaşına sirr gəlib. Neçə-neçə torpaqlarda izi qalan Miryasinin son addım izi oktyabrın 24 - də Qırmızı Bazarda qalıb. Qırmızı Bazar ugrunda gedən döyüşlər onun son döyüşü olub. Şəhidin nəşi oktyabrın 26-da Naxçıvan Muxtar Respublikasına gətirilib və Culfa rayon Əbrəqunus kənd məzarlığında dəfn edilib.

Çavuş Seyidov Miryasin Mirqafar oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı «Füzulinin azad olunmasına görə» medalı və «Xocavəndin azad olunmasına görə» medalı ilə təltif edilib.





## ŞƏHİD MİRYASİN

İgidlər oylağı olan Naxçıvan,
Yetirib Miryasin kimi bir ərən.
Vətən «oğul» deyib səsləyən zaman,
Vətən oğlu kimi ona hay verən.

Adı igidlərin sırasındadır,
Vətən qeyrətini çəkən igidin.
Dərdi ürəkləri yaman sızladır,
Ömrünün tər çağı solan şəhidin.

Ruhunda boy atan azadlıq eşqi,
Böyüyüb vətənə qucağın açdı.
Qəhrəman oğulun əzminin gücü,
Vətənə azadlıq nurunu saçdı.



QULİYEV QULAM ƏLİ OĞLU
ƏSGƏR
(1991-ci ildə şəhid olmuşdur.)

## HƏYATDAN DOYMADIN

Doğulanda alnına vətən yazılan oğullar çox olur. O oğullar yaşadıqları zaman biz bunun fərqinə varmırıq. Ancaq onların hər nəfəsdə «Vətən» dediklərini Allah da duyur, vətən də. Elə ona görə də qəhrəman oğulların mükafatları şəhadət olur. Allahın şəhadətlə mükafatlandırdığı qəhrəmanlardan idi Quliyev Qulam Əli oğlu.

Qulam 1973-cü il 15 sentyabrda Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Cəhri kəndində anadan olmuşdu. O vaxtlar ailələr daha böyük idi. Ailələrdə 1-2 deyil daha çox övlad böyüyərdi. Quliyevlər ailəsinin də 8 övladı var idi. 8 övladdan 6-cı olan Qulam 1980-ci ildə Sovet İttifaqı Qəhrəmanı Qəzənfər Əkbərov adına 1 N - li tam orta məktəbdə təhsil almağa başlamışdı. 1990-cı ildə təhsilini başa vurduqdan sonra Naxçıvan Politexnik Teknikumunun Avtonəqliyyat Fakultəsinə qəbul olmuşdu. 1-ci kursda oxuduğu zaman ərizə yazaraq könüllü olaraq hərbi xidmətə getmişdi. Naxçıvan şəhərində Zenit batalyonunda xidmətə başlamışdı. Qulamın komandiri Məmmədov Əbdül Cəlal oğlu olmuşdu. Bir neçə ayın əsgəri olan Qulam Sədərək uğrunda gedən döyüşlərə qatılmışdı. Qulam Sədərəyə gedən zaman qardaşı Rəcəb artıq bir müddət idi ki,





Sədərək döyüşlərinin iştirakçısı idi. Polis nəfəri olan Rəcəb Sədərəyi bir istiqamətdən, əsgər qardaşı Qulam isə başqa bir istiqamətdən müdafiə ediblər. Döyüşlər zamanı Qulamın komandiri Əbdül Məmmədov vurulub. Döyüşə davam edən əsgərlər vətən torpağını son nəfəslərinə qədər qoruyacaqlarına and içiblər. Qulam da bu yoldan dönməməkdə qərarlı olub. Lakin düşmənin açdığı atəş ondan da yan keçməyib. Sentyabrın 1-də düşmənin gülləsi boyun nahiyəsindən dəyən Qulam bir neçə gün Naxçıvanda müalicə alsa da vəziyyəti getdikcə ağırlaşıb. Sentyabrın 8-də Bakıdakı Hərbi hospitala gətirilən qəhrəman həyat mübarizəsindən məğlub ayrılıb. Sentyabrın 12-də son nəfəsini verən Qulam 13 sentyabr 1991-ci ildə Naxçıvan Muxtar Respublikasının Babək rayonun Cəhri kənd məzarlığında torpağa tapşırılıb.

Yenicə sevdiyinə qovuşmuşdu Qulam. Hələ bəy otağının qırmızı lenti açılmamışdı. Toyunun sədası qulaqlardan getməmiş, onun üçün deyilən ağılar əks-səda qopardı. Nə yaşamaqdan doydu, nə də sevməkdən. Heç övlad qoxusunu da duymadı Əsgər Quliyev Qulam Əli oğlu.

## ŞƏHİD QULAM

Vətən dara düşən ilk zamanlardan,
Vətəni qoymadın düşmən əlində.
Qorxmaz qəhrəman tək sən boy göstərdin,
O qanlı Sədərək döyüşlərində.

Səni qorxutmadı düşmən gülləsi,
Şığıdın düşmənin üstünə, Qulam.
Şəhid tək can verən qəhrəmanların,
Sən oldun düşməndən qisasın alan.

Yaşından böyükdü sənin hünərin,
O hünər şərəfin elə özüdür.
Bu vətən sənin tək neçə şəhidin,
Dediyi sonuncu şirin sözüdür.



**SADİQOV QOŞQAR HİDAYƏT OĞLU**
**ƏSGƏR**
**(1994-cü ildə şəhid olmuşdur.)**

## AĞDAMDA DONAN BAXIŞ

Azərbaycan qanlı - qadalı günlərdən keçib bu günlərə gəlib çatıb. Dönüb keçmişə nəzər saldıqda bu günə qədər xalq olaraq hansı müsibətləri yaşadığımızı görürük. Çətinliklərdən keçib qüdrətli bir ölkəyə çevrilən Azərbaycanın bu günə uzanıb çatan yollarında neçə oğulun ömrü bitib. O oğulların canları bahasına qoruduqları vətənin, torpağın hər qarışı şəhid məzarı kimi müqəddəsdir. Biz azadlığımızı, müstəqilliyimizi Qoşqar və onun timsalında bütün şəhidlərimizə borcluyuq. Qanla əldə olunan azadlıq əbədi olaraq qorunub saxlanılmalıdı.

Ömrünü, arzularını, gələcəyini vətənə qurban verən Sadiqov Qoşqar Hidayət oğlu 13 noyabr 1973-cü ildə dünyaya göz açmışdı. Babək rayon Cəhri kənd Qəzənfər Əkbərov adına 1 N - li tam orta məktəbdə təhsil almışdı. Həyatın sərt sınağı ilə hələ körpə yaşlarında sınanmışdı. 8 yaşı olarkən atasını itirən Qoşqar və digər bacı - qardaşlarını anası tək başına böyütmüşdü. Qoşqar Naxçıvan şəhər Texniki Peşə məktəbinə daxil olmuşdu. Lakin Azərbaycanın müharibə şəraitində olması səbəbindən o təhsilini davam etdirə bilməmişdi. Ermənistanın Dağlıq Qarabağda başlatdığı işğalçı siyasəti Naxçıvan Muxtar Respublikasında da açıq - aşkar





hiss olunurdu. Azərbaycanın əzəli və əbədi torpaqlarını düşmən işğal edir, soyqırımlar törədirdi. Artıq Qoşqarın gözləri önündə Naxçıvanın da bir neçə əraziləri düşmən tərəfindən işğal edilmiş, talanmışdı. Qoşqarın səbri çarmıxa çəkilmişdi. Qisas gününü gözləyən Qoşqar 1992-ci ildə Ordu sıralarına qoşulmuş və vətənin müdafiəsinə qalxmışdı. Naxçıvan Muxtar Respublikasının müdafiəsinə qalxan qəhrəman bir müddət sonra düşmənin talan etdiyi Ağdam şəhərinə yollanmışdı. Ağdamda törədilən vəhşilikləri gözləri ilə görən Qoşqar son nəfəsinə qədər mübarizə aparmışdı. Döyüşlərdə hər zaman öndə olan qəhrəman elə ön cəbhədə vuruşarkən şəhadətə ucalmışdı. 1994-cü ilin fevralında Ağdamın İlxıçılar kəndinin müdafiəsi zamanı düşmənin açdığı atəş ondan da yan keçməmiş, vətənin azadlığı uğrunda can vermişdi.

Hər zaman vətənə oğul qurban edən Naxçıvanın növbəti vətən qurbanı Qoşqar Naxçıvan şəhər Şəhidlər Xiyabanında torpağa tapşırılmışdı.

Əsgər Sadiqov Qoşqar Hidayət oğlunun adı Babək rayon Cəhri kəndindəki 2 N - li məktəbə verilərək əbədiləşdirilmişdi.

## ŞƏHİD QOŞQAR

Sən könül bağlamışdın,
Bu vətənə ,torpağa.
Qanınla bir rəng verdin,
Bu ucalan bayrağa.

Ağdamın özü kimi,
Ürəyin talan oldu.
Hər talanan bir evdə,
Sənin baxışın dondu.

Sonuncu nəfəsdək,
Mübarizə apardın.
Vətənin qəhrəmanı,
Düşməndən qisas aldın.

Soyuq fevral günündə,
Ucaldın şəhadətə.
Şəhid kimi yol aldın,
Qoşqar, sən də cənnətə.







## ABBASOV HEYDƏR BAYRAM OĞLU ƏSGƏR (1994-cü ildə şəhid olmuşdur.)

## DÜNƏNLƏRDƏN BU GÜNƏ DÜŞƏN NUR

Tarixi qədimdən qədim olan ana yurdum, bu günə qədər yaşamağının, təravətli qalmağının səbəbi sənin üçün gənc yaşda ömrünü sənə fəda edib, torpağına çevrilənlərdi. Səni yaşadan son nəfəslərin əsintisiylə ruhun oxşayır, ana yurdum. O qədər gözəl qoxursan ki, analar səni öz balası kimi qoxlayır. Şəhid qanları ilə qarışan torpağım, hər birimiz sənə dönəcəyik. Ancaq hər insan sənə can fəda edib, səni yaşadan biri kimi dönə bilməyəcək. Səni yaşadanlar isə sənin qədər müqəddəs şəhidlərdi. Qoynuna aldığın cavanların sayı - hesabı yoxdu. Həmin saysız-hesabsız ömürlərin nakam arzularının da sayı-hesabı yoxdur. Cəmi 21 il ömür sürən bir gəncin yaşadığı ömür yoluna nəzər saldığımda özümdən ixtiyarsız gözlərimdən yaş süzüldü. Bir ana kimi, bir bacı kimi duyğulandım.

Ömrünün ən gözəl çağında vətən daşına dönən Abbasov Heydər Bayram oğlu 1973-cü ildə Azərbaycanın paytaxtı Bakı şəhərinin Xətai rayonunda anadan olmuşdur. 6 uşaqlı ailədə ilk oğul övladı, hər kəsin istəklisi idi. Heydər 4-5 yaşlarında olarkən ailəsi ilə birlikdə Şərur rayonunun Kərimbəyli kəndinə köçmüş və orada yaşamağa başlamışdı. Elə ilk təhsilini də Kərimbəyli kənd tam orta məktəbində almışdı. Məktəbi bitirdikdən

sonra 1992-ci il sentyabrın 15-də hərbi xidmətə yollanmış, Ermənistanla həmsərhəd olan ərazi lərdə xidmət etmişdi. Batabatda düşmənlə üz-üzə mövqelərdə xidmət etmişdi. Hər zaman komandirləri tərəfindən digər əsgərlərə nümunə göstərilən əsgərlərdən biri olmuşdu. Dəfələrlə təşəkkürnamə almışdı. Vətənin çətin günlər yaşadığı bir zamanda vətənə xidmət edən Heydər xalqımızın başına gətirilən müsibətlərin intiqamını almaq arzusu ilə yaşamışdı. Demək olar ki, hər gün düşmən tərəfindən atəşə məruz qalan Sədərəyi düşməndən müdafiə edən qəhrəmanlardan biri də Heydər olmuşdu. Nə qar-çovğun, nə də mərmi yağışı onun gözünü qorxutmur, yolundan döndərmirdi. Onun ruhunda əzmkarlıq var idi. Dəfələrlə ölümlə burun-buruna gəlsə də yolundan dönməmiş, «Vətən yolunda can verəcəm.» demişdi. Xidməti zamanı Salvartıda döyüş yoldaşları ilə birlikdə qar uçqununa düşmüş və çox çətinliklə, 3 gün sürünə-sürünə xilas ola bilmişdi. 3 gün qar üzərində sürünmək nə deməkdi yaxşı bilirik. Demək ki, o vaxtlarda hələ yaşamadığı ömür payı qalıbmış. Daha sonra isə Şada kəndində xidmətdə olduğu zaman yanlarına top mərmisi düşmüş, döyüş yoldaşı ağır yaralanmışdı. Yoldaşını təkbaşına kürəyində daşıyıb lazımı yerə çatdırmışdı. Çox güclü iradəyə sahib olmuş, qətiyyəti ilə daima irəli addımlamışdı. 2 il 1 aylıq xidməti dövründə bir dəfə də olsun çətinlikdən şikayət etməmişdi.

Heydərin çatmadığı arzuları çox olub. Ən böyük arzusu isə sevdiyi xanıma qovuşmaq idi. Son gəlişində anasının xəstə olduğunu görüb «Ana xidmətimi başa vurub gələn kimi ocağımıza gəlin gətirəcəm, qızlarının sayı artsın.» demişdi. Ancaq nə Heydər yarına qovuşmaq arzusuna, nə də Xanımzər ana Heydərin toyunda qol qaldırıb oynamaq arzusuna çatmayıb.

Son dəfə evlərinə gəlişindən cəmi dörd gün sonra oktyabrın 22-də axşam saatlarında xidməti vəzifəsini yerinə yetirərkən düşmənin kor gülləsinə tuş gəlib. Ağır yaralı halda gecə ilə hospitala çatdırılsa da həkimlərin səylərinə baxmayaraq Heydər həyata tutuna bilməyib. Gecəni əməliyyat olsa da təkrar qanaxma başlayıb. Ata - anası Heydərin son anına gəlib çata bilməyiblər. Heydərin son arzusu ata-anasını görmək olub. Ömrünün son saniyələri sürətlə keçən Heydər 23 oktyabr sübh səhər son nəfəsini bacısı Şəlalə xanımın qucağında verib. Son nəfəsində Şəlalə xanımın əlini





sıxan Heydər ona bir ömür boyu unuda bilməyəcəyi kədəri miras qoyub. Ata-anası xəstəxanaya çatanda Heydərin şəhid olduğu xəbərini alıblar. Heydərin arzuları göz önündən bir lent kimi keçib. Bütün arzuların nöqtəsi şəhadət olub.

Əsgər Abbasov Heydər Bayram oğlu 23 oktyabr 1994-cü ildə atasının istəyi ilə Kərimbəyli kənd məzarlığında torpağa tapşırılıb.

## ŞƏHİD HEYDƏR

Şəhidin yaşı olmur,
Şəhid qocalmır heç vaxt.
Ömrü cavan solanlar,
Ürəklərdə qurub taxt.

İstərsə 100 il ötsün,
Şəhid bu gün can verib.
Tanrı vətən yaşına,
Şəhid yaşın tən bilib.

Dünənlərdə vətənçün,
Canından keçən oğul.
Dünən, bu gün bu millət,
Sənlə hey qürur duyur.

Sanmakı ötən illər,
Unutdurar ismini.
Heydər, torpaq gizləyib,
Ruhunu yox cismini.

Ruhun vətən səmasın,
Öz nuruna qərq edib.
Sənin tək neçə oğul,
Vətənçün candan keçib.



MƏHƏRRƏMOV QƏDİR
BAYRAM OĞLU
ƏSGƏR
(1995-ci ildə şəhid olmuşdur.)

## SOYUQ DAĞDA VERİLƏN SON NƏFƏS

Heç bir keçmişi, kökü olmayan, əzəli Azərbaycan torpaqlarını mənimsəyib özününküləşdirən mənəviyyatsız Ermənistanla həmsərhəd olan Naxçıvan hər zaman düşmənin açdığı atəşlərə məruz qalıb. Xisləti əməlindən bəlli olan belə bir ölkə ilə qonşu olmaq Azərbaycan xalqının ən böyük şanssızlığıdır. Azərbaycanın hər bir vətəndaşının ilk öhtəliyi vətəni düşmən qonşudan müdafiə etməkdi. Elə vətəni qoruyan qəhrəmanlar vətənin var olma səbəbidir. Yoxsa indi acgöz, bədnam qonşularımız vətəni min yerə didib, parçalayardılar. Dünənlərdən bu günə ulu babalarımızdan miras qalan bu torpaqları qəhrəmanlar qoruyur və gələcək nəsillərə əmanət qoyur. Necə ki, Qədir kimi bir qəhrəman vətəni qorudu və bizə əmanət qoydu.

Məhərrəmov Qədir Bayram oğlu 1975-ci ildə Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Cəhri kəndində anadan olmuşdu. Elə bil vətən payı idi. Böyüdükcə Ermənistan adlı qonşusunu daha yaxşı tanımış və böyüyüb vətəni elə bir qaniçən qonşudan müdafiə etmək arzusunda olmuşdu. 1983-cü ildə Cəhri kənd 2 saylı tam orta məktəbdə I sinfə qədəm





qoymuşdu. Uşaqlıqdan futbola böyük marağı olmuşdu. O dövrün çətinliyi səbəbindən peşəkar bir futbolçu ola bilməmişdi. 1994-cü ildə məktəbi bitirmişdi.

Qədir vətənin çətin günlərini görə - görə böyümüşdü. Qarabağda törədilən vəhşiliklər, Sədərək döyüşləri onun məktəbli olduğu zamanlara təsadüf etmişdi. Sədərəkdə baş verən atışmalar gecələr yuxularını çox bölmüşdü. Hər dəfə düşmənə nifrəti bir qədər də böyüyən Qədir məktəbi bitirən kimi könüllü olaraq ordu sıralarına qoşulmuş, bir müddət Naxçıvanda xidmət etdikdən sonra könüllü olaraq Füzuli və Cəbrayıl istiqamətinə getmişdi. Həmin zaman döyüş yoldaşları ilə birlikdə mühasirəyə düşsələr də təslim olmamış, əksinə mühasirəni yarıb mübarizələrin davam etdirmişdilər. Daha sonra yenidən Naxçıvana qayıtmış və yenə də vətən keşiyini çəkmişdi. Naxçıvanın Culfa rayonunda yerləşən Soyuq dağda xidmətini davam etdirən Qədir 1995-ci ildə elə həmin ərazinin müdafiəsi zamanı düşmənin açdığı snayper atəşi nəticəsində qəhrəmancasına şəhid olmuşdu.

Əsgər Məmmədov Qədir Bayram oğlu 23 avqust 1995-ci ildə Babək rayon Cəhri kənd məzarlığında torpağa tapşırılmışdı.

## ŞƏHİD QƏDİR

Bir eşqin alovunda,
Əridi ruhun buzu.
O eşq üçün can vermək,
Oldu ən böyük arzun.

Arzunun yollarında,
Qan axdı damla-damla.
Sən yolundan dönmədin,
Addımladın inamla.

İz saldın Füzulidə,
Cəbrayılda igid tək.
Əzminə heyran qaldı,
Şux qamətli Sədərək.

Soyuq dağı isitdi,
Tökülən ılıq qanın.
Qədir, vətən qurbanı,
Oldu sənin də canın.







**BAYRAMOV NİYAMƏDDİN BAYRAM OĞLU ƏSGƏR (1997-ci ildə şəhid olmuşdu.)**

## TARİX OLAN OĞUL

Bizim bir vətənimiz olduğu kimi amalımız da birdi. Amalımızın ünvanı da elə vətəndi. İllərdi qəhrəmanlar bu amal uğrunda birləşib. Kimi öz canını fəda edir, kimi isə gələcəyini. Hər zaman vətənə qurban oğulların qəhrəmanlıqlarını eşitmişik. Hər oğul bir tarix olub. Tarix olan oğulları unutdurmağa ötən zamanın gücü yetmir. Əksinə qəhrəmanların can verdiyi dünənlər bu gün kimi xatırlanır. Dünənlərdə vətənə can verib bu gün də xatırlanan şəhid Niyaməddin Bayramovun çox səhifəsi boş qalan ömür kitabını vərəqləyək.

Bayramov Niyaməddin Bayram oğlu 26 sentyabr 1978-ci ildə Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Cəhri kəndində dünyaya göz açmışdı. 6 övladı olan bir ailənin son övladı idi. Min bir zəhmətlə böyümüşdü 6 bacı qardaş. Bir - birinə dayaq olmağı lap körpəlikdən öyrənmişdilər. Elə vətənə dayaq olmağı da... 1985-ci ildə Babək rayon Cəhri kənd Qəzənfər Əkbərov adına 1 N - li tam orta məktəbdə təhsil almağa başlamışdı. Birinci sinifdə oxuyanda məktəblə yanaşı idmana da getmişdi. Əvvəlcə idmanın sərbəst güləş növü ilə məşğul olmuş, sonra isə cüdo ilə məşğul olmuşdu. 1995-ci ildə məktəbi bitirmiş, elə həmin ilin yanvarında hərbi xidmətə getmişdi. Füzuli istiqamətində xidmətə başlayan Ni-

yaməddin daha sonra Beyləqanın Haramı düzü adlanan ərazisində xidmət etmişdi. Həmin ərazi Ermənistan ordusunun tez-tez atəş açdığı bir ərazi idi. Düşmən ordusu imzalanmış atəşkəs müqaviləsinə məhəl qoymamış, çirkli niyyətlərini hər zaman aşkar etmişdi. Düşmən ordusu növbəti dəfə 1997-ci il mayın 14-dən 15-nə keçən gecə atəşkəsi pozmuş və ərazilərimizi iriçaplı silahlardan atəşə tutmuşdu. Həmin zaman torpaqlarımızın müdafiəsi uğrunda son nəfəsinə qədər mübarizə aparıb şəhid olan 6 hərbçidən biri də Niyaməddin olmuşdu.

Niyaməddin 6 yaşı olan zaman atasını itirmişdi. Gülçiçək ana övladlarını tək başına böyütmüş, yerbəyer etmişdi. Son beşik olan Niyaməddin Gülçiçək ananın gözündə heç böyüməmişdi. Körpə sandığı oğlunun şəhid xəbəri Gülçiçək anaya elə bir acı yaşatmışdı ki, sanki eyni anda bütün sümükləri sınıb tökülmüşdü. Bu dünyada övlad dərdinin bənzəri yoxdu. Mayın 16-da Niyaməddin anasının qollarından əbədi uçub getmişdi. Əsgər Bayramov Niyaməddin Bayram oğlu Babək rayon Cəhri kənd məzarlığında torpağa tapşırılmışdı.

## ŞƏHİD NİYAMƏDDİN

Ümidlər sən gedən gün,
Karvan - karvan düzüldü.
Məzarında boğulan,
Ümidləri görəndə
Əl ümiddən üzüldü.

Axı hələ həyatın,
Döngəsin aşmamışdın.
Əlinə xına yaxıb,
Subaylığın daşını
Şəhidim, atmamışdın.

Sən getməyə tələsdin,
Getdin vətənə sarı.
Niyaməddin, illərdi,
Bir sağaldan tapılmır
Ürəkdəki qübarı.





## HƏNİFƏYEV SEYRAN EYNALI OĞLU ƏSGƏR (2014-cü ildə şəhid olmuşdur.)



## SEVGİSİN SÜBUT EDƏN SEYRAN

Bir ailədə oğul övladı dünyaya göz açanda ən böyük arzu «Vətənə layiq övlad olsun.» olur. Çünki vətənə layiq olmağı hər kəs bacarmır. Hər kəs vətənin adını, bayrağını ucalda bilmir. Bunu bacaranlar bütün xalqın rəğbətini qazanır. Qanları, canları bahasına vətəni, torpağı, bayrağı var edənlər isə xalqın ürəyində əvəzsiz bir eşqə yelkən açır. Sonsuzluğa gedən ömürləri kimi şəhidlərin ürəklərdəki sevgiləri də sonsuz olur. Nə ürəkdəki yerləri dolmur, nə də adları unudulmur. Adını vətən torpağına yazan şəhid Hənifəyev Seyran Eynalı oğlu da unudulmazlar sırasındadı.

Hənifəyevlər ailəsi ilk övlad sevincini 20 iyul 1995-ci ildə yaşamışdılar. Ailənin ilk və tək oğul övladı Hənifəyev Seyran Eynalı oğlu gəlişində özü ilə bərabər xoşbəxtlik, səadət gətirmişdi. Özündən sonra dünyaya gələn 2 bacısını hər zaman qoruyar, onların qayğısına qalarmış. Zaman keçdikcə boy atan oğul 2001-ci ildə Babək rayon Cəhri kənd Qəzənfər Əkbərov adına 1 N - li tam orta məktəbə qədəm qoymuşdu. 2012-ci ildə məktəbi bitirmişdi. 2013-cü ilin iyulunda vətən keşiyini çəkmək üçün həqiqi hərbi xidmətə getmişdi. Əvvəlcə Culfada xidmət etmiş, sonra isə Ordubadın ən çətin relyefi olan Soyuq dağ adlanan yüksəklikdə xidmət

etmişdi. Soyuq dağın soyuğunu ancaq orada xidmət edən əsgərlər izah edə bilər. Ancaq Seyranın ruhunu isidən vətən sevgisi hər çətinliyə, soyuğa dözməyə güc verirdi. Seyran xidməti zamanı komandirlərinin və əsgər yoldaşlarının hörmət və güvənini qazanmışdı. Seyran qumbara atan vəzifəsini icra etmişdi. İşində həddindən artıq dəqiq və məsuliyyətli olmuşdu. Lakin onun da qismətinə şəhidlik yazılıbmış.

Seyranın qismətində 1 il 2 ay vətənə xidmət etdikdən sonra şəhid olmaq var imiş. Seyran 8 avqust 2014-cü ildə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. 19 yaşlı qəhrəmanın nəşi avqustun 9-da Babək rayon Cəhri kənd məzarlığında torpağa tapşırılıb.

Seyran heç zaman canını düşünməzmiş. Hər zaman vətəni canından üstün bilmiş, lazım gəldiyində vətən uğrunda candan keçməyə hər an hazır olmuşdu. O, etmək istədiyini sözdə deyil əməlində sübut etmişdi.

### ŞƏHİD SEYRAN

Sən könül vermişdin vətənə, elə,
Sevgini gətirdin hər zaman dilə,
Sevgin bənzəyirdi çağlayan selə,
Eşqinin yolunda can verən, Seyran,
Səni unutmarıq heç vaxt, heç zaman.

Vətənlə çəkilir şəhidim, adın,
Çox duydun vətənin ahın, fəryadın,
Qırmaq istədilər qolun, qanadın,
Bu qanla ucalan ulu vətənin
Qəlbin tab etmirdi bu dərdə sənin.

İllərlə ürəyi yandı bu xalqın,
Düşmən amansızdı həm də ki, azğın,
Sağalmaz ürəkdən şəhidim, dağın,
Arzusu daşlara yazılan oğul,
Getmisən şəhadət adlanan bir yol.







## RƏFİYEV ÜLVİ RƏFAİL OĞLU
## ƏSGƏR
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

### "SÜKUT RƏQSİ"

"Mən həmişə Ülvini itirmək qorxusu ilə yaşayırdım. Oğlum mənim ömrümə gec gəldi. Üç il əl açıb Allahıma yalvardım ki, Allahım, mənə övlad qismət et. Necə versən qəbulumdu. Təki mən övlad qoxusun, analıq duyğusun yaşayım. Allah səsimi duydu. Gec gələn sevincim məni tez tərk etdi."

Acının rəngi olmur, ancaq bütün acıların ürəkdəki sızıltısı eyni olur. Hələ şəhid dərdi düşən ürəklərin hər biri eyni yanır. Hər şəhid anasının övlad həsrətini izah edən cümləsinin sonuna nakam arzular nöqtə qoyur. Bu nakam arzuların hər biri isə ürəkdə acının bir izin salır. Övlad dərdi ilə sızlayan bir qəlb sahibi də Səyyarə anadı. Səyyarə ananın Ülvisini izah edən hər cümləyə göz yaşları şahid oldu.

Rəfiyev Ülvi Rəfail oğlu 1996-cı ildə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunda anadan olmuşdu. İllərdən sonra ailənin övlad həsrətinə Ülvi gəlişi ilə nöqtə qoymuşdu. Qədəmləri uğurlu olan Ülvidən sonra qardaşı Ülvan dünyaya gəlmişdi. Ailənin xoşbəxt günləri övlad adlı çırağın nuru ilə işıqlanırdı. Hər kəlməsi, hər hərəkəti qəlb oxşayan Ülvinin ipək qəlbində pislikdən əsər - əlamət yox idi. Sanki Allah onu yer üzünə

seçib göndərmişdi. Ülvi 2002-ci ildə Xətai rayonunda 263 N-li məktəbdə təhsil almağa başlamışdı. Rəqsə çox böyük marağı olan Ülvi eyni zamanda 30 N-li Pionerlər evində peşəkar rəqsə getmişdi. 2013-cü ildə məktəbi bitirmiş və elə həmin il Azərbaycan Dövlət Sənaye Universitetinə (ADNSU) qəbul olmuşdu. Universitet dövründə də universitetin nəzdində fəaliyyət göstərən "Gənclik rəqs qrupu" adı altında rəqsləri ilə göz oxşamağa davam etmişdi. Ülvi rəqs yoldaşları ilə birlikdə ölkəmizi bir çox yarışlarda təmsil etmiş və qalibiyyət qazanmışdı. Türkiyənin ən məhşur yarışma proqramı "Yetenek sizsiniz" də yarımfinala qədər irəliləyən qrup Almaniyada da festivallara qatılaraq rəqslərimizi dünya ölkələrində təbliğ etmişdi. "Gənclik rəqs qrupu" 2015-ci ildə Avropa oyunlarının açılış və bağlanış mərasimində, 2017-ci ildə Formula 1 yarışlarında, 2017-ci ildə İslam oyunlarının açılışında möhtəşəm performansları ilə adından söz etdirməyi bacarmışdı. Həyat eşqi ilə ətrafına sevinc bəxş edən Ülvi ömür kitabına çox uğurlarla imza atmışdı.

Ülvi 2017 – ci il iyul ayında vətən borcunu ödəmək üçün hərbi xidmətə yollanmış, atəşkəsin hər gün pozulduğu Füzulinin Əhmədbəyli kəndində xidmət etmişdi. 2018-ci ildə xidmətini başa vurub qayıtdıqdan sonra fərdi işlərlə məşğul olmuşdu.

Ülvi sevməyi gözəl bacarırdı. Çünki qəlbi gözəl idi. Bu gözəl qəlbin sahibi isə Nəcibə xanım idi. Üç ay könül verdiyi xanımla əhd-peyman bağlamaqda qərarlı idi. Anasına "Yarı parçamı tapmışam." deyərək iyunun 25-də sevdiyi xanıma elçi göndərmişdi. Sevənlərin ucsuz-bucaqsız sevgiləri ailələri də bir-birinə bağlamışdı.

Hər bir vətən oğlunun vətənin azadlıq mübarizəsinə qatıldığı o günlərdə Rəfiyevlər ailəsinin iki oğul övladı da vətənin keşiyində durmuşlar. Həmin vaxtlarda hərbi xidmətdə olan Ülvan vətənə olan borcunu yerinə yetirmiş, Ülvi isə vətən uğrunda gedən müharibədə ön cəbhədə fədakarcasına mübarizə aparmışdı. Cəbrayıl və Füzuli istiqamətində gedən döyüşlərdə qazanılan zəfərdə Ülvinin də böyük payı olmuşdu. Döyüş yoldaşlarının dediyinə görə Ülvi neytralda qalan şəhidlərin nəşlərini o ərazilərdə qoymurmuş. "Onlarla çörək kəsmişik, cənazələrini ailələrinə çatdırmaq borcumuzdur." deyirmiş.

Ülvi heç zaman özəl günləri unutmurdu. 25 oktyabrda onun nişan





günün dörd ayı tamam olan gün imiş. Bir gün öncə sevdiyi xanıma zəng edib "Sabah səhər 10-da anamgildə ol, sənə sözüm var." deyib. Dostuna isə bir buket gül bağladıb həmin gülün üzərində "Əllərimizin qovuşacağı günə az qaldı." sözlərini yazdırıb anası gilə çatdırmağı xahiş edib. Hər gün saat 10-da evlərinə zəng edən Ülvidən bu dəfə zəng gəlməyib. Saat 11-də ailəyə gələn zənglə sevinc yerini təlaşla dəyişib. Ülvinin döyüş yoldaşı Ülvinin atasına zəng edib oğlunun yaralandığını onu xəstəxanaya götürdüklərini deyib. Sonradan məlum olub ki, telefonu sınan Ülvinin son kəlmələri atasının telefon nömrəsi olub. Ayağından ağır qəlpə yarası alan Ülvi yolda qan itirmədən şəhid olub. Ailə isə onu xəstəxanalarda axtarmağa başlayıb. Axtarışları heç bir nəticə verməyən ailənin ümidlərinə Ülvinin yaralı olduğu xəbərini verən əsgərin "Başınız sağ olsun, Ülvi yolda şəhadətə ucalıb. " sözləri nöqtə qoyub. Beyləqanda oğullarının nəşini son dəfə sevib, oxşayan ata və ana Ülvini son dəfə öz evlərinə gətiriblər. Ülvi həmişə deyirmiş ki, "Mən özümə elə bir toy edəcəm ki, hər kəs o toyun möhtəşəmliyindən danışsın." Ülvi dediyini etdi. Ancaq fərqli şəkildə.Son dəfə evinə elə bir izdihamla döndü ki, hər kəsi göz yaşlarına qərq etdi. Təəccübləndirməyi bacardı. Çox arzular gecənin zülməti tək qaranlığa qərq oldu. Xəyallardan gülən gözləri asıldı, ürəklərdə Ülvi adı həkk olundu. Bir ürəkdə isə Ülvinin adı tam başqa cür qaldı. Sevdiyi, könül verdiyi Nəcibənin ürəyi nakam eşqin, bitməyən həsrətin ünvanına çevrildi. Barmağındakı üzüyü sevdiyinin ilk və son nişanəsi oldu. Əmanəti isə Ülvinin ata, anası...

Ülvinin məzarı üstə, evinin önündə Azərbaycan, Türkiyə bayraqları ilə yanaşı Fenerbahçe futbol klubunun bayrağı da dalğalanır. Onu onsuz, yaşatmaq çox çətindi. Dostuna yazdığı son "Mənə bir şey olsa mən sənin əmanətinəm." sözləri isə əslində Ülvinin dönüşü olmayacaq yolda olduğunun xəbərçisi imiş.

Rəqsləri ilə ürəkləri riqqətə gətirən rəqqasın səssizcə gedişinə də alqış çalındı. Bu dəfə Ülvi "sükut rəqsi" ilə yaddaşlarda qaldı. Hər zaman səhnələrdə izdihamla qarşılanan rəqqas şəhid ən böyük izdihamı gözləri ilə deyil ruhu ilə gördü. Nur üzlü şəhidin cismi Hövsandakı Yeni bahar qəsəbəsində yerləşən Dədə Qorqud qəbirsanlığında torpağa tapşırıldı. İndi onun məzarı çox insanların ziyarətgahına çevrilib.

Əsgər Rəfiyev Ülvi Rəfail oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra "Vətən uğrunda», "Xocavəndin azad olunmasına görə " və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

### ŞƏHİD ÜLVİ

Həyatın nəğmə tək qəlbə toxundu,
Duyanlar bu nakam ömrə ağladı.
Al-əlvan məzarın önündən keçən,
Hər insan astaca ayaq saxladı.

Elə bil məzarda donan şəkilin,
Nakam arzulardan bir xəbər verir.
Səni tanıyan da, tanımayan da,
Özünün ən doğma insanı bilir.

Sən neçə arzunla birgə dəfn oldun,
Torpağın buz tutan qoynunda, şəhid?!
Qürurla zirvədə ucalan bayraq,
İndi məzarında dikilib, igid.

Bütün nəğmələrin ritmini tutdun,
Sonuncu nəğmənlə ağlatdın bizi.
Gülən gözlərini soyuq məzarda,
Görən hər insanın ağlayır gözü.

Ah,mənim qəhrəman unudulmazım,
Adının işığı düşür vətənə.
Nə qədər işıqlı günlər yaşasaq,
Bil ki, minnətdarıq Ülvi, biz sənə.







**MƏMMƏDZADƏ PƏRVİZ ZAHİD OĞLU ƏSGƏR**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

### HƏYATIN MÜVƏQQƏTİ QONAĞI

Dünyaya gələn hər bəndə bir amal üçün yaşayır. Bəziləri yaşayır, bəziləri yaşadır. Kimi qaranlıqda sürünür, kimi aydınlıqda irəliləyir. Şəhidlərin yolları isə daha aydın olur. Özləri aydınlıqda getdikləri kimi cahanı da aydınlığa qərq edirlər. 30 illik qaranlığı aydınlığa qərq etdikləri kimi. Kiçik çiyinlərində vətəni daşıyırlar. Kiçik ürəklərində isə vətən sevgisini. Bu boyda məsuliyyəti Allah seçdiyi bəndələrinə əmanət edir. Axı hər insan vətəni canından üstün bilmir. Əslində vətən şəhidlərin sevgisindən yenidən doğulur. Mənim üçün vətən hər şəhid məzarından başlayır. Çünki o məzardakı şəhidin bitən ömründən vətən yenidən doğulur. Sevgisi vətən olan, arzusu vətən olan, xəyalları vətən olan, cismi vətən olan şəhid vətən deyilmi? Şəhidlər Allahın mötəbər insanlarıdı. Allah şəhidliyə layiq bildiyi insanları yer üzündə çox saxlamır. Ömürləri qısa, xəyalları bənzər olan şəhidlərin məqamları da eyni olur. Hər kəs şəhid adının sehrinə dalır, şəhid sevgisinə heyran olur. Sevgisi ilə vətəni aydınladan, qanadlanıb vətənin dağında, daşında süzən Pərvizin də adından yansıyırdı o nur, işıq.

Vətən mücahidi olan Məmmədzadə Pərviz Zahid oğlu 2001-ci il 31 iyulda Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Qaraxanbəyli

kəndində anadan olmuşdu. 2007-ci ildə Vilayət Mahmudov adına 9 N-li tam orta məktəbdə təhsil almağa başlamışdı. Artıq bir məktəbli olan Pərvizin vətənə olan sevgisi ürəyində kök atırdı. Məktəbdə hər dəfə himnimiz səsləndə bir hərbçi kimi başını dik tutar, xəyallara dalardı. «Bir gün mən hərbçi kimi himnimizin sədaları altında xidmət edəcəm. Bir gün himnimizi Qarabağda səsləndirəcəm.» Bir-birini əvəz edən günlər, aylar, illər Pərvizi arzularına yaxınlaşdırdı. VIII sinfi bitirdikdən sonra 2015-ci ildə Heydər Əliyev adına Hərbi liseyə qəbul olan Pərviz beləcə ilk arzusuna çatdı. Ancaq hələ çatılacaq arzular qabaqda idi. 3 il liseydə hərbi təhsil aldıqdan sonra daha sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul oldu. Müəyyən səbəblərdən AAHM-dən uzaqlaşırılan Pərviz 2020-ci ildə hərbi xidmətə getdi.

Vətənin azadlıq uğrunda mübarizəsinə qoşulan oğullardan biri də Pərviz olmuşdu. Ürəyi cahandan böyük olan bu oğul sentyabrın 27-də müharibə başlayan andan mübarizəyə başlamışdı. Qəhrəmanın döyüş sahəsində düşmən ordusunun məğlubiyyətə uğramasında böyük rolu olmuşdu. Qeyd edim ki, Pərviz Vətən müharibəsindən cəmi bir neçə ay öncə iyun ayında düşmənin təxribatının qarşısını almış və düşmənin canlı qüvvəsini məhv etmişdi. O, bu qəhramanlığına görə təltif edilmişdi. Pərviz vətənin azadlıq uğrunda mübarizəsindən dönməməkdə qərarlı idi. Öpüb alnına qoyduğu bayrağı Şuşaya sancmaq arzusu idi. Lakin Şuşanın azad olunmasına cəmi iki gün qalmış noyabrın 6-da Məmmədzadə Pərviz Xocavənddə gedən ağır döyüşlər zamanı qəhrəman kimi şəhid olmuşdu. Zəfər gününün sevincini özü yaşaya bilməsə də zəfərin sevincini bizə yaşatdı. Torpaq, vətən uğrunda canından keçən şəhidin nəşi noyabrın 19 - da öz el - obasına gətirilmiş, həmin gün Qaraçux kənd qəbirsanlığında dəfn olunmuşdu.

Əsgər Məmmədzadə Pərviz Zahid oğlu Azərbaycanın azadlığı uğrunda can verdikdən sonra Ali Baş komandan İlham Əliyevin sərəncamı ilə «Vətən uğrunda» medalı və «Xocavəndin azad olunmasına görə» medalı ilə təltif edilib.





## ŞƏHİD PƏRVİZ

Nə yaşamaqdan doydun,
Nə vətən qorumaqdan.
Həyatda seçilmədin,
Müvəqqəti qonaqdan.

Ömrün bir fəsil kimi,
Yamanca tez ötüşdü.
Ruhun əbədiyyətdə,
Şəhidlərlə görüşdü.

Sən də Azərbaycanın,
Şəhidi oldun, Pərviz.
Qəlbinin məhəbbəti,
Oldu dalğalı dəniz.

O dənizin dalğası,
Dağa, daşa çırpıldı.
Ürək qıran düşmənin,
Öz ürəyi yarıldı.

Azadlıq məşəlinin,
Alovuna çevrildin.
Zəfər qəhrəmanı tək,
Şəhidim, sən sevildin.



SƏFƏROV CƏSARƏT
XALİQ OĞLU
ƏSGƏR
(II Qarabağ müharibəsində şəhid olmuşdur.)

## KÖRPƏ ŞƏHİDİM

«Vətən müharibəsi» dedikdə ürəklər yenə həmin günlərdə olduğu kimi döyünür. Haqq savaşımızın mübariz insanlarının hərəsinin bir qəhrəmanlığı xəyalımızda canlanır. Həyəcan və intizarla ötən o günlər kimiləri üçün 10 noyabrda bitsə də kimiləri üçün uzun müddət davam etdi və hələ də davam edir. İnanmıram o günlərin izi xatirələrdən silinə. Həmin günlərdə Səfərovlar ailəsinin həm intizarı həm də həyəcanı daha çox idi. Çünki ailənin iki üzvü, iki əmioğlu leytenant Səfərov Şahmar Nazim oğlu və əsgər Səfərov Cəsarət Xaliq oğlu həmin haqq savaşımızın mübariz əsgərləri idilər. Həmin ailənin nə qədər nigaran olduğunu hələ o zamanlarda eşitmişdim. İndi isə ailənin üzvüləri həmin o günlərdə yaşadıqlarını bir - bir mənimlə bölüşdülər. Həmsöhbətim şəhidimiz Səfərov Cəsarətin qardaşsız qalan bacısı Həqiqət xanım oldu. «Dərd insanı doğmalaşdırar» deyirlər. Əks halda bu qədər içdən bir-birimizə dərdimizi əmanət etməzdik. Bu dəfə də bir şəhid haqqında məqaləmi bir şəhid bacısının dilindən yazacam.

- Cəsarət mənim gözlərimin önündə böyümüşdü. Qardaşım məndən





yeddi il sonra dünyaya gəlmişdi. Anamın səhhətindəki problemlər ucbatından ailəmizin ikinci övlad sevinci o qədər yubanmışdı. Heç unutmuram 2001-ci ilin 27 iyununu. Mənə «Qardaşın oldu.» dediklərində sevincimdən qanad açıb uçacaq kimi oldum. Əslən Naxçıvandan olsaq da Bakı şəhərində dünyaya gəlmişdi qardaşım. Onun dil açanda mənə dediyi «Bacı» kəlməsi dünyada duyduğum ən gözəl söz idi. Heç zaman adımla çağırmazdı məni. 2007-ci ildə Bakı şəhərində 89 N - li məktəbə qədəm qoymuşdu. Məktəbdə oxuduğu zaman həm də idmanın karate növü ilə məşğul olmuş, bir neçə medallara layiq görülmüşdü. Daha sonra gözlərindəki problem səbəbindən idmandan uzaqlaşmaq məcburiyyətində qalmışdı. Məktəbi bitirdikdən sonra Lənkəran Dövlət Universitetinin «Kənd təsərrüfatı fakültəsinə» daxil olmuş, qiyabi təhsil almağa başlamışdı. Eyni zamanda da fərdi işlərlə məşğul olmuşdu. 2019-cu ilin iyulunda isə hərbi komissarlıq tərəfindən hərbi xidmətə çağrılmış və xidmətə getmişdi. Gəncədə N saylı hərbi hissədə xidmətə başlamışdı. Təsadüfdən əmim oğlu Şahmar da eyni vaxtda AAHM - dən məzun olub həmin hərbi hissəyə göndərilmişdi. Qohumlar eyni hərbi hissədə xidmət etdikləri üçün çox sevinirdilər. Ancaq bu sevinc çox çəkmədi.

Son dəfə 2020-ci il yanvarın 25-də məzuniyyətə gələn Cəsarət fevralın 4-də xidmətinə geri dönüb. Bir neçə ay sonra Şahmar təyinatla Daşkəsənə göndərilib. Cəsarət isə olduğu hərbi hissədə qalıb.

Müharibə başlanan zaman hər iki əmioğlu mərdcəsinə döyüşə atılır. Döyüşün ilk günü Şahmar şəhid olur. Bu xəbəri ilk duyan Cəsarət olur. Evimizə zəng etsə də bu barədə heçnə deyə bilmir. Artıq hər kəs bu xəbəri eşitdikdən sonra Cəsarət mənə zəng etdiyində dedi «Bacı Şahmarın şəhid olduğunu bilirəm.» O gündən sonra qardaşım toparlana bilmədi. Elə hey Şahmarı gətirməyə gedəcəm deyirdi. Getdi qardaşım. Şahmarın nəşi gələndə ondan heç bir xəbər ala bilmirdik.

Son dəfə noyabrın 4-də qardaşım atam və anama zəng edib. «Özünüzə yaxşı baxın.» deyib. Daha sonra əmim oğluna zəng edib atam və anamı ona əmanət edib. Yəqin mənimlə vidalaşmağa ürəyi gəlməyib. Həmin gecə can üstə olan əmim «Cəsarət» dedi çabaladı. Şahmarın şəhid olduğuna tab edə bilməyən əmimə Cəsarətin şəhid olduğu sanki ayan oldu. 7 noyabrda əmim rəhmətə getdi. O günlərin acısını min dəfə təkrar

- təkrar doğulub yaşasam da unutmaram. Yas-yasa qarışmışdı. Üç qardaşın evi də yas evi idi. Günlərlə Cəsarətdən xəbər ala bilmədikcə artıq onu axtardığım ünvanların vahiməli adları ürəyimi titrədirdi. Axtarışa verdiyim bir yerdən rəfiqəm mənə zəng edib «Cəsarət itkinlər siyahısındadı.» deyəndə eşitdiyim sözlər şüurumun dərk edə bilmədiyi qədər ağır gəldi. Yenədə ümidimi itirmədim. İstəmirdim ümidim ölsün. Ancaq o ümid 11 noyabrda öldü. Axtardığımız başqa bir yerdən tanımadığım bir şəxs mənə zəng edib ev ünvanımızı dəqiqliyi ilə deyib daha sonra «Cəsarət 14 nəfərlə birlikdə Laçın-Şuşa yolunda şəhid olub. Lakin neytralda olduqları üçün onları götürmək mümkün olmur.» dedi. O an sanki eşitdiklərim beynimdə əks səda salırdı. Özümü bilmədim hara çırpam. Tək dediyim mən tək qala bilmərəm. Mən Cəsarətsiz yaşaya bilmərəm sözləri idi. Hələ uşaq vaxtı qardaşıma çay verəndə yanmışdım. Ancaq belə yanmamışdım. Mən anamın, atamın bu dərdə necə tab gətirəcəklərini düşündüm. Anam Cəsarətə həddindən çox bağlı idi. Hər ikisinin xasiyyəti eyni idi. Mən o an anamı Cəsarətsiz təsəvvür edə bilmədim. 1 günü 100 ilə bərabər olan günlər ötdü. 26 noyabrda Qırmızı Xaç komitəsinin köməyi ilə şəhidlərin nəşi götürüldü. Ancaq Cəsarətin bizə təhvil verilməsi üçün bəzi proseslər icra olunmalı idi. Atam Füzulidə olanda anamın «Balam oradadı?» sualına aldığı «Bəli» cavabından sonrakı fəryadı hələ də qulağımda cingildəyir. Dekabrın 18-də atama gələn zənglə ertəsi gün Cəsarətin gətiriləcəyini öyrəndik. «Nuriyyə nə deyirsən, Cəsarəti harda dəfn edək?» həmin an sanki yer-yerindən oynadı. Mən o an anamın nələr yaşadığını sözlə izah edə bilmərəm. Səhər açıldı. Hər kəs Cəsarətin adını tutub bizə gəldi. Atam «Cəsarətin toyudu.» deyib həyəti bəzətdirdi. ( Bu sətirlər hər biri göz yaşlarımın şahidliyi ilə yazılır.) Dekabrın 19-da aylardı gözlərimizi yolda qoyan Cəsarət çiyinlər üstündə bayrağa bükülmüş tabutda gəldi. Mənim qardaşım bu tabutda beləcə səssiz gəlməz dedim. Mən qardaşımın xidmətini bitirib 2 ay sonra gələcəyini başqa cür xəyal edirdim. Atamla, anam illərlə gözlərini yolda qoyub, sonra onları sevincə qərq edib, cəmi 19 il ömür yaşayıb, əbədi gedən körpə şəhid balalarının tabutu önündə çarəsizcə boyun bükdülər. Cəsarət evimizdən əbədi getdi. Daha onun evi II Fəxri Xiyabandı.

Əsgər Səfərov Cəsarət Xaliq oğlu Ali Baş Komandan İlham Əliyevin əmrinə əsasən şəhadətindən sonra «Vətən uğrunda» medalı, «İgidliyə görə» medalı, «Cəbrayılın azad olunmasına görə» medalı, «Qubadlının azad olunmasına görə» medalı və «Laçının azad olunmasına görə» medalı ilə təltif edilib.





## ŞƏHİD CƏSARƏT

Bilmirəm mən necə vəsf edim sənin,
Nakam taleyini, körpə ömürlüm?
Gec gələn sevinci çox tez bitirdi,
Zamansız ayrılıq, zamansız ölüm.

Sən cəmi on doqquz bahar yaşayıb,
Ömrünün ən gözəl çağında soldun.
Sevginlə döyünən neçə ürəyə,
Bitməyən həsrətlə əbədi dolun.

Vətən sinəsinə taxdın ömrünü,
Bir payız günündə bir çiçək kimi.
Cəsarət, bu gediş yaman tez bükdü,
Ananın, atanın şux qamətini.

Tək bacın biçarə dolanır daha,
Hər sözü, söhbəti sənlə bağlıdı.
Canından bir parça torpaq olanın,
Şəhid dərdi ilə qəlbi dağlıdı.



**ƏLİYEV RAUF SƏXAVƏT OĞLU**
**ƏSGƏR**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## SONUNCU ÖMÜR NƏĞMƏSİ

Hər ömür bir nəğməyə bənzəyir. Bir başlanğıcı olur bir sonu. Şəhid ömrü isə elə bir nəğməni xatırladır ki, hər dinləyənin ruhuna toxunur. Bəzi arzuları nəqarət kimi dildən - dilə düşür. Şəhid ömrünü duyğulanmadan dinləmək mümkün deyil. Hər yaşanılmışı, hər yaşanılmamışı ürəyə bir başqa toxunur. Bir zaman gitarada ifa etdiyi musiqilərlə ürəkləri riqqətə gətirən Rauf bilməzdi ki, öz ömür nəğməsi ilə ürəkləri sızladacaq. Ürəkdən oxuduğu musiqilər onun yoxluğunda təkrar-təkrar dinlənəcək. Səsinə həsrət qalan ata - anası həsrətini o musiqilərlə gidərməyə çalışsalar da həsrətləri bir qədər də artacaq. Raufun «sonuncu ömür nəğməsi» unudulmayacaq nəğməsi olacaq.

Rauf 26 illik ömrünü o qədər dolu-dolu yaşayıb ki, ömrünün hər anı yaddaşlara həkk olunub. Hər anın xatirəsi ürəyə bir başqa toxunur. Doğulduğu 4 iyun 1994-cü ilin xatirəsi isə Raufun ömür nəğməsinin başlanğıcıdır. Rauf Naxçıvan Muxtar Respublikasının blokada şəraitində olduğu zamanlarda Culfa rayonunun Əbrəqunus kəndində anadan olmuşdu. İki qardaşdan kiçiyi idi. Sonra ailəsi ilə birlikdə paytaxt Bakı şəhərinə köçən





Rauf sonrakı ömrünü burada yaşamışdı. 2000-ci ildə Bakı şəhəri Nəsimi rayonu Mehdi Hüseynzadə adına 19 N-li tam orta məktəbdə I sinfə getmişdi. Rauf istedadı, bacarığı ilə hər zaman fərqlənməyi bacarmışdı. Müəllimlərinin sevimli və seçilən şagirdi dəfələrlə təşəkkürnamə və diplomlarla təltif edilmişdi. 2011 - ci ildə orta məktəbi yüksək qiymətlərlə başa vurduqdan sonra Azərbaycan Texniki Universitetinin informasiya texnologiyaları və sistemləri mühəndisliyi ixtisasına daxil olmuşdu. Universiteti də əla qiymətlərlə oxuduğu üçün əlaçılıq təqaüdü almışdı. Orta məktəbdə oxuduğu zamandan xarici dilləri öyrənməyə can atan Rauf universitetdə oxuduğu zaman xarici dili daha mükəmməl səviyyədə öyrənmək üçün müxtəlif kurslara getmişdi. İELTS kursunu yüksək balla başa vurduğu üçün sertifikata layiq görülmüşdü. Universiteti uğurla bitirdikdən sonra daha vacib bir addım atmışdı. Onun bu dəfəki və ən vacib imtahanı səngərdə olmuşdu. 2015-ci ildə vətənə oğul borcunu yerinə yetirmək üçün həqiqi hərbi xidmətə getmişdi. Xidmətə getdiyi zaman sosial şəbəkə hesabında yazdığı «Mən qürur hissi keçirirəm ki, vətənimi qoruyacam. Əgər bu torpaqda yaşayırıqsa bu torpağı qorumaq boynumuzun borcudur.» sözləri onun vətənə olan sədaqətinin xəbərçisi idi.

Rauf nəinki Vətən müharibəsində canından keçən şəhid kimi hətta Aprel döyüşlərinin bir qəhrəmanı kimi yaddaşlarda iz qoyub. Əsgərlik xidməti dövrünə təsadüf edən Aprel döyüşlərində mübarizə aparan qəhrəman şəhid dostlarının qisasını almaqda qərarlı idi. O zaman Lələtəpə yüksəkliyinin alınmasındakı xidmətlərinə görə Müdafiə Nazirliyinin fəxri fərmanı ilə təltif edilmişdi. Hərbi xidmətini başa vurduqdan sonra yeni iş həyatına başlayan Rauf əvvəlcə Ultra texnoloji şirkətində çalışmışdı. Eyni zamanda «Celt» dil kursunda ingilis dili müəllimi kimi çalışmışdı. Hazırladığı proyektlər yüksək qiymətləndirilmişdi. Sonra Azər - Türk banka qəbul olmuş, ASC-nin Rəqəmsal Transformasiya Mərkəzində çalışmışdı. Dünya miqyaslı kurslarda iştirak etmiş və beynəlxalq proqramist sertifikatı almışdı.

Əliyev Rauf Vətən müharibəsinin könüllü qəhrəmanlarından biridir. Sentyabrın 29-da döyüşlərə könüllü qatılıb. Atasına vida edərkən «Vətənə olan borcumu qaytarmağa gedirəm. Şəhid olsam vətən torpaqlarını azad edərək olacam.» deyib. Füzuli rayonunun azadlığı uğrunda mübarizə apa-

ran qəhrəman Hadrut uğrunda gedən döyüşlərdə də sona qədər mübarizə aparıb. Elə son mübarizəsi də Hadrutun Ərgünəş istiqamətində olub. Canını vətənə sipər edən oğulun cismi 21 oktyabrda minamyot qəlpəsinə tuş gəlib və qəhrəmancasına şəhid olub.

Rauf şəhid olmazdan az müddət öncə ata, anası ilə danışıb. Həmin anda yağan yağışın səsini eşidən valideyinlər narahat olublar. Onlar hardan bilərdilər ki, gözləri bir ömür boyu yağış tökən buludu xatırladacaq. Xavər ana telefonu söndürəndən sonra ürəyində artan narahatlığını dilə gətirib. Həmin an oğlunun son nəfəs verdiyi elə bil ki, anaya agah olub. Səhər danışdığı oğlunun axşam şəhid xəbərini alan Səxavət Əliyev çarəsizcə göz yaşı töküb. «Kişilər ağlamaz» sözünün aciz qaldığı bir anda sanki bütün cahan göz yaşına qərq olub. Oktyabrın 22-də Rauf da şəhidlər cərgəsində yerini alıb. II Fəxri Xiyabanda uyuyan qəhrəman vətən daşına çevrilib.

Əsgər Əliyev Rauf Səxavət oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, «Füzulinin azad olunmasına görə» medalı və «Xocavəndin azad olunmasına görə» medalı ilə təltif edilib.





## ŞƏHİD RAUF

Son ömür nəğməni duyan hər insan,
Ruhundan sağalmaz bir yara alır.
Bütün musiqilər unudulsa da,
Ömür nəğmələri yaddaşda qalır.

Sənlə cana gələn bütün nəğmələr,
Sənsiz sənsizliyin acısın çəkir.
Sevinclə nəğməni dinləyən kəslər,
İndi çarəsizcə göz yaşı tökür.

Qürurla oxudun vətən nəğməsin,
O nəğmə toxundu neçə ürəyə.
Qarabağ adında gözəl bir əsər,
Son nəfəslər ilə gəldi ərsəyə.

Daha Ərgünəşdən boylanan Günəş,
Əridir ürəyin həsrət buzunu.
Rauf, azadlığı sizlər bəxş edib,
Bizə yaşatdınız gözəl duyğunu.



**HÜSEYNOV KAMRAN BƏHMƏN OĞLU ƏSGƏR (II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## KAMRANSIZLIQ...

Acılar, həsrətlər, kədərlər fərqli olur. Ancaq şəhid adlı dərdin yaşatdığı bütün duyğular eyni cür olur. Bütün şəhid doğmalarının kədəri bənzərdi. Bu bənzərlikləri hər dəfə təkrar eşidirmişəm və yaşayırmışam kimi hiss edirəm. Qəribədir deyilmi? Həyatında heç zaman tanış olmadığın ömür kitabının ilk səhifəsində «Mən bu həyatı bilirəm.» deyirsən. Bəs bu həyatın hər anının qəmindən necə xəbərdar olmaq olar? Axı bu bir şəhid həyatıdır. Bu həyat daha bir nakam ömür, daha bir şəhidin yaşadığı həyat və daha bir Kamranlardan birinin həyatıdır.

Bu ad mənə çox doğmadır. Axı bütün şəhidləri öz doğmam bilirəm. Xalqımın mərd, yenilməz, qəhrəman oğlunun adını duyduqda fəxarət dolu bir duyğu keçir ürəyimdən. Bir də bu qəhrəmanla bir ömürü yaşamağın qürurunu və Kamransızlığın acısını yaşayan ömür - gün yoldaşı Sənubər xanımın «Kamran» deyişindəki nisgili duymaq var...

- Əgər bilsəm ki, bu yola çıxsam yenə xoşbəxtliyim yarımçıq qalacaq, mən yenə də bu yola Kamranla çıxardım. O, bu dünyanın ən saf qəlbli insanı idi. Mən ona hər zaman deyərdim ki, sən bu dünyanın adamı deyilsən. Həyatımın ilk və ən gözəl xatirəsidir Kamran. Biz bir qrupda





oxumuşuq. Mən hər zaman şükür edirəm ki, Kamran kimi bir qayğıkeş insanla həyat yollarımız kəsişib. Mən Kamrandan ayrı 2 gün qaldığım zaman sanki nəfəs ala bilmirdim. İndi isə aylardı nəfəssiz qalmışam. Bəlkə də yaşamaq səbəbim Kamranın bu dünyada olmamağı gerçəyini qəbul etməməyimdir. Mən onun qoxusunu duyuram. Yanımda olduğunu hiss edirəm. Oğlum Arslanın hər zaman yanında olacağını hiss edirəm. Axı Kamran heç Arslandan doymamışdı. Ümumiyyətlə yaşamaqdan doymamışdı. Ötən hər bir günümə şükür edirəm. Çünki ötən zaman məni Kamrana yaxınlaşdırır.

Kamransızlıq qəlblərin çəkə bilmədiyi bir dərddir. Ailəsinin yeganə oğul övladı idi Kamran. Əslən Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonundan olsa da 14 avqust 1996-cı ildə Bakı şəhərində anadan olmuşdur. Özündən başqa bir bacısı olan Kamran Sevda xanımın oğul adlı ümid çırağı, atası Bəhmən Hüseynovun tək dayağı idi. «Bir gün Kamran böyüyəcək, əlimizdən tutacaq.» deyən valideyinlər oğul dərdinə düçar olacaqlarını düşünmürdülər. 2002-ci ildə Bakı şəhərində Zəkalar liseyində təhsil almağa başlayan Kamran 2013-cü ildə təhsilini uğurla başa vurmuşdu. 2013-cü ildə Naxçıvan Muxtar Respublikasının Müəllimlər İnstitutunun Psixologiya ixtisasına yiyələnmiş, 2017-ci ildə bitirmişdi. Daha sonra vətənə xidməti borcunu yerinə yetirmişdi. Həqiqi hərbi xidmətini Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda yerləşən N saylı hərbi hissədə keçmişdi.

Kamran vətən torpaqlarının düşmən tapdağı altında olması ilə heç zaman barışmırdı. Hələ 2020-ci ildə düşmənin Tovuz rayonunda törətdiyi iğtişaşlar zamanı səfərbərliyə müraciət etmiş, könüllü olaraq döyüşdə iştirak etmək üçün adını yazdırmışdı. Vətən müharibəsi başlayan zaman da ilk döyüşə qatılanlardan biri olmuşdu. Bunu ailəsindən gizlədən Kamran bilirdi ki, onun müharibədə olduğunu anası, bacısı, yoldaşı bilsə nigaran qalacaqlar. Bunun üçün də yalan danışmaq məcburiyyətində qalmışdı. Döyüş bölgəsində ola-ola ailənin zərif nümayəndələrindən bunu gizlətmişdi. Onun müharibədə olduğunu təkcə atası bilmiş,ancaq ailəsindən gizlətmişdi.

Kamran sentyabrın 29-da xanımı ilə danışdığında Arslanı ona tapşırıb. Bir dəqiqəlik danışıq zamanı «Arslanımdan muğayət ol.» deyib və

vidalaşıb. Cəmi bir gün sonra Kamran Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndi istiqamətində düşmənin snayperdən açdığı atəşə tuş gəlib. Oktyabrın 1-də onun şəhid xəbəri Naxçıvana çatıb. Bakıda yaşamağına baxmayaraq həmin müddətdə Sənubər xanım Naxçıvanda ata evində olub. Sənubər xanımın ata ocağı yarının qara xəbərini aldığı bir məkana çevrilib. Körpəcə Arslanını bağrına basıb dizləri üstə çökən çarəsiz xanım həyatının ən pis gününü yaşayıb. O gündən sonra Sənubər xanım daha çətin xoşbəxt gün yaşaya bilər...

Oktyabrın 1-də şəhidin nəşi Bakı şəhərində II Fəxri Xiyabanda torpağa tapşırılıb. Uzaq məsafələr Sənubər xanıma ikinci bir zərbəni vurub. O, canından çox sevdiyi yarının dəfninə çata bilməyib.

Əsgər Hüseynov Kamran Bəhmən oğlu şəhadətindən sonra ölkə başçısı İlham Əliyevin sərəncamı ilə «Vətən uğrunda» medalı və «Füzulinin azad olmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD KAMRAN

Deyirlər «Acının bir rəngi olmur.»
Axı acılar da min çalardadı.
Kiminin həyatı uzanıb gedir,
Kamranın həyatı son bahardadı.

Elə donub qalıb payız çağında,
Daşlaşan məzardan baxır vətənə.
Görəsən bu torpaq lay-lay deyirmi,
Payızda sinəsi üstə bitənə?

Axı doymamışdı Kamran sevənlər,
Kamran balasından doymayan kimi.
Atanın, ananın dərdi dağ boyda,
Ata dərdi tutub körpə qəlbini.

Tərs düşdü taleyin atılan zəri,
Ömrü arzusuyla qoşa düşmədi.
Qəlblərdə böyüyən neçə arzular,
Boy atıb bir işıq üzü görmədi.





## İSMAYILZADƏ MƏHƏMMƏD FÜZULİ OĞLU ƏSGƏR

**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**



## TARİX YAZIB TARİXDƏ QALAN

Şəhidlər ömürlərinin ən gözəl çağında, arzuların qönçələdiyi bir zamanda ölümün üzərinə yeriyəcək qədər çox sevirlər vətəni. Əhdi, andı vətən olan bir gənci şəhadətə uzanıb çatan o yoldan döndərə biləcək heç bir qüvvə yoxdu. Başqa sevgilər vətən sevgisinin önündə dura bilməyəcək qədər acizanədir. Bir insanın ruhu vətənə sevdalandısa özü də vətən olacaq.

Özü vətən olan bir oğuldu İsmayılzadə Məhəmməd Füzuli oğlu. 1996-cı il 12 iyunda Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Yengicə kəndində dünyaya qədəm qoyub. Məhəmməd doğulanda heç kim bilməzdi ki, cəmi 23 ilin qonağı olacaq. Məhəmmədin 1 yaşı olan zaman ailəsi Bakı şəhərinə köçüb. Məhəmməd də elə bu həyata uyğunlaşıb. 2003-cü ildə Bakı şəhəri Suraxanı rayonunda yerləşən 317 saylı məktəbdə ilk təhsilini almağa başlayıb. 2014-cü ildə orta məktəbi qurtarıb və vətənə xidmətə yollanıb. Naxçıvanda həqiqi hərbi xidmət keçib. Xidməti zamanı Xüsusi Təyinatlı Qüvvələrin kəşfiyyat bölüyünə yazılıb və göstərdiyi şücaətlərlə komandirlərinin diqqətini cəlb edib. Hər dəfə keçirilən yarışları birinciliklə tamamlayan Məhəmməd fəxri fərman və diplomlarla təltif

edilib. İstehkamçı kimi xidmətini başa vurduqdan sonra atasının yanında heykəltaraşlığın sirrlərinə dərindən yiyələnib. 3 il ərzində bir heykəltəraş kimi öz əl işlərini yaradıb. Ancaq Məhəmmədin ürəyində böyük bir arzusu var idi. O, xaricdə təhsil almaq arzusunda idi. Bu arzusunun ardınca gedən gənc 2019-cu ildə Türkiyənin Kütahya şəhərində Dumlupınar Universitetinə qəbul olub. Lakin onun vətən sevgisi bütün arzuları kölgədə qoyub. II Qarabağ müharibəsi başlayan zaman adını könüllü yazdıraraq 29 sentyabrda müharibəyə yollanıb. Füzuli rayonu uğrunda mübarizədən başlayan döyüş yolu uzanıb. Əvvəl kəşfiyyatçı kimi, sonra həmlə taborunda mübarizə aparıb. Ön cəbhədə mübarizə aparsa da bunu ailəsindən gizlədib. Ailəsinə zəng etdiyi zaman onlar atəş səslərini eşidib narahat olmasınlar deyə səngərin dərinliyinə qısılıb danışıb. Yağış kimi yağan güllə, mərmi gözünü qorxutmayan qəhrəman hər zaman öndə gedib. Bir çox ərazilərin azad olunmasında əməyi olan Məhəmməd dəfələrlə yaralanmasına baxmayaraq mübarizəsini yarımçıq saxlamayıb. Oktyabrın 25-də səhər atası ilə danışdığı zaman başındakı kaskanın güllələrdən deşildiyini hətta güllələrdən birinin onun başını siyirib keçdiyini deyib. Hər dəfə şəhid olan yoldaşlarının intiqamın artıqlaması ilə alan vətən oğlu oktyabrın 25-də Füzuli istiqamətində gedən döyüşlərdə bir çox silahdaşı ilə birlikdə qəhrəmancasına şəhid olub.

26 oktyabrda Məhəmmədin valideynləri yeganə övladlarının şəhadət xəbəri ilə sarsılırlar. Bütün ümidlər o anda sanki uçurumdan itələnərcəsinə ürəklərdən, gözlərdən düşür. Bir anda insan izdihamın görən ailə bu acı gerçəyin hüznünə qərq olur. Aydın günləri zülmət olan ailə bayraqlı tabut önündə aciz qalır. «Məhəmmədimiz səssiz - səmirsiz sükuta qərq olub. Yox əslində bu sükut deyil, hayqırtıdı. Azadlıq hayqırtısı.» sözlərini ürəklərində təkrar - təkrar deyən ailə can parçalarını, dayaqlarını, sabaha olan ümidlərini 26 oktyabrda Dədə Qorqud məzarlığında torpağa tapşırıblar. Uzun saçlarını yolub oğul tabutuna tökən Miranə ananın oğul sinəsi üstə düşən telləri də oğlu ilə bir dəfn olunub.

Şəhid anasının ürəyimi yandıran sözləri :

- 12 iyun 1996-cı ildə Məhəmmədlə cənnətə, 26 oktyabr 2020-ci ildə isə cəhənnəmə daxil oldum. Balamdan ayrı yaşadığım bu dünya mənə hər an cəhənnəmi xatırladır. Bir-birimizə çox bağlı idik. Mən onunla nəfəs





alırdım. Oktyabrın 25-də sanki nəfəsim daraldı. O an olmadığım qədər narahat oldum. Elə bil mənə ayan oldu. Sən demə o an bir gülüşünə ömrümü qurban etdiyim oğlumun gülüşü çöhrəsində əbədi donub. Balamın tabutu gəldiyi gün həyatımın ən çətin günü olduğun düşündüm. Ancaq daha dəhşətli günlər qabaqda imiş. Balamın həyatda olmadığını bilə-bilə aldığım hər nəfəs məni öldürür. Məhəmmədsizliyin izahı yoxdu. Ona qovuşacağım günü gözləyirəm.

Şəhid atasının sözləri:

- Məhəmməd mənim bir vaxtlar tamamlaya bilmədiyim işi tamamladı. Yolumun davamçısı olsa da daha üstün bir məqama ucaldı. 1992-ci ildə müharibənin başladığını eşidib Həştərxandan vətənə gəlib könüllü olaraq Ağdərə uğrunda gedən döyüşlərə qatıldım. 1993-cü ilə qədər Qarabağın dağı-daşı evim-eşiyim oldu. Neçə-neçə dostum - yoldaşım o dağlara qurban oldu. O vaxt Qarabağ adlı bir yara qapanmadı. İllər ötdü o qanayan yaraya mənim oğlum və onun kimi qəhrəmanlar məlhəm oldular. Döyüş yoldaşlarımı qurban verdiyim vətənə oğlumu da qurban verdim. Bu dəfə isə qəhrəmanlar sayəsində qələbə qazana bildik. Oğlum son olaraq «Ya tarix yazacağıq, ya da tarix olacağıq.» dedi. İkisin də bacardı.

Həyatda tək qardaşı ümidi olan şəhid bacısı Təranə xanım isə qardaş yoxluğunun acısını belə izah etdi:

- Məhəmməd mənim həyatda söykəndiyim tək dayağım idi. O, gedən gündən həyat rəngini itirib. Mənim üçün həyatın tək bir rəngi var. Qara...

Əsgər İsmayılzadə Məhəmməd Füzuli oğlu Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin əmrinə əsasən şəhid olduqdan sonra «Cəsur döyüşçü» medalı, «Vətən uğrunda» medalı, «Füzulinin azad olunmasına görə» medalı və «Cəbrayılın azad olunmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD MƏHƏMMƏD

Yağış deyil torpağıma,
Güllə yağdı, mərmi yağdı.
Vətənə tuşlanan atəş,
Oğulların bağrın yardı.

O atəşə sipər etdi,
Məhəmməd öz şirin canın.
Əbədiyyən var olmaqla,
Yaşatdı Azərbaycanın.

Yer aldı döyüşlər vaxtı,
Könüllülər sırasında.
Məlhəm gəzdi Füzulidə,
Vətən adlı yarasına.

O vətənə qovuşan tək,
Torpaq qovuşdu cisminə.
Vətən dərdi bitən qəlblər,
Yurd oldu şəhid dərdinə.

Evinin tək oğul payı,
Bir tabuta sığıb gəldi.
Ana, ata, bacısının,
Ürəklərin bu dərd dəldi.







## NİFTALIZADƏ NİYAMİN XALİQ OĞLU ƏSGƏR

**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## «VƏTƏN NAMUS, BAYRAQ ŞƏRƏFDİ»

«Vətəni namus, bayrağı şərəf, şəhadəti mükafat bilən biri ölümlə qorxudula bilməz!» Bu sözlərin hər birinin dərinliyinə vardıqca bu sözlərin mənası daha aydın izah olunur. Vətəni namus bilən qəhrəman vətənin düşmən tapdağında qalmağını heç cür qəbul etmirdi. Bir gün qəfəsə salınan Qarabağı xilas edəcəyinin xəyalını hər gün qururdu. Bayrağı şərəf bilən vətən oğlu 30 il öncə düşmənin çirkli əlləri ilə Qarabağdan sökülən bayraqdan qanı ilə o ləkəni çıxardı. Şəhadəti mükafat bilən oğul Allah tərəfindən o mükafata layiq görüldü. Niftalızadə Niyamin şəhadəti ilə milyonların ürəyini fəth etdi.

Niftalızadə Niyamin Xaliq oğlu 15 yanvar 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Nursu kəndində anadan olub. Görkəmli şairimiz Məmməd Arazın doğulduğu kənddə dünyaya göz açan Niyamin şair olub şeir yazmasa da şəhid olub şeirlərin məzmununa çevrilib. 5 yaşı olarkən Bakı şəhərinə köçən Niyamin özündən böyük bacısı ilə Bakı şəhərində təhsil almağa başlayıb. 2003-cü ildə Bakı şəhər Xətai rayonunda yerləşən 191 saylı tam orta məktəbdə I sinfə qədəm qoyan Niyamin XI sinfi bitirdikdən sonra kompyuter üzrə peşə təhsili alıb. Tarix və

ədəbiyyat fənnlərinə xüsusi marağı olan Niyamin orta məktəbdə oxuduğu zaman gün gələcək tarix yazıb, dastanlara dönəcəyindən xəbərsiz idi.

Niyaminin qəlbinin dərinliyindəki vətən sevgisi coşub-çağlayırdı. Həqiqi hərbi xidmətə getmək zamanı çatanda sevinci gözlərindən oxunurdu. 2015-ci ildə xidmətini Naxçıvan Muxtar Respublikasında yerləşən N saylı hərbi hissədə düşmənlə üz-üzə mövqelərdə keçmişdi. Hələ o zaman düşmənə nifrətini boğa bilməyən Niyaminin gözlərində intiqam alovu çaxırdı. Tək arzusu vətənə layiq vətəndaş olmaq idi. Niyamin xidməti dövründə nümunəvi əsgər olduğu üçün komandirləri tərəfindən dəfələrlə mükafatlandırılmışdı. Hər dəfə ön cəbhədə durmağa can atmışdı. 2017-ci ildə xidmətini başa vurduqdan sonra 2-ci peşə kimi aşpazlıq sənətinə yiyələnmişdi. Bu sənətdə bir çox uğurlar qazansa da hərbiyə gedib MAH-HXHQ kimi vətənə xidmət etmək arzusunda idi. Ailəsinin israrı ilə o öz peşəsində qalsa da «Mən bir gün hərbçi olacam.» demişdi.

Niyamin vətənin və xalqın ürəyinə növbəti dəfə xəncər saplanan Tovuz döyüşləri zamanı hərbi xidməti dövründə komandiri olan İlqar Mirzəyevin şəhid olduğunu eşitdiyi zaman könüllü kimi adını yazdırıb. «Bu qisas qiyamətə qalmamalıdı.» deyən qəhrəman qısa müddət sonra sentyabrda könüllü olaraq təlimlərə qatılıb, sentyabrın 27-də isə müharibə başlanan zaman öndə mübarizə aparıb. Füzuli, Cəbrayıl, Xocavənd uğrunda sona qədər döyüşüb. Döyüşlər zamanı yaralı yoldaşına ilkin müdaxilə edərək onun həyatda qalmağına vasitəçi olub. Döyüş yoldaşının dediyinə görə güllələrin yağış kimi yağmasına baxmayaraq Niyamin ona tərəf gəlib, yaralarını bağlayıb, gəldiyi kimi də geri dönüb.Niyamin misilsiz qəhrəmanlıq göstərib. Düşmənin 2 tankını partladaraq 20-dən artıq döyüş yoldaşının həyatını xilas edib. Düşmənin anidən onlara tərəf irəliləyən 2 tankını görən Niyamin bütün döyüş yoldaşlarını geri çəkərək bir qədər yüksək olan yerdən düşmənin ilk tankını hədəf alaraq partladıb. Düşmənin 2-ci tankı geri dönmək istəyərkən Niyamin onu da partladıb. Daha sonra düşmən gülləsinə tuş gəlib. Oktyabrın 7-də şəhadətə ucalan qəhrəmanın şəhid xəbərini alan ailəsi oktyabrın 9-da Niyaminin qürurlu gəlişini qarşılayıb. Niyamin evinə bir qəhrəman kimi dönüb. Həmin gün xalq yolunda həyata vida edən qəhrəmanın nəşi Dədə Qorqud məzarlığında torpağa tapşırılıb. Hər zaman «Öndə vuruşub ya qəhrəman, ya qazi, ya





. da şəhid olacam.» deyən Niyamin şəhid olub.

Niyaminin sevdiyi iki rəng var idi. Bu iki rəngin birləşməsindən yaranan məna isə onun həyatında dərin iz qoymuşdu. Fenerbahçe komandasının rəmzinə çevrilən iki rəngə Niyamin olan hər yerdə rast gəlmək olardı. İndi də məzarı üzərində asılan bayraq və məzarı üzərinə düzülən çiçəklərdə rast gəlmək olur. Niyaminin Fenerbahçe klubuna olan sevgisinin sədası o şəhadətə ucaldıqdan sonra klubun rəhbər və oyunçularına çatıb. Öz rəsmi səhifələrində Niyamin haqqında yazan klub Niyamin sevərlərə başsağlığı ünvanlayıb.

Əsgər Niftalızadə Niyamin Xaliq oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı, «Füzulinin azad olunmasına görə» medalı və «Cəbrayılın azad olunmasına görə» medalı ilə təltif edilib.

## ŞƏHİD NİYAMİN

Vətəndən pay verməyib,
Ömründən keçən oğul,
Doğulan körpələrin,
Cildində təkrar doğul.

Qan axıtdın torpağa,
Ölməz igid, Niyamin.
Daşı, torpağı oldun,
Sən də bu vətənimin.

Necə oğul yaşatdın,
Verdiyin canın ilə.
Göstərdiyin hünərin,
Düşüb dillərdən-dilə.

Naxçıvandan başladı,
Sənin ömür yolların.
Cəbrayıla sarıldı,
Şəhid kimi qolların.

Bir nişanən qalmayıb,
Bu vətəndən savayı.
İndi ata, ananın,
Vətəndir oğul payı.

Ay kəpənək ömürlü,
Uçdun göylərə sarı.
Quş kimi köç etmədin,
Ümid ölməyə barı...





**FEYZİZADƏ TOĞRUL**
**İLQAR OĞLU**
**ƏSGƏR**
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**



## ÖMÜR KİTABININ 18 SƏHİFƏSİ

Dünyaya göz açan hər bəndə bir ataya, bir anaya övlad olur. Ancaq hər doğulan bəndə vətənə övlad olmağı bacarmır. Hər ürək bu müqəddəs sevginin aliliyi ilə nurlanmır. Vətən sevgisinin nuruna qərq olan ürəklərin vətən sevgisi vətənin özünü nura qərq edir. Vətənin azadlığı üçün can verməkdə tərəddüd etməyən gənclər çoxdu. O gənclərin kimisinin ömür səhifələrinin 18 səhifəsi yazılıb kimisinin isə bir qədər çox. Ancaq hər biri eyni amal uğrunda gənc yaşlarında dünyadan köçüblər. Vətən üçün can verən şəhidlərin sırasında yer alan qəhrəmanlardan birinin isə cəmi 18 yaşı var. 18 illik ömürdən duyulan vətən sevgisi ürəkləri riqqətə gətirir. Vətən sevgisi onun ürəyini riqqətə gətirdiyi kimi.

Anasının, atasının ilk övlad adlı kəlməni yaraşdırdığı qisməti idi Feyzizadə Toğrul İlqar oğlu. Əslən Naxçıvanın Culfa rayonundan olan ailə Bakıda yaşadığı üçün Toğrul 15 aprel 2002-ci ildə Bakının Bayıl qəsəbəsində dünyaya göz açmışdı. İlk təbəssümü, ilk yerişi, ilk «ata, ana» deyişi ailəsinə sevinc bəxş edən oğul əzizlərinin ilk könül dağı oldu. Toğrul zəhmətin, çətinliyin hər üzünü görə-görə böyümüşdü. Alın təri ilə qazanılan bir tikə çörəyi alın açıqlığı ilə yeməyin necə böyük səltənət oldu-

ğunu uşaqlıqdan dərk etmişdi. Məktəbli yaşı çatan zaman ailə vəziyyəti ilə əlaqədar Culfa rayonundakı 2 N - li tam orta məktəbdə təhsil almağa başlamışdı. Bir il orada təhsil aldıqdan sonra Binədəki Laçın rayon Pənah Məmmədov adına 46 N - li məktəbdə təhsilini davam etdirmişdi. Məktəbi bitirdikdən sonra 9 N-li peşə məktəbinə getmişdi. 2020-ci ildə həqiqi hərbi xidmətə yollanmış, Ağcəbədi rayonunda yerləşən N saylı hərbi hissədə 3 ay xidmət etdikdən sonra Füzuli rayonu istiqamətində təlim keçmişdi. Toğrul snayperçi kimi fəaliyyət göstərmişdi. Hərbi xidmətdə olduğu zaman heç vaxt ailəsinə bir çətinliyi barəsində deməz, əksinə onları yaxşı olduğuna inandırmağa çalışarmış. Ailəsi ilə avqustun 29-da görüşdüyü zaman əsil kişilik məktəbində olduğunu deyib. Mərd, cəsur ürək sahibi olan Toğrul Vətən müharibəsi başladığı zaman da cəsurluq nümayiş etdirən qəhrəmanlardan olub. Müharibənin ilk günü mübarizəyə atılaraq cəsarəti ilə hər kəsi heyran qoyub. Füzulinin qanlı döyüşlərindən keçən gənc o döyüşlərdə yaralanıb. Bir həftə hospitalda müalicə aldıqdan sonra yenidən döyüş meydanına atılıb. Yaralı olduğu üçün döyüşlərdə iştirak etməməsi tapşırılsa da o Qızılqaya uğrunda döyüşə yollanan dəstədəki bir əsgəri saxlayıb özü döyüşə gedib. Döyüşlərdə öndə olduğunu ailəsindən gizlədən Toğrul yaralı olduğunu da gizlədib. Noyabrın 1-də ailəsi ilə danışarkən növbədə olduğunu deyib. Ancaq həmin vaxt onun zülmət gecəsini od - alov saçan mərmilər aydınladıb. Noyabrın 5-də düşmən tərəfindən atılan minamyot Toğrulun yanına düşüb. Həmin vaxt gizir Təbriz Qasımovla, Toğrul Feyzizadə şəhid olub.

Noyabrın 6-da iki gün Toğrulundan xəbər ala bilməyən Günel ananın ürəyindəki narahatlığın səbəbi bəlli olub. Əvvəlcə Toğrulun yaralandığını xəbər alan ailə sonra əsil gerçəyi eşidib. «Toğrul şəhid olub.» bu cümlənin ağırlığı altında ürəklər əzilib,parçalanıb. Körpəlikdən atasına qol-qanad olan, anasına ümid olan, bacı - qardaşına dayaq olan Toğrul noyabrın 6 - da min bir zəhmətlə böyüdüyü evinə gətirilib. Həmin gecə çarpayısı bayraqlı tabut olan oğluna laylalar deyən Günel ananın da ruhu ölüb. Son gecənin ertəsi Toğrulla son vida edən xalq onu izdihamla Binə qəsəbəsindəki Şəhidlər Xiyabanında torpağa tapşırıb.

Əsgər Feyzizadə Toğrul İlqar oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı və «Füzulinin azad olunmasına görə» medalı ilə təltif edilib.

Bir ömür ən gözəl çağında vətən sinəsində boyun bükdü. Toğrul vətənə can verən nə ilk nə də son qəhrəmandı.





## ŞƏHİD TOĞRUL

Özü vətən olanım,
Bu ömür kitabının ,
Boş qalan səhifəsində,
Göz yaşı izin salır
Ürək sənsiz daralır.

Özü vətən olanım,
On səkkiz illik ömrün,
Ötən hər saniyəsi,
Anbaan xatırlanır
Sənli günlər canlanır.

Özü vətən olanım,
Xalq sənə «şəhid» deyir,
Şəhidlər ölmür axı,
Cənnətdə yerin alır
Yeni həyat canlanır.

Özü vətən olanım,
Qanın ilə vətənə,
Yazdığın igidliyin,
İzi vətəndə qalır
Toğrul, adın yaşayır.



## QULİYEV İLKİN RƏFAİL OĞLU
## ƏSGƏR
**(II Qarabağ müharibəsində şəhid olmuşdur.)**

## İLKİNİN QƏHRƏMANLIQLARI

Həyatda ilklər heç zaman unudulmur. İlk yaşanılan sevinc duyğusu xatirələrdə silinməyən dərin iz qoyur. Hələ bir də o sevinc ilk övlad sevincidirsə o an yaşanılan ən gözəl an kimi yaddaşlara həkk olunur. Ailəsinin ilki olduğu üçün adına İlkin deyilən bir qəhrəmanın yaşadığı 18 il ömürün sonsuza qədər unudulmayan xatirələri var. Bir zamanlar ailəsinə ilk övlad sevincin gətirən qəhrəman illər sonra xalqına ilk zəfər sevincini yaşatdı. Sanki adı həyatına yansımışdı.

Quliyev İlkin Rəfail oğlu bir yaz günü dünyaya gəlmişdi. 15 aprel 2002-ci il tarixi Rəfail Quliyev və Reyhanə xanımın ən sevincli günü kimi yaddaşlarında iz qoymuşdu. Əslən Ordubad rayonundan olan Quliyevlər ailəsi Moskva şəhərində yaşamış və İlkin də orada dünyaya göz açmışdı. 2007-ci ildə isə ailə vətənə dönmüş, Bakı şəhər Sabunçu rayon Bakıxanov qəsəbəsində yaşamağa başlamışdı.

İlkin 2008-ci ildə Bakı şəhər Sabunçu rayon 310 N - li tam orta məktəbdə təhsil almağa başlayıb. İstedadı, biliyi ilə seçilməyi bacaran İlkin məktəb tədbirlərinin fəal iştirakçısı olub. Müəllimlərinin hədsiz rəğbətini





qazanan bu oğuldan müəllimlərinin kədərlə dilə gətirdikləri keçmiş xatirələrinə qürur hissi əksin salır. 2019-cu il məktəbi bitirən məzunlar sırasında İlkin də yer alıb. Məktəbi bitirdikdən sonra Qərb Universitetinin kollecinə daxil olub. Kollecdə 2 il təhsil almalı olsa da 1 il təhsil aldıqdan sonra hərbi xidmətə çağırış vəsiqəsi alıb. 2020-ci il mayın 4 - də həqiqi hərbi xidmətə yollanıb və Qusar rayonunda yerləşən N saylı hərbi hissədə xidmət edib.

İlkinin hərbi xidmətdə olduğu zaman ailəsi ilə ilk və son görüşü sentyabrın 19 - da olub. Valideynləri onu hərbi formada gördükləri zaman balaca İlkinlərinin nə qədər böyüdüyünün və artıq vətən keşiyini çəkdiyinin fərqinə varıblar. Onlar İlkinin gözlərinin dərinliyində gizlənən təlatümü oxusalar da səbəbini bilməyiblər. Çünki İlkin sevdikləri narahat olmasın deyə heç bir çətinliyin dilə gətirməzdi. Qısa müddət ərzində İlkinlə zaman keçirən valideynlər o görüşün son görüş olduğundan xəbərsiz idilər. Ancaq Reyhanə ananın ürəyini bir narahatlıq zəbt etmişdi. Gördüyü yuxular da onu nələrinsə olacağından agah edirdi. İlkin uşaq olduğu zamanlardan ananın ürəyinə onu əsgərlik zamanı itirəcəyi qorxusu dolmuşdu. Ana hisslərində yanılmadı.

İlkinin də hər bir gənc kimi arzuları var idi. O arzuların içində Qarabağı azad etmək və o torpaqlarda iş qurmaq, yeni həyata başlamaq da var idi. Hər zaman bu arzuları dilə gətirər, xəyallar qurardı. O, Qarabağı azad etmək arzusuna çatdı, ancaq o torpaqlarda yeni həyata başlamaq arzusuna çatmadı.

II Qarabağ döyüşləri başlayan zaman çox qəhrəman oğullar kimi İlkin də silaha sarılıb. İlk və ən ağır döyüşlərin getdiyi Füzuli uğrunda gedən döyüşlərdə iştirak edib. Döyüşdə olduğunu ailəsindən gizlədib. İlkin bilirdi ki, ata-anası, tək bacısı Aysu onun müharibədə olduğunu bilsələr hər anları həyəcanla keçəcək. O, heç kimə narahatlıq yaşatmaq istəmirdi. Ancaq İlkin nə qədər gizlətməyə çalışsa da onun döyüşdə olduğunu anası yuxuda görüb. Reyhanə ananın gördüyü yuxunu öz sözləri ilə qeyd edirəm.

- 27 sentyabrda yuxuda gördüm ki, ucsuz-bucaqsız bir səhralıqda İlkinim dayanıb. Balamın bir qolu yox idi. Mənə dedi «Ana, mən oktyabrda sənə surpriz edib birdəfəlik gələcəm.» Daha sonra oktyabrın 8-də yuxu-

da gördüm ki, İlkin deyir «Ana, məni bağışla. Mən sizə deyə bilmədim. Bizim yerimizi dəyişib Beyləqana gətiriblər. Burada hər yer minalanıb. Barmaqlarımızın ucunda gəzirik.» Sən demə balam elə həmin gün şəhidlik zirvəsinə ucaldığını mənə ayan edirmiş. Həmin o gündən bir it 2 gün dayanmadan həyətdə ulamağa başladı. Həyatımda ilk dəfə idi o səsi eşidirdim. Sən demə Allahın heyvanı da nalə çəkirmiş.

İlkin oktyabrın 8-də döyüşlər gedən zaman yaralanıb. Həmin vaxt əlindəki əlcəyini çıxarıb döyüş yoldaşına verib və onu ailəsinə çatdırmağı xahiş edib. İlkini yaralı halda döyüş bölgəsindən çıxarıb Bakıdakı hospitala çatdırmaq mümkün olsa da onun həyatını xilas etmək mümkün olmayıb. Alnına şəhidlik yazılan qəhrəman oktyabrın 8-də həyata gözlərini əbədi yumub.

Oktyabrın 10-da İlkinin şəhid olduğu xəbərini eşidən hər kəs Quliyevlərin yaşadığı binanın həyətinə toplaşırlar. Həmin vaxt İlkinin otağını təmizləyən Reyhanə ana insan izdihamın görür və İlkinə nə isə olduğunu hiss edir. Eşitdiyi bir kəlmə ilə həyatının ilk ən böyük acısını yaşayır. İlk övlad sevincini yaşadığı İlkinin şəhid xəbəri onun ürəyinə dağ çəkir.

Oktyabrın 10 - da İlkin özü dediyi kimi «İlkinin qəhrəmanlıqları» adlı bir qəhrəmanlıq salnaməsinin son səhifəsi Sabunçu rayon Bakıxanov qəsəbəsində yerləşən Şəhidlər Xiyabanında tamamlanıb.

Əsgər Quliyev İlkin Rəfail oğlu Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə şəhadətindən sonra «Vətən uğrunda» medalı və «Füzulinin azad olunmasına görə» medalı ilə təltif edilib.





## ŞƏHİD İLKİN

Bir dünya böyüklükdə,
Çərçivədən baxırsan.
Doğmaların, yadların,
Ürəyinə axırsan.

Baxışın sanki dinib,
Zəfərdən söhbət açır.
Azadlıq Günəşi tək,
Yurduma işıq saçır

On səkkiz illik ömür,
Min il kimi oxunur.
Adın gəlcək göz yaşı,
Yanaqlara toxunur.

Vətən sıxıb köksünə,
Şəhid İlkin balasın.
Böyük ürək sahibin,
Bütün xalqı tanısın.

Bilin, ömür karvanı,
Dayanıb Qarabağda.
Görürəm surətini,
Dalğalanan bayraqda.

## MƏĞRUR TORPAQ NAXÇIVAN

Qəhrəman oğulların,
Oylağısan, Naxçıvan.
Sənin neçə övladın,
Bu vətənə verdi can.

Səmanda şəhid ruhu,
Bayrağa nəfəs verir.
Sən yetirən övlada,
Hər kəs «min əhsən» deyir.

Sənə şan ilə döndü,
Oğullar karvan- karvan.
Şəhidlər uyuyan yer,
Məğrur torpaq, Naxçıvan.

Hər qarışın müqəddəs,
Hər qarışın pir, ocaq.
Vətənə can verənə,
Sən də açmısan qucaq.

Şəhid ömürlərinə,
Şahid olan, Naxçıvan.
Sinən üstə məzarlar,
Düzülüb mərcan-mərcan.





## ŞƏHİDLƏRİN ŞAHİDLƏRİ

Eşqlərin yoluna çıraq saldığı vətən. Ömürlərin yolunda fəda olduğu vətən. Əzaların əmanət edildiyi vətən. İzahı olmayan bir məhfumdu vətən. Hansı söz bir insanın cisminin bir parçasının torpağa dönməsini izah edə bilər? Ürəyi vətənlə döyünən kiminin qolu, kiminin ayağı, kiminin isə gözü vətən torpağına qarışıb. Cahanın canlı şəhidləri olan cismi yarımçıq qalanları Qazi adlandırırıq. «Qazi» hər dəfə bu sözü dediyimiz zaman xəyalımızdan cənnətdən dönüb gələn bir insan keçir. Şəhidlərin yol yoldaşı, şəhidlərin şahidləri olan o haqqı ödənməzlər əbədiyyətin bir addımlığından bəşəriyyətə dönən müqəddəslərdi. Qazilər sanki bu dünyada missiyalarını tamamlamaq üçün Allah tərəfindən həyata döndürülürlər. Onlar qanları ilə yazdıqları Zəfər tarixinin oxunduğunu gördükcə qürurlanırlar. Axı o tarix mürəkkəblə kağıza deyil qanlarla torpağa yazılıb. Qanla tarix yazan vətən oğullarının bəziləri Naxçıvana vətənə can qurban edib bayraqlı tabutda döndülər, bəziləri isə əzalarını qurban edib çiyinlərində bayraqla döndülər. Neçə-neçə oğul şəhid verən bu müqəddəs torpaq neçə-neçə qazi oğulun qayıdışına şahid oldu. Böyük qayıdışda müharibəyə gedən oğulların cismləri getdikləri kimi dönməsələr də ürəkləri ən böyük arzuya çatmaq sevincini yaşadı. Hər biri bir canlı tarix olan, şəhadətin bir addımlığından dönən qəhrəman qazilər Naxçıvandan Qarabağa ümid apardılar, Qarabağdan Naxçıvana Zəfər müjdəsi ilə döndülər.

## MƏĞRUR QAZİ

Vətən nədir?
Bir qazinin bu vətənə
Qurban olan gözləridir.
Zülmətlərə işıq saçan,
Vətən, bayraq sözləridir.

Göz itirib vətən ilə bütövləşən,
İşıqlı olan dünyanı,
Zülmət dünyaya dəyişən,
Vətən oğlu, məğrur Qazi.

Vətən nədir?
Bir qazinin kəsik olan,
Ümidləri, qollarıdır.
Addımına həsrət qalan,
O uzanan yollarıdır.

Vücudunun kəm payıdır,
Bütövləşir vətən ilə.
Ürəyinin harayıdır,
Vətən sözü, məğrur Qazi.

Vətən nədir?
Bir qazinin şəhadətdən
Son anında dönüşüdür.
Müqəddəs şəhidlər ilə,
Cənnətdəki görüşüdür.

Qazilərin yaşam eşqi,
Şəhidlərin son nəfəsi...
«Vətən üçün öləm kaş ki,»
Sözün deyir məğrur Qazi.





## SON

Qarabağın azadlığı uğrunda Azərbaycan minlərlə oğul qurban edib. Minlərlə oğulun yüzlərləsi isə Naxçıvan Muxtar Respublikasının payına düşüb. Bu kitabda NMR-nın müxtəlif illərdə Qarabağ uğrunda canından keçən 155 şəhidinin həyat və döyüş yolundan bəhs olunub. Naxçıvan Muxtar Respublikasının qəhrəmanlarının sayı 1 kitaba sığmayacaq qədər çoxdu. Ona görə də kitabın növbəti cildlərinin ərsəyə gəlməsi nəzərdə tutulur. Qəhrəman torpağın yetirdiyi hər bir qəhrəmanı tanımaq və tanıtmaq vacibdir.

Bu kitabın ərsəyə gəlməyinin təməlində güvən var, inam var. Şahin Məmmədov Naxçıvan şəhidləri haqqında bir kitab yazmağı mənə həvalə edə biləcəklərini təklif etdiyində həm qürü duydum, həm də bu təklifin məsuliyyətinin nə qədər böyük olduğunu düşündüm. Bu məsuliyyətli, çətin və şərəfli yolda ən böyük dəstəkçilərim şəhid ailələri oldu. Kitabın ərsəyə gəlməsində şəhid mayor Rasim Məmmədovun qardaşı Şahin Məmmədov və şəhid kapitan Toğrul Məmmədovun qardaşı Üzeyir Məmmədov əlindən gələn köməyi əsirgəmədilər. Eyni zamanda özü vətənin hüdudlarından kənarda olsa da, ürəyi vətənlə bir döyünən, əslən Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Cəhri kəndindən olan iş adamı Məmmədov Bəhruz Qasım oğlu kitabın maliyyə xərclərini öz öhtəliyinə götürdü. Birlik olmağı bacaran vətən övladlarının birliyi sayəsində «Vətən fədailəri» Naxçıvan şəhidləri kitabı ərsəyə gəldi.

## MÜNDƏRİCAT

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ TARİXİNƏ BAXIŞ.3
ZƏFƏRİN 44 ANI........8
MUSAYEV SƏDİ SÜLEYMAN OĞLU........12
MƏMMƏDOV ƏBDÜL CƏLAL OĞLU........17
MƏMMƏDOV RASİM ƏBDÜL OĞLU........21
ORUCOV ELŞƏN YAVƏR OĞLU........26
ƏLİYEV MALİK TƏVƏKKÜL OĞLU........30
İSMAYILOV FUAD MURAD OĞLU........33
BABAYEV RAHİB BƏXTİYAR OĞLU........36
VƏLİYEV VÜSAL İSLAM OĞLU........40
ƏLİYEV ASİMAN VAQİF OĞLU........44
RZAYEVA İLKİN CƏFƏR OĞLU........49
HƏSƏNOV SADİQ ƏLİ OĞLU........53
MƏMMƏDOV TOĞRUL SƏYYAD OĞLU........57
CABBAROV SEYMUR İLHAM OĞLU........60
MUSİBOV VEYSƏL YADULLA OĞLU........64
CƏMİYEV AŞUR BƏYBALA OĞLU........67
MEYDANOV ELMƏDDİN BAHADDİN OĞLU........71
QULİYEV ŞAHMAR KƏMALƏDDİN OĞLU........75
HÜSEYNOV ÜLVÜ MÖHSÜN OĞLU........79
NƏCƏFOV VÜQAR AYDIN OĞLU........82
ZEYNALOV AZAD RAFİQ OĞLU........86
BABAYEV ŞAMİL BALOĞLAN OĞLU........90
MİRZƏYEV YUSİF VƏLİ OĞLU........94
CƏFƏROV CƏFƏR İBRAHİM OĞLU........97
QULİYEV ORXAN VAQİF OĞLU........100
HAŞIMLI TURAL ƏBDÜL OĞLU........103





SADIQLI MƏMMƏDHƏSƏN MEYDAN OĞLU........106
ƏLƏKBƏROV RÖYAL FƏRMAİL OĞLU........110
HÜSEYNOV RAQİB ADİL OĞLU........113
ƏLİZADƏ FUAD NAZİM OĞLU........117
ƏSGƏRLİ TURAL ƏLƏMDAR OĞLU........121
MƏMMƏDOV SAHİL RASİM OĞLU........124
ABBASLI ARİF FİRUZ OĞLU........128
MƏMMƏDLİ SÜBHAN SƏBUHİ OĞLU........132
BABAYEV ŞAMİL NAZİM OĞLU........136
ZEYNALOV ELNUR ELSEVƏR OĞLU........140
BƏDƏLOV SEYMUR HÜSEYN OĞLU........144
QASIMOV HƏMİD ORUC OĞLU........148
XƏLİLLİ NAMİQ HƏSƏN OĞLU........152
RZAYEV ZÜLFÜ ZEYNİ OĞLU........155
QUREŞLİ FİRUZ ƏLİ OĞLU........159
ALLAHVERDİYEV BABƏK BƏXTİYAR OĞLU........163
GÜLMƏMMƏDOV AMİN MAYİS OĞLU........166
MURADLI İLKİN İLYAS OĞLU........169
İSMAYILOV ABBASƏLİ İMAMQULU OĞLU........173
TELMANLI ALLAHYAR ELMAN OĞLU........177
VƏLİYEV İSMAYIL MEHMAN OĞLU........181
İBRAHİMLİ ADİL ASƏM OĞLU........185
MƏMMƏDOV ŞƏHRİYAR BAYRAMQULU OĞLU........189
ORUCƏLİYEV QABİL ƏBDÜLƏLİ OĞLU........192
QƏMBƏRLİ ELTON BABA OĞLU........196
ƏLİYEV FƏRMİN FƏRMAN OĞLU........200
QULİYEV VƏLİ VƏLİ (KAMAL) OĞLU........204
NURUYEV CAVİD ƏŞİRƏF OĞLU........208
MƏMMƏDOV AYXAN RƏFAİL OĞLU........211
NƏCƏFOV YAQUB MƏHƏMMƏD OĞLU........214

DÜNYAMALIYEV CEYHUN ZEYNAL OĞLU......................218
MƏMMƏDLİ NİCAT RİZVAN OĞLU......................222
QƏHRƏMANOV ELMƏDDİN NİYAMƏDDİN OĞLU......................225
QƏDİMOV GÜLOĞLAN NURƏDDİN OĞLU......................228
ƏSGƏROV ELÇİN YALÇIN OĞLU......................231
XƏLİLBƏYLİ TURQUT NADİR OĞLU......................235
VƏLİZADƏ İBRAHİM MALİK OĞLU......................238
BABAYEV ƏLİ HƏSƏN OĞLU......................242
ZAMANLI MƏMMƏD RƏHMAN OĞLU......................245
SADİQOV EMİN RƏŞADƏT OĞLU......................249
QURBANOV RAUF VAHİD OĞLU......................254
MÖHSÜMOV ELMAR RÖVŞƏN OĞLU......................257
ƏLİYEV İBRAHİM MUSTAFA OĞLU......................261
ƏBİLOV KAMAL VİDADİ OĞLU......................265
NADİRLİ ƏRTOĞRUL HÜMBƏT OĞLU......................269
MƏMMƏDOV ELŞƏN ƏZİZ OĞLU......................274
SƏFƏROV ŞAHMAR NAZİM OĞLU......................277
ƏLİYEV ƏNVƏR NİZAMİ OĞLU......................280
QASIMOV HAFİS CAVANŞİR OĞLU......................283
HƏMZƏYEV MƏRHƏMƏT RİZVAN OĞLU......................286
MƏMMƏDOV ÜMİD FƏRMAN OĞLU......................289
QULİYEV HƏSƏN İBRAHİM OĞLU......................292
ABDULLAYEV İNTİQAM ALLAHVERDİ OĞLU......................295
HACIYEV ŞÜKÜR BAYRAM OĞLU......................298
HÜSEYNOV MƏTİN RAMİZ OĞLU......................301
YUSİFOV ƏLİ SÜLƏDDİN OĞLU......................304
ƏLİYEV RAMİL QURBAN OĞLU......................307
MƏMMƏDOV ELVİN ETİBAR OĞLU......................311
MƏMMƏDOV ŞƏHRİYAR MÜZƏFFƏR OĞLU......................314
ƏJDƏROV RƏHMAN RASİM OĞLU......................317





SEYİDOV NİHAT MEHMAN OĞLU......................320
İSMAYILOV AQİL ƏLİ OĞLU......................323
BUDAQOV RUFİZ ŞİRZAD OĞLU......................326
ƏLƏKBƏROV NİYAMƏDDİN İSRAFİL OĞLU......................329
ƏLƏKBƏROV QULAM NOVRUZ OĞLU......................332
ƏLƏKBƏROV BAĞIR ƏSƏD OĞLU......................335
TAHİROV VÜSAL MEHDİ OĞLU......................339
NOVRUZLU ÜMİD BAHADUR OĞLU......................343
İSMAYILOV ƏMRAH XUDAVERDİ OĞLU......................346
RZALI DAŞQIN ELŞAD OĞLU......................349
MƏMMƏDOV SƏNAN HİDAYƏT OĞLU......................352
İBRAHİMOV İBRAHİM ETİBAR OĞLU......................355
MƏMMƏDOV SAHİB YAŞAR OĞLU......................359
QURBANOV XANSU ELSEVƏR OĞLU......................362
GÖZƏLOV RÜFƏT ƏZİM OĞLU......................366
ƏHMƏDOV MƏRHƏMƏT ADİL OĞLU......................369
İBRAHİMOV RUZİ ƏLİAĞA OĞLU......................373
EYVAZOV İSLAM HƏSƏN OĞLU......................378
MƏMMƏDOV ƏLİ ABBAS OĞLU......................381
RÜSTƏMOV BASİD İDRİS OĞLU......................384
XƏLİLLİ MURAD VƏLİ OĞLU......................387
CƏFƏROV ÜLVİ HABİL OĞLU......................390
ƏLİYEV LƏTİF ORUC OĞLU......................394
MƏMMƏDOV ZAMAN HABİL OĞLU......................397
YÜZBAŞIYEV İSMAYIL FƏZAYİL OĞLU......................401
SALAHOV SƏRXAN HƏSƏNQULU OĞLU......................405
HƏSƏNOV ELMƏDDİN ELŞƏN OĞLU......................408
BAĞIROV RAMİN NƏRİMAN OĞLU......................412
ABDULLAZADƏ TAĞI İLHAM OĞLU......................415
QULİYEV KƏNAN VAQİF OĞLU......................418

ALMƏMMƏDOV İMAN TARVERDİ OĞLU....................422
MƏMMƏDOV KƏMALƏDDİN İSRAİL OĞLU....................426
NOVRUZLU PƏRVİZ QORXMAZ OĞLU....................429
RZAYEV KƏNAN ƏBDÜRRƏHMAN OĞLU....................432
İBRAHİMOV QURBAN NAMİQ OĞLU....................435
ƏSGƏROV TƏBRİZ ÇAPAY OĞLU....................439
MƏDƏTLİ ZÜLAL RƏHİM OĞLU....................442
GÖYDAĞLI RAMAZAN ƏBÜLFƏT OĞLU....................445
TAĞIYEV AZƏR KAMİL OĞLU....................448
TEYMUROV ELVİN MUSTAFA OĞLU....................451
İSGƏNDƏROV NİYAMƏDDİN QULU OĞLU....................454
MİRZƏYEV ASLAN MƏQSUD OĞLU....................457
ƏSGƏROV VÜQAR RZA OĞLU....................460
RAMAZANOV RASİM İSMAYIL OĞLU....................463
İBRAHİMOV AYAZ SULTAN OĞLU....................466
HÜMBƏTOV İMAMƏDDİN MUXTAR OĞLU....................469
SƏFƏROV QƏŞƏM TAMƏDDİN OĞLU....................472
CƏLİLOV SAHİL OKTAY OĞLU....................475
CƏLİLOV HƏSƏN MƏHƏRRƏM OĞLU....................478
İBRAHİMOV SEYMUR ZAMİN OĞLU....................481
MƏMMƏDƏLİYEV SADAY RZA OĞLU....................484
BABAYEV BABAXAN ƏLÖVSƏT OĞLU....................486
MƏMMƏDOV ARAZ QƏHRƏMAN OĞLU....................489
ORUCOV COŞQUN ORUC OĞLU....................492
SEYİDOV MİRYASİN MİRQAFAR OĞLU....................495
QULİYEV QULAM ƏLİ OĞLU....................498
SADİQOV QOŞQAR HİDAYƏT OĞLU....................500
ABBASOV HEYDƏR BAYRAM OĞLU....................503
MƏHƏRRƏMOV QƏDİR BAYRAM OĞLU....................506
BAYRAMOV NİYAMƏDDİN BAYRAM OĞLU....................509





HƏNİFƏYEV SEYRAN EYNALI OĞLU....................511
RƏFİYEV ÜLVİ RƏFAİL OĞLU....................513
MƏMMƏDZADƏ PƏRVİZ ZAHİD OĞLU....................517
SƏFƏROV CƏSARƏT XALİQ OĞLU....................520
ƏLİYEV RAUF SƏXAVƏT OĞLU....................524
HÜSEYNOV KAMRAN BƏHMƏN OĞLU....................528
İSMAYILZADƏ MƏHƏMMƏD FÜZULİ OĞLU....................531
NİFTALIZADƏ NİYAMİN XALİQ OĞLU....................535
FEYZİZADƏ TOĞRUL İLQAR OĞLU....................539
QULİYEV İLKİN RƏFAİL OĞLU....................542
MƏĞRUR TORPAQ NAXÇIVAN....................546
ŞƏHİDLƏRİN ŞAHİDLƏRİ....................547
MƏĞRUR QAZİ....................548
SON....................549

Yığılmağa verilmişdir: 01.07.2021
Çapa imzalanmışdır: 13.07.2021
Şərti çap vərəqi 35
Format 60X84 1/16
Tirajı 700





Kitab "Orxan" Nəşriyyat və Poliqrafiya
müəssisəsinin mətbəəsində hazır diapozitivlərdən
istifadə olunmaqla ofset üsulu ilə çap edilmişdir.
e-mail: orxan.npm@gmail.com

"Orxan" Nəşriyyat və Poliqrafiya
müəssisəsi:
Direktor: Cəfər Əzizoğlu





Ünvan: Bakı şəhəri
Dərnəgül qəsəbəsi, 3105-ci məhəllə
Tel:(+99412) 562 83 03
Tel:(+99412) 561 58 33

*Manya Səxavətqızı 1988-ci ildə İmişli şəhərində anadan olub. "Yazılmayan sətirlər darıxır", "On üç yarpaq", "Fədailər" kitablarının müəllifi, "Vətən mücahidləri" layihəsinin həmrəhbəridir.*

*Şeirləri müntəzəm olaraq dövrü mətbuatda dərc edilir. Yaradıcılığında əsasən vətənpərvərliyin təbliğatına, şəhidlərimizin tanıdılmasına geniş yer verir.*

*Ailəlidir, 2 övladı var.*



